QƏZƏNFƏR PAŞAYEV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

YEDDİ CİLDDƏ

II CİLD

BAKI–2012



Elm əvvəli görünən, sonu görünməyən bir aləmdir. Bu aləmdə hərə bir yolla gedir. Hərə bir nəticəyə gəlir. Yenilik görülmüş işlərin sayəsində yaranır.

QƏZƏNFƏR PAŞAYEV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

YEDDİ CİLDDƏ

II CİLD

«TƏHSİL»
BAKI–2012

Redaktorlar: **Ağamusa Axundov**,
akademik

Tofiq Hacıyev,
professor, AMEA-nın müxbir üzvü

Mustafa Arqunşah,
professor, Dr.

Rəyçilər: **Qəzənfər Kazımov**,
professor

Məhərrəm Məmmədli,
professor

Paşayev Qəzənfər
P26 **Seçilmiş əsərləri.** II cild. Bakı, «Təhsil»,
2012, 536 səh.

Filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin «Seçilmiş əsərləri»nin II cildinə «Dilimiz–varlığımız» (Bakı, 2011), «Kərkük dialektinin fonetikası» (Bakı, 2003) monoqrafiyaları, mətnlər, İraq–türkman ləhcəsi üçün səciyyəvi olan sözlərin lüğəti və ədəbi əlaqələrimizdən bəhs edən «Könüldən-könülə yollar görünür» başlıqlı məqalələr toplusu daxil edilmişdir.

P **4702060204** **2012**

© «Təhsil», 2012

QƏZƏNFƏR PAŞAYEV

DİLİMİZ – VARLIĞIMIZ

BAKI – «OZAN» – 2011

Elmi redaktoru
və ön sözün müəllifi: **Tofiq Hacıyev**,
AMEA-nın müxbir üzvü, professor

Rəyçi: **Məhərrəm Məmmədli**,
filologiya elmləri doktoru, professor

Paşayev Qəzənfər
«Dilimiz – varlığımız». Bakı, «Ozan», 2011, 208 səh.

Folklorçu, ədəbiyyatşünas, tərcüməçi və publisist kimi tanınan professor Qəzənfər Paşayev, eyni zamanda dəyərli dilçi alimdir.

Tədqiqatçının bu əsərində yer alan «Kitabi-Dədə Qorqud», «İraq–türkman ləhcəsi və ədəbi dilimiz», «Azərbaycan dilinin qərib dialektləri», «İraq–türkman tarixinə və dialektinə bir baxış», «Qürur duyduğum tarixi şəxsiyyətlər» bölməsini və ayrı-ayrı məqalələri həyəcansız oxumaq olmur. Şirin və axıcı dillə yazılan, intellekt məhsulu olan «Türkologiya elmimizin iftixarı», «Çoxşaxəli yaradıcılıq yolu», «Gələcək nəsillərə yadigar» kimi səmimi yazıların da oxucular tərəfindən maraqla qarşılanacağına ümidvarıq.

Q $\frac{\textbf{4702060204 – 76}}{\textbf{On – 047 – 11}}$ **2011**

© «Ozan» nəşriyyatı, 2011

Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır.

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN KƏRKÜKŞÜNASLIĞININ BANİSİ

Professor Qəzənfər Paşayev kərkükşünaslığa məhz «Kərkük dialektinin fonetikası» elmi əsəri ilə başlamışdı. Gələcəkdə Azərbaycanda quracağı böyük kərkükşünaslıq binasının təməlini bununla qoymuşdu. Bu, Sinan Səid və Nərminə Məmmədovanın Kərkük şərqilərində bizi məst edən dili və melodiyanı yaradanların dili idi, İraq türkmanlarının fonetikası idi. Həmin elmi tədqiqatla ilk tanışlıqda gənc Q.Paşayevdən razı qaldıq ki, İraqa ezamiyyətdən çox səmərəli istifadə edib, oradakı qardaşlarımızın dilinə aid yaxşı material toplayıb, dilçiliyimizə yeni mövzu gətirib. Onda belə hesab edirdik ki, Q.Paşayev bu materialından özünə bir elmi dərəcə almaqla, uzaqbaşı ikinci bir adla qurtaracaqdır. Ancaq heç demə, bu cavan oğlanın tədqiqatı Kərkük–türkman elinin geniş miqyasda öyrənilməsinə başlamaqmış. Və bu öyrənmə bu oğuz–türkman elinin ruhuna, böyük folkloruna daxil olmaqla öz zilinə çatacaqmış. Heç demə, bu öyrənmə Azərbaycanda yeni bir–şünaslığın, nəhəng kərkükşünaslıq elm sahəsinin yaranması ilə nəticələnəcəkmiş. Həqiqətən, bu gün azərbaycanşünaslıqda kərkükşünaslıq adlı müstəqil bir elm sahəsi var. Bu elm sahəsi Kərkük–türkman elinin, dilinin,

folklorunun, tarixinin bir sintez şəklində təqdimidir. Onun qurucusu prof. Q.Paşayevdir. Uzun zaman o, bu sahədə təkcə qələm çalırdı. İndi aşkar oldu ki, onun uzun illər boyu, gərgin əməklə topladığı zəngin material üzərində Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun böyük, təcrübəli bir şöbəsinin–Dialektologiya şöbəsinin kollektivi də çalışırmış. Q.Paşayevin özünün də iştirakı ilə həmin kollektiv (fil. elm. namizədləri S.Behbudov, K.İmamquliyeva, K.Quliyeva) rəyçisi olduğum «İraq–türkman ləhcəsi» (Bakı, «Elm», 2004, 422 səh.) adlı kitabı elmi ictimaiyyətimizə təqdim etdi. Bu dəyərli, yüksək elmi səviyyəli kitab mənim yadıma bir hadisəni gətirdi: vaxtilə böyük ədəbiyyat zəhmətkeşi Salman Mümtazın topladığı zəngin materialın əsasında bizim ədəbiyyat tariximiz yaradıldı. S.Mümtazın çap və qeyri-çap materialları bu gün də tədqiq olunur və həmin materiallar bugünkü Əlyazmalar İnstitutumuzun əlyazma bazasını təşkil edir. Mən hesab edirəm ki, Q.Paşayevin azərbaycanşünaslığa verdiyi zəngin, bol dil, ədəbiyyat nümunələrinin tədqiqinə başqa elmi kollektivlərimiz də qoşulmalıdır. Bu işə, ilk olaraq, Folklor Elm Mərkəzi başlamış və Q.Paşayevin Bəndəroğlu ilə birlikdə hazırladığı «Azərbaycan folkloru antologiyası», İraq–türkman cildi (Bakı, 1999) kitabını buraxmışdır (Yəqin ki, gələcəkdə etnoqrafiya, tarix, musiqi və başqa sənət sahələrinin mütəxəssisləri də bu sahədə tədqiqatlar aparacaqlar).

Folklor İnstitutu həmin kitaba olan tələbatı nəzərə alaraq 2009-cu ildə onu latın qrafikası ilə yenidən nəşr etdi. Professor Q.Paşayev Kərkük folkloru və ədəbiyyatı ilə də ciddi məşğul olmuş, hələ 1968-ci ildə xalq şairi Rəsul Rza ilə «Kərkük bayatıları» kitabını, sonralar «Arzu–Qəmbər» dastanı (1971), «Kərkük mahnıları» (1973), «İraq–Kərkük atalar sözləri» (1978), «İraq–Kərkük bayatıları» (1984), «Kərkük tapmacaları» (1984), «Kərkük folkloru antologiyası» (1987, təkrar nəşr–1990), «Nəsiminin İraq divanı» (1987), «Kərkük dialektinin fonetikası» (Bakı, 2003) kimi gərəkli kitabları çap etdirmişdir.

Professor Paşayevin elmi fəaliyyətinin zirvəsi onun «İraq–türkman folkloru» adlı monumental əsəridir. Bu monoqrafiya Bakıda (1992), Bağdadda (1995), akademik Bəkir Nəbiyev və professor Mahir Naqibin redaktəsi ilə İstanbulda (1998), Bakıda (2003), Tehranda (2008) böyük tirajla nəşr edilmiş, tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Müəllifin ABŞ-da Füzuli və İraq türkmanlarına həsr etdiyi iki sanballı məqaləsi dərc edilmişdir. Professor Q.Paşayevin Türkiyə və İraqda onlarla məqaləsi çıxıb. Q.Paşayev orijinaldan (ingilis dilindən) edilmiş bir neçə maraqlı kitabın da tərcüməçisidir. Uzun illər ali məktəbdə xarici dillər kafedrasının müdiri işləmiş Paşayev tələbələr üçün lazımlı, ingiliscə «Bu İngiltərədir» (Bakı, 1981, 125 səh.) dərs vəsaitinin, eləcə də İraq Respublikasında işləyərkən (1962–1966;

1972–1975) sovet mütəxəssisləri üçün yazdığı və təkrar-təkrar çap olunan «Rusca-ərəbcə danışıq kitabı»nın (Bağdad, 1974, 96 səh.) müəllifidir.

Respublikamızda prof. Paşayevi ədəbiyyatşünas alim kimi də yüksək qiymətləndirirlər. Alimin «Borcumuzdur bu ehtiram» (2010), «Nəsimi haqqında araşdırmalar» (2010) və akademik Bəkir Nəbiyevə həsr etdiyi «Ədəbiyyatşünaslıq elmimizin patriarxı» (2010) əsərləri deyilənlərə dayaq olur. «Borcumuzdur bu ehtiram» xalq qarşısında xidmətləri olan, dünyasını dəyişmiş şəxsiyyətlərə həsr olunub. Onların arasında görkəmli alim İhsan Doğramacı, məşhur müğənni Əbdülvahid Küzəçioğlu, Sinan Səid və Əbdüllətif Bəndəroğlu da vardır. Haqlarında qədirşünaslıqla danışan müəllif, onları öndərimiz Heydər Əliyev, xalq şairləri Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Nigar Rəfibəyli, yazıçı-alim Əzizə Cəfərzadə, akad. Məmmədağa Şirəliyev, prof. Abbas Zamanov və bir çox başqalarından ayırmır. Bu məqamda birliyimizi xüsusi vurğulamış olur.

Prof. Q.Paşayev filologiya üzrə fəlsəfə doktoru Gülzar İbrahimqızı ilə birgə hazırladığı «İsi Məlikzadə–70», «Əlibala Hacızadə–70», «Fikrət Qoca–70», «Akademik Bəkir Nəbiyev–75», «Hüseyn Arif–80» portret-kitabları, Dr.Ə.Bəndəroğlu ilə birgə çapına nail olduğu Rəsul Rzanın «Ağlayan çox gülən hanı?» (Kərkük, 2007), Elçinin «Mahmud və Məryəm» (Kərkük, 2007), «Çağdaş İraq şeirindən seçmələr» (Bakı, 2001), Ə.Bəndər-

oğlunun «Göylər unutmuşdu yağacağını» (Bakı, 1991) və s. kitabları ədəbiyyatımıza xidmətdən, ədəbi əlaqələrimizdən söz açır.

Professor Q.Paşayevin «Altı il Dəclə–Fərat sahillərində» və böyük həcmli «Nostradamusun möcüzəli aləmi» (Bakı, 2007, 760 səh.) əsərləri oxucuların stolüstü kitabına çevrilmişdir. Yeri gəlmişkən, Qəzənfər müəllimin «Altı il Dəclə–Fərat sahillərində» əsəri Bağdadda ərəbcə də (1996) işıq üzü görmüşdür.

Qəzənfər Paşayevin Azərbaycan aşıq sənəti və aşıq yaradıcılığına həsr etdiyi məqalələri və tərtib etdiyi kitabları ictimaiyyətin rəğbətini qazanmışdır. Xüsusən də «Qoca Azaflıyam» (Bakı, 2007, 760 səh.) kitabı nəinki təkcə ölkəmizdə, eləcə də Türkiyə və İranda geniş şöhrət qazanmışdır.

Professor Q.Paşayevin monoqrafiyaları və tərtib etdiyi kitabların sayı 40-dan artıqdır. Düşünmək olardı ki, o, folklorşünas, ədəbiyyatşünas, tərcüməçi, publisist kimi xalq arasında yaxşı tanındığına, bu sahədə nüfuz sahibi olduğuna görə bir daha dilçilik aləminə qayıtmaz. Lakin belə deyilmiş. «Dilimiz–varlığımız» kitabını oxuduqca gözlərimiz önündə qədirşünas dilçi alim canlanır. Onun kitabda yer alan «Kitabi-Dədə Qorqud», «İraq–türkman ləhcəsi və ədəbi dilimiz», «Azərbaycan dilinin qərib dialektləri», «Tariximizə və dilimizə bir nəzər», elmi rəhbəri olmuş akademik M.Şirəliyevə həsr etdiyi «Türkologiya elmimizin patriarxı» kimi məqalələrini həyəcansız oxumaq

olmur. Tədqiqatçının Mirzə Kazımbəy, Mirzə Fətəli Axundov və ABŞ-da Azərbaycan dilinə dair tədqiqatlardan bəhs edən məqalələrini oxuyanda qürur hissi keçirirsən. Bununla belə, biz bu məqaləmizdə prof. Q.Paşayevin bir dilçi alim kimi, çox böyük tarixi əhəmiyyət kəsb edən kərkükşünaslıq fəaliyyətindən söz açmaq fikrindəyik. Hər şeydən əvvəl, qeyd edək ki, kərkükşünaslıq fəaliyyətində prof. Q.Paşayev özü topladığı materialları və apardığı tədqiqatları ilə məsələnin qoyuluşuna problem məzmunu daxil edir, mübahisə tonu verir və şüurlu şəkildə kərkükşünaslıq ab-havası yaradır. Bunun üçün Q.Paşayev Türkiyə, Avropa, İraq, Kərkük, Rusiya və Azərbaycan alimlərinin mötəbər tədqiqlərinə söykənərək, araşdırmasını sırf dialektoloji və ya folklor çərçivəsindən çıxararaq, mövcud mübahisələrdən çəkinməyib, özü mübahisəyə can atır. Bu, tədqiqat predmetinə bələdliklə bağlıdır. Nəticədə müəllifin yaratdığı elmi masştab–miqyas kərkükşünaslığın bir sıra qaranlıq guşələrinə işıq salmaqla yanaşı, azərbaycanşünaslıq üçün də faydalı nəticələrə gətirib, xüsusilə Azərbaycan tarixinin orta və ilk orta əsrlər və daha qədim dövrləri ilə bağlı bəzi tarixçilərimizin hazırladığı dumanı dağıtmağa yardım göstərir. Bu yardım, birinci, Q.Paşayevin təqdim etdiyi dil materialının özündən başlanır: Kərkük–türkman nitq mühiti çox hallarda türkcələrdən təcrid olunub ada vəziyyətinə düşdüyü üçün burada, məsələn, Azərbaycan və Türkiyə oğuzcaları üçün arxaikləş-

miş daha əski oğuzca elementlər qorunub saxlanmışdır. Deyək ki, elə əhalinin türkman adlandırılmasının özü bu baxımdan maraqlı bir detaldır. Əvvələn, necə: turkmən, yoxsa türkman? Əhali özünə türkman deyir, yaşadığı ərəb mühiti də elə işlədir. Prof. Q.Paşayev də türkman tərəfdarıdır və fikrini əsaslandırır. Türk deyəndə özbəklər də, başqırdlar da… kərküklülər də türk gedir. Ancaq bir halda ki, özbək, başqırd… ilə yanaşı müstəqil türkmən xalqı da qəbul olunub, onda türkman fərqləndirilməlidir. XI əsrdə M.Kaşqarlı öz «Divan»ında Makedoniyalı İsgəndərlə bağlı «türkmanənd» ifadəsinin işlənmiş olmasını deyir və bu məhz türkman sözünün mənşəyi ilə bağlanır.

XVII əsrin məşhur türk tarixçisi Əbülqazi Bahadır xanın «Şəcəreyi-tərakimə» (Türklərin şəcərəsi) əsərini 1897-ci ildə A.Q.Tumanski, 1958-ci ildə A.N.Kononov ruscaya «Rodoslovnıy turkmen» tərcümə edirlər. Türkman sözü türk məfhumunun cəmini bildirdiyi üçün görkəmli türkoloqlar tərcümədə «turok», yaxud «tyurkov» yox, məhz «türkmen» işlədirlər. Bu halda həmin qrammatik semantika məhz turkman sözündə saxlanır. Çünki qədim türkcədə – an cəm şəkilçisi olmuşdur. Bu türkman formasını, görünür, kərküklülər öz əcdadlarından o şəkildə alıb işlədə-işlədə gətirmişlər. Burada bir tarixi semantika da var: aydın olur ki, ilk təşəkkül zamanında həmin ərazidə oğuzlarla yanaşı, başqa türk etnosları da yaşamışlar. Sadəcə bu etnoslardan son təşkiledicisi oğuz olmuşdur.

Eyni mənzərə azərbaycanlıların da tarixinin müəyyənləşməsində baş vermişdir. Azərbaycan xalqının təşəkküləndə müxtəlif türk etnosları iştirak etmişdir, ancaq aparıcılıq oğuz etnosuna məxsusdur. Bəs necə olur ki, biz azərbaycanlı adlandığımız halda, tarixən azərbaycanlı olmuş bu insanlar özlərinə türkman deyirlər? Əvvələn, biz də 1936-cı ilə qədər türk adlanmışıq. İkinci, prof. Q.Paşayevin göstərdiyinə görə, onlar bizə də türkman deyirlər. 1936-cı ilə kimi biz də özümüzə də, onlara da türk demişik. Deməli, dilləri ada vəziyyətində olduğu üçün onlar türk sözünün arxaik cəm formasını saxlamışlar.

Füzuli faktoru da göstərir ki, İraqla Azərbaycan türkləri arasında xüsusi əlaqə–yaxınlıq olmuşdur. Şübhəsiz, bu əlaqə e.ə. mahanlar-mannalılarmaklar (Midiyanın aparıcı etnosu) məskəni ilə ikiçayarası (şumerli-şumersiz) bütöv bir coğrafiya təşkil etmişdir. Azərbaycan–Kərkük türkcələrinin birliyi buradan başlayır. Təbii ki, zaman-zaman bütün türk bölgələrində olduğu kimi, Azərbaycanla Kərkük arasında da bir-birinə axın, gediş-gəliş davam etmişdir. Bu əlaqə islamdan sonra xüsusi şəkil almışdır. Müxtəlif əsrlərdə azərbaycanlılar ailə-ailə Kərbəla ziyarətinə getmiş, hətta orada qalanlar da olmuşdur. Təbii ki, qalanlar özləri ilə bir dildə danışanlara səmtləşmişlər. Prof. Q.Paşayev göstərir ki, orada Qarabağlı məhəlləsi, Şirvan qalası və s. mövcuddur. Deməli, bunlar həmin Kərbəla ziyarətinə gedənlərdən qalanlardır.

Tarixi faktlar göstərir ki, islamın qəbulundan başlayaraq, bütün orta əsrlər boyu İraq, Bağdad bütün islam türklərinin, o cümlədən Azərbaycan türklərinin elmi, mədəni həyatında böyük rol oynamışdır: «Bağdaddan başqa Buxara, Kaşqar, Qahirə, Şam kimi daha bir sıra yerlər vardısa da, bunlar Bağdad qədər əhəmiyyətli deyildi. Türk ölkələrinin hər bucağından bir çox alimlərin tale axtarmaq arzusu ilə Bağdada və Misirə axın-axın gəldikləri dövrlərdə bir xeyli elm adamlarının Bağdadda toplanmış olduqlarını bilirik» (M.Kaşqarlı. Divanü luğat-it-türk tərcüməsi, I c., s. XII). Bağdadın həmin elm mühitinin yetirməsi M.Füzuli də var. Mosuli imzası ilə təmiz Azərbaycan türkcəsində nücuma dair elmi əsər yazan XV əsr alimini də tanıyırıq. Yəni İraq–Bağdad ərəb mühitində bir mikroazərbaycan–türk mühiti də mövcud idi. Təbii ki, Füzuli poeziyasındakı yanğı ilə Kərkük manilərinin sızıltıları səsləşirdi (Ayaz Vəfalı və Qəzənfər Paşayevin Füzulinin folklor motivləri ilə bağlı tədqiqlərində bu məsələyə işıq salınır). Bura Füzuli üçün ana dili mühiti idi. Füzuli «Leyli və Məcnun»da yazırdı:

Olmuşdu rəfiqü həmzəbanım,
Ayineyi-tutiyi-rəvanım
Bir neçə zərifi-xütteyi-Rum…

Şair Türkiyə türkcəsində danışan həmsöhbətlərinin dili ilə öz dilinin yaxınlığını əşyanın güzgüdə əks olunması kimi qiymətləndirir. Əlbəttə, bu, eyni

olmaq deyil. Böyük ağsaqqal İhsan Doğramacı xanımı ilə məni öz iqamətgahında qəbul edərkən (2002 sentyabr) mənimlə təmiz Azərbaycanca danışdı. Xalis Azərbaycan türkcəsi üçün səciyyəvi olan sözlər, ifadələr gələndə ətrafdakılara zarafatla deyərdi ki, siz elə deyirsiniz, biz Azərbaycan türkləri belə deyirik. Yəni bildirirdi ki, İraq türkmancası Azərbaycan türkcəsinə daha yaxındır.

Dövrü üçün böyük türk mədəniyyət mərkəzi sayılan Kaşqardan İraqa köçən və məşhur «Divan»ını burada yazan Mahmud Kaşqarlı bildirir: «Peyğəmbərimiz qiyamət nişanələrini, axır zaman qarışıqlıqlarını və Oğuz türklərinin ortaya çıxacaqlarını söylədiyi zaman «türk dilini öyrənin, çünki onlar üçün uzun sürəcək hökmranlıq vardır» buyurmuşdur («Divanü luğat-it-türk», 1 c., s.4). Bu sözləri deyərkən, yəqin ki, Peyğəmbərimizin ən yaxından tanıdığı türklər İraq türkmanları idi. Bəlkə də, Oğuz türkləri ifadəsinin işlənməsinin də səbəbi məhz türkmanların oğuz olmaları idi. Türkün etibarını, cəngavərliyini ərəb mühiti, görünür, ilkin olaraq türkman oğuzlarının şəxsində görmüşdü. Təsadüfü deyil ki, Ərəb xilafətində sarayların, hakimiyyətin mühafizəsi məhz türklərdən ibarət qvardiyalara etibar olunurdu. Çünki onda türkün bir üzü vardı, sözünə sədaqətli idi, vədinə xəyanət etməzdi. Tarix Peyğəmbərimizin hədisini doğrultdu. Toğrul bəyin zamanında (XI əsr) Amudəryadan Fərata qədər gələn Səlcuq hakimiyyəti qardaşı oğlu Alp

Arslanın və onun oğlu Məlikşahın vaxtlarında da öz gücünü saxlayırdı. Bir az sonra başlayıb ərəb ölkələrini də içinə alan Osmanlı-oğuz imperiyası XX əsrin əvvəllərinə kimi, 623 il davam etdi. Peyğəmbərimizin buyurduğu bu oğuz-türk hökmranlığı dövründə İraq–Kərkük türkmanlarının ədəbiyyatı, mədəniyyəti, folkloru öz inkişafını davam etdirmişdir. Prof. Q.Paşayev türkmanların folklorunu bizə tanıtdığı üçün biz onların yaradıcılığını başlıca olaraq şifahi ədəbiyyatdan ibarət hesab etmişik. Məsələ burasındadır ki, türkmanların yazılı ədəbiyyatı da var. Bu gün də var, tarix boyu da olub. Fikir cəsarəti ilə nə qədər təəccüblü görünsə də, türkman ədəbi mühitinin ən böyük nümayəndəsi, təbii ki, Məhəmməd ibn Süleyman Füzuli əl-Bağdadidir.

Türkmanların yazılı ədəbiyyatı bu gün də davam edir. 1994-cü ildə yubiley münasibəti ilə İraqa Füzuli məzarının ziyarətinə gedərkən tanınmış türkman şairi Səlah Növrəs «Aynada zaman» adlı şeir kitabını mənə verdi. Şeirləri məzmunca müasirdir, formaca heca da, sərbəst də var və maraqlıdır ki, bugünkü ərəb şeiri mühitində bir dənə də əruz şeiri yoxdur. Dili xalis Azərbaycan türkcəsidir. Bir şeiri belədir:

Bən inlərəm, bəxtim inlər,
Yalvarışım nafilədir.
Dizi-dizi keçən günlər,
Gör nə həzin qafilədir.

Bu qafilə nə qafilə,
Məsafələr silər, keçər.
Bənim gibi hər ğafilə
Gənclik səlam verər, keçər.

Hər şeyi aldı götürdü,
Bayquşundur xərabələr.
Bülbülləri sildi – süpürdü,
Qaldı ögsüz xatirələr.

Şeirdə bugünkü ədəbi dilimizdə işlənməyən sözlər var: nafilə (nahaq, bihudə), qafilə (karvan) – vəssalam. Bunlar klassik ədəbi dilimizdə işlənən ərəb sözləridir. Burada mən yerinə, bən, kimi yerinə gibi işlənir. İlk baxışda Türkiyə türkcəsi ilə müştərək görünür. Ancaq əvvələn, həmin fonetik təzahür «Dədə Qorqud kitabı»ndan tutmuş Nəsimiyə, Füzuliyə qədər Azərbaycan yazılı ədəbiyyatının dilində özünü göstərir. İkinci, əgər bu, Türkiyə türkcəsinin təsiri olsaydı, bəxtim sözü bahtım şəklində işlənməliydi. «Sildi–süpürdü» məcazı təmiz Azərbaycan türkcəsidir, Türkiyə türkcəsi bu obrazı tanımır. Nəsimiyanə gözəl bir cinas var ki, şeirin poetik semantikasına xüsusi bir kamillik verir: qafilə (karvan) – ğafilə (qafil sözünün yönlük halı, qəflətdə olana).

Son söz demək üçün S.Növrəsin kitabından başqa bir şeirə diqqət yetirək:

Ev yeşil,
Orman yeşil,

Göl yeşil, ördək yeşil,
İçimdə bahar,
Yeşil nərədə?
Bir bən varam,
Bir də o.

Bu rəvan, bədii azəricə də orman ismi, nərədə sual əvəzliyi və bən əvəzlik tələffüzü Türkiyə türkcəsinindir. Orman oğuzcadır. Bu gün onun müqabili meşə sözü oğuz dillərindən yalnız Azərbaycan türkcəsindədir. Q.Paşayevin çap etdirdiyi Kərkük–türkman manilərində, nə də «Kərkük dialektinin fonetikası» kitabında toplanmış nəsrlə və şeirlə dialektoloji mətnlərdə I şəxs əvəzliyinin bən şəklində deyilişinə və -yor indiki zaman şəkilçisinə rast gəlmədik. Həmin mətnlərdə əvəzlik mən şəklində səslənir (onun isim hallarına düşməsi də Azərbaycan türkcəsindəki kimidir, xüsusilə yönlük halda: mana/bana yox, məhz mənə). Folklor dilində indiki zaman şəkilçisi Cənubi Azərbaycan şivələrindəki kimi işlənir: köçmüri (köçmür), etmiri (etmir), doldurı (doldurur), görüki (görünür) və s. (Q.Paşayev. Kərkük dialektinin fonetikası. Bakı, «Elm», 2003, s. 143, 153, 170). Bu manidə həm dialekt, həm də ədəbi dil formaları bərabər çıxış edir:

Oxunmurı,
Dərdim çox, oxunmurı.
Məcnun kimin gəzirəm,
Göz yara toxunmurı.

Daha oxunmuyor və gəzyorım deyil, Azərbaycan türkcəsinin ədəbi dil və dialekt formaları işlənir. Hətta bu gün Türkiyə türkcəsi üçün səciyyəvi olan konuşmak feli mətndə həm zaman, həm şəxs şəkilçisinə görə Azərbaycan şivələrindəki kimi işlənir: qonuşuruz (Göst. əsər, s. 140), daha konuşuyoruz yox.

Beləliklə, prof. Q.Paşayevin təqdim etdiyi materiallar, folklor nümunələri və dialektoloji mətnlər əsasında bu nəticəyə gəlinir ki, müasir Azərbaycan türkcəsi ilə müqayisədə İraq türkmanlarının dilindəki fərqləri iki yerə ayırmaq olar. Bunların bir qismi Azərbaycan türkcəsinin başlanğıcındakı oğuzcanın faktlarıdır ki, bizdə zamanzaman arxaikləşmiş, təcrid olunmuş mühitdə ada vəziyyətində olduğu üçün orada qorunub saxlanmışdır. Məsələn, qədim türkcədə qrammatik yük daşıyan, çoxluq, artıqlıq məzmunu ifadə edən geminat hadisəsi bu gün İraq türkmanlarının dilində xeyli söz kökündə daşlaşıb qalmışdır. Geminat müasir Azərbaycan dilində ancaq 7 (yeddi), 8 (səkkiz), 9 (doqquz) saylarında daşlaşıb, ancaq İraq türkmancasında 2 (ikki), 30 (ottuz) saylarında da və onlarla sifətlərdə (əlamət bildirən sözlərdə) qalır: qıssa (<qısa), irri (iri), qurru (quru), dirri (diri), əccı (acı) və s. Bu, o dövrün hadisəsidir ki, insan əşyanın adi artıqlığından heyrətlənib. 1 (bir) ilə müqayisədə ikiyə (ikki) xüsusi reaksiya verib, özünə qədərki kəmiyyətlə müqayisədə yeddiyə, səkkizə, təbii ki, daha sonra otuza

(ottuz), əlliyə xüsusi heyrətlə baxıb. Yaxud türk sifətin çoxaltma dərəcəsinin qrammatik ifadəsini yaratmazdan əvvəl həmin üsuldan istifadə etmişdir. Qıpçaq dillərində qiççi (kiçik), issi (isti) və başqa sifətlərdə qalsa da, say sistemində olmaması göstərir ki, geminat daha çox oğuzca üçün səciyyəvi olmuşdur. Q.Paşayev əsərində geminatlaşma hadisəsinin geniş elmi təhlilini verir və bu samit qoşalaşmasının müəyyən dairədə isimlərə də nüfuz etməsinə maraqlı misallar gətirir. Başqa bir maraqlı fakt Q.Paşayev bir sıra hallarda söz köklərində sait uzanması muşahidə edir: sa:rı, ü:tü və s. Sözlərin müxtəlif qrammatik şəkillərdə belə uzanma nümunələri çoxalır: a:xtı (axdı), gö:züm (gözüm), nə:di (nədir?) və s. Bu hallarda səsin uzanması müasir dövrdə – yeni leksik vahid yaratmadığı üçün müəllif bu hadisəni ilkin uzanma saymır. Halbuki həmin uzanmalarda qonşu səslərin heç bir iştirakı yoxdur. Məsələn, deyək ki, türkmanlardakı sa:rı Cəbrayıl şivəsində sarı, nə:di(r) sualı da nədi(r) tələffüz olunur. Deməli, eyni sait müxtəlif şivələrdə müxtəlif deyiliş kəmiyyətinə malik olur. Bu kəmiyyət fərqi ilkin uzanma hadisəsidir. Həmin səsin uzun və qısa (normal) deyilişi bu gün iki leksik semantika yaratmırsa, deməli, bu çox qədim hadisə daha proses olmaqdan çıxıb hadisə, söz yaradıcılığı faktı kimi arxaikləşib, ancaq əski kəmiyyət məxrəci özünü saxlayır.

Müasir Azərbaycan ədəbi dili və Güney Azərbaycan dialektləri ilə İraq türkmanlarının dil fərq-

lərinin ikinci qismi onların tarixən Osmanlı imperiyasının tərkibində yaşamaları ilə bağlıdır. Məsələn, -yor indiki zaman şəkilçisi, bən şəxs əvəzliyi və bu qəbildən başqa elementləri türkman şairləri, ziyalıları imperiya dili kimi Türkiyə türkcəsindən götürüb yazılı dildə işlətmişlər. Və beləliklə, türkmanların bizim danışığımızla səsləşən canlı danışıqları, dialektləri ilə yanaşı, yazılı ədəbi dilləri də müəyyənləşmişdir. Bu, tipajına görə Azərbaycandakı model üzrə yazılı dil kimi ortaya çıxır. Dünyada yayılmış hadisələrdən biri kimi, məsələn, ingiliscənin Britaniya, Amerika Birləşmiş Ştatları, Hindistan, özbəkcənin Özbəkistan və Əfqanıstan variantları olduğu kimi, Azərbaycan ədəbi dilimizin də Cənubi Azərbaycan və İraq–türkman variantları vardır. Bu gün ədəbi dilimizin cənub variantı ilə bağlı müəyyən tədqiqatlar gedir. İraq–türkman ədəbi dil variantına diqqət Azərbaycan dilçiliyinin gündəliyinə düşməlidir. Q.Paşayevin Bakıda yaratdığı zəngin İraq–türkman kitabxanası bu tədqiqatlar üçün bol material verir.

Tofiq HACIYEV,
AMEA-nın müxbir üzvü, professor,
Bakı Dövlət Universitetinin
Türkologiya kafedrasının müdiri

I FƏSİL

DİLİMİZ–VARLIĞIMIZ

«KİTABİ-DƏDƏ QORQUD», İRAQ–TÜRKMAN LƏHCƏSİ VƏ ƏDƏBİ DİLİMİZ*

İki yüz ildən artıqdır ki, dünya alimlərinin diqqət mərkəzində olan «Kitabi-Dədə Qorqud» bir çox dillərə tərcümə olunmuş, tarixçilərin, etnoqrafların, filosofların, folklorşünasların, xüsusən də dilçilərin tədqiqat obyektinə çevrilmişdir. Bu ölməz abidəyə İraqda da böyük maraq vardır. Əsər ərəb dilinə tərcümə edilərək «Hekayət Dədə Qorqut» adı altında çap edilmişdir (Bağdad, 2007, 264 səh.). Kitaba ön sözü ədəbiyyatımızın böyük dostu Dr. Əbdüllətif Bəndəroğlu yazmışdır. Əsəri ərəb dilinə İraqda və Türkiyədə tərcüməçi, tədqiqatçı, eləcə də yazıçı kimi tanınan Cəlal Polad çevirmiş, ona maraqlı və çox geniş giriş məqaləsi yazmış, indiyə qədər aparılmış tədqiqatlardan və «Kitabi-Dədə Qorqud»un dünya şöhrətindən söz açmışdır. Bununla belə, deməliyəm ki, «Kitabi-Dədə Qorqud» İraq türkmanları arasında geniş yayılan, sevilən və tədqiqata cəlb edilən əsərdir. Bu, heç də əsassız deyildir.

Əsrlərlə başqa xalqlar əhatəsində qalan, məhz buna görə də qədim leksik və fonetik göstəricilərini daha çox saxlayan İraq türkmanlarının ləhcəsi «Kitabi-Dədə Qorqud»un dil xüsusiyyətlərini tamamilə əks etdirir. «Kitabi-Dədə Qorqud»da yer alan onlarca sözün indinin özündə belə Kərkük dolaylarında işlək olması, daha doğrusu, həmin sözlərin yalnız həmin mənada işlənməsi tutarlı dəlil-sübutdur. Məsə-

* *Bax:* «Azərbaycan» qəzeti, 13 mart 2011-ci il.

lən, kəpənək (yapınçı), xerxız//xırxız (oğru), əkmək (çörək), ənsə (arxa), qlağuz//qlavuz (bələdçi), qısraq (at, madyan), yayan (piyada), nəsnə (əşya, alət), səmiz (kök), sığır (buğa, öngə), mavlamaq (huşunu itirmək), qanara (çarmıx), bori çalmaq (şeypur çalmaq), davul dögmək (təbil çalmaq), ismarlamaq (tapşırmaq), yarın (sabah), ög (ön), xoyrad (qaba, kobud, nadan), yağmalamaq (talamaq), qavat (alçaq, əskik adam), oda (otaq), imdi (indi), baş üzərinə! (baş üstə!), qaum-qardaş (qohum-qardaş), kəlisa (kilsə), eyi (gözəl), kəndi (özü), dam (tələ), yoğurd (qatıq) və s.[1]

Maraqlıdır ki, Dəli Domrul bu gün də Kərkük dolaylarında «dəlli dobur» formasında «dəlidolu» mənasında işlənir.[2]

Təsadüfi deyildir ki, «Koroğlu» və «Arzu–Qəmbər» dastanlarına dərin təsir göstərən, qədim ədəbiyyatımızın başlanğıc mənbəyi olan bu təkrarsız əsəri azərbaycanlı tədqiqatçılar Azərbaycan şifahi və yazılı ədəbiyyatının babası[4], kərküklü tədqiqatçılar isə İraq türkmanlarının «Ana kitabı» adlandırırlar.

Biz tədqiqatımızda «Kitabi-Dədə Qorqud»da, İraq–türkman ləhcəsində və ədəbi dilimizdə eyni olan çoxsaylı: pəncərə, dirək, un, çuval, leş, çomaq, ayaqyolu, sapan, öpmək, rast gəlmək, muştuluq, küsmək, kəklik, keşiş, yumruq, yalaq, beşik və s-dən söz açmağa lüzum görmədik. Doğmalığı, yaxınlığı təmin edən başqa məqamlara daha çox yer ayırdıq.

Bu doğmalıq, bu yaxınlıq təbii olaraq toponimlərdə də öz əksini qabarıq şəkildə tapmışdır: Ağdam, Ağdaş, Ağsu, Billava, Boyat, Quruçay, Qarabulaq, Qaraqoyunlu, Qaradağ, Qarabağlı, Əmirli, Yəyçi, Yengicə, Mandılı, Mərdinli, Üçtəpə, Xasa, Xəsədərli, Çardaqlı, Saray, Gögçə, Quşçu, Dərbənd sarulu, Hacılar, Tatar, Azaflı və s. adlara bir-iki sözdə baş verən kiçik fonetik fərqi nəzərə almasaq, eynilə Kərkük dolaylarında da, Azərbaycanda da təsadüf edilir.[3]

Azaflı toponimi barədə müəlliflərin fikri maraq doğurur: «Azaflı oymağının soyu Türkman Bayat soyuna dayanır. Çox saydakı tarixi qaynaqlardan görünür ki, bu oymağın övladları 500 il öncə Azərbaycandan köç etmişlər».[4]

Burada maraq doğuran bir məsələdən də söz açmaq yerinə düşərdi. Azərbaycanlı alim, professor Əkrəm Cəfər Azərbaycan dilini başqa türk dillərindən fərqləndirən xüsusiyyətlərdən danışarkən göstərir ki, «banlamaq» sözü Azərbaycan dilindən başqa heç bir türk dilində işlənmir.[5]

Qeyd edək ki, bu söz «bannamaq // baynamaq» formasında İraq–türkman ləhcəsində və bir az başqa mənada işlənsə də, «Kitabi-Dədə Qorqud»da yer alır.[6]

İraq–türkman ləhcəsi üçün səciyyəvi olan sözlər də çoxdur. Nümunə olaraq aşağıdakıları göstərmək olar: qırçıl (çaş), doqal (yekəqarın), löüçə (danışığını bilməyən adam), zifir (yaxantı), gilau (murdar), mon//mun (qaraqabaq), lüs (şumal), sələv (araqatan), tikmə (dirək), tütün (tüstü), çəm (meşə), çəmçələ (arıq uşaq; müqəvva), çarx eləməğ (dolaşmaq, hər tərəfi gəzmək), uz (ağıllı, iti, tədbirli), yazı (çöl, səhra, bayır), yazı xaxı-kəndlilər, yazı sonası və s.

Buraya «Kitabi-Dədə Qorqud»da rast gəlinən və bu gün də İraq–türkman ləhcəsində işlək olan, yuxarıda sadaladığımız sözləri də əlavə etmək olar.

Bununla belə, «Kitabi-Dədə Qorqud»da və İraq–türkman ləhcəsində elə sözlər vardır ki, onlara ancaq bu və ya digər dialekt və şivələrimizdə rast gəlirik: məs.: baba (ata), budamaq (vurmaq), varmaq (getmək), quçən (küçük), darılmaq (əsəbiləşmək), ənsə (arxa, dal), yazı (çöl, səhra) və s. belə sözlərdəndir.[7]

«Kitabi-Dədə Qorqud»da və ədəbi dilimizdə yer alan elə sözlər də var ki, İraq–türkman ləhcəsində təsadüf edilmir. Məsələn, alqış (dua), qarğış (bəddua), gögçək, daz, mahmız-

lamaq, hürmək, hürkütmək, tavla (tövlə), qaravaş, ulamaq (qurd kimi və s.), gənəşmək, yaxşı//yəxşi, arıq, ayğır, böyürmək, məğmun, çapar (çaparaq xəbər aparan atlı), qaynata, qaynana, ata-ana, meşə (çəm), tümən (pul vahidi), çevik (çox cəld), həmişə (hər zaman), söhbət etmək (qonuşmaq), sıçramaq (atlanmaq), səyirtmək (atı dördnala çapmaq), salaxana//sallaqxana (qanara), otaq (oda), nəvə (torun), lələk (təlnəg), güdmək (göz qoymaq), köhnə, koma (daxma), kişnəmək, yoldaş (arkadaş), yorğa və s.

Dünya alimlərinin qənaəti budur ki, «Dədə Qorqud» dastanları Azərbaycan dilində yazılmış və azərbaycanlılara aid bir abidədir. Bu, təkcə onunla izah olunmur ki, «Kitabi-Dədə Qorqud»da yer alan əksər toponimlər Azərbaycanla bağlıdır: Əlincə qalası, Dəmir qapı Dərbənd, Qazlıq tağı (Qafqaz dağları), Gəncə, Bərdə, Göyçə gölü, Dondar, Qaradərə (Qarabağda yer adı) və s.

Söhbət ondan gedir ki, bu təkrarsız əsər Azərbaycan dilindədir. Dilin fonetik və leksik göstəricilərinə əsasən Azərbaycan dilinin Cənub və Şərq qrupu dialekt və şivələrinin xüsusiyyətləri ilə səsləşdiyinə görə «Kitabi-Dədə Qorqud» tədqiqatçılarından V.Bartold, F.Köprülü, A.Dilaçar, M.Ergin onun azərbaycanlılara, V.Bartoldun təbirincə desək, Qafqaz türkmanlarına məxsus olduğunu,[8] O.Gökyay, M.Ergin, Y.Yakubovski, H.Araslı, M.Təhmasib, Ə.Dəmirçizadə, Ş.Cəmşidov, X.Koroğlu və başqaları isə əsərin Drezden nüsxəsinin, ümumiyyətlə, Azərbaycanda qələmə alındığını təsdiq edirlər.[9]

Maraqlıdır ki, tədqiqatlarda Azərbaycan ədəbi dili tarixindən danışarkən XV–XVI əsr ədəbi dilimizdə Cənubi Azərbaycan və Bağdad (Kərkük) şivə xüsusiyyətlərinin üstünlük təşkil etdiyi göstərilmiş, İraq–türkman ləhcəsi Azərbaycan dilinin Cənub qrupu dialekt və şivələri sırasına daxil edilmişdir.[10]

Bununla yanaşı, görkəmli dilçilərdən P.M.Melioranski[11], M.Ş.Şirəliyev[12], N.A.Baskakov[13], A.M.Şerbak[14], H.Mirzəzadə[15], E.N.Nəcib[16], Ə.Ə.Orucov[17], Y.Z.Şirvani[18] təxminən XIII əsrin axırlarında, XIV əsrin əvvəllərində yazılmış «İbn Mühənna lüğəti»ndən danışarkən, əsər qədim Azərbaycan dilində olduğuna görə, onun ya müasir İraq ərazisində, ya da Azərbaycanda yazıldığını qeyd edirlər. Həmin lüğətdə ağıl (mal-qara üçün yer), ağırlamaq (hörmət etmək, əzizləmək), arşınlamaq, baldız, bacanaq, baxışmaq, bərk, beşik, belbağı, boşamaq, buyurmaq, davar, iraq, ismarlamaq, qanalıcı, qardaş, kərki, kirşan, quduq (qoduq), laçın, mərcimək, pusmaq, süngü və s. kimi indi də Azərbaycan ədəbi dilində və İraq–türkman ləhcəsində müşahidə edilən onlarca sözə rast gəlirik[19].

Yuxarıda deyilənləri nəzərə alaraq Dr. Necdet Yaşar Bayatlının «Dədə Qorqud» hekayələrində və günümüzdə İraq–türkman türkcəsində kullanılan ortaq sözcüklər üzərinə bir incələmə» məqaləsində irəli sürdüyü bir müddəasına münasibətimi bildirmək istərdim. Dr. Necdet Yaşar Bayatlı yazır: «Dədə Qorqud» hekayələrinin yazıldığı dil Azəri türkcəsinin dil özəlliklərini göstərməklə, bu gün danışılan və yazılan Azəri ləhcəsi ilə qarşılaşdırıldığı zaman kitabın daşıdığı bütün özəlliklərin bu ləhcəyə aid olduğunu söyləmək mümkün deyil.[20]

Məqalədə diqqəti çəkən başqa bir məsələ də ondan ibarətdir ki, Dr. Necdet Yaşar Bayatlı «Kitabi-Dədə Qorqud» və İraq–türkman ləhcəsində üst-üstə düşən 116 sözü incələyib. Maraqlıdır ki, müəllifin söz açdığı 116 sözdən 111-i Azərbaycan ədəbi dilində də, «Kitabi-Dədə Qorqud» və İraq–türkman ləhcəsində olduğu kimidir. Yalnız aşağıdakı beş söz fərqlidir: bori (şeypur), xısım (qohum-əqraba), semmiz (kök), tenef//tenaf (çadır ipi), zaxım–yara, zeban (zəif, gücsüz).

Yeri gəlmişkən, onu da qeyd edim ki, çadır ipi, zəif və gücsüz sözləri də İraq–türkman ləhcəsində işlək sözlərdir.

Ola bilsin ki, Dr.Necdet bu məqaləsini yazarkən Nəsimi adına Dilçilik İnstitutunun hazırlayaraq çap etdirdiyi «Kitabi-Dədə Qorqud»un izahlı lüğəti» əsəri (Bakı, «Elm», 1999) əlində olub. O vaxt rəhmətlik Əbdüllətif Bəndəroğlu tez-tez Bakıya gəlir, Nəsimi adına Dilçilik İnstitutunda akademik Ağamusa Axundovun rəhbərliyi ilə dialektologiya şöbəsində üzərində işlədiyimiz irihəcmli «İraq–türkman ləhcəsi» kitabını redaktə edirdi. «Kitabi-Dədə Qorqud»un izahlı lüğəti» kitabını İraqa o aparmışdı. Şübhəm yoxdur ki, bu nöqsanlı lüğətlə tanış olan hər kəs Dr. Necdetin haqlı olduğunu düşünərdi. Heç bir lüğətçilik prinsipinə əsaslanmayan bu lüğət, hətta əlifba sırası ilə tərtib edilməyib. Heç sözlər də əlifba sırasına uyğun gəlmir. Odur ki, lüğətdə lazım olan sözü tapmaq özü də müşgül məsələyə çevrilir. İş bununla bitsə dərd yarı olardı. Lüğətin təəssüf doğuran ən böyük çatışmazlığı ondan ibarətdir ki, «Kitabi-Dədə Qorqud» və ədəbi dilimizdə eyni olan onlarla sözə izah yazmaq xatirinə Azərbaycanca olan sözlərin üstündən sükutla keçilib. «Kitabi-Dədə Qorqud»dan sözlər götürülüb və izahı verilib. Söhbət «Kitabi-Dədə Qorqud»da və ədəbi dilimizdə eyni olan: külüng, çomaq, kişnəmək, kəfən, yırtılmaq, yaxşı, yalaq, nəvə, yağ, eşik, düymə, pəncərə, dürtmək, dolamac, dirək, un, çuval, pusmaq, pusqu, pay, dəyənək, dəyirman, dəvə, qucaqlamaq, lap, leş, qonur, qonaq, qonaqlıq, qardaş, buğa, göyərçin, qarğıdalı, qaravul, qamış, qayınata, qayınana, bəzirgan, arşın, and, ayğır və s. sözlərdən gedir. Ortaya təbii sual çıxır. Lüğət azərbaycanlılar üçün nəzərdə tutulubsa, izaha nə ehtiyac vardı. Əgər başqa xalqların tədqiqatçıları da nəzərə alınırdısa (ayrı cür də ola bilməzdi), onlar nə bi-

ləcək ki, yuxarıda sadaladığımız və sadalamadığımız çoxsaylı sözlər Azərbaycan ədəbi dilində mövcuddur. İzahlarda bəzən məntiqsizlik hökm sürür. Məsələn, leş–ölmüş cəsəd; çaqmaq–atəş açmaq üçün tüfəngin, tapançanın çaxmağını çəkib atəş açmaq. Kafərlərin leşindən böyük bir dəpə (təpə) yığdı, çaqmaq çaqub od yağdı (s.44) və s.

Görəsən, ox, nizə, sapan, çomaq, qılıncla döyüşən, qarğıdalı gövdəsindən süngü düzəldən oğuzlar XIV–XV əsrlərdə meydana çıxan tüfəngi haradan əldə etmişdilər? Hələ biz tapançanı demirik ki, sonralar yaradılıb.

Yuxarıdakı göstərdiyimiz başlıca nöqsan olmasaydı, bizim üçün həyati əhəmiyyət kəsb edən bir məsələdə «Kitabi-Dədə Qorqud»un izahlı lüğəti» çox faydalı olardı. Lüğəti vərəqləyən və ya onu tədqiqata cəlb edən hər kəs «Kitabi-Dədə Qorqud»un, həqiqətən də, Azərbaycan dilində yazıldığının bir daha şahidi olardı.

Məndə belə bir qənaət hasil olub ki, tədqiqatçılarımız «Kitabi-Dədə Qorqud»un izahlı lüğəti»ni hazırlayarkən görkəmli türkoloq alimlərimiz prof. Fərhad Zeynalov və prof. Samət Əlizadənin bu sahilsiz ümmana bənzər ölməz abidəyə yazdıqları, dərin mənalar kəsb edən giriş məqaləsini oxumayıblar. Alimlərimiz yazırlar ki, Drezden nüsxəsində aydın-aşkar əliflə yazılan sözün «türkman» oxunması xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, «türkmanlar» İraqdakı azərbaycanlılar, kərküklülərdir.[21]

Belə olan halda, izaha heç bir ehtiyac duyulmayan «türkman» is. Etnonim. Türkmən yazmağa nə lüzum vardı.[22]

İraq–türkman alimləri daxil olmaqla bütün tədqiqatçılar «türkman» etnonimindən danışarkən onun «ulu türk», «xalis türk», «əsl türk» mənasını verdiyini xüsusi vurğulayırlar. İndinin özündə belə, ədəbi dilimizdə və İraq–türkman ləhcəsində

işlək olan azman, qocaman, orman, ataman, şişman, kecəman (böyük kərtənkələ) və s. kəlmələrdə «man»ın ulu, böyük, əzəmətli anlamına gəlməsi dediklərimizi təsdiqləyib.

Göründüyü kimi, söhbət Orta Asiyada yaşayan türkmənlərdən deyil, Bağdad çevrəsində yaşayan, əsrlərlə öncə olduğu kimi, yenə də o ərazilərdə məskunlaşmış dili bir olan qan qardaşlarımızdan gedir. Taleyin hökmü ilə çeşidli ictimai-siyasi səbəblər üzündən soy-kökündən ayrı düşən, təcrid olunaraq ərəb və kürd xalqlarının əhatəsində yaşayan, məhz buna görə də qədim leksik və fonetik göstəricilərini daha çox qoruyub saxlayan İraq türkmanlarının ləhcəsində «Kitabi-Dədə Qorqud» dastanlarının dil özəllikləri ilə üst-üstə düşən həm leksik, həm də fonetik xüsusiyyətlər çoxdur. Bu baxımdan prof. Tofiq Hacıyevin dediklərində böyük həqiqət vardır. Görkəmli türkoloq alim haqlı olaraq «mən» əvəzinə «bən», «bu» əvəzinə «şu», «indi» əvəzinə «şimdi», «minmək» əvəzinə «binmək» və s. işlənməsini Kərkük ellərində Osmanlı təsiri olmadığını, hələ qədimdən «Kitabi-Dədə Qorqud» zamanından qalma olduğunu xüsusi vurğulayır.

Eləcə də «Kitabi-Dədə Qorqud»da qabarıq şəkildə özünü göstərən «d» səsinin «t» ilə əvəzlənməsi, məsələn, taş, ton, tamar, tana, tavşan, tayaq, tağ, tağarçıq, tam, tırnaq, toğsan, toğmaq, toğlu, tul, tağarcıq, tağlamaq, tükan, tamğa, toğru, taşqın, turna və s. az-çox İraq–türkman ləhcəsi üçün də səciyyəvidir. Bu xüsusiyyət başqa dialekt və şivələrimizdə də müşahidə edilsə də, artıq ədəbi dilimizdə işlək deyildir.

Ədəbi dilimizdə tam başqa bir mənzərənin şahidi oluruq. Məlum həqiqətdir ki, vaxt keçdikcə dil cilalanır, həm yerli ləhcələr, həm də alınma sözlər hesabına zənginləşir, bir çox sözlər arxaikləşir, gündəlik danışıqdan çıxır. Bu baxımdan Azərbaycan ədəbi dili istisna deyil. Maraqlıdır ki, XX əsrin əvvəllərində Azərbaycanca yazılmış əsərlərdə, xüsusən də

Üzeyir Hacıbəylinin məqalə və felyetonlarında bu gün işlək olmayan, «Kitabi-Dədə Qorqud»da rast gəlinən, İraq–türkman ləhcəsində hələ də dövriyyədə qalan sözlərə təsadüf edilir. Məsələn, Üzeyir bəyin musiqi bəstələdiyi şeirdə borubori (şeypur) işlənmişdir:

Dağlara səs salır hücum borusu,
Haydı marş irəli, Vətən ordusu.

Üzeyir bəyin tək bircə cümləsində «Kitabi-Dədə Qorqud» və İraq–türkman ləhcəsi üçün səciyyəvi olan bir neçə söz işlənmişdir: «Mən nə edim ki, öz elmimi, biliyimi millətin tərəqqisinə sərf etməklə xain, hüsud və bəxil «zənbur»çuların gözlərinə ox olub batıram. Əhali hər kəsi gözəlcə tanıyır». Dahi Üzeyir Hacıbəylinin tək bircə məqaləsində yuxarıdakı «hüsud», bəxil, gözəlcə sözlərindən əlavə, indi ədəbi dilimizdə işlənməyən, «Kitabi-Dədə Qorqud»da özünü göstərən, İraq–türkman ləhcəsində işlək olan darılmaq (əsəbiləşmək, acıqlanmaq), hizmət (xidmət), eyş (yar, yoldaş) və s. sözlərə də təsadüf edilir.

«Kitabi-Dədə Qorqud»da və İraq–türkman ləhcəsində indinin özündə belə «budaq» mənasında işlənən «dal» sözü klassik ədəbiyyatımızda çox işlənirdi. Qarabağ xanı İbrahimxəlil xanın qızı Ağabəyim ağanın qoşması əsasında yaranmış, indi də məşhur olan «Vətən bağı» mahnısında da bu sözə rast gəlirik:

Bülbül, səni kim uçurtdu?
Kim daldan dala qaçırtdı?
Kim sənə badə içirtdi?
Kimlər oldu saqi, bülbül?!

Hətta indi yaşayan qocaman aşıq, tovuzlu Əli Quliyevin «Yaşıyasan» adlı qoşmasında klassik ədəbiyyatımız, «Kita-

bi-Dədə Qorqud» və İraq–türkman ləhcəsi üçün səciyyəvi olan ey//eyi sözünə təsadüf edilir:

Ey süd əmən, bir dərd bilən,
Yarın ola, yaşıyasan.

Bütün bu deyilənlər görkəmli türkoloqların fikrinə dayaq olur: «Kitabi-Dədə Qorqud» Azərbaycan dilində yazılıb və Azərbaycanın mədəni irsi kimi söhrətlənib. Keçən əsrin 50-ci illərindən başlayaraq Azərbaycanda bu möhtəşəm abidənin araşdırılması vüsətlə irəliləmiş, nəticədə ölkədə Qorqudşünaslıq məktəbi yaranmış, görkəmli qorqudşünaslar nəsli yetişmişdir. Ulu öndərimiz Heydər Əliyevin «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyi haqqında 20 aprel 1997-ci il tarixli Fərmanından sonra, bu ölməz əsər hərtərəfli tədqiqata cəlb olunmuş, neçə-neçə sanballı monoqrafiyalar yazılmış, «Kitabi-Dədə Qorqud»un izahlı lüğəti» və ikicildlik «Dədə Qorqud ensiklopediyası» işıq üzü görmüşdür. Prof. Tofiq Hacıyevin rəhbərliyi ilə Folklor Elmi-Tədqiqat İnstitutunda «Qorqudşünaslıq» şöbəsi yaradılmış, alimin redaktorluğu ilə «Dədə Qorqud» adlı elmi-ədəbi toplu çap olunmağa başlamışdır. Qürur hissi ilə deyə bilərəm ki, bu təkrarsız abidəyə ölkəmizdə diqqət heç vaxt azalmamışdır.

Nəhayət, onu da deyim ki, «Kitabi-Dədə Qorqud»un izi ilə irəliləyərək ümummilli liderimiz Heydər Əliyevin bəyan etdiyi böyük bir həqiqətlə üzləşdim: «Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır»[23] kəlamının meydana gəlməsində «Kitabi-Dədə Qorqud»un və dilbirliyimizin tarixi rolunu minnətdarlıq hissi ilə göz önünə gətirdim.

AZƏRBAYCAN DİLİNİN QƏRİB DİALEKTLƏRİ *

İllərdən bəri Kərkük və Dərbənd adı çəkiləndə yaddaşımda kərküklü tədqiqatçı Səid İrmağın kəlamı canlanır: «Vətən torpağı kiçilib-genişlənə bilər, tamamilə əldən çıxa bilər, hətta şan və şərəfi tapdalana bilər, dini dəyişdirilə bilər. Lakin bir şey dəyişmir. Qalan bu tək varlıq ana dilidir» («Qardaşlıq» dərgisi, №5, Bağdad, 1962) fikrində böyük bir həqiqət:

Dilim-dilim,
Kəs qovun dilim-dilim,
Mən dilimnən vaz keçməm,
Olursam dilim-dilim.

bayatısı ilə məntiqi bir bağlılıq vardır. Yoxsa əsrlərlə ayrı düşmüş, məktəb və mədrəsəsi yad dildə olan soydaşlarımız hakim xalqın dilini qəbul edər, öz ana dilini unudardı. Əslində, hakim xalqlar əsrlər boyu buna can atmışlar. Sovet dönəmində Azərbaycanla bağlı Dərbəndin adını çəkmək yasaq idi. İraqda da eyni vəziyyət hökm sürürdü. Türkdilli xalqların nümayəndələrinin Kərkükə ayaq basması qadağan idi. Hakim dairələr onların varlığını danmağa çalışırdılar.

Acı olsa da, etiraf edək ki, tarixin yaddaşı qısa, insanlar unutqan olurlar. Əcəba indi çoxmu soydaşımız bilir ki, İraqda iki milyondan artıq qardaş-bacılarımız yaşayır. Görəsən, çoxmu soydaşımız bilir ki, indi Rusiya Federasiyasının tərkibində olan Dərbənd və Tabasaran rayonlarının 30 kəndində (biz hələ Dərbənd şəhərini demirik) yalnız azərbaycanlılar yaşayırlar.

Bu yöndən tarixin keşməkeşləri elm adamlarını daha çox narahat edir. Odur ki, sovetlərin dayaqlarının laxlamağa,

* «Azərbaycan qəzeti», 9 fevral 2010.

qılıncının kəsərinin korşalmağa başladığı 1976–1980-ci illərdə Akademiyamızın Dilçilik İnstitutunun direktoru, akademik Məmmədağa Şirəliyevin təşəbbüsü və təşkilatçılığı ilə dialektologiya şöbəsinin əməkdaşları: B.Tağıyev, S.Behbudov, Ə.Ağayev, Z.Xasiyev (1976–1980), N.Məmmədov (1976–1979), F.Xalıqov (1980), şöbənin müdiri f.e.d., professor Musa İslamovun rəhbərliyi ilə 7 dəfə həmin kəndlərdə dialektoloji ekspedisiyalarda olmuş, toplanan zəngin material əsasında «Azərbaycan dilinin Dərbənd dialekti» adlı tarixi əsər yazmışdılar. Lakin bir çox başqa əsərlər kimi, bu əsər də çap üzünə həsrət qalmışdı. Belə əsərlərdən biri də «Azərbaycan dilinin Meğri şivəsi»dir. Məlumdur ki, XX əsrin əvvəllərinə qədər bu ərazilər Azərbaycan torpağı olmuş, burada azərbaycanlılar yaşamış, sonralar ruslar və ermənilərin məkrli niyyəti ilə Azərbaycanı Naxçıvan və Türkiyədən ayrı salmaq üçün həmin yerlər ermənilərə verilib.

Qədim zamanlar bir yana, hətta orta əsrlərdə səyyahların, elm adamlarının, yazarların Azərbaycan haqqında dediyi hər hansı bir fikri əzizləyə-əzizləyə dəyərləndiririk. O da olsun dəlilə-sübuta ehtiyac duyulmayan «Azərbaycan dilinin Dərbənd dialekti», «Azərbaycan dilinin Meğri şivəsi» və «İraq–türkman ləhcəsi» kimi tarixi abidələr!

Adı çəkilən ölməz əsərlərin işıq üzü görməsində Milli Elmlər Akademiyamızın Dilçilik İnstitutunun direktoru, akademik Ağamusa Axundovun və dialektologiya şöbəsinin müdiri, professor Qəzənfər Kazımovun əməyi az olmamışdır. Bizə qalırsa, gələcək nəsillərə bundan böyük ərməğan düşünmək çətindir.

Yeri gəlmişkən, dialektologiya şöbəsinin əməkdaşları ilə birgə yazdığım və maddi köməyimlə çap olunan fundamental «İraq–türkman ləhcəsi» (Bakı, «Elm», 2004, 422 s.) adlı əsərə professor Q.Kazımov sanballı giriş məqaləsi yazmışdır.

Onu da deyim ki, Dərbənd dialekti ilə İraq–türkman ləhcəsi arasında istər fonetik, istər leksik, istərsə də qrammatik cəhətdən oxşar xüsusiyyətlər çoxdur. Bu da təsadüfi deyildir. Əvvəlan, ona görə ki, hər iki qərib dialekt Azərbaycan dilinə məxsusdur. İkincisi isə Azərbaycan Sovet Ensiklopediyasının III cildi, səhifə 418-də göstərildiyi kimi, 1509-cu ildə Şah İsmayıl Dərbəndi tutandan sonra İraqda məskunlaşan Bayat qəbiləsinin bir hissəsini Dərbəndə köçürmüşdü.

Dərbənd dialektinə dair materiallar Dərbənd rayonunun 21, Tabasaran rayonunun 7 sırf azərbaycanlılar yaşayan kəndindən toplanmışdır. Təkcə kənd adlarında sabitləşən toponim və etnotoponimlər xalqımızın keşməkeşli tarixindən xəbər verən qiymətli faktlardır. Dəliçoban, Qaradağlı, Padar, Tatlar, Ulutərəkəmə, Marağa və s. belələrindəndir.

Yuxarıda göstərdiyimiz kimi, əsər Azərbaycan dialektologiya elminin yaranmasında və inkişafında xidmətləri olan, ömürlərini türkologiya elmimizin bu sahəsinə həsr edən alimlərimiz: Musa İslamov, Bəbir Tağıyev, Seyfi Behbudov, Əlimuxtar Ağayev, Zirəddin Xasıyev və N.Məmmədov tərəfindən dialektologiya elminin son nailiyyətləri əsasında yazılmışdır. İlk dəfə olaraq monoqrafik tədqiqə cəlb olunan Dərbənd dialekti üzərində iş «Azərbaycan dili dialekt və şivələrinin monoqrafik tədqiqinə aid proqram»a uyğun olaraq aparılmışdır. Əsəri yazarkən alimlərimiz təsviri, müqayisəli və tarixi-müqayisəli metoddan istifadə etmişlər.

Bu qiymətli əsəri dialektoloqlarımız fonetika, morfologiya, sintaksis və leksika fəsillərinə bölərək tədqiq etmişlər. Kitabın sonunda tədqiqatçıların gəldikləri qənaətləri təsdiqləyən, yerli şivədə olan mətnlər və lüğət də verilmişdir. Tədqiqat göstərir ki, Dərbənd dialektinin şivələri fonetik, qrammatik və leksik xüsusiyyətlərinə görə Azərbaycan dilinin şi-

mal-şərq (xüsusən Quba–Xaçmaz) və şimal-qərb (xüsusən Zaqatala–Qax) rayonları şivələrinə uyğun gəlir.

Qədim dil faktları ilə zəngin olan Dərbənd dialektində qıpçaq qrupu türk dillərinə məxsus xüsusiyyətlər üstünlük təşkil edir ki, bu da əsassız deyildir. Tarixçi Nəsəvinin (XIII əsr) məlumatına görə, Cəlaləddin Xarəzmşahın dövründə Dərbənd ətrafına 50 min qıpçaq ailəsi köçmüşdü (Bax: Azərbaycan Sovet Ensiklopediyası, III cild, s.418).

Məlumdur ki, akademik M.Şirəliyevin Azərbaycan dili dialektlərinin öyrənilməsi yolunda ən böyük arzusu Kərkük və Dərbənd dialektlərinə, eləcə də indi Gürcüstana daxil olan Borçalı mahalının şivələrinə dair materialların toplanması və tədqiqi idi. Hər iki dialektin və Borçalı şivələrinin (Borçalıda şivə materialları toplayan ekspedisiyaya şəxsən o, özü rəhbərlik edirdi) öyrənilməsinin təşəbbüskarı akademik M.Şirəliyev idi.

Akademik M.Şirəliyevin xalqımıza olan dərin məhəbbətini sonralar yaşa dolduqca daha yaxşı anladım və «Azərbaycan dilinin Dərbənd dialekti»ni vərəqlədikcə böyük alimin hissini-həyəcanını mən də yaşadım. Elm fədaisi, akademik M.Şirəliyevin ruhu şad olsun. Azərbaycan dilinin hər iki qərib dialekti – Kərkük və Dərbənd dialektləri monoqrafik tədqiqata cəlb olunaraq xalqa çatdırılmışdır. Və bu iş uzun müddət akademik M.Şirəliyevin rəhbərlik etdiyi Dilçilik İnstitutunda yerinə yetirilmişdir. Hər iki fundamental, elmi-tədqiqat işinin – tarixi abidənin əbədiyaşar olacağına şübhə yoxdur. Çünki hər iki qərib dialekt

Bilmirəm haralıyam
Torpağım daşım qərib –

deyən qardaş-bacılarımızı ovunduran, hər an onların kimliyini yada salan qürbət taleli tarixi abidələrimizdir.

ABŞ-DA AZƏRBAYCAN DİLİNƏ DAİR ARAŞDIRMALAR *

1983-cü ilin iyun-avqust aylarında xarici dillərin tədrisi üzrə təcrübə mübadiləsi zamanı Amerikada dilimizə, ədəbiyyatımıza, tariximizə, coğrafiyamıza, ümumiyyətlə, mədəniyyətimizə böyük maraq göstərildiyinin və tədqiqatlar aparıldığının şahidi oldum.[28] Ölkə daxilində aparılan tədqiqatların bir qismi Azərbaycan dilçiliyi məsələlərindən bəhs edir.

Prof. Gerd Frayenkelin «Azərbaycan danışıq dili», Fred Haysholderin «Azərbaycan onomastikası» və «Azərbaycan danışıq dili», prof. Gerd Frayenkelin «Azərbaycan və türk dilləri arasında oxşar və fərqli cəhətlər» məqalələrini, 1965-ci ildə İndiana Universitetində çap olunan «Azərbaycan dilinin əsas kursu» kitabını, C.Asaturianın 1958-ci ildə Corctaun Universitetində müdafiə etdiyi «Azərbaycan dilinin fonologiyası» adlı namizədlik dissertasiyasını, Gerd Frayenkelin 1962-ci ildə İndiana Universitetində müdafiə etdiyi 579 səhifədən ibarət «Azərbaycan dilinin Generativ qrammatikası» doktorluq dissertasiyasını və Səlim Hüseynqulu oğlunun 1976-cı ildə Florida Universitetində müdafiə etdiyi «Azərbaycan dilinin generativ fonologiyası» doktorluq dissertasiyasını göstərmək olar.

Səlim Hüseynqulu oğlunun doktorluq dissertasiyası, göstərdiyimiz kimi, «Azərbaycan dilinin generativ fonologiyası» adlanır. Yeri gəlmişkən, deyim ki, Florida Universiteti bu əsəri rəy üçün 1975-ci ildə Nəsimi adına Dilçilik İnstitutuna göndərmişdi. İnstitutun direktoru akademik M.Şirəliyevlə əsərə müsbət rəy vermişdik.

S.Hüseynqulu oğlunun əsəri beş hissədən ibarətdir. Dissertasiyada Azərbaycan dilinin türk dilləri arasında tutduğu

* «Azərbaycan dili xaricdə», Bakı, «Elm», 1990, səh. 65–70.

yerdən, Azərbaycan dili fonologiyasına həsr olunmuş əsərlərdən, dodaq, diş, damaq və b. səslərindən fonoloji qayda-qanunlardan, Azərbaycan dilində alınma sözlərin fonoloji baxımdan təhlilindən və b. danışılır. Əsər yüksək elmi səviyyədə yazılmışdır. Dissertasiyada Azərbaycan dili fonetikasına həsr olunmuş əsərlərdən bütövlükdə istifadə edilmişdir. Prof. A.Axundovun tədqiqatlarına əsərdə böyük qiymət verilir.

Gerd Frayenkelin «Azərbaycan dilinin generativ qrammatikası» doktorluq dissertasiyası öz həcminə, məsələnin qoyuluşuna və həllinə görə xüsusilə fərqlənir. Əsər giriş, yeddi fəsil və nəticədən ibarətdir. Əsərin girişində müəllif yazır: «Bu əsər Sovet Azərbaycanında və Cənubi Azərbaycanda yaşayan azərbaycanlıların qrammatikası olub, bu xalqın hər iki qisminin ümumi qrammatikasıdır. Əsərin başa çatdırılması ata və anamın ən böyük arzusu idi. Əsərin tamamlanmasını həyat yoldaşım Məryəm çox intizarla gözləyirdi. Dissertasiyanın hər səhifəsinə o, mənimlə bərabər zəhmət çəkmiş, bəzən göz yaşları da tökmüşdür. Əsəri yazarkən hər vaxt elmi rəhbərim prof. F.Haysholder, azərbaycanlılardan Pərvin Atayi və bir çox başqaları ilə məsləhətləşirdim. Məryəm isə hər dəqiqə köməyimə çatırdı».

Tədqiqatçı əsərin girişində Azərbaycan dilindən, onun türk dilləri arasında tutduğu mövqedən danışır.

Dissertasiyanın sonunda isə Gerd Frayenkel haqqında məlumat verilir (ümumiyyətlə, ABŞ-da dissertasiyaların girişində tədqiqatçı öz arzusunu yazır, əsərin sonunda isə müəllif haqqında hərtərəfli məlumat verilir). Göstərilir ki, Gerd Frayenkel 1919-cu il dekabrın 25-də Almaniyanın Frankfurt-Mayn şəhərində anadan olmuşdur. Universiteti bitirdikdən sonra ümumi dilçilik problemləri ilə məşğul olmuş, türkologiyaya dair sanballı məqalələr yazmışdır.

Bəllidir ki, generativ (tədrici) qrammatika XX əsrin 50-ci illərində ABŞ-da meydana gəlmişdir. Generativ qrammatikanın pionerləri Hərris və N.Çomski (Sovet elmi ədəbiyyatında alimin adı Xomski getmişdir–*Q.P.*) olmuşlar. N.Çomskinin «Sintaktik quruluşlar» və «Sintaktik nəzəriyyənin aspektləri» əsərləri yeni dilçilik cərəyanının yarandığı və qrammatik nəzəriyyənin yeni mərhələsinə – sintez mərhələsinə daxil olduğunu göstərir.

Məlumdur ki, tədqiq olunan obyekti dərketmə üç mərhələdən ibarətdir: bilavasitə müşahidə, analiz və sintez mərhələləri. Marksizmin bu təlimini dilçilik elminə aid etsək deyə bilərik ki, dilçilik tarixi də üç inkişaf mərhələsi keçmişdir. Bu mərhələlərdə üç qrammatik nəzəriyyə meydana çıxmışdır: ənənəvi qrammatika, struktur qrammatika, generativ (tədrici) qrammatika.

Tədrici qrammatika sintetik deduktiv qrammatika kimi qəbul olunub, çünki burada dilin sistemi mətndən deyil, əksinə, mətn sistemdən çıxarılır. Cümlə onun nəinki tədqiqat obyekti, həm də nəticəsidir. Bu təlimə görə, dilin qrammatikası bütün qrammatik cümlələri törədən vasitədir.

Demək gərəkdir ki, tədrici qrammatika sahəsindəki araşdırmalar yalnız sintaksisə aid olmayıb, semantika, üslubiyyat, fonologiya və dil tarixinə də aiddir.

Tədrici qrammatika ABŞ hüdudlarını keçərək son vaxtlar bir sıra Avropa ölkələrinə də nüfuz etmişdir. ADR-də Berlik Akademiyası yanında törədici qrammatika ilə məşğul olan mərkəz vardır. Elə buna görə də Gerd Frayenkelin «Azərbaycan dilinin generativ qrammatikası» mövzusunda doktorluq dissertasiyası yazması təəccüb doğurmur. Əsərdə Azərbaycan dilində mövcüd olan kök və şəkilçilərdən, zəruri (məcburi) transformasiya və morfofonem qaydalarından, intonasiyadan, cümlə modellərindən və b. geniş söz açılır.

Tədqiqatçı Azərbaycan dilinə ərəb, fars və eləcə də Avropa dillərindən bir sıra söz keçdiyini göstərirsə də, tədqiqat zamanı onları nəzərə almır. Dissertasiyada sırf Azərbaycan mənşəli kök və şəkilçilərin tədqiqinə və cədvəllərə geniş yer verilmişdir (s.8–140).

Əsərdə cəm şəkilçilərindən, felin əmr formasından, inkar şəkilçilərindən, fellərin şəxslər üzrə təsrifindən və b. danışılır. Sonra isə modellər üzrə cədvəllər verilir (s.8–200).

Tədqiqatçı cədvəlləri verərkən misallara diqqətlə yanaşır, gəlişigözəl sözlər seçmir. Şəxs adlarına ayrılmış cədvəllərə fikir verdikdə bunu daha aydın görürük: Üzeyir Hacıbəyov, Gülçöhrə, Vurğun, Cəlal, Mirzə Fətəli Axundov, Heydər Hüseynov, Nəriman, Rüxsara, Leyla və b. (s.201–202). Adların qabağında onun qadın və ya kişi olduğu göstərilir. Miqdar, sıra və kəsr saylarına həsr olunmuş cədvəllər də (s.208–210) maraq doğurur. Qohumluq, insan bədəninin üzvləri, xəstəlik, geyim-kecim, ev əşyaları, sənət, kitab, kitabxana, yazı ləvazimatı, yemək-içmək, idman, bağ-bostan, gün, ay, fəsillər, vaxt, yer, dağ və b. bildirən sözlərə aid verilən cədvəllər də maraqlıdır (s.210–290).

Müəllif göstərir ki, bu cədvəllərin hazırlanması çox əzablı və çətin olmuşdur, çünki müəyyən sözləri lüğətlərdən belə tapıb dəqiqləşdirmək mümkün deyil. Sözlərin bir çoxunun müasir dildə istifadə edilmədiyi üçün onların mənalarını aydınlaşdırmaq xüsusi tədqiqat tələb edir.

Kitabda verilmiş cədvəllər çox böyükdür. Təkcə qohumluq adlarına həsr olunmuş cədvəldə 48 söz var. Ayların adları cədvəlində onların həm keçmişdə, həm də sovet dövründə işlənən adları verilmişdir.

Xüsusi adların cədvəli də maraqlıdır: Bakı, Təbriz, Ərdəbil, Qarabağ, Şirvan, Savalan, Səhənd, Kür çayı, Xəzər də-

nizi və b. (s.281–283). Sifət və zərfə aid cədvəllər də yaxşı işlənmişdir (s.291–304).

İstiqamət bildirən tərəf, yan, qarşı, eləcə də sonra, bəri, əvvəl və bu kimi sözlərlə işlənən ifadələrin də cədvəli verilmişdir (s.305–313).

Müəllif göstərir ki, cədvəlləri tərtib edərkən işi çətinləşdirən bir də Azərbaycan dili idiomatik ifadələrinin tərkibində bir çox ərəb və fars sözlərinin olmasıdır. Tədqiqatçı elə və ol felləri ilə əmələ gələn idiomatik ifadələrdən hərtərəfli danışır və cədvəllər verir.

Gerd Frayenkel belə, bəs, demək, bəs onda, belə billəm, yuxarı, aşağı, irəli, geri, qədər, tay, bəs, demək, bundan belə, görə, üzrə və b. sözlərin cümlədə işlənmə yerindən danışır və müvafiq cədvəllər verir (s.315–322).

Müəllif burada sayılan və sayılmayan isimlərdən ingilis və Azərbaycan dillərində onların işlənmə yerindən söz açır, cədvəllər verir. Həmçinin cansız isimlərdən bəhs edilir və burada heyvanlar da cansız isimlər sırasında yer alır.

«Azərbaycan dilinin generativ qrammatikası» əsərinin üçüncü fəsli məcburi (zəruri) transformasiya və morfofonem qaydalarına həsr olunmuşdur (s.324–440).

Alim bir sıra sözlərin iki cür işlədildiyini göstərir: genə–yenə; örümçək–hörümçək; məscid–məçid; murdar–mundar; puş–puç; dümdüz–düpdüz; tərtəmiz–təptəmiz; yarpaq–yapraq; öyrən–örkən; sürfə–süfrə; torpaq–topraq; piş–biş; tut–dut; tükan–dükan; tuş–duş; götürt–götüzdür; qaldır–qalxız; doktor–doktur və b.

Burada, eyni zamanda şəxs şəkilçilərindən, ismin hallarından danışılır. Üçüncü şəxsin tək və cəmində ismin bir formada işləndiyi (məs.: onun kitabı–onların kitabı) göstərilir.

Burada ahəng qanunundan və cümlədə söz sırasından da danışılır. Alim göstərir ki, Azərbaycan dilinin öz sözlərində ahəng qanunu gözlənilir və cümlədə söz sırası Azərbaycan dili üçün əsas deyil. Bu fikir özünü doğrultmur, çünki dilimizdə söz sırasının özünəməxsus qanunauyğunluğu var[24].

Da ədatından danışan müəllif göstərir ki, ingilis dilində bu, emfatik vurğu ilə əvəz olunur. Alim doğru olaraq, Azərbaycan dilində vurğunun sözün son hecası üzərinə düşdüyünü qeyd edir.

Dissertasiyanın böyük bir fəsli intonasiyaya həsr olunmuşdur (s.442–473). Əsərdə göstərilir ki, Azərbaycan dilində fikrin bitdiyini üç yolla göstərmək olar: qalxan tonla, düşən tonla, bərabərsəviyyəli tonla. Bərabərsəviyyəli ton odur ki, frazalar arasında kiçik durğu (fasilə) edilir və ton azacıq aşağı düşür. Tədqiqatçı qalxan və düşən tonla deyilən cümlə növlərindən danışır və müvafiq modellər verir.

Bütöv bir fəsil isə Azərbaycan dili törədici qrammatikasına dair nümunələrə–cümlələrə həsr edilmişdir (s.474–552). Əsərin yeddinci fəsli isə işarələrdən söz açır. (s.553–570). Kitabiyyat (s.570–576) və tədqiqatçı haqqında məlumat (s.577–579) dissertasiyanın sonunda verilmişdir.

Tədqiqatçı yeri gəldikcə Azərbaycan alimlərinin də əsərlərinə üz tutur. Təkcə onu demək yetər ki, o, 50-ci illərdə Azərbaycanda nəşr olunmuş 46 əsərdən bəhrələnmişdir. Dissertasiyada M.Şirəliyev, M.Hüseynzadə, Z.Budaqova, R.Rüstəmov, H.Hüseynov, S.Cəfərov, Y.Mirbabayev, M.İslamov, İ.Abdullayev, M.Süleymanov, İ.Cəfərli, F.Kazımov, Ə.Hüseynzadə və başqalarının əsərlərinə istinad edilmişdir. Əsərin yazılışında «Azərbaycanca-rusca lüğət» (1941), «Farsca-rusca-azərbaycanca lüğət» (1945), «Rus-

ca–azərbaycanca lüğət» (1956), «Atalar sözləri» (1956) və bədii ədəbiyyatdan istifadə edilmişdir. Ümumiyyətlə, kitabiyyat bir neçə bölmədən ibarətdir. II bölmə «Qərbi Avropa dillərində Azərbaycan dilinə həsr olunmuş tədqiqatlar və qaynaqlar», III bölmə «Azərbaycan dilində lüğət və qrammatikalar» adlanır.

Göründüyü kimi, ABŞ-da Azərbaycan dilinə dair maraqlı, ciddi elmi araşdırmalar aparılır. Güman etmək olar ki, belə tədqiqatlar gələcəkdə də davam etdiriləcəkdir.

Qaynaqlar:

1. Householder Fred. Azerbaicani Onomates–USA: İndiana University, 1959.
2. Householder Fred. Spoken Azerbaicani–USA: İndiana University, 1960.
3. Frayenkel Gerd. Mutual İntelligibility between Turkey Turkish and Azerbaicani–USA: İndiana University, 1961.
4. Frayenkel Gerd. A Generative Grammar of Azerbaicani–USA: İndiana University Library, 1962.
5. Householder Fred, Mansur Lutfi. A Basic Course of Azerbaicani–USA: İndiana University Publication, 1965.
6. Salim Hüseingulu oglu. A Generative Phonology of Azerbaicani–USA: The University of Florida, 1977.
7. Kuruoglu Ayse Guliz. Sentence Synonymy in Turkic Languages PH.D.- USA: The University of Washington, 1980.

İRAQ–TÜRKMAN TARİXİNƏ VƏ DİALEKTİNƏ BİR BAXIŞ *

İraq–türkman ləhcəsində danışan elat toplu halda İraq Respublikasının, əsasən, Kərkük vilayətində: Kərkük şəhərində, Tuz Xurmatu (qəza), Altun Köprü (nahiyə), Təzə Xurmatu (nahiyə), Bəşir, Böyük Hasar, Bilava, Qarabulaq, Qızılyar, Yaycı, Yarvəli, Yengicə, Kərküz, Kümbətlər, Leylan, Ömər Məndən, Tərcil, Gögtəppə, Tisin, Toxmaxlı, Tirkalan, Çardaxlı və eləcə də «Bayat köyləri» sahəsi adlanan və 64 kəndi əhatə edən Kifri (qəza), Qərətəppə (nahiyə), Daquq (nahiyə), Abud, Cambur, Birauçılı, Bastamlı, Qalxanlı, Qaranaz, Əmirli, Əski Kifri, Zəngili, Yeşiltəpə, Kəhriz, Kingirban, Kötəburun, Laqum, Aştökən, Pirəhməd, Səyyad, Süleyman bəg (Muratlı), Tel Mənzil, Üştəpə, Xasadarlı, Hasarlı, Cabarlı kimi şəhər, rayon, qəsəbə və kəndlərdə yaşayır. Bundan əlavə, Diyala vilayətinin Xanaqin (qəza), Şahraban (qəza), Dəlli Abbas (nahiyə), Məndəli (nahiyə), Qarağan, Qızlarbat, Qızılca, Susuzbulaq kəndlərində, Ərbil vilayətinin mərkəzi Ərbil şəhərində, Mosul vilayətinin Tiləfər qəzasında, Mosul şəhərində və ölkənin paytaxtı Bağdad şəhərində yaşayırlar.

Ölkənin müxtəlif bölgələrinə səpələndiklərindən onların sayı barədə dəqiq məlumat vermək çətindir. Yalnız onu deyə bilərik ki, 1963-cü ilin rəsmi statistik hesablamalarına görə təkcə Kərkük vilayətində əhalinin sayı 430 mindən çox idi.[25]

XX əsrin sonuna yaxın sayları 2 milyona yaxın olmuşdur.[26]

---

* Bu tədqiqat işi ingiliscə İraq türkmanlarının İstanbulda çıxan «Qardaşlıq» dərgisinin iki sayında (№22, 23, 2004) və «Azərbaycan» qəzetində (03.08.2002) çap olunmuşdur. Xeyli əlavələrlə təqdim edilir. (Müəllif)

Türkiyəli tədqiqatçı, prof. Cəlal Ərtuq hazırda İraqda iki milyon yarım türkman-azərinin yaşadığını göstərir.[27]

Kərküklü tədqiqatçı Həbib Hürmüzlü də bu fikirdədir.[28]

Çeşidli ictimai-siyasi səbəblər üzündən soykökündən ayrı düşən, təcrid olunaraq ərəb və kürd xalqlarının əhatəsində yaşayan, Azərbaycanca danışan İraq türkmanlarının ləhcəsi, demək olar ki, elmi-nəzəri tədqiqə cəlb olunmamışdır. Doğrudur, İraq–türkman ləhcəsinə dair kərküklü alim Əta Tərzibaşı, Məhəmməd Xurşid Daquqlu və başqalarının məqalələri çıxmış, Dr. Əbdüllətif Bəndəroğlunun «İraq-türkman dili» adlı kitabı çap olunmuş (Bağdad, 1976, təkrar nəşr, 1989), Prof.Dr. Hidayət Kamal Bayatlının «İraq–türkman türkcəsi» (Ankara, 1996), Həbib Hürmüzlünün «Kərkük Türkcesi sözlüğü» (İstanbul, 2003) işıq üzü görmüşdür. Lakin fikrimizcə, bu tədqiqlər lokal səciyyə daşıdığından, İraq–türkman ləhcəsinin şivələrinin incəlikləri əhatə edilmədiyindən bunları mükəmməl saymaq və son söz hesab etmək olmaz. Azərbaycanca danışan bu elatın ləhcəsinin elmi-nəzəri tədqiqi nəinki Azərbaycan dili tarixinin, eləcə də dialektlərinin hərtərəfli öyrənilməsi baxımından misilsiz əhəmiyyət kəsb edir. Biz burada, «Azərbaycanca danışan elat» təbirini təsadüfi işlətmədik. «Böyük Sovet Ensiklopediyası» başda olmaqla, bir çox qaynaqlar İraqda azəri türklərinin yaşadığını,[29] XX əsrin əvvəlində saylarının 100 mindən artıq olduğunu göstərirlər. Görkəmli türkoloq Karl Menges «Türk dilləri və türk xalqları» adlı sanballı kitabında yazır: «Azəri türkləri, eyni zamanda İraqın quzeyində də yaşayırlar. Sayları 100 mindən artıqdır».[30]

Onlar özlərini də, bizi də «türkman» adlandırırlar. Lakin Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövründə və sonralar da geniş mənada işlənən «türkman» etnonimi indiki mənadan fərqlənir. Ə.Dəmirçizadə «Azəri ədəbi dili tarixi»

kitabında bu münasibətlə yazmışdır: «O dövrlərdə «türkman» etnonimi indiki mənadan bir qədər fərqli işlənmiş, hətta indi Bağdad ətrafındakı azərilərin türkmən adlanmaları da bu sözün əvvəlki mənası ilə əlaqədardır».[31]

Başqa məxəzlərə nəzər saldıqda Ə.Dəmirçizadənin bu fikrinin tamamilə doğru olduğu təsdiqlənir:

Ərəbin nitqi bağlandı dilindən
Səni kimdir deyən kim, türkmansan.

(Nəsimi)

Getdikcə tükənir ərəbin kuhi-məskəni
Bağdad içrə hər neçə kim türkman qonar.

(Xətai)

İngilis tarixçisi Stefan Lonqriq isə «Müasir İraqın dörd əsri» adlı kitabında göstərir ki, Şah İsmayıl Şirvanı tutduqdan sonra Naxçıvan yaxınlığındakı vuruşda türkmanları bir dəfəlik darmadağın etdi.[32]

Ziya Bünyadovun «Azərbaycan Atabəylər dövləti» kitabında da «türkman» etnonimi ilə bağlı bir çox bilgilər vardır. Kitabda göstərilir ki, III Toğrul dayısı Qızıl Arslana qarşı çıxır. Qızıl Arslan III Toğrulun və İzzətdin Həsənin türkmanlardan ibarət ordusunu darmadağın edir. Onlar döyüş meydanından qaçır, İzzətdin Həsənin Kərkük yaxınlığındakı Kərxin qalasına gəlirlər.[33]

Kərküklü tədqiqatçı Əta Tərzibaşının araşdırmalarında da «türkman» etnoniminə sıx-sıx rast gəlirik. Görkəmli folklorşünas alim yazır ki, xoyratın (bayatı) kökləri İraqda türkmanların yaşadığı bölgələrdə meydana çıxmış, Ağqoyunlu və Qaraqoyunlu Türkman dövlətləri zamanı inkişaf edərək sonralar İraqdan Türkiyəyə, İranın quzeyinə, xüsusən də

əhalisi türkman olan Təbrizə və eləcə də Azəri və ya Azərbaycan deyə adlandırılan və türkmanlardan ibarət Azərbaycan torpaqlarına yayılmışdır.[34]

Kərküklü alim Hidayət Kamal Bayatlı da bu məsələyə öz münasibətini bildirir. «Əslən Azərbaycan türklərindən olan İraq türkmanlarının bir qismi də miladi 1505–1524 tarixlərində Şah İsmayıl tərəfindən İraqa yerləşdirilmişdi.[35]

Burada diqqəti cəlb edən bir məsələni də xüsusi qeyd etmək zərurəti ortaya çıxır. Məsələ burasındadır ki, bəzi tədqiqatçılar «türkman», bəziləri isə «türkmən» etnonimini işlətmişlər. Görkəmli İraq–türkman tədqiqatçılarından Əta Tərzibaşı, Şakir Sabir Zabit, İbrahim Daquqi, Rza Dəmirçi, Sinan Səid, Mövlud Taha Qayaçı, Həbib Hürmüzlü və başqaları «türkman» etnonimini işlətdikləri halda, bəzi tədqiqatçılar, xüsusən də Ə.Bəndəroğlu son vaxtlar «türkmən» etnoniminə üstünlük vermişdir. Onun redaktor olduğu «Yurd» qəzetində və 1999-cu ilə qədər rəhbərlik etdiyi «Türkman Mədəniyyəti müdirliyi» xətti ilə buraxılan kitablarda da bu söz «türkmən» şəklində yazılıb. Əvvəllər özünün «İraq–türkman ədəbiyyatı yolunda bir addım» və «Türkmanlar inqilabi İraqda» kitablarının adında belə «türkman» etnonimini işlədən tədqiqatçı «İraq–türkman folkloru» adlı əsərimizi redaktə edərkən bildirdi ki, ərəblərin də bu sözü «türkman» kimi işlətdiklərindən fərqlənmək üçün axır vaxtlar «türkmən» etnoniminə üstünlük vermişdir.

«Dədə-Qorqud» tədqiqatçıları F.Zeynalov və S.Əlizadə bu məsələnin çox zəruri olduğunu qeyd edirlər: «Drezden nüsxəsində aydın-aşkar əliflə yazılan sözün «türkman» oxunması xüsusi əhəmiyyət kəsb edir.

Kərküklü tədqiqatçı prof. Mahir Naqib də bizim qənaətimizin doğru olduğunu xüsusi qeyd edir: «Burada oxucunun diqqətini bir cəhətə də çəkmək zərurəti ortaya çıxır.

Əsər oxunarkən görünəcək ki, hörmətli Q.Paşayev «türkmən»i «türkman»dan ayırmaqdadır. Hətta kitabın azəri çapında ona «İraq–türkman folkloru» adı vermişdir. Q.Paşayevin çeşidli qaynaqlara dayanaraq müdafiə etdiyi qənaəti dəstəkləmək gərəkdi».[36]

Tədqiqatçılar çağlar boyunca «türkman» etnoniminin etimologiyası ilə də məşğul olmuş, müxtəlif fikirlər söyləmişlər. XI əsrdən başlayaraq bu sözə farsdilli qaynaqlarda «türkmanend» biçimində rast gəlinmiş və «türkəbənzər» mənasında işlənmişdir.[37]

Əbdülqazi Bahadır xanın bu barədə fikri maraq doğurur: «Əvvəlki türklərə isə türkmanənd adı verdilər ki, anlamı türkə oxşayan deməkdir. Sadə xalq (kara xalq) türkmanənd deyə bilmədilər və türkmən dedilər».[38]

Bəzi tədqiqatçılar isə «türkman» etnoniminin «türk» və «man» və ya «türk» və «mən» kəlmələrindən yarandığını və «türk adamı», «türk əsgəri» mənasında işləndiyini qeyd edirlər.[39]

Türkman sözünə çox əski zamanlardan təsadüf edildiyini nəzərə alsaq, bu etnonimin «ulu türk», «xalis türk», «əsl türk» anlamında işləndiyi şübhə doğurmaz.

Xoşbəxtlikdən C.Deni, Hüseyn Hüsamettin, İbrahim Kafesoğlu, Erşad Hürmüzlü, Mahir Naqib, Tofiq Hacıyev kimi tədqiqatçılar da bizim fikrimizə uyğun mülahizələr irəli sürürlər.[40]

Onların nə zaman və haradan köçərək burada məskən salmaları barədə də müxtəlif tarixi faktlara rast gəlirik. Əksər tədqiqatçılar onların, əsasən, Güney və Quzey Azərbaycandan köçüb getdiklərini qeyd edirlər.

Biz o fikirdəyik ki, erkən orta əsrlərdən başlamış XVI əsrin ortalarına qədər və sonralar da müəyyən dövrlərdə İraq türkmanları ilə bütöv bir ərazidə, bir bayraq altında yaşa-

mış, sonralar müəyyən ictimai-siyasi səbəblər üzündən parçalanmağa məruz qalmışıq. Son zamanlar İraq–türkman və Azərbaycan tarixinə dair sanballı tədqiqatlar işıq üzü gördükcə bu qənaətimiz daha da möhkəmlənmişdir.[41]

Bununla belə, qanlı müharibələr, siyasi məqsədlər və başqa səbəblər üzündən müəyyən axınların olduğunu da inkar etmirik.

Və bu axınlar təkcə Azərbaycanın müxtəlif bölgələrindən İraqa gedənlərlə bitməmiş, İraqdan da türkmanlar Azərbaycana köç etmişlər. Əbdülqazi Bahadır xan bu münasibətlə yazmışdır: «O zamanlar İraqda köçəri xalq–Bayındır eli vardı. Öğürçik alp Bayındır bəyinin buyruğuna baxmadı… Min evlik eli ilə o, İraqdan qaçdı və Şamaxıya gəldi».[42]

Ərəb tarixçisi Təbəri və prof. Süphi Saatçı türklərin İraqa ilk gəlişini 54 hicri ilinə təsadüf etdiyini göstərirlər.[43]

Türk alimi, professor S.Buluç bu münasibətlə yazır: «Hicrətin ilk yüz illərində Azərbaycan türkləri Təbriz-Sultaniyyədən keçərək Kərkük yörəsinə yerləşirlər».[44]

Kərküklü tədqiqatçı Şakir Sabir Zabit azəri türklərinin İraqda məskən salmasının VII əsrdə başladığını və miladi 745-ci ildə Bağdadda artıq onların məhəllələrinin yarandığını göstərmişdir.[45]

XII–XIII əsrlərdə yaşamış ərəb tarixçisi İbn əl-Əsir isə yazır: «1045-ci ildə çoxlu Azərbaycan türkləri Əbu Mənsur Bəktaş və Əbu Əli İbn Dehqanın rəhbərliyi ilə İraqa göçərək Tiləfər, Mosul və ona bitişik bölgələrdə məskən salmışlar.[46]

İngilis tarixçisi S.Lonqriq və Azərbaycan alimi A.İ.Zahidi də bu fikirdədirlər.[47]

Tanınmış iraqlı tədqiqatçı Mustafa Cavad «İraqda türklərin tarixi» adlı sanballı tədqiqatında türklərin İraqa axınının başlanğıcını hicri 32-ci ilə aid edir və bu axınları yeddi mərhələyə bölür. Əməvilər, xüsusən də Abbasilər dövründə

İraqda türklərin nüfuzunun artdığını, mövqelərinin möhkəmləndiyini qeyd edir. Onların atıcılıqda məharətli, müharibədə cəsarətli, çətinliklərdə səbirli olduqlarına görə orduda əsas qüvvəyə çevrildiklərini göstərir. Mustafa Cavad dördüncü mərhələ hesab etdiyi Səlcuqlar dövründə İraqa minlərcə oğuz türklərinin daxil olduğunu, İraqda köklü halda yerləşərək Türkman xanlıqlarını, Mosul Atabəyləri, Ərbildə Zeynalabdinlilər, Kərkükdə Qıpçaqlar, Diyarbəkrdə Qara Aslanlılar–Dağıstan və Azərbaycan xanlıqları qurduqlarını qeyd edir. Tədqiqatçının fikrincə, Qara Təpə və Daquq tərəflərdə məskən salan Bayatlar İraqa dördüncü mərhələdə daxil olmuşlar. Cəlairilər və Teymurilər zamanındakı axın beşinci mərhələyə aid edilir. Mustafa Cavad Qaraqoyunlular və Ağqoyunlular dövrünü altıncı mərhələyə daxil edir. Yeddinci mərhələ isə Səfəvilər dövrü hesab olunur.[48]

Prof. Hidayət Kamal Bayatlı da eyni fikirdədir.[49]

Prof. Suphi Saatçı da türklərin İraqa ilk gəlişini hicri 54 (miladi 674) ilinə aid edir və türklərin İraqa axınlarını səkkiz mərhələyə bölür, son mərhələ osmanlı dövrü (1534–1918) adlanır.[50]

Tədqiqatçı Erşad Hürmüzlünün göstərdiyinə görə ən böyük türkman dalğaları İraqa Toğrul bəyin vaxtında (1040–1063) girmişdir. Miladi 1055-ci ildə onların sayı lap çox idi. Bu vaxt və sonralar türkmanların İraqa davam edən köçləri ölkənin quzey bölgəsini türk vətəni halına gətirmişdi.[51]

Tarixdən o da məlumdur ki, 1136-cı ildə Şəmsəddin Eldəniz Azərbaycana hakim təyin olunduqdan sonra və onun oğulları Mühəmməd Cahan Pəhləvan və Qızıl Arslanın hakimiyyəti dövründə İraqla əlaqə çox qüvvətləndi.[52]

Şəmsəddin Eldənizin vaxtında İraq və Azərbaycanda ordu da, dövlət də bir bayraq altında birləşmiş, xalq əmin-amanlıqla yaşamağa başlamışdı.[53]

O, vaxtaşırı gah İraqda, gah da Azərbaycanda olurdu. 1175-ci ildə İraqdan Azərbaycana gələn və az sonra Naxçıvanda vəfat edən[61] Eldənizin oğlanları Cahan Pəhləvan da, Qızıl Arslan da İraqın, Azərbaycanın, Arranın, Reyin, İsfahanın, Həmədanın və başqa vilayətlərin mütləq hakimi idi.[54]

İndi türkmanlar yaşayan Daquq, Ərbil, Kərkük və s. daxil olmaqla Atabəylər dövründə Gəncə, Naxçıvan, Təbriz və başqa şəhərlər də bir bayraq altında birləşirdi.[55]

Son Abbasi xəlifəsinin 1258-ci ildə edam edilməsindən sonra Bağdad başda olmaqla bütün ətraf şəhər və kəndlər Azərbaycanın əyalətinə çevrilərək onun tabeliyinə keçmişdi.[56]

O vaxtdan Bağdad ətrafında, Kərkük, Mosul, Ərbil və s. şəhər və qəsəbələrdə yaşayan soydaşlarımızla Güney və Quzey azərbaycanlıları arasında əlaqə daha da qüvvətlənmişdi. Qaraqoyunlu dövləti Azərbaycan, Ermənistan, Qərbi İran, İraq, Kürdüstan və s. əraziləri əhatə edirdi. Paytaxtı Təbriz idi. Əsas şəhərləri Təbriz, Marağa, Ərdəbil, Naxçıvan, Gəncə, Bağdad, Ərzincan və s. idi.[57]

Ağqoyunlular, xüsusən də Uzun Həsənin hakimiyyəti dövründə Azərbaycanın Kür çayına qədər bütün torpaqları, Qarabağ mahalı, Ərəb İraqı, İran İraqı, Fars və Xorasan sərhədlərinə qədər bütün torpaqlar, Ərzincan və s. daxil olmaqla ona–Uzun Həsənə tabe idi.[58]

Maraqlıdır ki, Dəli Domrul, bu gün də Kərkük dolaylarında «dəlli dobur» formasında «dəlidolu» mənasında işlənir.[59]

Təsadüfi deyildir ki, Uzun Həsən Avropa dövlət başçılarına göndərdiyi məktubda xüsusi qeyd edirdi: «...İraq, Hindistanın qapılarına qədər bütün Fars, ...Mazandaran, Gilan, ...Azərbaycan, Bağdad–hamısı mənim torpaqlarımdır. Mən bu yerlərin hökmdarıyam...»[60]

Maraqlıdır ki, ingilis tədqiqatçısı S.Lonqriq Uzun Həsənin vaxtında ölkənin paytaxtının yayda Təbriz, qışda Bağdad olduğunu göstərir.[61]

Babası Uzun Həsənin vaxtında olduğu kimi, Şah İsmayıl Xətai dövründə də İraqla Azərbaycanın bir bayraq altında birləşməsi və vahid Azərbaycan yaratmaq məqsədilə 1506-cı ildə Şah İsmayılın Bağdadı tutması Osmanlı sultanlığını çox narahat edirdi. Osmanlı sultanlığı Səfəvi dövlətinin qüvvətlənməsindən çəkinirdi. Odur ki böyük qüvvə toplayıb Səfəvilərə qarşı müharibəyə girişdi və tarixdə məşhur olan Çaldıran vuruşunda qalib gəldi. Məğlubiyyət Səfəvi dövlətini böyük itkilər vermək məcburiyyətində qoydu. Həmin itkilərdən biri də Bağdadın əldən getməsi idi.

Sonralar da Azərbaycan hakimləri hər vasitə ilə Bağdadı geri almağa çalışırlar.[62]

Bu baxımdan Azərbaycan alimi Ə.Məmmədovun göstərdiyi faktlar diqqəti cəlb edir. Şahzadə Bəyazid atası Sultan Süleyman və qardaşı II Səlimə qarşı qiyamda iştirak edir. Qiyam uğursuzluqla nəticələnir. Bəyazid Səfəvilərə pənah gətirir. Sultan Süleyman Səfəvilərə böyük miqdarda hədiyyələr vəd edərək oğlunu edam etmək üçün geri tələb edir. Şah Təhmasib Sultan Süleymanın təklifini bir şərtlə qəbul etməyə hazır olduğunu bildirir ki, Bağdad yenidən Azərbaycana ilhaq edilsin. Lakin Sultan Süleyman bu şərti qəbul etmir.[63]

Azərbaycanla Türkiyə arasında baş verən 1533–1535-ci illər müharibəsində Azərbaycan Bağdad da daxil olmaqla bütün İraqı itirdi.[64]

Lakin Şah Abbasın vaxtından başlayaraq 1623–1638-ci illər arası Bağdad, Kərkük və s. yenidən Səfəvi idarəsinə bağlanmış, 1638-ci ildən bir daha Osmanlı idarəsində olmuşdur.[65]

1732-ci ildən 1743-cü ilə qədər yenidən gah osmanlıların, gah azərbaycanlıların təbəəliyində olmuş, 1743–1746-cı illərdə tamamilə Azərbaycanın əlində olsa da, 1747-ci ildən ingilis tarixçisi Stefan Lonqriqin təbirincə desək, Bağdad, Mosul, Kərkük və s. şəhərlər birdəfəlik xan itirib paşa qazandı.[66]

Bundan sonra İraqla olan əlaqələrimiz kəsilmək dərəcəsinə qədər gəlib çatdı. Məhz buna görə də Azərbaycan hakimləri İraqda məskən tutmuş qəbilələri geri qaytarmağa təşəbbüs göstərdilər. Mirzə Camal Cavanşir bu münasibətlə yazır: «1747-ci ildə Nadir şah öldürüldükdən sonra Pənah xan yanında olan adamlarla birlikdə Qarabağ ellərini qarşılamaq üçün İraq və Azərbaycan sərhədlərinə qədər getdi. Onların bu səfəri bir nəticə verməsi».[67]

Demək lazımdır ki, burada təkcə Qarabağ elləri deyil, bütün Azərbaycandan qəbilələr məskən salmışdı. Ara kəsildikdən sonra həsrət çəkən, kəsilən yollardan şikayətlənən xalq ürək sızıltısını, ələmini izhar etdiyi:

Əslim Qarabağlıdı,
Sinəm çarpaz dağlıdı.
Kəsilib gəlib-gedən
Demə yollar bağlıdı.

Bağdad yolu Gəncədi,
Gülü pəncə-pəncədi.
Demə sizdən irağam,
Bu sevda öləncədi və s.

kimi onlarca xoyrat (bayatı) meydana gəlmişdir.

Lakin nə kəsilən yollar, nə də ayrılığa gətirib çıxaran illər bu elatın dilinə təsir edə bilməmişdir. O vaxtdan yazı dili Osmanlı türkcəsi kimi qəbul olunsa da, danışıq dili və folkloru Azərbaycan türkcəsini təmsil etmişdir.

Doğrudan da, İraq–türkman ləhcəsinə, onun folkloruna və xalq havalarına bələd olan türk, Azərbaycan və eləcə də iraqlı alimlər bu elatın ləhcəsinin Azərbaycan dili ilə üst-üstə düşdüyünü, eyni kökdən olduğunu, folklor və xalq havalarının fərqlənmədiyini qeyd edirlər.

«İraq türkmanları, yəni oğuzcanın azəri ləhcəsini qonuşan türklər» – deyə türk alimi Fuad Köprülü qəti qənaətə gəlir.

Bu baxımdan kərküklü tədqiqatçı Əta Tərzibaşının da fikri böyük əhəmiyyət kəsb edir: «Bizim türkman ləhcəsi azəri ləhcəsinə türk ləhcəsindən daha yaxın, bəlkə də, əkiz qardaşlar olmaqla bərabər, bütün bu ləhcələr uzun bir tarix boyunca çeşidli səbəblərin təsiri ilə bir-birindən xəbərsiz olaraq gəlişdikləri halda aralarında görkəmli fərqlər bilinməmişdir.[68]

Azərbaycan dili tarixi üzrə görkəmli mütəxəssis H.Mirzəzadə də «İraq ərazisində yaşayan azərbaycanlıların dili haqqında bəzi mülahizələr» adlı sanballı məqaləsində bu fikri təsdiq edir.[69]

Maraqlıdır ki, Azərbaycan ədəbi dili tarixindən danışılarkən XV–XVI əsr ədəbi dilimizdə Cənubi Azərbaycan və Bağdad (Kərkük) şivə xüsusiyyətlərinin üstünlük təşkil etdiyi göstərilmiş, İraq–türkman ləhcəsi Azərbaycan dilinin cənub qrupu dialekt və şivələri sırasına daxil edilmişdir.[70]

Yeri gəlmişkən, qeyd edək ki, dilin fonetik və leksik göstəricilərinə əsasən Azərbaycan dilinin cənub və şərq qrupu dialekt və şivələrinin xüsusiyyətləri ilə səsləşdiyinə görə «Kitabi-Dədə Qorqud» tədqiqatçılarından V.Bartold, F.Köprülü, A.Dilaçar, M.Ergin onun azərbaycanlılara, V.Bartoldun təbirincə desək, Qafqaz türkmanlarına məxsus olduğunu,[71] O.Gökyay, M.Ergin, Y.Yakubovski, H.Araslı, M.Təhmasib, Ə.Dəmirçizadə, Ş.Cəmşidov, X.Koroğlu və başqaları isə əsərin Drezden nüsxəsinin, ümumiyyətlə, Azərbaycanda qələmə alındığını təsdiq edirlər.[72]

Çəkinmədən demək olar ki, əsrlərlə başqa xalqlar əhatəsində qalan, məhz buna görə də qədim leksik və fonetik göstəricilərini daha çox saxlayan İraq türkmanlarının ləhcəsi «Kitabi-Dədə Qorqud»un dil xüsusiyyətlərini tamamilə əks etdirir. «Kitabi-Dədə Qorqud»da yer alan onlarca sözün indinin özündə belə Kərkük dolaylarında işlək olması, daha doğrusu, yalnız həmin sözlərin və həmin mənada işlənməsi tutarlı dəlil-sübutdur.

Yuxarıda göstərdiyimiz kimi, onlar özlərini də, bizi də türkman adlandırırlar. Maraqlıdır ki, Azərbaycan dilində olduğu kimi, onların ləhcəsində də Orta Asiyada yaşayan türkmənlərin dilindən əsaslı surətdə fərqlənən səciyyəvi xüsusiyyətlər vardır. Həmin fərqləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Türkmən dilində ilkin uzanan saitlər geniş yayılaraq yakut, altay qırğız, hətta roman-german dilləri ailəsinə daxil olan ingilis dilində olduğu kimi (şip-gəmi, şiip-qoyun), sözün mənasının dəyişməsinə səbəb olur; məsələn, baş-baş, baaş-yara; qör-gör, qöör-gor və s. Bu xüsusiyyətə nə Azərbaycan dilində, nə də İraq–türkman ləhcəsində rast gəlinir.

Qeyd etmək lazımdır ki, XX əsrin 70-ci illərinə qədər (bəziləri elə indinin özündə də) dialektoloqlarımız qaarı, daarı, saarı və s. kimi sözlərdə mövqeyindən asılı olan uzanmanı ilkin uzanma hesab edirdilər. Məna dəyişikliyi yaratmadığına görə bu uzanmanı ilkin uzanma hesab etmək olmaz.

2. Ərəb və ingilis dilləri üçün səciyyəvi olan dişarası s, z səsləri eynilə türkmən dili üçün də səciyyəvi olduğu halda, bu səslər nə Azərbaycan dilində, nə də (ərəb əhatəsində olmalarına baxmayaraq) İraq–türkman ləhcəsində müşahidə edilir.

3. Sağır nun səsi türkmən dili üçün səciyyəvi olduğu halda, bu səsə nə Azərbaycan ədəbi dilində, nə də İraq–türkman ləhcəsində təsadüf edilir.

4. Türkmən dilində müşahidə olunmayan g samiti Azərbaycan dili və İraq–türkman ləhcəsi üçün səciyyəvidir.

5. Türkmən dilində işlənən b (məs: ber) səsi Azərbaycan dilində və İraq–türkman ləhcəsində v, Kərkükdə isə w (dablyu) formasında işlənir.

6. Azərbaycan dili və İraq–türkman ləhcəsi üçün səciyyəvi olan -dık//-dik və -mış//-miş şəkilçiləri türkmən dilində -qan//-qen; -an//-en formasında işlənir.

7. Qəti gələcək zamanı əmələ gətirmək üçün türkmən dilində cak//cək (alcak, gelcek) şəkilçisindən, Azərbaycan dili və İraq–türkman ləhcəsində -acaq//-əcək (alacaq, gələcək) şəkilçisindən istifadə olunur.

Bir çox başqa xüsusiyyətlərinə görə də türkmən dili fərqləndiyi halda, Azərbaycan dili və İraq–türkman ləhcəsi fonetik, qrammatik quruluşuna və leksik xüsusiyyətlərinə görə üst-üstə düşür.

Biz türk dilləri ailəsində oğuz qrupuna daxil olan və daha yaxın qohum dilləri biri-birinə qarşı qoymaq fikrindən uzağıq. Kim bilmir ki, Türk dilləri ailəsində Osmanlı və azəri ləhcələri qədər biri-birinə yaxın olanı yoxdur?! Bununla belə, Azərbaycan dili və İraq–türkman ləhcəsinin qrammatik və leksik quruluşunu Osmanlı türkcəsi (türk dili) ilə müqayisə etdikdə uyğun, oxşar cəhətlərlə bərabər, həqiqət naminə deməliyik ki, fərqli cəhətlər də çoxdur.[73]

Prof. Hidayət Bayatlı və Həbib Hürmüzlü bu fərqli cəhətlərin həm şifahi və həm də yazılı dildə olduğunu qeyd edirlər.[74]

Prof. Hadı Mirzəzadə «İraq ərazisində yaşayan azərbaycanlıların dili haqqında bəzi mülahizələr» adlı məqaləsində bu məsələyə də toxunmuşdur: «Məlum olduğu üzrə XVI əsrdə İraqın Osmanlı hakimiyyəti təsiri altına düşməsindən sonra az da olsa yazı dilində türk dili ünsürləri özünü göstər-

mişdir. Lakin türklərin bu cəhətdən xalq dilinə olan nüfuzu bir o qədər də qüvvətli olmamışdır».[75]

Göründüyü kimi, Azərbaycan dilinə və eləcə də İraq–türkman ləhcəsinə bələd olanlar, bu sahədə tədqiqat aparanlar onların fərqlənmədiyini göstərirlər. Bununla belə, artıq qeyd etdiyimiz kimi, türk, türkmən, Azərbaycan dilləri türk dillərinin oğuz qrupuna daxildir və qıpçaq və karluq türk dilləri qrupuna nisbətən oxşar xüsusiyyətləri ilə fərqlənir. Lakin gün kimi aydın bir həqiqət də vardır. İraq–türkman ləhcəsi Azərbaycan dili ilə eyniyyət təşkil edir. Türk Dil Qurumu başqanı Əmir Asim kərküklü tədqiqatçı Molla Sabirin 1951-ci ildə Bağdadda çap olunmuş «Kərkük müntəxəb xoriyatları» kitabını (I hissə) oxuyaraq, həmin kitabın 1953-cü ildə çıxan II hissəsinə yazdığı müqəddimədə göstərir: «Azəri ləhcəsində gözəl örnəkləri olan bu xalq şeirlərində bizim dərləmələrə sıqısıqaya bağlı olan kəlmələr, təbirlər vardır».[76]

Türkiyənin Əskişəhər vilayətində liseydə müəllim işləyən Vahabi Aşqun Molla Sabirin II kitabına yazdığı müqəddimədə haqlı olaraq qeyd edir: «İlk kitabda olduğu gibi, bu kitabdakılar da azəri ləhcəsindədir».[77]

Türkiyənin Belqraddakı səfirliyinin müşaviri Mir oğlu Cəmil də Molla Sabirin kitabını oxuyaraq yazmışdır: «Sabir bəg əfəndinin «Kərkük müntəxəb xoyratları» kitabından görülür ki, dil, Türkiyə, yəni qərb türkcəsinə ən yaxın türk ləhcəsi olan azəri ləhcəsindən həmən-həmən fərqsizdir».[78]

İraq–türkman ədəbiyyatı, folkloru və ləhcəsi üzrə sanballı monoqrafiyalar müəllifi Ə.Bəndəroğlunun gəldiyi nəticə də maraq doğurur: «İraq türkmanlarının ləhcəsi Azərbaycan dilindən fərqlənmir. Lakin İraq türkmanlarının ləhcəsində bəzi xırda fərqlər nəzərə çarpır. Onlar çox cüzidir və qeyri-adi bir şey kimi sayılmamalıdır».[79]

Prof. Hidayət Kamal Bayatlı da «İraq–türkmən türkcəsi» adlı kitabında çox doğru qənaətə gəlmişdir: «İraq türkmanlarının qonuşduğu ağız, türkcənin azəri ağzı sahəsi içinə girməkdədir. Azəri ağzı dil coğrafiyası baxımından: Doğu Anadolu, Güney Qafqaziya, Qafqaz Azərbaycanı, İran Azərbaycanı, Kərkük (İraq) və Suriya türkləri bölgələrini qapsar. Folklor dəgəri baxımından da Türkcənin çox zəngin və çeşidli məlzəməsini daşıyan yenə də azəri ağızlarıdır».[80]

Kərküklü tədqiqatçı Həbib Hürmüzlü də eyni fikirdədir.[81]

Görkəmli türkoloq alim, prof. Fərhad Zeynalov da dil baxımından birliyimizi göstərmişdir. O, Ə.Bəndəroğlunun «İraq–türkmən dili» adlı kitabına həsr etdiyi «Əbdüllətif Bəndəroğlu və İraq–türkman dilinin tədqiqi» məqaləsində aşağıdakı qənaətə gəlmişdir: «Hər şeydən əvvəl, onu deyə bilərik ki, bu dilin «fonetik quruluşu tamamilə Azərbaycan dilinin fonetik quruluşu ilə üst-üstə düşür... Əsər bütün spesifik leksik, fonetik və qrammatik baxımından Azərbaycan dilinə uyğun gələn türkman dilini birinci dəfə olaraq bu səviyyədə əhatəli şərh edən qiymətli bir tədqiqat işi kimi təqdirə layiqdir».[82]

Doğrudan da, Ə.Bəndəroğlunun kitabı buna əsas verir. Tədqiqatçı maraqlı tərzdə, səs-küysüz, bu doğmalığı, bu dil birliyini ortaya qoymuşdur.

Kərküklü alim Sinan Səid İraq türkmanları arasında şöhrət tapmış «Arzu–Qəmbər» dastanı üzərində tədqiqat apararaq göstərir ki, bu dastan İraq türkmanlarının ləhcələrini öyrənmək üçün istinad ediləcək bir sənəd, onların kimliyini aydınlaşdıran əhəmiyyətli bir abidədir. Tədqiqatçı:

Arzum əndi bulağa,
Səsi gəldi qulağa.
Arzıya peşkəş olsun,
Şirvan, Təbriz, Marağa–

bəndini misal gətirərək yazır: «Bu misralar dastanın harada və kimin tərəfindən yarandığını aydın surətdə göstərməyə kifayət edəcək dəlildir».[83]

Dastanın Tuz Xurmatu variantında isə hadisələr Araz çayı sahillərində cərəyan edir:

Quruyasan, ey Araz,
Əlimizdən düşdü saz.
Qəmbəri çay apardı.
Yetiş, ey Xızır İlyas.[84]

Bu bənd özü də birliyimizi göstərən tutarlı faktdır.

İraq–türkman mənəvi dəyərlərinin tədqiqi və təbliği yolunda böyük işlər görən Sübhi Saatçı da bu tarixi məsələyə öz vətəndaş münasibətini bildirmişdir: «Kərkükdə qarşımıza çıxan çox rəngli folklor və xalq ədəbiyyatı incələnərsə, Kərkük ağzının azəri türkcəsinin motivlərini daşıdığı qolaylıqla anlaşılır. İstər Quzey Azərbaycan, istər Güney Azərbaycan olsun, bu bölgələrdəki azərilərin kültür veriləri incələnərsə, Kərkükdəki sözlü ədəbiyyat örnəklərinin də eyni qaynaqdan bəslənmiş olduqları kəndilərindən anlaşılır. Laylalardan tutub ta tapmaca və masallara qədər bu birlik və bərabərliyi görmək mümkündür.[85]

Təəccüblü deyil ki, əslən Ərbildən olan dünya şöhrətli alim, professor İhsan Doğramacı 1995-ci ildə Azərbaycan Elmlər Akademiyasında davamlı olaraq Ərbil ləhcəsində, daha doğrusu, Azərbaycanca danışanda Türkiyədən gələn qonaqların onu yaxşı anlamadığını hiss etdi və birdən Akademiyanın Prezidentinə tərəf çevrilərək dedi: «İcazə versəniz, Akademiyanızın fəaliyyətini Türkiyədən gələn qonaqlarımıza onların öz ləhcələri ilə anladaram».[86]

Televiziya müxbirinin: İkinci vətəniniz Azərbaycanda 80 illik doğum gününüzün bayram edilməsini necə qarşılayırsı-

nız? sualına Doğramacı çoxmənalı və düşündürücü cavab verdi: «Azərbaycan mənim ikinci vətənim deyildir. O, mənim iki vətənimdən biridir. Öz vətənimdə doğum ilimi keçirmək qədər də real və təbii bir şey ola bilməz».[87]

Göründüyü kimi, İhsan Doğramacı haqlı olaraq Azərbaycanı doğma vətəni, Azərbaycan dilini öz doğma dili hesab edir.

Heç şübhəsiz, bir bütövün parçaları olmağımızdanıq ki, onlar haqlı olaraq Nəsimi və Füzulini İraq–türkman şairi, biz isə Azərbaycan şairi kimi tanıyırıq və buna təbii baxırıq.

Bəlkə, elə buna görədir ki, XX əsrin 1-ci yarısında Nizaminin Tehranda farsca çap olunan və Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin Nizami daimi ekspozisiyasını bəzəyən «Xosrov və Şirin» (1934), «Sirlər xəzinəsi» (1934), «Yeddi Gözəl» (1937), «İqbalnamə» (1939) kitablarının üzərində Nizami İraq şairi kimi təqdim olunmuş, yalnız «Leyli və Məcnun» (1939) əsərinin üzərində İraqi-əcəm şairi kimi göstərilmişdir.

Bəs əsrlər boyu yad xalqlar əhatəsində qalan, ana dilində təhsil ocağı olmayan bu elat doğma dilini necə mühafizə edə bilmişdir?

Bu suala kərküklü İrmaq «Qardaşlıq» jurnalının 1962-ci il 5-ci nömrəsində gözəl cavab vermişdir. O yazır: «Vətən torpağı kiçilib-genişlənə bilər, tamamilə əldən çıxa bilər, sərhədləri tükənə bilər, tarixi təhrif edilə bilər. Hətta şan və şərəfi tapdalana bilər, dini dəyişdirilə bilər, lakin bir şey dəyişmir. Qalan bu tək varlıq ana dilidir».[88]

Cənab İrmağın dediyinə yalnız onu əlavə edə bilərəm ki, İraqa uzunmüddətli məzuniyyətim zamanı (1962–1966, 1972–1975) bir çox ailələrdə, böyük və kiçik məclislərdə oldum. Hamı ərəb dilini gözəl bilsə də, öz dillərində danışırdılar. Dilinə xor baxan görmədim. Ana dilinə olan münasibət, dərin məhəbbət aşağıdakı bayatılarda olduğu kimidir:

Dilim-dilim,
Kəs qovun dilim-dilim.
Mən dilimdən vaz keçməm
Olursam dilim-dilim.

Dilə dəgər,
Yaban söz dilə dəgər.
Laylanın şirin səsi
Beş min yad dilə dəgər.

Lakin bizim bu ümumiləşdirməmizdən belə nəticə çıxarmaq olmaz ki, İraq–türkman ləhcəsini ədəbi dilimizdən, hətta başqa dialekt və şivələrimizdən fərqləndirən xüsusiyyətlər yoxdur. Dilçilik elmindən məlumdur ki, yerli dialektlərin bəziləri vahid milli dillərin əmələ gəlməsində əsas ola bildiyi kimi, bəzən də müəyyən tarixi, ictimai-siyasi səbəblər nəticəsində bir xalqın vahid dili parçalanıb ayrı-ayrı müstəqil dillərin yaranmasına səbəb ola bilir.[89]

Bu təlimdən çıxış edərək İraq–türkman ləhcəsinin müstəqil dil halını almadığını göstərməklə bərabər, qeyd etməliyik ki, əsrlərlə Azərbaycan ədəbi dilinin təsir dairəsindən kənarda qalan İraq–türkman ləhcəsində xeyli özünəməxsusluqlar müşahidə olunur. İraq–türkman ləhcəsi aşağıdakı fonetik, qrammatik və leksik xüsusiyyətlərlə seçilir:

1. Qoşadodaq sonor w səsinin işlənməsi; məs.: wergi, xəlwət.

2. Dilarxası partlayan kar k` səsinin işlənməsi; məs.: k`ış (qış), k`ir (qır), k`ircan (xərçəng) və s.

3. İndiki zaman III şəxs təkin -ırı, -iri şəkilçiləri ilə işlənməsi: məs.: alırı, gəliri, oxurı, yazırı və s. Cənubi Azərbaycan dialektlərində də özünü göstərən bu hadisə barədə professor H.Mirzəzadə maraqlı fikir irəli sürmüşdür. Dil tarixi üzrə

görkəmli mütəxəssis göstərir ki, XVIII əsrə qədər Azərbaycan dilində hər üç şəxsin şəkilçisi olmuşdur; məs.: I şəxs tək–gəlirmən, II şəxs tək–gəlirsən, III şəxs tək isə gəliro–gəlirugəliri formasında işlənmişdir.[90]

4. Andə, əndə və bəzi başqa feli bağlamaların təsriflənməsi və şəxs şəkilçiləri qəbul edərək işlənməsi:

Təkdə:

I. Mən gələndəm Farux işlirdi.

II. Sən gələndəu (K.) // gələndəy (T.X.,A.K.) Farux işlirdi.

III. O gələndə Farux işlirdi.

Cəmdə:

I. Biz gələndəx Farux işlirdi.

II. Siz gələndəwiz (K.) // gələndəyiz (T.X.,A.K.) Farux işlirdi.

III. Olar gələndələr Farux işlirdi.

Başqa bir misal:

Dərdə kərəm,
Dərdim çox, dərdə kərəm.
Qoşmuşam qəm cütünü,
Sürdüxcə+m dərd əkərəm.

5. Felin bacarıq şəklinin inkarının -ama, -əmə şəkilçiləri ilə ifadəsi; məs: alamadım, qıyamadı, duramadıx və s.

6. -alı, -əli ilə yanaşı, -anı, -əni feli bağlama şəkilçilərinin işlənməsi; məs.: alanı, gələni, oxuyanı və s.

7. Qeyri-qəti gələcək zaman şəkilçisindən r səsinin düşməsi və ə, a səslərinin müvafiq olaraq i, ı səsləri ilə əvəz olunması; məs.: gəli, göri, bili, alı, süri, unudı və s.

8. Sifətin istər analitik, istərsə də sintetik yolla üstünlük dərəcəsinin əmələ gəlməsində səciyyəvi xüsusiyyətlərin

özünü göstərməsi; məs.: Çox-çox yedıx–«lap çox yedik», bambayaz, yapyeşıl//yepyeşil, masmavi, sipsiyah//simsiyah, apaçiq, qasqatı və s.[91]

9. On birdən on doqquzadək mürəkkəb miqdar saylarının ilk hecada olmaqla bir vurğu ilə tələffüz olunaraq birgə işlənməsi; məs.: ombir, onki, onüç, ombeş, ondoquz və s.

10. Şərt ədatı «isə»nin şəxs şəkilçisi qəbul etməsi:

Təkdə:
Mən isəm
Sən isəu (K.)//isəy (T.X.,A.K.)
O isə

Cəmdə:
Biz isəx
Siz isəwiz (K.)//isəyiz (T.X.,A.K.)
Olar isələr

11. Öz qayıdış əvəzliyi Kərkük, Tuz Xurmatu və s. şivələrdə «öz» formasında işləndiyi halda, bütün şəxslər üzrə Ərbil, Teləfər və Altun Köprü şivələrində, Cənubi Azərbaycanda təsadüf edilən formada işlənir. Məs.:

Təkdə:
I. billəm
II. biləy (Altun Köprü, Teləfər)
biləv (Ərbil ağzı)
III. biləsibiləmiz

Cəmdə:
biləyiz (Altun Köprü, Teləfər)
biləwiz (Ərbil ağzı)
bilələri[92]

12. Yönlük halın əvəzinə yerlik, çıxışlıq halın əvəzinə isə yönlük halın işlənməsi. Məs.: At kimin nə xaxın üzündə durusan? Babasına sorar və s.

13. Bəzi bölüşdürücü bağlayıcıların işlədilməsi. Məs.: Əgər ... əgər–«ya ... ya», yan ... yan,–«ya ... ya» və s.

Əgər dərviş, əgər hənfiş, ağca ilə bitər hər iş (atalar sözü).

14. İraq–türkman ləhcəsi üçün səciyyəvi olan sözlər də çoxdur. Nümunə olaraq aşağıdakıları göstərmək olar: qırçıl (çaş), doqal (yekəqarın), löüçə (danışığını bilməyən adam), zifir (yaxantı), keçəman (böyük kərtənkələ), gilau (murdar), mon// mun (qaraqabaq), lüs (şumal), sələv (araqatan), tikmə (dirək), tütün (tüstü), çəm (meşə), çəmçələ (arıq uşaq; müqəvva), çarx eləməğ (dolaşmaq, hər tərəfi gəzmək), uz (ağıllı, tədbirli), yazı (çol, səhra, bayır), yazı xaxı-kəndlilər, yazı sonası və s.

Buraya «Kitabi-Dədə Qorqud»da rast gəlinən və bu gün də İraq–türkman ləhcəsində işlək olan, yuxarıda sadaladığımız sözləri də əlavə etmək olar.

Çox maraqlı bir cəhəti də qeyd etmək istərdik. İraq–türkman ləhcəsinin Teləfər şivəsi leksik tərkibinə görə bütün başqa şivələrdən fərqlənir və müasir Azərbaycan dilinin lüğət tərkibinə uyğun gəlir. Azərbaycan dilində bu gün belə işlək olan sözlər Teləfər şivəsində müşahidə edilir: məs.: çörək, sürü, şor torpaq, yas, təkə, sataşmaq, təpişdirmək, baca, qəbir qazan, tuman bağı, udmağ, kəpənək, yumağ, axşam yeməği, solxay, üşümək, ötmək (bülbül, quş), paxir, soymaq (alma və s.), qonağ, toxum, qıtlıq, agız suyu, udum (qurtum), qaya, qalayçı, tas, acı, sarı yağ, halallaşmağ, nişanlamağ və s.

İraq–türkman ləhcəsində elə sözlər də vardır ki, onlara ancaq bu və ya digər dialekt və şivələrimizdə rast gəlirik: məs.: baba (ata), budamaq (vurmaq), varmaq (getmək), quçən (küçük), darılmaq (əsəbiləşmək), ənsə (arxa, dal), yazı (çöl, səhra) və s. belə sözlərdəndir.[115]

Bütün bunlarla yanaşı, İraq–türkman ləhcəsinin başqa dialekt və şivələrimizə yaxınlaşdıran xüsusiyyətlər də çoxdur. Apardığımız tədqiqatlar bizə İraq–türkman ləhcəsini Azərbaycan dili dialektlərindən Cənub və Şərq qrupu dialektlərinə daha yaxın olduğunu söyləməyə imkan verir.

İraq–türkman ləhcəsini Azərbaycan dilinin Cənub qrupu dialekt və şivələrinə yaxınlaşdıran xüsusiyyətlər, əsasən, aşağıdakılardır:

1. Sözün birinci hecasında a səsinin ə səsi ilə əvəzlənməsi; məs.: bəyrağ, qəymağ, qəmçi, əz, əyran və s.

2. e səsinin ə səsi ilə əvəzlənməsi: məs.: ənni, ərkək, həgbə və s.

3. o səsinin a səsi ilə əvəzlənməsi: məs.: awıç, qawın, nav.

4. ö səsinin ə səsi ilə əvəzlənməsi: məs.: çəmçə, əzbək və s.

5. Sözün birinci hecasında qapalı e səsindən əvvəl k səsinin g səsi ilə əvəzlənməsi: məs.: geçəl, geçi, gewil və s.

6. g səsinin c səsi ilə əvəzlənməsi (bu xüsusiyyət Ərbil şivəsinə aiddir): məs.: cəl, cet, cidən-cələn, cözəl//cüzəl, cilas və s.

7. Bir çox hallarda şəkilçilərin sözün ahənginə tabe olmaması: məs.: yedığ, işdığ, susız, görmağ və s.

8. Saitlə bitən fellərdə indiki zaman şəkilçisinin bəzən -r şəkilçisi ilə ifadəsi: məs.: tanır, oxur. Et yəəni qəssab tanır (atalar sözü).

İraq–türkman ləhcəsini Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələrinə yaxınlaşdıran xüsusiyyətlər isə əsasən, aşağıdakılardır:

y səsinin təsiri altında a səsinin darlaşaraq e səsi ilə əvəzlənməsi: məs.: qeyiş, qeytan, yeşıl//yeşil və s.

Sözün birinci hecasında o səsinin u səsi ilə və ö səsinin ü səsi ilə əvəzlənməsi (bu xüsusiyyət Altun Köprü şivəsində daha çox müşahidə olunur): məs.: dudax, buğaz, ügrəndim.

Damaq saitlərindən sonra dodaq saitlərinin, dodaq saitlərindən sonra damaq saitlərinin gəlməsi: məs.: başuz babauz, alduğ, getdü:, gəldü:, duzlı, durı, gözlığ və s.

Söz ortasında g səsinin inkişafı: məs.: dögüş, sögüş və s.

Söz ortasında və söz sonunda v səsinin möhkəm olmaması: məs.: au, dauşan, auçı, bızau, yauşan, taux, hauz və s.

Qeyri-qəti gələcək zamanın inkarında l şəxs tək və cəmdə -man, -mən şəkilçisinin işlədilməsi: məs.: gəlmənəm, küsmənəm, satmanıx, gülmənix və s. Bu xüsusiyyət Altun Köpru şivəsinə aiddir.

Yuxarıda sadaladıqlarımız göstərir ki, İraq–türkman ləhcəsi istər fonetik, leksik, istərsə də qrammatik cəhətdən özünəməxsus səciyyəvi xüsusiyyətlərlə zəngindir.

II FƏSİL

QÜRUR DUYDUĞUM TARİXİ ŞƏXSİYYƏTLƏR

M.KAZIMBƏYİN GÖRKƏMLİ ŞƏXSİYYƏT KİMİ YETİŞMƏSİNDƏ DİLLƏRİN ƏHƏMİYYƏTİ *

Məlumdur ki, şəxsiyyətin formalaşmasında uşaqlıq dövru xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan L.N.Tolstoyun: «Beş yaşlı uşaqdan mənə qədər olan məsafə cəmi bir addım, dünyaya yeni gələn körpədən beş yaşlı uşağa qədər olan məsafə isə ölçüyə sığmazdır» kəlamı maraq doğurur. Bu həqiqəti və şəxsiyyətin formalaşmasında ailənin əsas rol oynadığını nəzərə alsaq deməliyik ki, uşaqlıqda həyat kiçik Məhəmməd Əlinin üzünə gülmüş, onun gələcəkdə görkəmli şəxsiyyət kimi yetişməsinə zəmin yaratmışdı. Onun atası Şərq dillərini dərindən bilir və bu dilləri oğluna öyrədirdi. Evlərində mütəmadi dilə, ədəbiyyata dair söhbətlər eşidən Mirzə Kazımbəy ehtirasla elmə, biliyə, dilləri öyrənməyə can atırdı. Bu qüvvətli arzu, iti ağıl, əməksevərlik qısa müddətdə doğma Azərbaycan dili ilə yanaşı, onun ərəb, fars, türk və rus dillərini mükəmməl öyrənməsinə gətirib çıxardı.

Göstərilən dillərin əsaslı şəkildə öyrənilməsi bir yandan rus və Şərq xalqlarının mədəniyyəti ilə tanışlığa, digər tərəfdən də M.Kazımbəyin bir şəxsiyyət kimi formalaşmasına şərait yaratdı. Qeyd etmək lazımdır ki, dillərin öyrənilməsi M.Kazımbəy üçün son məqsəd olmamışdır.

* «Azərbaycan müəllimi» qəzeti, 8 dekabr 1982-ci il.

Mütəfəkkirlərin fikrincə, dillərin öyrənilməsi ali məqsədlər naminə edilərsə bu, tarixi prosesin inkişafına səbəb olur.

M.Kazımbəy, hər şeydən əvvəl, bunu başqa xalqların mədəni irsini öyrənmək, ondan faydalanmaq naminə edirdi.

Gənc yaşlarından doğma Dərbənd şəhərini tərk edib Astraxanda yaşamaq məcburiyyətində qalan M.Kazımbəy burada rus və ingilis dillərini də dərindən öyrənir. Az sonra o, fransız və alman dillərini də mükəmməl mənimsəyir. Əlbəttə, onun Kazan Universitetinə işə dəvət edilməsi, o vaxt böyük mədəniyyət mərkəzlərindən olan Kazan şəhərində fəaliyyət göstərməsi onun müxtəlif dilləri əsaslı şəkildə bilməsinin sayəsində olmuşdu. Kazan mühiti M.Kazımbəyə böyük dilçi-alim kimi dünya şöhrəti qazandırdı.

Akademik İ.C.Kraçkovski bu münasibətlə yazır: «Məişətdə azərbaycanlı olan, əsaslı Şərq sxolastik məktəbi keçən M.Kazımbəy üç Şərq dilini mükəmməl bilirdi. Eyni asanlıqla Qərb dillərinə də yiyələnmiş alim bu dillərin hamısında özünə Qərbdə böyük şöhrət qazandıran əsərlər yazırdı».

Rusiyanın qabaqcıl ziyalıları ilə yaxınlıq və dostluq M.Kazımbəyin dünyagörüşünün formalaşmasına öz müsbət təsirini göstərmişdir. M.Kazımbəyin də rus ziyalılarına müsbət təsirindən danışmaq olar. Təkcə onu demək kifayətdir ki, M.Kazımbəy iki il L.N.Tolstoya ərəb və türk (Azərbaycan) dillərindən dərs demiş, onda müdrik Şərqə, onun mədəniyyətinə, ədəbiyyatına və s. rəğbət və məhəbbət aşılamışdı. Dahi Tolstoyun islam aləminə, Şərqə münasibəti, Azərbaycanın Qax rayonunda əbədi uyuyan Hacı Murad kimi tarixi şəxsiyyətə povest həsr etməsi və s. kimi məsələlərdə M.Kazımbəyin təsirini görmək olar.

Alman alimi Karl Menqes «Türk dilləri və türkdilli xalqlar» əsərində M.Kazımbəyin fəaliyyətini yüksək qiymətlən-

dirir (əsər 1968-ci ildə ingilis dilinə tərcümə edilərək ABŞ-da da çap olunmuşdur).

Peterburq şərqşünaslıq fakültəsinin əsasını qoyanlardan biri və onun ilk dekanı olan M.Kazımbəyin bir dilçi-alim, pedaqoq kimi xidmətləri böyükdür. Peterburq Universitetinə işə dəvət edildikdən sonra onun dünya şöhrəti daha da artdı. Rusiyada və eləcə də Avropada Mirzə Kazımbəyə Şərq mədəniyyətinin, Şərq elminin ən savadlı nümayəndəsi kimi inanır, tədqiqatlarına yüksək qiymət verirdilər. Onun qabaqcıl rus ziyalıları ilə əlaqəsi burada da davam edirdi. Onun «Sovremennik» jurnalında çap olunan sanballı əsərləri böyük maraq və ehtiramla qarşılanırdı. M.Kazımbəy N.Q.Çernışevski ilə dostluq edirdi.

Bu dostluq böyük bir amala–Azərbaycan və rus xalqlarının, onların mədəniyyətlərinin yaxınlaşması kimi böyük bir işə xidmət edirdi.

Rus mədəniyyətinə, rus dilinə dərin hörmət bəsləyən M.Kazımbəy bu dilə böyük qiymət verirdi: «Rus dili zəngindir, çoxcəhətlidir, ürəyəyatandır, mənbələri tükənməzdir, ifadə imkanları güclüdür, ümumiyyətlə, heyranedicidir və nəhayət, bütün Rusiya kimi müstəqil və əzəmətlidir».

Müxtəlif dilləri eyni dərəcədə gözəl bilməsi, müxtəlif xalqların mədəniyyətlərini dərindən öyrənə bilməsi M.Kazımbəyin başqa xalqlara münasibət məsələsində insana mənfi təsir göstərən məhdud milli hislərdən kənar olmasına kömək etmişdir ki, bu da öz təzahürünü onun bütün yaradıcılığında göstərir. Fransız şərqşünası O.Bothinq bu münasibətlə yazırdı: «Mirzə Kazımbəy yalnız öz vətəni üçün deyil, bütün insanlar üçün çalışırdı. O, öz həyatını əvvəldən axıra kimi bu nəcib işə həsr etmişdi».

M.Kazımbəy bütün ömrü boyu dillərin öyrənilməsini təbliğ edirdi. M.Kazımbəyin fikrincə, dilləri əsaslı şəkildə

öyrənmək tarixi inkişafa təkan verir, bu və ya başqa xalqın mənəvi varlığını, onun mədəniyyətini, həyat tərzini dərk etməyə, dünya elminin yayılmasına və geniş kütlələrin ondan bəhrələnməsinə imkan verir.

Öz parlaq, çoxşaxəli elmi fəaliyyəti ilə «rus şərqşünaslığının patriarxı» kimi şərəfli ad qazanan M.Kazımbəy dünyanın görkəmli dilçilərindən biri kimi də ön yerlərdən birini tutur. Onun çoxlu dil bilmək sahəsindəki fəaliyyəti məktəblilərimiz üçün də gözəl nümunədir.

M.F.AXUNDOVUN HƏYATINDA DİLLƏRİN ROLU *

Qeyri-adi şəxsiyyət olan M.F.Axundov erkən duymağa başlamışdı ki, əsas ünsiyyət vasitəsi olan dil müxtəlif xalqların mədəniyyətlərinin öyrənilməsində əvəzsiz xəzinədir. Xalqının mədəni inkişafı naminə onun dünya elm və mədəniyyəti səviyyəsinə yüksəlməsi xatirinə o, bütün ömrü boyu yeni nəslə dilləri öyrənməyi təkidlə tövsiyə edirdi. Oğlu Rəşidə ana dili ilə bərabər, rus, fransız, ərəb, fars dillərini öyrənməyə hər cür şərait yaratmışdı. Görkəmli Azərbaycan dilçisi Mirzə Kazımbəy kimi, M.F.Axundov da rus dilini, rus mədəniyyətinin əhəmiyyətini, zəruriliyini dərindən duyur, bu dilə yüksək qiymət verirdi. Bu, təsadüfi deyil. Çünki: «Rus dili ən canlı və zəngin dillərdəndir. Bu dil alman dilinə məxsus olan bütün üstünlüklərə və yaxşı cəhətlərə malikdir» (F.Engels). «Rus dili zəngindir, hərtərəflidir, rəngarəngdir, qəlbəyatandır» (M.Kazımbəy). «İndiki əsrdə rus dili incə mətləblərin ifadəsi üçün, doğrudan da, misilsiz bir dildir» (M.F.Axundov).

* «Ədəbiyyat və incəsənət» qəzeti, 12 oktyabr 1982-ci il.

Buna görədir ki, M.F.Axundov H.Zərdabiyə göndərdiyi məktubunda rus dilinin üstünlüklərindən bəhs edir, xalqına müraciətlə yazırdı: «Rus dilində oxuyun, öyrənin, rus dilində elm öyrənməyə çalışın, səy edin». O, azərbaycanlılara hansı dilləri bilmək vacibdir məsələsindən bəhs edərək ana dili ilə birlikdə rus dilini bilməyin zəruriliyindən söz açır. Rus dilinə yüksək qiymət verən M.F.Axundov göstərir ki, bu dil vasitəsilə bir tərəfdən rus və Avropa mədəniyyəti xəzinəsinə baş vurmaq, digər tərəfdən də Azərbaycan ədəbiyyatını Azərbaycan bədii, ictimai-fəlsəfi fikrini Rusiyada, Avropada və bütün dünyada yaymaq olar. Həyat böyük mütəfəkkirin uzaqgörənliklə söylədiyi fikri təsdiq etdi. Təkcə onu demək kifayətdir ki, hələ XIX əsrin ikinci yarısında M.F.Axundovun əsərləri rus, erməni, gürcü, fars, alman, ingilis və fransız dillərinə tərcümə edilmişdi.

Rus və Azərbaycan xalqlarının yaxınlaşmasında xüsusi xidmətləri olan M.F.Axundov bütün xalqlara hörmət və məhəbbət bəsləyir, mədəniyyətcə daha çox inkişaf etmiş xalqlarla əməkdaşlığa dəvət edirdi.

Müxtəlif dilləri mükəmməl bilməsi M.F.Axundovu bir yandan milli məhdudiyyətlərdən uzaqlaşdırmış, başqa cəhətdən də, həqiqətən də, onun qarşısında geniş üfüqlər açmışdı. Onun böyük mədəniyyət mərkəzi olan Tiflisə o vaxt işə keçməsinə imkan vermişdi. Tiflis mühiti M.F.Axundovun bir şəxsiyyət kimi kamilləşməsinə, dünyagörüşünün formalaşmasına böyük təsir göstərdi, onun yaradıcılığının istiqamətini də elə Tiflis mühiti müəyyənləşdirdi. Nəticədə çoxəsrlik Azərbaycan və Şərq mədəniyyətinin ən yaxşı ənənələrinə sadiq qalan, Rusiya və Qərbin tərəqqipərvər şəxsiyyətlərinin ideyalarından qidalanan M.F.Axundov dövrünün ən böyük mütəfəkkirləri səviyyəsinə yüksələ bildi və Azərbaycan ədəbiyyatında əsrlərlə insanları düşündürən bir çox mə-

sələlərin həllinə nail oldu. Lakin M.F.Axundovun həyata keçirə bilmədiyi məsələlər də az deyildi. Onların əksəriyyəti doğma Azərbaycan dili ilə bağlı məsələlər idi. Heç vaxt ruhdan düşməyən böyük mütəfəkkir inanırdı ki, «gələcək nəsillər və uşaqlarımız, şübhəsiz, bizim ideyalarımızı həyata keçirəcəklər».

M.F.Axundovun uzaqgörənliklə söylədiyi bu fikir də həyata keçirilmişdir. Sovet dövründə Azərbaycan dilinin, Azərbaycan mədəniyyətinin çiçəklənməsini Vətənimizin hüdudlarından çox-çox uzaqlarda da etiraf edirlər. 1965-ci ildə Amerikanın İndiana Universitetinin çap etdirdiyi 275 səhifəlik irihəcmli «Azərbaycan dilinin əsaslı kursu» adlı kitabın 226-cı səhifəsində oxuyuruq: «İranda Azərbaycan dilinin tədrisi qadağan edildiyi vaxtda Sovet Azərbaycanında Elmlər Akademiyasının Dilçilik İnstitutunda bu dilin qayda-qanunları tədqiq olunur, onun saflığı uğrunda mübarizə aparılır. Azərbaycan dilinin lüğətləri və qrammatikası yaradılır».

Akademik M.C.Cəfərov haqlı olaraq M.F.Axundovun dramaturgiya, əlifba, ədəbi tənqid, publisistika, nəzm və nəsr sahəsində Azərbaycan realist ədəbiyyatı və mətbuatının manifestini yaratdığını qeyd edir. Heç şübhə yoxdur ki, bu işdə Şərq və Avropa ədəbiyyatı ilə bərabər, rus dilinin, rus ədəbiyyatının, rus ədəbi, ictimai-fəlsəfi fikrinin rolu böyük olmuşdur. M.F.Axundov rus ədəbiyyatını, rus mədəniyyətini dərindən mütaliə etmiş, rus dilini dərindən öyrənmişdi. Əks təqdirdə o, «Puşkinin ölümünə Şərq poeması»nda rus ədəbiyyatı nümayəndələrinə elə obyektiv qiymət verə bilməz, Puşkini rus ədəbi dilinin yaradıcısı kimi tanıya bilməzdi: «Lomonosov təbinin gözəlliyi ilə nəzm evini bəzədi. Puşkinin xəyalı isə orada qərar tutdu. Əgər Derjavin söz mülkünü tutdusa, o mülkün hökmranı və nizama salanı Puşkin oldu». Şübhəsiz ki, bu fikirləri rus ədəbiyyatına incədən-incəyə bələd olan bir şəxs deyə bilərdi.

Engels kimi M.F.Axundov da rus xalqının Şərqə münasibətinin mütərəqqi olduğunu qeyd edirdi. Tərəqqipərvər gürcü yazıçısı İ.Çavçavadze rus mədəniyyətinin gürcü xalqına təsirindən danışarkən dediyi: «Rus mədəniyyəti bizim inkişafımıza böyük təsir göstərmiş; rus məktəbi, rus elmi üzümüzə maarif qapılarını açmış, rus ədəbiyyatı fikrimizi oyatmış və hərəkətə gətirmişdir–sözlərini rus xalqı ilə iqtisadi, ictimai, mədəni əlaqədə olan bütün Şərq xalqlarına aid etmək olar.

M.F.Axundov rus xalqının insanpərvərliyinə və başqa xalqlara olan böyük ehtiramına rəğbətlə yanaşır, ruslarla dostluğa, əməkdaşlığa çağırırdı. Buna görə də tamamilə təbiidir ki, rus xalqına münasibətdə Axundovun oğlu Rəşidə də böyük təsiri olub. M.F.Axundovun ideyaları ruhunda tərbiyələnən, onun təsiri ilə dünyagörüşü formalaşan Rəşidin xaricdə təhsil alarkən atasına göndərdiyi bir məktubundan da bu təsiri duymaq mümkündür: «Ruslar incəliyi ilə, yaxşı davranışları və mehribanlıqları ilə seçilirlər (Bax: H.Həsənov. «XIX əsrdən məktublar», «Azərbaycan» jur., 1978, №2).

Bir maarifpərvər kimi M.F.Axundov Azərbaycan xalqının layiqli oğulları arasında xüsusi yer tutur, bütün şüurlu həyatını xalqın maariflənməsi kimi nəcib bir işə həsr edən M.F.Axundov yazırdı: «Mən xalqı elmə, inkişafa və mədəniyyətə aparan bir yol salmaq istəyirəm. Biz çalışmalıyıq ki, xalqımız mədəniyyət və biliklə avropalılardan geri qalmasın». M.F.Axundova görə, elm bəşəriyyətə xidmət etməlidir. Axundova görə, elm insanın görən gözləridir. Bu səbəbdən də M.F.Axundov dini fanatizmin elmə, maarifə böyük bir əngəl olduğunu yaxşı başa düşür və ona qarşı çıxırdı. O, «Mən mədəniyyəti sevənlərin tərəfdarıyam. Mən bəşəriyyəti sevən bəndənin sədaqətli quluyam» – deyirdi.

M.F.Axundov qabaqcıl elm və mədəniyyətə malik olan xalqların mədəni sərvətlərini mənimsəməyə, onların yaxşı

nümunələrini ana dilinə tərcümə etməyə, milli məhdudiyyət çərçivəsini qıraraq bəşər inkişafının qabaqcılları sırasına çıxmağa çağırırdı. M.F.Axundovun başqa xalqlara, onların mədəniyyətlərinə münasibəti məsələsi indinin özündə də aktuallığını itirmir.

M.F.Axundov elm və maarifi inkişafın aparıcı qüvvəsi hesab edirdi. Buna görə də o, Azərbaycanda «Elm mərkəzi» yaratmağı və Avropa dillərindən elm və texnikaya dair kitabları Azərbaycan dilinə tərcümə etməyi zəruri sayırdı.

M.F.Axundovun bir dilçi kimi də əməyi böyükdür. O, ədəbi dil, ədəbi dil tarixi, lüğət tərkibi, yazı və düzgün tələffüz qaydaları, üslub, nitq mədəniyyəti, tərcümə, əlifba və s. problemlərlə məşğul olmuş, Azərbaycan ədəbi dilinin əsas prinsipləri və nəzəri əsaslarını hazırlamışdır. Azərbaycan dilçiliyində əcnəbi sözlərin lüğətinin, elmi terminlərin və eləcə də ictimai-siyasi terminlərin yaradılması məsələsi də M.F.Axundov tərəfindən irəli sürülmüş və həll edilmişdir. Terminlər məsələsində onun fikirləri F.Engelsin fikri ilə uyğun gəlir. Engelsin fikrincə, elmi-texniki terminləri başqa dilə tərcümə etmək mümkün olsaydı, onları başqa dildən olduğu kimi qəbul etməyə ehtiyac qalmazdı. M.F.Axundov qeyd edirdi: «Biz elmi terminləri orijinalda olduğu kimi qəbul etməyə məcburuq. Çünki onlar bizim leksikonumuzda yoxdur».

Göründüyü kimi, M.F.Axundov hərtərəfli elmə malik şəxsiyyətlərdən idi. Təsadüfi deyildir ki, zəmanəsinin əksər elm adamları onu alim kimi tanıyırdılar.

M.F.Axundovun professor adı almaq üçün dövlətdən komissiya təşkil etmək barədəki xahişi də yuxarıda deyilənləri bir daha təsdiqləyir.

«M.F.Axundovun bir şəxsiyyət kimi xidmətləri böyükdür. Lakin onun əməyi bizim zəmanəmizdə qiymətləndirilmişdir. Dramaturq, filosof, ictimai xadim kimi, o, Azərbay-

can və rus mədəniyyətləri arasında mənəvi körpü olmuşdur» (Lui Araqon).

«O, böyük və hərtərəfli şəxsiyyət idi. Dərin bilikli, əqidəsi uğrunda ən ağır cəzalara məruz qalacağından belə çəkinməyən cürətli bir insan» (K.Simonov).

«M.F.Axundov müsəlman aləmində ən mədəni şəxsiyyətlərdən biridir» (Adolf Berje).

«M.F.Axundov zamanı… tarixi yaradan yazıçılar sırasında durur» (S.Vurğun).

Qərbi Almaniya alimi X.V.Brands isə M.F.Axundovun yaradıcılığına həsr etdiyi kitabında onu «Azərbaycanın Şekspiri» adlandırır.

Tarixi şəxsiyyətlərin yaradıcılığında xalqının həyatı, onun mübarizə və gələcək inkişaf yolları əks olunur. Bu baxımdan, M.F.Axundovun həyat və yaradıcılığı doğma Azərbaycan xalqının tarixinin dolğun bir səhifəsini təşkil edir.

Akademik M.Şirəliyev–100

TÜRKOLOGİYA ELMİMİZİN PATRİARXI

Onilliklər boyu elmi ictimaiyyətin professor deyə müraciət etdiyi, professor deyəndə hamının onu nəzərdə tutduğu görkəmli türkoloq, elm təşkilatçısı, milli kadrların yetişməsində müstəsna xidmətləri olan akademik Məmmədağa Şirəliyevin anadan olmasından yüz il keçir. O, Azərbaycan dilçiləri arasında ilk elmlər doktoru, ilk professor, ilk əməkdar elm xadimi, ilk Dövlət Mükafatı laureatı, Azərbaycan Elmlər Akademiyasının ilk müxbir üzvü və ilk akademiki, «Sovetskaya tyurkologiya» jurnalının ilk baş redaktoru, Türk Dil Qurumunun ilk azərbaycanlı müxbir üzvü (1957), Azər-

baycan SSR EA-nın Dil İnstitutunun ilk direktoru (1949–1951), Ədəbiyyat və Dil İnstitutunun dialektologiya şöbəsinin yaradıcısı və ilk müdiri (1951), ali məktəblər üçün dialektologiya üzrə ilk dərsliyin müəllifi və s. olmuşdur. Bu «ilk»lərə akademik Ağamusa Axundovun akademik M.Şirəliyevə həsr etdiyi «Böyük Azərbaycan dilçisi» məqaləsində gəldiyi qənaəti əlavə etsək mətləb daha da aydın olar: «M.Şirəliyev Azərbaycan dilçiliyi hüdudlarını yarıb beynəlxalq aləmə çıxan, elmi türkologiyanın zəngin üfüqlərində öz işıqlı yeri olan ilk Azərbaycan dilçisidir».

Onu da deyək ki, Azərbaycan ədəbi dilinin formalaşmasında dialektlərin rolu məsələsini də ilk dəfə gündəmə gətirən və bu barədə qiymətli əsərlər yazan da akad. M.Şirəliyevdir. Bu günlərdə uzun illər rəhbərlik etdiyi Nəsimi adına Dilçilik İnstitutunda akademik M.Şirəliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş elmi sessiyada İnstitutun direktoru, akad. Ağamusa Axundov, məruzəçilər: filologiya elmləri doktorları Qəzənfər Kazımov, İsmayıl Məmmədov, İsmayıl Kazımov, «Türkologiya» jurnalının baş redaktor müavini Solmaz Süleymanova akademikin elmi və təşkilatçılıq fəaliyyətindən, zəngin elmi irsindən söz açdılar.

Sessiyada Ədəbiyyat İnstitutunun direktoru, akademik B.Nəbiyev, EA-nın müxbir üzvü T.Hacıyev, prof. R.Məhərrəmova, f.e.d. A.Əlizadə çıxışlarında akad. Şirəliyevin şəxsiyyəti və elmi məziyyətlərinə dair maraqlı məsələlərə toxundular.

Azərbaycan xalqı qarşısında böyük xidmətlərinə görə akademik Şirəliyevin adı hər məqamda iftixarla çəkilir. O, həm böyük alim, həm də böyük şəxsiyyət idi.

Məmmədağa Şirəli oğlu Şirəliyev Şamaxı şəhərində anadan olmuş (13.IX.1909), Bakıda 18 saylı orta məktəbdə təhsil almış, Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinin dilçilik şöbəsinə daxil olmuş (1927), fakültəni bitirdik-

dən sonra (1931) iki il Ağdam rayonunda dil-ədəbiyyat müəllimi işləmişdir. 1933-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Azərbaycan dilçiliyi ixtisası üzrə aspiranturaya daxil olmuş, sonralar institutunda müəllim, dekan, Azərbaycan dili kafedrasının müdiri işləmişdir. Eyni zamanda namizədlik dissertasiyasını tamamlamış və müdafiə etmişdir (1941). Əsərin elmi dəyərini və s. nəzərə alan Bakı Dövlət Universitetinin Müdafiə Şurası tədqiqatçının «Bakı dialekti» adlı sanballı tədqiqatına görə onu elmlər namizədi əvəzinə filologiya elmləri doktoru alimlik dərəcəsinə layiq görüb. Sovet İttifaqı Teleqraf Agentliyi gənc azərbaycanlı alimin uğurlarından söz açmış, bunun təsiri ilə tezliklə M.Şirəliyevə Sovetlər Evinin yanında «alimlər evi»ndə (ona «professorlar evi» də deyirdilər) o zaman üçün çox geniş hesab edilən mənzil vermişdilər. Akademik dünyasını dəyişdiyi günədək həmin mənzildə (19.04.1991) yaşadı.

Şirəliyev, eləcə də sonralar hər biri görkəmli alim kimi yetişən Ə.Dəmirçizadə və M.Hüseynzadənin aspiranturada elmi rəhbəri, 1937-ci il repressiyasının qurbanı prof. B.Çobanzadə olmuşdur. Prof. B.Çobanzadə onları Azərbaycan dilçiliyinin müxtəlif sahələrinə yönəldirdi.

Məlum olduğu kimi, sonralar prof. Ə.Dəmirçizadə daha çox dil tarixi ilə, prof. M.Hüseynzadə müasir dil problemləri ilə, prof. M.Şirəliyev isə əsasən, türkologiya, onun maraqlı sahələrindən biri olan dialektologiya ilə məşğul olmuşdur. Lakin bu, o demək deyildir ki, M.Şirəliyev Azərbaycan dilinin başqa sahələri ilə məşğul olmurdu. Alimin prof. M.Hüseynzadə ilə birgə yazdığı «Azərbaycan dilinin qrammatikası. Sintaksis» dərsliyi yarım əsrə yaxın dövriyyədən çıxmamışdır. M.Şirəliyev, eləcə də Azərbaycan dilinin morfologiya, orfoqrafiya, orfoepiya, əlifba, terminologiya, durğu işarələri, üslubiyyat, nitq mədəniyyəti, türkologiyanın nəzəri

problemləri və s. dair tədqiqatların, monoqrafiyaların müəllifidir. Alimin «Azərbaycan dili orfoepiyasının əsasları» (B., 1970) əsəri bu gün də aktuallığını itirməmişdir. Bununla belə, deməliyəm ki, taledən ona hər alimə qismət olmayan pay düşmüşdü. M.Şirəliyev daha çox Azərbaycan dialektologiya elminin banisi və dialektologiya məktəbinin yaradıcısı kimi şöhrət qazanmış, türkologiya tarixində öz layiqli və əbədi yerini tutmuşdur. Təsadüfi deyildir ki, 1945-ci ildə SSRİ EA-nın müxbir üzvü N.K.Dmitriyev yazmışdır: «M.Şirəliyevi çəkinmədən Azərbaycan dialektologiyasının banisi adlandırmaq olar».

Akad. M.Şirəliyevin «Bakı dialekti» (B., 1949, 1957), «Azərbaycan dialektologiyasının əsasları» (B., 1962, 1968, 2008), «Azərbaycan dilinin dialekt və şivələri» (rusca), B., 1982) türkoloqların ən çox bəhrələndiyi əsərlər olub, N.K.Dmitriyevin illərlə öncə dediklərini təsdiqləyir. Dialektologiyanın mövcud nəzəri məsələləri bütövlükdə bu əsərlərdə öz əksini tapıb.

Akademik M.Şirəliyev Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülmüş fundamental «Azərbaycan dialektologiyasının əsasları» əsərində Azərbaycan dili dialekt və şivələrinin təsnifini vermiş, özünün şəxsən iştirak etdiyi dialektoloji ekspedisiyalar zamanı toplanan faktiki materiallar əsasında ümumiləşmələr aparmış, Azərbaycan dili dialekt və şivələrinin 4 qrupa: şərq, qərb, şimal, cənub qruplarına bölündüyünü inkarolunmaz faktlarla isbatlamışdır. Alim Azərbaycan dialektlərini belə müəyyənləşdirmişdir: Quba, Bakı, Şamaxı (şərq qrupu), Qazax, Qarabağ, Gəncə (qərb qrupu), Nuxa (şimal qrupu), Naxçıvan, Ordubad, Təbriz (cənub qrupu). Bu kitabda Azərbaycan dili dialekt və şivələrinin fonetik, leksik və qrammatik xüsusiyyətləri tam əhatə olunur. Onu da deyək ki, son vaxtlar aparılan tədqiqatlar göstərir ki, Dərbənd dialekti də şərq qrupuna daxildir.

Maraqlıdır ki, hələ 1941-ci ildə M.Şirəliyev rus dilində çap etdirdiyi bir məqaləsində ilk dəfə olaraq Azərbaycan dialektlərinin təsnifini coğrafi prinsip əsasında aparıb və bu bölgü sonralar, 1959-cu ildə «YUNESKO»nun «Fundamental turcica» əsərində öz əksini tapıb (Bax: M.Şirəliyev. Biblioqrafiya, B., 1969, s.15). Akad. M.Şirəliyevin türkologiyada ilk dəfə dialekt və şivələrin təsnifinə dair bölgüsü türkoloqlar tərəfindən qəbul olunmuşdur. Bu münasibətlə görkəmli qazax dilçisi Ş.Sarıbayev yazmışdır: «Qazax dialektologiyasında mübahisəli məsələlər çoxdur. Onların biri dialektlərin təsnifidir. Bu məsələnin türkoloji aləmdə obyektiv yolunu Azərbaycanın görkəmli türkoloqu M.Şirəliyev müəyyənləşdirmişdir.

Akademik M.Şirəliyevin ən böyük xidmətlərindən biri də türkologiya tarixində, ilk olaraq, «Azərbaycan dilinin dialektoloji atlası»nı yaratmasıdır (Bakı, «Elm», 1990, 224 s.). M.Şirəliyevin təşəbbüsü, rəhbərliyi və iştirakı ilə hazırlanan atlas türkoloji aləmdə bu sahədə atılan ilk və uğurlu addımdır. Məhz buna görədir ki, başqa türkdilli xalqlar dialektoloji atlaslarını tərtib edərkən Azərbaycan dialektoloqlarının təcrübəsinə əsaslanırdılar. Türkmənistan EA-nın prezidenti, akademik P.Əzimov bu münasibətlə yazırdı:

«Türkmənlər dialektoloji atlasın tərtibi işlərini M.Şirəliyevin məktəbindən əxz etmişlər».

Qeyd etmək lazımdır ki, türkologiyada dilçilik coğrafiyasının əsasını qoyan da akad. M.Şirəliyev olmuşdur. Bu baxımdan Ural–Altay cəmiyyətinin sədri İ.Qunnarın fikri maraq doğurur: «Türk dillərinin dilçilik coğrafiyası üsulu ilə öyrənilməsi sahəsində M.Şirəliyevin xidmətləri danılmazdır».

Akademik M.Şirəliyevin türkologiya sahəsində gördüyü qlobal işlər, Bakını türkoloji mərkəzə çevirməsini tanınmış türkoloqlar görür və yüksək qiymətləndirirdilər. «Voprosı yazıkoznaniya» jurnalında (№5, 1967) «Keçən 50 il ərzində

Sovet İttifaqında dilçiliyin inkişafı» adlı baş məqalədə qeyd edilirdi ki, sovet dövründə türk dilləri dialektlərinin tədqiqində əldə edilmiş nailiyyətlərdə akad. M.Ş.Şirəliyevin böyük xidmətləri olmuşdur.

Görkəmli alimlərin, mötəbər orqanlarda akad. M.Şirəliyev haqqında yazdıqlarını toplayacaq olsaq, bir kitaba sığmaz. Türkoloqlar arasında akad. M.Şirəliyevin nüfuzu o qədər böyük idi ki, 1970-ci ildə SSRİ EA-nın Prezidiumunda «Sovetskaya tyurkologiya» jurnalının nəşri və baş redaktor məsələsi ortaya qoyulanda SSRİ Türkoloqlar Komitəsinin sədri, akad. A.Kononov və SSRİ EA-nın Ədəbiyyat və dil bölməsinin katibi, akademik M.Xrabçenkonun jurnalın Bakıda çıxmasını və baş redaktor vəzifəsinə akad. M.Şirəliyevin namizədliyini dəstəkləməsi təsadüfi deyildi.

Həqiqətən də, akad. M.Şirəliyev sovet türkologiyasının inkişafında və yüksəkixtisaslı kadrların yetişdirilməsində əvəzsiz xidmətlər göstərmişdir. Təkcə Azərbaycanda professorun rəhbərliyi ilə 10 elmlər doktoru (onların arasında akad. A.Axundov, AMEA-nın müxbir üzvü T.Hacıyev, professorlardan M.Rəhimov, M.Adilov, R.Məhərrəmova, Ə.Mahmudov, İ.Məmmədov və başqa görkəmli dilçi alimlərimizin adlarını görəndə qürur hissi keçiririk), 50-dən artıq elmlər namizədi yetişmişdir.

Bundan başqa prof. M.Şirəliyevin rəhbərliyi altında 1 nəfər Balkan, 1 nəfər qaqauz, 1 nəfər qaraqalpaq namizədlik dissertasiyası müdafiə edib. Eləcə də 9 özbək, 2 başqırd, 2 tatar, 1 qaraçay və 1 qazax aliminin filologiya elmləri doktoru alimlik dərəcəsi almasında da prof. M.Şirəliyevin xidmətləri böyük olmuşdur.

Yeri gəlmişkən professoru Avropa və Türkiyədə də yaxşı tanıyırdılar. 1957-ci ildən Türk Dil Qurumlarının müxbir

üzvü olan M.Şirəliyev dəfələrlə Türkiyədə elmi məclislərdə türkologiyanın ən aktual problemləri, dialektologiya və s. barədə maraqlı məruzələrlə çıxış etmişdi. Professor 1953–1954-cü illərdə Bolqarıstanda Sofiya Universitetində türk filologiyası kafedrasına rəhbərlik etmiş, 1963-cü ildə isə Polşada Varşava və Krakov universitetlərində türk dilindən dərs demişdi.

Professor Bolqarıstanda türk kəndlərini bir-bir gəzərək zəngin material toplamış və həmin materiallar əsasında «Türk dialektologiyası» əsərini, eyni zamanda «Dilçiliyə giriş» dərsliyini yazmışdı. Professorun fəaliyyəti istər bolqar, istərsə də sovet alimləri tərəfindən yüksək qiymətləndirilmişdir. Bolqar alimi Emil Boyev 1966-cı ildə Ankarada XI Türk Dili qurultayında «Bolqarıstanda türk dialektlərinin araşdırılması» mövzusunda məruzə edərkən xüsusi vurğulamışdır:

«Bolqarıstanda türk dialektlərinin araşdırılmasının əsasını prof. M.Şirəliyev qoydu. Biz–onun şagirdləri isə bu işi davam etdiririk».

Akademik M.Şirəliyevin yaradıcılığına Azərbaycan alimləri də yüksək qiymət vermişlər. Akademik Həmid Araslı, EA-nın müxbir üzvü Əbdüləzəl Dəmirçizadə, akad. Ağamusa Axundov (silsilə yazılar), EA-nın müxbir üzvü Tofiq Hacıyev, professorlardan Mirzə Rəhimov, Yusif Seyidov (silsilə yazılar), Vaqif Aslanov, Əhməd Mahmudov, Rəhilə Məhərrəmova, Qəzənfər Kazımov, Aydın Nağdalıyev və başqaları akad. Şirəliyevə məqalələr həsr etmiş, alimin elmi fəaliyyətinə işıq tutan diqqətəlayiq fikirlər söyləmişlər.

Akad. M.Şirəliyev namizədlik dissertasiyası yazarkən elmi rəhbərim olub. «Azərbaycan dilinin Kərkük dialekti» adlı mövzunu da özü seçmişdi. 1962-ci ildə mən İraqa tərcüməçi işləməyə gedəndə məni yanına çağırdı və özünün hazırladığı «Azərbaycan dilinin dialekt və şivələrinin monoqrafik tədqiqinə dair proqram» (B., Azərbaycan EA-nın

nəşriyyatı, 1956, 62 s.) və «Bakı dialekti» kitabını mənə verərək dönə-dönə tapşırdı ki, Kərkük dialekti İraq türkmanlarının azərbaycanlı olduğunu göstərə biləcək əsas sübutdur. Bu şansı əldən verməməliyik. Akad. M.Şirəliyev böyük nümunə məktəbi idi. Mənə oğlum deyər, əsl oğul münasibəti bəsləyərdi (Öz oğlu yox idi, bircə qızı vardı). Həyatda onun kimi xeyirxah adama az rast gəlmişəm. Həssas, təvazökar, son dərəcə mədəni, hamıya nümunə ola biləcək nadir insan idi.

Burada bir məsələdən də söz açmaq vacibdir. Yuxarıda qeyd etdiyimiz kimi M.Şirəliyev sintaksis üzrə prof. M.Hüseynzadə ilə müştərək yazdığı ən uzunömürlü dərsliyin müəllifidir. Türkoloqlar arasında ən çox mübahisəyə səbəb olan isə sintaksisdə tabeli mürəkkəb cümlə məsələsidir. Bəzi alimlər feli bağlama tərkiblərini budaq cümlə hesab edirlər. Prof. M.Şirəliyev, M.Hüseynzadə, Z.Budaqova, Əlövsət Abdullayev, Yusif Seyidov və başqaları isə feli bağlama tərkiblərinin xəbərlik kateqoriyasına məxsus qrammatik əlaməti olmadığına və bu tərkiblər mübtəda ilə uzlaşmadığına görə budaq cümlə hesab etmirlər.

Akad. M.Şirəliyev «Tabeli mürəkkəb cümlə problemləri» və «Müasir Azərbaycan dilində mürəkkəb cümlə məsələsi» məqalələrində feli bağlama tərkibləri barədə öz müddəalarını irəli sürmüşdür.

Biz Azərbaycan dilinin Kərkük dialektində -anda, -əndə şəkilçili feli bağlamaların və şərt ədatı «isə»nin şəxslər üzrə dəyişərək şəxs şəkilçilərini qəbul etməsi və təsriflənməsini ortaya qoyanda Azərbaycanda sensasiya kimi qarşılandı və çoxları budaq cümlə məsələsində akad. M.Şirəliyevin müddəalarına əngəl törəndiyini düşündülər. Professor bu haqda xüsusi məqalə yazdı. Gəldiyi nəticə bu oldu ki, bu proses bütün feli bağlamalara aid olmadığından və həm də təkcə İraq–türkman ləhcəsində müşahidə olunduğundan budaq cümləyə dair onun müddəalarını əngəlləmir.

Professor Azərbaycan dilinə dair xaricdə nə çıxsa ciddi şəkildə izləyir və ingilis–Azərbaycan dilləri fakültəsini bitirdiyimdən tərcüməsini mənə həvalə edirdi. 1975-ci ilin 2-ci yarısında ABŞ-ın Florida Universitetindən Səlim Hüseynqulu oğlunun «Azərbaycan dilinin generativ fonologiyası» adlı maraqlı doktorluq dissertasiyasını rəy üçün Nəsimi adına Dilçilik İnstitutuna göndərmişdilər. İnstitutun direktoru akad. M.Şirəliyevlə əsərə müsbət rəy verdik.

Tale elə gətirdi ki, 1983-cü ilin yayında ABŞ-a iki aylıq elmi məzuniyyətə gedəsi oldum. Professor çox sevindi. Dönə-dönə tapşırdı ki, ABŞ-da Azərbaycan dilinə dair araşdırmalarla (Cənubi Azərbaycan daxil olmaqla) ciddi maraqlanım. ABŞ-da Azərbaycan dilinə və dialektinə dair xeyli tədqiqatların olduğunu üzə çıxardım və vətənə qayıdandan sonra Nəsimi adına Dilçilik İnstitutunun əməkdaşları qarşısında məruzə etdim. İnstitutun direktoru M.Şirəliyev direktor müavini prof. Z.Budaqovaya və şöbə müdirlərinə göstəriş verdi ki, Azərbaycan dilinin xaricdə tədqiqinə dair məqalələr toplusu hazırlasınlar. Mənim «ABŞ-da Azərbaycan dilinə dair araşdırmalar» adlı geniş məqaləm daxil olmaqla məqalələr məcmuəsi «Azərbaycan dili xaricdə» (Bakı, «Elm», 1990, 272 səh.) adı ilə professorun sağlığında işıq üzü gördü və təşəbbüsü öz bəhrəsini verdiyinə görə sevindi.

Hər dəfə Fəxri Xiyabanda xalqımızın, sözün həqiqi mənasında fəxrləri olan görkəmli alimlərimiz Abbas Zamanov, Əliheydər Orucov, Yaşar Qarayev, Qasım Qasımzadə və Araz Dadaşzadəni ziyarət edib, elmi rəhbərim Məmmədağa Şirəliyevin məzarı önündə dayanır, məni elm aləminə gətirdiyinə, atalıq qayğısı göstərdiyinə görə minnətdarlığımı bildirirəm. Sanki o da heç vaxt üzündən əskik olmayan xoş təbəssümlə çəkdiyi zəhməti itirmədiyimə, qəbrinin üstünü götürdüyümə görə razılığını bildirir.

III FƏSİL

ÇAĞDAŞ DİLÇİLƏRİMİZİN YARADICILIĞINDAN ETÜDLƏR

TÜRKOLOGİYA ELMİMİZİN İFTİXARI *

Təfəkkür sahiblərindən söz düşəndə göz önünə ilk gələnlərdən biri Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Tofiq Hacıyev olur. Görkəmli türkoloq alim öz sahəsində mötəbər və nüfuzlu söz sahibidir.

Əsrlərlə başqa xalqlar əhatəsində adacıq vəziyyətində yaşayan İraq türkmanları:

Bilmirəm haralıyam,
Torpağım, daşıb qərib – deyir.

Haradan gəldiyini unudub. Lakin dilini unutmayıb. Tofiq müəllim şüurlu həyatını xalqı yaşadan, yaddaşını kütləşməyə qoymayan bu müqəddəsliyə, dilimizin, dilçilik elmimizin tədqiqinə həsr edib. Təsadüfi deyildir ki, xalq yazıçısı Anar dilimizin, dilçiliyimizin taleyinə cavabdeh olan alimlərdən söhbət açdığı bir yazısında başda professor Tofiq Hacıyevin adını çəkir. Bunun nə demək olduğunu anlamaq çətin deyildir.

Məlumdur ki, elmi yaradan alimdir, ancaq alimi yaşadan və ona əbədiyyət gətirən elmdir. Tofiq Hacıyev türkologiya elmi sahəsində əbədiyyət qazanan, adı dilçilik elmimizin tarixinə qızıl hərflərlə yazılan alimlərdəndir.

* «Ədəbiyyat qəzeti», 29 aprel 2011-ci il.

Tofiq müəllimin şəxsiyyəti barədə düşünəndə gözlərim önündə qəribə bir mənzərə canlandı. Elmi, təfəkkürü, fitri istedadı ilə seçilən şəxsiyyətlərlə uzun müddət oturub-duranda, təmasda olanda bəzən onlar adiləşirlər. Tofiq müəllim kimi Allahın xoşbəxt bəndələri isə əksinə, gündən-günə insanın qəlbində və gözündə ucalır, əzəmətli dağa dönür.

Alim haqqında, xüsusən də müasirin haqqında yazmaq asan deyil. Sözləri gərək elə diqqətlə seçəsən ki, ifrata varmayasan, qınağa düçar olmayasan. Xoşbəxtlikdən az da olsa elə alimlər, elə şəxsiyyətlər də olur ki, onlar haqqında ən mötəbər sözləri belə deməkdən çəkinmirsən. Professor Tofiq Hacıyev belə ziyalılarımızdan, nüfuzlu alimlərimizdəndir. Onu biz bir alim kimi dil tarixi, türkologiya və ədəbiyyatşünaslıq sahəsində gördüyü işlərə, sanballı əsərlərinə görə yüksək qiymətləndiririk. Tofiq müəllimin də çox sevdiyi, yeni türk ədəbiyyatının öncüllərindən olan böyük şair və dövlət xadimi Ziya Paşa (Əbdülhamid Ziyaəddin – 1825–1880) doğru deyib:

Ayinəsi işdir kişinin, lafa baxılmaz,
Şəxsin görünür rütbeyi-əqli əsərində.

Hardasa oxumuşam. Orda deyilir ki, «Kitab bir nəslin o biri nəsil üçün qoyub getdiyi mənəvi əmanətdir».

Tofiq müəllimin üst-üstə 30-dan artıq monoqrafiyası, dərslik və dərs vəsaiti, 300-dən artıq elmi məqaləsi işıq üzü görüb. Bunlar sadəcə statistika deyil, alim ömrünün göstəriciləridir.

Professor Tofiq Hacıyev həmişə orijinallığı, özünəməxsusluğu ilə seçilən fikir adamıdır. Onun iştirak etdiyi yığıncaqlarda ən arzuolunan çıxışçı Tofiq müəllim olur. Həqiqətən də, onun elə bir məruzəsi, çıxışı olmaz ki, duzlu-məzəli kəlamları, məna dolu fikirləri ilə məclisdəkiləri ram etməsin,

istiqamətverici ideyalarla zəngin olmasın. Bircə misalla kifayətlənəcəyəm. Ümummilli liderimiz Heydər Əliyevin də iştirak etdiyi Azərbaycan Yazıçılarının X qurultayındakı çıxışında Tofiq müəllim Dövlət Dil Komissiyası yaratmağı təklif etdi. Bəziləri Yazıçıların qurultayında belə bir təklifin irəli sürülməsini dərk etmədi, hətta yersiz saydı. Lakin az sonra Prezident Heydər Əliyevin Fərmanı ilə Dövlət Dil Komissiyası yaradıldı.

Təbii ki, alim üçün bu böyük xoşbəxtlikdir. Lakin belə xoşbəxtlik dərin təfəkkürə, əlahiddə məntiqə, yüksək erudisiyaya malik insanlara qismət olur. Bu xoşbəxtliyi şərtləndirən amillərdən biri də Tofiq müəllimin başqalarına örnək ola biləcək xeyirxahlığıdır. Bu məqamda dahi Azərbaycan alimi Nəsirəddin Tusinin kəlamı yada düşür. Elm adamlarından danışarkən o, xüsusi vurğulayırdı ki, elm sahiblərini elmlərinin çoxluğu ilə deyil, əməllərinin faydalılığı, əxlaqlarının saflığı və özlərinin xeyirxahlığı ilə sınaqdan keçirmək lazımdır.

Tofiq Hacıyev Azərbaycan Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirib. Bu, beş il ərzində çəkilən gərgin əməyin bəhrəsi idi. Bu, o demək idi ki, beş il müddətinə heç bir fənndən bir dənə də «üç» qiymətin olmaya, semestrlərdə çox az sayda «4» alasan. Dövlət imtahanlarını yalnız əla qiymətlərlə verəsən. Bütün bunlara fitri istedadı, zəhmətkeşliyi, dözümlülüyü ilə seçilən, gələcəyi barədə düşünən, vaxtı boş keçirməyən adamlar nail olurlar. Adətən, belə adamlar gələcəkdə elmdə böyük uğurlar qazanırlar. Tofiq müəllimin özü və tələbəsi Nizami Cəfərov kimi.

Tofiq müəllimin bəxti bir də onda gətirib ki, beş il özü kimi əlahiddə istedada malik Yaşar Qarayev və Firudin Ağayevlə bir qrupda oxuyub. İstedadlı idmançılar birgə yarışan-

da rekord qazandıqları kimi, istedadlı tələbələr də bir yerdə oxuyanda bəhsəbəhsə düşür və uğur qazanırlar. Maraqlıdır ki, beş il ərzində onlar bütün fənlərdən yalnız əla qiymətlər almış, hər üçü də fərqlənmə diplomuna layiq görülmüşdülər. Sonralar Firudin Ağayev tanınmış yazıçı oldu. Yaşar Qarayev ədəbiyyatşünaslıq, Tofiq Hacıyev türkologiya elmimizin iftixarına çevrildilər.

Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirən Tofiq müəllim iki-üç il rayonlarda məcburi işdən azad olunaraq aspiranturada saxlanıldı (1958) və 1962-ci ildə «Azərbaycan dilinin Cəbrayıl şivəsi» adlı namizədlik dissertasiyasını müdafiə etdi. Cəbrayıl şivəsində həm Cənub, həm də Qərb qrupu dialekt və şivələrinin səciyyəvi xüsusiyyətləri yer aldığına görə onun hansı qrup dialekt və şivələrə aid olduğunu ayırd etmək müşkül məsələyə çevrildiyindən, tədqiqatçı, ilk dəfə olaraq keçid şivəsi məsələsini gündəmə gətirmiş və beləliklə, dialektologiya elmimizdə «keçid şivəsi» termininin sabitləşməsinin təməlini qoymuşdur. Alim cəmi yeddi il sonra, 1969-cu ildə «XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Bu, alimin fitri istedadından xəbər verirdi. Yeri gəlmişkən, onu da deyim ki, dilçilərimizdən belə erkən yaşlarında doktorluq dissertasiyası müdafiə etmək daha iki nəfərə–akademik Ağamusa Axundova və müxbir üzv Nizami Cəfərova qismət olmuşdur. Doğrudur, akademik M.Şirəliyev də 31 yaşında (1941-ci ildə) elmlər doktoru adına layiq görülmüşdü. Lakin ona bu adı «Bakı dialekti» adlı namizədlik dissertasiyasına görə birbaşa vermişdilər.

Xüsusi vurğulamaq istəyirəm ki, Tofiq Hacıyev əldə etdikləri ilə kifayətlənməmiş, yaşamağın mənasını yazıb-yaratmaqda görmüş, ömrünü bütövlükdə elmə həsr etmiş, öz

sahəsinin elm fədaisinə, nüfuzlu söz sahibinə çevrilmişdir. Alim dil tarixi, türkologiya və ədəbiyyatşünaslıq sahələrində ciddi tədqiqatlar aparmış, çoxşaxəli yaradıcılıq üfüqlərini fəth etmişdir. Professorun «Sabir: qaynaqlar və sələflər», «Şeir–dilimiz, düşüncəmiz», Mikayıl Baştunun «Şah qızı dastanı» və poetikası» və s. kimi əsərlərinin hamısı ədəbiyyat mövzusudur. Onun ədəbiyyatşünas alim kimi tanınmasına dəlalət edir. Lakin o, ədəbiyyat mövzusunu dilçilik baxımından təhlil edir və orijinal fikirlər irəli sürür.

Alimin müasir ədəbi proses, dil-üslub, ədəbi tənqid, poetika və s-dən bəhs edən onlarla məqaləsi nəinki ədəbi ictimaiyyətin, eləcə də ədəbiyyatşünasların həmişə diqqət mərkəzində olmuş, böyük maraqla qarşılanmışdır. Müəllifin «Gözəlliyin dili və dilin gözəlliyi», «Elmi-zehni səviyyə və bədii dildə novatorluğun faktı», «Yazıçı qayğısı, yazıçı mədəniyyəti», «Zaman, janr və dil», «Nəsr dilinin müasirlik məzmunu və müəllif çaları», «Üç Məmməddən biri Araz, biri İsmayıl, biri Aslan» və başqa məqalələrində ədəbi-bədii dilin əsas istiqamətləri, yazıçılarımızın əsərlərinin ədəbi-estetik və linqvistik təhlili tədqiqat süzgəcindən keçirilir. Ədəbi proses 1981-ci ildən Yazıçılar Birliyinin üzvü olan Tofiq müəllimin həmişə diqqət mərkəzində olmuşdur. Onun R.Rza, O.Sarıvəlli, İ.Əfəndiyev, Ə.Vəliyev, İ.Şıxlı, T.Elçin, Q.Xəlilov, Anar, B.Nəbiyev, Elçin, H.Kürdoğlu, Ə.Əylisli, F.Mehdi və başqalarına həsr etdiyi məqalələri ədəbi-mədəni prosesin inkişafına xidmət baxımından xüsusi əhəmiyyət kəsb edir. Tofiq müəllim ədəbiyyatla yaşayan adamdır. 1994-cü ildə alimin öz vəsaiti hesabına İraqa–Füzulinin 500 illik yubileyinə getməsi çox mətləblərdən xəbər verir. Ədəbiyyatımıza sonsuz məhəbbətin nəticəsidir ki, ədəbi proses, dil-üslub, ədəbi tənqid, poetika və s. ilə davamlı məşğul

olan Tofiq Hacıyev, eləcə də Ağamusa Axundov, Musa Adilov, Yusif Seyidov bu sahədə məktəb yaratdılar. Onların davamçıları meydana gəldi. Nizami Cəfərov, Kamal Abdulla, Qəzənfər Kazımov, Kamil Vəli Nərimanoğlu, Buludxan Xəlilov və başqaları bu məktəbin ən ümdə müdavimləri oldular.

Deyilənlər öz yerində. Tofiq Hacıyev Azərbaycan ədəbi dili tarixi və türkologiya sahəsində şəksiz görkəmli mütəxəssisdir. Təsadüfi deyildir ki, o, 1986-cı ildən Sovet İttifaqı süqut edənə qədər Türkoloqların Sovet Komitəsinin üzvü olmuşdur. Alimin dil tarixi sahəsində apardığı dəyərli tədqiqatlarında dilimizin mənşəyi, ədəbi dil tarixinin dövləşməsi ön plana çəkilir. «Kitabi-Dədə Qorqud» eposunun, Nəsiminin, Füzulinin, Sabirin dil poetikası araşdırılır. Onun «Azərbaycan ədəbi dili tarixi», «Satira dili», «XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili», «Yazıçı dili və ideya-bədii təhlil», «Molla Nəsrəddin»in dili və üslubu» və başqa fundamental əsərləri ümumən filologiya elmimizin nailiyyətidir desək səhv etmərik.

Bu baxımdan professor Nizami Cəfərovun fikri dediklərimizə dayaq olur, Tofiq müəllimin bu sahədəki yaradıcılığına işıq tutur:

«70-ci illərin ortalarında «Azərbaycan ədəbi dili tarixi» kitabı çapdan çıxanda təkcə Azərbaycan filologiyasına deyil, ümumən Azərbaycan elmi təfəkküründə elə bil ki, yeni nəfəs gəldi... yeni ideyalar irəli sürüldü. Həmin ideyalar çox sürətlə yayılıb nəinki gənc filoloqlar, həm də orta və yaşlı nəsildən olan dilçilər, ədəbiyyatşünaslar, tarixçilər arasında da öz tərəfdarlarını tapdı».

Tofiq müəllim həm də öz müəllimləri Məmmədağa Şirəliyev, Muxtar Hüseynzadə, Məmməd Arif, H.Mirzəzadə,

Mir Cəlal, Əli Sultanlı, Cəfər Xəndan, Məmməd Cəfər, Səlim Cəfərov kimi adlı-sanlı pedaqoqdur. Onun qiymətli dərslik və dərs vəsaitləri vardır. 1985-ci ildən bu günə kimi Bakı Dövlət Universitetinin Türkologiya kafedrasına rəhbərlik edir.

Çəkinmədən deyə bilərik ki, Tofiq Hacıyev türkologiya elmimizdə bir mərhələdir. O, qiymətli tədqiqatları ilə çağdaş türkologiya elmimizin flaqmanı mərtəbəsinə yüksəlmişdir. Bu sahədə məktəb yaradıb. Tələbələri ona «Tofiq Hacıyev məktəbi» adı veriblər. Bu məktəbdə dərs alan gənclər indi respublikamızda və Türk aləmində tanınan, adlı-sanlı, nüfuzlu söz sahibi olan alimlərdir. Nizami Cəfərov, Kamil Vəli Nərimanoğlu, Elbrus Əzizov, Məhərrəm Məmmədli, Sərxan Abdullayev, Ramiz Əsgər, Rasim Özrək (Türkiyə), Sevda Sadıxova, Qızılgül Abdullayeva, Gülxanım Vəliyeva və başqaları «Tofiq Hacıyev məktəbi»nin yetişdirmələridir.

Bu sətirləri yazarkən yaddaşımda görkəmli dilçi alim Muxtar Hüseynzadənin 80 illik yubileyi canlandı. Azərbaycan Dövlət Universitetində təntənəli şəkildə qeyd olunan yığıncaqda Muxtar müəllim hamının marağına səbəb olan bir məsələdən söz açdı. Dedi ki, müəllimlik fəaliyyətimə, monoqrafiya, dərslik və dərs vəsaitlərinə görə mənə professor rütbəsi vermişdilər. Doktorluq dissertasiyası müdafiə etmək istəmirdim. Bu «uşaqlar» məni məcbur etdilər. Uşaqlar deyəndə Muxtar müəllim yanında cərgə ilə oturmuş tələbələrini–professorlar Əlövsət Abdullayev, Fərhad Zeynalov, Yusif Seyidov, Ağamusa Axundov, Musa Adilov, Tofiq Hacıyev, Ağaməli Həsənov, Əbülfəz Rəcəbov və başqalarını nəzərdə tuturdu. Vaxt keçdi, Tofiq Hacıyev müəlliminin mərtəbəsini aşdı. Özü türkologiya məktəbi yaratdı.

Alimin yaradıcılığında «Kitabi-Dədə Qorqud»la bağlı tədqiqatlar xüsusi yer tutur. Təkcə onu demək kifayətdir ki, o, ikicildlik «Kitabi-Dədə Qorqud» ensiklopediyası»nın aparıcı müəlliflərindən biri və onun I cildinin (Bakı, 2000) redaktoru olmuşdur. «Kitabi-Dədə Qorqud» ensiklopediyası»nda alimin yüzdən artıq məqaləsi yer alır. Tofiq müəllim, eləcə də «Üzeyir Hacıbəyov ensiklopediyası» (Bakı, 1996) və AMEA-nın Ədəbiyyat İnstitutunun hazırladığı altıcildlik «Azərbaycan ədəbiyyatı tarixi»nin müəlliflərindəndir.

Professorun diqqət çəkən bir xidmətindən də söz açmasaq ən azı insafsızlıq olardı. Alim AMEA-nın Folklor İnstitutunun yarandığı 2003-cü ildən «Qorqudşünaslıq» şöbəsinin müdiridir. İnstitutda «Dədə Qorqud» adlı elmi-ədəbi toplunun redaktoru kimi səmərəli fəaliyyət göstərir. Alim, eləcə də «Dədə Qorqud kitabı»nın izahlı ensiklopedik lüğəti»nin hazırlanmasına rəhbərlik edir. Bütün bunlarla bərabər, professor Tofiq Hacıyev elmi kadrların hazırlanmasına da xüsusi qayğı göstərir. Rəhbərliyi ilə 20-dən artıq namizədlik, məsləhətçiliyi ilə beş doktorluq dissertasiyası müdafiə edilib. Bir çox namizədlik və doktorluq dissertasiyaları üzrə opponent olub.

Tofiq müəllimin elminə və şəxsiyyətinə dəlalət edən bir məsələni də yada salmaq istərdim. 2005-ci ildən bu günə kimi Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü və filologiya elmləri üzrə Ekspert Şurasının sədridir. Ekspert Şurasına sədr, adətən, bir müddətə seçilir. Lakin professor Tofiq Hacıyev 3-cü müddətdir ki, bu şuraya sədr seçilir. Bu faktın özü çox mətləblərdən xəbər verir.

O, görkəmli və tanınmış elm xadimlərinin yaradıcılığını izləyən və qiymətləndirən alimlərimizdəndir. Onun akademiklərdən M.Şirəliyev, B.Budaqov, V.Məmmədəliyev, müxbir üzvlərdən Z.Budaqova, K.Abdulla, professorlardan

Ə.Abdullayev, F.Zeynalov, Q.Kazımov, folklorşünas alim Ayaz Vəfalı və başqaları haqqında yazıları örnək olmaq baxımından qiymət kəsb edir.

Alimin özü haqqında da sanballı yazılar qədərincədir. N.Cəfərov, Budaq Budaqov, Anar, Elçin, Kamal Abdulla, Q.Kazımov, V.Aslanov, M.Məmmədov və başqaları nüfuzlu mətbuat orqanlarında Tofiq müəllimin yaradıcılığının müxtəlif cəhətlərinə işıq tutan yazılar dərc etdirmişlər.

Professor Tofiq Hacıyev türk dünyasında sayılıb-seçilən tədqiqatçılardandır. 1995-ci ildən Türkiyə Cümhuriyyəti Atatürk Dil, Tarix və Kültür Qurumunun fəxri üzvüdür. 1998-ci ildə Türkiyə Cümhuriyyətinin «Ləyaqət nişanı» ordeni ilə təltif olunmuşdur. 2002-ci il üzrə Türkiyənin Sanatçılar və Yazıçılar Vəqfinin «Türk dünyasına xidmət» ödülünün sahibidir. 2004-cü ildə Atatürk Dil Qurumunun «Üstün hizmət Baratı»na layiq görülmüşdür.

Alimin tarixi dəyəri xalqı qarşısında xidmətləri ilə ölçülür. Tofiq müəllim hər baxımdan yüksək qiymətə layiq alim və pedaqoqdur. Bunu nəzərə alan dövlətimiz prof. Tofiq Hacıyevin əməyini yüksək qiymətləndirmişdir. «Şöhrət ordeni»nə və Əməkdar elm xadimi kimi şərəfli ada layiq görülən alim, eləcə də Milli Elmlər Akademiyamızın müxbir üzvü seçilmişdir.

May ayının 1-də görkəmli alim və pedaqoq Tofiq Hacıyevin 75 yaşı tamam olur. Qürur duyduğum, buna görə də ürək sözlərimi əsirgəmədiyim Tofiq müəllimə ən azı elmimiz naminə möhkəm cansağlığı diləyir, qalan ömür payını da həmişəki kimi alnıaçıq, üzüağ yaşamağı, şərəfli ömür sürməyi təmənna edirəm.

Bakı, 01.04.2011

ÇOXŞAXƏLİ YARADICILIQ YOLU *

Elm aləmində ciddi tədqiqatlar aparan çağdaş filoloqlarımızdan söz düşəndə göz önünə ilk gələnlərdən biri də f.e.d., professor Qəzənfər Kazımov olur. Alimin müasir dil, dil tarixi, bədii dil, üslubiyyat, satira dili, etimologiya, leksikologiya, ədəbi tənqid, yazılı abidələr, folklorşünaslıq, klassik və çağdaş yazarlarımızın sənətkarlıq xüsusiyyətləri sahəsində tədqiqatları yaradıcılığının çoxşaxəliliyindən xəbər verir.

Prof. Q.Kazımovun yaradıcılığının çoxşaxəliliyi elmi rəhbəri Ə.Dəmirçizadənin təsiri və öz istedadı ilə bağlıdır. Maraqlıdır ki, hər biri sonralar görkəmli alim kimi yetişən M.Şirəliyev, Ə.Dəmirçizadə və M.Hüseynzadənin aspiranturada elmi rəhbəri prof. Bəkir Çobanzadə olmuşdur. Prof. B.Çobanzadə onları Azərbaycan dilçiliyinin müxtəlif sahələrinə yönəldirdi. M.Şirəliyev, əsasən, türkologiya, onun maraqlı sahələrindən biri olan dialektologiya ilə, M.Hüseynzadə sırf müasir dillə, Ə.Dəmirçizadə isə müasir dil və dil tarixi ilə məşğul olurdu. Ə.Dəmirçizadə müəllimindən əxz etdiklərini istedadlı tələbəsinə ardıcıl olaraq öyrədirdi. Öyrədirdi deyəndə ki, məlum kitabları oxutdurur, hər bir kitab barədə müzakirələr keçirir, tələbəsini istiqamətləndirirdi. Yadımdadır mənim namizədlik dissertasiyamın kafedrasında müzakirəsi zamanı (1969) Ə.Dəmirçizadə dedi ki, mən müasir dil mütəxəssisi, dialektoloq, dil tarixçisi yox, filoloq-alim yetişdirirəm.

Maraqlıdır ki, adətən, namizədlik dissertasiyalarının müzakirəsində iştirak etməyən alim mənim Kərkük dialektinə həsr olunmuş dissertasiyamın müzakirəsində iştirak edərək əsərin məziyyətlərindən söz açdı, İraqda yaşayan soydaşlarımızın folkloruna da ciddi fikir verməyi tövsiyə etdi. Alimin məsləhətindən lazımi nəticə çıxardım.

* «Ədəbiyyat qəzeti», 25 dekabr 2009-cu il.

Hər dəfə Qəzənfər Kazımov haqqında düşünəndə yaddaşımda qırx il bundan əvvəl Yasamalda gördüyüm, indi də həmənki kimi qalan birmərtəbəli evi və zəngin kitabxanası canlanır. O vaxtlar bəşəriyyətin ən böyük kəşfi olan kitablara layiq olduğu həqiqi qiyməti verir, ondan qədərincə bəhrələnirdilər. Demək olar ki, əksər evlərdə kiçik kitabxana olar, kitabları ən böyük var-dövlət hesab edərdilər.

Dörd il xaricdə tərcüməçi işləyib vətənə dönmüşdüm. Çoxları mənə, mən isə zəngin kitabxanasına görə elmin daşlı-kəsəkli yollarında birgə addımladığım adaşıma həsəd aparırdım.

Qəzənfər Kazımovun kitablarının, məqalələrinin dalbadal çıxması, elmi və ədəbi ictimaiyyət arasında tanınması, onun işıqlı gələcəyindən xəbər verirdi. Əvvəllər bədii dil və ədəbiyyatşünaslıq məsələləri ilə ciddi məşğul olan alimlərimizdən söz düşəndə A.Axundov, T.Hacıyev, M.Adilov və Y.Seyidovun adını çəkərdilər. Lakin sonralar bu cərgədə Nizami Cəfərov və Qəzənfər Kazımov da yer tutdu. Dilçilik fəaliyyətini ədəbiyyatşünaslıq elmi ilə həmahəng aparan alim ədəbi-bədii dil, yazıçı və dil («Yazıçı və dil» monoqrafiyası 1975-ci ildə çap olunub), bədii dil və tənqid və s. kimi sahələrə dair əsərlərində həm klassik, həm də çağdaş yazarlarımızın dil və üslub özəlliklərini dəyərləndirmişdir. Tədqiqatçı ədəbi-bədii dil və mətbuat dilini, yazıçı dilinin leksik-semantik xüsusiyyətlərini araşdırmış, Ə.Haqverdiyevin dram dilinə dair sanballı əsər yazmışdır. Alimin «Komik-bədii vasitələri», «Bədii ədəbiyyatda komizm üsulları», «Komizm nəzəriyyəsi» kimi monoqrafiyaları orijinallığı ilə seçilir. Professorun bu əsərləri alimlərimizin diqqətini cəlb etmiş, professorlar X.Məmmədov, M.Mahmudov, Q.Məşədiyev, M.Çobanov, S.Mehdiyeva və başqaları onlara geniş məqalələr həsr etmişlər.

Dilin sintaktik quruluşu barədə alimin gəldiyi qənaətləri, baxışı yenidir. Alimlərimizdən akademik A.Axundov, AMEA-nın müxbir üzvü K.Abdullayev, f.e.d. Z.Əsgərli, dos. K.Hacıyev və başqaları tədqiqatçının bu sahədəki fəaliyyətini yüksək qiymətləndirmiş, alimin ənənəvi sintaksisdən fərqli bir əsər ortaya qoyduğunu, tarixən mübahisəli görünən bir sıra məsələlərə aydınlıq gətirdiyini qeyd etmişlər.

Prof. Qəzənfər Kazımovun elmi fəaliyyəti barədə dolğun məlumatı onun bu yaxınlarda işıq üzü görən, hər biri üstüstə 500 səhifədən artıq olan VII cildliyindən almaq olar.

Burada onu deməyi vacib sayırıq ki, tanınmış alimlərin seçilmiş əsərlərinin buraxılması yaxşı haldır. Bu, bir yandan onların keçdikləri elm yoluna nəzər salmaq, digər tərəfdən də gələcəkdə tədqiqatçıların işini asanlaşdırmaq baxımından gərəklidir. İndinin özündə çağdaş alimlərimizin bəzi kitablarını, elmi məqalələrini, xüsusən də qəzetlərdə çap olunan elmi-publisistik məqalələrini əldə etmək problemə çevrilir. Bu baxımdan seçilmiş əsərlərin cildlərdə çapının böyük üstünlüyü göz qabağındadır. Bircə misalla kifayətlənəcəyəm. Prof. Q.Kazımovun seçilmiş əsərlərinin «Sənət düşüncələri» adlandırdığı IV cildində müəllifin 30 ildən artıq zaman kəsiyində apardığı tədqiqatların bir qismi toplanmışdır. Burada dilimizin mənşəyi, tarixi və müasir vəziyyətindən bəhs edən məqalələrlə yanaşı, çağdaş yazarlarımızın yaradıcılığına həsr olunmuş 30-dan artıq maraqlı yazılar yer almışdır. Əgər bu əsərlər alimin bir cildinə toplanaraq təqdim edilməsəydi, gələcəkdə (elə indinin özündə də) tədqiqatçılar onları əldə etmək üçün nə qədər vaxt və enerji sərf etməli olardılar.

Prof. Q.Kazımovun «Seçilmiş əsərləri»nin I cildinə «Ə.Haqverdiyevin dramaturgiya dili» və «C.Məmmədquluzadənin Sovet dövrü felyetonlarının dili» monoqrafiyaları, tarix və dil tarixi problemlərinə həsr olunmuş məqalələri

(2001–2007) daxil edilmişdir. Bu cilddə f.e.d. Zaman Əsgərlinin çox geniş və sanballı giriş məqaləsi yer alır.

Müəllifin seçilmiş əsərlərinin II cildinə «Komik bədii vasitələr», «Bədii ədəbiyyatda komizm üsulları» monoqrafiyaları və son dövrlərdə yazdığı bir sıra məqalələri daxil edilmişdir.

Bu cilddə T.Şahbazi, B.Talıblı, Qantəmir, Mir Cəlal və S.Rəhman nəsrinin dil faktları əsasında Azərbaycan dilinin gülüş yaratma imkanları nəzərdən keçirilmiş, sözün komik potensialı haqqında danışılmışdır. Burada xüsusi adlar və ləqəblər, şivə leksikasının, vulqar söz və ifadələrin, atalar sözləri və məsəllərin, aforizm və şablonların komik təbiəti, komizm yaratma imkanları şərh edilmişdir. Cildin elmi redaktoru, AMEA-nın müxbir üzvü T.Hacıyev kitaba yığcam «ön söz» yazmışdır. Alimin göstərdiyinə görə prof. Q.Kazımova qədər komizm yaradan xüsusiyyətlər analitik fikir süzgəcindən keçirilməyib. Q.Kazımovun böyük xidməti ondan ibarətdir ki, nəzəri-estetik ədəbiyyatda komik vasitələrlə komik üsullar arasında məzmun-keyfiyyət və kəmiyyət fərqlərinin hüdudlarını ilk dəfə olaraq elmi şəkildə aydınlaşdırmışdır. Təsadüfi deyildir ki, prof. Həsən Mirzəyev xüsusi vurğulamışdır: «Q.Kazımov filologiyamızda komizm nəzəriyyəsinin görkəmli tədqiqatçısı kimi tanınmaqdadır».

Əvvəldə dediyimiz kimi Q.Kazımovun elmi fəaliyyəti çoxşaxəlidir. Alimin yaradıcılığına işıq tutan sahələrdən biri də folklorşünaslıqdır. Q.Kazımov XVI əsrin görkəmli aşığı Qurbani irsini hərtərəfli öyrənərək, el şairinin əsərlərindən ibarət ilk geniş toplu nəşr etdirmişdir.

Alimin seçilmiş əsərlərinin III cildi bütövlükdə Dirili Qurbani ilə bağlıdır. Tədqiqatçı ilk dəfə olaraq Qurbaninin harada doğulduğu, harada yaşadığı, ömür payı, valideynləri, təxəllüsü, Qurbaninin məzarı və s. kimi məsələlərə aydınlıq gətirmiş, Qurbani əsərlərinin toplanması və nəşri, Qurba-

ni şeirlərinin poetik xüsusiyyətləri, dil və sənətkarlıq məsələləri və s-dən bəhs etmişdir.

Alimin «Qurbani və poetikası» (1996) əsəri aşıq sənətinin aşıq poeziyasının banilərindən biri–Qurbaninin həyat və yaradıcılığına həsr edilən ilk və hələlik yeganə sanballı monoqrafiyadır. Bu əsər gələcəkdə araşdırıcıların bəhrələnə biləcəyi mötəbər mənbədir desək səhv etmərik. Onu da qeyd edək ki, professor Q.Kazımov Qurbani haqqında monoqrafiya üzərində işləməzdən əvvəl ciddi axtarışlar aparmış, «Diri kəndi və Qurbani», «Qurbani və Xətai», «Qurbani ənənələri», «Aşıq Qurbani və məzarı», «Qurbani təxəllüsü», «Qurbani sənətkarlığı» kimi diqqətəlayiq məqalələrlə mətbuatda çıxış etmiş, folklorşünasların rəğbətini qazanmışdı. Alimin «Yunus Əmrə və Qurbani», «Bir daha Molla Qasım və Yunus Əmrə haqqında», «İnsan payız ölə, yazda dirilə» (Aşıq Ələsgər haqqında) kimi məqalələrini də həyəcansız oxumaq olmur.

Ömürlərini folklorumuzun tədqiqinə həsr edən filologiya elmləri doktorları B.Abdulla, M.Allahmanlı, S.Rzasoy və başqaları Q.Kazımovun Qurbani ilə bağlı tədqiqatlarını yüksək qiymətləndirmişlər.

Alimin «Seçilmiş əsərləri»nin V cildinə ali məktəblər üçün yazılmış «Müasir Azərbaycan dili. Sintaksis» dərsliyi daxil edilmişdir. Müəllif dilçilər arasında ən çox mübahisə doğuran, fikir ayrılığına səbəb olan ağır bir yükün altına girmiş və onun öhdəsindən gələ bilmişdir. Hər şeydən əvvəl, onu deyək ki, bu dərslik quruluşu etibarilə elmi olan azsaylı əsərlərdəndir. Burada sadə cümlə, cümlənin baş üzvləri, ikinci dərəcəli üzvləri, təktərkibli, cüttərkibli cümlələr, qeyri-müəyyən şəxsli, ümumi şəxsli, şəxssiz, adlıq cümlələr, bütöv və yarımçıq cümlələr, tabeli və tabesiz mürəkkəb cümlələr, onların növləri və s-dən danışılır. Tədqiqatçının bütün bu cümlə növlərinə misallar gətirmək üçün nə qədər bədii ədə-

biyyat oxumalı olduğunu təsəvvür etmək çətin deyil. Müəllifin apardığı müqayisələr, söykəndiyi arqumentlər inandırıcıdır. Əsərin qısa müddət ərzində beş dəfə təkrar çap olunması çox mətləblərdən söz açır.

Seçilmiş əsərlərin VI cildinə alimin «Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər)» monoqrafiyası daxildir. Altı fəsildən ibarət əsər dil tarixi ilə məşğul olanlar, Azərbaycan xalqının tarixi və dilinin mənşəyi ilə maraqlananlar üçün əvəzsiz xəzinədir. Bu əsərin elmi dəyəri haqqında ayrıca söhbət açmaq olar.

Prof. Q.Kazımovun «Seçilmiş əsərləri»nin VII cildinə «Dil, tarix, poeziya» adlı fundamental əsəri və müəllifin bir sıra yeni məqalələri daxildir. Məqalələrin bəzisi dil tarixinə, dialektologiyaya, türkologiyaya, müasir dil və dilin tədrisinə həsr olunmuşdur. Bu cilddə oxucular yazarlarımızın əsərlərinin ədəbi-estetik və linqvistik təhlilinə həsr olunmuş məqalələrlə, eləcə də görkəmli elm adamlarının həyat və yaradıcılığından bəhs edən yazılarla tanış olmaq imkanı əldə edəcəklər.

Prof. Q.Kazımovun qeyd etdiyimiz hələlik çap üzü görən yeddi cildi ümumən dilçiliyimizin inkişaf yolu barədə təsəvvür yaradır.

Elmi yaradıcılığı ilə bərabər, prof. Q.Kazımov təşkilatçılıq fəaliyyəti ilə də fərqlənir. Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki Dövlət Pedaqoji Universiteti) xeyli vaxt (1989–1997) filologiya fakültəsinin dekanı olmuş, təlim-tərbiyə və tədrisi yüksəltmiş, fakültədə görkəmli alimlərlə, yazıçı və şairlərlə 60-dan artıq tədbirlər–görüşlər, yubileylər, elmi konfranslar keçirmişdir. Ə.Dəmirçizadə, Ş.Qurbanov, M.Rəfili, Ə.Hüseynov, Söhrab Tahir, Hüseyn Arif və başqalarının yubileyləri, Yusif Seyidov, Qulamhüseyn Beqdeli, Məhəmmədəli Fərzanə, Savalan, Qiyasəddin Qeybullayev, Vaqif Aslanov, Zəlimxan Yaqub, Məmməd İsmayıl, Məm-

məd Aslan, Azad Nəbiyev, Ramiz Novruzov, Nurəddin Quliyev və başqaları ilə görüşlər və s. Belə görüşlər, yubiley tədbirləri filologiya fakültəsinin tələbələrinə hava kimi, su kimi gərəkli olur. Onu da deyim ki, bu tədbirlərin arxasında böyük təşkilatçılıq işi dururdu ki, bu da birbaşa prof. Q.Kazımovun məsuliyyəti çərçivəsində idi. Prof. Q.Kazımov Milli Elmlər Akademiyasının Dilçilik İnstitutunun dialektologiya şöbəsinə müdir (2001) seçiləndən sonra (Q.Kazımovu sırf elm aləminə gətirdiyinə görə institutun direktoru, akad. A.Axundova minnətdarıq) onun elmi təşkilatçılıq məharəti özünü daha aydın göstərdi. Həmin şöbənin işində böyük canlanma aşkar görünməkdədir. Az vaxtda «Azərbaycan dialektologiyası» seriyası ilə şöbə 12 kitab buraxmışdır. «Azərbaycan dilinin Dərbənd dialekti», «Azərbaycan dilinin Meğri şivəsi» kimi abidə əsərlər onun rəhbərliyi ilə çapa hazırlanmış, redaktorluğu ilə işıq üzü görmüşdür. Prof. Q.Kazımov bizim maddi köməyimiz və şöbənin əməkdaşları ilə birgə yazdığımız «İraq–türkman ləhcəsi» (Bakı, «Elm», 2004, 422 s.) adlı fundamental əsərə çox ciddi və sanballı giriş məqaləsi yazmışdır.

Prof. Q.Kazımovun elmi kadrların yetişməsində də xidmətləri böyükdür. Alimin doqquz aspirantı namizədlik dissertasiyası müdafiə edərək alimlik dərəcəsi almış, altı nəfər aspirant və dissertantı isə elmi işlərini tamamlamaq üzrədir.

Prof. Q.Kazımov bir müddət AAK-ın Ekspert komissiyasının üzvü olmuş (1995–2000), hazırda Dilçilik İnstitutunun Dissertasiya, Elmi və Koordinasiya şuralarının üzvüdür. Alim neçə-neçə doktorluq və namizədlik dissertasiyaları üzrə opponent olmuşdur. Tədqiqatçının 40-dan artıq monoqrafiyası, dərsliyi və dərs vəsaiti, tərtibində Aşıq Qurbaninin şeirlər toplusu, 400-ə yaxın elmi və elmi-publisistik məqaləsi işıq üzü görmüşdür. Q.Kazımov o azsaylı dilçiləri-

mizdəndir ki, əsərlərinin oncildliyini çap etdirərək oxucu və tədqiqatçılara təqdim etmişdir. Professorun yaradıcılığına görkəmli alimlərimiz 140-dan artıq məqalə həsr etmişlər. Bu anda, zənnimcə, ciddi bir məqamdan da söz açmaq yerinə düşərdi. Elə tədqiqatçılar var ki, qalaq-qalaq kitabları və məqalələri çıxır. Lakin onlardan nə bəhrələnir, nə də araşdırmalarda onlara istinad edirlər. Deməli, yazdıqlarının elmi dəyəri diqqət çəkəcək səviyyədə olmur. Elə alimlərimiz də var ki, dəyərinə, sanbalına və orijinallığına görə onların tədqiqatlarından yan keçmək mümkün olmur. Prof. Q.Kazımov belə xoşbəxt tədqiqatçılar sırasındadır.

GƏLƏCƏK NƏSİLLƏRƏ YADİGAR *

İnsan yaşa dolduqca öz doğulduğu, boya-başa çatdığı elinə-obasına yarınmağa, nə isə xeyirli bir iş görməyə, özündən sonra bir iz qoymağa çalışır. Bizcə, Zirəddin Xasiyevin uzun illərdən bəri üzərində işlədiyi «Tovuzun toponim dünyası», hər şeydən əvvəl, bu daxili ehtiyacdan doğan mənəvi borc kimi ortaya çıxmışdır. Etiraf edək ki, müəllif Tovuzdan Azərbaycanın toponim dünyasına bir pəncərə açmış, xalqımızın soykökü, etnik tərkibi ilə bağlı maraqlı tarixi-linqvistik faktları açmağa çalışmış və buna müyəssər olmuşdur.

Elmi redaktoru və ön sözün müəllifi olduğum «Tovuzun toponim dünyası»nın ilk çapından 13 il keçib. Bu zaman kəsiyində tədqiqatçı bir an belə mövzudan ayrılmamış, yeni-yeni ədəbiyyat və məxəzlərlə tanış olmuş, xeyli əlavə material toplamışdır. Əldə olunmuş materiallar və ədəbiyyat əsə-

* Z.Xasiyev. Tovuzun toponim dünyası. «Sabah», «Elm və təhsil», 2010, səh. 6–8.

rin mükəmməl işlənmiş yeni çapına gətirib çıxarmışdır. Əgər əsərin ilk çapı cəmi yeddi çap vərəqindən ibarət idisə, onun çapa təqdim olunan yeni variantı 14 çap vərəqini keçir. Odur ki, bu əsərə təkrar nəşr adı vermək düz olmazdı. Əsər elmiliyi və mükəmməlliyi ilə əvvəlki çapından fərqlənir. Yeni tədqiqat işi təsiri bağışlayan əsərdə Tovuz bölgəsində mövcud olan toponimlər araşdırılmışdır. «Tovuzun toponim dünyası» (Əsərə bu adın verilməsində payım olduğunu düşünəndə qürur hissi keçirirəm) dörd fəsildən ibarətdir: «Etnotoponimlər», «Antrotoponimlər», «Tərkibində qədim türk sözləri daşlaşmış toponimlər», «Poeziyada Tovuz toponimlərinin təsviri».

Dördüncü fəsil indiyə qədər onomastika sahəsində öz əksini tapmayan, Tovuz arealında yer alan toponimlərin poeziyada tərənnümündən söz açır. Burada Hüseyn Bozalqanlı, Mikayıl Azaflı, Əkbər Cəfərov kimi aşıqların, Xəyyat Mirzə, Mülkülü Həsən, Səlim Sinədəftər, Alakollu İdris kimi el şairlərinin, Hüseyn Kürdoğlu və Rasim Kərimli kimi tanınmış şairlərin, toponimlərin özləri kimi tarixdə qalacaq şeirləri yer alır. Təsəvvür edin, tanınmış aşıq və şair Mikayıl Azaflının «Tovuz» adlı 29 bənddən ibarət şeirində Tovuz bölgəsində, demək olar ki, elə bir toponim yoxdur ki, təsvir və tərənnüm edilməsin. Mənə belə gəlir ki, Zirəddin Xasiyevin bu fəsli ən etibarlı mənbə olmaq baxımından toponomistlərin diqqətini ciddi şəkildə cəlb edəcəkdir.

Göründüyü kimi, alim onomastika elminə dair tədqiqlərdə mütləq olan dörd elmin sintezinə (coğrafiya, tarix, etnoqrafiya, dilçilik) yeni bir elm sahəsini–yazılı və şifahi ədəbiyyatı da daxil etmişdir. Doğrudur, bu fəsildə nəzəri məsələlər qoyulmur. Bu bölüm, başqa fəsillərə etibarlı və mötəbər mənbə olmaq baxımından əvəzsizdir.

Bu tədqiqat əsərində bir folklorçu kimi bizi ən çox maraqlandıran ayrı-ayrı toponimlərin açmasında istifadə olunan

xalq yaradıcılığı, xalq deyimləri, bayatılar oldu. Onlardan bəziləri məhəlli xarakter daşıdığından böyük qiymət kəsb edir. Çoxu ilk dəfədir məhz Z.Xasiyev tərəfindən qələmə alınır. Çox arzu edərdik ki, tədqiqatçı dastanlardan da bəhrələnəydi.

Müəllif qaynaqlara, türkoloji mənbələrə əsaslanaraq Yanıqlı kənd adının tarixən Yanqılı, yəni «Təzəkənd», «Yenikənd» mənasında işlənildiyini göstərərkən hələ 1968-ci ildə «Azərbaycan dilinin dialektoloji atlası» monoqrafik tədqiqat işi üçün material topladığı zaman həmin kənd sakini Məhəmmədov Hadi Həsən oğlundan eşitdiyi bir bayatıya da söykənmişdir:

Yanqılıyam, yanqım yox,
Xınnalıyam, xınam yox,
Sel gəldi, evim üşdü
Vətənimdə yuvam yox.

Yaxud Əsrik Cırdaxan toponiminin etimologiyasını müəyyənləşdirərkən əsrik // əsrük arxaizminin ilkin mənada bu gün də folklor materiallarında işləndiyini göstərmişdir:

Gözəl, gözəl, ay gözəl,
Əsrük maya, nər gözəl,
Bircə səni sevmişəm
Mən sevmirəm hər gözəl.

Və yaxud:

Nərgizlər;
Top-top bitər nərgizlər,
Əsrük bir maya gördüm.
Qoltuğunda nər gizlər.

Tədqiqatdan aydın olur ki, Azərbaycanın bir parçası olan Tovuzda Oğuz şəcərəsi ilə bağlı maraqlı onomastik vahidlər

üstünlük təşkil edir. Bu, o deməkdir ki, Tovuz Oğuz yurdudur. Bu yurdun ilkin abidəsi olan «Aldədə» uzun müddət lal kimi yaşamış, nəhayət ki, dilə gələrək öz sirrini açıb söyləməyə başlamışdır. Xalqın əsrlərlə ehtiram göstərdiyi, hər gün üstündə niyyət qurbanı kəsdiyi «Aldədə» Dədə Qorqud dünyasından xəbər verir. Burada Dədə Qorquddan söz açan təkcə «Aldədə» deyildir. Azərbaycanın bu dilbər guşəsində–Oğuz elində Dədə Qorqudu nişan verən toponimlər çoxdur: Dondar, Qazqulu, Qazan, Dondar Quşçu, Çeşməli, Ağacqala, Şamlıq və s.

Dağıdıcı müharibələr, yurdumuza göz dikən işğalçılar tarixi abidələrimizi məhv etsələr də, xalqımızın kökündə dayanan ilkin odu, ilkin çırağı söndürə bilməmişlər. Ulu Xunan yurdundakı Torpaqqala, hələ Girdman dövlətindən Yanıqlı, Köhnəqala yurdlarında qalan qala və qalaçalar və s. türk qövmlərinin ilkin qaynaqları hesab olunur. Bax beləcə zərrə-zərrə, kəlmə-kəlmə torpağımızın dərin və üst qatlarından çıxarılan tarixi incilər gələcəkdə xalqımızın keçmişini, özlüyünü özünə qaytaracaq, nəhayət, ilkin adı, ilkin maddi mədəniyyəti ilə tanıtdıracaqdır. Biz buna əminik.

Tarixin dil yaddaşından ayrı-ayrı sahə toponimlərinin öyrənilib tədqiq edilməsi indiki dövrdə çox vacibdir. Çünki gözümüz baxa-baxa dədə-baba yurdumuzda nə qədər toponimlər silinib atılmışdır. Xoşbəxtlikdən onlar zehinlərdən silinməmiş, xalqın yaddaşında, şifahi xalq ədəbiyyatında, aşıqların sazında yaşamaqdadır.

Z.Xasiyevin bu maraqlı əsərinin dəyərləndirilməsi, bu sahədə xidmətləri olan akademiklərdən: Budaq Budaqov, Ağamusa Axundov, professorlardan: Vilayət Əliyev, Q.Məşədiyev, Rübabə Əliyeva və başqa toponimistlərin, mötəbər alimlərimizin işidir. Burada biz tam əminliklə bir onu deyə bilərik ki, «Tovuzun toponim dünyası» gələcək nəsillərə əvəzsiz yadigardır.

TARİXDƏ QALACAQ ABİDƏ BİR ƏSƏR *

Son bir neçə ildə ölkəmizdə elm aləmindəki uğurlarımızı göz önünə gətirsək, Azərbaycan Dillər Universitetində baş verən iki əlamətdar hadisədən də söz açmaq həqiqətdən kənar olmazdı. Onlardan biri professor Oruc Musayevin rəhbərliyi və redaktəsi ilə nəşr olunan, yüz otuz min söz və söz birləşməsini əhatə edən, dünya lüğətçilik tələblərinə tam cavab verən, möhtəşəm «İngiliscə–Azərbaycanca lüğət»dir (Bakı, «Qismət», 2003). Söz açacağımız ikinci əlamətdar hadisə isə filologiya elmləri doktoru, professor Nigar Vəliyevanın illərdən bəri üzərində işlədiyi və çapına nail olduğu heyrətamiz «Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət»dir («Azərnəşr», 2010).

Bu fundamental əsərin elmi redaktoru, görkəmli dilçi-alimimiz, akademik Ağamusa Axundovdur. Əsərə AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərov yığcam ön söz yazmışdır. Alim «Dil xalqın ən böyük sərvətidir»–deyən ümummilli liderimiz Heydər Əliyevin dilimizə, dilçilik elmimizin inkişafına göstərdiyi qayğıdan söz açır və Azərbaycanda xarici dillərin tədrisinə və qarşılıqlı tədqiqinə zəmanəmizdə böyük ehtiyac olduğunu xüsusi vurğulayır. Görkəmli dilçi və ədəbiyyatşünas alim Nizami Cəfərov Nigar xanımın əsərini yüksək qiymətləndirir: «İlk dəfə olaraq Azərbaycan, ingilis və rus dillərində frazeoloji vahidlər toplanmış, təsvir edilmiş, bir-birindən uzaq olan və müxtəlif sistemli dillərə məxsus bu leksikləşmiş vahidlər sistemə salınmışdır. Azərbaycan dilinin digər dünya dilləri ilə, o cümlədən ingilis və rus dilləri ilə birbaşa əlaqələrinin artdığı indiki dövrdə bu istiqamətli tədqiqatların səmərəsi və əhəmiyyəti danılmazdır» qənaətinə gəlir.

* «Azərbaycan» qəzeti, 12 yanvar 2011-ci il.

İki cilddən ibarət olan bu əvəzsiz əsər 90 mindən artıq frazeoloji vahidi, atalar sözü və zərbi-məsəli içinə alır. Birinci cild 990, ikinci cild isə 986 səhifədən ibarətdir. Bu bənzərsiz abidə əsər haqqında oxucularda tam təsəvvür yaratmaq üçün ömrünü ingilis və rus frazeoloji vahidlərinin tədqiqinə həsr edən A.V.Kuninin iki cilddən ibarət «İngiliscə-rusca frazeoloji lüğəti» ilə müqayisə etmək yerinə düşərdi. Həqiqət müqayisədə üzə çıxır deyirlər. A.V.Kuninin ikicildliyi cəmisi 25 min frazeoloji vahidi içinə aldığı və təkcə ingilis və rus dillərində olan frazeoloji vahidlərdən bəhs etdiyi halda, Nigar Vəliyevanın lüğəti 90 mindən artıq frazeoloji vahidi əhatə edir. Tədqiqatçının zəhmətinin ağırlığı və görülən işin üstünlüyü bir də ondan ibarətdir ki, bu lüğətdə üç müxtəlif sistemli dillərin, daha doğrusu, üç başqa-başqa dil ailələrinə– türk dilləri, roman-german dilləri, slavyan dilləri ailələrinə daxil olan dillərin frazeoloji ifadələri tədqiqata cəlb olunur. Əsərə müxtəlif bucaqlardan nəzər saldıqda bu qənaətə gəlmək olur ki, professor Nigar Vəliyevanın «Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət»i tarixdə qalacaq abidə bir əsərdir. Nigar xanımın yaradıcılığında məni ən çox qane edən başlıca cəhət ondan ibarətdir ki, alim bütün bilik və bacarığını bir sahəyə–frazeologiya sahəsinə yönəldib və nəhayət, bu gərəkli əsəri ortaya qoyub. Professor Nigar Vəliyevanın indiyə qədər çap olunmuş monoqrafiyaları deyilənlərə dayaq olur: «Müxtəlif sistemli dillərdə nitq və təfəkkür felləri ilə formalaşan frazeoloji vahidlər» (1999), «Müasir ingilis dilində söz birləşmələrinin struktur-semantik xüsusiyyətləri» (2001), «Frazeoloji birləşmələrin müqayisəli linqvistik təhlili» (2001), «Müxtəlif sistemli dillərdə feli birləşmələrin tipoloji təhlili» (2008), eləcə də əlimizdəki möhtəşəm əsərə nisbətən kiçik həcmli «Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət» (2006).

İyirmi ilə yaxındır ki, Nigar Vəliyeva Dillər Universitetində ingilis dilini tədris edir. Bu müddət ərzində bir an belə elmi işdən ayrılmayan, ingilis, rus, alman, Azərbaycan dillərini mükəmməl bilən alim, ingilis, rus və Azərbaycan dillərinin qrammatik quruluşunu və leksik tərkibini müqayisəli şəkildə tədqiq etməklə məşğul olmuşdur. Onun adını çəkdiyimiz monoqrafiyaları ilə yanaşı, 150-dən artıq elmi məqaləsi də elmi ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Tədqiqatçılar yeri gəldikcə Nigar xanımın araşdırmalarından bəhrələnmişlər. Məsələn, filologiya elmləri doktoru Əzizə Hacıyeva doktorluq dissertasiyasında, filologiya elmləri namizədi Həsən Baxşıyev namizədlik dissertasiyasında və s.

Həqiqət naminə deməliyəm ki, Nigar xanım özü də frazeologiya ilə bağlı Azərbaycan, ingilis, rus, alman və s. dillərdə çıxan əsərləri ciddi şəkildə tədqiqat süzgəcindən keçirib və onlardan qədərincə yararlanıb. Tədqiqatçı çap olunan əsərlərində «Azərbaycan, ingilis və rus dillərində mövcud olan frazeoloji vahidlərin struktur modellərini müqayisə etmiş, onlarda baş verən dəyişiklikləri, frazeologizmlərin müxtəlif sahələrdə işlədilməsini şərh etmiş, ikidilli frazeoloji lüğətlərə nəzər salmış, atalar sözü və zərbi-məsəllərdən söz açaraq Azərbaycan, ingilis və rus dillərindən qarşılıqlı nümunələr vermişdir. O, hər üç dildə frazeoloji vahidlərin uyğun və fərqli cəhətlərini müəyyənləşdirmişdir. Bir sözlə, araşdırıcı bu əsərlərində üçdilli frazeoloji lüğətin nəzəri əsaslarını hazırlamış və «Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət» üzərində işləyərək ortaya bütün zamanlar üçün gərəkli ola biləcək fundamental bir əsər qoymuşdur.

Əsər frazeoloji söz birləşmələri, frazeoloji vahidlər, frazeoloji ifadələr, habelə atalar sözü və məsəllər əsasında tərtib edilmişdir. Məlumdur ki, frazeoloji lüğətləri tərtib etmək həddən artıq çətin bir işdir. Dünya lüğətçilik təcrübəsində

frazeoloji lüğətləri tərtib edərkən üç prinsipdən istifadə edilir. Əsərin tərtibi zamanı əlifba üzrə frazeoloji vahidin birinci sözü əsas götürülür. İkincidə isə frazeoloji vahidin əsas məna daşıyan sözü əsas götürülür. Üçüncü yol–əsəri frazeoloji vahidin əlifba sırasını və əsas məna daşıyan sözü nəzərə almaqla tərtib etməkdir. Demək lazımdır ki, hər üç yolda çatışmayan cəhətlər vardır. Əksər tədqiqatçılar ikinci prinsipi əsas götürürlər. Nigar Vəliyeva da Azərbaycanda ilk təcrübə olan üçdilli frazeoloji lüğətini ikinci prinsip əsasında hazırlamışdır.

Tədqiqat zamanı Nigar xanım frazeoloji birləşmələri üç qrupa ayırıb. Birinci qrupa həm obraz, həm məna, həm də leksik tərkibi cəhətdən hər üç dildə tam ekvivalent olan frazeoloji birləşmələri daxil etmişdir.

İkinci qrupa obraz və leksik tərkibi cəhətdən ya qismən, ya da tamamilə fərqlənən, lakin mənaca uyğun gələn frazeoloji birləşmələr daxil edilmişdir. Üçüncü qrupa isə yalnız bir dildə olan, lakin qalan iki dildə qarşılığı və ya analoqu olmayan frazeoloji birləşmələr daxil edilmişdir.

Nigar xanımın bu əvəzsiz əsəri V.Humboldtun müdrik kəlamı ilə başlayır:

«Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir. Bundan da güclü olan eynilik təsəvvür etmək çətindir».

Tədqiqatçının əsərinə bu müdrik kəlamla başlaması təsadüfi deyildir.

Y.V.Çəmənzəminli də «Dilin kökü camaatın yaratdığı el ədəbiyyatındadır»–deyəndə heç şübhəsiz onu nəzərdə tuturdu ki, xalqın dili frazeoloji vahidlərlə, idiomatik ifadələrlə, atalar sözü və məsəllərlə daha canlı, daha mənalı və daha emosional olur. Bir sözlə, frazeologiya dilin zənginləşməsində əsas məxəzlərdən olub, dilə xüsusi şirinlik gətirir. Əks təqdirdə dil quru, ruhsuz bədənə bənzəyərdi. İnsan nitqini frazeoloji birləşmələr, atalar sözləri və zərbi-məsəllərsiz təsəvvür

etmək çətindir. Məhz buna görədir ki, əsrlərin sınağından keçib gələn frazeoloji birləşmələr, atalar sözləri və məsəllər bu gün də fikrin təbii və obrazlı ifadəsində mühüm rol oynayır. Bu baxımdan xalqın minilliklər boyu yaratdığı tükənməz mənəvi sərvəti–atalar sözü və məsəllər daha böyük məna kəsb edir. Nəsillər dəyişir, lakin hər nəslin həyat dərsləri atalar sözləri və məsəllərdə gələcək nəsillərə əvəzsiz irs olaraq qalır. Danılmaz həqiqətdir ki, atalar sözləri və məsəllər xalqın tarixini, inkişaf mərhələlərini, həyat tərzini, dünyabaxışını, inam və etiqadını, adət-ənənəsini və s. əks etdirən müstəsna dəyərə malik bir xəzinədir. Bu xəzinədə uzaq keçmişlərlə bağlı hadisələrə, adət-ənənələrə, hətta unudulub getmiş, hafizələrdən silinmiş tarixi həqiqətlərin güclə sezilə bilən izlərinə belə təsadüf edilir. Odur ki, tədqiqatçılar bu mənəvi inciləri incələyir, onların vasitəsilə müəyyən tarixi hadisələrin milli düşüncədə, mentalitetdə inkişafının izlərini və köklərini axtarırlar.

Nigar Vəliyevanın «Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət»i də, hər şeydən əvvəl, bu cəhətdən diqqəti çəkir. Bu əsər bariz şəkildə göstərir ki, dilimiz frazeoloji birləşmələr, atalar sözləri və zərbi-məsəllər baxımından hədsiz zəngindir.

Xüsusi qeyd etməliyik ki, dilin lüğət tərkibini təşkil edən sözlərin həqiqi mənaları ilə yanaşı, məcazi mənaları da istənilən qədərdir. Maraqlıdır ki, dövrümüzdə bir çox sözlər həqiqi mənalarını itirib, məcazi mənada daha çox işlənirlər. Odur ki, dili öyrənənlər və tərcüməçilər çox vaxt rast gəldikləri sözün və ya birləşmələrin idiomatik ifadə olduğunu bilmədiklərindən pis vəziyyətə düşürlər. Mən bu çətinliyi Nyu-York Universitetinin professoru Sulu Benetin uzun ömürlülərdən bəhs edən «Necə yaşayasan, yüzü haqlayasan» kitabını («Yazıçı», 1989) və Aqata Kristinin «Mavi qatarın sirri» («Sabah», 1995) əsərini ingilis dilindən tərcümə edərkən öz üzərimdə hiss etmişəm.

Bu baxımdan da frazeoloji lüğətlər, o cümlədən də Nigar Vəliyevanın «Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət»i əvəzolunmaz mənbə kimi xüsusi əhəmiyyət kəsb edir.

Alimin gördüyü tarixi işin miqyasını göz önünə gətirərkən onu da unutmuruq ki, ingilis və rus dilləri Birləşmiş Millətlər Təşkilatında rəsmi işlək dillərdən olmaqla bərabər, dünyada ən çox yayılan dillərdəndir. Odur ki, beynəlxalq əlaqələrimizin geniş vüsət aldığı zəmanəmizdə bu dilləri ölkəmizdə yalnız xarici dil kimi deyil, həm də diplomatiya, siyasət, elm, işgüzar əlaqələr dili kimi öyrənməliyik. Bu işdə «Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət»in yardımçı olacağına şübhəm yoxdur. Əminəm ki, professor Nigar Vəliyevanın bu bənzərsiz əsəri, eləcə də ingilis və rus dillərini öyrənən soydaşlarımıza, ali məktəb tələbələri, magistr və dissertantlara, filoloq və tərcüməçilərə, jurnalist və iş adamlarına, frazeologiya ilə məşğul olan mütəxəssislərə də əməli işlərində gərəkli olacaqdır.

TANINMIŞ PEDAQOQ VƏ ALİMİN UĞURLARI *

Dəyərli insanlar haqqında düşünəndə, göz önünə ilk gələnlərdən biri də Abbas müəllim olur. Mən bütün şüurlu həyatını elm və təhsil məbədi Bakı Dövlət Universiteti ilə bağlayan, xoş niyyəti, xeyirxah əməli, biliyi, savadı ilə tələbə və müəllimlərin ehtiramını qazanan Əməkdar müəllim Abbas Abbasovu deyirəm. On ildən artıq bir kafedrada birgə çalışdığım Abbas müəllimi həmişə öz üzərində işləyən bir alim, obyektiv müəllim, təmənnasız, sadə və təvazökar insan

* «Azərbaycan müəllimi» qəzeti, 14 yanvar 2011-ci il.

kimi tanımışam. İki kitabının redaktoru, bir neçə əsərinin məsləhətçisi olduğum alimin özü və çox gərəkli dərslikləri, dərs vəsaitləri və lüğətləri haqqında söz deməyə, düşünürəm ki, mənəvi haqqım vardır. Abbas müəllim otuz ilə yaxındır ki, elm və təhsil ocağı, BDU-da ingilis dilindən dərs deyir. On beş ildir ki, bu universitetdə xarici dillər kafedrasının müdiridir. Dərslik yazmağa mənəvi haqqı olan alimlərdəndir.

Məlumdur ki, dərslik yazmaq üçün illərlə auditoriyada tələbələrlə (orta məktəbdə–şagirdlərlə) ciddi məşğul olmalı, mövcud dərsliklərin müsbət və mənfi cəhətlərini dərindən bilməlisən ki, uğurlu dərslik yaza biləsən. Əks təqdirdə yazılan dərsliyin ömrü qısa, faydası çox az olacaqdır. Abbas müəllimin müvafiq fakültələrin təsdiq olunmuş proqramları əsasında yazdığı dərsliklər tədris prosesində təcrübədən keçirilir, mütəxəssislərin məsləhətləri nəzərə alınır. Müvafiq fakültədə müzakirə olunur. Həmin sahə üzrə görkəmli alimlərin rəsmi rəyindən sonra Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının Avropa dilləri və ədəbiyyatı bölməsində müzakirə və təsdiq olunur. Əlbəttə, belə dərsliyin ömrü uzun, əhəmiyyəti və faydası böyük olur. Məsələn, alimin U.Əliyeva ilə birgə ingiliscə yazdığı «Coğrafiyaçılar üçün dərslik» (Bakı, 2008, 316 səh.) əsərində yer alan bütün materiallar BDU-nun coğrafiya fakültəsində tədris prosesində dönə-dönə yoxlanılıb, sınaqdan keçirilib və yararlılığı bir daha təsdiqlənmişdir. Dərsliyə görkəmli coğrafiyaşünas alim, coğrafiya fakültəsinin dekanı və kafedra müdiri, professor Müseyib Müseyibov rəsmi rəy vermiş və çapını tövsiyə etmişdir. Bu maraqlı dərsliyə «Günəş sistemi», «Zəlzələlər», «Vulkanlar», «İqlim», «Tropik meşələr», «Səhralar», «Buzlaqlar», «Küləklər», «Çaylar», «Çöllər», «Okeanlar», «Avrasiya», «Afrika», «Şimali Amerika», «Cənubi Amerika», «Avstraliya», «Antarktida» və «Azərbay-

can» kimi maraqlı və zəruri mövzular daxil edilmişdir. Dərslikdə, tələbələrin bilik səviyyəsinə uyğun olmaqla, hər mövzu ətrafında lazımi həcmdə materiallar verilir. Mətnlərdə qarşıya çıxan nisbətən çətin tərcümə oluna biləcək ifadə və söz birləşmələrinin sonda tərcüməsi verilir. İfadələrin ardınca çoxsaylı leksik və ya leksik-qrammatik xarakterli tapşırıqlar, şifahi nitqin inkişafına xidmət edə biləcək mövzular seçilir. Dili daha yaxşı mənimsəmək üçün dərsliyin növbəti bölümündə ingilis dilində mövcud olan nitq hissələri, felin zamanları, sifət və zərfin dərəcələri, zamanların uzlaşması, modal fellər, məchul növ və s. barədə izahat verilir və tapşırıqlarla möhkəmləndirilir. Dərsliyin sonunda tələbələrə kömək məqsədilə nisbətən çətin tərcümə oluna biləcək söz və ifadələrin, eyni zamanda qaydasız fellərin cədvəli təqdim edilir.

Deyilənlər eyni ilə alimin Y.Mustafayeva və A.Bayramova ilə birgə yazdığı, redaktoru olduğum «Riyaziyyatçılar üçün ingilis dili dərsliyi» (Bakı, 2008, 400 səh.) əsərində də baş verir. Mexanika-riyaziyyat və tətbiqi riyaziyyat, eləcə də kibernetika fakültəsinin tələbələrinin ehtiyacını ödəmək naminə yazılmış bu dərslik də Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasına çatana qədər, coğrafiya fakültəsinin tələbələri üçün yazılmış dərslik kimi daşlı-kəsəkli, uzun bir yol keçmişdir.

Eləcə də Abbas müəllimin prof. Abdulla Qarayev və Roza Abbasova ilə şərikli yazdığı aşağı kurs tələbələri üçün dərslik və hüquq fakültəsinin tələbələri üçün dərs vəsaiti. Hələ biz mətbəədə çapda olan filoloqlar və psixoloqlar üçün yüksək səviyyədə yazılmış dərs vəsaitlərini demirik.

Abbas müəllimin yaradıcılığı çoxşaxəlidir. Onun lüğətçilik sahəsindəki fəaliyyəti də təqdirəlayiqdir. Mən onun şərikli yazdığı «Rusca-ingiliscə idman terminləri lüğət»inin (523 səh.) redaktoru kimi deyə bilərəm ki, idmanın bəzi növləri üzrə Azərbaycanda lüğətlər çıxsa da, bu lüğət idmanın

bütün mövcud növlərini əhatə edən ilk təcrübədir. Otuz mindən artıq termin, söz birləşməsi və cümləni əhatə edən lüğət AMEA-nın Terminologiya Komissiyası tərəfindən çapa tövsiyə edilmişdir. Lüğətə terminologiya üzrə mütəxəssis, prof. Sayalı Sadıqova və tanınmış dilçi alim, prof. Əbülfəz Rəcəbli müsbət rəy vermişlər. Kitabın məsləhətçiləri karate üzrə dünya çempionu Ülvi Quliyev və sambo üzrə dünya çempionu Faiq Ağayevdir.

Belə bir unikal lüğətin yaranması təsadüfi deyildir. Son illərdə Azərbaycan Respublikasının, eləcə də Olimpiya Komitəsinin Prezidenti, möhtərəm İlham Əliyevin davamlı qayğısı nəticəsində ölkəmizdə idmanın bütün sahələri üzrə böyük nailiyyətlər əldə edilmişdir. Bununla yanaşı, ölkəmizdə idmanın təbliği və inkişafına dəstək olan çoxsaylı elmi və publisistik kitablar da işıq üzü görmüşdür. Onlardan biri də filologiya elmləri namizədi, dosent Abbas Abbasov, M.Quliyeva və E.Cəfərovanın birgə yazdıqları «Rusca-ingiliscə idman terminləri lüğəti»dir. Lüğət idman ictimaiyyəti və geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur. Bu əsər idmançı və məşqçilərimizin müxtəlif idman yarışları vaxtı əcnəbi idmançılarla ünsiyyətinə kömək baxımından böyük əhəmiyyət kəsb edir.

Dosent Abbas Abbasovun AMEA Rəyasət Heyətinin Terminologiya Komissiyasının tövsiyəsi ilə nəşr edilən «İngiliscə-Azərbaycanca hüquq terminləri lüğəti» (Bakı, 2007, 315 səh.) adlı sanballı və gərəkli əsərini vərəqlədikcə bir daha dərk etdim ki, lüğət üzərində işləmək, onu hasilə gətirmək, necə deyərlər, iynəynən gor qazmaq kimi bir şeydir. Odur ki, hər adam bu işə girişməyə cürət etmir. Bu işə o adamlar girişir ki, təmənnasız olaraq xalqa xidmət və elmin inkişafı barədə düşünür. Belə insanlardan biri, ömrünü təhsilimizin, elmimizin inkişafına həsr edən, BDU-nun xarici

dillər kafedrasının müdiri Abbas Abbasovdur. Mən on ildən artıq BDU-nun Qərbi Avropa dilləri kafedrasında çalışarkən hüquq fakültəsində dərs demişəm. Tələbələr (elə müəllimlər özləri də) böyük çətinliklərlə üzləşirdilər. Hüquq terminlərini Azərbaycan dilinə çevirmək və onların mənasını anlamaq problemə çevrilmişdi. Hətta o vaxtların özündə belə Abbas müəllim boş vaxtlarını hüquqşünas müəllimlərin yanında keçirər, əlində dəftər hey yazıb-pozardı.

Abbas müəllimin iyirmi minə yaxın söz-termini əhatə edən bu lüğəti ali təhsil müəssisələrində fəaliyyət göstərən hüquq fakültələrinin müəllim və tələbələrinin, diplomatlar və hüquqşünasların ehtiyacını ödəmək baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycanda ilk təcrübə olan bu lüğətdən hüquq məsləhətxanalarında çalışan vəkillərin, tərcüməçilərin, hüquq ekspertlərinin, aspirant və dissertantlar, jurnalistlərin, iş adamları və digər peşə sahiblərinin də qədərincə bəhrələnəcəkləri şübhə doğurmur.

Əməkdar müəllim Abbas Abbasovun iyirmi ildən artıq üzərində çalışaraq çapına nail olduğu dəyərli əsərlərdən biri də «İngiliscə-Azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti»dir (Bakı, 2009, 472 səh.). Bu sanballı əsər Təhsil Nazirliyinin Elmi-Metodik Şurası tərəfindən dərs vəsaiti kimi təsdiq edilmişdir. Əsər filoloji aspektdə aparılan tədqiqat işindən daha çox praktik məqsəd daşıyır və ingilis dilini öyrənənlər üçün nəzərdə tutulmuşdur. Məlumdur ki, insanın nitqini frazeoloji birləşmələr, atalar sözləri və zərbi-məsəllərsiz təsəvvür etmək qeyri-mümkündür. Nəsillər dəyişir, lakin hər nəslin həyat dərsləri atalar sözləri və məsəllərdə gələcək nəsillərə irs olaraq qalır. O da məlum bir həqiqətdir ki, atalar sözləri və məsəllər təkcə tədris obyekti kimi qalmır, təkrarsız tədqiqat obyektinə çevrilir. Tarixçi atalar sözü və məsəlləri qədim tarixə, tarixi hadisələrə dair məlumat

baxımından, hüquqşünas onları xalq həyatının yazılmamış qanunları baxımından, etnoqraf onları unudulub getmiş, adət-ənənələrin hifz olunub saxlandığı mənəvi dəyərlər mənbəyi baxımından qiymətləndirir. Filosof atalar sözü və məsəllər vasitəsilə xalqın düşüncə tərzini öyrənməyə, məntiq aləmində yerini dürüstləşdirməyə can atır. Dilçi isə atalar sözü və məsəllərə insan nitqinin inkişaf pillələrini, dilin leksik-qrammatik qayda-qanunlarını tədqiq etmək işində əvəzsiz mənbə nöqteyi-nəzərindən yanaşır. Məhz buna görə də biz Abbas müəllimin bu sanballı əsərini təkcə dərs vəsaiti olmaq baxımından deyil, eləcə də xalqın minilliklər boyu yaratdığı tükənməz mənəvi sərvətlər baxımından qiymətləndiririk.

Haqqında bəhs etdiyimiz lüğətlərdən əlavə, Abbas müəllim səriştəli mütəxəssislərlə aşağıdakı lüğətləri də hazırlayaraq çapına nail olmuşdur: «İngiliscə-rusca atalar sözləri və zərbi-məsəllər lüğəti» (490 səh.), «İngiliscə-rusca hüquq terminləri lüğəti» (435 səh.), «İngiliscə-Azərbaycanca müxtəsər hüquq terminləri lüğəti» (196 səh.). Bunlardan başqa, «İngiliscə-Azərbaycanca texniki terminlər lüğəti» (400 səh.), «İngiliscə-rusca kimya terminləri lüğəti» (1000 səh.), «İngiliscə–rusca–Azərbaycanca riyaziyyat terminləri lüğəti» və s. çapa hazırdır. Abbas müəllimin rəhbərlik etdiyi xarici dillər kafedrasının başlıca vəzifəsi tələbələrə əcnəbi dilləri öyrətmək olduğu halda, məmnunluqla demək olar ki, kafedra böyük bir lüğət şöbəsinin görə biləcəyi işin də öhdəsindən gəlmişdir.

Yuxarıda dediyim kimi, Abbas müəllim çoxşaxəli yaradıcılığa malik pedaqoq və alimdir. O, orijinaldan tərcümə sahəsində də qələmini sınamış və uğur qazanmışdır. Onun «İngilis gülüşü» (Bakı, 2006, 152) kitabı deyilənlərə dayaq olur. İngilis xalq yumorunu içinə alan əsər, mərhum Ağa Laçınlının təbirincə desək, ədəbi yenilik kimi qiymətləndirilə bilər. Kitabda yığcam lətifələr, məzhəkələr, gülməcələr top-

lanmışdır. İnsanlara təmənnasız gülüş bəxş edən, sevilə-sevilə oxunan və söylənilən xalq müdrikliyi inciləri arasında bir çox görkəmli şəxsiyyətlərlə bağlı lətifələri oxumaq insana xüsusi məmnunluq gətirir. Tərcüməçi «İngilis gülüşü» kitabını anası Gülüş Cəlil qızına ithaf etmişdir. Onu da deyim ki, Abbas müəllim əksər əsərlərini dünyasını dəyişmiş unudulmaz insanlara həsr etmişdir. Onların arasında on ildən artıq BDU-da bir kafedrada çalışdığım, həddən artıq ləyaqətli, tələbə və müəllimlərin sevimlisi Roza xanımın adını görəndə (Abbas müəllimin həyat yoldaşı) ürəyim sancdı. Dahi Səməd Vurğunun misrası qəlbimə hakim kəsildi:

«Nə ömrə acıyır, nə yaşa dünya».

Abbas müəllimin son zamanlar yazdığı çoxsaylı əsərləri nəzərdən keçirəndə dərk etdim ki, alim təskinliyini yazıb-yaratmaqda tapır. Qəfildən qədim Çin mütəfəkkiri Konfutsinin böyük mənalar kəsb edən kəlamı yadıma düşdü: «Elm, bilik elə bir həzz mənbəyidir ki, o, insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilir».

Abbas müəllimlə bağlı bir məsələdən də söz açmaq istərdim. Yuxarıda göstərdiyim kimi, Abbas müəllim otuz ildən artıqdır ki, Bakı Dövlət Universitetində ingilis dilini tədris edir. On beş ildən artıqdır ki, xarici dillər kafedrasının müdiridir. Neçə-neçə dərslik, dərs vəsaiti və lüğətlərin müəllifidir. Əməkdar müəllimdir.

Sovet dönəmində belə alimlərə doktorluq dissertasiyası müdafiə etmədən professor adı verirdilər. İndinin özündə belə incəsənət və musiqi sahəsində xidməti olan mütəxəssislərə professor fəxri adı verilir. Bütün şüurlu həyatını təhsil və elmə həsr edən, dərslikləri Təhsil Nazirliyi tərəfindən yüksək qiymətləndirilən, lüğətləri AMEA-nın Terminologiya Komissiyası tərəfindən dəyərləndirilərək çapa tövsiyə edilən Abbas Abbasovun da belə bir ada layiq görüləcəyinə inanırıq.

IV FƏSİL

İNGİLİS DİLİNİN TƏDRİSİ PROBLEMLƏRİ

XARİCİ DİL VƏ ÖLKƏŞÜNASLIQ *

Əvvəllər ali məktəblərdə xarici dil, xalqın mənəviyyatından, adət-ənənəsindən, tarix və coğrafiyasından təcrid olunmuş şəkildə öyrədilirdi.

Nə tədris planında, nə də dərsliklərdə ölkəşünaslıq elementlərinə yer verilmirdi.

Son zamanlar ali məktəb dərsliklərində ölkəşünaslıq elementlərinə geniş yer ayrılır. Bu ildən Dillər İnstitutunun IV və V kurslarında «Ölkəşünaslıq fənnindən» ingilis dilində mühazirə oxunur (İngiliscə mühazirələri Q.Paşayev oxuyurdu – *Red.*).

Bəs orta məktəblərdə bu sahədə vəziyyət necədir? Onu göstərmək kifayətdir ki, V sinif üçün ingilis dili kitabında bu məsələ ilə əlaqədar bir şey verilmir. Əlbəttə, bunu göstərməklə, dərslik müəlliflərinin gördüyü işin əhəmiyyətini azaltmaq fikrindən uzağıq. Onların xeyirxah işi göz qabağındadır. Bir də ki, V sinifdə ölkəşünaslıq elemetlərinə yer vermək o qədər də asan deyildir. Burada həll olunası bir çox başqa problemlər vardır. Müəllim xalq və ölkə haqqında məlumatı dərsin gedişində, mətnlər üzrə iş zamanı verməlidir.

Lakin hansı vaxt nəyi, necə vermək məsələsi müəllimin bilik və bacarığından asılıdır. Müəllim nəqliyyatdan danışarkən (VII sinifdə) İngiltərədə maşınlarda sükanın sağ tərəfdə olmasını, London daxilində işləyən avtobusların qır-

* «Azərbaycan müəllimi» qəzeti, 20 oktyabr 1971-ci il.

mızı, şəhər ətrafında işləyən avtobusların yaşıl, dəmiryoluna xidmət edən nəqliyyatın sarı, hava nəqliyyatına xidmət edən avtobusların açıq-qırmızı rəngdə olmasını şagirdlərin nəzərinə çatdırmaqla dərsi daha maraqlı etmiş olar.

Müəllim həmin dərslikdə Londonda varlıların şəhərin qərb, yoxsulların isə şərq hissəsində yaşadığını göstərən mətni keçərkən bunun niyə belə olduğunu şagirdlərin nəzərinə çatdırmalıdır. Məsələ burasındadır ki, Londonda külək, adətən, qərbdən–okean tərəfdən əsir. Tüstü, his və s. qərb tərəfdən küləklə birlikdə şərq tərəfə gəlir, yoxsulların payı olur.

VIII sinfin dərsliyində isə Londonda parlament binasının qülləsində böyük bir saatın yerləşdiyi və Biq Ben (nəhəng Ben) adlandırıldığı göstərilir. Saatın niyə belə adlandırıldığını bilməklə şagirdlər həm biliklərini artırar, həm də ingilislərin yumoru çox sevdiklərinin şahidi olarlar. İş burasındadır ki, 1858-ci ildə London metaləritmə zavodunda ağırlığı 13 ton 716 kiloqram olan bu saat düzəldiləndə parlamentdə saata nə ad vermək məsələsi həll olunduğu zaman üzvlərdən birinin zarafatla dediyi «Niyə də onun adını Biq Ben qoymayaq?» hamının gülüşünə səbəb olsa da, saatın adı Biq Ben qalmışdır. Gülüşə səbəb isə o vaxt İngiltərədə Əmək naziri «Biq Ben» ləqəbini almış nəhəng vücudlu Bencamin Holl imiş, saatı da onun rəhbərliyi ilə düzəldiblərmiş.

Yeri gəlmişkən, deyək ki, ingilislər ləqəb verməyi çox sevirlər. İngilis bankı «qoca qarı» ləqəbini almışdır, ona görə ki, 250 ildən artıqdır ki, mövcuddur.

IX–XI siniflər üçün yazılmış dərslikdə «Lenin Londonda» adlı mətndə göstərilir ki, Lenin Hayd Parka gedərək natiqlərə qulaq asardı.

Şübhəsiz ki, müəllim bu park haqda əlavə məlumat verməklə dərsi daha da canlı edər. Bir çox xüsusiyyətlərinə görə bu park bütün dünyada məşhurdur. Vaxtilə kralların ov yeri,

sonralar duel meydanı olan Hayd Parkda indi itlər üçün xüsusi qəbiristanlıq vardır. Baş daşlarında «Filankəsin əziz qızı və ya oğlu» və eləcə də anadan olduğu və öldüyü tarix yazılır. Qeyd etməliyik ki, itlər öldükdə qəzetlərdə insanlar üçün verildiyi kimi elan verilir. Güman ki, S.Vurğunun «London qarısı» şeirilə belə bir mövzuya müraciət etməsi ingilislərin itlərinə olan «məhəbbəti» olmuşdur. Həmin məhəbbətin nəticəsidir ki, İngiltərədə bir əsrdən çoxdur itləri qoruyan cəmiyyət fəaliyyət göstərir.

Hayd Parkı bütün dünyada məşhur edən ikinci cəhət burada Natiqlər guşəsinin olmasıdır. Parkda ağac ayaqcıqlar və ya sabun qutusu üzərində dayanıb siyasət bir yana, yel xəstəliyinin müalicə üsullarından, qayınana ilə yola getməyin sirlərindən danışan natiqlərə belə rast gəlmək olur. Kraliça Yelizavetadan başqa dünyada kimi istəsən pisləyə bilərsən, nədən istəsən danışa bilərsən. Bura söz azadlığı meydanıdır.

Bəli, ingilis siyasətinin əsl incəliyi də elə burasındadır. Sözün var get Hayd Parkda ürəyini boşalt. Başqa yerdə danışma. Bəlkə, elə buna görədir ki, ingilislər qarşılaşdıqda, adətən, havadan danışırlar.

Müəllim yeri gəldikcə bu və ya digər ölkəşünaslıq elementlərini şagirdlərin nəzərinə çatdırmaqla dərsi daha canlı edir. Bu bir həqiqətdir ki, xarici dili öyrənməyə başlayanlar ona böyük maraq göstərirlər. Müəllim müxtəlif vasitələrlə şagirdlərdə marağı möhkəmləndirmədikdə isə maraq sönür.

Təlimdə əsas psixoloji prinsip olan marağın olmaması isə diqqətin pozulmasına səbəb olur. Məlumdur ki, təlim prosesinin müvəffəqiyyətli olmasında diqqət əsas yer tutur. Təsadüfi deyildir ki, K.D.Uşinski diqqəti xarici aləmdən biliklərin insan ruhuna daxil olduğu qapı adlandırmışdır. Şagirdlərin diqqətini cəlb etmək, onlarda dilə sonsuz maraq oyatmaq üçün müəllim ölkəşünaslıq elementlərindən geniş istifadə etməlidir. Bu, dərsi daha canlı, daha maraqlı edərdi.

İNGİLİS DİLİNDƏ DƏRSLİK *

İngilislərdə bir misal var: «İstər xoşbəxtlik, istərsə də bədbəxtlik gəldi, dalbadal gəlir». Dillər İnstitutuna bu il iki xoşbəxtlik üz vermişdir. Qocaman müəllim Cəfər Cəfərovun redaktəsi ilə «Almanca–Azərbaycanca lüğət» buraxılmışdır. Elə eyni vaxtda «Maarif» nəşriyyatı ixtisası ingilis dili olan və Azərbaycanca təhsil alan birinci kurs tələbələri üçün «İngilis dili» dərsliyi çap etmişdir. Əgər ingilis dili fakültəsinə qəbul olunan tələbələrin əksəriyyətini rayonlardan gələn gənclərin təşkil etdiyini, onların ingilis dilini rusca yazılmış dərsliklərlə öyrəndiklərini və qarşılaşdıqları böyük çətinlikləri nəzərə alsaq, respublikamızda ilk dəfə belə bir dərsliyin buraxılmasının əhəmiyyəti daha aydın olur.

Dərsliyi İttifaq miqyasında tanınmış metodistlərimizdən H.Nağıyeva, C.Cənizadə, N.Popova və professor R.Barsuk yazmışlar.

Dörd bölmədən ibarət olan dərsliyin birinci hissəsi «Giriş kursu» adlanır. Bu bölmədə ingilis dilinin fonetikası, oxu qaydaları və şifahi nitq bacarıq və vərdişlərinin əsasını qoyan bir çox çalışmalarla bərabər, ingilis dili, fonetika haqqında ümumi məlumat, dilin fonetik quruluşu ilə yazısı arasında əlaqə, fonem, fonetik transkripsiya, ingilis və Azərbaycan dillərinin fonetik sistemi arasında əsas fərqlər, danışıq üzvləri və onların vəzifələri, səslərin təsnifi və s. kimi çox əhəmiyyətli nəzəri məsələlər də öz əksini tapmışdır.

«Əsas kurs» adlanan ikinci bölmə 20 mətni əhatə edir. Bu mətnlər Azərbaycan xalqının keçmişini, bu gününü, elmini, mədəniyyətini, tarixini, coğrafiyasını, ədəbiyyatını və s. əks etdirir. Dərsliyin bu bölməsində, eləcə də tələbələrin elmi məlumatlarının genişləndirilməsinə ardıcıl diqqət yetirilmişdir.

* «Azərbaycan müəllimi» qəzeti, 17 oktyabr 1971-ci il.

Dərslikdə tələbələrin şifahi nitqini inkişaf etdirmək məqsədilə zərbi-məsəl və atalar sözlərindən geniş istifadə edilmişdir. Bunlar, eyni zamanda tələbələri dostluğa, sədaqətə, doğruçuluğa, təmkinli olmağa çağırmaq baxımından da müsbət qiymətləndirilir.

Hər mətndən sonra «Aydınlaşdırıcı qeydlər» başlığı altında leksik və qrammatik izahat verilir. Mətnə aid qrammatik, fonetik və şifahi nitq çalışmaları dərslikdə xüsusi yer tutur. Bu yeni dərslik təkcə çalışmalarına görə uzun illərdən bəri təcrübədən keçmiş, təkrar-təkrar çap olunmuş dərsliklərlə bir sırada durmağa layiqdir. Elə dərsliklər var ki, mətnlərlə zəngindir. Lakin tapşırıq cəhətdən kasıbdır. H.Nağıyeva və başqa müəlliflərin hazırladığı tapşırıqlar isə rəngarəngliyi və zənginliyi ilə adamı heyran edir. Tapşırıqlar elə seçilmişdir ki, bir-birini tamamlayır və müəllimin də həmişə hazır vəziyyətdə olmasını tələb edir. Məsələn, Cerom Ceromun «Qayıqda üç nəfər» əsərində bir parçanı keçdikdən sonra tapşırıqlar verilir. 22-ci tapşırıqda tələb olnur: Cerom haqqında (səhifə 157) müəllimin söhbətinə qulaq as. Müəllim XIX əsr ingilis yumorunun parlaq siması olan Cerom Kapla Cerom haqqında gərək bir şey bilsin ki, tələbələrə də danışsın. Yaxud başqa bir tapşırıqda (səhifə 212) Bakının tarixi abidələri (Qız qalası, 26 Bakı komissarının abidəsi, Lenin muzeyi və s.) haqda danışmaq tələb olunur. Burada da müəllimin geniş məlumata malik olması vacibdir. Əks təqdirdə dərs istənilən səviyyədə keçə bilməz.

Kitabda yadda qalan gözəl dialoqlar (xüsusən Bənövşə ilə Şərqiyə arasında) və şeir parçaları (Solomon Qrandi və aylar haqqında) vardır. «Solomon Qrandi şeirində həftənin günləri, «Aylar» adlı şeirdə isə hər ayın neçə gündən ibarət olması təlim edilir. İngiliscə necə məktub yazmalı, stol arxasında özünü necə aparmalı və s. kimi vacib məsələlər də dərslikdə öz əksini tapmışdır.

Müəlliflər əsərin girişində təvazökarlıqla «dərsliyin III hissəsi əsas kursun mətnlərində işlədilən qrammatik materiala dair izahatdan ibarətdi»–yazsalar da, həqiqət naminə demək lazımdır ki, burada ingilis dilində mövcud olan zamanlardan, nitq hissələrindən, cümlə üzvlərindən, zamanların uzlaşması, vasitəsiz və vasitəli nitq və s. bir sıra maraqlı məsələlərdən danışılır.

Dərsliyin məqsəd və vəzifələri aydın olub, günün tələbləri səviyyəsində yazılmışdır.

Göstərdiyimiz yaxşı cəhətlərlə bərabər, dərslikdə bəzi nöqsanlar da özünü göstərir. Bizcə, dərsliyin başlıca nöqsanı onun tələbələrə dilini öyrəndiyi xalq haqqında məlumat verməməsidir.

Dərslikdə bütün qrammatik qayda-qanunlar, qrammatik kateqoriyalar Azərbaycan dili ilə müqayisədə verilir. Bu da dərsliyin müsbət cəhətlərindəndir. Lakin bəzən lüzumsuz müqayisəyə də rast gəlirik. Məs., «İngilis dilində, Azərbaycan dilində olduğu kimi, cümlə bitmiş bir fikri ifadə edir» (səh. 51).

Dərslik müəlliflərinə irad tutmaq istədiyimiz başqa bir nöqsan qaydasız fellərlə əlaqədardır. Dərsliyin sonunda ingilis dilində mövcud olan qaydasız fellərdən bəzisinin siyahısı verilmişdir. Bu siyahı birinci kursun proqram tələbinə görə daha geniş olmalı idi. Nədənsə and içmək, hürmək, hərf-hərf demək kimi qaydasız fellərə dərslikdə rast gəldiyimiz halda siyahıda onlara yer verilməyib. Bundan başqa, ingilis dilində elə fellər vardır ki, onlar həm qaydalı, həm də qaydasız fellər kimi işlənirlər. Müəlliflər belə fellərdən yalnız oyatmaq felinin hər iki formasını (səh. 297) göstəriblər. Halbuki siyahıda yalnız qaydasız fel kimi göstərilən oyatmaq, yandırmaq–işıqlandırmaq, öyrənmək, qadağan etmək, geymək kimi fellər həm də qaydalı feldirlər.

Dərslikdə bəzi xırda səhvlərə də təsadüf edilir. «Mənim otağım üçüncü mərtəbədədir» (səh. 127) əvəzinə «Mənim mənzilim üçüncü mərtəbədədir» olmalıdır.

«Məşğul olmaq» (səh. 222) Azərbaycan dilinə səhvən «Ezamiyyətdə olmaq» kimi tərcümə olunub.

İstəsən qalaram (səh. 186) cümləsində ingiliscə vuil yox vuiş işlənməlidir. İngilis dilindən tərcümə olunan «O dedi ki, o, mənə kitab gətirəcək» (səh. 290) mürəkkəb cümlənin budaq cümləsində təkrarən mübtədanın işlədilməsi ingilis dilinin təsiri kimi qiymətləndirilməlidir. İngilis dilində bu vacibdir. Azərbaycan dilinin qrammatikası isə bunu inkar edir.

«İngiliscə–Azərbaycanca lüğət» bölməsində Azərbaycan, tavan, şahmat sözlərində vurğu səhv qoyulub, ingiliscə isim kimi verilən filologiya mötərizədə «dil və ədəbiyyat haqqında elm» yazıldığı halda, səhvən filoloji; yəni sifət kimi gedib.

Göstərdiyimiz nöqsanlar dərsliyin məziyyətini heç də azaltmır. Müəlliflər uzun illər orta məktəb və institutlarda qazandıqları təcrübədən istifadə edərək ilk sınaq olmasına baxmayaraq, maraqlı bir dərslik yaratmışlar.

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ ÖLKƏŞÜNASLIQ ELEMENTLƏRİNDƏN İSTİFADƏYƏ DAİR

Müasir metodik fikir xarici dilin tədrisini həmin dildə danışan xalqın mədəniyyəti ilə əlaqəli şəkildə aparmağı tələb edir. Buna görə də son vaxtlar xarici dillərin tədrisi metodikasında ölkəşünaslıq elementlərinə böyük yer verilir və bu elementlərdən dərs vəsaitlərində daha çox istifadə edilir. İndi xarici dilin tədrisini dili öyrənilən xalq,

onun adət-ənənəsi, mədəniyyəti və sairədən təcrid olunmuş təsəvvür etmək çətindir. Xarici dil dərsliklərində ölkəşünaslıq elementlərinin verilməsi orta məktəbdə xarici dil tədrisi qarşısında qoyulan tələblərin yerinə yetirilməsinə xidmət etməklə bərabər, şagirdlərin dünyagörüşünün inkişafına da kömək edir. Şagirdlər dilini öyrəndikləri xalq haqqında, onun mədəniyyəti, tarixi, coğrafiyası barədə məlumat alırlar. Hələ vaxtilə M.İ.Kalinin yazırdı: «Bilirsiniz ki, hazırda beynəlxalq əlaqələrimiz yüksək dərəcədə inkişaf edir. Buna görə də mən istərdim ki, bizim gənclər, komsomolçular xarici ölkə xalqlarının məişəti, mədəniyyəti, xarakteri ilə daha yaxından tanış olsunlar» (M.İ.Kalinin. «O kommunistiçeskom vospitanii», «Molodaya qvardiya» nəşriyyatı, 1947, səh. 268–269).

Heç təsadüfi deyildir ki, məşhur bolqar ölkəşünası S.Rusakiyevin qeyd etdiyi kimi, məsələn, rus dilini yaxşı bilən bir əcnəbi ilə əcnəbi dili yaxşı bilən rus arasında təmsil etdikləri xalqların mədəniyyətini, tarixini, həyat tərzini bilmədən ünsiyyət çətin baş tutar. Bəli, bu çətinlik dil baxımından deyil, ölkəşünaslıq baxımından baş verir.

Xarici ölkələrlə hər cür əlaqələrimizin son dərəcə inkişaf etdiyi bir vaxtda dil və ölkəşünaslıq məsələsi diqqəti xüsusilə cəlb edir. Artıq 20 ilə yaxındır ki, bu məsələ ilə Sovet İttifaqında ciddi məşğul olurlar. SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda ölkəşünaslıq müxtəlif vaxtlarda ana dilində tədris edilmiş və 1971-ci ildən bizim təşəbbüsümüzlə yeni istiqamətdə və xarici dildə keçilməyə başlanmışdır. Həcər Nağıyeva və başqa müəlliflərin I kurs tələbələri üçün yazdıqları «İngilis dili» (ixtisas redaktoru dos.O.Musayevdir) və A.Tahirovun xarici dil ixtisası verməyən institutlar üçün çap olun-

muş kitablarında ölkəşünaslıq elementlərinə müəyyən yer verilmişdir. Orta məktəblərdə vəziyyət dəyişmiş, metodistlərimiz yeri gəldikcə ölkəşünaslıq elementlərindən istifadə etməyə başlamışlar. Doğrudur, bu məsələ V–VI sinif dərsliklərində öz əksini tapa bilməmişdir. Həqiqət naminə qeyd etmək lazımdır ki, bu siniflərdə ölkəşünaslıq elementlərinə yer vermək o qədər də asan deyildir.

Müəllim ölkə və xalq haqqında məlumatı dərsin gedişində mətn üzrə iş zamanı verməlidir. Hansı məqamda nəyi və necə vermək məsələsi müəllimin bilik və bacarığından asılıdır.

Nəqliyyatdan danışarkən (VII sinif) müəllim İngiltərədə nəqliyyatın yolun solu ilə hərəkət etdiyini, maşınlarda, avtobuslarda sükanın sağ tərəfdə yerləşdiyini, London daxilində işləyən avtobusların qırmızı, dəmiryoluna xidmət edən nəqliyyatın sarı, şəhər ətrafında işləyən avtobusların yaşıl və s. rəngdə olmasını şagirdlərin nəzərinə çatdırmaqla, müəllim heç şübhəsiz, onların maraq və diqqətini artırır və dərsin daha canlı keçməsinə nail olur.

VIII sinfin dərsliyində Londonda parlament binasının qülləsində böyük bir saatın yerləşdiyi və onun «Biq Ben» adlandırıldığı göstərilir. Saatın niyə belə adlandırıldığını bilməklə şagirdlər həm biliklərini artırar, həm də ingilislərin yumoru çox sevdiklərinin şahidi olarlar. Məsələ burasındadır ki, 1858-ci ildə London metaləritmə zavodunda ağırlığı 13 ton 716 kiloqram olan bu nəhəng saat düzəldiləndə parlamentdə saata nə ad vermək məsələsi həll olunurdu. Bu zaman parlamentin üzvlərindən birinin zarafatla dediyi «niyə də onun adını «Biq Ben» (Nəhəng Ben) qoymayaq?!» sözləri hamının gülüşünə səbəb olsa da, saatın adı «Biq Ben» qaldı. Gülüşə səbəb olan isə o vaxt İngiltərədə Əmək naziri «Biq

Ben» ləqəbini almış nəhəng vücudlu Bencamin Holl imiş, saatı da onun rəhbərliyi ilə düzəldiblərmiş.

Müəllim «Böyük Britaniya» mətnini keçərkən mətndə təbii olaraq öz əksini tapa bilməyən məsələlərdən də danışmalı və şagirdləri başa salmalıdır ki, «Britaniya» adı qədim zamanlardan burada məskən salan britonların adı ilə bağlıdır. Sonra müəllim Böyük Britaniyada yerləşən İngiltərə, Şotlandiya və Uelsdən danışaraq institutda qazandığı biliklər əsasında bu adların necə yarandığını da izah etməlidir. Müəllim şagirdlərin nəzərinə çatdırmalıdır ki, yeni eranın 450–600-cü illəri arasında Şimali Almaniya qəbilələri–Ənql və Saksonlar Britaniyanı zəbt etmiş və burada bir neçə krallıq yaratmışlar. Bunlardan ən böyüyü «Angl-land» (Ənqllərin torpağı) idi. Sonralar cüzi dəyişikliyə uğrayan bu ad indi «England» kimi məlumdur. Ənqllər ölkəni tutduqdan sonra adanın ilk sakinləri britonları öz dillərində «Welsh» (kənar adam, tanış olmayan adam) adlandırır və onları qırırdılar. Britonlar ölümdən xilas olmaq üçün adanın qərbində yerləşən dağlara çəkilirdilər. O vaxtdan onlar «Welsh» adlanmış və sığınacaq tapdığı yerlər «Wales» (Uels) kimi məlum olmuşdur. Şotlandiya isə «Scotland» etnonimindən, yəni Scott (Skot tayfası) və land–torpaq sözlərinin birləşməsindən yaranmışdır və s.

Özlüyündə maraqlı olan «Lenin Londonda» mətnini tədris edərkən dərsi daha canlı qurmaq üçün müəllim böyük imkanlara malikdir. O, Leninin xarici dillərə böyük maraq göstərməsindən, tez-tez Londonda fabrik və zavodların yerləşdiyi şərq məhəlləsinə gedib yoxsulların həyatı ilə yaxından tanış olmasından, vaxtının çoxunu dünyanın ən böyük və zəngin kitabxanalarından sayılan və 6 milyon nüsxədən çox kitabı olan «Britaniya muzeyi» kitabxanasında keçirməsin-

dən, öz qəribəlikləri ilə məşhurlaşmış Hayd Parka (bu parkda varlıların it və pişikləri üçün qəbiristanlıq vardır) gedərək dünyada həmin yeganə «azadlıq guşəsi»ndə ağac ayaqcıqlar üzərində dayanıb siyasət bir yana, yel xəstəliyinin müalicə üsullarından başlamış qaynana ilə yola getməyin sirlərinədək danışan natiqlərə dil öyrənmək xatirinə istehza ilə qulaq asmasından və s. məlumat verməklə şagirdlərin həm dil öyrənməyə marağını artıra, həm də ölkələr haqqında məlumatlarını da genişləndirə bilər.

Məlumdur ki, yuxarı siniflərdə şagirdlərdə xarici dillərin öyrənilməsinə maraq hiss ediləcək dərəcədə azalır. Bunu onunla izah etmək olar ki, şagirdlərdə yeni biliklər əldə etmək marağı xeyli artdığından dil qayda-qanunlarını öyrənmək xatirinə verilmiş mətnlər onlara cansıxıcı gəlir və dilə olan maraq azalır. Şagirdlərdə dilə marağı artırmaq üçün əsas yollardan biri məhz ölkəşünaslıq elementlərinin verilməsidir. Ölkəşünaslıq elementlərindən istifadə etdikdə dərs daha canlı keçir. Lakin ölkəşünaslıq elementlərinin seçilməsi və dərsliklərdə verilməsi elə planda aparılmalıdır ki, o, dil materialları ilə sıx əlaqədar olub, dilin öyrənilməsinə kömək etməklə yanaşı, həm də tərbiyəedici xüsusiyyət daşısın. Belə olduqda şagirdlər mətnlərə böyük maraqla yanaşır və bu, onların zehni qabiliyyətlərinin inkişafına xidmət edir. Bu baxımdan yuxarı siniflər üçün Azərbaycanca yazılmış xarici dil dərslikləri daha çox diqqətəlayiqdir.

Bu xeyirxah işi davam etdirməyə, onu yeni istiqamətə aparmağa, dili öyrənilən ölkə və xalq haqqında, onun həyat tərzi, görkəmli adamları və s. haqqında məlumat verməyə müasir şəraitdə çox ehtiyac duyulur.

Marks, Engels, Lenin xarici dillərə dili öyrənilən xalqın həyat tərzi və mədəniyyətini öyrənmək yolunda əsas vasitə

kimi baxmış, dillərin öyrənilməsinə xüsusi fikir vermişlər. K.Marks xarici dillərə «Xarici dil həyat mübarizəsində silahdır» (Поль Лафарг. Воспоминания о Марксе. В.сб. «Воспоминания о Марксе и Енгельсе», M., Qospolitizdat, 1956, səh. 64–65), F.Engels isə «xarici dilləri bilmək insanı dar milli dünyagörüşündən kənara çıxmağa, onun qarşısında geniş üfüqlərin açılmasına kömək edir» («Иностранные языки в школе», 1973, №5, стр. 6) kimi qiymət vermişlər.

Yuxarıda qeyd edildiyi kimi, xarici dili yeni öyrənməyə başlayanlar ona böyük maraq göstərsələr də, dilə olan bu maraq get-gedə azalır. Təlimdə əsas psixoloji prinsip sayılan marağın olmaması isə təlim prosesində mühüm yer tutan və Uşinskinin xarici aləmdən biliklərin insan ruhuna daxil olduğu qapı adlandırdığı diqqətin pozulmasına gətirib çıxarır. Bunun qarşısını almaq, şagirdlərdə dilə sonsuz maraq oyatmaq məqsədilə müəllim yeri gəldikcə ölkəşünaslıq elementlərindən də istifadə etməlidir. Unutmaq olmaz ki, xarici dillərə yiyələnmək üçün müəyyən qədər bilik almaq kifayət deyil, dil haqqında passiv məlumat yığmaq yox, xarici dili özünün fəaliyyətinə çevirmək lazımdır.

MÜƏLLİF HAQQINDA

Paşayev Qəzənfər Məhəmməd oğlu
(d.27.VIII.1937, Tovuz r-nu, Düzqırıxlı k.)

Azərbaycan ədəbiyyatşünası, folklorşünas, publisist, dilçi və tərcüməçi. Filologiya elmləri doktoru (1993), professor (1995), Azərbaycan Yazıçılar Birliyinin üzvü (1988). Azərbaycan Pedaqoji Dillər İnstitutunun ingilis–Azərbaycan dilləri fakültəsini bitirmişdir (1962). İraqda tərcüməçi işləmiş (1962–1966; 1972–1975), burada yaşayan və sayı təqribən 2,5 mln-a çatan azərbaycanlıların (İraq türkmanları) dialekt və folklorunun toplanması və araşdırılması ilə məşğul olmuşdur. «Azərbaycan dilinin Kərkük dialekti» mövzusunda namizədlik (1969), «İraq–türkman folklorunun janrları» mövzusunda doktorluq (1993) dissertasiyaları müdafiə etmişdir. 1964–1989-cu illərdə Azərbaycan Pedaqoji Dillər İnstitutunda (1973-cü ildən M.F.Axundov ad. APİ) fəaliyyət göstərmiş, institutun ingilis dili fakültəsində dosent, dekan müavini (1970–1971), xarici dillər kafedrasının müdiri (1972–1989) olmuşdur. ABŞ (1983) və İngiltərədə (1988) ixtisasartırma kurslarını bitirmişdir. BDU-nun Qərbi Avropa dilləri kafedrasında çalışmışdır (1989–2000).

Q.Paşayev Azərbaycan MEA-nın Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində «Beynəlxalq əlaqələr» şöbəsinin müdiri işləmişdir (2001–2005). 2003-cü ildən Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçidir.

Prof. Q.Paşayevin ədəbi-elmi fəaliyyətində İraqda yaşayan azərbaycanlıların İraq türkmanlarının ədəbi-mənəvi yaradıcılığının tədqiqi və təbliği xüsusi yer tutur. Onun «Kərkük bayatıları» (1968, Rəsul Rza ilə birgə), «Arzu–Qəmbər» dastanı (1971), «Kərkük mahnıları» (1973), «İraq–Kərkük

atalar sözləri» (1978), «Kərkük tapmacaları» (1984), «İraq–Kərkük bayatıları» (1984), «Nəsiminin İraq divanı» (1987), «Kərkük folkloru antologiyası» (1987, təkrar nəşr–1990), Azərbaycan folkloru antologiyası. İraq–türkman cildi. Ə.Bəndəroğlu ilə birgə (1999), «Kərkük folklorunun fonetikası» (2003), «İraq–türkman folklorunun janrları» (rusca, 2003), Dilçilik İnstitutunda hazırlanmış «İraq–türkman ləhcəsi», ortaqlı (2004) və s. kitabları elm aləminə az məlum olan zəngin bir xəzinədən bəhs edir.

Q.Paşayevin elmi fəaliyyətinin zirvəsi onun «İraq–türkman folkloru» adlı monumental əsəridir. Akad. Bəkir Nəbiyev və prof. Mahir Nabiğin elmi redaktəsi ilə bu monoqrafiya Bakıda, Bağdadda, İstanbulda və Tehranda böyük tirajla nəşr edilmiş, tədqiqatçıların diqqət mərkəzində olmuşdur.

Azərbaycan, İraq, Türkiyə və ABŞ mətbuatında çıxmış onlarca elmi-publisistik məqalənin, «Rusca-ərəbcə danışıq kitabı»nın (Bağdad, 1974), ingiliscə «İngiltərə haqqında» (Bakı, 1981) və s. kimi əsərlərin müəllifi, «Göylər unutmuşdu yağacağını» (1991), «Çağdaş İraq şeirindən seçmələr» (2001), «Yolun sonunadək» (2001), «Rəsul Rza. Ağlayan çox, gülən hanı?!» (Kərkük, 2007), Elçinin «Mahmud və Məryəm» (Kərkük, 2007) və s. kitabların tərtibçisidir.

Q.Paşayev f.e.n. Gülzar İbrahim qızı ilə birgə «Hüseyn Arif–80» (2004), «İsi Məlikzadə–70» (2004), «Tofiq Bayram–70» (2005), «Əlibala Hacızadə–70» (2005), «Fikrət Qoca–70» (2005), «Akademik Bəkir Nəbiyev–75» (2005) kimi çox maraqlı portret kitabları da giriş məqaləsi ilə hazırlayaraq öz şəxsi vəsaiti hesabına çap etdirmişdir.

Q.Paşayevin «Altı il Dəclə–Fərat sahillərində» adlı sanballı elmi-publisistik əsəri böyük tirajla (130 min) Bakıda (1985; 1987) və Bağdadda ərəbcə (1996) nəşr olunmuş və

böyük ədəbi hadisəyə çevrilmişdir. Onun «Nostradamusun möcüzəli aləmi» kitabı (Bakı, 2007, 760 səh.) işıq üzü görmüş və ictimaiyyətin rəğbətini qazanmışdır.

Füzulinin 500 illik yubileyi ilə bağlı İraqda və Türkiyədə keçirilən tədbirlərdə «Füzuli və XVI əsr Bağdad ədəbi mühiti» mövzusunda məruzə etmiş, şairin həyat və yaradıcılığından bəhs edən məqaləsi ABŞ-da çıxan «Reforma» (№2, 1996, s.17–25) jurnalında və Bağdadda ərəbcə elmi məcmuədə (1995) çap olunmuşdur.

Q.Paşayevin, həmçinin ABŞ-da çap olunan «Azerbaijan international» jurnalında «Azərbaycanlılar İraqda. Az tanınan elat» (№1.1. 2003, s.22–25) məqaləsi, eləcə də İraq türkmanlarının İstanbulda çıxan «Qardaşlıq» dərgisinin iki sayında (№22 və №23, 2004) ingiliscə «İraq–türkman tarixinə və ədəbiyyatına bir baxış» adlı məqaləsi çap olunmuşdur.

Bir neçə dil bilən Q.Paşayev bədii tərcümə sahəsində də fəaliyyət göstərir. Aleksandr Dümanın «Qafqaz səfəri» (1985, H.Abbasovla birgə), prof. Sula Benetin «Necə yaşayasan, yüzü haqlayasan» (1989), Aqata Kristinin «Mavi qatarın sirri» (1995), eləcə də prof. İrəc Pərsinacın «M.F.Axundovun kritikası» (ABŞ, 1989) əsərlərini orijinaldan tərcümə etmişdir.

«Düma Qafqazda» adlı tədqiqatı «Literaturnıy Azerbaydjan» (№3, 2004, s.8–23) jurnalında çap olunmuşdur.

Paşayev ABŞ-da məzuniyyətdə olarkən (1983, iyun-avqust) Azərbaycan dilinə dair tədqiqatları araşdırmış, «ABŞ-da Azərbaycan dilinə dair araşdırmalar» adlı məqaləsi AMEA-nın Dilçilik İnstitutunun «Azərbaycan dili xaricdə» məcmuəsində (1990, s.65–70) dərc edilmişdir.

Paşayevin tədqiqatlarını Azərbaycanda, Türkiyə və İraqda yüksək qiymətləndirmiş, yaradıcılığına sanballı məqalələr həsr etmişlər:

Azərbaycanda akademiklər: Bəxtiyar Vahabzadə, Bəkir Nəbiyev, Teymur Bünyadov, Vasim Məmmədəliyev, AMEA-nın müxbir üzvləri: Yaşar Qarayev, Tofiq Hacıyev, Nizami Cəfərov, Azad Nəbiyev, professorlar: Məmmədhüseyn Təhmasib, Qasım Qasımzadə, Vaqif Vəliyev, Musa Adilov, Murtuz Sadıxov, Babək Qurbanov, Əzizə Cəfərzadə, Məhərrəm Cəfərli, Zeydulla Ağayev, Sədnik Paşayev, Qəzənfər Kazımov, Bəhlul Abdulla, Mehdi Sultanov, Himalay Qasımov, Ayaz Vəfalı, Elman Quliyev, Bədirxan Əhmədov, Alxan Bayramoğlu, Arif Əmrahoğlu, Asif Rüstəmli, Flora Xəlilzadə, Zərifə Bəşirqızı və başqaları.

Xarici ölkə alimləri: Əta Tərzibaşı, Dr. Əbdüllətif Bəndəroğlu, f.e.n. Sinan Səid, prof. Mahir Naqib, prof. Sübhi Saatçı, Mövlud Taha Qayacı və başqaları (İraq), prof. Mustafa Arqunşah, prof. Cəlal Ərtuq, prof. İsa Özqan, prof. Əflatun Nemanzadə (Türkiyə) və başqaları.

Paşayev özü də görkəmli şəxsiyyətlər, Azərbaycanı dünyada tanıdan simalar haqqında məqalələr yazmışdır. Ulu öndərimiz Heydər Əliyevə «Xilaskar» adlı məqalə («Vəfa» jurnalı, №1, 2004) həsr edən Q.Paşayev Nəsirəddin Tusi, Füzuli, M.Kazımbəy, M.F.Axundov, S.Vurğun, R.Rza, akad. M.Şirəliyev, akad. B.Nəbiyev, akad. V.Məmmədəliyev, akad. İ.Həbibbəyli, AMEA-nın müxbir üzvləri A.Zamanov, Y.Qarayev, T.Hacıyev, A.Nəbiyev, professorlar və çağdaş qələm sahiblərindən: görkəmli din xadimi, Bütün Qafqazın şeyxi Hacı Allahşükür Paşazadə, Nəsir İmanquliyev, Əzizə Cəfərzadə, Elçin, Nigar Rəfibəyli, Fərman Kərimzadə, İsi Məlikzadə, Nəriman Həsənzadə, Qasım Qasımzadə, Jalə Əliyeva, Cəfər Quluzadə, Nahid Hacızadə, Əmirhüseyn Məcidov, Məhəbbət Paşayeva, Mikayıl Azaflı, Narınc Xatun, Əlfi Qasımov, Ənvər Rza, Nigar Vəliyeva,

Abbas Abbasov, Şamil Zaman, Ağalar Mirzə və bir çox başqaları, iraqlı alimlərdən prof. İhsan Doğramacı, Əta Tərzibaşı, Əbdüllətif Bəndəroğlu, prof. Suphi Saatçı, Əbdülvahid Kuzəçioğlu, Sinan Səid, ingilis dramaturqu Vilyam Şekspir, Aqata Kristi, fransız yazıçısı Aleksandr Düma, ABŞ yazıçısı Con Steynbek və başqaları ilə bağlı çox maraqlı əsərlər yazmışdır.

Paşayev 1994-cü ildə öz vəsaiti hesabına Nizami adına Ədəbiyyat İnstitutunun İçərişəhərdə yerləşən Folklor Elmi-Mədəni Mərkəzində «İraq–türkman ocağı» muzeyi yaratmış, 2002-ci ildə ocağın kolleksiyası Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinə köçürülmüşdür.

1995-ci ildən Nizami adına Ədəbiyyat İnstitutu nəzdində Elmi və Dissertasiya Şuralarının üzvüdür. 1997–2006-cı illər arası və 2011-ci ildən Dissertasiya Şurasının həmsədridir.

Pedaqoji və elmi kadrların hazırlanmasında xidmətləri vardır. Rəhbərliyi altında namizədlik dissertasiyaları müdafiə olunub. Onlarca doktorluq və namizədlik dissertasiyaları üzrə Gertsen adına Leninqrad Pedaqoji İnstitutunda, Nizami adına Ədəbiyyat İnstitutunda, Bakı və Naxçıvan Dövlət universitetlərində, Folklor İnstitutunda opponent olub. Bir çox dərslik və monoqrafiyaların redaktoru və ya rəyçisidir.

Q.Paşayev «Ədəbiyyat» və «Kredo» qəzetlərinin, «Vəfa», «Folklor və Etnoqrafiya», «Filologiya məsələləri» və «Kəlam» jurnallarının və digər mətbu orqanların redaksiya heyətinin üzvüdür.

Q.Paşayev Azərbaycan–İraq Dostluq Cəmiyyətinin sədr müavini (1990–2003) olmuşdur. Qafqaz Müsəlmanları İdarəsi nəzdində fəaliyyət göstərən Elmi-Dini Şuranın yarandığı 1997-ci ildən üzvüdür. 2004-cü ildən Yazıçılar Birliyinin Təftiş komissiyasının sədridir.

İraq Respublikasının «Əməkdə şücaətə görə» medalı ilə təltif edilmiş (1976), Kərkük Vəqfinin (1999) və Türkman Cəbhəsinin (2003) diplomlarına və yüksək mükafatlarına layiq görülmüşdür.

Q.Paşayevin həyat və fəaliyyətindən bəhs edən «Bu sevda ölüncədi» (2001), «İraq bizə iraq deyil» (2002) və s. kitablar nəşr edilmiş, şair H.Kürdoğlunun «Tovuzum mənim, Oğuzum mənim» poeması ona həsr olunmuşdur.

Müəllifin monoqrafik tədqiqatları:

1. «İraq–türkman folkloru». Bakı, 1992, 216 səh.
2. «İraq–türkman folkloru». Bağdad, 1995, 160 səh.
3. «İrak–türkmen folkloru». İstanbul, 1998, 320 səh.
4. «Kərkük dialektinin fonetikası». Bakı, 2003
5. «Kərkük folklorunun janrları». Bakı, 2003, 316 səh.; Tehran, 2008, 314 səh.
6. «İraq–türkman ləhcəsi». Bakı, 2004, 422 səh. (şərikli)
7. «Жанровый состав иракско-тюркменского фольклора». Bakı, 2003, 128 səh.
8. «Nəsimi haqqında araşdırmalar». Bakı, «Qarabağ», 2010, 168 səh.
9. «Borcumuzdur bu ehtiram». Bakı, «Ozan», 2010, 240 səh.
10. «Ədəbiyyatşünaslıq elmimizin patriarxı». «Ozan», 2010, 128 səh.

Qaynaqlar:

1. «Kitabi-Dədə Qorqud» (Bakı, 1962 və 1988-ci illər nəşri)
2. Həbib Hürmüzlü. Kərkük Türkçəsi sözlüğü, İstanbul, 2003, s. 132
3. Azərb. SSR inzibati-ərazi bölgüsü. Bakı, 1964, s. 31, 33, 36, 41, 45, 46, 56, 61, 72, 74, 75, 77, 78, 101, 104, 108, 126. Avukat Habib Hürmüzlü, prof. Dr. Ekrem Pamukçu. İrakta Türkmen boy və oymakları, Ankara, 2005, s. 61, 70; Suphi Saatçı. İrak Türkmen boyları, oymakları və yerləşmə bölgələri. İstanbul, Kerkük Vakfı, 2009, s. 31, 34, 58
4. Avukat Habib Hürmüzlü, prof. Dr. Ekrem Pamukçu. Göstərilən əsər, Ankara, 2005, s. 61
5. Вопросы диалектологии тюркских языков. Том III, Баку, 1963, стр. 223
6. «Kitabi-Dədə Qorqud». Bakı, 1988, s. 37
7. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 1964, s. 47, 82, 97, 106, 174, 219
8. «Kitabi-Dədə Qorqud» (tərtibçilər: F.Zeynalov, S.Əlizadə). Bakı, 1988, s. 6, 10, 13
9. «Kitabi-Dədə Qorqud», 1988, s. 10, 19
10. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin inkişaf yolları. Bakı, 1958, s. 37; Dəmirçizadə Ə.M. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1967, s. 43; Mirzəzadə H. İraq ərazisində yaşayan azərbaycanlıların dili haqqında bəzi mülahizələr. ADU. Elmi əsərləri. İctimai elmlər seriyası, № 4, 1961, s. 85; Rzazadə M. XVIII əsr Azərbaycan ədəbi dili tarixinə aid materiallar. Bakı, 1961, s. 17

11. П.М.Мелиоранский. Араб филолог о турейком языке. С.-Петербург, 1900, стр. 16, 18, 20, 32
12. М.Ш.Ширалиев. О диалектной основе азурбайджанского национального литературного языка. Труды Института Литературы и Языка, им. Низами Том III, Баку, 1958, стр. 11; M.Ş.Şirəliyev. Azərbaycan dilçiliyinin inkişafında rus alimlərinin rolu, Azərb. EA Xəbərləri (ictimai elmlər seriyası), 1964, № 3, s. 39
13. Н.А.Баскаков. Тюркские языки. Москва, 1960, с.9, 56
14. А.М.Щербак. Грамматический очерк языка тюркских текстов X–XIII вв. Из Восточного Тюркестана.М.-Л., 1961, с. 27
15. H.Mirzəzadə. Azərbaycan dilinin tarixi morfologiyası. Bakı, 1962, s. 20
16. И.Н.Наджип. Кыпчакско-огузский литературный язык мамлюкского Египта века XIV века (автореф. док. дис.), 1965, с. 38
17. Ə.Ə.Orucov. Azərbaycan dili filoloji izahlı lüğətinin nəzəri əsasları. Bakı, 1965, s. 9
18. Y.Z.Şirvani. İbn Mühənna və onun lüğəti haqqında bəzi qeydlər. S.M.Kirov adına ADU, Elmi əsərlər, 1966, № 3, s. 18
19. Ə.Ə.Orucov. Azərbaycan dili filoloji izahlı lüğətinin nəzəri əsasları. 1965, s. 9
20. «Qardaşlıq» dərgisi, № 249–250, Temmuz-Ağustos, Bağdad, 2010, s. 35–39
21. «Kitabi-Dədə Qorqud», Bakı, 1988, s. 250
22. «Kitabi-Dədə Qorqud»un izahlı lüğəti», Bakı, «Elm», 1999, s. 175
23. «Qardaşlıq» dərgisi, İstanbul, 2000, № 8, s. 4
24. Cavadov Ə.M. Müasir Azərbaycan ədəbi dilində sintaktik vahidlərin sırası. Bakı, 1977
25. Современный Ирак (Müasir İraq), Москва, 1966, с.13
26. Ziyad Köprülü. İnsan hakları acısından İrak Türkleri. Ankara, 1992, s.36; 53
27. Cəlal Ərtuq. Türkiyədə və dünyada İhsan Doğramacı fenomeni. Ankara, 1996, s.8
28. Həbib Hürmüzlü. Kərkük Türkcesi sözlüğü. İstanbul, 2003, s.13
29. Большая Советская Енциклопедия (rusca), том I, Москва, 1970, стр. 277
30. Menges Karl Heinrih. Türk dilləri və türk xalqları (ingiliscə), Almaniya, Wiesbaden, 1968, s. 12–13
31. Ə.Dəmirçizadə. Azəri ədəbi dili tarixi. Bakı, 1967, s.72
32. S.H.Lonqriq. Müasir İraqın dörd əsri (ingiliscə) Oxford, 1925, s.16
33. Z.M.Bünyadov. Azərbaycan Atabəylər dövləti. Bakı, «Elm» nəş., 1985, s.84

34. «Qardaşlıq» dərgisi, Bağdad, 1962, №5, s.8
35. Prof. Hidayət Kamal Bayatlı. İraq–Türkmən türkcəsi. Ankara, 1996, s.20
36. Yeri gəlmişkən qeyd edək ki, Ə.Bəndəroğlu qənaətində yanıldığını dərk edərək 2003-cü ilin əvvəlindən «Yurd» qəzeti və başqa mətbu orqanlarda «türkman» etnonimini işlədir.
37. Şakir Sabir Zabit. Kərkükdə ictimai həyat. Bağdad, 1962, s. 176–177, Əhməd Cəfəroğlu. Türkmənlər. Türk kültür dərgisi, №20, 1964, s.24
38. Əbdülqazi Bahadır xan. Səcərei-Tərakimə. Türkmənlərin soy kitabı. Ruscadan tərcümə edən İsmixan Osmanlıdır. Bakı, 2002, s. 76
39. İbrahim Kafesoğlu. Türkmen adı, mənası və mahiyyəti, «Qardaşlıq» dərgisi, №7–8, Bağdad, 1971, s.18–19
40. Erşad Hürmüzlü. İrak Türkləri. Monoqrafiya, İstanbul, 1991, s.10; Erşad Hürmüzlü. Türkmenler və İrak. Monoqrafiya. İstanbul, 2003, s.16–17; Tofiq Hacıyev. Azərbaycan kərkükşünaslığının yeni dəyərli əsəri. Bax: İraq–türkman ləhcəsi kitabı. Bakı, «Elm», 2004, s.410–411; Mahir Naqıb. Bax: Qazanfer Paşayev. İrak türkmen folkloru, Kerkük vakfi, İstanbul, 1998, s.12
41. Azərbaycan tarixi üzrə qaynaqlar. ADU nəşriyyatı; 1989; Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti, Bakı, 1985; Mahmudov Yaqub. Səyyahlar. Kəşflər. Azərbaycan. Bakı, 1985; Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами, Баку, 1991; Hürmüzlü Erşad. İraq turkləri (türkcə), İstanbul, 1991; Suphi Saatçı. İraq Turkmanları. İstanbul, 2003
42. Əbdülqazi Bahadır xan. Şəcərei-Tərakimə (Türkmənlərin soy kitabı. Rus dilindən tərcümə edən İsmixan Osmanlı), Bakı, 2002, s.99
43. Təbəri. Ümumi tarix (ərəbcə), Qahirə, VI c., s.167; Suphi Saatçı. İraq Turkmanları, s.20
44. Sadəttin Buluç. Kərkük xoyrat və manilərində başlıca ağız özəllikləri. Türk Dil Qurumu yayınlarından. Sayı 27, 1966, s.109
45. Şakir Sabir Zabit. İraqda türkmanların tarixi vardır (ərəbcə), Bağdad, 1957, s.37–39
46. İbn əl-Əsir. Ümumi tarix (ərəbcə), Qahirə, hicri 1312, s.136
47. S.N.Lonqriq. Müasir İraqın dörd əsri (ingiliscə), Oksford, 1925, s.5; A.İ.Zahidi. Müasir ərəb dilində türk mənşəli sözlər, Namizədlik dissertasiyasının avtoreferatı (rusca), Bakı, 1967, s.10
48. Mustafa Cavad. İraqda türklərin tarixi (ərəbcə). «Əl-Dəlil» dərgisi, №2, 1946, s.59–61; №5, 1946, s.279–282
49. İrak–türkmən türkçəsi, Ankara, 1996, s.18–20

50. İrak Türkmenleri, İstanbul, 2003, s.31–79
51. Erşad Hürmüzlü. İrak türkləri. İstanbul, 1991, s.25
52. Şərifli M. «Eldəgəz» haqqında. V.İ.Lenin adına APİ. Elmi əsərlər, 1946, №1, s.53, 58; Z.M.Bünyadov. Azərbaycan Atabəylər dövləti, Bakı, «Elm», 1985, s.51
53. Azərbaycan tarixi üzrə qaynaqlar. ADU nəşriyyatı, 1989, s.127
54. Göstərilən əsər, 1989, s.133
55. Bünyadov Z.M. Göstərilən əsəri, 1985, s.74
56. Araslı Həmid. Böyük Azərbaycan şairi Füzuli. Bakı, 1958, s.78
57. Azərbaycan Sovet Ensiklopediyası. III c., Bakı, 1979, s.54
58. Azərbaycan tarixi. I c., Bakı, 1961, s.221; İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər, Bakı, 1958, s.81; İbrahimov C. Ağqoyunlu dövlətinin tarixinə dair oçerklər. V.İ.Lenin adına APİ. Elmi əsərlər. XXVI c., Bakı, 1963, s.62; Mahir Naqib, Kərkük musiqisinin təsnif və təhlili. Ankara, 1991, s.3; Mahmudov Y. Səyyahlar. Kəşflər. Azərbaycan. Bakı, 1985, s.97, 172
59. Habib Hürmüzlü. Kerkük Türkçəsi sözlüğü. İstanbul, 2003, s.132
60. Mahmudov Yaqub. Səyyahlar. Kəşflər. Azərbaycan. Bakı, 1985, s. 103
61. Lonqriq S.H. Müasir İraqın dörd əsri (ingiliscə), Oksford, 1925, s. 20
62. Mahmudov Y. Səyyahlar. Kəşflər. Azərbaycan. Bakı, 1985, s. 143
63. Məmmədov Ə. Şah Təhmasibin Azərbaycan dilində bir məktubu, ADU. Elmi əsərlər. Dil və Ədəbiyyat seriyası. № 6, 1964, s. 78
64. Mahmudov Y. Səyyahlar. Kəşflər. Azərbaycan. Bakı, 1985, s. 161–162
65. Şakir Sabir Zabit. Kərkükdə ictimai həyat. Bağdad, 1962, s. 85; Hürmüzlü Erşad. İraq türkləri, İstanbul 1991, s. 30; Mahir Naqib. Göstərilən əsəri, Ankara, 1991, s. 3
66. Lonqriq S.H. Göstərilən əsəri, 1925, s. 20
67. M.C.Cavanşir. Qarabağ tarixi. Bakı, 1959, s.14–15
68. Tərzibaşı Əta. Yazı dili, qonuşma dili. «Qardaşlıq» dərgisi», № 4, Bağdad, 1962, s. 26
69. ADU, Elmi əsərlər, İctimai Elmlər seriyası, № 4, 1961, s. 86–96
70. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin inkişaf yolları. Bakı, 1958, s. 37; Dəmirçizadə Ə.M, Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1967, s. 43; Mirzəzadə H. İraq ərazisində yaşayan azərbaycanlıların dili haqqında bəzi mülahizələr. ADU. Elmi əsərləri. İctimai elmlər seriyası, № 4, 1961, s. 85; Rzazadə M. XVIII əsr Azərbaycan ədəbi dili tarixinə aid materiallar. Bakı, 1961, s. 17

71. «Kitabi-Dədə Qorqud» (tərtibçilər: F.Zeynalov, S.Əlizadə). Bakı, 1988, s. 6, 10, 13
72. «Kitabi-Dədə Qorqud», 1988, s. 10, 19
73. F.Zeynalov. Türk dillərinin müqayisəli qrammatikası. (oçerklər). Bakı, 1961, s.29; N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1966, s.248; Ə.Bəndəroğlu. İraq–Türkmən dili, Bağdad, 1989, s. 142
74. Hidayət Kamal Bayatlı. İrak–Türkmən türkcəsi. Ankara, 1996, s. 329; Həbib Hürmüzlü. Kerkük Türkçesi sözlügü, İstanbul, 2003, s.15
75. S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti, Elmi əsərlər, Bakı, 1961, № 4, s. 95
76. Kərkük müntəxəb xoyratları, II hissə, Bağdad, 1953, s. 57
77. Kərkük müntəxəb xoyratları, II hissə, Bağdad, 1953, s. 147
78. Kərkük müntəxəb xoyratları, III hissə, Bağdad, 1954, s. 140
79. Ə.Bəndəroğlu. Türkmanlar inqilabı İraqda. (ərəbcə). Bağdad, 1972, s. 14
80. Prof. Dr. Hidayət Kamal Bayatlı. İrak–Türkmen türkçəsi. Ankara, 1996, s. 329
81. Həbib Hürmüzlü. Kerkük Türkçəsi sözlügü. İstanbul, 2003, s.15
82. Əbdüllətif Bəndəroğlu. İraq–Türkmən dili. Bağdada, 1989, s. 355–356
83. Azərbaycandan gələn qardaş səsi. «Ədəbiyyat və incəsənət» qəzeti, 19 aprel, 1969
84. Azərbaycan folkloru antologiyası. İraq–türkman cildi, (tərtibçilər prof. Q.Paşayev, Dr. Ə.Bəndəroğlu), Bakı, 1999, səh. 376
85. Subhi Saatçı. Kərkük çocuq folkloru. İstanbul, 1984, s. 11, 13–14.
86. Cəlal Ərtuq. Türkiyədə və dünyada İhsan Doğramacı fenomeni. Ankara, 1996, s. 149
87. Cəlal Ərtuq. Türkiyədə və dünyada İhsan Doğramacı fenomeni. Ankara, 1996, s. 153
88. «Qardaşlıq» dərgisi. Bağdad, 1962, №5
89. N.Məmmədov. Dilçiliyin əsasları, Bakı, 1961, s.219
90. Hadi Mirzəzadə. Azərbaycan dilinin tarixi morfologiyası. Bakı, 1962, s.24
91. Ə.Bəndəroğlu. İraq–Türkmən dili. Bağdad, 1989, s.160
92. Prof. Hidayət Kamal Bayatlı. İrak–Türkmən türkcəsi, Ankara, 1996, s. 330, 387; Həbib Hürmüzlü. Kerkük Türkçəsi sözlüğü. İstanbul, 2003, s.94

KÖNÜLDƏN-KÖNÜLƏ YOLLAR GÖRÜNÜR...

KÖNÜLDƏN-KÖNÜLƏ YOLLAR GÖRÜNÜR… *

İraqda işlədiyim müddətdə ərəblər, kürdlər, asurilər, kaldanilərlə bərabər, ölkə əhalisinin müəyyən hissəsini təşkil edən türkmanların – daha doğrusu, azərilərin həyatı, yaşayışı, adət-ənənəsi, şivəsi və ədəbiyyatı ilə yaxından tanış oldum. Onların dili azəri dilindən əsla fərqlənmir. 750 minlik azəri İraqın şimalında: Kərkük, Altun Körpü, Ərbil, Tuz Xurmatu, Təzə Xurmatu, Daquq və yaxud Taux, Xanaqin və Bayat köyləri adlanan 64 kənddə yaşayır. Öz ana dillərində məktəb yoxdur. Bütün məktəblərdə dərslər yalnız ərəb dilində aparılır. Buna baxmayaraq, bu kiçik xalq nəinki öz şivəsini qoruyub saxlaya bilmişdir, hətta öz dilində yüzə qədər kitab çap etdirmişdir. Bu kitablar onların öz hesabına çap olunur. Bundan əlavə, «Qardaşlıq» adlı iki dildə – ərəb və türkman (azəri) dillərində aylıq ədəbiyyat jurnalı dərc olunur. İraq azəriləri sözün əsl mənasında şair qəlbli bir xalqdır. Mən bir neçə ildir ki, Bağdadda İraq azərilərinin şivəsi və folkloru üzərində işləyirəm. Ona görə də türkmanların yaşadığı bütün yerləri bir-bir gəzmişəm. Burada elə bir adam yoxdur ki, özü bayatı deməsin. Hansı qocaya yaxınlaşsan, bayatı deməyə başladımı, qurtarmayacaqdır.

İraq azəriləri–türkmanlar bizim musiqimizə, ədəbiyyatımıza xüsusi maraq göstərirlər. Sevimli şairləri Səməd Vurğundur. Burada kiçikdən böyüyədək elə bir adam tapmazsan ki, şairin «Azərbaycan», «Şair, nə tez qocaldın sən», «Gülə-gülə», «Dağlar», «Yada sal məni», «Yadıma düşdü», «Sən atmadınmı», «Mən uşaq deyiləm, xeyli yaşım var», «Andım», «Dilican dərəsi» və s. şeirlərini, «Aləmin seyrinə gəl, gör nə gözəl fitrəti var» qəzəlini əzbər bilməsin.

* «Azərbaycan gəncləri» qəzeti, 20.05.1966.

Sevimli şairimizi İraq azərilərinə tanıtdırmaqda müğənni Əbdül Vahid Gözəçi oğlunun əməyi çoxdur. Müğənni Səməd Vurğunun sözlərinə yazılmış Azərbaycan mahnılarını tez-tez radio evində oxuyur. Bundan başqa o, Səməd Vurğunun «Azərbaycan» və «Gülə-gülə» şeirlərinə musiqi bəstələmişdir.

İraq azəriləri arasında gözəl bir xüsusiyyət var: axşamlar bir yerə yığışıb yarış keçirirlər. Kim çox şeir və ya bayatı bildi, birinci yeri tutur. Belə gecələr adamın çox xoşuna gəlir. Bir gün mənə dedilər ki, bu axşam bizim kitabxanaya gəl, gənclər arasında yarış keçiririk (gecədə yaşlılar da iştirak edirdi). Getdim. O axşam heç yadımdan çıxmaz. Gecə sevimli Səməd Vurğuna həsr edilmişdi. Gecə üç saat davam etdi. Birinci yeri gənc şair Əhməd Otraqçı oğlu tutdu. O, Səmədin «Şair, nə tez qocaldın sən» şeirini və «Komsomol poeması»ndan Humayın ölüm səhnəsini əzbər deyəndə iraqlı azəri dostlarımdan biri, Sübhi Barmaqsız ağladı. Zarafatla dedim: – «Sübhi, sən hara, Səməd Vurğun hara, niyə ağlayırsan?»

O, mənə Səməd Vurğunun şeiri ilə cavab verdi (Doğrudur, bir az şeiri dəyişdi. Onlar «gözümüz» yox, «gözmüz» deyirlər. Bu, onların danışıq xüsusiyyətidir).

«Gözmüz gözünüzdən uzaq
olsa da,
Könüldən könülə yollar
görünür».

İRAQ AZƏRİLƏRİ *

Hələ beş il bundan əvvəl sevimli xalq şairimiz Rəsul Rzanın İraq azəriləri haqqındakı məqaləsi («Azərbaycan» jurnalı № 9, 1961-ci il) və bu məqalədə onların bayatılarından verdiyi nümunələr məndə maraq oyatmışdı.

O zaman mən M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutunun ingilis dili şöbəsinin 4-cü kursunda oxuyurdum. Deyirdim bu gözəl ölkəni görmək mənə də qismət olacaqmı? Nə isə məndə bu uzaq əfsanələr ölkəsini görmək və orada yaşayan azərilərin dili, ədəbiyyatı, adət-ənənələri ilə tanış olmaq arzusu baş qaldırmışdı.

Bir az sonra mənə tərcüməçi işləmək üçün xaricə getməyi təklif etdilər. Bir neçə xarici ölkənin adını çəkdilər. Mən İraqı seçdim.

Yaxşı deyiblər – Niyyətin hara, mənzilin ora.

* * *

İraq çoxmillətli bir respublikadır. Ölkədə ərəblər, kürdlər, türkmanlar (azərilər), ermənilər, asurilər, yəhudilər, kəldanilər və sair yaşayırlar. Azərilər ölkənin şimalında Kərkük, Ərbil, Altun Köpru, Tuz Xurmatu, Təzə Xurmatu, Daquq, Tiləfər, Kifri, Xanaqin, Qərə Təppə və Bayat köyləri adlanan 64 kənddə yaşayırlar. İraq azərilərinin ümumi sayı haqqında dəqiq məlumat vermək çox çətindir. Ərəblər onların 140 min olduqlarını göstərirlər. Bu, həqiqətdən uzaqdır.

1965-ci ilin statistik məlumatına görə təkcə Kərkükün özündə 153 min adam yaşayır ki, bunun də 75–80 faizi azərilərdir. Bu hesabla İraqda 140 min deyil, daha çox azəri yaşadığını güman etmək olar.

* «Elm və həyat» jurnalı, №4, 1967, s.26–28.

İraq azəri dialekti ilə dilimiz arasında müəyyən ləhcə xüsusiyyətini nəzərə almasaq heç bir fərq yoxdur. Türk alimi Mir oğlu Cəmil belə yazır:

«Molla Sabirin «Kərkük müntəxab xoriyatları»ndan görünür ki, dilləri Türkiyə, yəni qərb türkcəsinə ən yaxın türk ləhcəsi olan azəri ləhcəsindən həmən-həmən fərqsizdir».

Türkiyə Dillər İnstitutunun direktoru Əmir Asim üçcildlik «Kərkük müntəxab xoriyatları»nın müəllifi Molla Sabirə yazdığı və həmin kitabın II cildində çap olunan məktubunda göstərmişdir:

«Böyük bir diqqət və uzun bir səbir və əmək məhsulu olan kitabını bən və arqadaşlarım zövq və istifadə ilə oxuduq. Azəri ləhcəsində gözəl örnəkləri olan bu xalq şeirlərində bizim dərləmələrə sıqsıqaya bağlı kəlmələr, təbirlər vardır».

İraqda olmuş akademik Ə.Əlizadə yazır: «Özlərini türkmən adlandıran əhalinin danışığı Azərbaycan dilindən o qədər də fərqlənmir».

Apardı bayat məni
Bir zülfü sayad məni.
Aparırsan sən apar,
Aparmasın yad məni.

Bu misraları dilimizdən necə ayırmaq olar!

İraq azəri alimi Ovqat Əta Tərzibaşının da verdiyi məlumat maraqlıdır:

«Kərkük şairlərinin bir qismi osmanlı türkcəsini, başqa bir qismi də ən çox xalq şairləri – azəri türkmən türkcəsini qullanmış və bu şivələr ədəbiyyatımızda bir-birinə qarışmışdır».

Bu, doğrudan da, belədir. Xalq kütləsi azəri ləhcəsində danışsa da, osmanlı ləhcəsinin təsiri özünü göstərir. Bunun da səbəbi İraq azərilərinin əsrlər boyu osmanlı türklərinin təzyiqi altında yaşamaları olmuşdur. Onlar əldən-ələ keçə-

rək, gah ərəblərə, gah da osmanlılara tabe olmuşlar. Maraqlı burasıdır ki, İraq azərilərinin üzərində indi də türklərin təsiri özünü göstərməkdədir. Türkiyədə çıxan bütün qəzet, jurnal və kitablar onlara göndərilir. Gənclərdən çoxu ali məktəbi Türkiyədə bitirir və vətənə qayıdır. Azərilərin yeganə jurnalı olan «Qardaşlıq» yarıərəb və yarıtürk dilində çıxır. Yalnız jurnalın folklor şöbəsi azəri dilindədir.

İraq azərilərinin özlərini türkmən adlandırmaları da maraqlıdır.

Lakin onlar özlərini nə adlandırırlarsa-adlandırsınlar, dil, həyat tərzi, adət və ənənə etibarilə bizdən ayrılmırlar. Məsələn:

Göydə nə var? Göy muncuğu,
Yerdə nə var? Yer muncuğu.

Yaxud:

Bənövşə-bəndə düşə
Bizdən sizə kim düşə –

sözlərini orada uşaqların ağzından eşidəndə təəccüb etmirsən. Ananın uşağının adını dilənçi qoyub qapı-qapı gəzdirməsi də bizim üçün yeni deyildir.

Uşaq evi süpürərsə, eləcə də pişik dili ilə üzünü yalayarsa, qonaq gələcək deyirlər.

Yola çıxanın dalınca su atırlar. Su, onlarda da aydınlıq rəmzidir.

Axşam vaxtı ev süpürməyi, gecə güzgüyə baxmağı, yerə isti su tökməyi, uşağın beşiyini boş yerə yırğalamağı və s. uğursuz hesab edirlər.

Onlarda belə bir adət də vardır: qadınlar ərlərini heç vaxt adları ilə çağırmazlar. Qadın ərinə «babası», «Məhəmməd babası» və ya «adam» deyə müraciət edir.

Evlənmək vaxtı çatmış oğlan ata-anasının yaxın və ya uzaq qohumlarından birinin qızını almalıdır. Əgər bir qohumu yoxsa, ana oğlu üçün qız axtarmağa başlayır. Eşidir ki, filankəsin həm işlək, həm tərbiyəli, həm də gözəl bir qızı vardır. Ana bir qadınla qızgilə gedir. Qızdan su istəyir. Qız su gətirir. Ana qızı başdan-ayağa süzür, danışdırır. Xoşuna gəlsə, qayıdıb qızı oğluna tərifləyir.

Elçiliyə gedirlər. Əgər qızın ərə gedəsi elə bir qohumu yoxsa, ata-anası onun rəyini öyrənmədən razılıq verirlər. Bəzi vaxtlar oğlanı öyrənmək üçün möhlət istəyirlər.

Elçiliyə gələndə qonaqlara yalnız çay və çərəz verirlər. Sonra nişan məclisi qurulur. Nişan üzük, sırğa və paltardan ibarət olur. Qız anasına «süd haqqı» vermək də onlarda dəbdir.

Toy əvvəlcə qız evində, sonra isə oğlan evində olur. Toylarda zurna-balaban, dəf çalınır və hamı növbə ilə oynayır. Toylara aşıq da dəvət olunur. Toy məclisində verilən yemək, əsasən, aş və qızardılmış qoyun ətindən ibarətdir. Stol üstündə meyvə, çərəz və mövsümünə düşsə, qarpız da olur.

Yas mərasimində isə bizdən fərqli olaraq, ehsan vermirlər. Başsağlığına gələnlər yalnız çay içirlər.

İraq azərilərinin bizimlə yaxınlığını və adətlərinin eynili-yini onların tapmaca və atalar sözlərində daha aydın görmək olar. Atalar sözlərinin əksəriyyəti eynilə bizdə olduğu kimidir, bəzilərinin isə bizdə ekvivalentinə rast gəlirik.

Dilimizdə işlənən «Qozbeli qəbir düzəldər» zərbi-məsəli onlarda «Əyri ağac düz olmaz, rəndə vursan yüz yerdən» şəklində və ya bizdə olan «Yıxılan ağaca hərə bir balta vurar» misalı onlarda «Tərəzin əyiləndə, hər gələn bir daş atar» şəklində işlənir.

İraq azəri atalar sözləri və tapmacalarını şeirdən ayırmaq çətindir. Misallara fikir verin:

Yoldaş tanı yola var, yolda yüz min bəla var.
Əski pambıq bez olmaz, əski düşmən düz olmaz.
Görməmiş gördü gümüş, oldu qudurmuş.
Biri yeyər, biri baxar, qiyamət onda qopar.
Camala baxma, kamala bax.
Çox danışan çox çaşar.
Xarab qardaş, qara daş.
Dişsiz insan, daşsız dəyirman kimidir.
Kor gözdən yaş, molla evindən aş çıxmaz.
Oğluna sünnət edir, aləmə minnət edir.
Analı qız bəlli qız, anasız qız dəlli qız.
Qarpız yeyən qurtuldu, qabıq yeyən tutuldu –

misralarında məna ilə şeriyyət arasında qırılmaz vəhdət vardır.

İraq azərilərinin atalar sözləri və tapmacalarında dərin məna ilə bərabər, axıcılıq da adamı heyran edir. Bunların bəziləri bizdə varsa, çoxunu ilk dəfə eşidirik.

Allah nə həkimə, nə hakimə işini salmasın.
Atəş qışın meyvəsidir.
Adam aclıqdan həyasını itirər.
Adam adamdır, olmasa da pulu, eşşək eşşəkdir,
olsa da çulu.
Astarına bax, üzünü al, anasına bax, qızını al.
Alışmış qudurmuşdan betərdir.
Alanda el aparır, yel aparır, sel aparır,
Verəndə el gətirir, yel gətirir, sel gətirir.
Arpa əkən buğda biçməz.
Adın nədir? Qirəbet. İşin nədir? Gəlib-get.
Addım-addım yol olur, damla-damla göl olur.
Ağacın qurdu özüdən olmasa, min il yaşar.
Alçaq yerdə yatma, sel olar, yüksək yerdə yatma, yel olar.

Bağban bağban olursa, neyləyir bağ divarı?
Bal arısı da çalarkən acıdır.
Baltanın yıxmadığı evi göz yıxar.
Bir dağ yıxılmasa, bir dərə dolmaz.
Borcla alınan eşşək su yolunda ölər.
Bu miqas (qayçı) belə kəssə nə bığ qoyar, nə saqqal.

Var evi kərəm evi, yox evi vərəm evi.
Verən əli hər kəs sevər.
Varlıqdan yoxluğa mal, gənclikdən qocalığa can saxla.

Qarnı quruldar, üstü parıldar.
Qalıbdı öz başına, örtübdü bez başına.
Qaraçıya görə xəlbir-ələk hacatdır.
Qatrandan olmaz şəkər, olsa da cinsinə çəkər.
Qurd bizdən iraq olsun, yediyi quyruq olsun.
Qolsuz qalxanı neylir.
Qıy ağçaya, gir bağçaya.
Qadın dünyada cənnət və cəhənnəmdir.
Qonşunun dili şişib, döyüş bizə düşüb.
Qarğa bəslədim, gözüm çıxartdı.
Qurdun tövbəsi qoyunu görüncədi.
Qocaya gedən quyruq, cavana gedən yumruq yeyər.

Dəyirmançı diri olaydı, unu belə iri olaydı.
Dedilər: abdal, qış gəlir, – dedi: durmuşam, titrəməyə.
Dəvəyə dedilər: balan ölüb, – dedi: yüküm arxamdadır.
Darda qalan pişik aslan kəsilər.
Dənizə düşən – ilana sarılar. Dünya tükənər, düşmən tükənməz.

Elti-elti acığına evin bəzər.
Yoxsulluq atəşdən köynəkdir.

Yaxşı olmaq istəyirsənsə, əvvəlcə pis olduğuna inan.
Yalan söz sahibinə tez çatar.

Kərki öz sapını kəsməz.
Kiminin atı ölür, kiminin iti bayram edir.
Keçinin əməli azsa, çobanın çörəyin yeyər.
Kərkükü yalan, Ərbili siçan, Bağdadı seylan (sel) apardı.

Göz yaşı da borc ilədir.
Gəzdim İranı, Turanı. Cənnət buldum buranı.
Gor-gor içində olsun, ev-ev içində olmasın.
Gül ağacından odun olmaz.

Mən deyildim, əlimiydi, köpək oğlu Səlimiydi.
Malı ya atası ölmüşdən, ya kefi gəlmişdən al.
Naxırda inəgim yox, naxırçıydan hesab çox.
Nə duzlu ol, tüpürüləsən, nə şirin ol, yeyiləsən.
Nə malına, nə hüsnünə güvənmə.
Pulluya əfəndim deyərlər.
Seçə-seçə, düşdüm heçə.
Söz var şahid istər, söz var şahidi özündədir.
Su yatar, düşmən yatmaz.
Toyuq ölər, gözü küllükdə qalar.
Tərbiyənin dirəyi ana tərbiyəsidir.
Toxa görə aləm toxdur.
Talesiz insanı dəvə üstündə ilan çalar.
Fitnəlik fənalıq köynəyidir.
Xalqı saqqız edib çeynəyir.
Xarab övlad atasının ocağında pencər əkər.
Həsən Hüseynçin ağlamır, həlimçin ağlayır.
Heyvan ayağından, insan dilindən bağlanır.
Haqq danışanın börkü dəlik olar.
Hakimsiz və həkimsiz köydən (kənd) köç!

Hələb oradasa, arşını buradadır.
Həya üzdə bir qətrə sudur.
Həyasızla üz-göz olma.
Hər kəsin bir dərdi var, dəyirmançının da su dərdi.

Atalar sözləri ilə bərabər, tapmacalar da xalq arasında geniş yayılmışdır. Onlardan bir neçə misal:

Azan oxur, namaz qılmaz, arvad alır, nikah qıymaz **(xoruz)**. Axşam səpdim noxudu, sabah qalxdım yox idi **(ulduz)**. Ağacı xəmir, ortası dəmir **(şiş kabab)**. Qapqaradır hər yanı, hər gün dağlanır canı **(qazan)**. Daşdandı, dəmirdəndi, mayası xəmirdəndi **(dəyirman)**. Dağdan enir dağ kimi, qolları budaq kimi, enir bulaq başına, bağırır oğlaq kimi **(bulud)**. Əlim vurdum yapıya, çıxdım dəmir qapıya **(at)**. Yaşıl boylu, gümüş gərdənli **(soğan)**. Yuxarıda qara-qara, yerə düşdü para-para, əlimə aldım qan kimi, ağzıma qoydum bal kimi **(xar tut)**. Yoxladım belindəkin, anladım könlümdəkin **(kitab)**. Odda bişər, ətdə asılar **(sırğa)**. Səsi var, canı yox, sümüyü var, qanı yox **(saat)**. Sarıdı saman deyil, dərdlərə dərman deyil, qanadı var quş deyil, buynuzu var qoç deyil **(çəyirtkə)**. Uzun-uzun uzanır, həftədə bir bəzənir **(ip, yuyulmuş paltarı sərmək üçün)**. Uzun-uzun uzanır, gəlin kimi bəzənir **(xurma ağacı)**. Halım haldan yuxarı, qonub güldən yuxarı, bir əcaib quş gördüm, dizi beldən yuxarı **(çəyirtkə)**.

Həm ilikdi, həm sümükdü, həm dəri,
Yeməsinə cümlə-aləm müştəridi-müştəri.

(Kəlləpaça)

Bu misal və dəlillər bir daha aydın göstərir ki, uzaq İraq ölkəsində yaşayan azərilər çox qədimdən dil, adət və ənənə cəhətdən bizə yaxın olmuşlar.

«KƏRKÜK BAYATILARI» KİTABINA SON SÖZ *

Vətən torpağının müəyyən bucaqlarına verilmiş: Ağdaş, Ağsu, Qaradağ, Qaraqoyunlu, Şirvan qalası, Çardaxlı, Bayat adları bizə nə qədər doğma, nə qədər əzizdir. Bu adlar bizdən çox-çox uzaqlarda yurd salmış sayca kiçik bir xalq üçün də əziz və doğmadır. Axı, onlar da öz doğma yerlərini bu adlarla adlandırıblar. Bu xalq harada məskən salmışdır? Onlar kimdirlər?

Əslim qarabağlıdı,
Sinəm çarpaz dağlıdı.
Kəsilib gəlib-gedən,
Demə yollar bağlıdı.

Bu bayatını kim yaratmışdır? Bayatı harada yaranmışdır? Vətəndən uzaq düşən kimdir? Kəsilən hansı yollardır?

Bu kiçik xalq, müəyyən tarixi səbəblər üzündən bizdən uzaq düşmüş, böyük Füzulini öz qoynunda böyütmüş, ona azəri dilində yazıb-yaratmaq üçün qol-qanad vermiş, İraq Respublikasının, əsasən, Kərkük vilayətində yaşayan azərilərdir. Onlar ölkənin şimalında: Kərkük, Ərbil şəhərlərində, Altun Köprü, Tuz Xurmatu, Təzə Xurmatu, Daquq, Tiləfər, Kifri, Xanəgin, Məndəli, Qara Təppə qəsəbələrində və Bayat göyləri adlanan kəndlərdə yaşayırlar.

Kərbəla və Mosulda isə müəyyən məhəllələrdə az miqdarda azəri yaşayır. İraq azərilərinin sayı haqqında dəqiq məlumat vermək çətindir. Ərəblər onların 140 min olduqlarını göstərirlər ki, bu da həqiqətdən çox uzaqdır. «İraq keçmişdə və indi» kitabının müəllifi B.M.Dantsiq yazır:

* *Bax:* «Kərkük bayatıları», Bakı, «Azərnəşr», 1968, s.175–182.

«Əhalinin ümumi hesaba alınması düzgün məlumat vermir. Bu, onunla izah olunur ki, rəsmi statistika idarələri hakim millətin sayının artıq göstərilməsinə cəhd edirlər».[1]

1957-ci il statistikasına görə Kərkük vilayətinin əhalisi 388,912 nəfərdir.[2]

1965-ci il 14 oktyabr məlumatına görə, təkcə vilayətin mərkəzi Kərkük şəhərində 153 min adam yaşayır ki, bunun da 65–70%-ni azərilər təşkil edir. Yeri gəlmişkən, qeyd edək ki, vilayətin yuxarıda adı çəkilən qəsəbə və kəndlərində, demək olar ki, yalnız azərilər yaşayır. Belə olan halda, əlbəttə, onların sayı nə 140, nə də 200 mindir. Özlərinin dediklərinə görə sayları yarım milyona çatır.

İraq azəriləri bizdən nə qədər uzaqda yaşasalar da, müəyyən ləhcə xüsusiyyətlərini nəzərə almasaq, dilləri dilimizdən əsla fərqlənmir. Bunu alimlər belə təsdiq edirlər.

Türkiyə–Yuqoslaviya iqtisadi əlaqələr cəmiyyətinin sədri Mir oğlu Cəmil yazır:

«Molla Sabirin «Kərkük müntəxab xoriyatları»ndan görülür ki, dilləri Türkiyə, yəni qərb türkcəsinə ən yaxın Türk ləhcəsi olan azəri ləhcəsindən həmən-həmən fərqsizdir».[3]

Azərbaycan dilinin tarixi ilə məşğul olan mərhum prof. Hadı Mirzəzadə qeyd edir ki:

«Kərkük mahnı və xoriyatlarının dilinin fonetik xüsusiyyətlərini nəzərdən keçirdikdə belə bir nəticəyə gəlirik ki, İraq Respublikasında yaşayan azərbaycanlılar bizə daha yaxındır».[4]

---

[1] **Б.М.Дантсиг.** «Ираг в прошлом и настойашем».

[2] Yenə orada, səh.96.

[3] **M.Sabir.** «Kərkük müntəxab xoriyatları», Bağdad–1954, III kitab, səh.140.

[4] **H.Mirzəzadə**. ADU-nun elmi əsərləri, ictimai elmlər seriyası. Bakı–1961, №4, səh.90.

İraqda olarkən İraq azəriləri ilə söhbət edən akademik Əbdülkərim Əlizadə yazmışdır:

«Özlərini türkmən adlandıran əhalinin danışığı Azərbaycan dilindən o qədər də fərqlənmir».[1]

Türkiyə Əskişəhər İnstitutunun müəllimi Vahabi «Kərkük müntəxab xoriyatları» adlı kitabın II hissəsini oxuyaraq, İstanbulda çıxan «Dünya» qəzetinin 1954-cü il 5 mart tarixli nömrəsində yazırdı:

«İlk kitabda olduğu kibi bu kitabdakılar da azəri ləhcəsindədir». Vahabi yuxarıda göstərilən kitaba yazdığı müqəddimədə:

Axşam arada qaldı,
Xəncər yarada qaldı.
Mənim bedasıl yarım,
Bilməm harada qaldı, –

bayatısını göstərir və:

– «Şu deyişlər azəri ləhcəsinin özlügünü taşımaqdadır»[2]– deyir.

Türkiyə Dil cəmiyyətinin direktoru Əmir Asim, Molla Sabirə yazır:

«Böyük bir diqqət və uzun bir səbir və əmək məhsulu olan kitabını bən və arqadaşlarım zövq və istifadə ilə oxuduq. Azəri ləhcəsində gözəl örnəkləri olan bu xalq şeirlərində bizim dərləmələrə sıqsıqaya bağlı kəlimələr, təbirlər vardır».[3]

İraq azəriləri içərisində elm, dil və ədəbiyyat aləmində məşhur olan Ovqat Əta Tərzibaşı yazır:

«Kərkük şairlərinin bir qismi osmanlı türkcəsini, başqa bir qismi də – ən çox xalq şairləri azəri türkmən türkcəsini

[1] Kommunist qəzeti, 1960, 15 mart.
[2] Kərkük müntəxab xoriyatları, II kitab, səh.67, Bağdad, 1953.
[3] Kərkük müntəxab xoriyatları, II kitab, səh.57, Bağdad, 1953.

qullanmış və bu şivələr ədəbiyyatımızda bir-birinə qarışmışdır».

Əta Tərzibaşının yuxarıda göstərdiyimiz sözləri bizə belə bir nəticəyə gəlməyə imkan verir ki, onlar 1920-ci il ingilislər İraqı tutana qədər Osmanlıların əlində olsalar da, xalq – xüsusən də yaşlı adamlar danışdığı şivəni dəyişməmişdir. Onların həyat tərzi, adət-ənənələri, oyunları, inancları, tapmacaları, atalar sözləri və bayatıları bizimkindən əsla fərqlənmir.

Doğrudur, bəzi ləhcə xüsusiyyətləri özünü göstərir. Belə ləhcə fərqlərinə Azərbaycan dialektlərində də rast gəlmirikmi?!

İraq azəri dialektində rast gəldiyimiz bir çox xüsusiyyətlər bu və ya digər dialektlərimizdə özünü göstərir.

Uşaqlıqdan aşinası olduğum:

Göydə nə var?
Göy muncuğu,
Yerdə nə var?
Yer muncuğu.

Bənövşə
– Bəndə düşə.
Bizdən sizə kim düşə?
Filankəs düşə.

və başqa bu kimi uşaq oyunlarını orada ilk dəfə uşaqların ağzından eşidəndə çox da təəccüblənmirsən. Uşağı olmayan bir qadının uşağı olanda adını dilənçi qoyub qapı-qapı gəzdirməsi bizdə olmamışdırmı?

Bizdə vaxtilə olan inancların əksəriyyəti onlarda da var.

Uşaq ev süpürərsə, eləcə də pişik dili ilə üzünü yalayarsa, qonaq gələcək deyirlər.

Biri yola çıxanda dalınca su atırlar ki, işi uğurlu olsun. Su onlarda da aydınlıq rəmzidir.

Aşağıdakılar isə uğursuz hesab olunur:

Uşağın beşiyini boş yırğalamaq; saç və dırnağı yerə atmaq; axşam vaxtı ev süpürmək; gecə güzgüyə baxmaq; isti suyu yerə tökmək; birinin paltarının düyməsini üstündə tikmək və sairə. İraq azərilərilə yaxınlığımız onların tapmaca və atalar sözlərində də özünü göstərir.

Bu tapmaca və atalar sözlərinin əksəriyyəti bizdə olduğu kimidir. Lakin bəziləri fərqlənirlər, atalar sözləri o qədər rəvandır ki, oxuyanda elə bil şeir oxuyursan.

Yoldaş tanı yola var, yolda yüz min bəla var.
Görməmiş, gördü gümüş, oldu qudurmuş.
Biri yeyər, biri baxar, qiyamət onda qopar.
Çox danışan çox çaşar.
Xarab qardaş, qara daş.
Əski pambıq bez olmaz, əski düşmən düz olmaz.
Nənəli qız bəlli qız, nənəsiz qız dəlli qız.
Qarpız yeyən qurtuldu, qabıq yeyən tutuldu.
Qalıbdı öz başına, örtübdü bez başına.
Qətrandan olmaz şəkər, olsa da cinsinə çəkər və s.

İraq azəriləri arasında ən çox yayılan bayatılar xoriyatlardır. Bayatılarda başdan-ayağa milli ruhumuz duyulmaqla bərabər, bizə doğma olan coğrafi adlara da rast gəlirik.

Bağdad yolu Gəncədi,
Gülü pəncə-pəncədi.
Öz yarımı tanıram,
Beli qıldan incədi.

Bizdə gənclikdə hamı «qoşma» yazdığı kimi onlarda bayatı-xoriyat yazırlar. Bayatıların əksər hissəsi çox mənalı, dərin düşüncə, təfəkkür məhsuludur. Bayatılarda külli miqdarda atalar sözlərinə rast gəlirik.

Bizdə işlənən «yıxılan ağaca balta vuran çox olar» atalar sözünün ekvivalenti bayatıda görün nə gözəl işlənmişdir:

Bir daş atar
Bir kirəc, bir daş atar.
Tərəzin əgiləndə
Hər gələn bir daş atar.

Və ya:

Arzular gedər,
Qəmbər–Arzular gedər.[1]
Bəsləmə yad ördəgin
Vətən arzular gedər.

İraq azəriləri arasında bizim Sarı Aşıq kimi gözəl bayatılar yazan Muçala və Mal Alla kimi məşhur xoriyatçılar olmuşdur.

İndi də çoxlu miqdarda xoriyatçılar vardır. Toylarda, şənliklərdə bayatılaşırlar. Kim çox bayatı bildi və ya kim özündən çox bayatı dedi o udur. Xüsusi «deyişmə», yəni xoriyatlaşma gecələri də təşkil olunur ki, bu da bir növ müsabiqəni andırır.

Belə gecələrdə 10–15 nəfərdən biri 3–4 dəfə qalib çıxarsa, yaxşı xoriyatçı adını alır. Xoriyatlaşma «deyişmə» şəklində getdiyinə görə bəzi bayatılar qarşılıqlı olur.

Elə bir şey tapılmaz ki, ona bayatı qoşulmasın, İraq azərilərinin yeganə jurnalı olan «Qardaşlığ»a belə onlarca bayatı həsr olunmuşdur. «Qardaşlığ»ın bir illiyi tamam olanda belə bir bayatı da yaranmışdı:

Qardaşlığı,
Alıbdı qar, daşlığı.

[1] İraq azəriləri arasında çox məşhur olan «Arzu–Qəmbər» məhəbbət dastanının qəhrəmanlarına işarədir.

Ölməyəydim görəydim,
Üç yaşda Qardaşlığı.

Gənclər arasında heca vəznində, hətta sərbəst vəzndə şeirlər yazan çoxdur. Lakin onlar bayatı yazmağa böyük maraq göstərirlər. Gənclərin yazıları Ovqat (vəkil) Əta Tərzibaşının, Şakir Sabir Zabit və Rza Dəmirçinin yaxından köməyi və rəhbərliyi ilə azəri dilində kitabça şəklində buraxılır. Belə kitabçalar indi onlarcadır. Onlardan biri də «Gənc ədəbiyyatçılar» adlanır. Həmin kitabda Fərrux Hüsaməddinə geniş yer verilib.

Fərrux gördüyünü, duyduğunu yazır. O, hələ çox gənc olsa da, həyat onu artıq «imtahana» çəkmişdir. Uşaqlıqdan yetim qalan Fərrux yazır:

Necə dağlar
Qarşıda necə dağlar.
Yetim yanağı bilir,
Göz yaşı necə dağlar.

Fərrux yeri gələndə hər kiçik daşına, uzaq ulduzuna qədər dinlə bağlı olan bu ölkədə dinə, Allaha qarşı üsyan edir:

Al, çax, fələk,
Silahın al, çax, fələk.
Namərdi mərd edibsən,
Namərddən alçax fələk.

Kitabda verilən bayatıları onların öz dialektlərində olduğu kimi verməyə çalışmışıq. Lakin şəkilçilərdə bəzi xırda dəyişikliyə yol vermişik.

Məsələn: o gəliri əvəzinə o gəlir, sən gəldik, biz gələndəx və s. əvəzinə isə sən gəldin, biz gələndə işlədilmişdir.

Bayatıların toplanıb kitab şəklində buraxılması çətin olsa da, şübhəsiz, yaxşı təşəbbüsdür. Bu işdə bizə yaxından

kömək edən «Qardaşlıq» jurnalının katibi Rza Dəmirçiyə, Əta Tərzibaşıya, Şakir Sabir Zabitə, Fərrux Hüsaməddinə, Aydın Bəzirgana, Əhməd Otraqçı oğluna, Mövlud Tahaya, müəllim Məhəmməd Xurşidə, Rəmzi Köprülüyə, Barmaqsız Sübhiyə, çayçı Ömər dayıya (Azərbaycanda Culfa və Naxçıvanda olmuşdur) və ən nəhayət, bizə dəyərli məsləhətləri ilə yaxından kömək edən Azərbaycan radiosunun əməkdaşı Kərküklü Sinan Səidə öz dərin minnətdarlığımızı bildiririk.

KƏRKÜK AZƏRİLƏRİ *

İraq Respublikasının Kərkük vilayətində: Kərkük, Qarabulaq, Leylan, Yarvəli, Çardaxlı, Böyük Hasar, Beşir, Yayçı, Qızılyar, Təzə Xurmatu, Yengicə, Xasadarlı, Əlbuhəsən, Süleyman bəg, Qaranaz, Qalxanlu, Əmirli, Səyyar, Üçtəpə, Yeşiltəpə, Qərətəppə, Cabarlı, Zəngili, Kəhriz, Şirvanə və s. şəhər, qəza, nahiyyə və kəndlərdə azəri dilində danışan bir xalq yaşayır. Bu xalqa Diala vilayətinin Xanaqin, Susuz Bulaq; Qarağan, Dəlli Abbas, Şahraban, Qızlarbat, Məndəli, Ərbil vilayətinin Ərbil şəhərində, Mosul vilayətinin Tiləfər qəzasında və Mosul şəhərinin Nəbi Yunus məhəlləsində, Bağdad və Kərbəla şəhərlərinin müəyyən məhəllələrində də təsadüf edilir.

Bu xalqın sayı haqqında dəqiq məlumat yoxdur. Rəsmi statistika idarələri onların sayının 140 min olduğunu göstərir. Bu, həqiqətdən çox uzaqdır. Sovet müəllifləri N.Məmmədov və A.Axundov onların sayının 400 min olduğunu göstərirlər. Özlərinin qeyri-rəsmi hesablamalarına görə sayları yarım milyona çatır.

* «Azərbaycan» jurnalı, №2, 1969, s.204–208.

Bu xalqın haradan, nə zaman İraqa gəlməsi barədə müxtəlif tarixi faktlar, mülahizələr vardır.

Kərküklü tarixçi Şakir Sabir Zabit türkdilli xalqın İraqda hələ VII əsrdən başlayaraq məskən saldığını, 745-ci ildə Bağdadda artıq türk məhəllələrinin yarandığını qeyd edir.

Türk alimi, professor Buluc 1966-cı ildə Türk Dil qurultayında kərküklü alim Əta Tərzibaşının «Kərkük xoriyat və maniləri» kitabına əsasən etdiyi məruzəsində İraqa ilk dəfə azəri qəbilələrinin köçdüyünü deyir: «Türklərin ərəb aləmi və bu arada İraqla olan ilişkiləri geriyə doğru olduqca əski zamanlara qədər gedir. Daha hicrətin ilk yüz illərində Azərbaycan türkləri Təbriz-Sultaniyyədən keçib Kərkük yörəsinə yerləşirlər» (Bax: XI Türk Dili qurultayında oxunan bilimsel bildireler, 1966, Ankara, 1968, səh. 109).

XII–XIII əsrlərdə yaşamış ərəb tarixçisi İbn-əl-Əsir və ingilis tarixçisi Stefan Lonqritin göstərdiyinə görə 1045-ci ildə Abu Mansur Gögtaş və Abu Əli İbn-Dehqanın rəhbərliyi ilə bəzi Azərbaycan türkləri İraqa köçərək Tiləfər, Mosul və ona bitişik rayonlarda məskən salmışlar.

XII əsrdə Eldəgiz və onun oğulları bütün İraq Səlcuq dövlətini ələ keçirmişdi.

Hakimiyyət uğrunda sonrakı daxili çəkişmələr Azərbaycanla İraq arasındakı əlaqəni zəiflədə bilməmişdir. Hətta Uzun Həsənin hakimiyyəti zamanı Ağqoyunlular dövlətinin tərkibinə İran İraqı və Ərəb İraqı da daxil olmuşdur.

Maraqlıdır ki, XIX əsrdə Nizaminin «Yeddi gözəl» və «İqbalnamə» əsərləri Tehranda nəşr edilərkən Nizami İraq şairi kimi göstərilmişdir.

«Azərbaycan tarixi»ndə Qarabağ və Ərəşdən İraqa çoxlu ailələr köçürüldüyü göstərilir.

A.Bakıxanov İrandan da Şah İsmayıl hakimiyyətinə dayaq olmaq üçün bayatlıların siyahı üzrə köçürülüb Dərbənd və Şabranda (Dəvəçi – *Q.P.*) yerləşdirildiyini qeyd edir.

İraqla Azərbaycan arasında əlaqə məşhur Çaldıran vuruşundan sonra zəifləyir. C.Lonqriq «Müasir İraqın dörd əsri» kitabında yazır: Çaldıran vuruşmasından sonra türklər Diyarbəkr, Mardin və Mosulu ələ keçirdilər. Mosul, xan itirib, paşa qazandı». Bundan sonra da Azərbaycan hakimləri Bağdadı geri almağa çalışmışlar. Bu baxımdan kərküklü Ş.S.Zabitin və həmyerlimiz tarixçi Ə.Məmmədovun gətirdikləri faktlar maraqlıdır. Ə.Məmmədov göstərir ki, Şahzadə Bəyazid Türkiyədə atası Sultan Süleyman və qardaşı II Səlimə qarşı çıxır. Müharibədə məğlub olduqda Səfəvilərə pənah gətirir. Sultan Süleyman Səfəvilərə böyük miqdarda hədiyyələr vəd edərək oğlunu edam etmək üçün geri istəyir. Şah İsmayılın oğlu Şah Təhmasib Şahzadə Bəyazidi geri qaytarmağa razılıq verir. Lakin müəyyən şərtlərlə. Bu şərtlərdən biri də Bağdadın yenidən Səfəvilərə ilhaq edilməsi idi.

Ş.S.Zabit yazır ki, Sultan Süleyman Şah Təhmasibin şərti ilə razılaşmayanda o, heç olmazsa Kərbəla və Nəcəf şəhərlərinin Azərbaycana ilhaq olunmasını təklif edir. Lakin Sultan Süleyman bu təklifi də qəbul etmir.

Tarixi faktlardan məlum olur ki, Azərbaycan hakimləri İraqda məskən tutmuş Azərbaycan qəbilələrini geri qaytarmağa sonralar da təşəbbüs göstərmişlər. Mirzə Camal Cavanşir «Qarabağ tarixi» kitabında yazır: Şah öldürüldükdən sonra Pənah xan yanında olan adamlarla birlikdə Qarabağ ellərini qarşılamaq üçün İraq və Azərbaycan sərhəddinə qədər getdi». «Qarabağ tarixi kitabındakı başqa bir fakt da diqqəti cəlb edir. Müəllif bildirir ki, 1797-ci ildə Qacar Şuşa qalasında öldürüldükdən sonra Sadıq xan Şəqqaqi Azərbaycanı başsız görüb, Tehranı almaq və girov aparılmış ailələri

geri qaytarmaq əzmi ilə İraqa tərəf hərəkət etdi. Lakin Fətəli şah Sadıq xanın qarşısına çıxıb, onu məğlub etdi.

Əta Tərzibaşı «Kərkük havaları» adlı kitabında «Qarabağı» muğamından söhbət açır. O yazır: «Nə təkim yerli havalarımız arasında «Qarabağı» deyilən bir çeşid uzun havanın azəri mənşəli olduğunu və sırf azəri ağzilə söyləndiyini bilməkdəyiz».

Bu muğamı İraqa Mirzə Cavanşir bəyin söz açdığı Qarabağ elləri aparmamışlarmı?!

Kərkükdə indi də «Qarabağlı məhəlləsi»nə rast gəlirsən. Ara kəsildikdən sonra həsrət çəkən, yol gözləyən, «kəsilən yollardan» şikayət edən xalq, ürək sızıltısını, «ürəyinin parçalanmasını, dərd-ələmini necə də təsirli izhar etmişdir.

Əslim Qarabağlıdı,
Sinəm çarpaz dağlıdı.
Kəsilib gəlib-gedən,
Demə, yollar bağlıdı.

Professor R.Əliyev də «Vətəndən uzaqlarda» adlı məqaləsində Kərkük xalqından söz açır, kərküklülərlə olan söhbətlərini xatırlayır: «Toplaşanlar arasında bakılılar, gəncəlilər, naxçıvanlılar var idi. Mağazanın gənc sahibinin adı Xəlildi. O, mənə aşağıdakıları söylədi: «Ulu babam bura üç yüz il əvvəl gəlmişdi. O, Gəncəni tərk edərkən özü ilə əmlakından başqa buraya qızılgül kolu və bir neçə balaca kisədə vətən torpağı gətirmişdi. İndi qızılgül kolları müqəddəs sayılır və burada yaşayan bütün gəncəlilərin həyətini bəzəyir».

Kərküklü Xəlillə R.Əliyev arasında olan bu söhbətdən sonra Kərkük xalqının sevdiyi:

Bağdad yolu Gəncədi,
Gülü pəncə-pəncədi.

Mən yarımı tanıram,
Beli qıldan incədi –

bayatısının hardan yarandığı da məlum olur.

Onlar özlərini də, bizi də türkman adlandırırlar. Ancaq bizim danışdığımız kimi, onların danışığı da Orta Asiya türkmənlərinin danışığından fərqlənir. Türkmən dilinin əsas xüsusiyyətləri olan: ilkin uzanan saitlərə, dişarası «s» və «z» samitlərinə, sağır «nun» səsinə və sairəyə Kərkük dialektində rast gəlinmir.

Kərkük dialektinə az-çox bələd olan alimlər onun azəri dilindən fərqlənmədiyini qeyd edirlər. Türk alimləri Əmir Asim, Həmid Zəbir, Qoşa Ay, Vahabi Aşqun, Mir oğlu Cəmil, professor S.Buluc, kərküklü alim Əta Tərzibaşı, İraqda olmuş akademik Ə.Əlizadə, H.Mirzəzadə və başqaları bu fikirdədirlər.

Kərkük xalqı ilə yaxınlığımızı göstərən bir çox başqa faktlar da vardır. Sovet Azərbaycanı ərazisində rast gəldiyimiz Ağdam, Ağdaş, Ağsu, Billava, Boyat, Qarabulaq, Qaradağ, Qarabağlı, Əmirli, Xəsədərli, Xasa, Yəyçi, Mandılı, Mərdinli, Üçtəpə, Çardaqlı, Cəfərli və s. rayon və kənd adlarına Kərkük dialektində danışan xalqın yaşadığı yerlərdə də təsadüf edilir. Maraqlıdır ki, Kərkük dolaylarında «Şirin» «Qız qalası» və «Şirvanşah» qalalarına da rast gəlirik.

Alimlərdən P.M.Melioranski, A.M.Şerbak, N.A.Baskakov, M.Ş.Şirəliyev, Z.N.Nacip, Y.Z.Şirvani və başqaları İbn-Mühənnanın lüğətindən danışarkən həmin əsərin ya İraqda, ya da müasir Azərbaycan ərazisində yazıldığını qeyd edirlər. Çünki əsər qədim azəri dilindədir.

Bütün bu tarixi faktlar, mülahizələr göstərir ki, Kərkük və azəri xalqları bir-birinə olduqca yaxındırlar. Bizim adət-ənənələrimiz, musiqimiz və folklorumuz arasında elə bir

fərq nəzərə çarpmır. Bu yaxınlıq aşağıda oxuculara təqdim etdiyimiz Kərkükdə yaranmış atalar sözlərində də çox qabarıq hiss olunur.

Təkcə onu demək kifayətdir ki, Ə.Hüseynzadənin 1956-cı ildə çap etdirdiyi «Atalar sözü» kitabında Kərkük atalar sözləri ilə hərfən eyni olan 263 atalar sözünə təsadüf etdik. Həmin atalar sözlərindən elələri var ki, onlar Kərkük dialekti üçün daha səciyyəvidir. Ə.Əbülqasımın kitabında gedən «Yanlış hesab Bağdaddan qayıdar» atalar sözü Kərkükdə «Yanlış hesab Bağdaddan dönər» şəklində işlənir. Bu atalar sözünün Kərkükdə yaranıb, sonra bizə keçdiyini ehtimal etmək olar. Əvvəla, ona görə ki, Bağdad Kərkükə yaxın olub, ölkənin paytaxtıdır, böyük ticarət mərkəzidir. İkincisi isə ona görə ki, Kərkükdə bu atalar sözü əsasında bəzi hekayələr vardır.

Bəzi atalar sözlərinin Kərkük və Azərbaycan variantları arasında ciddi fərq var. Bizdə təsadüf edilən «Zaman sənə saz olmasa, sən zamana saz ol», «Tutdu qatıq, tutmadı ayran», «İmam evindən aş, ölü gözündən yaş», «Oğrudan qalanı falçı apardı», «Çaqqal var ki, gödən çıxarır, qurdun adı bədnamdır» və s. atalar sözləri Kərkükdə «Zaman sənə uymazsa, sən zamana uy», «Düz oldu ox, əgri oldu yay», «Molla evindən aş, kor gözdən yaş çıxmaz», «Xerxızdan (oğru) qalanı falçıya verdi», «Çaqqal var baş qoparır, qurdun adı yamandı» şəklində işlənir.

Oxuculara təqdim etdiyimiz atalar sözləri, əsasən, Ə.Tərzibaşının və Ş.S.Zabitin 1962-ci ildə Bağdadda nəşr edilən kitablarındakı və Bağdadda indi də çap olunmaqda davam edən «Qardaşlıq» jurnalından götürülmüşdür.[1]

[1] «Kərkük atalar sözləri» ayrıca kitab halında çap olunduğuna görə («Azərnəşr», 1978) bir daha burada verməyə lüzum görmədik. – *red.*

DOSTLUĞA HƏSR OLUNMUŞ ÖMÜR *

Aylar, illər keçir, xatirələr büllurlaşır. İraq Respublikasında işlədiyim vaxtdan beş il keçsə də, qonaqpərvər ərəb xalqını, mərd kürd xalqını, şair qəlbli Kərkük xalqını – Füzulinin nəvə-nəticələrini hər vaxt xoş məramla xatırlayıram. Hər dəfə də İraqdan sovqat aldıqda sanki xatirələr təzələşir. Budur Bağdaddan yeni bağlama almışam: «Qardaşlıq» jurnalı, bir də ki, üstündə bizim hürufatla «Azərbaycan», sonra isə ərəbcə «Ərəb ölkələri haqqında Azərbaycan nəğmələri» yazılmış nəfis bir kitab. Müqəddiməni oxuyuram: «Xəzər dənizi sahilində eynilə İraq türkmanlarının ləhcəsində danışan bir xalq məskən salmışdır. Bu, Azərbaycan xalqıdır. Azərbaycan ölkəsi nefti, pambığı, üzümü, kürüsü, zəfəranı, qonaqpərvərliyi və s. ilə məşhurdur. Məndən onların ən çox nəyi sevdiklərini soruşsaydılar, fikirləşmədən deyərdim: vətənlərini, milli rəqslərini, Füzuli Bağdadini, muğamatı, qonaqları, o cümlədən də ərəbləri. Mən azərbaycanlıların ərəblərə olan ehtiram və məhəbbətini onların gündəlik həyatında, azərbaycan müğənnilərinin ərəb mahnılarını həvəslə ifa etmələrində, bəstəkar Fikrət Əmirov və Elmira Nəzirovanın ərəb melodiyaları əsasında yazdıqları fortepiano ilə orkestr üçün konsertdə, Azərbaycan rəssam və yazıçılarının əsərlərində, gənclərin ərəb dilini öyrənmə meyilində görürəm. İraqa gəlincə, onun Azərbaycan xalqının ürəyində xüsusi bir yeri vardır. Bu da, təbii ki, möhkəm tarixi əlaqələrdən doğmuşdur. Bəlkə, bu əlaqə Əfzələddin Xaqaninin Azərbaycan ədəbiyyatı tarixində ilk səyahətnamə olan «Mədain xərabələri» ilə və ya «Töhvətül-İraqeyn» əsəri ilə başlamış, Kərbəlada əbədi yuxuya dalan və hər bir azərbaycanlı üçün əziz olan Füzuli ilə möhkəmlənmişdir».

* «Ədəbiyyat və incəsənət» qəzeti, 28.08.1971, s.14–15.

İraq İnformasiya Nazirliyi tərəfindən Bağdadda buraxılan, mətbəə qoxusu hələ vərəqlərindən getməyən bu kitab 84 səhifədən ibarətdir. Şeirləri ərəb dilinə Sinan Səid tərcümə etmişdir.

Kitabda S.Rüstəmin «Ərəb dostlarıma», R.Rzanın «Şəttül-ərəb», «Cəbəllütariq», M.Dilbazinin «Nağıllar ölkəsi», M.Rahimin «Bağdad gecələri», O.Sarıvəllinin «Ərəb qadını», N.Xəzrinin «Ərəb qızına», B.Vahabzadənin «Köhnə bayatı», «Ələddinin çırağı», T.Bayramın «Dinlə, ərəb qardaşım» şeirləri və başqa əsərlər verilmişdir. Kitab Bağdadda rəğbətlə qarşılanıb, məcmuədə gedən şeirlərdən musiqili veriliş təşkil olunub.

«Ərəb ölkələri haqqında Azərbaycan nəğmələri» kitabı Sovet–İraq, o cümlədən Azərbaycan–İraq ədəbi-mədəni əlaqələrində maraqlı bir fakt kimi əhəmiyyətlidir.

Sinan Səid hələ doğma vətənə qayıtmamışdan əvvəl də Sovet–İraq mədəni əlaqələri sahəsində az iş görməmişdi. 1959-cu ildə Bakı radiosuna işə dəvət edilən Sinan Səid 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmiş, 1969-cu ildə akademik H.Araslının rəhbərliyi ilə «İraqda türk mətbuatı və ədəbi məsələlər» (1854–1966-cı illər), mövzusunda dissertasiyasını müdafiə etmişdir. Sinan Səidin «Azərbaycan», «Ulduz» jurnallarında, «Ədəbiyyat və incəsənət» qəzetində çıxan məqalələri, onun yaxşı tədqiqatçı olduğunu göstərir.

M.C.Cəfərovun «Sabir» və «C.Məmmədquluzadə», R.Məmmədovun Azərbaycanda təhsil alan xarici tələbələrdən bəhs edən «Onlar özlərini vətənlərində hiss edirlər» kitablarını ərəb dilinə Sinan Səid çevirmişdir. Azərbaycan şairlərinin Afrika xalqlarının mübarizəsinə həsr olunmuş əsərlərindən ibarət «Dost əlləri» adlı almanaxı da ərəb dilinə Sinan Səid tərcümə etmişdir. S.Rəhimovun «Ata və oğul»

povesti və bir sıra hekayələri Sinanın tərcüməsində 1965-ci ildə Moskvanın «Proqress» nəşriyyatı tərəfindən buraxılmışdır.

Vaqifin yubileyi ilə əlaqədar böyük şairimizin seçilmiş şeirləri və gənc alim Araz Dadaşzadənin «M.P.Vaqif» monoqrafiyası ərəb dilinə S.Səid tərəfindən tərcümə edilmişdir. Azərbaycanın tarixi abidələrinə aid (Qız qalası, İçərişəhər, Şirvanşahlar sarayı və başqaları haqqında) kitabçaları da ərəb dilinə o çevirmişdir. Azərbaycan filmlərinin ərəbcəyə tərcümə və səsləndirilməsində Sinanın rolu az olmamışdır. Orta məktəb üçün «Ərəb dili müntəxəbatı» kitabının müəlliflərindən biri Sinandır.

Yəqin ki, oxucular mətbuat səhifələrində Sinan Səidin hekayələrini də oxumuşlar. Onu müğənni kimi tanıyanlar da vardır. Axı o, müğənni Nərminə Məmmədova ilə birlikdə Kərkük mahnılarını lentə yazdırmış və vaxtaşırı həmin mahnılar Bakı radiosu ilə səsləndirilir. Sinan Səid Azərbaycan radiosunda ərəb dili üzrə mütəxəssislərin yetişdirilməsinə də az əmək sərf etməmişdir. Sinan bir ilə yaxındır ki, vətəni İraqa qayıdıb. Hazırda o, Bağdad Universitetinin ədəbiyyat fakültəsinin jurnalistika şöbəsində dərs deyir.

Sinan vətənə döndükdən sonra da Sovet–İraq mədəni əlaqələri sahəsində yorulmadan çalışır. İraq müəlliflər və yazıçılar cəmiyyətinin orqanı «Əl-kitab»da «Böyük Sovet Ensiklopediyası»nın yeni, üçüncü nəşri barədə geniş məqaləsi çap olunub. Bağdad radiosunda tez-tez Azərbaycan ədəbiyyatına dair proqramlarla çıxış edir.

İndi o, dissertasiya işini və tərcümə etdiyi «Azərbaycan hekayələri» kitabını çapa hazırlayır. İraqda uşaq ədəbiyyatı sahəsi çox gəncdir. Sinan sovet uşaq ədəbiyyatından nümunələri tərcümə edib kitab halında buraxmaq fikrindədir.

Hər il iyunun 15-i İraq Mətbuat günüdür. Həmin gün ən yaxşı tədqiqat əsəri, reportaj, qəzet və jurnal tərtibatı, ən

yaxşı məqalə və s. müsabiqəsi keçirilir. Bu il müsabiqədə Sinan Səid də tədqiqat əsəri ilə iştirak etmiş və birinci yeri tutmuşdur. Sinan Səid «Ərəb ölkələri haqqında Azərbaycan nəğmələri» kitabında yazdığı müqəddiməni «xeyirxahlıqla, sidq ilə deyilmiş sözə eşq olsun!» – cümləsi ilə bitirmişdir.

Biz dostumuz Sinanın ədəbi-mədəni əlaqələr sahəsində sidq ilə hələ çox xeyirxah işlər görəcəyinə əminik.

İRAQ BİZƏ İRAQ DEYİL *

Deyirlər xatirələr köhnəlir, yaddan çıxır. Bu fikrin nə qədər doğru olduğunu demək çətindir. İraq Respublikasında işlədiyim vaxtdan üç il keçsə də, hələ uşaqlıqdan «Koroğlunun Bağdad səfəri»ndən aşinası olduğum Bağdad şəhərini, Vidadinin həsrət dolu intizarla xəbər tutmaq istədiyi durnaların diyarını, əfsanəvi Dəclə–Fərat çaylarını, qonaqpərvər ərəb xalqını, mərdanə kürd xalqını, şair qəlbli türkmanları – Füzulinin nəvə-nəticələrini həmişə xoş məramla, səmimi duyğularla xatırlayıram. Qənaətim budur ki, ötəri hislər unudulur, əsl dəyərli xatirələr isə yaşayır, büllurlaşır, əbədiləşir. Suriyanı «Şərqin gəlini» adlandırmışlar. Çox qədim tarixi olan İraqın da özünəməxsus gözəllikləri, məziyyətləri vardır. İraq xalqının arzusu birdir: vətəni azad, çiçəklənən görmək. 1958-ci il 14 iyul inqilabı bu arzunun nəticəsi olaraq həyata keçirilmişdir. Əsasən, kənd təsərrüfatı ölkəsi olan İraqın öz milli ağır sənayesi olmamışdır. 1954-cü ildə ölkədə beş yüz nəfərdən min nəfərə qədər fəhləsi olan cəmi səkkiz müəssisə olduğu halda, indi çoxlu fabrik, zavod mövcuddur. Bütün bunlar dost sovet xalqının yardımı və iştirakı ilə yaradılmışdır. İraqda fabrik və zavodların tikin-

* «Ədəbiyyat və incəsənət» qəzeti, 8.04.1978.

tisində Azərbaycan mütəxəssisləri də iştirak edirlər. Bakı əczaçılıq fabrikinin direktoru Həsən Rəhimov İraqın Samara şəhərində antibiotiklər zavodu tikintisinin ilk günündən onun baş mühəndisi olmuş və zavodu istifadəyə verdikdən sonra vətənə qayıtmışdır. İsgəndəriyyə şəhərində nəhəng maşınqayırma zavodunun tikintisinə həmyerlimiz Firudin Quliyev rəhbərlik edirdi.

Sülhsevər sovet xalqının təmənnasız yardımı, texniki əlaqələrlə yanaşı, başqa əlaqələrin də inkişafına təkan vermişdir. Bu baxımdan Sovet–İraq mədəni əlaqələr mərkəzinin işi təqdirəlayiqdir. Bu mərkəz Bağdadın ən gözəl guşələrindən birində, Dəclə çayı boyu uzanan Abu Nəvas küçəsində yerləşir. Yeri gəlmişkən, qeyd edək ki, uzun illər həmin mədəniyyət mərkəzinin direktoru həmyerlimiz Elman Araslı olmuşdur. Mədəniyyət mərkəzində iraqlılar üçün kitabxana, oxu və musiqi salonları vardır. Həftədə üç dəfə sovet filmləri göstərilir. Hər il aprel ayının 28-də Azərbaycan günü qeyd edilir. Mədəniyyət mərkəzində əksər bəstəkarlarımızın əsərlərinə rast gəlirik. Əlaqələrimiz get-gedə genişlənir. Hər il neçə-neçə iraqlı respublikamızda ali məktəbi və ya texnikumları bitirərək vətənə qayıdır, Azərbaycan Dövlət Universitetində təhsil alan azərbaycanlı tələbələr ərəb dilini daha mükəmməl öyrənmək üçün İraqa göndərilir. Neçə-neçə iraqlı dostumuz universitetimizdə, Əzizbəyov adına Neft və Kimya İnstitutunda, Azərbaycan SSR Elmlər Akademiyasında, M.F.Axundov adına Pedaqoji İnstitutda namizədlik dissertasiyası müdafiə etmişlər. Belə mədəni əlaqələrin nəticəsidir ki, azərbaycanlı operatorlar İraqda bu əfsanəvi ölkə haqqında film çəkə bilmiş və bizim təəssüratımızı daha da zənginləşdirmişlər. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmiş Sinan Səid dissertasiya müdafiə etmişdir. On ilə qədər Azərbaycanda işlədikdən sonra vətə-

nə qayıdan dostumuz iki ölkənin mədəni əlaqələrinin genişləndirilməsi yolunda yorulmadan çalışır.

İraq–Azərbaycan mədəni əlaqələrinin inkişafında «Əl-Əxa» («Qardaşlıq») jurnalının və «Yurd» qəzetinin rolunu xüsusi qeyd etmək istərdim. Onların səhifələrində Azərbaycan haqqında, görkəmli alim, şair və yazıçılarımız haqqında yazılar verilir. Onların əsərləri çap olunur.

Musiqi sahəsində də əlaqələrimiz genişlənmişdir. Son vaxtlar müğənnilərimiz, musiqiçilərimiz İraq dinləyiciləri qarşısında tez-tez «imtahan» verməli olurlar. Onlar iraqlıların qəlbinə yol tapa bilmişlər. Təsadüfi deyil ki, İraqda ilk musiqi məktəbini Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının müəllimləri Gövhər və Tohid Quliyevlər yaratmışlar. Bağdadda balet məktəbini də həmyerlimiz, SSRİ xalq artisti Qəmər xanım Almaszadə təşkil etmişdir. SSRİ xalq artisti F.Əmirov və E.Nəzirovanın «Ərəb mövzusunda konsert»i İraqda böyük uğurla keçmişdir. Görkəmli bəstəkarımız F.Əmirovun iraqlı həmkarları ilə dostluq əlaqələri getdikcə möhkəmlənir. İndi o, İraq Mədəniyyət Nazirliyinin xahişi ilə məşhur udçalan Munir Bəşirlə birgə dost ölkə üçün «Tammuzun qayıtması» adlı balet üzərində işləyir. Bu ilk İraq baletini azərbaycanlı baletmeyster Nailə Nəzirova və azərbaycanlı artistlər tamaşaya hazırlayacaqlar.

Mədəni əlaqələrimizin nəticəsidir ki, Bakı və Bəsrə şəhərləri qardaşlaşmışlar. Bakı Soveti İcraiyyə Komitəsinin sədri A.Məmmədovun başçılığı ilə Azərbaycan nümayəndə heyəti bu münasibətlə İraqa gedəndə qəzetlər, radio və televiziya Azərbaycan haqqında, iki ölkə arasında dostluq haqqında gözəl verilişlər təşkil etmişdilər.

Mədəni əlaqələrin inkişafı Bağdad Universitetinin kitabxanasında Azərbaycan şöbəsinin yaranmasına səbəb olmuşdur. Rəflərdə ilk dəfə Azərbaycan kitablarını gördükdə göz-

lərimə inana bilmirdim. Sevincdən ürəyim çırpınırdı. Kitabları bir-bir gözdən keçirməyə başladım: Ə.Haqverdiyev (I–II cildlər), Mehdi Hüseyn, İsa Hüseynov, Əkrəm Əylisli, Mir Cəlal, Süleyman Rüstəm (III cild), Əvəz Sadıq, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Əli Vəliyev, «Müasirləri Sabir haqqında», «Hophopnamə» (I–II cild), M.F.Axundov (III cild), Səməd Vurğun, Nəriman Həsənzadə, «Azərbaycan xalq nağılları», Hüseyn Abbaszadə, «Nəsimi divanının leksikası», Azərbaycan poeziyası (ingiliscə) və başqaları.

Yaxşı yadımdadır, İraqda Azərbaycan mədəniyyəti ongünlüyü də qarşılıqlı əlaqələrimizin təntənəsinə çevrilmişdi. Bu əlaqələrin bəhrəsi və nəticəsi olaraq Bakıda İraq Respublikasının konsulluğu açılmışdır. İndi iraqlı dostlarımız respublikamıza tez-tez qonaq gəlirlər. Xalqlarımızın mədəni əlaqələrinin genişlənməsi və inkişafına daha yaxşı şərait yaranır.

DƏCLƏ–FƏRAT SAHİLLƏRİNDƏ *

Sabah aprelin 9-da SSRİ ilə İraq Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin altıncı ildönümüdür. Bu tarixi gün münasibətilə «Ədəbiyyat və incəsənət» qəzeti oxucularının arzusu və təklifi ilə açdığı «Dünya hadisələri» səhifəsində «Yaxın Şərqdə nələr olur» rubrikası altında Sovet İttifaqı ilə İraq xalqları arasında inkişaf etməkdə olan mədəni, iqtisadi əlaqələrdən danışmaq üçün filologiya elmləri namizədi Qəzənfər Paşayev və tarix elmləri namizədi Tariyel Həsənov yoldaşlara müraciət etmişdir. Onlar bir neçə il İraq Respublikasında olmuş, xalqın həyatını, məişətini, ədəbiyyat və tarixini, iqtisadi əlaqələrimizi öyrənmişlər. İraqda, eləcə də öz ölkəmizə qayıtdıqdan sonra məqalələr və kitablar nəşr etdirmişlər.

* «Ədəbiyyat və incəsənət» qəzeti, 8.04.1978. Məqalə Tariyel Həsənovla müştərək yazılmışdır.

İraqın tarixinə yaxşı bələd olmayan bir şəxs bəşər tarixində mədəniyyətin ilk dəfə Misirlə bərabər, indiki İraq ərazisində yarandığına, ulduzlar aləminin ilk xəritəsinin burada meydana gəldiyinə, müsəlman dünyasında aptek və xəstəxanaların ilk dəfə Bağdadda təşkil edildiyinə təbii olaraq təəccüblənə bilər. Çünki İraq indi inkişaf etməkdə olan ölkələr sırasındadır. Doğrudan da, əsrdən-əsrə, nəsildən-nəslə Mesopotamiya yadelli qəsbkarlar və daxili zülmkarlar tərəfindən talan edilmiş, tarixin enişli-yoxuşlu yollarında büdrəmiş, geriləmişdir. Bu vəziyyət 1968-ci il iyul inqilabına qədər davam etmişdir. İnqilabdan sonra İraq respublika elan edildi və ölkədə böyük dəyişikliklər baş verdi. Sosialist ölkələri, birinci növbədə Sovet İttifaqı ilə münasibətlər köküdən dəyişdi. İnqilabi hökumət Sovet İttifaqından kömək istədi.

Sovet İttifaqı gənc İraq Respublikasına kömək əlini uzatdı. 16 mart 1959-cu ildə İraq Respublikası ilə Sovet İttifaqı arasında texniki və iqtisadi əlaqələrə dair bağlanan müqavilə hər iki tərəf üçün faydalı əməkdaşlığın təməlini qoydu. İraq xalqı bu əlaqələrin daha da genişlənməsinə səy göstərdi. Ümumiyyətlə, əvvəllər kapitalist ölkələrindən iqtisadi yardım almış ölkələr Sovet İttifaqı və başqa sosialist ölkələri ilə iqtisadi əlaqələr yaratdıqdan sonra hər vasitə ilə bu münasibətləri genişləndirməyə çalışırlar. Çünki onlar sovet iqtisadi yardımının bir çox üstünlüklərini əyani şəkildə görürlər.

Sovet yardımının – sovet əməkdaşlığının daha faydalı, daha üstün olduğunu kapitalist ölkələrində belə etiraf edirlər.

Hələ 1959-cu ildə ABŞ-da senator olan Con Kennedi bu münasibətlə yazırdı: «Təəssüf ki, az inkişaf etmiş ölkələrə yardım məsələsində Sovet İttifaqı daha təsirli və yeni yolla gedir».

1972-ci il aprelin 9-da Bağdadda SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıgin və İraqın prezidenti Əhməd Həsən əl-Bəkr tərəfindən dostluq və iqtisadi əlaqələrə dair saziş imzalandıqdan sonra Sovet–İraq iqtisadi əlaqələri daha da genişlənmişdir. Əl-Bəkr müqaviləni imzalamaq mərasimində söylədiyi nitqdə demişdir: «Biz dost Sovet İttifaqının ərəb ölkələrinə, o cümlədən İraqa göstərdiyi mühüm yardımı ehtiram hissi ilə qiymətləndirir və bunu müdafiə qabiliyyətimizin artırılması, ictimai-siyasi tərəqqinin sürətləndirilməsi və təcavüzü dəf etməkdə bizim imkanlarımızın möhkəmləndirilməsi üçün əsas amillərdən hesab edirik».

Doqquz aprel sazişi azad milli İraq sənayesinin yaranmasına gətirib çıxarmışdır ki, burada da əsas yerlərdən birini neft sənayesi tutur. 1969-cu il iyunun 4-də neft sahəsində Sovet İttifaqı ilə İraq arasında müqavilə bağlandıqdan sonra Şimali Rumeylada milli neft mədənləri tikilməyə başlandı və 1972-ci ilin yazında dövlət neft mədənlərinin birinci növbəsi işə salındı.

Ölkənin prezidenti Əhməd Həsən əl-Bəkr neftin milliləşdirilməsinin ikinci ildönümü münasibətilə mərkəzi televiziya və radio ilə çıxışında demişdir: «Biz Sovet İttifaqının köməyinə arxalanmasaydıq, belə bir addım atmazdıq. Çətin günlərdə dost Sovetlər ölkəsi inkişafımız və tərəqqimiz yolunda bizə çox təsirli, misli-bərabəri olmayan kömək etdi».

Neftin milliləşdirilməsinin nə demək olduğu haqqında aydın təsəvvür yaratmaq üçün bir faktı nəzərdən keçirmək kifayətdir. 1978-ci ildə İraqın Dövlət büdcəsi 7,46 milyard dinar təsdiq edilmişdir. Bu, ölkə tarixində görünməmiş bir rəqəmdir. Hazırda neft hasilatının 80–90 faizi dövlətin əlindədir. Neftdən gələn gəlir xalq təsərrüfatının digər sahələrinin inkişaf etdirilməsində, xalqın maddi rifah halının yaxşılaşdırılmasında, iqtisadi müstəqilliyin möhkəmləndirilməsində mühüm rol oynayır.

Şimali Rumeyla neft mədənlərinin tikilməsində və istismarında Azərbaycan neftçiləri də iştirak etmiş, onlar neft sənayesi üçün milli kadrların yetişdirilməsində xidmət göstərmişlər.

Sovet İttifaqı İraqın ağır və yüngül sənaye müəssisələrinin energetika, nəqliyyat, kənd təsərrüfatı obyektlərinin, tədris mərkəzlərinin yaradılması üçün böyük qayğı və diqqət göstərir. Sovet İttifaqının yardımı və yaxından iştirakı ilə tikilən obyektlər dövlət bölməsinin əsasını təşkil etmiş və onun inkişafına təkan vermişdir.

İraq milli sənayesinin əsası olan maşınqayırma və kimya sənayesi sahələrinin yaradılması və tərəqqi etdirilməsi də dost Sovet İttifaqının adı ilə bağlıdır.

Ölkənin iqtisadiyyatında böyük rol oynayan Bağdad – Bəsrə Şueyba-um-Kəsr dəmiryolları çəkilmiş, parovoz və vaqonların təmiri sexi tikilmiş, qəbuledici və keçirici radiostansiyaları istifadəyə verilmişdir. 1969-cu il 17 yanvar müqaviləsinə əsasən balıqçılıq sahəsində böyük işlər görülmüş, neftayırma zavodu, fosforit zavodu, telefon stansiyaları tikilmiş, sovet geoloqlarının köməyi ilə böyük əhəmiyyəti olan faydalı qazıntılar aşkar edilmişdir. Ölkənin şimalında və cənubunda su-elektrik stansiyaları tikilib başa çatdırılmaqdadır.

Su təsərrüfatı sahəsində İraq üçün misilsiz əhəmiyyəti olan obyektlərdən Sovet İttifaqının köməyi ilə tikilmiş Tərtər–Fərat və tikilməkdə olan Tərtər–Dəclə kanallarıdır. Tərtər–Fərat kanalı nəinki Yaxın Şərqdə, hətta dünyanın ən böyük tikintilərindən hesab olunur. Saniyədə min yüz kubmetr su buraxa bilən bu kanalın uzunluğu 44 kilometrdir.

Sovet İttifaqının köməyi ilə uzunluğu 84 kilometr olan Tərtər–Dəclə kanalının tikintisində qazanılan zəngin təcrübədən, texnikadan və ən başlıcası isə ixtisaslı tikinti kadrlarından istifadə edilir. Sabiq Kənd Təsərrüfatı naziri cənab

İzzəd-Douri sovet mütəxəssislərinin başçısı Anatoli Zolotuxin yoldaşa təşəkkürünü bildirib demişdir: «Biz əminik ki, Tərtər–Fərat hidrokompleksi Sovet–İraq iqtisadi əlaqələri tarixinə qızıl hərflərlə yazılacaqdır. Biz ömrümüz boyu xaricilərlə işləmişik. Lakin heç vaxt görməmişik ki, xaricilər milli kadrların yetişdirilməsinə sizin kimi fikir versin. Bu gün gördüklərim mənə nağıl kimi gəlir. Biz Sovet İttifaqının başqa yardım və köməyini nəzərə almasaq, təkcə bizə hazırladığı milli kadrlar ömrümüz boyu sizə minnətdar olmağa imkan verir».

Hər il inkişaf etməkdə olan ölkələr üçün kadr yetişdirmək məqsədilə yaradılmış Lumumba adına Xalqlar Dostluğu Universitetini və ayrı-ayrı institutları qurtaran onlarla iraqlı oğlan və qız vətənə qayıdır, öz xalqının rifahı üçün çalışır.

Sovet İttifaqı inkişaf etməkdə olan ölkələrə əbədi dost köməyi edir. Asiya, Afrika xalqlarının Qahirə həmrəylik konfransında sovet nümayəndəsi öz məruzəsində demişdir: «Biz sizdən nə bloklara qoşulmağı, nə hökumətlərinizi dəyişməyi, nə də daxili və xarici siyasətinizi dəyişməyi tələb edirik. Biz sizə qardaş qardaşa yardım göstərdiyi kimi, qərəzsiz yardım göstərməyə hazırıq, çünki biz özümüzün təcrübəmizdən bilirik ki, ehtiyacdan xilas olmaq nə qədər çətindir. Bizim yeganə şərtimiz heç bir şərt olmamasıdır».

Təmənnasız sovet yardımı onun böyük Lenin beynəlmiləlçiliyi prinsipindən irəli gəlir. Bu yardım inkişaf etməkdə olan ölkələrin xalqlarına xaricdən heç bir təzyiq olmadan həyatlarının başlıca məsələsini – hansı yolla getmək məsələsini müstəqil həll etmək, onları iqtisadi, asılılıqdan xilas etmək, imperializmi zəiflətmək, sülhü qoruyub saxlamaq kimi böyük məsələlərə xidmət edir.

«KƏRKÜK ATALAR SÖZÜ» KİTABINA ÖN SÖZ*

Atalar sözləri onu yaradan xalqın tarixini, inam və etiqadını, arzu və istəyini, dostluq və sədaqətini özünə xas bir şəkildə əks etdirən müstəsna dəyərə malik bir xəzinədir. Bu xəzinədə uzaq keçmişlərlə bağlı hadisələrə, adət və ənənələrə, hətta unudulub getmiş tarixi həqiqətlərin güclə sezilə bilən izlərinə belə təsadüf olunur. Bu baxımdan, İraq Respublikasının şimalında, əsasən, Kərkükdə və onun ətrafında yaşayan və Azərbaycan dilində danışan xalqın atalar sözləri də diqqəti cəlb edir. İraq–Kərkük atalar sözlərində lap ilk baxışda nəzərə çarpan cəhət dərin məna ilə bərabər, axıcılıqdır. Bunların əksəriyyəti sanki gözəl şeir parçasıdır.

Əski pambıq bez olmaz, əski düşmən düz olmaz.

Xarab qardaş, qara daş.

Nənəli (analı) qız bəlli qız, nənəsiz qız dəlli (dəli) qız.

İraq–Kərkük atalar sözlərində özünü göstərən maraqlı cəhətlərdən biri də odur ki, onların bir çoxu iki hissədən ibarət olur və ikinci hissə birinci hissədə verilmiş fikri daha da qüvvətləndirir, tamamlayır. Bizdə rast gəlinən «Utananın oğlu olmaz», «Bu günün işini sabaha qoyma» və s. atalar sözləri onlarda «Utananın oğlu olmaz, olsa da xeyrin görməz», «Bu günün işini yarına (sabaha) qoyma, bəlkə, yarın sənə yar olmadı» kimi işlənir.

Kərkük camaatı şifahi xalq ədəbiyyatının başqa növləri kimi atalar sözlərini də çox sevir və danışıq əsnasında tez-tez istifadə edir. Atalar sözlərinə, hətta bayatılarda belə rast gəlinir:

Əkmə bitmiyən yerə,
Can ver itmiyən yerə;

* *Bax:* İraq–Kərkük atalar sözləri. Bakı, «Azərnəşr», 1978, s. 3–5.

Ayaqlar necə varsın,
Könül getmiyən yerə.

Bu kitabın materialını kərküklü alim Əta Tərzibaşının 1962-ci ildə çap etdirdiyi «Kərkük əskilər sözü», Şakir Sabir Zabitin həmin ildə nəşr olunan «İraq türkmanlarının ağzında atalar sözü» kitablarından, «Qardaşlıq» jurnalı səhifələrindən istifadə ilə, həmçinin bu səhifələrin müəllifi vaxtilə İraqda olarkən ayrı-ayrı şəxslərdən topladığı atalar sözləri əsasında tərtib edilmişdir. Deyiliş şəklini, bədiilik mülahizələrinə görə, mümkün qədər saxlamağa çalışmışıq.

Məlum olduğu kimi, bu atalar sözlərini yaradanlar, yaşadanlar vaxtilə müəyyən tarixi səbəblər üzündən İraqa köçüb orada məskən salmış azərbaycanlılardır, böyük Füzulinin həmvətənləridir. Odur ki, həmin atalar sözlərindən bir çoxunun eynilə, yaxud bəzi dəyişikliklə bizdə də mövcud olması təəccüb doğurmamalıdır. Bu qiymətli söz xəzinəsi həm də Füzuli poeziyasının xalq yaradıcılığı ilə qırılmaz əlaqəsini daha dərindən öyrənmək baxımından əhəmiyyətlidir.

BAĞDAD SƏFƏRİ *

İnsan həyatında baş verən hadisələr saysız-hesabsızdır. Bunların bəzisi yaz yağışı kimi ötəri olur, bəzisi isə xatirələrdə əbədi yaşayır. Mənim həyatımda belə əlamətdar hadisələrdən biri İraq Respublikasına səfərimdir, çünki hələ uşaqlıqdan Koroğlunun «Bağdad səfəri»ndən aşinası olduğum diyarı, Vidadi və Vaqifin vəsf etdiyi durnalar vətənini, əfsanəvi Dəclə–Fərat çaylarını, Füzulini qoynunda uyudan

* «Ədəbiyyat və incəsənət» qəzeti, 10.06.1967. s. 8.

Kərbəla şəhərini görəcəkdim. Ən başlıcası isə Füzulini Azərbaycan dilində yazmağa ruhlandıran, özünü türkman adlandıran, lakin azəri dilində danışan Kərkük xalqını yaxından tanıyacaqdım.

7 milyon yarımdan çox əhalisi olan İraq Respublikası coğrafi cəhətdən mühüm nöqtədə yerləşir. Avropadan Hindistana və Uzaq Şərqə gedən quru və su yolları oradan keçir. İraqda ərəblər, kürdlər, türklər, türkmanlar (azərilər), asurilər… yaşayırlar. Dövlət dili ərəb dilidir.

Bəşər mədəniyyətinin təşəkkül tapmasında və inkişafında mühüm rol oynayan qədim Urartu və Babil dövlətləri İraq ərazisində inkişaf etmiş və sonra isə tənəzzülə uğramışdır. Ur və Babil şəhərlərinin xarabalıqları indi də qalır. Babil xarabalığından gözəl muzey düzəldilmişdir. Buraya dünyanın hər yerindən gündə minlərlə turist gəlir. Burada tuncdan tökülmüş şir heykəli tapılmışdır. Şir pəncələri ilə bir qadını əzir. Bu, kişilərin qadınlar üzərində hökmranlığının rəmzi hesab olunur.

Ölkənin mərkəzi, Abbasilər dövründə – 762-ci ildə xəlifə Mənsur tərəfindən əsası qoyulan Bağdad şəhəridir. Şəhər o vaxt «Mədinət – əs-salam» («Sülh şəhəri») adlanırmış. Əhalisi bir milyondan artıqdır. Bağdad vaxtilə dünyanın ən gözəl və məşhur şəhərlərindən biri olmuşdur.

O, doğrudan da, gözəl şəhərdir. Xüsusən gecələri. Dəclə çayı şəhəri iki yerə bölür. Çayın üzərində salınmış beş nəhəng körpü, hər iki sahildə sıra ilə tikilmiş möhtəşəm binalar, kazinolar, çayxanalar…

Qahirə və Dəməşqdən fərqli olaraq, Bağdadda tramvay yoxdur. Əsas nəqliyyat vasitəsi bir və iki mərtəbəli dövlət avtobusları, xüsusi taksi və avtobuslardır.

İraqlılar çox qonaqpərvərdirlər. Hətta xüsusi mağazalarda, dövlət idarələrində belə səni bir stəkan çaya və bir fincan ərəb qəhvəsinə qonaq etməsələr olmaz.

Ölkədə qiraət salonları, kitabxanalar olduqca azdır. Şagird və tələbələr dərsə açıq havada, ən çox da yollarda gəzinə-gəzinə hazırlaşırlar. Bağdadda həmin məqsədlə xüsusi məhəllələr açılmışdır. Buralar da bir növ çayxanadır. Fərq ordadır ki, başqa yerlərdə çay içə-içə söhbət edir, musiqiyə qulaq asır, domino, nərd və ya şahmat oynayırlar, bu məhəllələrdə isə yalnız dərsə hazırlaşırlar. Orada çay, qəhvə üç qat baha satılır. İstəyib-istəmədiyindən asılı olmayaraq, gərək bir şey sifariş edəsən.

Təhsil işi 1958-ci il inqilabına qədər çox pis vəziyyətdə olmuşdur. Odur ki, əhalinin yalnız 11 faizi oxuyub-yazmağı bacarır. İbtidai təhsilin məcburi olması barədə 1958-ci ildə qanun verilsə də, savadsızlıq bütünlüklə aradan qaldırılmamışdır. Qəsəbə və şəhərlərin mərkəzi küçələrində oturan, adamlara ərizə, məktub və s. yazanları görəndə istər-istəməz Abdulla Şaiqin «Məktub yetişmədi» hekayəsindəki yazıq Qurbanı xatırladım.

Xususi məktəbləri nəzərə almasaq, əksər elm ocaqlarında təhsil pulsuzdur. İbtidai məktəblərdə təhsil müddəti 6 ildir. Bütün ali məktəblər Bağdad Universitetinin nəzdindədir. İndi universitet nəzdində 7 kollec və ölkənin müxtəlif şəhərlərində yerləşən 17 fakültə vardır. Universitetə qəbul müsabiqə yolu ilədir. Təhsil müddəti bütün kollec və fakültələrdə 4 ildir. 1960-cı ildən universitetdə aspirantura açılmışdır. Elmlər Akademiyası isə 1940-cı ildə yaradılmışdır. Dövlət universiteti İraqda ədəbiyyatın inkişafına böyük təkan vermişdir. Təsadüfi deyildir ki, 1920-ci ilə qədər ədiblərin heç biri novella, povest və roman yazmadığı halda, 20–30-cu illərdə bu janrlar İraq ədəbiyyatına yeni istiqamət verdi. Mahmud Əhmədin «Evlənmək xatirinə» və «Gücsüzlərin taleyi» adlı kitabları xalq tərəfindən hərarətlə qarşılandı. Zunun Əyyubun onlarca hekayələr kitabı, «Doktor İbrahim»

və «Məcid Rəhimin işi» romanları, «Əl, torpaq və hava» povesti bu dövrdə meydana çıxdı.

1958-ci il 14 iyun inqilabından sonra İraqda Yazıçılar İttifaqı yaradılmışdır. İttifaqın sədri İraqın məşhur şairi Məhəmməd Mehdi, müavini isə Zunun Əyyubdur. 1960-cı ildə bəəsçilər hakimiyyət başına gəldikdən sonra Yazıçılar İttifaqını dağıtdılar.

Kitabxanalar, mətbəələr xüsusi adamların əlindədir. Yazıçılar və tədqiqatçı alimlər kitablarını öz hesablarına çap etdirirlər. Ölkədə səhiyyə işləri 1958-ci ilə qədər çox pis vəziyyətdə olmuşdur. İndi vəziyyət bir az yaxşıdır.

İraqda kişilər qadınlardan çoxdur. Afrika ölkələrində olduğu kimi, burada da əhalinin sayı sürətlə artır. Əlbəttə, bu artıma səbəb olan amillərdən biri də iqlim şəraitidir. Maydan sentyabra qədər havanın orta hərarəti 35 dərəcədən aşağı olmur. Yayda istilik 55–57 dərəcəyə çatır. Günəş kölgələnməmiş hər şeyi məhv edir. Odur ki, bağları yalnız xurma ağaclarının yanında salırlar.

İraqda 33 milyondan çox xurma ağacı var ki, onların da hər biri ildə 250 kiloqrama yaxın məhsul verir.

Kölgədə 50, günün altında isə 70–80 dərəcəyə çatan istiliyə necə dözürlər? Bundan ötrü otağın havasını eyni qaydada saxlayan elektrik sərinkeşlərindən istifadə edilir. Evlər yaya uyğun düzəldilir. Hər yandan hava keçmək üçün yer qoyulur. Divarları, döşəmələri sementlə suvayırlar. Təbiət özü də insanların köməyinə gəlir. Gecələr havanın hərarəti 15–20 dərəcəyə enir.

İraqda gözəl bir adət var. Ölkədə yaradılan və ya xaricdən gətirilən hər şeyin birincisi tarixi abidə kimi saxlanılır.

Bütün şəhərlərdə nadilər (klublar) var. Müəllimlər, neftçilər, inşaatçılar və s. nadiləri… Bunlar bizim mədəniyyət evlərini xatırladır. Nadilərdə kitabxana, oxu salonu, televi-

ziya və radio otaqları, şahmat, domino, nərd, stolüstü tennis oynamaq üçün salon və restoran vardır. Restoranlarda, barlarda, kazinolarda yalnız kişilər işləyirlər. Qadınlar ictimai yerlərdə az görünürlər. Qadın və qızların əksəriyyəti başlarına çadra örtürlər. Kərbəla və Nəcəf şəhərlərində isə qadın çadrasız küçəyə çıxa bilməz. Bu şəhərlərə müsəlman olmayan xariciləri qoymurlar.

Səhər tezdən Bağdadın cənub istiqamətinə gedəndə, günəş sol tərəfdə qalır. Mahmudiyyə şəhərinə çatdıqda isə, günəşin sağdan doğduğunu güman edirsən. Birinci dəfə buna təəccübləndim. Bizi aparan gənc sürücü izahat verməli oldu. Öyrəndim ki, qoşa günəş hələ 50 kilometrlikdən adamın gözünü qamaşdıran İmam Hüseynlə Həzrət Abbas məscidlərinin gümbəzləri imiş. Parıltını yaradan gümbəzlərin üzərinə çəkilmiş 4–5 millimetr qalınlığında qızıldır.

Dərdi və sənəti kimi böyük olan Füzuli sanki qəbirdən qalxıb hər gün məscidi ziyarətə gələnlərə tamaşa edir, yenə də onlara acıyır. Şairin türbəsi yerləşən kiçik daxmanın açarı Kərbəla vilayətinin valisindədir.

İraq, əsasən, kənd təsərrüfatı ölkəsidir. Düzdür, ölkə daş kömür, mərmər, dəmir filizi, mis, kükürd, təbii qaz yataqları ilə də zəngindir; amma bunlardan hələ səmərəli istifadə olunmur. Hesablamalara görə neft ehtiyatı 3,5 milyard tona bərabərdir. Neft, əsasən, azərilər yaşayan Kərkükdə və Xanaqində çıxarılır.

İraq Respublikasında sənaye hələ o qədər də inkişaf etməmişdir. Əhalinin yalnız 7 faizi sənayedə işləyir. Bu rəqəm bir-iki ilə sürətlə artacaq. Çünki indi ölkədə Sovet İttifaqının köməyi ilə 46 sənaye obyekti tikilir. Obyektlər üçün material Sovet İttifaqından göndərilir. Bu işdə Azərbaycan mütəxəssislərinin köməyi az olmamışdır. Antibiotiklər zavodunun baş mühəndisi H.Rəhimov, kənd təsərrüfatı maşınları zavo-

dunun rəhbəri F.Quliyev, ticarətdə müəyyən şöbələrə rəhbərlik edən T.Rüstəmov, T.Mirzəzadə, Mirzə Fətəli Axundov adına Dillər İnstitutunun müəllimləri H.Nağıyeva, Ç.Dadaşov, F.Mürsəlov və Politexnik İnstitutunun müəllimi İ.Kərimovun orada xüsusi hörməti var.

Obyektlərin bəzisi istifadəyə verilmişdir. Bağdad–Bəsrə dəmiryolu xətti qurtarmaq üzrədir. İraq Respublikasının Sovet İttifaqı ilə ticarət və mədəni əlaqələri də genişlənir. Hər il Bağdaddakı «Ən-Nasr» kinoteatrında (iki min tamaşaçı tutur) sovet filmləri festivalı keçirilir. Ucqar yerlərdə, əsasən, Misir filmləri, böyük şəhərlərdə isə Amerika, ingilis və İtaliya filmləri nümayiş etdirilir. Milli kinematoqrafiya yaranmaqdadır. 1960-cı illərdə «Yusif Əfəndi», «Kimdir müqəssir», «Evlənmə planı», «Əbuxeyla» filmləri çəkilmişdir. 1964-cü ildə ölkədə birinci dəfə rəngli film istehsal edilmişdir.

Bağdadda SSRİ-nin mədəniyyət mərkəzi vardır. Özü də ən gözəl küçədə – Dəclə çayı boyunca uzanan Əbu Nəvas küçəsində yerləşir. Burada iraqlılar üçün kitabxana, oxu və musiqi salonları vardır. Həftədə üç dəfə sovet filmləri göstərilir. Hər il aprelin 28-də Azərbaycan günü bayram edilir.

Mədəniyyət mərkəzində Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Fikrət Əmirovun, Cahangir Cahangirovun əsərlərinə rast gəlirik.

İraqda Üzeyir Hacıbəyovu xüsusilə yaxşı tanıyırlar. Onun «O olmasın, bu olsun» musiqili komediyası bir aydan çox kinoteatrların ekranlarından düşmədi. Sonra da tamaşaçıların xahişi ilə beş dəfə televiziyada göstərildi. Maraqlıdır ki, film azəri dilində nümayiş etdirilirdi. Hər yanda Məşədi İbaddan, Gülnazdan, Sərvərdən danışır, Üzeyir Hacıbəyovun musiqisinə heyran olduqlarını gizlətmirdilər. Bilsəniz biz necə sevinirdik! Ürəyimiz dağa dönürdü!

İRAN KÖRFƏZİ MƏSƏLƏSİNİN KÖKÜ VƏ MƏĞZİ *

Həyat qəribədir. Heç ağlıma gəlməzdi ki, altı il qarış-qarış gəzdiyim, vaxtilə aləmə mədəniyyət yayan, dünyanın yeddi möcüzəsindən birini qoynunda saxlayan mədəniyyət diyarı İraq vəhşicəsinə bombardman olunacaq, hərbi obyektlərlə bərabər, elektrik və su stansiyaları, su anbarları, zavodlar, aerodromlar, körpülər, ictimai və mülki binalar darmadağın ediləcək, dinc əhali arasında böyük tələfat olacaqdır. Bununla bərabər, dünya ictimaiyyətini aldadacaqlar ki, deməzsənmi, Səddam Hüseyn bizi aldadıb. Bombaladığımız maket təyyarə və tanklar imiş. Deməli, hələ İraqı çox bombardman etməli olacağıq. Təəccüblüdür ki, bu hiyləyə inananlar arasında mən ziyalılara da rast gəlmişəm. Halbuki kosmik peyklər yerdə hərəkət edən maşının nömrəsinə qədər hər şeyi dəqiq müəyyənləşdirir. Mən hələ 1988-ci ildən İraqın səmalarında uçan və verdiyi məlumatı çox ciddi sirr kimi saxlanılan Amerikanın «Lakross» peykini demirəm. Bu peyk İraqın hərbi gücü, silahı və xırda yerdəyişmələrinə qədər xəbər verir və əsl təyyarə və tankı maketdən ayırmağı da çox gözəl bacarır.

İndi hamıya məlumdur ki, İraqın başının üstünü qara buludlar bürümüşdür. Lakin bu buludların İraqın başı üstünə 1973-cü ildə İraq Respublikası İngiltərəyə məxsus olan «İraq Petrolium Kompani» şirkətini milliləşdirdiyi andan toplanmağa başlandığını az adam bilir. Yaxşı yadımdadır, elə bil dünya neft aləmində güclü bir zəlzələ baş vermişdi, təbii ki, «zəlzələnin» mərkəzi İraq idi. Odur ki, kapitalist ölkələri İraqı cəzalandırmaq və başqalarına görk olmaq üçün hər vasitəyə əl atdılar. Lakin «qara qızıl»la zəngin olan İraqa nə

* «Ədəbiyyat qəzeti» 1.03.1991.

iqtisadi, nə də siyasi cəhətdən gücləri çatmayacağını əvvəlcədən bildiklərindən başqa vasitəyə əl atdılar.

Məlumdur ki, bir çox ölkələrdə başqa xalqların adət-ənənəsini, dünyabaxışını, gücünü, o cümlədən də dövlət başçılarının güclü və zəif cəhətlərini, zövqünü, maraq dairəsini, xasiyyətini hərtərəfli öyrənən mərkəz və inistitutlar vardır. Ayrı-ayrı dövlət başçılarına münasibətdə onların rəyi nəzərə alınır. Hadisələr göstərir ki, onlar Səddam Hüseyndə şöhrətpərəstlik, qorxmazlıq, dönməzlik və s. hislərin güclü olduğunu aşkar etmişlər. Odur ki, hərbi sahədə İraqı dirçəltmək məqsədini ön plana çəkmişlər ki, öz gücünə inam yarandan sonra onu məhvərindən çıxara bilsinlər. Sovet və xarici mətbuatdan göründüyü kimi, iraqlı hərbçilər dönə-dönə NATO-nun hərbi bazalarında olmuş, külli miqdarda hərbi sursat və strateji silah almışlar. Almaniya, Fransa, Belçika, İngiltərə, İtaliya və s. İraqa hücum silahı satmaqla bərabər, onun, guya, müdafiəsi qayğısına qalaraq İraqda 300-dən artıq bomba dağıtmayan istehkamlar və eləcə də nüvə və kimyəvi mərkəzlər tikmişlər. İraqı beş yüzdən çox qırıcı təyyarə, beş min beş yüz tank, altmışdan artıq raket daşıyan hərbi gəmi və s. ilə təmin etmişlər. Demək lazımdır ki, burada Sovet İttifaqının da «payı» çoxdur. Səkkiz illik İraq–İran müharibəsinin təşkilatçıları və ruhlandırıcıları da onlar idi. Çünki son vaxtlar «ipə-sapa» yatmayan İrana qulaqburması vermək vaxtı çatdığı qərarına gəlmişdilər. Bu müharibədə fikirləri bir tərəfdən hər iki ölkəni zəif salmaq, digər tərəfdən də silahlarını satmaq və sınaqdan keçirmək idi. Eyni zamanda A.Bovinin «İzvestiya» qəzetində yazdığı kimi müharibədə əli və marağı olan ölkələr nə İraqın, nə də İranın qalib gəlməsini istəyirdi. Odur ki, hər iki ölkəyə böyük dağıntılar, fəlakətlər, tələfatlar gətirən İraq–İran müharibəsi heç olmamış kimi sona çatdı.

Bəs İraq–İran müharibəsindən sonra İraqın təpədən-dırnağa silahlandırılmasına, təkcə 1990-cı ildə İraqın 25 milyard dollarlıq silah almasına, Sovet və Çindən sonra sayına görə dünyada üçüncü yeri tutan ordusunun yaranmasına şərait yaradanların planları nə idi?

Hərtərəfli düşünülmüş, yaxşıca ölçülüb-biçilmiş bu məsələnin məğzi o idi ki, Səddam Hüseyn hardasa sayıqlığını itirsin, müəyyən addımlar atsın. Belə də oldu. İraq–Küveyt münaqişəsi başlandı.

Maraqlıdır ki, Amerikanın Bağdaddakı səfiri Eypril Qlaspi İraq–Küveyt münaqişəsindən xeyli əvvəl İraq rəhbərliyinə demişdi ki, ABŞ İraq–Küveyt münaqişəsinə qarışmayacaq. O da diqqəti cəlb edir ki, İraqın Küveyti tutmasından düz bir həftə əvvəl Dövlət Departamentinin nümayəndəsi Marqarit Tatuayler mətbuat konfransında demişdi: «Bizim Küveytlə hərbi sazişimiz yoxdur. Biz Küveytin təhlükəsizliyini təmin etmək üçün öz üzərimizə heç bir təhəddüd götürməmişik».

Sonrakı hadisələr göstərdi ki, bu İraqın saqqızını oğurlamaq və xalqı ağır bəlaya düçar etmək üçün əl atılan hiylədən başqa bir şey deyilmiş.

Bəs İraqın liderini belə bir addım atmağa, Küveyti tutmağa sövq edən, şirnikləndirən nə idi?

Məlumdur ki, İraqın neft kəmərləri Türkiyə, İordaniya və Suriyadan keçir.

Küveyti tutduqdan sonra İraqın birbaşa dənizə çıxmaq və asılılığa son qoymaq imkanı yaranırdı. Əslində, İranla müharibə də buna görə idi.

Bundan əlavə, İraq Küveytin xarici banklarda yerləşən kapitalını ələ keçirən kimi səkkiz illik İraq–İran müharibəsində düşdüyü böyük borcu bir anda ödəyəcəkdi.

Eyni zamanda İraqın neft hasilatı görülməmiş dərəcədə artacaq, İraq Yaxın Şərqdə hər cəhətdən tayı-bərabəri olmayan, çox güclü bir dövlətə çevriləcəkdi; Səudiyyə Ərəbistanı və başqa ərəb ölkələri onunla hesablaşacaqdı. Təkcə onu demək kifayətdir ki, İraq–Küveyt münaqişəsinə qədər, Amerika, Avropa dövlətləri və Yaponiyanın İran körfəzindən gündəlik aldığı 670 min ton neftin 560 min tonu İraq və Küveytin payına düşürdü.

Lakin İraqda yaşayan azərbaycanlıların atalar sözündə deyildiyi kimi, «evdəki hesab bazarda düz çıxmaz». İraqın və Küveytin neft kəmərləri bağlandı. İraq hər il neft ixracından əldə etdiyi 12 milyard dollardan da məhrum oldu. İqtisadi, siyasi, hərbi, texniki cəhətdən blokadaya alınan İraq Küveytdən çıxmaq barədə bəyanat verdi. Lakin məkr və hiylə ilə Səddam Hüseyni elə tələyə salmışdılar ki, oradan çıxmaq böyük mətanət, dəyanət, sarsıntı, mənliyinin tapdalanması və s. tələb edirdi.

Bu baxımdan ərəb cəmiyyəti ölkələrinin Parisdəki nümayəndəsi Tam Hamadi Essidin fikri maraq doğurur. Tam Hamadi göstərirdi ki, Amerika, İsrail və bəzi ərəb ölkələri İraqın Küveyti tutmağa hazırlaşdığını bir neçə ay əvvəl bilirdilər. Lakin bunu gizləyirdilər. «Ona görə ki, Amerika kəşfiyyatının bu işdə böyük marağı vardı. Ərəblərin birliyinə pəl vurmaq, onlara qulaqburması vermək, gözlərini qorxutmaq üçün bundan münasib fürsət ələ düşə bilməzdi. Bu kimə lazım idi? Şübhəsiz ki, bəhanə ilə ordusunu bu rayona doldurmağa can atanlara. Hələlik isə yanvarın 15-nə qədər Amerika sözbazlıqla məşğul olur. Mən hələ Buşun Səddam Hüseynin ünvanına yağdırdığı kinayəli, təhqiredici sözləri demirəm. Bu nə deməkdir? Ərəb aləminin psixologiyasını bilməmək, yoxsa çox incəliklərinə qədər bilib, bilərəkdən belə sözləri deməyi özünə rəva görmək? Hansı ərəb hakimi

ünvanına belə sözlər deyilməsinə razı olar? Belə amiranə tərzdə, tikanlı, təhqiramiz sözlər ona görə işlədilirdi ki, Səddam Hüseynin heysiyyətinə, mənliyinə toxunaraq İraq ordusunu Küveytdən çıxarmağa hər cür mane olsunlar».

Tam Hamadinin sözlərində böyük bir həqiqət vardır. Əgər belə olmasa idi, hələ keçən il dekabrın əvvəllərində Amerika Səudiyyə Ərəbistanına 55 min tabutu nə üçün gətirirdi? Deməli, Amerika hər vəchlə silah işlətmək fikrində idi. Maraqlıdır ki, İsrail jurnalisti Robert David də məsələyə eyni nöqteyi-nəzərdən yanaşır. Jurnalist göstərir ki, ABŞ Dövlət katibi və nazirliyin mötəbər işçiləri dəfələrlə bəyanat vermişdilər ki, Küveyt məsələsinə qarışmayacaqlar. Bununla belə, bir çox hallarda olduğu kimi, sözlə işləri uyğun gəlmədi. Çünki Amerikaya bəhanə lazım idi ki, ordunu yerləşdirmək, hərbi şirkətlərin tamahını daha da artırmaq üçün «qaynar nöqtə» tapsın. Sovetlərlə «soyuq müharibə»yə son qoyulan kimi senat hərbi xərcləri azaltmaq, o cümlədən «Stelz» adlı gözə görünməyən təyyarələrin yaradılmasını dayandırmaq barədə qərar çıxartmışdı. Lakin indi hərbi şirkətlərin aşığı yenidən oynamağa başladı. «Stelz» təyyarəsi də, başqa hərbi əhəmiyyətli çox baha başa gələn silahlar da yaradılmaqda davam edir.

Bəs İraq–Küveyt münaqişəsinin ilhamçıları və səbəbkarları daha nə qazanmış və nə qazanmaq fikrindədirlər? Hər şeydən əvvəl, Almaniyadan çıxarılan Amerika, İngiltərə və Fransanın çox böyük saylı ordularını və hərbi texnikasını ərəblərin hesabına Almaniyadan gətirərək (sazişə görə onlar Sovet orduları kimi Almaniyadan çıxarılmalı idilər. Belə çıxır ki, onların yerləşdirilməsi məsələsi də əvvəlcədən düşünülübmüş) heç bir problemsiz İran körfəzi rayonunda yerləşdirdilər. Hər birinin aylıq maaşı çox yüksək olan bu muzdlu əsgərlərin yemək, içmək, təlim və məvacibinin ərəblərin he-

sabına olacağı şübhə doğurmur, beləliklə, əgər nəzərə alsaq ki, almanların yaxından köməyi ilə Sovet əsgərləri Almaniyadan yalnız 1994-cü ildə çıxarıla biləcək, çox da böyük olmayan Sovet hərbi hissələrini Çexoslovakiyadan çıxarmaq üçün hər birinə 16 min dollar ödəməklə on bir min qatar lazım olacaq. Onda müttəfiqlərin öz ordularını başqalarının hesabına körfəz rayonuna gətirmələrinin nə demək olduğu aydın olur. Məhz buna görə də Almaniya bu münaqişə ilə bağlı çoxlu pul xərcləyir. Çünki kapitalist ölkələrinin planlaşdırdığı bu münaqişə baş tutmasa idi, Almaniya müttəfiqlərin ordularının çıxarılması, texnikanın daşınması və s. üçün dünya xərc çəkməli olacaqdı. Sovet İttifaqı ilə raketlərin məhvi barədə saziş bağlandıqdan sonra Almaniya ərazisində yerləşdirilmiş raketlərin məhv edildiyinə inananlar da vardır. Əslində, həmin raketlər İran körfəzinə aparılmışdır. İndi ərəb ölkələrinin hesabına hər gün iraqlıların başına yağdırılır. İraq–Küveyt münaqişəsinə can atan ölkələr üçün yeni silah növlərini sınaqdan keçirmək üçün də böyük imkanlar yaranmışdır. Elə bir imkan ki, ciddi hərbi sirr kimi saxlayıb, sınağını başqalarına etibar etmədikləri ən yeni qırğın silahlarını ilk dəfə olaraq şəxsən özləri öz əlləri ilə yoxlaya bilsinlər. Məhz buna görədir ki, indi İraq və Küveyt ən müasir silah növlərinin əsl sınaq meydanına çevrilmişdir. Burada yeni şəraitlə əlaqədar müharibə aparmağın taktikası dərindən öyrənilir. Odur ki, onlar «Əzraillə çilingağac oynamağa» cürət edən, bu imkanları onlara bəxş edən Səddam Hüseynə minnətdar olmalıdırlar.

İndi İraqın tərksilah olunması, bölünməsi, gələcəyi barədə danışıqlar gedir. Hətta ingilislər tez-tələsik Londonda «İraq hökuməti» də düzəldiblər.

Yəqin «İraq Petrolium Kompani» şirkətini bərpa etmək arzusundadırlar. Beynəlxalq aləmdə də böyük bir canlanma vardır.

Əgər İraq bu müharibədə məğlub olsa, bu təkcə İraqın məğlubiyyəti deyil, bu gələcəkdə ərəb birliyinə və Fələstin dövlətinin yaranmasına böyük zərbə olacaqdır. Eyni zamanda bir çox inkişaf etmiş ölkələrdə məskən salan ərəbləri ölkədən çıxarmaq üçün şərait yaranacaq və nəhayət, Şərq aləmində hamı bilir ki, müharibə təkcə İraqa qarşı çevrilməyib. Bu müharibə bütün müsəlman aləminə qarşı aparılan ümumi xəttin tərkib hissəsi kimi diqqəti cəlb edir. Deməli, çox hiyləgər və güclü olan «dosta» qarşı münasibətdə müdrik şərq sayıqlığını bir an belə itirməməlidir. O «dost» ki, bir azdan sonra İraqda dağıtdığı hərbi və mülki obyektləri, fabrikləri, zavodları, körpüləri tikmək üçün «kömək əli» uzadacaq, böyük tələblərlə ölkənin dirçəlişində iştirak edəcək, elə həmin andan «tor qurmağa» başlayacaq, İraqa silah satmaq, onu tələyə salmaq üçün yeni yollar axtaracaqdır.

Və bir də deyirəm, ilahi, görəsən, İraq, İran, Küveyt və Əfqanıstandan sonra növbə hansı başıbəlalı Şərq ölkəsinin olacaq?! Qara buludlar Pakistan və Hindistan üzərində çox hərlənir. Kaş ki, fikrimdə yanılaydım!..

FÜZULİNİN MƏZARI HAQQINDA ŞAYİƏ VƏ HƏQİQƏT *

Milli Türkman Partiyasının üzvü, İraqın hüdudlarından kənarda yaşayan Yunis Siddıq bəy 24 iyul 1992-ci il tarixdə Azərbaycan televiziyası ilə mübahisə doğuran çıxışında 80-ci illərdə xeyli söz-söhbətə səbəb olan bir məsələyə – Füzulinin məzarı məsələsinə toxundu. Natiq hələ 1985-ci il de-

* «Mədəniyyət» qəzeti, 6.08.1992. Şair-alim Qasım Qasımzadə ilə şərikli.

kabrın 19-da Türkiyənin Bağdaddakı müxbiri Murat Bardaqçının «Milliyyət» qəzetində çap etdirdiyi «Füzulinin məzarı yol oldu» məqaləsini eynilə təkrar etsə də, məqalədə göstərilən əsas faktların üstündən sükutla keçmişdir. Doğrudur, məqalədə deyildiyi kimi İmam Hüseyn məscidinin «Qiblə qapısı»nda ziyarətgaha çevrilmiş «türbənin yerində şimdi bir caddə (küçə) var».

Fazil bəy nədənsə «Ancaq kəmiklər (sümüklər) yeni məzar üçün mühafizə edilyor» və hətta Kərbəlada Füzulinin nəşinin İmam Hüseyn məscidinə köçürülməsi münasibətilə qəzet müxbirlərinə verilən mətbuat konfransında rəsmi şəkildə deyilən və Murat Bardakçının yazdığı «Yaxın bir gələcəkdə Füzuli üçün yepyeni bir məzar yapacağız, kəmikləri mühafizə edilyor» faktını dilə gətirmədən Füzulinin qəbrinin əvvəlki yerdə torpağın altında qalması və üstündən maşınlar keçməsi barədə yanlış məlumat vermişdir.

Əvvəla, onu deyək ki, «Ədəbiyyat qəzeti» bu günlərdə (10 iyul) «Şairin yeni məzarı» adlı məqalədə böyük Füzulinin məqbərəsi ilə bağlı Bağdadda çıxan «Yurd» qəzetinin 4 iyun tarixli nömrəsində şairin yeni qəbrinin düzəldilməsi ilə əlaqədar xəbəri həmvətənlərimizə yetirmişdir.

Bütün bunlara baxmayaraq, televiziyadakı yanlış çıxışa münasibətimizi bildirməyə bir ehtiyac duyuruq.

Məqbərənin götürülməsindən danışarkən öncə onu qeyd edək ki, elə izdihamlı müqəddəs yerlərdə maşınların hərəkətinə yol verilmir. Azərbaycan oxucuları yaxşı bilirlər ki, Kərbəlanın abadlaşdırılması ilə əlaqədar məqbərə sökülərkən şairin nəşi İmam Hüseyn məscidinə köçürülmüş, onun saxlandığı guşəyə lövhə vurulmuşdu.

Müqəddəs yerlərin müqəddəs də qanunları olur. Əgər şairin nəşi möhtəşəm İmam Hüseyn məscidində saxlanmasaydı, heç kim ağır günahı boynuna götürüb şairin nəşinin

orada hifz edildiyini dilinə gətirməzdi. Onu da deyək ki, həmin guşəni 1989-cu ildə ilk dəfə xalq şairi Nəbi Xəzri və İraq Elmlər Akademiyasının fəxri akademiki, professor Vasim Məmmədəliyev ziyarət etmişlər və orada şəkil də çəkdirmişlər. Sonralar indiki Baş nazir Rəhim Hüseynovun rəhbərlik etdiyi, Şeyxülislam Hacı Allahşükür Paşazadə və eləcə də ədəbiyyat və incəsənət xadimlərinin böyük bir qrupu dahi şairin uyuduğu müqəddəs yeri ziyarət etmişlər.

Yaxınlarda Bağdaddan xalqımızın sevincinə səbəb olan xəbər almışıq. İraq Respublikasının prezidenti Səddam Hüseynin rəyi ilə Füzulinin yeni məqbərəsi üzrə Bağdadda komissiya yaradılmışdır. Komissiyaya İraq Arxeoloji Qazıntılar Komitəsinin sədri cənab Həmid Məhəmmədhəsən, ədəbiyyatımızın İraqda layiqli təmsilçisi, Bakı Dövlət Universitetinin fəxri doktoru, Türkman mədəniyyət müdiri cənab Əbdüllətif Bəndəroğlu, Vəqflər və Dəyanət Nazirliyinin Texnika və Planlaşdırma İdarəsinin baş mühəndisi cənab Tariq Əbdülhəlim əl-Səmrayi daxildirlər. Komissiya üzvləri Füzulinin yeni məqbərəsi ilə bağlı işlərə başlamışlar.

Bu günlərdə fəxri doktorluq diplomunu almaq üçün ölkəmizə gələn Ə.Bəndəroğlu milli televiziyamızla çıxışında komissiyanın işi barədə ətraflı danışdı.

Belə nəcib təşəbbüsə görə Füzuli poeziyasının pərəstişkarları adından minnətdarlığımızı İraq Respublikasının rəhbərliyinə çatdırmaqla arzu edərdik ki, şairin anadan olmasının 500 illik yubileyini qeyd edəcəyimiz 1994-cü ilə qədər İraqa əmin-amanlıq gəlsin, şairin yeni məqbərəsi qədim mədəniyyət mərkəzi İraqın müqəddəs Kərbəla torpağında düzəldilib başa çatdırılsın.

Bu, «Ey Füzuli, məskənim çün… Kərbəla torpağıdır», – deyən dahi şairin ruhuna böyük ehtiram olardı.

NİSGİLİMİZ, NİGARANÇILIĞIMIZ

Mən Nəriman Həsənzadə poeziyasının istisinə isinənlərdənəm.

Onun yaradıcılığını izlədikcə qəti qənaətə gəlirəm ki, əsl şair xalqın görən gözü, döyünən ürəyi, vuran nəbzidir. Bunu bahar bayramından üçcə gün sonra şairin poeziya işığına toplaşan yaradıcı ziyalılarımızın incəsənət nümayəndələrinin üz-gözündən, sevinc və fərəhindən də hiss etmək olurdu. Şair Zəlimxan Yaqubun ilahi vergi və ilahi yaddaşı hesabına bu poeziya axşamı, ümumiyyətlə, Azərbaycan poeziyasının, Azərbaycan mədəniyyətinin təntənəsinə çevrildi. Altı saata qədər davam edən məclis bir an kimi keçdi. Nədənsə yadıma 1994-cü ilin sentyabrında İraqda Füzulinin 500 illik yubileyində 128 nəfər Azərbaycan nümayəndə heyətinin Kərkükdə bir an kimi keçən görüşləri və Əbdül Vahid Kuzəçi oğlunun oxuduğu:

Min aya dəyər;
Zülfün minaya dəyər.
İl var bir günə dəyməz.
Gün var min aya dəyər.

xoyratını oxuması və son sətri «Bu axşam min aya dəyər» – kimi oxuması gəldi.

Yeri gəlmişkən, onu da deyim ki, İraqda Nəriman Həsənzadənin poeziyasını sevirlər. Hələ 1985-ci ildə çıxmış «Altı il Dəclə–Fərat sahillərində kitabının «Füzulinin nəvə-nəticələri arasında» (s. 55–103) fəslində bu barədə danışmışam.

Şairin:

Məhəbbət nə deyim o ülvi ada,
Hamıya bir gözlə baxmayır o da.

Birinə ömür-gün yoldaşı verir
Başqa birisinə göz yaşı verir.

şeirini orada çoxlarının əzbər bildiyini yazmışdım. İndi keçmişə nəzər salanda özüm üçün bir həqiqət «kəşf» etdim. Deyirlər Yer üzündə Yaradanın nümayəndəsi peyğəmbər, peyğəmbərin nümayəndəsi isə şairlərdir. Belə çıxır ki, əsl şairlər gələcəyi görürlər. Onların ürəyinə gələcəkdə baş verəcəklər damır. Şəxsi həyatı və poeziyası ilə nümunə ola biləcək şair yuxarıdakı sətirlərdə sanki gələcək həyatını qələmə alıbmış.

Nəriman Həsənzadə acılı-şirinli şair ömrü yaşamış taleli şairlərimizdəndir. Mən bir an da tərəddüd etmədən Şeyxülislam Allahşükür Paşazadədən eşitdiyim «İnsanın adını valideynləri, yaşını və qismətini Yaradan, qiymətini xalq verir» müdrik kəlamını lirik şairimiz Nəriman Həsənzadəyə aid edirəm.

Bütün bunları sadalamağa, bəlkə də, elə bir ehtiyac yox idi.

Lakin məni bu sətirləri yazmağa vadar edən Nəriman müəllimin poeziya axşamında çox gənc, çox da müdrik olan professor Nizami Cəfərovun çıxışı oldu. Bir yandan sevindim, qürur hissi keçirdim. Başqa bir tərəfdən də qəlbimə nisgil hakim kəsildi. Ona görə sevindim ki, qədirbilən gənclərimiz öz müəllimlərinin, yol göstərənlərinin zəhmətini unutmurlar, qiymətləndirirdilər. Professor Nizami Cəfərov BDU-nun filologiya fakültəsinin dekanı kimi ədəbiyyatımızın taleyi ilə sıx surətdə bağlı olan şəxsdir. Təsadüfi deyil ki, yazıçıların son – X qurultayında poeziyamız barədə məruzə ona həvalə olunmuşdu. Odur ki, bir millət vəkili kimi də yaradıcı adamlarımızın taleyi onu narahat

edirsə, qəlbi xeyirxahlıq hissi ilə döyünürsə, bu, bir ziyalı kimi məni sevindirməyə bilməz. Yaxşı bilirəm ki, gözəl şairimiz Bəxtiyar Vahabzadə də, Zəlimxan Yaqub da millət vəkili kimi bu hislərlə yaşayırlar. Hamı şair Nəriman Həsənzadənin «Xalq şairi» adına layiq olduğunu qeyd edir.

Gün kimi aydın həqiqətdir ki, hörmətli prezidentimiz əsl sənət adamlarına, yaradıcı ziyalılara necə həssaslıqla, qayğı və ehtiramla yanaşır. Bu, onun uzaqgörənliyindən və müdrikliyindən irəli gələn məsələdir. Bu gün istehsal, hasilat və s. çox da ola bilər, az da ola bilər. Bu gün xalq nisbətən yaxşı da yaşaya bilər, müvəqqəti çətinliklər də ola bilər. Lakin bunlar keçəridir. Qalan siyasət adamlarının çox uzaqgörənliklə gördüyü işlər, alimlərin, yaradıcı adamların gələcək nəsillərə qoyub getdikləri, xalqı xalq kimi gələcəkdə də yaşadacaq əsərlər, abidələr və s. olacaqdır.

O da hamıya məlumdur ki, prezidentimiz «Ədəbiyyat» qəzetini daim oxuyur. Yaradandan təmənnam budur ki, bu sətirlər möhtərəm prezidentimizin diqqətini cəlb edə, ziyalılarımızın, yaradıcı adamlarımızın bu nisgilinə, nigarançılığına son qoyula.

Yetmiş yaşlı təmənnasız şairimizin ömrünə ömür calana.

P.S. Sonralar nigarançılığımıza son qoyuldu. Nəriman Həsənzadəyə layiq olduğu Xalq şairi adı verildi.

ŞAİRİN MƏZARI İLƏ BAĞLI HƏQİQƏTLƏR VƏ ŞAYİƏLƏR *

Dahi Füzulinin 500 illik yubileyi günlərində onun böyük poeziyasına marağın daha da artması, mətbuatda şairin həyat və yaradıcılığına geniş yer verilməsi təbiidir. Yubiley ilində «Məhəmməd Füzuli» Beynəlxalq Ədəbi Əlaqələr Fondunun yaranması da təqdirəlayiq bir hadisə kimi bizi sevindirməyə bilməz. Bununla belə, şairin qəbri ilə bağlı sözsöhbətlər Füzuli poeziyasının pərəstişkarlarının qəlbində bir nisgil oyadır. Bu məsələ ilə əlaqədar bir az geniş danışmağa ehtiyac duyulur.

Mən «Altı il Dəclə–Fərat sahillərində» kitabımda («Yazıçı», 1985) şairin Kərbəlada olan məqbərəsinin şəklini vermiş və yazmışam: «Kərbəlanın 43 kilometrliyində yerləşən və çoxlarının Füzulinin orada doğulduğunu göstərdiyi Hillə şəhərində işləyərkən hər cümə günü Kərbəlaya gedər, İmam Hüseyn məscidinin iki addımlığında olan Füzuli qəbrini ziyarət edərdim. Şairin qəbri son dörd-beş ilə qədər məscidin qərb qapısı ağzında, Azərbaycan istiqamətində, yönü Azərbaycana baxırdı…

Kərbəlanın abadlaşdırılması ilə əlaqədar olaraq şairin əbədi yuxuya getdiyi bu yerlər sökülmüşdür. Şairin nəşi Kərbəla Bələdiyyə İdarəsinin göstərişi ilə İmam Hüseyn məscidində saxlanılır».

Demək lazımdır ki, 1985-ci ildə bir sıra qəzetlər bu məsələyə dair dalbadal yazılar verdilər: «Füzulinin məzarı yol oldu» («Milliyyət», 19.XII.1985) və Türkiyənin Mədəniyyət naziri Taşçıoğlunun «Füzulinin kemikləri (nəşi – *Q.P.*) için rəsmi girişim» adlı məqalələri çap olundu.

* «Ədəbiyyat qəzeti», 6.05.1994.

İctimaiyyət arasında belə bir fikir yaranıb ki, guya, şairin nəşi əvvəlki yolun altında, məqbərə olan yerdə qalıb. «Füzulinin məzarı yol oldu» məqaləsinin müəllifi Murad Bardaqçı İraq rəsmi dairələrinin məlumatını öz məqaləsində vermişdi: «Məzarda bulunduğu yerdən yol keçəcəkdir. Bu üzdən istimlak edərək yıxtıq. Yaxın bir gələcəkdə Füzuli için yepyeni bir məzar yapacayız. Kemikləri mühafizə ediliyor».

Bununla belə, məqalənin adı söz-söhbətə, şayiələrə gətirib çıxarmışdır. Mərhum şairimiz, professor Qasım Qasımzadə ilə birgə yazdığımız «Füzulinin məzarı haqqında şayiə və həqiqət» adlı məqaləmizdə («Mədəniyyət» qəzeti, 6 avqust 1992-ci il) geniş danışdığımıza görə burada yalnız onu deməyi lazım bilirik ki, şairin nəşi İmam Hüseyn məscidinə köçürülmüş və onun saxlandığı guşədə böyük lövhə üzərində yazılmışdır:

«Şair Füzuli Bağdadi

Füzuli Bağdadi adı ilə tanınan məşhur şair Məhəmməd bin Süleyman hicrətin 900-cü ilində ona nisbə vermiş ölkədə anadan olmuş və yaşayıb-yaratmışdır. Bəziləri onun Bağdadda, bəziləri Kərbəlada və bəziləri Hillədə anadan olduğunu göstərirlər. Ən dəqiqi Bağdaddır. Hicri 970-ci ildə vəfat etmişdir. Onun ərəb və türk dillərində gözəl və nəfis şeriyyəti vardır. O, azəri dilində danışırdı. Bu, türk ləhcələrindən biridir».

Bu lövhənin yanında hələ 1989-cu ildə şairlərimiz Qasım Qasımzadə, Nəbi Xəzri, pofessor Vasim Məmmədəliyev və İraqı ziyarət etmiş başqa elm, din və mədəniyyət xadimləri şəkil çəkdirmişlər.

Bununla yanaşı, onu da deyək ki, hələ 1992-ci ildə İraq prezidenti Səddam Hüseynin göstərişi ilə Füzulinin yeni məqbərəsinin inşası üzrə Bağdadda komissiya yaradılmışdı

(Bax: «Yurd» qəzeti, 4 iyun, 1992). Komissiyaya İraq Arxeoloji Qazıntılar Komitəsinin sədri Məhəmməd Həsən, Vəqflər və Dəyanət Nazirliyinin Texnika və Planlaşdırma İdarəsinin baş mühəndisi cənab Tariq Əbdülhəlim və Türkman mədəniyyət müdiri, ədəbiyyatımızın dostu, Bakı Dövlət Universitetinin fəxri doktoru Əbdüllətif Bəndəroğlu seçilmişdilər. Təəssüf ki, blokada nəticəsində ağır vəziyyətə düşən İraq Füzulinin yeni məqbərəsi ilə bağlı işləri də təxirə salmaq məcburiyyətində qalmışdır.

Mən «Altı il Dəclə–Fərat sahillərində» kitabımda İmam Hüseyn məscidinin baş çıraqyandıranı böyük Füzuli ilə bağlı aşağıdakı sətirləri də yazmışdım: «Hər dəfə Füzulini ziyarət etdikcə həm təəccüblənir, həm də sevinirdim. Ona görə təəccüblənirdim ki, minlərlə müsəlman fanatikinin bir dəfə ziyarət etməklə həyatından keçməyə hazır olduğu müsəlman Şərqinin ən müqəddəs guşəsində şairə əbədi sığınacaq vermişdilər. Sevincimə səbəb isə o idi ki, hələ şairin sağlığında onun şəxsiyyətinə böyük hörmət, böyük məhəbbət bəsləmişlər».

Füzulinin qəbrini İmam Hüseyn məqbərəsinə köçürmək, ona imama bərabər böyük ehtiram əlamətidir. Bunu sübuta ehtiyac yoxdur. Çünki neçə-neçə ölkələr gəzmiş, mədəniyyətlərlə tanış olmuş elm, sənət xadimlərimiz yaxşı bilirlər ki, müqəddəs dini ziyarətgahlarda ən böyük şəxsiyyətlərə yer verirlər.

Füzuliyə İmam Hüseyn məscidində yer verilməsi şairin sağlığında, bəlkə də, ən böyük arzusu olardı. Məskəni Kərbəla torpağı olan dahi Füzulinin ruhu qoy bu adi torpaq olmayan müqəddəs yerdə daim nurla qovuşsun, ziyası bizi əbədi işıqlandırsın.

İRAQ–AZƏRBAYCAN ƏDƏBİ ƏLAQƏLƏRİNƏ BİR BAXIŞ *

Azərbaycanda əcnəbi ölkələrdən, xüsusən də ərəb ölkələrindən söz düşəndə göz önünə, ilk olaraq, İraq gəlir. Bu, təsadüfi deyil. Bunun kökləri vardır. Qədim zamanlardan İraqla elmi, dini, ədəbi əlaqələrimiz güclü olmuş və indi də davam edir. Bağdad lap qədimdən bizim üçün də elm, mədəniyyət və din mərkəzi olmuşdur. İslamiyyətdən sonra hər cür əlaqələr o qədər güclü olmuşdur ki, ərəblər ellikcə Azərbaycanı vətən seçərək ölkəmizdə qalmışlar. Bir çox yer, kənd və s. adlar deyilənlərə əyani sübutdur: Ərəbşahverdi, Ərəbqubadlı, Ərəbuşağı və b.

Bir çox azərbaycanlılar isə Bağdadda oxumuş, elm və ədəbiyyat sahəsində böyük uğurlar qazanmış, görkəmli şəxsiyyət kimi yetişmişlər. Şairlərin bir çoxu şeirlərini yalnız ərəbcə yazmışlar. Bir çoxları isə hər iki dildə (məs. Füzuli) uğur qazanmışlar.

Hələ XII əsrdə İraqı ziyarət edən dahi Azərbaycan şairi Xaqani Şirvani «Mədain xərabələri» və «Töhfətül İraqeyn» əsərlərini yazdı. Bağdadı, Dəcləni tərənnüm edən gözəl şeirlər yazdı. Xaqaninin İraqla bağlı əsərləri Azərbaycanda dönə-dönə nəşr edilib və bu gün də sevilə-sevilə oxunur.

Böyük məmnunluqla qeyd etmək olar ki, İraqla ədəbi, elmi, mədəni əlaqələr qədimdə olduğu kimi davam edir. «Min bir gecə» nağılları bütövlükdə Azərbaycanca çap olunmuşdur. Akademik Həmid Araslı (1972) və professor Vasim Məmmədəliyev (1989) İraq Elmlər Akademiyasına üzv seçiliblər. İraqlı ədəbiyyatşünas Əbdüllətif Bəndəroğlu Bakı

* Prof. Qəzənfər Paşayevin Füzulinin 500 illik yubileyində məruzəsi. Bağdad, 18.09.1994. Bağdadda Füzulinin 500 illik yubileyində oxunmuş məruzələr əsasında ərəbcə çap olunmuş məcmuədə gedən mətnin tərcüməsi.

Dövlət Universitetinin fəxri doktoru, Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının fəxri üzvü, «Ədəbiyyat qəzeti»nin redaksiya heyətinə üzv seçilmişdir. Neçə-neçə iraqlı yazar və alim oncildlik Azərbaycan Ensiklopediyasında yer almışdır. Yeri gəlmişkən Azərbaycan–İraq ədəbi əlaqələrində xidmətlərinə görə Əta Tərzibaşı və Əbdüllətif Bəndəroğlu Azərbaycan Yazıçılar Birliyinə üzv seçilmişlər. Yazıçılar Birliyinin sədri hörmətli Anar müəllim onların üzvlük biletlərini artıq təqdim etmişdir.

Əbdüllətif Bəndəroğlu ərəb və kürd şairlərinin şeirlərini Azərbaycan dilinə tərcümə etmiş, görkəmli türkman şairlərinin şeirlərini də əlavə edərək çapa hazırlamışdır.

Bu gün məclisimizdə iştirak edən Mətbuat naziri Sabir Rüstəmxanlı kitabın buraxılması üçün «Yazıçı» nəşriyyatına müvafiq göstərişlər vermişdir.

Mən şəxsən İraqa dair «Altı il Dəclə–Fərat sahillərində» və «İraq–türkman folkloru» kitablarını yazmışam. «Altı il Dəclə–Fərat sahillərində» kitabını Əbdüllətif Bəndəroğlu ərəb dilinə tərcümə edir. Hər iki kitabın Bağdadda çapı nəzərdə tutulub. Ə.Bəndəroğlu ilə onun İraqda üzə çıxardığı «Nəsimi Divanı»nın əlyazma nüsxəsi üzərində işlədik. Mən hər gün Füllucə şəhərindən 45 km yol qət edir, Bağdada gəlir və Bəndəroğlu ilə bu Divan nüsxəsi üzərində iş aparırdım. Hər ikimiz ayrı-ayrılıqda Bəndəroğlu Bağdadda, mən isə Bakıda Nəsiminin ruhunu şad etdik. Nəsimiyə layiq sanballı kitablar buraxdıq.

Sevindirici haldır ki, son vaxtlar azərbaycanlı tədqiqatçılar İraq ədəbiyyatına güclü meyil göstərirlər. İraq ərəb ədəbiyyatı ilə bağlı kitablar çap olunur, dissertasiyalar müdafiə olunur.

İraqlı alim rəhmətlik Sinan Səid dövlətlərarası müqaviləyə əsasən Azərbaycan Dövlət Radio və Televiziya Komitəsinə gələrək (1959) ərəbcə radio verilişləri təşkil etdi və on ildən artıq (1970) əməyini bu çox gərəkli işə sərf etdi.

Görkəmli bəstəkar Fikrət Əmirov «Min bir gecə» nağılları əsasında dünya şedevrlərindən hesab olunan «Min bir gecə» baletini yaratdı.

Onu da unutmaq olmaz ki, bir çox azərbaycanlı tələbələr İraqa göndərilmiş və onlar ərəb dilini, ərəb ədəbiyyatını, ərəb tarixini mükəmməl öyrənərək vətənə dönmüşlər. Onların İraqdakı fəaliyyətini təkcə təcrübə mübadiləsi, ixtisasartırma kimi qiymətləndirmək səhv olardı. Onların İraq və Azərbaycan arasında hər cür əlaqələrin, ilk növbədə isə ədəbi əlaqələrin inkişafında böyük rolu olacağı göz qabağındadır. İraqdan da bir çox gənclər ali məktəblərdə və aspiranturada oxumaq üçün Azərbaycana gəlmişlər. Göründüyü kimi, İraqla Azərbaycan arasında elmi, ədəbi, dini əlaqələr vardır. Füzulinin 500 illik yubileyinin İraqda belə yüksək səviyyədə keçirilməsi də böyük mətləblərdən söz açır. Professor Vasim Məmmədəliyevin qeyd etdiyi kimi, ədəbi əlaqələrimiz yolunda Füzuli bir körpü olmuşdur. Bu körpünün daha möhkəm, daha kamil olmasında bir kərpici qoyanın da, min kərpic qoyanın da əməyi təqdirlə yad edilməlidir. Ölkənin prezidentinin göstərişi ilə Füzulinin 500 illik yubileyini yüksək səviyyədə keçirdiyinə görə İraq dövlətinə və Yubiley komissiyasının sədri, Mədəniyyət naziri Həmmadi cənablarına minnətdarıq.

Azərbaycandan 120 nəfərdən artıq nümayəndə heyətinin İraqa dəvət olunması şair Füzuliyə böyük ehtiramdan, Azərbaycan xalqına yaxşı münasibətdən xəbər verir.

Şübhə etmirəm ki, saf niyyətlə, xoş məramla İraqa gələn bu böyük nümayəndə heyəti gələcəkdə də İraq–Azərbaycan əlaqələri yolunda əllərindən gələni edəcəklər.

Son olaraq Yaradandan təmənna edirəm ki, İraq–Azərbaycan ədəbi əlaqələri həyat kimi əbədi olsun.

NƏĞMƏLƏR QƏLBƏ AXIR

Aylar, illər keçir, təəssüratlar unudulur. Ötəri hislər xatirat süzgəcində ilişib qalır, xatirələr büllurlaşır, əbədiləşir. İraq Respublikasında işlədiyim vaxtdan beş il keçsə də, qonaqpərvər ərəb xalqını, mərdanə kürd xalqını, şair qəlbli Kərkük xalqını – Füzulinin nəvə-nəticələrini hər vaxt xoş məramla xatırlayıram. Hər dəfə də İraqdan yeni bağlama aldıqda sanki xatirələr təzələşir. Budur, Bağdaddan yeni bağlama almışam. Bu, «Qardaşlıq» jurnalıdır. Bəs bu kitab nədir? Gözlərimə inanmıram. Kitabın üstündə kirillə «Azərbaycan», sonra isə ərəbcə «Ərəb ölkələri haqda Azərbaycan nəğmələri» yazılıb. Müqəddiməni oxuyuram. Ərəbcə çox da dərin olmayan biliyim köməyimə gəlir: «Xəzər dənizi sahilində eynilə İraq türkmanlarının ləhcəsində danışan bir xalq məskən salmışdır. Bu, Azərbaycan xalqıdır. Azərbaycan ölkəsi nefti, pambığı, üzümü, ikrası, zəfəranı, qonaqpərvərliyi və s. ilə məşhurdur. Məndən onların ən çox nəyi sevdiklərini soruşsalar düşünmədən deyərdim: Vətənlərini, milli irslərini, Füzuli Bağdadini, muğamatı, qonaqları və o cümlədən də ərəbləri. Mən azərbaycanlıların ərəblərə olan ehtiram və məhəbbətini onların gündəlik həyatında, ərəb filmləri göstərilən zaman kinoteatrların önündəki izdihamda, azəri müğənnilərinin ərəb mahnılarını həvəslə ifa etmələrində, azəri rəssam və yazarlarının əsərlərində, gənclərin ərəb dilini öyrənmə meyilində görürəm. İraqa gəlincə onun azəri xalqının ürəyində xüsusi bir yeri vardır. Bu da təbii ki, işarət etdiklərimizdən və möhkəm tarixi əlaqələrdən doğmuşdur. Bəlkə, bu əlaqə Əfzəlləddin Xaqaninin Azərbaycan ədəbiyyatı tarixində ilk səyahətnamə olan «Mədain xərabələri» ilə və ya 1156-cı ildə yazdığı «Töhvətül İraqeyn» əsərindən başlamış, Kərbəlada əbədi yuxuya dalan və hər bir azərbaycanlı üçün

əziz olan Füzuli ilə möhkəmlənmiş, İraqı – Bağdadı tərənnüm edən Vaqifin şeirlərində tarımlanmışdır. Bəlkə də, bu yaxınlıq ona görədir ki, İraqdakı türkmənlərlə azərbaycanlılar yaxındırlar, qanbirdirlər…»

Sevinirəm. Müqəddiməni sona kimi oxuya bilmirəm. Onu yazanı axtarıram. Sinan Səid. İkili sevinirəm…

Mətbəə qoxusu hələ vərəqlərindən getməyən, çox nəfis şəkildə İraq Təbliğat Nazirliyi tərəfindən Bağdadda buraxılan bu kitab 84 səhifədən ibarətdir. Şeirləri Azərbaycan dilindən ərəb dilinə Sinan Səid tərcümə etmişdir. Kitabı vərəqləyirəm. S.Rüstəm, R.Rza, M.Rahim, M.Dilbazi, O.Sarıvəlli, N.Xəzri, B.Vahabzadə və T.Bayramın həyat və yaradıcılığı barədə ayrı-ayrılıqda məlumat və onların şəkilləri.

Kitabda S.Rüstəmin «Ərəb dostlarıma» şeiri, R.Rzanın «Şəttül-Ərəb» və «Cəbəllütariq» şeirləri getmişdir.

Cəbəllütariq!
İnsanların əsəridir tarix,
Enişi var, yoxuşu var,
Azadlıq yollarında hələ onun
çox işi var.

Ərəb mövzusu M.Rahimin yaradıcılığında xüsusi bir yer tutur. «Bağdad gecələri» şeirində şair Bağdadın gözəlliyini şair qəlbilə duyaraq ona məftunluğunu gizlətmədiyi kimi, öz haqlı gileyini də gizlətməmişdir:

Nurlu işıqlı olur
Bağdadın gecələri
Çox yaraşıqlı olur
Bağdadın gecələri.
……..
Bəzən günahlı olur,
Bağdadın gecələri.

N.Xəzrinin «Ərəb qızına», O.Sarıvəllinin «Ərəb qadını» və T.Bayramın «Dinlə, ərəb qardaşım» şeirləri də yaxşı tərcümə edilmişdir. B.Vahabzadənin «Yollar-oğullar» poemasından bir parça, «Köhnə bayatı» və «Ələddinin çırağı» şeirləri də gözəl tərcümə edilmiş, şairin hisləri orijinaldakı təravətini itirməmişdir:

Öz alnımın təri ilə
Becərdiyim torpaqların
Meyvəsini dərirsən,
Öz yolumda
Mənə yol göstərirsən.

Və ya:

Ancaq bulanıq axan
Sular bir gün durulur,
Bəndi dağılan selin
Qəzəbi yaman olur.

Mirvarid Dilbazinin «Əlcəzairli qız» poemasını kim dönə-dönə oxumayıb:

Güllə kürəkdə qalmış,
Arzu ürəkdə qalmış.
Düşür sakit çölə sarbanın səsi,
Simlərdə ağlayır ərəb nəğməsi.
Bu yel Yəməndən əsir,
Bəs niyə gendən əsir.
Havası can dərmanı,
Hansı çəməndən əsir.

Şair məhbəsə düşən Cəmilənin halına acıyır, ona həyan olur:

Səhra tufansız olmaz,
Sevgi hicransız olmaz.
Ey məhbəsə düşən qız
Qələbə qansız olmaz!

Kitabın sonuncu səhifəsində S.Səid M.Dilbazinin Misir xalqının azadlıq mübarizəsindən bəhs edən «Nağıllar ölkəsi» adlı şeirindən şairin öz dəst-xətti ilə yazdığı bir parçanı vermişdir. Kitab Bağdadda rəğbətlə qarşılanıb və radioda dəfələrlə kitabda gedən şeirlərdən musiqili veriliş təşkil olunub.

«Ərəb ölkələri haqda Azərbaycan nəğmələri» kitabı Sovet–İraq dostluğu yolunda yeni bir addımdır ki, bu da Sinan Səidin adı ilə bağlanır. Sinan Səid hələ doğma vətənə qayıtmamışdan əvvəl də Sovet–İraq mədəni əlaqələri sahəsində az iş görməmişdi. M.C.Cəfərovun «Sabir» və «C.Məmmədquluzadə» monoqrafiyalarını, R.Məmmədovun Azərbaycanda təhsil alan xarici tələbələrdən bəhs edən «Onlar özlərini vətənlərində hiss edirlər» kitabını ərəb dilinə Sinan Səid çevirmişdir. 1964-cü ildə Azərbaycan şairlərinin «Dost əlləri» adlı Asiya–Afrika xalqlarının mübarizəsinə həsr olunmuş kitabını da ərəb dilinə Sinan Səid tərcümə etmişdir. S.Rəhimovun «Ata və oğul» povesti və bir sıra hekayələri S.Səidin tərcüməsində 1965-ci ildə Moskvanın «Proqress» nəşriyyatı tərəfindən buraxılmışdır. Vaqifin yubileyi ilə əlaqədar olaraq Araz Dadaşov «M.P.Vaqif» monoqrafiyası və şairin seçilmiş şeirləri də ərəb dilinə S.Səid tərəfindən tərcümə edilmişdir. Azərbaycanın tarixi abidələri (Qız qalası, İçərişəhər, Şirvanşahlar sarayı və başqaları) kitabçalarını da ərəb dilinə o çevirmişdir. Azərbaycan filmlərinin ərəbcəyə tərcüməsi və səsləndirilməsində də onun rolu az olmamışdır. Orta məktəb üçün «Ərəb dili müntəxəbatı» kitabının müəlliflərindən biri də S.Səiddir.

1959-cu ildə Bakı Radiosuna işə dəvət edilən Sinan Səid bütün bunlarla bərabər, 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin «jurnalistlik» şöbəsini bitirmiş, 1969-cu ildə akademik H.Araslının rəhbərliyi ilə «İraqda türk mətbuatı və ədəbi məsələlər» – 1954–1966» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Sinan Səidin «Azərbaycan», «Ulduz», «Ədəbiyyat və incəsənət» kimi nüfuzlu mənbələrdə çıxan məqalələri onun yaxşı tədqiqatçı olduğunu göstərir.

Yəqin ki, oxucular mətbuat səhifələrində onun hekayələrini oxumuşlar. Sinan Səidi müğənni kimi tanıyanlar da vardır. Axı o, müğənni Nərminə Məmmədova ilə birlikdə Kərkük mahnılarını lentə yazdırmış və vaxtaşırı həmin mahnılar Bakı radiosunda səsləndirilir. Sinan Səid Azərbaycan radiosunda ərəb dili üzrə mütəxəssislərin yetişdirilməsində də az əmək sərf etməmişdir.

Sinan Səid bir ilə yaxındır ki, vətəni İraqa qayıdıb. Hazırda o, Bağdad Universitetinin ədəbiyyat fakültəsinin jurnalistlik şöbəsində dərs deyir. Sinan vətənə döndükdən sonra da Sovet–İraq mədəni əlaqələri sahəsində yorulmadan çalışır. İraq müəllifi və yazıçılar cəmiyyətinin orqanı «Əl-kitab»da «Böyük Sovet Ensiklopediyası»nın yeni, üçüncü nəşri barədə geniş məqalə ilə çıxış edən Sinan Səid Bağdad radiosunda tez-tez Azərbaycan ədəbiyyatına dair proqramla çıxış edir.

İndi o, Bakıda müdafiə etdiyi dissertasiya işini və özünün tərcümə etdiyi «Azərbaycan hekayələri» kitabını çapa hazırlayır. İraqda uşaq ədəbiyyatı sahəsi çox gəncdir. Sinan sovet uşaq ədəbiyyatından da nümunələri tərcümə edib kitab halında buraxmaq fikrindədir.

Hər il iyunun 15-i İraqda Mətbuat günüdür. Həmin gün ən yaxşı tədqiqat əsəri, reportaj, qəzet və jurnal tərtibatı, ən yaxşı məqalə və s. müsabiqəsi keçirilir. Bu il müsabiqədə

iştirak edən on beş nəfər sırasında Sinan Səid də tədqiqat əsəri ilə iştirak etmiş və birinci yeri tutmuşdur. Onun «XX əsrin başlanğıcında mətbuat azadlığı» əsəri «Ərəb ziyalısı» adlı jurnalda çap olunmuşdur.

Gözəl alim, yaxşı yoldaş olan Sinan Səid «Ərəb ölkələri haqda Azərbaycan nəğmələri» kitabına yazdığı müqəddiməni «Xeyirxah, sadiq sözə eşq olsun» cümləsi ilə bitirmişdir.

Biz də Sinan qardaşa gördüyü nəcib işdə yeni-yeni müvəffəqiyyətlər arzulayır və deyirik: Xeyirxah, sadiq insana eşq olsun!

FOLKLORUMUZUN QÜDRƏTLİ QOLU *

Taleyimi «Bilmirəm haralıyam, torpağım-daşım qərib» deyən bu elatın – İraqda yaşayan, sayı altı yüz mindən artıq olan kərküklülərin[1] taleyi ilə bağladığım 1963-cü ildən bu günə qədər Kərkük folklorunun zənginliyi məni məftun etmiş, sehrləmişdir.

O vaxtdan bəri bu qeyri-adi xalq müdrikliyinin əfsunu əsl məhəbbətə çevrilmiş, «Kərkük bayatıları» (1968), «Arzu–Qəmbər dastanı» (1971), «Kərkük mahnıları (1973), «İraq–Kərkük atalar sözləri» (1978), «İraq–Kərkük bayatıları» (1984), «Kərkük tapmacaları» (1984), «Altı il Dəclə–Fərat sahillərində» (1984) kitablarının, onlarca məqalənin, eləcə də Kərkük dialektinə həsr olunmuş namizədlik disser-

* *Bax:* Kərkük folkloru antologiyası, «Azərnəşr» 1987, s.3–26. Təkrar nəşr, 1990.

[1] Onlar özlərini də, bizi də türkman adlandırırlar. Tərəkəmə sözünün cəmindən tərakamun – türkman əmələ gələn bu termin Səfəvilər dövründə və sonralar bizdə də işlənmişdir.

tasiyasının yazılmasına səbəb olmuşdur. Bu xalqın folkloru elə zəngin bir xəzinə, elə bir ümmandır ki, onun dərinliyinə baş vuran çətin ki, bir də ondan ayrıla bilsin. Burada insanın qəlbini riqqətə gətirən, xalqın əsrlərlə yaratdığı, göz bəbəyi kimi qoruyub yaşatdığı saysız-hesabsız incilər vardır.

Azərbaycan ədəbi dilinin təsir dairəsindən kənarda qalan Kərkük dialekti və Kərkük folkloru uzaq keçmişlərlə bağlı hadisələrə, adət-ənənələrimizə, hətta haradasa unudularaq yaddaşlardan silinmək dərəcəsinə gəlib çatmış tarixi həqiqətlərin izlərinə belə təsadüf edilir. Kərkük folkloru hələ uşaqlıqdan adı bizə doğma olan Qırat, Dürat, Çənlibel barədə yeni fikir söyləməyə imkan verir.

Bir qayda olaraq, atlara müəyyən bir nişanına və ya rənginə əsasən ad vermişlər. Bu, bədii ədəbiyyatda da öz əksini tapmışdır. Boz, dilboz, alapaça, qaşqa, səkil və s. at adları oxucularımıza yaxşı tanışdır.

– Bəs «qır» və «dür» at adlarını hansı nişanına əsasən vermişlər?

Folklorşünaslarımız qırat sözünün real mənasına fikir vermədən onun astral-mifik mənasını açmağa səy göstərərək qıratın «qor at», «od at», «qara at» olduğu fikrinə gəlmişlər. Qırat, Dürat sözlərinin astral-mifik mənasına toxunmadan, onların Kərkük dialektində bu gün belə işlənən real əsasına arxalanaraq qıratın–zilqara və ağ rəngli at, dörü// doru atın – kəhər at, boz at olduğunu söyləyə bilərik. Xoşbəxtlikdən həmin sözlərin astral-mifik mənası da, bu sözlərin etimologiyasına dair son tədqiqatdan göründüyü kimi, dediklərimizi təsdiqləyir. (E.İ.Əzizov «Qırat» və «Dürat» sözlərinin etimologiyası. Türk dillərinin leksik-morfoloji quruluşu S.M.Kirov adına ADU-nun elmi əsərlərinin tematik məcmuəsi, Bakı, 1981, səh.102–103). Maraqlıdır ki, dür at – kəhər at mənasında əksər türkdilli xalq-

larda doru, toru kimi, Azərbaycan dilində dor at kimi işlənmişdir. (Bax: Azərbaycan türk xalq şivələri lüğəti, Bakı, 1930, I cild, 1-ci hissə, səh. 207).

Yeri gəlmişkən, onu da qeyd edək ki, Qazax, Tovuz, Salyan, Cəbrayıl və s. dialekt və şivələrimizdə bu gün belə özünü göstərən «dördəm» sözünün də dörü sözündən götürüldüyünü söyləmək olar. O ki, qaldı Çənlibel sözünün etimologiyasına, demək lazımdır ki, folklorçularımız bu sözü «çənlə örtülü dağ beli», «danın söküldüyü bel» kimi izah etmişlər. Tarixdən məlumdur ki, xalq qəhrəmanları, adətən, zülmkarlara, istismarçılara, hakimlərə qarşı mübarizə aparmaq üçün dəstəsini yığıb, ətrafı meşəli, sıldırımlı dağlarda məskən salmışlar. İngilislərin Robin Qudu da, bizim Qoç Koroğlu və Qaçaq Nəbi də belə etmişlər. Dediklərimizə Kərkük dialektində işlənən çəm və çəm ağacı sözləri də sökək olur.

Kərkük dolaylarında bu gün belə meşə əvəzinə çəm işlənir. Bundan başqa, böyük ağaca da bu dialektdə çəm ağacı deyirlər. Beləliklə, Çənlibelin «Çəmlibel» – meşəli bel və ya ağaclıq olan yer olduğu fikrini söyləmək olar.

Qeyd etmək lazımdır ki, Kərkük dialektində və folklorunda Dədə Qorqud dövründən qalma qalavuz-bələdçi, qısrağ-at, yayan-piyada, yoğurd-qatıq, mavılmaq-huşunu itirmək, kəpənək-yapıncı, nəsnə-alət, əşya, səmiz-kök, sığırbuğa, xırxız-oğru və s. (Bax: Kitabi-Dədə Qorqud. Bakı, 1962) ifadələrlə (Kitabda bu ifadələrə xüsusi bölmə ayrılmışdır – *Q.P.*) rast gəlinir ki, onlar ədəbi dil tariximizdə bəzi məsələlərin dürüstləşdirilməsində tədqiqatçılarımızın köməyinə gələ bilər.

İndi nağıllarda qalan «simsim» sözünün küncüd olduğunu yəqin az adam bilir. Kərkükdə küncüdlə bərabər, gündəlik danışıqda simsim də işlənir. Bundan başqa, dilimizdə işlənən «yara-xora» ifadəsinin tərkibindəki «xora»nın buru-

nun içində əmələ gələn yara olduğunu da Kərkük dialektində və Kərkük folklorunda tapırıq. «Kərkük folkloru antologiyası» kitabına xalq mahnıları, bayatılar, atalar sözləri, lətifələr, tapmacalar, nağıllar, «Arzu–Qəmbər» dastanı, oxşamalar, xeyir-dua, arzu-dilək, bəddualar, salamlar, çaşırtmalar, düzgülər, sanamalar, acıtmalar, uşaq oyunları, uşaq nağılları, vəsflər, deyimlər, inam və etiqadlar, adət-ənənələr, evlənmə və toy adətləri, qayınana-gəlin münasibətləri, yağış-yağmurla bağlı adətlər, xəstəliklər, sənətlər, bazar-dükanla bağlı məsələlər, əski evlər, əkin-biçin, heyvanat, yaşayış və məişətlə bağlı məsələlər, gözəl adlar, qohumluq və insan bədəninin üzvlərinə aid terminlər, əski geyimlər, düzən və bəzək, əski çalğı alətləri, rənglər, güllər-çiçəklər, meyvələr, barsız-bəhrəsiz ağaclar, quşlar, ev heyvanları, vəhşi heyvanlar, bostan bitkiləri, göy-göyərti, həşəratlar, sürünənlər və bir çox folklor materialları daxil edilmişdir.

ARZU-DİLƏK, XEYİR-DUA. Arzu-dilək, xeyir-dua, alqış, yemind kərküklülərin danışıqlarının bəzəyidir. Bir iş üçün birinin yanına gedən qadının danışığında təqribən aşağıdakı sözləri eşitmək olar:

Qurbanın olum, başına dolanım,
Gözünə heyran, boyuna qurban.
Allah sağ olasan.
Dünya durduqca durasan.
Qadanı alım, önündə ölüm.
Sözünü şəkərdən kəsim.
Qan etdim, qapına gəldim.
Böyüyümsən, ağamsan.
Məni əliboş qaytarma.

Dükançının müştəri ilə də danışığı səciyyəvidir:
– Xoş gəlibsən xanım, nə əmrin var?

Əgər dükançının malına verilən qiymət yaramırsa, həm dirənir, həm də adamın könlünü alır:

– Başım üstə, gözüm üstə, xanım. Mal sənindir. İstirsən bütün dükanı apar. Lakin bu qiymət kara getməz, inan Allaha deyər.

Xeyir-dua, arzu-dilək nəinki insanlar arasında ilgili münasibətin yaranmasında, həm də onların əhvallarının yaxşı olmasında müsbət rol oynayır. Xeyir-dua, arzu-dilək, demək olar ki, Kərkük dolaylarında da təxminən bizdəki kimidir. Tək-tük fərqli olanlarına da rast gəlinir: Məs:

Evinnən ev törəsin! – Yəni oğul toyu görəsən, qız köçürəsən!

Omründən doyasan! – Doyunca ömür sürəsən!

Cigərin yanmasın! – Övlad dağı görməyəsən!

Yemindlər (and), bəddua (qarğış), alqış, söyüşlərdə də elə bir fərq yoxdur. Lakin az-çox fərqli olanları da vardır. Verdiyin əkmək gözümdə dursun! – Verdiyin çörək gözümü tutsun!

Əsgər qaçağı olum! – Çöllərə düşüm, didərgin olum!

Dul arvad toruna düşəsən!

Əlin ayağ olsun, köksünə dayağ olsun! – Ayağın qurusun, əllərinin ümidinə qalasan!

Yüksək yerdə görünəsən! – Görüm salacaya minib çiyinlərdə gedəsən!

Ömründə oxqay etməyəsən! – Xoş gün görüb, xoşhal olmayasan!

Ömrünün dəftəri bükülsün! – Yəni kitabın bağlansın!

Sarı qulaq! – Qeyrətsiz, namussuz!

Evində tox olmamış! – Qarnın doymasın!

Saçı kəsilmiş! – Yəni ər evindən üzüqara qayıt!

SAZLAMALAR. Sazlamalar ailənin məruz qaldığı fəlakəti, bir az öncə sönən həyata, ailənin çəkdiyi ələm və acıları canlandırır. Sazlamalar ən çox qadınlara məxsusdur.

Sazlamaların söyləniş tərzi belədir. Ana: «Vay balam, vay» – deyər, sonra başqa bir qadın, mərhumun məziyyətlərini saymağa və o biri qadınlar da öz ölülərini yada salıb ağlamağa başlayarlar. Kədərlə ağlamaq-sızlamaq mənasını verən sazlamalar «xoyrat»lardan o qədər də fərqlənmirlər:

Burda ölüb bir cavan,
Gəlsin cavanı yuyan!
Necə kəfin tikəllər?
Necə qəbrə qoyallar?
Barmaqların tökülsün,
Cavan gözünü yuman.

Bundan sonra mütləq bir neçə yanıqlı xoyrat deyirlər:

Bala vay,
Bal yemədim, bala vay.
Çöp yığdım yuva qurdum.
Uçurtmadım bala, vay.

Verən sən;
Alan sənsən, verən sən.
Gah evlər bəzədirsən,
Gah edirsən verən sən və s.

Sonra sazlama davam edir. Dünyadan köçmüş gəncin anasının dilindən deyirlər:

Musallanın (məzar) çim daşı,
Yandı ürəgim başı.
Bir yoldaşın görəndə
Tökülər gözüm yaşı.

Və ya:

Qənşərdə pütxana var,
Ləli yaqutxana var.
Gedirsən işıq apar,
Orda zülmətxana var.

Yenə bayatılar deyilir. Sonra dünyadan köçmüş gəncin adından deyirlər:

Mən ölürəm bir cavan
Gəlsin cavanı yuyan.
Yetim balası qalan,
Doğuluşu heyrət olan,
Xanası bərbad olan,
Barmaqların tökülsün,
Cavan gözünü yuman.

Gənc oğlanın arvadının sazlamağı:

Çiraq qura bilmədim,
Qurub bura bilmədim.
Ayrılıq çox güclüymüş
Qarşı dura bilmədim.

Gənc qızın anasının sazlamağı:

Dəvələr düzdə qaldı,
Yükü Təbrizdə qaldı,
Balam baş aldı getdi,
Balası bizdə qaldı.

Düzülü yataqları,
Cehiz dolu boxçası.
Qiymətli əlbəsəsi,
Tərk etdi, bizdə qaldı.

Sonra isə yenidən xoyratlar və sazlamalar oxuyurlar. Demək olar ki, hər münasibətlə sazlamalar vardır. Kimsəsiz bir nəfər dünyadan köçəndə:

Al vala, yeşil vara,
Salacam düşdü yola.
Nə anam var, nə bacım,
Ənsəmcə saçın yola.

Və ya:

Qazan ağlar:
Od yanar, qazan ağlar.
Burda bir qərib ölüb
Qəbrini qazan ağlar

və s. oxuyurlarsa, hələ evlənməmiş gənc dünyadan köçərsə, onun taleyinə uyğun sazlama oxuyurlar:

Mən getdim, anam qaldı,
Oduma yanan qaldı.
Nə dünyadan xeyir gördüm,
Nə bir nişanam qaldı və s.

Əta Tərzibaşının göstərdiyinə görə yas məclislərində «sazlamalar» sazlayan xüsusi qadınların rəhbərliyi ilə Kərkük dolaylarında üç gün səhərdən günortaya qədər davam edir. Bu da segah və müxalif xoyrat üsulları üzərində oxunur.

TAPMACALAR. Həyatın kitabsız, radiosuz, kinosuz, teatrsız keçən dövründə, yorucu bir qış gününün səfasını sürmək, uzun gecələrin yalqızlığını unutmaq üçün xalq müxtəlif əyləncələr tapmışdır. Bu əyləncələrdən biri də tapmacadır. Zaman keçdikcə tapmacalar ağılı, zəkanı inkişaf etdirmək, düşüncə və mühakiməni gücləndirmək kimi böyük bir amala

xidmət göstərsə də, gənclər və uşaqlar özləri də hiss etmədən onlara əyləncə vasitəsi kimi baxmaqda davam etmişlər. Bu isə öz növbəsində tapmacaların daha da geniş yayılmasına kömək etmişdir. Kərkük dolaylarında da belə olmuşdur. Folklorun bu növü bizdə olduğu kimi «tapmaca» adlanır.

Kərküklülər tapmaca deməyə «Tap nədi, tapış nədi?» deyə başlayırlar. Tapmacanın cavabını tapa bilməyəndə dinləyənlər düşünür, götür-qoy edir, fikirlərindən keçəni dəqiqləşdirmək, tapmacanın açılmasına, yozulmasına kömək edəcək suallar verirlər:

Gözlə görülər, yoxsa görülməz?
Yeyilər, yoxsa yeyilməz?
Diridi, yoxsa ölüdü?
Suda yaşar, yoxsa havada?

Tapmacanı yoza bilməyəndə, onu söyləyənə sözgəlişi bir köy, bir şəhər bağışlanır. O da nazlana-nazlana tapmacanın cavabını söyləyir. Əgər tapmaca deyən onu açmasa, söz-söhbət başlanar, tapmaca deyəni sıxma-boğmaya salarlar:

Mən mindim ala ata,
Sən mindin qotur bəgirə.
Mən zaxtalandıqca baldan yağ yeyərəm.
Sən zaxtalandıqca qanla ayran yeyərsən.

Və ya:

Mən çağırdım at gəlsin,
Sən çağırdın, it gəlsin.
Mənimçün bir al at gəldi,
Sənincün bir tazı gəldi.
Mən mindim al ata,
Sən mindin tazıya

və s. zarafatlaşaraq deyər-gülərlər.

Tapmacalar mövzu etibarilə müxtəlifdir. Musiqi alətləri ilə bağlı, bəzək-düzəklə, oxumaq-yazmaqla, insan oğlunun tərənnümünə həsr olunmuş tapmacalarla, geyim-kecimlə, silah və alətlərlə, tikili və tikinti ilə, yemək-içməklə, heyvanlar aləmi, kainat, mücərrəd və təbii hadisələrlə bağlı tapmacalar var. Ev-eşik və məişət, əkin-biçin, meyvələr, bağ və bostanla bağlı tapmacalar üstünlük təşkil edir.

Kərkük tapmacalarını oxuduqda dönə-dönə bu qənaətə gəlirsən ki, tapmacalar, doğrudan da, «xalq elmi»dir. Həyatın elə bir sahəsi yoxdur ki, ona dair Kərkük dolaylarında neçə-neçə tapmaca olmasın. Tapmaca elə düzəldilir ki, əşya və ya hadisənin bir əlaməti və ya keyfiyyəti üstüörtülü şəkildə söylənilir, bir çox cəhətləri isə gizli saxlanılır. Tapmacanı dinləyən şəxs həyat, kainat, təbiət və s. haqqında yaxşı məlumata malik olduqda tapmacanı açmaq çox da böyük zəhmət tələb etmir. Məsələn:

Həm ilikdi, həm sümükdü, həm dəri,
Yeməsinə cümlə aləm müştəridi, müştəri.

Tapmacanın hansı bir yeməyəsə aid olması şübhə doğurmur. Bəs o hansı yeməkdir ki, sümük, dəri və ilik onun əsasını təşkil edir. Əlbəttə, tapmaca Kərkük dolaylarında ən çox sevilən kəlləpaça ilə bağlıdır. Və yaxud:

Bişirsən aş olur,
Bişirməsən quş olur.

Təbii ki, yumurta ilə bağlı tapmacadır. İnsanların bədən üzvləri ilə bağlı tapmacalar Kərkükün ətraf qəza, qəsəbə və kəndlərində həm kəmiyyətcə, həm də keyfiyyətcə seçilir.

Qurmadan işlər,
Durmadan işlər (Ürək).

Və ya:

Yeddi dəlikli toxmaq,
Bunu bilməyən axmaq (Baş).

Kərkük tapmacaları da bizdə olduğu kimi həm nəzmlə, həm də nəsrlədir. Lakin nəzmlə olan tapmacalar daha çoxdur. Bunlar iki, yaxud daha artıq misralı vəzn və qafiyəsi yerində olan əsrlərin süzgəcindən keçərək, saflaşan, büllurlaşan qızıl qiymətli şeir parçalarıdır.

Qapqaradır hər yanı,
Hər gün dağlanır canı (Qazan).

Və yaxud:

Ruhu yoxdu, almaz nəfəs,
Şəkli, cismi eyni qəfəs.
Əgri beli, uzun boyu,
Çox nəşəli verir bir səs.
Boş qarnına dolar hava
Məhzun səsi dərdə dava (Ud).

Maraqlıdır ki, Kərkük dolaylarında tapmaca – bağlamalara, daha doğrusu, tapmaca-bayatılara çox təsadüf edilir:

Ya qanı,
Ver muradımı, ya qanı.
Dəryadan bir quş uçdu,
Nə əti var, nə qanı (Gəmi).

Qeyd etmək lazımdır ki, xalq ədəbiyyatının bu nadir incilərinə dair kərküklü folklorşünaslar xüsusi elmi tədqiqat işi aparmamışlar. Lakin bəzi əsərlərdə ötəri də olsa onlara toxunmuş və tapmacalardan nümunələr vermişlər. Folklor-

çu Şakir Sabir Zabit «Kərkükdə ictimai həyat» adlı kitabında səksənə qədər tapmaca vermiş, alim İbrahim Daquqi «İraq türkmanları, dilləri, tarixləri və ədəbiyyatları» kitabında on tapmaca vermiş, az da olsa Kərkük tapmacalarından söz açmışdır. Aydın Kərkük də «Bilməcə» kitabının girişində tapmacalardan söz açır. Bu mənbələrdə gedən tapmacaları kitaba daxil etmişik. Bundan başqa, kərküklü folklorşünas Mövlud Taha Qayaçı və kərküklülərin aylıq ədəbi «Qardaşlıq» jurnalının səhifələrindən götürdüyümüz tapmacalara da yer verilmişdir.

Kitabda tapmacaların bir neçə variantına rast gəlinir ki, gələcəkdə dil baxımından, tədqiqat baxımından maraqlı olacağını nəzərə alıb, həmin variantları da saxlamışıq.

ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR. Şərq müdriklərinin «ağlın gözü» adlandırdığı atalar sözləri Kərkük dolaylarında geniş yayılmışdır. Bunun başlıca səbəbi ən qədim dövrlərdən bu günə qədər insan həyatının bütün mərhələ və sahələrini, xalq kütləsinin təfəkkürünü ibrətamiz bir tamlıqla ifadə edən, hamı tərəfindən danışıq əsnasında hər an, hər münasibətlə cilalanmasındadır.

Müxtəlif xalqlarda «ibrətamiz söz», «qanadlı söz», «qızıl söz», «dilin gülzarı», «xalq məktəbi», «ruhun təbibi», «təcrübənin barı» və s. adlarla tanınan, bədii söz sənətinin bu gözəl inciləri Kərkük dolaylarında da bizdə olduğu kimi atalar sözü adlanır. Doğrudur, bəzən onları «əskilər sözü», «böyüklər sözü», «dədələrdən qalma söz» və «ululardan qalma söz» də adlandırırlar.

Kərküklü folklorşünas alim Əta Tərzibaşı «Kərkük əskilər sözü» kitabının girişində yazır: «Kitabın adına «Əskilər sözü» deməmizin səbəbi bizdə «atalar sözü» qarşılığı olaraq bu deyişin də qollanmasından irəli gəlmişdir. Nə təkim qonuşma sırasında bir ata sözü irad etmək istəyən kimsə «əski-

lər sözüdü» və ya «əskilər deyər», «əskilər yalan deməyib» təbirlərinin təkrarlanmasıdır.

Əta Tərzibaşının qeydindən göründüyü kimi, atalardan qalan bu incilər onlarda da bizdə olduğu kimi atalar sözləri adlanır.

Kitaba daxil edilən atalar sözləri Əta Tərzibaşının «Kərkük əskilər sözü», Şakir Sabir Zabitin 1962-ci ildə çap etdirdiyi «İraq türkmanlarının ağzında atalar sözləri», kərküklü tədqiqatçı İhsan Vəsfinin «İraq türkmanlarında deyimlər və atalar sözləri» kitablarından və «Qardaşlıq» jurnalından götürülmüşdür. Onların arasında ayrı-ayrı şəxslərdən topladığımız atalar sözlərinə də yer verilmişdir.

Kərkük atalar sözləri də Şərq milli koloritinin dəyərini və qaynaqlığını özündə cəmləşdirmişdir. Bu incilərdə, hər şeydən əvvəl, nəzərə çarpan cəhət dərin məna ilə bərabər, axıcılıqdır. Bunların əksəriyyəti sanki gözəl şeir parçasıdır:

Çox söz yalansız, çox mal haramsız olmaz,
Əski pambıq bez olmaz, əski düşmən düz olmaz.
Xarab qardaş, qara daş.
Nənəli (analı) qız bəlli qız, nənəsiz qız dəlli qız.
Tamah etdilər mala, qızı verdilər lala,
Kimi su tapmaz içməyə, kimi yol tapmaz sudan keçməyə.

Kərkük atalar sözlərində özünü göstərən maraqlı cəhətlərdən biri də odur ki, onların bir çoxu iki hissədən ibarət olur və ikinci hissə birinci hissədə verilmiş fikri daha da qüvvətləndirir, mənalandırır, tamamlayır. Bizdə rast gəlinən «Utananın oğlu olmaz», «Bu günün işini sabaha qoyma», «Ağıl yaşda deyil, başdadı» və s. atalar sözləri onlarda «Utananın oğlu olmaz, olsa da, xeyrin görməz», «Bu günün işini yarına qoyma, bəlkə, yarın sənə yar olmadı», «Ağıl yaşda deyil, başdadı, amma ağlı başa gətirən yaşdı» və s. kimi işlədilir.

Kərkük camaatı şifahi xalq ədəbiyyatının başqa növləri kimi, atalar sözlərini də çox sevir və danışıq zamanı ondan tez-tez istifadə edirlər. Atalar sözlərinə, hətta bayatılarda belə rast gəlinir:

Əkmə bitmiyən yerə,
Can ver, itmiyən yerə.
Ayaqlar necə varsın,
Könül getmiyən yerə.

Bir daş atar,
Bir kirəc, bir daş atar.
Tərəzin əyiləndə
Hər gələn bir daş atar.

Kərkük atalar sözlərinin sırf yerli Kərkük mühiti ilə bağlı olanlarından, yəni cüzi bir hissəsindən başqa əksəri bizdə olanların eynidir. Əvvəla, demək lazımdır ki, bütün dünya xalqlarında bu janrın bir-birinə çox yaxın nümunələri məlumdur.

Qədim Şumer mədəniyyəti mütəxəssisi, Amerika alimi S.N.Kramerin bu barədə gəldiyi nəticə maraq doğurur. «Şumer atalar sözü ən azı üç min beş yüz il bundan əvvəl yazıya alınmışdır ki, bunların da əksəriyyəti yəqin daha qədimlərdə yaranmış, şifahi şəkildə nəsildən-nəslə keçərək yaşamışdır. Bunlar bizdən hər cəhətcə fərqli bir xalq tərəfindən yaradılmışdı. Bu xalqın öz dili, öz coğrafi mühiti, öz adət-ənənəsi, öz dini, öz siyasi və iqtisadi prinsipləri olmuşdur. Lakin bütün bunlarla birlikdə qədim Şumer atalar sözü heyrətamiz dərəcədə bizimkinə yaxındır. Biz onlarda da öz arzu və ümidlərimizin, öz zəiflik və çətinliklərimizin, öz görüşlərimizin inikasını çox aydın bir şəkildə görməkdəyik».[1]

[1] Sitatı M.H.Təhmasibin «Ara uzaq, ürək yaxın» məqaləsindən («Ədəbiyyat və incəsənət» qəzeti, 18 mart 1972) götürmüşük.

Həm məkan, həm də zaman baxımından bir-birindən çox-çox uzaq olan Şumer və Amerika atalar sözlərinin yaxınlığından, oxşarlığından danışılırsa, söz açılırsa, onda müəyyən səbəblər üzündən ayrı düşmüş bir xalqın atalar sözlərinin tam eyniliyi təccüb doğurmalıdırmı? Axı indi kim bilmir ki, bu atalar sözlərini yaradanlar və yaşadanlar böyük Füzulimizin nəvə-nəticələridirlər!

VƏSFLƏR, TƏŞBİHLƏR, DEYİMLƏR. Kərküklülərin dili olduqca şirindir. Cinasla, təşbihlə danışır, hər şey üçün münasib vəsf, təşbih və deyimdən istifadə edirlər. Gözəl qız haqqında deyirlər: «Elə gözəl, elə gözəl, Şam şamaması, Əcəm alması» və ya «Aya deyir sən bat, mən çıxım», şirindilli qadın haqqında: «Bir arvaddı, bir arvaddı, ağzı bal, dili şəkər», özü haqqında böyük fikirdə olan, əslində isə əslinəsli olmayan kimsə haqqında: «Ölən bəyin, itən qızıdır», sirr saxlamağı bacaran qadın haqqında: «Bir arvaddı, ayağı altında adam başı kəssən ağzından sirr çıxmaz», hər şeydən bir eyib çıxaranda, «Toya girər, zurna bəgənməz, hamama girər, qurna bəgənməz», çirkin kimsəyə: «Suratında cin oynayıb», ucalmaq, ad-san qazanmaq üçün zəhmət, əzab-əziyyət çəkilməli olduğunu göstərmək üçün «Dağa çıxmaq, yorulmaq istər», zalım və insafsız kimsə haqqında: «Əlindən gəlsə, adamı bir qaşıq suda boğar», minnətli işin ağır olduğunu göstərmək üçün «Minnət təkin ağır yük yoxdur», evdə atanın yeri barədə «Erkəyi olmayan evin günəşi olmaz», qabiliyyətsiz, insanlıqdan payı olmayan haqqında, «Allah səni yaradıb ki, dünya boş qalmasın», başqaları tərəfindən aldadılan şəxs haqqında: «Ayağı altına sabun qoydular», uzun əzab-əziyyətdən sonra düzəlmək üzrə olan işi pozanlara: «Bişmiş aşa soyuq su tökür», həqiqəti, haqqı-ədaləti tapdayanlara «Cahilin gordan fərqi yoxdur», başqasının əvəzinə yerli-yersiz danışana «Onun ağzını kirələyiblər», boş-boş

danışıb, mənasız söhbətlə baş aparana «Dadsız-duzsuz qonuşur», riyakar adamlara «Ağlayanla ağlar, gülənlə gülər», kök adama «Daraman tayası», çox səs-küy olanda «Arvad hamamında döndü», çox gəzən, hara gəldi gedən adam haqqında «Rəşməsi boynuna dolanıb» və s. deyirlər.

Kitabda geniş yer verilən bu bölmədə istehzalı bənzətmələrə də, məzəmmətlə deyilən ifadələrə də, alqış, dua, qarğışlarla, küfrlərlə və s. bağlı frazeoloji ifadələrə də rast gəlinir. Bu ifadələrdə insan oğlu, onun gözəl xüsusiyyətlərinin tərənnümü qabarıq şəkildə özünü göstərmiş, babalarımızın neçə minillik həyat təcrübəsi öz əksini tapmışdır. Həyatla, insanla, ətraf mühitlə bağlı elə bir məqam yoxdur ki, bu gözəl vəsflərdə, deyimlərdə və frazeoloji ifadələrdə öz əksini tapmasın. Bu deyimlər xalqın mənəvi aləminin zənginliyini, bədii ifadə vasitələrinin rəngarəngliyini bariz şəkildə göstərir və xalq kütləsinin təfəkküründü ifadə etmək baxımından əvəzsizdir.

Folkloru gözəl bilən və bütün ömrü boyu onu təbliğ edən M.Qorki bu münasibətlə yazırdı: «Xalq yaradıcılığını öyrənin. Onda siz müqayisələrin sərrastlığına, sadəliyin əsrarəngiz qüvvəsinə, təşbihlərin valehedici gözəlliyinə vurularsınız».

Təəssüf ki, xalq zəkası xəzinəsinin bu zəngin sahəsi folklorşünaslarımızın diqqətindən yayınmışdır.

DASTANLAR VƏ NAĞILLAR. Nağıllar və dastanlar Kərkük dolaylarında şifahi xalq ədəbiyyatının geniş yayılmış növlərindəndir. Dastanlara «aşıqnamə» və ya «matal» deyirlər. Eşq-məhəbbət, qəhrəmanlıq dastanlarını eynilə bizdəki kimi sazla çalıb oxuyurlar. Xalq ədəbiyyatının dastan növü uzun qış gecələrində çayxanalarda və evlərdə müəyyən münasibətlərlə camaat qarşısında söylənmiş və yayılmışdır.

Dastanların ən məşhurları «Koroğlu», «Əsli–Kərəm», «Leyli–Məcnun», «Şah İsmayıl», «Zal oğlu Rüstəm», «Arzu–Qəmbər»dir. Bunlardan «Əsli–Kərəm» və «Arzu–Qəm-

bər» axırda qəhrəman sevgilisinə qovuşa bilmədiyinə, vüsala yetmədiyinə görə «qara sevda» dastanları adlanır. Kərəm sevgilisini görmək üçün dişinin ağrıdığını bəhanə edir və Əsligilə gəlir. Əslinin anası diş həkimidi. Baxır ki, Kərəmin dişi ağrımır. Kərəm sevgilisinin üzünə baxmağa imkan tapdığına sevinir və Əslinin anasından təkidlə xahiş edir ki, bütün dişlərini çəksin. Kərəmin dişləri bir-bir çıxarıldıqca o ağrıya dözür və gözünü Əslinin üzündən-gözündən çəkmir. Get-gedə məhəbbəti alovlanır və yanıb külə dönür. Kərəmin oduna Əsli də od tutub yanır.

«Arzu–Qəmbər» bizdə unudulmaq üzrədir. Ağbirçək anaların, dünyagörmüş babaların yaddaşında hifz olunmuş bu dastan təəssüf ki, bizdə yazıya alınmamışdır (Kərküklü folklorşünas Əta Tərzibaşı «Arzu–Qəmbər»i ayrıca kitab kimi 1964-cü ildə Bağdadda, 1967-ci ildə Tehranda və daha sonra İstanbulda çap etdirmişdir).

Dastanda bizə doğma olan yerlərdən qədim şəhərlərimizdən, oylaqlarımızdan danışılır:

Arzum endi bulağa
Səsi gəldi qulağa.
Arzuya qurban olsun,
Şirvan, Təbriz, Marağa.

«Əsli–Kərəm»ə nisbətən «Arzu–Qəmbər» dastanı bədii cəhətdən zəifdir. Bu da təbiidir. Bu dastan «Əsli–Kərəm»dən çox-çox əvvəl yaranmışdır. «Əsli–Kərəm» dastanında Kərəmin dilindən deyilən «Olmadı» rədifli qoşmada Arzu ilə Qəmbərin adının çəkilməsi dediklərimizə sübutdur:

Xurşid öz Mahının dizinə yatdı,
Qəmbər Arzusunun tozuna batdı.
Dünyada Şahsənəm murada çatdı.
Aşıq Qərib kimi gülən olmadı.

(Bax: Azərbaycan məhəbbət dastanları. «Elm» nəşriyyatı, Bakı, 1979, səh. 94)

«Arzu–Qəmbər» dastanında da iki gəncin nakam məhəbbətindən çox təbii və sadə bir dildə danışılır. Əsər yerli şivədə yazıldığından Kərkük dialekti üzərində tədqiqat işində əvəzsiz bir mənbəyə çevrilir.

Qəhrəmanlıq dastanlarından danışarkən ilk növbədə «Koroğlu» göz önünə gəlir. «Koroğlu» dastanı onlarda da bizdə olduğu kimi başlayır, davam edir və bizdəki kimi sona yetir. Dastanın əvvəlində:

Mən bir kor oğluyam dağlar gəzərəm,
Dağ Sultanı, yeldən qüvvət sezərəm.
Zalımların başlarını əzərəm,
Əcələ yap usta, mənim sazımı.

deyərək intiqam almağa tələsən qəhrəman, tüfəng icad olduqdan sonra məyus olur, «mərdliyin pozulduğunu» bildirir:

Düşmən gəldi tabır-tabır düzüldü,
Allımıza qara yazı yazıldı.
Tifəg icad oldu, mərdlik pozuldu,
Əgri qılınc qında parslanmalıdı.

deyir və tale ilə barışmalı olur:

Mən zalımlar düşməniyəm,
Zavallılar aslanıyam.
Təqdir beləysə razıyam,
Haqq belə yazmış yazımı.

Mərdliyin pozulduğundan şikayət edən Koroğlu bizdə «mərdlik əldən getdi» deyə nalə edir:

Axır əcəl gəldi, yetdi, hay-haray!
Çəkdiyim qovğalar bitdi, hay-haray!
Tüfəng çıxdı, mərdlik getdi, hay-haray!
Mənmi qocalmışam, ya zəmanəmi? – deyir.

NAĞILLAR. Kərkük dolaylarında nağılların bizdə təsadüf edilən bütün növlərinə, ən çox da sehrli nağıllara, heyvanlar haqqında nağıllara, tarixi nağıllara, ailə-məişət nağıllarına rast gəlinir. Nağılların eləsi var ki, adları fərqlənsə də, özləri həm onlarda, həm də bizdə eynidir. «İnad xoruz», «Titlə-Bitlə», «Davuzanqurdu», «Pinəduz» və s. belələrindəndir.

Bəzi uşaq nağılları istisna olmaqla Kərkük nağılları bədii cəhətdən kamil əsərlərdir. İnsanların həyatı, məişəti, davranışı, mübarizəsi, arzu və istəkləri nağıllarda bədii boyalarla təsvir edilmişdir.

Kərkük nağıllarında öyüd-nəsihət, həyat təcrübəsi qabarıq şəkildə özünü göstərir. Maraqlıdır ki, Kərkük nağılları arasında müasir dövrdən bəhs edən nağıllar da vardır. Buna misal olaraq «Yola nərdivan atağ», «Olar əkdi, biz yedik» və s. göstərmək olar. Heyvanlar haqqında nağıllar Kərkük dolaylarında çoxdur. «Mənim ömrüm nalımın içində yazılıbdı», «Tülkünün hiyləbazlığı», «Qurttan qoyun», «İnad xoruz», «Titlə-Bitlə» («Bizim Şəngülüm, Şüngülüm, Məngülüm» nağılının eynidir) kimi nağıllardakı heyvanlar bizdə olduğu kimi «xeyir», «şər» qüvvələr çərçivəsindədir. «Xeyir» və «şər» qüvvələr heyvanların özləridir. Tülkü, qurd, aslan, at, keçi və xoruza nağıllarda daha çox rast gəlinir. Qəribədir ki, bizdə olduğu kimi, Kərkük dolaylarında da nağıllarda ən çox iştirak edən tülküdür. Tülkü orada da müxtəlif hiylə və kələk işlədir, dondan-dona girir və istəyinə çatır.

«Xayın vəzir», «Odunçu qızı», «Sas tavuğun təlnəgi» tilsimli, «Bərzəyi qızı» (yəhərçi) və Şah Abbasla bağlı «Pinəduz» (pinəçi) isə tarixi nağıllardandır.

Adı keçən nağıllar kitabda yer aldığına görə onların ideya və məzmunundan danışmağa lüzum görmədik.

Demək lazımdır ki, nağılları Kərkük dolaylarında uzun qış gecələri bir evə toplaşar, xalı üzərinə buraxılan sinilərdə samovardan çay içər, kömür gözüylə dolu manqala (manqal) ətrafında qızınar və danışardılar. Onları xüsusi nağılçılar danışardı.

Kərkük nağılları da, bir qayda olaraq, bizdə olduğu kimi müqəddimə ilə başlayır. Müqəddimədən sonra giriş, başlanğıc gəlir. Lakin realist nağılların əksəriyyəti müqəddiməsiz-filansız «Var idi, yox idi, bir oğlan var idi» başlayır.

Kərkük nağılları aşağıdakı müqəddimələrlə başlanır:

«Biri var imiş, biri yox imiş, yalan gerçəkdən çox imiş. Yalanı doldurdular çuvala, dayadılar duvara. Gerçəyi qoydular meydan başına. Matal gəldi qapıya. Hartdan-hurtdan, sıxması qarpız qabuğu, dügməsi turpdan. Aman-zaman içində, qərbil saman içində, dəvə bərbərliğ edir, əski hamam içində. Hamamın tası yox, peştamalın ortası yox. Köyümüzə bir tazı gəlib, onun da xaltası yox…»

Yaxud:

«Var idi, yox idi. Yalan gerçəkdən çox idi. Yalanı doldurdular çuvala, dayadılar duvara. Aman-zaman içində, qərbil saman içində, dəvə bərbərliğ edir, əski hamam içində. Hamamçının tası yox, peştamalın ortası yox. Birəyə vurdular palanı. Otuz iki yerdən çəkdilər kolanı. Dedi: – Eşq olsun! (və ya Afərin!) necə uydurdun bu yalanı…»

Və ya:

«Matal matal mat atar, bir kişi xurma satar. Xurmanı gəti yeyim, görək kim borca batar. Hartdan-hurtdan, sıxması qarpız qabuğu, dügməsi turpdan…» və s.

Sonra:

«Matal matal matına, şeytan mindi atına. Əlində qımçısını (quyruğunu) dolandırdı, dolandırdı çaldı Rəmzinin (nağıl danışan məclisdə əyləşən bir dostunun və ya uşağın adını çəkir) suratına.

Beləcə nağıl gəldi buraya» və s.

Nağılın ortasında nağılçı uzun bir məsafənin qısa keçildiyini göstərmək üçün:

Dedi: – Ya Əli, sənə mədəd. Yel kimin dərə, təpə, düz bilmədi, keçdi. Az getdi, üz getdi, dərə-təpə düz getdi və ya:

Az gedər, üz gedər, dərə-təpə düz gedər.

Və ya:

«Dərələrdən sel kimin, təpələrdən yel kimin keçdi» ifadələrini işlədir.

Mətləbin üstünə gəlmək üçün uzun sözün qısası mənasında gələn «Nə başınızı ağrıdım», nağılda söhbət gedən qızın gözəlliyini uzun-uzun tərifləmək əvəzinə «Gəl məni gör, dərdimdən öl» kimi ifadələrdən istifadə edilir. Əlçatmaz, ünyetməz, çox qorxulu bir yeri təsvir edərkən nağılçının: «Quş getsə qanad tökər, qatır getsə dırnaq tökər» deməsi kifayət edir.

Dinləyicilər hərdənbir şəkər ye, şəkər ye – yəni gözəl danışırsan, davam et, – deyə nağılçını ruhlandırır.

Nağılın və ya dastanın maraqlı yerinə çatanda, müsbət qəhrəman dardan qurtaranda, istəyinə çatanda dinləyicilər deyirlər: «Darı başımıza» – yəni bizim də işimiz belə uğurlu olsun, biz də istəyimizə çataq.

Bizdə olduğu kimi, Kərkük nağıllarının da sonluğu olur:

– Mən də getdim, əlimə bir şey düşmədi.

Mən də getdim, mənə bir şey vermədilər. Bəlkə, siz verəsiniz, – deyə nağılçı üzünü qulaq asanlara çevirir.

– Matal bitdi, ağzımı kimsə şirin etmədi. Bəlkə, siz edəsiniz?..

Və ya:

Göydən üç alma düşdü. Biri mənim, biri Əlinin (nağılçı öz adını çəkir ki, bir daha dinləyiciləri mat qoysun, güldürsün), biri də nağıl söyləyənin.

Kərkük dolaylarında da uşaqlar nağılı çox sevirlər. Nağıl söylə deyə ananı təngə gətirən uşağa anası bizdə olduğu kimi cavab verir və başından edir:

– Əli, Vəli, Pirvəli, dördü də ondan irəli. Damda yatan, pambuğ atan, bez satan. Bir də sənin rəhmətlik atan.[1] Oğlum, əlim xamırdadı, ha buncası yadımdadı.

Sübhi Saatçı bu deyimin bəzən uşaqların bir-birini acıqlandırmaq, cırnatmaq üçün «Yeri hey, on bir kişiyə varan nənəli!» sözləri ilə əlaqədar yarandığını göstərir. Tədqiqatçı qeyd edir ki, bəzi uşaqlar deyilənlərə inanır və analarının yanına qaçırlar. Anaları isə zarafatla yuxarıda sadaladıqlarımızı söyləyir (Bax: Sübhi Saatçı. Kərkük cocuq folkloru, İstanbul, 1984, səh.45–46).

XOYRATLAR. Heyrətamiz poetik gücü və zənginliyi ilə seçilən xoyratlar Kərkük dolaylarında şifahi xalq ədəbiyyatının ən geniş yayılmış və bədii cəhətdən ən kamil növlərindən biridir.

Bizdə olduğu kimi, onlarda da xoyratları ağılar, oxşamalar, laylalar və hətta xalq mahnılarından seçmək bəzən çətin olur. Çünki xoyratlar da gözəl musiqi və hava ilə ifa olunur. Məhz buna görə də indinin özündə belə Kərkük dolaylarında iyirmidən artıq xoyrat havasının olması təəccüb doğurmur. Müxalif, Bəşiri, Muçala, Yetimi, Yolçu, Kəsük, Mətar, Qarabağı, Bayat, Dəlli Həsəni, Kürdü və s.

Folklorşünaslarımız haqlı olaraq bayatıların musiqi ilə əlaqədar olmasını Azərbaycan xalq musiqisinin bəzilərinə

[1] Göründüyü kimi, indi aradan çıxsa da, vaxtilə Kərkük dialektində «ata» mənasında baba termini ilə bərabər, ata sözü də işlənmişdir.

bayatı adının əlavə edilməsində görürlər. «Bayatı-kürd», «Bayatı-Şiraz», «Çoban bayatısı» və s.

Xoyratları başqa dördlüklərdən fərqləndirən ən başlıca cəhəti bu kiçik parçalarda məna ilə bərabər, fəlsəfi fikrin yığcamlığı, əxlaqi və ictimai anlamların dərinliyində axtarmaq lazımdır.

Oxucularımız Kərkük bayatıları ilə yaxşı tanışdırlar. Mətbuatımızda xoyratlara həsr olunmuş neçə-neçə məqalə çıxmış, Kərkük bayatıları 1968-ci və 1984-cü illərdə ayrıca kitab halında çap olunmuşdur. Odur ki, burada Kərkük folklorşünası Əta Tərzibaşının «Kərkük xoyrat və maniləri» kitabından götürdüyümüz seçmələri verməklə kifayətləndik.

LƏTİFƏLƏR. İraqda yaşayan azərbaycanlılar arasında xalqın məişətindən doğan duzlu, məzəli lətifələr çoxdur. Lakin onların arasında Molla Nəsrəddin lətifələri xüsusilə fərqlənir. Sadəlövhlüklə xalq müdrikliyini özündə birləşdirən, paxıllıq, fırıldaq, şöhrətpərəstlik, qəddarlıq, hiyləgərlik, hərislik, acgözlük, cahillik və s. kimi mənfiliklərə qarşı mübarizə aparan bu xalq müdrikinə Kərkük dolaylarında başqa xalqlardan fərqli olaraq, Xoca Nasır (qazax), Nasriddin Afandi (özbək), İfəndi (tacik), Hoca Nəsrəddin (türk), Ependi (türkmən), Nəsrəddin Oca (tatar), Nəsirdin Əpəndi (uyğur), Nəsrəddin (fars) və s. deyil, bizdə olduğu kimi Molla Nəsrəddin və ya sadəcə olaraq Molla deyilir. Maraqlıdır ki, Molla Nəsrəddin lətifələri ilə bağlı ənənə onlarda da bizdəkinin eynidir. Molla Nəsrəddin lətifələrindən söz salan gərək yeddi lətifə danışsın. Qulaq asanların da hər birinin yeddi lətifə danışması arzu olunur. Bu adət Molla Nəsrəddin lətifələrinin geniş yayılmasına imkan vermişdir. Öz mayasını xalqdan alan bu ibrətamiz yaradıcılıq aləmi hamının malı olduğundan lətifələr əsrdən-əsrə, nəsildən-nəslə keçərək ürəklərdə məskən salmış, ölməz ədəbi irsə çevrilmişdir. Dər-

rakəli, qorxmaz, hazırcavab, zirək, tədbirli, zarafatcıl Molla Nəsrəddin kərküklülərdə ağıl və fərasət nümunəsidir. Haqq, ədalət carçısı, geniş xalq kütlələrinin dostu, kasıbların havadarı və xeyirxahı olan Molla təbii ki, xalqın sevimlisinə çevrilmişdir. Kərküklülər arasında məşhur olan Molla Nəsrəddin lətifələrinin əksəriyyəti bizdəkilərin eyni olsa da, bəzi fərqli olanlarına da rast gəlinir. Bu, hər şeydən əvvəl, lətifələrin müxtəlif sənətkarlar tərəfindən yaradılaraq yayılması, Molla Nəsrəddinin əhvali-ruhiyyəsinə uyğunlaşdırılması və onun adına çıxarılması ilə izah olunmalıdır.

M.H.Təhmasibin Molla Nəsrəddinlə bağlı fikri dediklərimizi bir daha təsdiqləyir, «Xalq içərisində gəzən ən gözəl lətifələr, ən məzəli, duzlu məzhəkələr, ən kəskin tutarlı cavablar həmişə onun adı ilə bağlanır».

Bu böyük bir xalq filosofunun Kərkük dolaylarında məşhur olan lətifələrini dinlədikcə istər-istəməz gözlərin önündə sadəlövhlükdən müdrikliyə qədər uzun bir yol keçmiş, dünya görmüş nurani qocanın əyilməz, məğrur surəti canlanır. Qərinələr boyu dərin mənası və hikməti ilə insanları ovsunlayan bu duzlu, məzəli hekayələrin heç vaxt köhnəlmədiyinin, əbədi, təzə-tər olduğunun şahidi olursan. Bu lətifələrin məziyyəti yığcamlığında, hikmətamiz və ibrətamiz olmasındadır. Dərin həyatiliyi və səmimiliyi ilə fərqlənən Molla Nəsrəddin lətifələri Kərkük dolaylarında da məclislər yaraşığı, dillər əzbəri olmuşlar.

Əsas qayəsi insanları pis əməl və pis yoldan çəkindirmək, onları tərbiyə etmək olan Molla Nəsrəddin lətifələrinin böyük bir qismi onlarda da ailə, məişət, tərbiyə məsələlərinə həsr olunmuşdur. Bu lətifələr vasitəsilə insanların ailə və məişətindəki nöqsanları, yaramaz tərbiyə üsulları, pintiliyi, səliqəsizliyi, diqqətsizliyi və s. tənqid edilir.

Ağlı, düşüncəsi, fikri, zəkası, hazırcavablığı ilə seçilən Molla Nəsrəddin bəzən Kərkük lətifələrində də avam, sadəlövh, yüngültəbiətli, tez aldanan, tərsinə iş tutan bir adam kimi göstərilir. Xalq bununla da bir tərəfdən müdrikliyə, elmə, savada çağırırsa, digər tərəfdən də avamlığı, mövhumat və geriliyi özünəməxsus rişxəndlə tənqid edir.

Kərkük dolaylarında müşahidə edilən Molla Nəsrəddin lətifələrinin mövzu dairəsi əhatəli, rəngarəngdir. Bu lətifələr məzmununa görə M.H.Təhmasibin təsnifatına uyğun gəlir. Onları da «Molla evdə», «Molla və dövlət adamları», «Molla dostları arasında», «Molla və qazılar», «Molla və din xadimləri», «Molla elm və mədəniyyət aləmində», «Molla əlləməlik edir», «Molla bazarda», «Molla və qonşuları» və s. kimi bölmələr altında qruplaşdırmaq olar.

Şərq aləmində geniş yayılan, sevilə-sevilə oxunan Molla Nəsrəddin lətifələri müxtəlif ölkələrdə dəfələrlə çap olunmuşdur. İnsanlar xalq müdrikliyinin timsalı olan Nəsrəddinə öz məhəbbətini, ona həsr olunmuş film və kitablarda ifadə etmişlər. Türkiyədə isə Ağşəhər yaxınlığında Molla Nəsrəddinə eşşəyin üstündə tərsinə oturmuş vəziyyətdə tuncdan heykəl qoyulmuşdur. Ağşəhər qəbiristanlığında onun adına türbə də vardır. Hər il minlərlə adam bu türbəni ziyarət edir. Mollanın taleyinə bax ki, ziyarətə gələnlər kədərlənmək əvəzinə ürəkdən gülürlər. Məsələ burasındadır ki, hər yanı açıq olan türbənin ön tərəfinə qapı qoyaraq, onun ağzına böyük bir qıfıl asmışlar.

Molla Nəsrəddin lətifələrinin ən çox çap və tədqiq olunduğu ölkələrdən biri Sovet Azərbaycanıdır. Ə.A.Müznüb, H.Zeynallı, M.H.Təhmasib, P.Əfəndiyev və T.Fərzəliyevin lətifələrin çapı və tədqiqi sahəsində gördüyü işlər təqdirəlayiqdir.

Təəssüf ki, bu təkrarolunmaz incilər Kərkük dolaylarında hələlik nə toplanıb, nə də təqdiq olunub.

Doğrudur, Cabbar Qayacanın 1972-ci ildə Kərkükdə nəşr etdirdiyi «Bir az güləlim» kitabçasında Molla Nəsrəddinlə bağlı altı lətifə vardır. Bundan başqa, Nicat Kövsəroğlu, 1969-cu ildə Kərkükdə «Nəsrəddin Xoca» adlı 29 səhifəlik kitab çap etdirmişdir. Lakin kitabın girişindən və kitabiyyatından göründüyü kimi, bu kitab Molla Nəsrəddin lətifələrinin İstanbul, Ankara, Qahirə nəşrlərinə əsasən hazırlanmışdır.

Məhz buna görə də İraqda işlədiyim altı il ərzində Kərkük lətifələrini böyük məhəbbət və ehtiramla topladım, onların çoxunu lentə köçürdüm.

Burada Molla Nəsrəddinlə bağlı olmayan, lakin xalq arasında geniş yayılan lətifələr də çoxdur. Maraqlıdır ki, onların arasında S.Ə.Şirvaninin «Köpəyə ehsan» şeirində qələmə aldığı mövzu da «Rəhmətlik nə vaxt öldü?» lətifəsində özünü göstərir. Ümumiyyətlə, Kərkük lətifələrini oxuduqca bir doğmalıq, yaxınlıq hissi adamın ürəyinə hakim kəsilir.

XALQ MANİLƏRİ. Əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə yadigar qalan Kərkük xalq mahnıları şuxluğu və oynaqlığı ilə seçilir. Ömrünü, demək olar ki, Kərkük xoyrat və xalq mahnılarının tədqiqinə həsr edən folklorşünas alim Əta Tərzibaşı Kərkük dolaylarında xalq mahnılarının çox sevildiyini və burada hamının mahnı oxuduğunu qeyd edir və:

Mani maniyə tuşdu
Mani bilmiyən heşdi.
Mani bir belə şeydi,
Qürbətdə də yoldaşdı.

– göstərməklə, dediyini təsdiqləyir.

Kərkükdə «bəsdə» adlandırılan bu şeir parçalarına xalq maniləri və ya xalq türküləri də deyirlər. Kərkük xalq mah-

nıları, əsasən, «döndərmə» – yəni nəqarətlə başlayır və «döndərmə» mahnının hər bəndindən sonra təkrar olunur. Lakin bizdə olduğu kimi, «döndərmə»siz mahnılar da az deyildir. Cüzi də olsa deyişmə mahnılar da özünü göstərir.

Kərkük xalq mahnılarını dinlədikcə folklorşünas alimimiz prof. Paşa Əfəndiyevin «Mahnı xalqın qəlbidir. Mahnı xalqın mənəviyyatı, daxili aləmi, fikri, hissi, düşüncələri, iztirabları, sevinc və kədəridir, mahnı xalqın özüdür» kəlamı göz önünə gəlir və bir daha özün üçün kəşf eləyirsən ki, mahnılar insanın ən böyük mənəvi qidasıdır.

Kərkük xalq mahnılarının bir çoxu adsız mahnılar kimi getmişdir. Biz mahnıda gedən ilk misranı, bəzən də «döndərmə»nin ilk misrasını mahnıya başlıq kimi verdik. Bir çox mahnılar eynidir, ya da mahnının döndərməsi, bir-iki bəndi eyni olanları da çoxdur. Bu mahnılardan: «O yana döndər məni», «Pəri», «Yar bizə qonaq gələcək», «Ay qara xal qız», «Ay qız heyranın ollam», «Qalalı», «Niyə gəlməz oldu», «Dam üstədir damımız», «Qalanın dibində bir daş olaydım», «Nərgizi dəstə bağladım», «Kətan köynək dizdən yar», «Evlərinin önü yonca», «Bu gələn yar olaydı», «Yeri, yeri, yeri küsmüşəm sənnən», «Ay qız mənə bax, bax», «Pəncərədən daş gəlir», «Bu xal nə xaldı», «Gözəllərdən üç gözəl var sevməli» və «Samovar almışam silənim yoxdu» kimi xalq mahnıları, Kərkük xalq mahnısı, bizdə isə Azərbaycan xalq mahnısı kimi verilib.

Təsadüfi deyildir ki, Əta Tərzibaşının ən çox Ərbildə yayılan, aşıqların çalıb-oxuduğu «Kərəm havası»ndan söz açması və «Yerli havalarımız arasında «Qarabağı» deyilən bir çeşid uzun havanın azəri mənşəli olduğunu və sırf azəri ağzilə söyləndigini bilməkdəyik» deməsi, Ə.Bədəlbəylinin «Musiqi lüğəti» kitabında «Rast» muğamının tərkibində «Kərküki» havasının olduğunu göstərməsi dərin mətləblər-

dən söz açır. Müəyyən tarixi və siyasi səbəblər üzündən ayrı düşmüş «əkiz qardaşların» (Əta Tərzibaşı), «qan qardaşlarının» (Sinan Səid) mahnıları da təbii ki, bu qədər doğma və yaxın olmalıdır.

BEŞİK NƏĞMƏLƏRİ. Beşik nəğmələrinə laylalar və oxşamalar daxildir. Laylalar Kərkük dolaylarında «leyla» kimi tələffüz edilir. Laylalar formaca xoyrat və manilərdən fərqlənmirlər. Lakin laylanın əvvəlində və ya axırında «leyla balam, a leyla», «leyla gözüm, a leyla», «leyla ömrüm, a leyla», «leyla gülüm, a leyla», «üllə balam, üllə», «üllə ruhum, üllə» təkrar olunur:

Oyaq qallam yatınca,
Bəklərəm ay batınca.
Qolum yastıq edərəm,
Sən hasilə çatınca.
Leyla balam, a leyla,
Leyla gülüm, a leyla.

Bir çox hallarda bizdə olduğu kimi laylaları xeyir-dua, arzu-dilək, oxşama və sairədən fərqləndirmək çətin olur.

Leyla edim mən daim,
Yuxun olsun mülayim.
Xudama çox yalvarram,
Olasan mənim payım.
Leyla balam, a leyla,
Leyla ömrüm, a leyla.

Oxşamalar da laylalar kimi xalq arasında geniş yayılmışdır. Kərküklü folklorşünas Sübhi Saatçı göstərir ki, Türkiyədə «sevmələr», Cənubi Azərbaycanda «nazlamalar» kimi tanınan, uşağa rəğmən söylənilən bu şeir parçaları Sovet Azərbaycanında olduğu kimi, Kərkük dolaylarında da «oxşamalar» adlanır (Kərkük çocuq folkloru, İstanbul, 1984, səh.19).

Oxşamalar oxşarlığı cəhətdən laylalara yaxın olsalar da, ondakı başlıca məqsəd oxşama və əyləndirmədir. Oxşamalar Kərkük dolaylarında da iki və dörd misralı olmaqla iki yerə bölünür:

Dama dirəkdi, oğlum,
Xırmana kürəkdi, oğlum.

* * *

Ataram, tutaram səni,
Şəkərə qataram səni.
Baban evə gələndə,
Qucuna ataram səni.

Oxşamalar böyük intizar və həsrətin nəticəsi kimi də meydana gəlir:

Üzərliksən məzə sən,
Damar-damar gözə sən.
O günə qurban olum,
Evimizdə gəzəsən.

Oxşamalar arzu-diləklə bərabər, bəsləmə, əyləndirmə, əzizləmə və s. kimi anlama da xidmət edir.

UŞAQ FOLKLORU. Kərkük uşaq folkloruna uşaq oyunları, çaşırtmalar, düzgülər. Sanamalar, acıtmalar, quş dili, nağıllar və s. daxildir. Oyunlar uşaqlardan cəldlik, mərdlik, doğruçuluq və s. keyfiyyətlər tələb etməklə yanaşı, onların sağlam böyüməsinə gətirib çıxarır. Çaşırtmalar və ya yanıltmaclar Kərkük dolaylarında uşaq folklorunun geniş yayılmış növlərindəndir. Uşaqlar bir-birindən «Munu çaşmadan deyə bilirsən?» sorur və qarşısındakını imtahan edir:

Aşçı Həsən aş asdı, asanda ağlı çaşdı.

* * *

Qırx küp, qırx qulp, qırx qulpu qırıx küp.

* * *

Dəgirmana girdim, sildim, sipirdim, silkindim çıxdım və s.

Çaşana gülər, ələ salarlar. Şərtdir ki, uşaq yanılmasın, sözləri birnəfəsə düzgün tələffüz etsin. Çaşırtmalarda əsas məqsəd çətin sözləri düzgün tələffüz etmək və nitqi inkişaf etdirmək vərdişlərinə yiyələnməkdən ibarətdir.

Düzgülər, sanamalar, acıtmalar da eyni məqsəd daşıyan vəznli-qafiyəli şeir parçalarıdır.

Mənim adım Gül Xatun,
Boynumda var yüz altun.
Yüz altun bir quş oldu,
Baxçaya qonmuş oldu.
Bəg oğlu görmüş oldu,
Oxuynan vurmuş oldu.

Kətan köynək mil-milə,
Gəl alış bizim dilə.
Bizim dil axçalıdı,
Dörd yanı baxçalıdı.
İpək yaylığ su içər,
Dönər havuza tökər və s.

Kərkük dolaylarında dillər əzbəri olan sanama, düzgü, çaşırtma və acıtmanın çoxu bizdə də eynilə var və yaddaşımıza əbədi həkk olunub.

Hillə yolu sərbəsər
İçində ahu gəzər.
Köpüyü verdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa
Haqq qapısın açmağa…

və s. kimi qurtarır.

Uşaq folklor nümunələrinin bəzisi uşaqların dünyagörüşünün inkişafı, təbiət hadisələrinin aydınlaşdırılması və s. kimi nəcib işə xidmət edir:

– Bulut, bulut nə zalımsan?
Zalım olsaydım, yağış mənnən yağmazdı.
– Yağış, yağış nə zalımsan?
Zalım olsaydım, otlar mənnən çıxmazdı.
– Otlar, otlar nə zalımsız?
Zalım olsaydıq, qoyun bizi yeməzdi.
– Qoyun, qoyun nə zalımsan?
Zalım olsaydım, qəssab məni kəsməzdi.
– Qəssab, qəssab nə zalımsan?
Zalım olsaydım, siçan paramı çalmazdı.
– Siçan, siçan, nə zalımsan?
Zalımam, zalımam,
Damnan dama qaçaram.
Örtülü qapı açaram və s.

Nağıllar daha böyük amala xidmət edir. Onlar uşaqların gələcək şüurlu həyatında böyük rol oynayacaq, vətənə, insanlara məhəbbət, pisliyə, qorxaqlığa, satqınlığa, xəyanətə, tənbəlliyə, yalançılığa və s. nifrət, kimsəsizlərə, gücsüzlərə hörmət və mərhəmət kimi hislər aşılayır. Uşaqlar təbiət və heyvanat aləminə nağıllar vasitəsilə çıxır, onları sevməyə başlayırlar. Onlar dosta, yoldaşa sədaqətli, doğruçul olmağı, xeyir və şəri də nağıllar vasitəsilə öyrənirlər.

Öyüd-nəsihət, həyat təcrübəsi uşaq nağıllarında qabarıq şəkildə özünü göstərir.

Ev-eşik, bazar-dükan, sənət və sənətkarlar məişət-yaşayış, sevgi, məhəbbət, əkin-biçin, heyvanat-nəbatat, bağ-bostan, gül-çiçək və s. ilə bağlı lentə alınmış folklor materialları bölməsi, demək olar ki, folklorşünaslığımızda işlənməmiş sahədir. Burada adət-ənənələrlə bərabər, Kərkük folklorunda özünü göstərən bir çox leksik vahidlər və terminlər də əhatə olunmuşdur.

«Kərkük folkloru antologiyası» kitabını hazırlayarkən yerli danışıq tərzini saxlamağa çalışmışıq. Təəssüf ki, folklorşünaslarımız çox vaxt bu əhəmiyyətli məsələnin zəruriliyini unudur və folklor materiallarını müasir dildə olduğu kimi səsləndirməyə səy göstərirlər. Bu, qətiyyən doğru deyildir.

Kitabda yer alan gözəl vəsflər, təşbihlər, deyimlər, dialekt və şivə fərqləri lüğəti bölmələri də folklorşünaslığımız üçün yenidir.

Bununla belə, «Kərkük folkloru antologiyası» kitabının hər səhifəsində əziz oxucular, folklorumuza bir doğmalıq, yaxınlıq və hətta eyniyyət görəcək, ürəyinizdən keçirəcəksiniz; «Elə bu bizdə də belədir».

Nə gizlədim, Kərkük folkloru üzərində iş apararkən mənim də qəlbimdən keçən bu hiss, başımda dolanan kərküklü tədqiqatçı İrmağın «Vətən torpağı kiçilib-genişlənə bilər, tamamilə əldən çıxa bilər, sərhədləri tükənə bilər, hətta şan və şərəfi tapdalana bilər, dini dəyişdirilə bilər. Lakin bir şey dəyişmir. Qalan bu tək varlıq ana dilidir» sözləri idi.

«Kərkük folkloru antologiyası» kitabını bitirdikdə isə bir daha kəşf etdim ki, dil və folklor min illərlə yaşayır, xalqın keçmişi haqqında danışa bilən, təkzibolunmaz tarixi sənədə çevrilir.

BAĞDADDAN YENİ TÖHFƏ İLƏ *

Bu il Nəsirəddin Tusinin anadan olmasının 800 illiyi bütün dünyada YUNESKO xətti ilə qeyd ediləcək. Taledən gələn qismətdir ki, alimin məqbərə və türbəsinin yeri biz azərbaycanlılara onun yubiley ilində məlum oldu.

Hörmətli redaksiya, bu günlərdə başda akademik Bəkir Nəbiyev olmaqla, İsrafil İsrafilov, Ağalar Mirzə, Sirus Abbasbəyli, oğlum Murad və digər səfər yoldaşlarımla mən İranı və İraqı başdan-başa gəzdik. İranda Təbriz, Ərdəbil, Həmədan, Girmanşah, Bisütunda və başqa yerlərdə olduq. Şeyx Səfi, Şah İsmayıl Xətai və Şəhriyarın məqbərələrini ziyarət etdik. Elə bil tariximizin müəyyən səhifələrini vərəqləmiş olduq.

İraqda hər yerdə bizi mehribanlıqla qarşılayırdılar. İnformasiya nazirinin müavini cənab Həmid Səid qırx dəqiqədən çox bizimlə söhbət etdi. Bir çox azərbaycanlı şairlərinin adını çəkdi. Şeir kitablarını bizə bağışladı. Dəfələrlə Azərbaycanda olduğundan, Bakıya məftunluğundan, şair Nəbi Xəzri ilə dostluq münasibətlərindən söhbət açdı. Bağdadda Azərbaycan, Bakıda isə İraq ədib və şairlərinin kitablarının çapından bəhs etdi. Vaxtilə Ə.Bəndəroğlunun tərcüməsində ərəb, kürd və eləcə də İraq–türkman şairlərinin şeirlər toplusunun çap üçün Azərbaycana gətirildiyindən, lakin ölkədə vəziyyət dəyişdiyinə görə çap olunmadığından danışdı. Söz verdik ki, həmin kitabı nəşr etdirəcəyik. Mədəniyyət naziri hörmətli Hamid Yusif Həmmadi ilə görüşümüz də çox səmimi keçdi. 1994-cü ildə Füzulinin 500 illik yubileyini İraqda yüksək səviyyədə təşkil edən yubiley komissiyasının sədri olan cənab Hammadini yaxşı tanıdığımızdan söhbətimiz alındı. Füzulinin yubileyini yada saldıq. İraqla Azərbay-

* «Ədəbiyyat qəzeti», 18.05.2001, s.1.

Akademik Bəkir Nəbiyev, professor Q.Paşayev
Bağdadda Kazimiyyə məscidində. N.Tusinin məqbərəsi önündə

can arasında ədəbi, elmi və mədəni əlaqələrin genişlənməsi üçün hər cür şəraitin olduğunu xüsusi vurğuladıq.

Sonra Bağdadda türkmanların Mədəniyyət Mərkəzi «Qardaşlıq»da olduq. Müğənnilər çalıb-oxuduqca biz də onlara qarışıb şənləndik. Mən İraq–Azərbaycan ədəbi və mədəni əlaqələrinə dair çıxış etdim. Unudulmaz bir gün keçirdik. Demək olar ki, İraqın bütün tarixi yerlərində olduq. Bir daha əmin olduq ki, İraq dünya sivilizasiyasının yarandığı çox qədim ölkələrdən biridir. Bu torpağın hər qarışında möcüzə abidələr vardır.

Nə gizlədim, İraqda neçə illər işlədiyimdən məndə elə təsəvvür yaranmışdı ki, İraqda hər şey mənə bəllidir. Lakin İraqa bu növbəti səfərim zamanı səhv etdiyimi dərk etdim. Məsələ burasındadır ki, Bağdadda Museyi Kazımın məscidində xoş bir təsadüf nəticəsində Azərbaycanın misilsiz alimi Nəsirəddin Tusinin məqbərə və türbəsini üzə çıxardıq. Mən Nəsirəddin Tusinin Bağdadda dünyasını dəyişdiyini bilirdim. Azərbaycan Sovet Ensiklopediyasında (Bax: ASE–VII, s.231–232.) oxumuşdum: Nəsirəddin Tusi Bağdada səfəri

zamanı vəfat etmiş, «Cəlil Məscid»də dəfn olunmuş, qəbrinin üstündə «Elmin köməkçisi, elm ölkəsinin şahı, dövr anası belə oğul hələ doğmamışdır» sözləri yazılmışdır.

Başqa bir yerdə isə oxumuşdum ki, N.Tusi «Came Məscid»də dəfn olunub. Lakin İraqda «Cəlil Məscid»in harada olduğunu bilən yox idi. Came isə elə ərəb dilində məscid deməkdir. Odur ki, bu axtarışım da fayda verməmişdi.

Ərəblərin N.Tusiyə laqeyd münasibəti, Tusinin məqbərəsinin yerinin açıqlanmaması onunla bağlı olmuşdur ki, 1258-ci ildə Hülaki xan Bağdadı tutaraq Abbasilər sülaləsinə son qoyanda Nəsirəddin Tusi onun vəziri olmuşdu.

N.Tusinin məqbərəsi Museyi Kazımın məqbərəsi ilə yanaşıdır. Daha doğrusu, onun arxa tərəfindədir. Bura axın-axın gələn iman sahibləri hər iki məqbərəni sidq-ürəklə ziyarət edirlər.

Alimin məqbərəsində ərəbcə yazılmışdır. **«Bu məqbərə Xoca Nəsirəddin Ət-Tusi Məhəmməd bin Məhəmməd bin Əl-Həsənindir. O, 597-ci hicri ilinin camadülüla ayının 11-də şənbə günü sübh çağı Tusda anadan olub. 672-ci hicri ili zilhəccənin 18-də bazar ertəsi axşam çağı dünyasını dəyişib». Axırda yazılıb: «Heyif sənə Nəsirəddin Tusi!»**

Seyid Hibbətəddin
Əş-Şəhristani

Hörmətli redaksiya, şübhə etmirəm ki, bu məlumat alim və ziyalılarımızın marağına səbəb olacaqdır. Odur ki, onu ərəb dilində olduğu kimi vermənizi də xahiş edirəm.

Burada bir məsələni də xüsusi qeyd etmək zərurəti ortaya çıxır. Məlumdur ki, Museyi Kazımın bir qızı Hökumə (Həkimə) xanım Bakıda Bibiheybət məscidində, o biri qızı Rəhimə xanım isə Bakının Nardaran pirində uyuyur. Nəsirəddin Tusinin İmam Kazımla yanaşı dəfn olunması, İmam

N.Tusinin məqbərəsi.
Bağdad, Kazimiyyə məscidi

Kazımın iki qızının Bakının iki məşhur məscidində dəfn olunması hansısa əlaqədən, bağlılıqdan söz açmırmı?

Bu il Nəsirəddin Tusinin anadan olmasının 800 illiyi bütün dünyada YUNESKO xətti ilə qeyd ediləcək. Taledən gələn qismətdir ki, alimin məqbərə və türbəsinin yeri biz azərbaycanlılara onun yubiley ilində məlum oldu.

İnkar olunmaz bir həqiqətdir ki, vaxtilə Azərbaycanın da elm və mədəniyyət mərkəzi, paytaxtı olan Bağdadda, İraq türkmanları yaşayan ərazilərdə, ümumiyyətlə, bütün İraqda xalqımızda, keçmişimizlə bağlı diqqətəlayiq faktlar çoxdur. Onları üzə çıxarmaq, xalqa çatdırmaq üçün Azərbaycan Prezidenti cənab Heydər Əliyevin İraq türkmanlarının «Qardaşlıq» jurnalına verdiyi müsahibədə çox doğru olaraq göstərdiyi kimi (Bax: «Qardaşlıq» dərgisi, №8, oktyabr-dekabr – 2000), ədiblərimiz, tədqiqatçılarımız, musiqişünaslarımız, incəsənət nümayəndələrimiz davamlı olaraq İraqa gedərək orada çoxşaxəli fəaliyyət göstərməlidirlər. Eləcə də iraqlılar Azərbaycana gələrək onları maraqlandıran məsələlərlə məşğul ola bilərlər. Bu, Prezidentimizin dediyi kimi, ədəbi və mədəni əlaqələr yolunda ən böyük addım olardı.

İRAQ BİZƏ İRAQ DEYİL

Keçən əsrin 90-cı illərində «Yazıçı» nəşriyyatına təqdim olunan bu kitab Sovet sistemi dağılarkən vurduğu ağır iqtisadi zərbə ucbatından çap olunmadı.[1]

2001-ci ilin aprel-may aylarında İraqa səfərimiz zamanı İraq İnformasiya nazirinin müavini, şair Həmid Səid bir saata qədər davam edən İraq–Azərbaycan ədəbi və mədəni əlaqələrinə dair səmimi söhbət zamanı kitabın taleyi ilə maraqlandı.

Akademik Bəkir Nəbiyev və Əbdüllətif Bəndəroğlunun yanında cənab Həmid Səidə söz verdim ki, kitab çap olunacaq. Lakin bir məsələ var ki, kitabı on il bundan əvvəl tərtib etmişdik. Şübhəsiz kitabda adı keçən şairlərin sonralar neçə-neçə gözəl şeirləri işıq üzü görüb. Lakin biz onlara toxunmadıq.

Ərəb və kürd şairlərinin şeirlərini Azərbaycan dilinə Əbdüllətif Bəndəroğlu tərcümə etmişdir. Kitabda yer alan şeirlərin əksəriyyəti sərbəst vəzndədir. Kitab üzərində birgə iş zamanı məlum oldu ki, Bəndəroğlunun sərbəst vəzndə tərcümə və təqdim etdiyi şeirlərdən orijinalda heca vəznində olanları da az deyildir.

Ümumiyyətlə, son iki əsrdə İraq poeziyasında üç poetik cərəyan özünü göstərmişdir. Bunlar: «Əş-şer əl klassik əl-qədim» (qədim klassik şeir), «əş-şer əl-klassik əl-Sədid (neoklassik şeir) və «əş-şer əl-hurr» (sərbəst şeir) kimi təsrif olunurlar (Bax: Vilayət Cəfər. İraqda neoklassik poeziya. Bakı, 1998, s.7).

Tədqiqatçıların fikrincə, bu üç cərəyanın son ikisi həm forma, həm də məzmun axtarışları baxımından, üstünlük təşkil edir.

«Əş-şer əl-hurr» keçən əsrin 50-ci illərində mövcud olmuş və indi cağdaş şairlərin əksəriyyəti bu vəzndə şeirlər yazır.

Kitabda sərbəst şeirin aparıcı simalarından hesab olunan Əbdülvahab əl-Bayatı və Həmid Səid (ərəb), Məhəmməd əl-

[1] «Çağdaş İraq şeirindən seçmələr», Bakı, «Elm» nəşriyyatı, 2001, səh. 3.

Bədri (kürd), Əbdüllətif Bəndəroğlu və Nəsrin Ərbil (Türkman) kimi şairlərin şeirləri də yer almaqdadır.

«Çağdaş İraq şeirindən seçmələr» qismən də olsa müasir İraq poeziyasının ümumi mənzərəsi barədə təsəvvür yaradır. Eyni zamanda məzmun və ideyanı yeni poetik formalar daxilində ifadə etmək baxımından maraq doğurur.

Azərbaycan–İraq dostluğunu ifadə edən bu kitab bir daha təsdiq edir ki, İraq bizə iraq deyil, doğmadır.

İRAQLI ŞƏHİDLƏRİN QANI TORPAĞIMIZDA NAHAQ AXMAYIB *

Hörmətli redaksiya, qəzetinizin keçən sayında (6.04.01. № 13) Üzeyir Hacıbəyovun «31 mart» adlı məqaləsini oxudum. Çox təsirləndim. Xəyal məni qanadlarının üstünə alıb, İraqda keçirdiyim günlərə acılı-şirinli günlərə apardı. Bu qədim ölkəyə ilk səfərim zamanı (1962–1966) tez-tez Sahhətül Meydan deyilən yerdə «Kərkük» çayxanasına gedər, orada yaşlı adamlarla söhbət edər, Kərkük dialekti və İraq–türkman folkloruna dair materiallar toplayardım. Bir gün Osman adlı yaşlı bir kişi ilə tanış oldum. Azərbaycandan olduğumu biləndə həm sevindi, həm də fikrə qərq oldu. Xeyli susandan sonra 1917–1920-ci illər arası Azərbaycanda olduğundan və «Qafqaz qurtuluş ordusu» sıralarında bir çox iraqlı ilə bərabər erməni və ruslara qarşı vuruşlarda iştirak etdiyindən söz açdı. Azərbaycanda şəhid olub qalmış kərküklü dostlarını yada saldı.

Sovet dövlətinin qılıncının dalı da, qabağı da kəsdiyi XX əsrin 80-ci illərində təbii ki, mən bu məsələdən «Altı il Dəclə–Fərat sahillərində» kitabında söz aça bilməzdim.

* «Ədəbiyyat qəzeti», 13.04.2001.

Aradan illər keçdi…

Üzeyir bəy yazır ki, türk qəhrəmanları vaxtında gəlməsəydi, azəri türkləri Bakı məğlubiyyətindən sonra özlərini yığışdırıb müdafiəyə hazır olmağa fürsət tapınca, bir Bakıda, Şamaxıda deyil, bəlkə də, bütün Azərbaycanda daş-daş üstə qalmazdı. Üzeyir bəyin söhbət açdığı qəhrəmanlar arasında neçə-neçə iraqlı-kərküklü də olmuşdu.

Məlumdur ki, Bakıda və Azərbaycanın başqa ərazilərində vəziyyət ağırlaşanda Azərbaycan hökuməti güvənc yeri Türkiyədən hərbi yardım istəmişdi. Türkiyənin Müdafiə naziri Ənvər paşanın qardaşı Nuru paşanın komandanlığı ilə «Qafqaz qurtuluş ordusu» Gəncəyə daxil olmuş, Gəncədə tanınmış ziyalımız Tofiq Bağırovun məlumatına görə 600 nəfər azərbaycanlı atlı süvarilər də onlara qoşulmuş, Göyçay, Kürdəmir, Ağsu, Şamaxıdan keçmiş, düşmənə öldürücü zərbələr endirərək «Qurd keçidi» deyilən yerdən Bakıya daxil olmuşlar. Bakıda da qanlı döyüşlər olmuşdu. Xalqımızın azadlığı uğrunda döyüşlərdə 1130 nəfər şəhid olmuş və Azərbaycanın müxtəlif guşələrində ikinci vətənlərində adsız məzarlarda uyuyurlar. Lakin şəhid olanların bir çoxunun adı məlumdur. Bakıda, Dağüstü parkda, Şəhidlər Xiyabanında general Həzi Aslanovun məzarı önündə 15 sentyabr 1999-cu ildə ucaldılmış abidə və şəhid olanların adları göstərilmiş, xatirə lövhələri bu xoş mərama xidmət edir. Şəhid olanlar arasında 11 nəfər iraqlı əsgər vardır. Onlardan biri Bağdaddan, üçü Süleymaniyyədən, yeddisi isə Kərkükdəndir. «Ədəbiyyat qəzeti»nin İraqa göndərildiyini nəzərə alaraq onların adlarını qəzetdə verməyinizi xahiş edirəm.

1. Xurşud oğlu Zeynalabdin – doğulub: 1308 hicri – Kərkük, həlak olub: 15.11.1330 – Qafqaz cəbhəsi.
2. Dərviş Məhəmməd oğlu Tofiq Əfəndi – doğulub: Kərkük, həlak olub: 12.11.1330.

3. Həsən Saki oğlu İbrahim – doğulub: 1284 – Kərkük, həlak olub: 15.11.1330.
4. Abbas oğlu Əli Qalib Əfəndi – doğulub: Kərkük, həlak olub: 05.04.1334.
5. Abdulla oğlu Məhəmməd Əfəndi – doğulub: Kərkük, həlak olub: 12.11.1330.
6. Hacı Süleyman oğlu Siddiq – doğulub: 1289 – Kərkük həlak olub: 15.11.1330.
7. Məhəmməd oğlu Tofiq Əfəndi – doğulub: Kərkük, həlak olub: 15.11.1330.
8. Abdurrazzaq oğlu Mustafa Şövkət Əfəndi – doğulub: Bağdad, həlak olub: 30.10.1330.
9. Qadir oğlu Abdulla – doğulub: 1307 – Süleymaniyyə, həlak olub: 15.08.1334 – Bakı ətrafında.
10. İsmayıl Fəttah oğlu Məhəmməd – doğulub: 1284 – Süleymaniyyə, həlak olub: 22.09.1330.
11. Rüstəm oğlu Ramazan – doğulub: 1302 – Süleymaniyyə, həlak olub: 15.11.1332.

Aradan illər keçsə də, indi hər dəfə Şəhidlər Xiyabanında iraqlı qardaşlarımızın xatirə lövhələri önündə baş əydikcə, göz önünə, ilk olaraq, kərküklü Osman kişi və dost İraq xalqı gəlir. Təsəllimi onda tapıram ki, şəhidlərin torpağımızda qanları boş yerə axmayıb. Azərbaycanın müstəqilliyinə və Azərbaycan–İraq xalqları arasındakı bugünkü dostluğa xidmət edib. Şübhəsiz, belə olmasa idi, «Altı il Dəclə–Fərat sahillərində» kitabımda «İraq bizə iraq deyil» yazmazdım. Ayaz Vəfalı isə həmin kitaba yazdığı giriş məqaləsini «İraq necə yaxın olur» adlandırmazdı.

FOLKLORUMUZUN ÖYRƏNİLMƏSİ *

Nədənsə Kərkük anıldığı vaxt xəyalımda, ilk olaraq, şifahi xalq ədəbiyyatı canlanır. Bu da təbiidir. Taleyimi «Bilmirəm haralıyam, torpağım, daşım qərib» deyən kərküklülərin – İraqda yaşayan azərbaycanlıların taleyi ilə bağladığım vaxtdan bu günə qədər Kərkük folklorunun zənginliyi, qeyri-adi müdrikliyi, ürəyəyatımlığı məni heyran etmişdir.

Kərküklü folklorşünas Sübhi Saatçının «Kərkük çocuq folkloru» (İstanbul, 1984) kitabını vərəqlədikcə, hər şeydən əvvəl, diqqətimi cəlb edən də bu cəhət oldu. Kitabın avtoqrafında möhtərəm dostum Qəzənfər Paşayevə… oxuduqda İraqda keçirdiyim illər göz önünə gəldi, Kərkük folkloruna dair material toplayanda mənə yaxından kömək etdiyinə görə «Kərkük bayatıları» kitabında təşəkkür etdiyim, qardaşım Sübhi yada düşdü.

Uzun illərin məhsulu olan «Kərkük çocuq folkloru» kitabı «Oxşamalar», «Dualar», «Laylalar», «Uşaq mahnıları», «Çaşırtmaclar» («Yanıltmaclar»), «Əskilər sözü», «Tapmacalar», «Matallar» (nağıllar) və «Biblioqrafiya» bölmələrindən ibarətdir. Əsərdə tədqiqatçı Sovet Azərbaycanında çap olunmuş kitablardan bol-bol istifadə etmiş, bu imkana görə prof. Abbas Zamanova təşəkkür etməyi də unutmamışdır: «Sovet Azərbaycanında folklor – xalq ədəbiyyatı üzrə kitablarla bizləri xəbərdar edən əziz dost, möhtərəm professor Abbas Zamanova minnətdarlığımı bildirmək istəyirəm».

Kitabın girişində Sübhi Saatçı topladığı zəngin folklor materialından və əldə olan ədəbiyyatdan çıxış edərək doğru

* «Ədəbiyyat və incəsənət» qəzeti, 19.04.1985, səh. 6.

nəticələrə gəlmişdir. Tədqiqatçı qeyd edir ki, Kərkük dolaylarında yaşayan bu elat Azərbaycan dilində danışır. Yazı dili isə türkcədir. Bu, türklərin İraqı tutduğu vaxtdan – XVI əsrdən sonra baş vermişdir. Bununla bərabər, indinin özündə belə yazı dili türkcə olduğu halda, danışıq dili Azərbaycancadır.

Sübhi Saatçının kitabda verdiyi külli miqdarda folklor nümunələri də onun dediklərini təsdiq edir. Oxşamalardan danışarkən tədqiqatçı göstərir ki, Kərkük dolaylarında türkcədən fərqli olaraq, «sevmələr» deyil, Sovet Azərbaycanında olduğu kimi, «oxşamalar» işlənir. Oxşamalar xalq arasında geniş yayılmışdır. Onlar ayrıca olaraq ya oğlan, ya da qız uşağına rəğmən söylənir, ya da elə belə, kiçik uşağa aid olur. Məsələn:

Ataram, tutaram səni,
Şəkərə qataram səni,
Baban (atan) evə gələndə
Qucuna ataram səni.

Yaxud:

Qızım, qızım
Muncuğun düzüm
O gün olsun gəlin olasan
Toyunda süzüm.

Görün ana övladının gəzməyə başlamasını necə böyük intizarla, həsrətlə gözləyir:

Üzərliksən, məzə sən;
Damar-damar gözə sən.
O günə qurban olum,
Evimizdə gəzəsən.

Türkiyədə ninni kimi işlənən laylalar Kərkük dolaylarında leyla kimi tanınır. Uşaqları uyutmaq, yuxuya vermək üçün laylalardan istifadə edirlər: Laylalar formasına görə bayatılardan fərqlənmir. Laylanın əvvəlində və axırında «leyla, balam, leyla», «leyla, gözüm, leyla», «leyla, ömrüm, leyla» və ya «üllə, balam, üllə», «üllə, ruhum, üllə» deyirlər. Bir çox hallarda laylaları dua, dilək, oxşama və s. fərqləndirmək mümkün olmur.

Leyla edim mən daim
Yuxun olsun mülayim.
Xudama çox yalvarram
Olasan mənim payım.

Yaxud:

Leyla dilər;
Yatıpdı leyla dilər.
Vurğun yuxu salıpdı,
Mənnən bir leyla dilər.

«Uşaq maniləri»nin bir çoxu tədqiqatçının göstərdiyi kimi rəgləri, rəqəmləri, insan bədəninin üzvlərini və s. fərqləndirmək üçün işlədilir.

Dualar anaların uşaqlarına rəğmən etdikləri arzu, diləkdir:

Dilərəm bəg olasan
Aləmnən ög (ön) olasan.
Qərənfil cumbutu (buta) tək
Gündə yüz rəng olasan.

Gögərçin havadadı
Əlyetməz yuvadadı.
Bir əlim başın altda,
Bir əlim duadadı.

Çaşırtmaclar və ya yanıltmaclar uşaqlar arasında geniş yayılmışdır. Uşaqlar bir-birinə «Munu çaşmadan deyə bilisən?» soruşur və qarşısındakı uşağı imtahan edir. Məsələn:

Aşçı Həsən aş asdı,
Asanda ağlı çaşdı.
Aşçı Həsən aş asmış,
Yaxşı asmış, xoş asmış.

Şərq müdriklərinin «ağlın gözü» adlandırdığı, xalqın tarixini, inam və etiqadını, arzu və istəyini, dostluq və səadətini özünəməxsus bir şəkildə əks etdirən müstəsna dəyərə malik bir xəzinə olan atalar sözlərindən də kitabda danışılır və nümunələr verilir.

Yeri gəlmişkən deyək ki, tədqiqatçı atalar sözlərinin tərtibi zamanı «İraq–Kərkük atalar sözləri» («Yazıçı», 1978) kitabımızdan istifadə etdiyini də qeyd edir. Kitabın tapmacalara həsr olunmuş bölməsi genişdir. Ağlı, zəkanı inkişaf etdirmək, düşüncə və muhakiməni gücləndirmək kimi yüksək bir məqsədə xidmət edən tapmacalar müəllifin göstərdiyi kimi, Kərkük dolaylarında da bu adla məlumdur. Kitabda verilmiş iki yüz əlliyə qədər tapmaca mövzu etibarilə müxtəlifdir. Onların arasında nəzmlə olan tapmacalar daha çoxdur:

Ayaqları su içər,
Üstünnən gələn keçər.

(Körpü)

Daşdandı, dəmirdəndi,
Mayası xəmirdəndi.

(Dəyirman)

Qurmadan işlər,
Durmadan işlər

(Ürək)

Toxumsuz bitər,
Dünyaya yetər.

(Toz)

Kitabda bir sıra uşaq nağılı da yer almaqdadır. Demək lazımdır ki, Kərkük dolaylarında nağıl da, dastan da matal sözü ilə ifadə olunur. Nağıllar mütləq: «Var idi, yox idi, yalan gerçəkdən çox idi» sözləri ilə başlanır.

Sübhi Saatçının bu qiymətli əsərini nəinki Kərkük, ümumiyyətlə, Azərbaycan folklorunun hərtərəfli öyrənilməsi yolunda atılmış uğurlu addımlardan hesab etmək doğru olardı.

HƏSRƏT – VÜSAL YOLLARINDA *

Əbdüllətif Bəndəroğlunun Azərbaycan-İraq-türkman ədəbi-mədəni əlaqələrinin inkişafında misilsiz xidmətləri vardır. Onun ədəbiyyatımız yolunda gördüyü böyük işlərin qiymətini, əzəmətini illər keçdikcə dərindən duyacağıq.

Filologiya elmləri doktoru Araz Dadaşzadənin, Ə.Bəndəroğlu barədə dediyi sözlər mübaliğəsizdir. «Cəsarətlə demək olar ki, Ə.Bəndəroğlu ədəbiyyatımızın, ümumiyyətlə, mədəniyyətimizin İraqda tam səlahiyyətli nümayəndəsi, yo-

* *Bax:* «Azərbaycan gəncləri» 15.07.1989; «Yurd» qəzeti, Bağdad, 11.01.1990. Ə.Bəndəroğlu. «Göylər unutmuşdu yağacağını» kitabına «Ön söz». Bakı, «Yazıçı», 1991, s. 120–125 (Kitabı Q.Paşayev tərtib etmişdir – *red.*).

rulmaz, fədakar təbliğatçısı və tədqiqatçısıdır». Necə olmuşdur ki, Bəndəroğlu ədəbiyyatımızın bilicisi, yorulmaz təbliğatçısı, tədqiqatçısı kimi şöhrət qazanmışdır? Hər şeydən əvvəl, bu böyük arzunun və məhəbbətin nəticəsi kimi qiymətləndirilməlidir.

Xalq arasında məsəl var, deyərlər: «Niyyətin hara, mənzilin ora». Əbdüllətif Bəndəroğlu gəncliyində Azərbaycanı görmək arzusu ilə yaşamış, hətta 1961-ci ildə «Bakıya həsrətlərim» adlı şeir də yazmışdı:

İçimdə sönməz, yanar
Şiddətlə şövq Bakıya.
Yoldaşlarım da bilir,
Məndə var zövq Bakıya,
Bir dostum daim sorur:
Səfərin yox Bakıya?!.

Çox keçmədi ki, Bəndəroğlunun arzusu yerinə yetdi, həsrəti vüsala çevrildi. Gediş-gəlişin sayı artdı. M.F.Axundovun 175 illik yubiley şənliklərində şairin iştirakı (1988-ci il, oktyabr) onun Azərbaycana 8-ci səfəri idi.

Yaradıcılığının müdriklik çağını yaşayan Bəndəroğlu 1937-ci ildə Kərkük vilayətinin indi qəza mərkəzi olan Tuz Xurmatu adlı gözəl bir guşəsində dünyaya gəlmişdir. İlk təhsilini Tuz Xurmatuda almış, sonralar təhsilini Kərkükdə davam etdirmişdir. Elə orada da Neft Sənaye Texnikumuna daxil olmuş, lakin siyasi baxışına görə 1956-cı ildə üçüncü kursda olarkən texnikumu tərk etmək məcburiyyətində qalmışdı. Kiçik yaşlarından, necə deyərlər mayası zəhmətlə tutulduğundan təhsili yarımçıq qalsa da, gecə-gündüz çalışması, yuxusuz keçirilən gecələr, alın təri, zəhməti öz bəhrəsini vermişdir. İndi şair, ədəbiyyatşünas, jurnalist, tərcüməçi və ictimai

xadim kimi tanınan Əbdüllətif Bəndəroğlu İraq Mədəniyyət Nazirliyinin nəzdində «Türkman mədəniyyət müdirliyi»nin yarandığı ilk gündən (1970) onun rəhbəri kimi İraq türkmanlarına verilən mədəni haqların həyata keçirilməsində səmərəli fəaliyyət göstərir. O, eyni zamanda 1970-ci ilin iyun ayında təşkil olunmuş «Türkman Ədəbiyyatçılar Birliyi»nin katibi və ilk nömrəsi 1970-ci il iyunun 18-də çıxan «Yurd» qəzetinin o vaxtdan bu günə kimi baş redaktorudur. Təbii ki, bütün bunlar onun vaxtını çox alır. Bununla belə, deməliyik ki, Bəndəroğlu bədii yaradıcılıq və tədqiqatla da ciddi məşğul olur. Şairin kitabları İraq, Türkiyə və Azərbaycanda nəşr edilmişdir. Sovet Azərbaycanında şairin «Qərənfil» adlı şeirlər kitabı (1977), xalq şairi, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, professor Bəxtiyar Vahabzadənin maraqlı giriş məqaləsi ilə ilk dəfə çap edilmişdir. «Göylər unutmuşdu yağacağını» kitabı şairin oxucularımızla ikinci görüşüdür. Əsərlərdən göründüyü kimi, Bəndəroğlunun şeirlərinin mövzusu rəngarəngdir. Lakin onların ana xəttini sevgi-məhəbbət və siyasi motivlər təşkil edir. Siyasi məzmunlu şeirlərdə vətənə, torpağa bağlılıq, ana dilinə dərin məhəbbət, milli qürur və s. daha qabarıq şəkildə özünü göstərir. «Ağsu» şeirində olduğu kimi:

Sənin suyundan içib,
Yaşadım torpağında,
Ən ağır günlərimi,
Keçirdim qucağında.
Dirəndim, baş qaldırdım
Sevgili qucağında.
Gözümdə yaş qurudu,
Sən quruma ax, Ağsu!
Bir dön bizə bax, Ağsu!

Maraqlıdır ki, bütün başqa şairlər kimi, o da xoyrat (bayatı) yazmış, bu gün də xoyrat yazmaqda davam edir. Lakin bu sahədə onu başqa şairlərdən fərqləndirən bir cəhət vardır. Bəndəroğlu İraq–türkman xoyrat tarixində ilk siyasi xoyrat yazan şairdir (Bax: «Yurd» qəzeti, 23.III.1989-cu il, s.5). Şairin özünün şeirə, sənətə verdiyi qiymət bir daha yuxarıda dediklərimizi təsdiqləyir. «Məncə, şeir dünyanın çöhrəsini dəyişdirən, insanlar arasında dostluq, qardaşlıq bağlarını yaradan bir arac olmalıdır. Şeirin hər dürlü haqsızlıqlara qarşı qullanılan (işlədilən) barut olması gərəkdir. Şeir insanın içində olan dövrimçi (iqilabçı) düşüncələri qoruyan bir arac olmalıdır» (Bax: «Çağdaş türkman şairləri, I cild, Bağdad, 1973, s.166).

Əbdüllətif Bəndəroğlu bir neçə şeir kitabının müəllifidir. «Günəş şərqisi» (Bağdad, 1969), «Yurd torpağı» (Ankara, 1976), «Qərənfil» (Bakı, 1977), «Çığlıq və yara» (Bağdad, 1979), «Yanar dağlardan püskürən ulduzlar» (Bağdad, 1982), «Dəryanın dibi» (Bağdad, 1980-ci il ərəbcə), «Ürək çırpıntıları» (Ankara, 1987).

Əbdüllətif Bəndəroğlu həm də tanınmış tədqiqatçıdır. Bir ədəbiyyatşünas kimi Azərbaycan ədəbiyyatının təbliği sahəsində onun xidmətləri böyükdür.

Klassik və müasir yazarlarımıza həsr etdiyi bir çox məqalələrlə bərabər, o, bir neçə monoqrafiyanın da müəllifidir. Onlardan «Füzuli bayatlı» (Bağdad, 1971), «İmadəddin Nəsimi əl-Bağdadi» (Bağdad, 1973), «Türk şeirinə dair araşdırmalar» (Bağdad, 1983-cü il, ərəbcə), «Azərbaycan şairləri» (I cild, Bağdad, 1987).

Qeyd etmək lazımdır ki, qədim dövrdən 1917-ci ilədək poeziyamızın keçdiyi inkişaf yolunu işıqlandıran və gərgin yaradıcılıq məhsulu olan bu kitabın sovet dövrü şairlərimizə həsr edilən 2-ci cildi çapa hazırlanır.

Əbdüllətif Bəndəroğlu, eyni zamanda tanınmış tərcüməçidir. «Səməd Vurğun. Seçilmiş şeirləri» (Moskva, 1977), «Türk şeirindən seçmələr» (Küveyt, 1978, Bağdad, 1986) kimi ərəb dilinə uğurla tərcümə olunmuş kitabların və eyni zamanda ərəb dilindən Azərbaycan dilinə çevirərək «Yazıçı» nəşriyyatına təqdim etdiyi «İraq şairlərinin şeirlərindən seçmələr» kitabları onun qələminin məhsuludur.

Şübhə yoxdur ki, «Çağdaş Azərbaycan şeirindən seçmələr» (Bağdad, 1972) və Asiya Məmmədovanın «Bayatılar» (Bakı, 1977) kitabının xoyratlarla müqayisəli çapında da (Bağdad, 1989) onun əməyi az olmamışdır.

Əbdüllətif Bəndəroğlu dil, tarix və folklor sahəsində də qələmini uğurla sınamışdır. «İraq–türkman ədəbiyyatı yolunda bir addım» (Bağdad, 1962), «İraq–türkman dili» (Bağdad, 1977;1989), «Türkcə-ərəbcə sözlük», 4 cilddə (1981–1982, Bağdad–Beyrut) (Məhəmməd Xurşid Daquqlu və İbrahim Daquqi ilə ortaqlı), «Ata sözlərimiz» 2 cilddə (Bağdad, 1988, 1989) dediklərimizə misal ola bilər.

Əbdüllətif Bəndəroğlu, eyni zamanda Nazim Hikmətə həsr edilmiş «İnsanlıq və azadlıq» (Bağdad, 1972) adlı ərəbcə yazılmış monoqrafiyanın da müəllifidir.

Ümumiyyətlə, Əbdüllətif Bəndəroğlu bir çox kitabların müəllifi və ya tərtibçisi və çapa hazırlayanıdır. Ədəbiyyatımızın dostu və gözəl bilicisi Əbdüllətif Bəndəroğlunun vətənimizə hər gəlişi yeni-yeni kitablar, planlar, məqalələr, əlaqələr deməkdir.

Əbdüllətif Bəndəroğlu bu günlərdə vətənimizdə olmuş (may-iyun, 1989), həmişə olduğu kimi bu dəfə də necə deyərlər, əliboş gəlməmişdir. Şair Bağdadda yenicə çap etdirdiyi və həmvətənlərinə – İraq türkmanlarına töhfə etdiyi iki kitab gətirmişdir: Bəxtiyar Vahabzadə, «Seçilmiş şeirlər» (1989),

Nəbi Xəzri, «Seçilmiş şeirlər» (1989). Şairlərin böyük portretləri ilə verilən bu kitabların hər biri 144 səhifədən ibarətdir. Kitabları şairlərin son illərdə yazdıqları şeirlər əsasında Ə.Bəndəroğlu tərtib edərək onlara geniş ön söz yazmışdır. Hər iki kitab Ə.Bəndəroğlunun sevimli şairlərimizə həsr etdiyi səmimi şeirlərlə başlayır:

Bəxtiyarım, yurd uğrunda,
Bükülməz heç biləklərin.
Şeirlərin xalqın səsi.
İstəklərin, diləklərin,
Unudulmaz bir bəstəsi və s.

Şairin Nəbi Xəzriyə ithaf etdiyi şeir də gözəldir:

İnsanların,
Acısına, həsrətinə
Ortaq olduq.
Sevə-sevə dilimizi.
Yavaş-yavaş
Qan damarda dolaşırkən,
Öğrənildi
Bayatıyla xoyratımız –
Varlığımız və s.

Açığını deyək ki, «Göylər unutmuşdu yağacağını» kitabı da həmin əlaqələrin bəhrəsidir. Respublikamızdan döndükdən sonra «Yurd» qəzetində (bu qəzetin elə bir nömrəsi olmaz ki, orada ədəbiyyatımıza, yazıçılarımıza, tədqiqatçılarımıza, folklorumuza, ictimai həyatımıza, ümumiyyətlə, mədəniyyətimizə yer verilməsin) çap etdirdiyi məqalələr, şair və yazıçılarımızın araşdırmaları və s. də diqqəti cəlb edir. Bütün bunlar həsrətin vüsala çevrilməsi nəticəsində mümkün olmuşdur.

Həsrətin vüsalla çulğalaşması şair qəlbini riqqətə gətirmiş, Azərbaycanla, xüsusən də Bakı ilə bağlı silsilə şeirlər meydana gəlmişdir: «Bakıya həsrətlərim», «Qərənfil», «M.F.Axundova», «Qız qalası», «Bir azəri gözəlinə», «Mən Bağdadda, yar Bakıda» və s. şeirlərinin hamısı şairin «Göylər unutmuşdu yağacağını» kitabına daxil edilmişdir. Oxucular bu kitabda öz zövqlərinə uyğun neçə-neçə şeir, xoyrat – bayatı və iki poema ilə tanış olacaqlar.

Şübhə yoxdur ki, İraq türkmanlarının folklorunu, musiqisini, ədəbiyyatını dərindən sevən oxucularımız qanı-qanımızdan, dili-dilimizdən olan Əbdüllətif Bəndəroğlunun yeni şeirlərini də bir qardaş ərmağanı kimi layiqincə qiymətləndirəcəklər.

KƏRKÜK TAPMACALARI HAQQINDA*

Tapmacalar da bayatılar, atalar sözləri, lətifələr kimi Kərkük dolaylarında geniş yayılmışdır.

V.Xuluflunun haqlı olaraq xalq fikrinin matematikası adlandırdığı tapmacalar kərküklülər arasında da bu adla məlumdur.

Kərküklü folklorşünaslar xalq ədəbiyyatının bu gözəl incilərinə dair xüsusi elmi tədqiqat aparmasalar da, bəzi əsərlərdə ötəri də olsa toxunmuş və tapmacalardan nümunələr vermişlər. Şakir Sabir «Kərkükdə ictimai həyat» adlı kitabında səksənə qədər tapmaca vermiş, alim İbrahim Daquqlu isə İraq türkmənləri, dilləri, tarixləri və ədəbiyyatı» kitabında on tapmaca vermiş, az da olsa Kərkük tapmacalarından söz açmışdır. Aydın Kərkük də «Bilməcə» kitabçasının girişində tapmacalardan söz açır.

* *Bax:* Kərkük tapmacaları, Bakı, «Gənclik», 1984, s. 3–7.

Həyatın kitabsız, radiosuz, kinosuz, teatrsız keçən bir dövründə yorucu bir qış gününün səfasını sürmək, uzun gecələrin əzici və üzücü yalqızlığını atmaq üçün xalq müxtəlif əyləncələr düşünüb-daşınmış ki, tapmacalar da təbii olaraq bu qüvvətli arzunun nəticəsi kimi meydana gəlmişdir. Zaman keçdikcə tapmacalar ağlı, zəkanı inkişaf etdirmək, düşüncə və mühakiməni gücləndirmək kimi böyük bir amala xidmət göstərsə də, xalq onlara əyləncə vasitəsi kimi baxmaqda davam etmişdir. Kərküklülər tapmaca deməyə «Tap nədi, tapış nədi?» deyə başlayırlar. Tapmacanı tapa bilməyəndə dinləyənlər düşünərək fikirlərindən keçəni dəqiqləşdirmək, tapmacanın açılmasına, yozulmasına kömək edəcək suallar verirlər:

Gözlə görülər, yoxsa görülməz?
Yeyilər, yoxsa yeyilməz?
Diridi, yoxsa ölüdü?
Suda yaşar, yoxsa havada?

Tapmacanı yoza bilməyəndə onu söyləyənə bir kənd, qəsəbə və ya şəhər «bağışlayacaqlarını» vəd edər, açmasını istərlər. Əgər tapmaca deyən onu açmasa, söz-söhbət başlar.

Min mindim ala ata,
Sən mindin qotur bəgirə[1].
Mən zaxtaladıqca[2] *baldan yağ yeyərəm,*
Sən zaxtaladıqca qanla ayran yeyərsən.

Və ya:

Mən çağırdım at gəlsin,
Sən çağırdın it gəlsin.
Mənim üçün bir al at gəldi,

[1] Qatır; [2] Çalxalanmaq

Sənin üçün bir tazı gəldi,
Mən mindim al ata,
Sən mindin tazıya və s.

Kərkük tapmacaları mövzu etibarilə müxtəlifdir. Burada həyatın bütün sahələrinə aid tapmacalara təsadüf edilir. Musiqi alətləri ilə bağlı tapmacalar, bəzək-düzəklə, oxumaq-yazmaqla, insan oğlu ilə, geyim-kecimlə, silah və alətlərlə, tikili və tikinti ilə, yeməklə-içməklə, heyvanlar, bitkilər aləmi, kainat, mücərrəd məfhumlar və təbii hadisələrlə bağlı tapmacalar. Evəşik və yaşayışla, meyvələr, əkin-biçin, bağ və bostanla bağlı tapmacalar üstünlük təşkil edir. Kitaba daxil etdiyimiz tapmacalar yuxarıdakı başlıqlar altında qruplaşdırılmışdır.

Yuxarıda göstərilən mənbələrdən götürdüyümüz tapmacalarla yanaşı, kərküklülərin maraqlı jurnalı olan «Qardaşlıq»da gedən və xalq ağzından eşitdiyimiz tapmacalar da kitaba daxil edilmişdir. Bəzi tapmacaları kərküklü folklorşünas Mövlud Taha Qayaçıdan əldə etmişik.

Kərkük tapmacaları da bizdə olduğu kimi həm nizmlə, həm də nəsrlədir. Lakin nəzmlə olan tapmacalar daha çoxdur. Bunlar iki və daha artıq misralı vəzn və qafiyəsi yerli-yerində olan parçalardan ibarətdir:

Qapqaradır hər yanı,
Hər gün dağlanır canı. (Qazan)

Və yaxud:

Ruhu yoxdu, almaz nəfəs,
Şəkli, cismi eyni qəfəs.
Əgri beli, uzun boyu,
Çox nəşəli verir bir səs.
Boş qarnına dolar hava,
Məhzun səsi dərdə dava. (Ud)

Qeyd etmək lazımdır ki, bizdə olduğu kimi, Kərkükdə də tapmacaların bəzilərində hər misranın özü də ayrıca cavaba malik bir tapmacadır. Məsələn:

Dağda Düleyman. (İlan)
Suda Süleyman. (Balıq)
Obada Osman. (Xoruz)
Yatar gövşər. (Qoyun)
Duzsuz bişər. (Süd)

Kərkük tapmacaları arasında bayatısayağı düzəldilənləri də vardır:

Azara gedər,
Azar bazara gedər.
Babası bir yaşında,
Oğlu bazara gedər. (Meyvə, qovun)

Kərkük dolaylarında bəzən bir tapmacanın bir neçə variantına rast gəlinir.

Belə tapmacaların dil baxımından, gələcəkdə tədqiqat baxımından maraqlı olacağını nəzərə alaraq bəzən başqa variantlarını da saxlamışıq. Şübhəsiz ki, bu tapmacalar əvvəllər müəyyən təhriflərlə çap olunmuş bəzi tapmacalarımızın dəqiqləşdirilməsinə kömək edəcəkdir. Onu da demək yerində olardı ki, tapmacalar Kərkük dialektində olduğu kimi verilmişdir.

Kərkük tapmacalarını oxuduqca dönə-dönə bu qənaətə gəlirsən ki, tapmacalar, doğrudan da, «xalq elmi»dir. Həyatın elə bir sahəsi yoxdur ki, ona dair Kərkük dolaylarında neçə-neçə tapmaca olmasın. Ümumiyyətlə, Kərkükdə da ətraf qəsəbə və kəndlərdə də başqa xalqlarda olduğu kimi tapmaca elə düzəldilir ki, əşya və ya hadisənin bio əlaməti və ya keyfiyyəti üstüörtülü şəkildə söylənilir, başqa cəhətləri isə gizli saxlanılır. Tapmacanı dinləyən şəxs həyat, kainat, təbiət və sairə haqqında yaxşı məlumata malik olduqda bu tapmacanı açmaq çox da böyük zəhmət, düşüncə tələb etmir. Məsələn:

Həm ilikdi, həm sümükdü, həm dəri,
Yeməsinə cümlə aləm müştəridi, müştəri.

Tapmacanın hansı bir yeməyəsə aid olması şübhə doğurmur. Bəs o hansı yeməkdir ki, sümük, dəri və ilik onun əsasını təşkil edir. Əlbəttə, tapmaca Kərkük dolaylarında çox sevilən kəlləpaça ilə bağlıdır. Və yaxud:

Bişirsən aş olur,
Bişirməsən quş olur.

Yumurta ilə bağlı tapmacalar.

İnsanlar, onun bədən üzvləri ilə bağlı tapmacalar Kərkük, ətraf qəza, qəsəbə və kəndlərdə həm kəmiyyətcə, həm də keyfiyyətcə seçilir:

Beşdə quzu,
Onda toğlu.
İgirmidə aslan
Otuzda qaplan. (İnsan)

Və ya:

Qurmadan işlər,
Durmadan işlər. (Ürək)

Qeyd etmək lazımdır ki, Kərkük tapmacaları bizim tapmacalardan o qədər də fərqlənmir. Bu da təbiidir. Çünki kərkük dolaylarında məskən salan bacı-qardaşlarımız da, biz də eyni xalqa mənsub olub, eyni dildə danışırıq. Oxucular Kərkük tapmacalarını oxuyarkən bir daha bunun şahidi olacaqdır. Kərkük tapmacalarının da, bizim tapmacalarımızın da eyni düşüncə, eyni təxəyyül və eyni təfəkkür məhsulu olduğunu görəcək, əsrlərin süzgəcindən keçərək saflaşan, büllurlaşan bu qızıl qiymətli şeir parçalarından zövq alacaq, onları yaradanları – böyük Füzulimizin nəvə-nəticələrini hörmət və ehtiramla yad edəcəkdir.

KƏRKÜK LƏTİFƏLƏRİ*

İraqda yaşayan azərbaycanlılar arasında xalqın məişətindən doğan duzlu, məzəli lətifələr çoxdur. Lakin onların arasında Molla Nəsrəddin lətifələri xüsusilə fərqlənir. Sadəlövhlüklə xalq müdrikliyini özündə birləşdirən paxıllıq, fırıldaq, şöhrətpərəstlik, qəddarlıq, haqsızlıq, hiyləgərlik, hərislik, acgözlük, cahillik və s. mənfiliklərə qarşı mübarizə aparan bu xalq müdriki Kərkük dolaylarında da bizdə olduğu kimi Molla Nəsrəddin və ya sadəcə olaraq Molla kimi məşhurdur. Maraqlıdır ki, Molla Nəsrəddin lətifələri ilə bağlı ənənə onlarda da bizdəkinin eynidir. Molla Nəsrəddin lətifələrindən söz salan gərək yeddi lətifə danışsın. Qulaq asanların da hər birinin yeddi lətifə danışması arzu olunur. Bu adət Molla Nəsrəddin lətifələrinin geniş yayılmasına imkan vermişdir. Bu da təbiidir. Öz mayasını xalqdan alan bu ibrətamiz yaradıcılıq aləmi hamının malı olduğundan lətifələr əsrdən-əsrə, nəsildən-nəslə keçərək ürəklərdə məskən salmış, ölməz ədəbi irsə çevrilmişdir. Dərrakəli, qorxmaz, hazırcavab, zirək, tədbirli, zarafatcıl Molla Nəsrəddin onlarda da ağıl və fərasət nümunəsidir. Haqq-ədalət carçısı, kasıbların tərəfdarı olan Molla təbii ki, xalqın sevimlisinə çevrilmişdir. Kərküklülər arasında məşhur olan Molla Nəsrəddin lətifələrinin əksəriyyəti bizdəkilərin eynidir. Bəzi fərqli olanlarına da rast gəlinir. Bu, hər şeydən əvvəl, lətifələrin müxtəlif sənətkarlar tərəfindən yaradılaraq yayılması, Molla Nəsrəddin əhval-ruhiyyəsinə uyğunlaşdırılması və onun adına çıxılması ilə izah olunmalıdır.

Molla Nəsrəddinlə bağlı Kərkük lətifələrini dinlədikcə istər-istəməz gözlərimiz önündə sadəlövhlükdən müdrikliyə

* «Ədəbiyyat və incəsənət» qəzeti, 6.07.1984, s. 8.

qədər uzun bir yol keçmiş, dünyagörmüş nurani qocanın əyilməz, məğrur sifəti canlanır. Yüzilliklər boyu dərin mənası və hikmətilə insanları ovsunlayan bu duzlu, məzəli hekayələrin heç vaxt köhnəlmədiyinin, əbədi təzə-tər olduğunun şahidi oluruq. Bu lətifələrin məziyyəti yığcamlığında, hikmətamiz və ibrətamiz olmasındadır. Dərin həyatiliyi və səmimiliyi ilə fərqlənən Molla Nəsrəddin lətifələri Kərkük dolaylarında məclislər yaraşığı, dillər əzbəri olmuşlar. Onların mövzu dairəsi əhatəli, rəngarəngdir.

Burada Molla Nəsrəddinlə bağlı olmayan, lakin xalq arasında geniş yayılan lətifələr də çoxdur. Maraqlıdır ki, onların arasında S.Ə.Şirvaninin «Köpəyə ehsan» şeirində qələmə aldığı mövzu da «Rəhmətlik nə vaxt öldü?» lətifəsində özünü göstərir. Ümumiyyətlə, Kərkük lətifələrini oxuduqca bir doğmalıq, yaxınlıq hissi adamın ürəyinə hakim kəsilir. Kərküklü alim Əta Tərzibaşının əkiz qardaşlar adlandırdığı, Sovet Azərbaycanı ərazisində yaşayan azərbaycanlılarla İraq ərazisində məskən salan azərbaycanlıların təbii ki, düşüncə tərzi də doğma olmalıdır. Kərkük lətifələri ilə tanışlıq zamanı oxucular bir daha bunun şahidi olacaqlar.

Təəssüf ki, dillər əzbəri olan bu incilər kərküklülər arasında nə nəşr, nə də tədqiq olunub. Odur ki, İraqda işlədiyim altı il ərzində Kərkük lətifələrini böyük məhəbbətlə, ehtiramla topladım. Bunların bir çoxunu lentə köçürdüm. Həmin lətifələrdən bir qismini «Ədəbiyyat və incəsənət» qəzetinin hörmətli oxucularına təqdim edirəm.

«AZ GETDİM, ÜZ GETDİM…» *

Niyə belə deyirik?

Dilimiz müxtəlif dövrlərdə yaranmış ifadələrlə zəngindir. Bu ifadələrin yaranma tarixi bizi xalqın arzu və istəklərinin hələ gerçəkliyə çevrilə bilmədiyi, fantaziya olaraq qaldığı dövrlərə aparıb çıxarır. Belə ifadələrdən biri də nağıllarımızda rast gəldiyimiz «Az getdim, üz getdim, dərə-təpə düz getdim» ifadəsidir.

Bu ifadədə iki maraqlı cəhət nəzərə çarpır. Birinci cəhət ifadədə «üz» sözünün müəyyən mənaya malik olub-olmadığını aydınlaşdırmaqdır. İlk baxışda adama elə gəlir ki, o, ifadənin «dərə-təpə düz getdim» hissəsindəki «düz» sözünə qafiyə olaraq işlənmiş və müstəqil mənaya malik deyildir. Lakin şifahi xalq ədəbiyyatının başqa mənbələrinə nəzər saldıqda «Az getdim, üz getdim, dərə-təpə düz getdim» ifadəsində güclə sezilə bilən bir mənaya rast gəlirsən. İraq Respublikasının şimalında yaşayan və Azərbaycan dilində danışan kərküklülərin dilində işlənən «Az olsun, uz olsun» atalar sözü fikrimizin izahında bizə kömək edir. Göründüyü kimi, bu atalar sözündə arzu edilir ki, qoy bir şey az olsun, ancaq yaxşı olsun, keyfiyyətli olsun, ehtiyatla, tədbirlə görülsün.

Haqqında danışdığımız ifadə də nağıllarda işlənərək müsbət qəhrəmanın ünvanına söylənir. Xalqın öz qəhrəmanının büdrəmədən, yıxılmadan getməsini, yaxşı, ehtiyatla, tədbirlə getməsini arzulaması şübhə doğurmur.[1]

«Az getdim, üz getdim, dərə-təpə düz getdim» ifadəsində rast gəldiyimiz ikinci maraqlı cəhət «düz» sözü ilə əlaqədar-

---

* «Bakı» qəzeti, 27.12.1967, s.2.

[1] «Uz» sözü İraq–türkman ləhcəsində yaxşı, ehtiyatlı, tədbirli mənasında işlənir.

dır. «Dərə-təpə düz getdim» söz yığınına diqqət yetirdikdə, burada məntiqsizlik hiss edirik. Çünki dərəni keçmək üçün gərək aşağı enəsən, təpəni aşmaqdan ötrü isə mütləq yuxarı çıxmaq lazımdır. Deməli, dərə-təpəni düz keçmək olmaz. Bəs, bu ifadədə çatışmayan nədir?

Mənanın dərinləşdirilməsində qrammatika öz kömək əlini uzadır. Yəqin ki, nağılları yazıya köçürərkən «dərə-təpə» sözündən sonra vergül qoymağı yaddan çıxarmışlar. Əgər «dərə-təpə» sözündən sonra vergül olsaydı, «düz» sözü zərf kimi deyil, isim kimi qəbul olunar və «Az getdim, üz getdim, dərə-təpə, düz getdim» ifadəsi öz həqiqi mənasını saxlayardı.

Nağılların sonunda işlədilən «Göydən üç alma düşdü, biri mənim, biri nağıl söyləyənin, biri də özümün» ifadəsi barədə də öz fikrimi bildirmək istəyirəm. Nağıllarımızda bu ifadənin bir çox variantına təsadüf edilir. Lakin bizim məqsədimiz həmin variantlardan danışmaq deyil, nağılın indi bizə çox qəribə görünən sonluqla bitməsini izah etməkdir.

Nağılçı əhvalatı nağıl etməklə bərabər, öz məzəli sözləri ilə dinləyiciləri daha artıq razı salmaq, şənləndirmək istəmiş, dinləyiciləri ələ almaq üçün müxtəlif nağıl üslubundan istifadə etmişdir.

Belə üslublardan biri pişrövlərdir. Nağılçı nağılı söyləməyə başlamazdan əvvəl böyük maraq doğuran sözlər söyləyir. O saat dinləyicilər sakit olur, diqqət kəsilirlər. Nağıllarımızda olan pişrövləri güman ki, hamı bilir. Burada imkandan istifadə edərək Kərkük azərilərinin bir pişrövünü göstərmək istəyirəm: «Var idi, yox idi, yalan gerçəkdən çox idi. Yalanı doldurdular çuvala, dayadılar duvara. Gerçəyi qoydular meydan başına. Var idi bir…»

Nağılın sonluğu bir qədər fərqlidir. Elə «Göydən üç alma düşdü…» ifadəsini götürək. Biz burada «üç» sözü barədə söhbət açmayacağıq. Çünki professor M.Təhmasib «Azərbaycan nağılları» kitabına yazdığı giriş məqaləsində «üç» sözü barədə ətraflı danışmışdır. Biz yalnız nağılçının «alma umması» məsələsinə toxunacağıq. Nağıl niyə belə bitir?

Məlumdur ki, insanlar (radio və televiziya hələ kəşf edilmədiyi dövrdə) payız və uzun qış gecələrində darıxmamaq üçün bir yerə toplaşar, nağıla qulaq asardılar. Nağılçılar danışıb qurtaranda dinləyicilərdən müxtəlif vasitələrlə pay istəmişlər. Bu özünü kərküklülərin nağıllarında daha qabarıq göstərir: «Mən də getdim, əlimə bir şey düşmədi, bəlkə, burda düşdü», «Mən də getdim, mənə bir şey verm ədilər, siz verin», «Mən də getdim, ağzımı kimsə şirin etmədi, siz şirin edin» və s.

Bütün bunlar göstərir ki, nağılçı söhbətini bitirdikdən sonra əmək haqqı tələb etmişdir. Bizcə, «Göydən üç alma düşdü…» ifadəsi də bu məqsədlə yaranmışdır.

QAN VƏ QƏLƏM QARDAŞIMIZ *

«On altıncı əsr İraqda gəlişən türkman ədəbiyyatının altun çağı sayılır. Gerçəkdən bu çağa Füzuli çağı da deyilir».

Bu sətirlərin müəllifi «Füzuli çağı»nın yorulmaz araşdırıcısı, bizim dostumuz, müasir İraq–türkman ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış şair-alim, eyni zamanda istedadlı mətbuat işçisi Əbdüllətif Bəndəroğludur.

* «Ədəbiyyat qəzeti», 9.09.1994 (Ayaz Vəfalı ilə şərikli)

Bəndəroğlu yaradıcılıq aləminə doğma xalqının inkişaf tarixinin elə məsul bir mərhələsində gəlib ki, onun bir an da olsa qələmi yerə qoymağa haqqı yoxdur. Baş yazarı olduğu «Yurd» qəzeti iyirmi beş ildir ki, Ə.Bəndəroğlunun redaktəsi ilə çap olunur. Təqribən bir o qədər müddətdir ki, Türkman Mədəniyyət Departamentinə, Ədəbiyyatçılar Birliyinə rəhbərlik edir. Bütün bunları yalnız elə saymağın özü müəyyən vaxt apardığı halda, onların həyata keçirilməsi üçün bir ömrün necə də azlıq edəcəyini bilmək çətin deyil.

Ə.Bəndəroğlunu yaxından tanıyanlar onun aramsız çalışmaq, çalışmaqdan doymamaq istedadına, belə də demək olar ki, xalqın ədəbiyyatının, mədəniyyətinin layiqincə öyrənilməsi, araşdırılması və yayılması yolunda alışmaq istedadına qibtə etməyə bilməzlər. Bəndəroğlunun bəzən heyrət doğuracaq qədər geniş sahələrə nüfuz etmək səyini onun sadəcə olaraq maraq dairəsinin genişliyi ilə deyil, daha çox yaradıcı ziyalı məsuliyyəti ilə izah etmək lazım gəlir. O birdən-birə, məsələn, böyük Füzulini əhatəli tədqiq-təhlil etmək zəhmətinə qatlaşır. Doğma ədəbiyyatında illərlə görülməyən işi günlər müddətində görmək məcburiyyətində qalır. Bu kimi mənəvi borcların nisbətən əminliklə yerinə yetirilməsinə ona qardaş xalqlar ədəbiyyatlarının ədəbi-elmi təcrübəsi lazımi göməkliyi göstərə bilir. Ə.Bəndəroğlunun «Füzuli» kitabında (Bağdad, 1971) yeri gəldikcə sıx-sıx istinad etdiyi qaynaqlara ötəri nəzər salmaqla da bunu yəqin etmək mümkündür: «Azərbaycan ədəbiyyatı tarixi», Əbdülbaqi Gölpinarlı, Həmid Araslı, Mir Cəlal… Eyni zamanda bir cəhəti də qeyd etmək lazımdır ki, araşdırmalara sərf olunan illərin sayı artdıqca tədqiqə cəlb olunan qaynaqların və müəlliflərin də sayı artır. Buna görə də gəldiyi nəticələr getdikcə etibarlı və inandırıcı olur: «Füzulinin şeirlərini incələmiş

olursaq onun cığatayca, osmanlıca, İraq türkmanlarının türkcəsi ilə və azəri türkcəsi qullandığı bir dil olduğunu açıqca görəcəyik, amma ən fəzlə bizim İraq türkmanlarının türkcəsini, yəni azəri türkcəsini daha çox qullanmışdır. Bunu da söyləməyə hacət yoxdur ki, Füzulinin türkcəsi tam bir azəri türkcəsidir… Füzuli də soyları azəri olan türkman şairidir».

Bir ümman timsalında olan Füzuli yaradıcılığına bir qəvvas kimi baş vurmaq təşnəliyi ötəri həvəs olmayıb, mənsub olduğu xalqın mənəviyyat tarixini, ölməz şəxsiyyətlərini dərindən-dərinə öyrənməklə bu gününü lazımınca dərk etmək ehtiyacından irəli gəlir. «Mənşə və məvlidim İraqi-Ərəb olub», «Xaki Kərbəla sair məmalik cəvahirindən əşrəf olduğu məlumdur. Və rütbeyi-şerimi hər yerdə büləndedən həqiqət də bu məfhumdur» – deyən Füzuli əsrlər boyu qardaş ərəblərlə bir yerdə yaşayan, çalışan türkmanlara o müqəddəs torpaqlara sədaqətli olmağı tövsiyə edib; türk dili – ana dilim, fars dili – poeziya dilim, ərəb dili – elm dilimdir – deyən Füzuli «Quran»ın nazil olduğu dili ana dili qədər əziz tutmağı tövsiyə edib.

Nankorluq, namərdlik Füzulinin ən çox nifrət etdiyi sifətlərdir. Füzuli sədaqət və müqəddəslik timsalıdır. Füzulini öyrənib bilən, həqiqətən, sevən bir kəs heç vaxt pis adam ola bilməz…

Füzuli belə bir sehrdir. Onun əsrlərdən bəri təkcə Şərq aləmində deyil, həmçinin – Qərbdə – dini ayrı xalqların dilində (ingilis, fransız, italyan və s.) oxunması, öyrənilməsi üçün göstərilən səylər bu gün xüsusilə güclənməkdədir. Böyük şairin 500 yaşında dünya miqyasında qeyd olunması qərarına da səbəb budur. Belə bir vaxtda dindaşlarımızın, soydaşlarımızın Füzuli sərvətinə layiqli varis olmaları tarixi bir vəzifəyə çevrilir.

Allaha müraciətlə «Mən türkzəbandan iltifat eyləmə kəm», – deyə iltimas edən «Nəzmi-nazik türk ləfzilə ikən düşvar olur. Məndə tövfiq olsa bu düşvarı asan eylərəm; Növbahar olğac tikəndən bərgi-gül izhar olur», – deyə ana dilini böyük şeir-sənət dili səviyyəsində işləyib-cilalamağı özünə namus yolu («təriqi-namus») bilən və bu müqəddəs yolda misilsiz xidmət göstərən dahi Füzuli, həqiqətən, «Mən dilimnən vaz keçməm, olursam dilim-dilim» – deyən bir xalqın oğludur. Onun varisləri, o cümlədən Əbdüllətif Bəndəroğlu doğma türkmanların əsrlər boyu «dilim-dilim olsalar» da «vaz keçmədikləri» ana dilini bədii əsərlərində yaşatmaq və inkişaf etdirməklə yanaşı, ilk dəfə olaraq onun elmi qrammatikasını da yaratmağa səy göstərirlər. 367 səhifəlik «İraq–türkman dili (dil bilgisi və qarşılaşdırma)» adlı sanballı bir kitab da (Bağdad, 1976) Bəndəroğlu qələminin məhsuludur. Ön sözdə kitabın yazılması səbəbi və şəraiti barədə oxuyuruq: «Bir xalqın ədəbiyyatı olduğu halda, o xalqın ədəbi dili də olması gərəkdir. Çağlar boyunca Nəsimi və Füzulilərlə canlılığını yaşayan İraq–türkman dili də bu gün – temmuz 1968 devrimindən sonra yeni bir devrimçi aşamada yaşamağa başladı və İraq tarixində ilk kəz olaraq yurdda yaşayan millətlərin haqlarına sayğı göstərərək milli sorunları çözmək yolunda başarılı addımlar atıldı. 24 ocaq 1970-də türkmanlara tanınan haqlar, milli birliyimizi peşikdirməklə, yurdun bütünlüyünü də sarsılmaz bir təməl üzərində buraxdı. Bu tarixdən sonra türkman üçün yeni bir dönüm nöqtəsi başladı, yeni bir yaşam süräci gözükdü. Öz dilimizdə qəzetə, ögrətim müdirliyinin, Ədəbiyyatçılar Birliyinin qurulması və okulların açılması türkman aydınlarının önündə yeni-yeni əlverişli durumlar yaratdı. Bütün bu qurumların qurulması önündə üzərimizə düşən ulusal və yurdsal görümlər çoxaldı.

…Əlinizdəki bu kitab gələcəkdə türkman dilini daha yanlı, daha dərin və bilimsal bir biçimdə araşdırmaq üçün bir örnək sayılır».

Əbdüllətif Bəndəroğlunun yazdıqlarının hamısı haqqında nəinki ətraflı danışmaq, hətta adlarını sadəcə olaraq sadalamaq da az yer tutmaz: «İmadəddin Nəsimi əl-Bağdadi (araşdırma və seçilmiş şeirləri)», «Qərənfil» («Gənclik»), «Göylər unutmuşdu yağacağını» («Yazıçı») və s.

Ə.Bəndəroğlunun İraq–Azərbaycan ədəbi əlaqələrinin inkişafında göstərdiyi fədakarlıq, elə bilirik, ziyalılarımıza, oxucularımıza yaxşı məlumdur. «Yurd» qəzetinin bütün saylarının, İraq üçün indiki hərtərəfli ən ağır vəziyyətdə də, ardıcıl olaraq ünvanlandığı qələm yoldaşlarımız sırasında bu sətirlərin müəllifləri də var. Qəzetin Azərbaycandan söz açmayan nüsxəsi, demək olar ki, yoxdur. Ə.Bəndəroğlu gərgin jurnalist fəaliyyəti ilə İraqdakı soydaşlarımızın bizim ədəbi-bədii-elmi həyatımızdan mümkün qədər vaxtında və ətraflı xəbər tutmalarına çalışır. 25 yaşlı «Yurd» özünün 60 yaşlı qardaşı «Ədəbiyyat qəzeti»nə tez-tez istinad edir, əlaqədar materiallara həvəslə, səxavətlə yer ayırır. Eyni münasibət «Ədəbiyyat qəzeti» üçün də xasdır. İraqdakı soydaşlarımızın həyatına, mədəniyyətinə dair ayrı-ayrı yazılardan əlavə vaxtaşırı «Ədəbi Kərkük» səhifəsi verilməsi oxucuların razılıq etdiyi təşəbbüslərdən sayıla bilər. Əbdüllətif Bəndəroğlunun şair, alim, ictimai xadim və mətbuat işçisi kimi çoxtərəfli istedadı, əslində, bir-birini tamamlayır və onun öz doğma xalqının qədim və zəngin tarixə malik mədəniyyətini yorulmadan araşdırmasına, öyrənməsinə və yeni nəslə layiqincə öyrətməsinə imkan verir.

Bu mühüm keyfiyyətlərə görədir ki, Ə.Bəndəroğluya bizim Bakı Dövlət Universitetinin Elmi Şurası fəxri elmlər

doktoru adı vermişdir; onu «Ədəbiyyat» qəzeti redaksiya heyətinin üzvü, «Məhəmməd Füzuli» Beynəlxalq Əlaqələr Fondu isə idarə heyətinin fəxri üzvü seçmişdir.

Bu günlər qardaş İraqda dahi Füzulinin 500 illik yubileyi münasibətilə ciddi hazırlıq görülür və həmin təntənəli mərasimə Azərbaycandan nümayəndələr çağırılır. Belə yüksək ədəbi tədbirin, bütün iqtisadi çətinliklərə baxmayaraq, layiqincə keçməsi üçün İraq xalqının, dövlətinin, onun ziyalılarının, o cümlədən dostumuz Əbdüllətif Bəndəroğlunun necə fədakarlıqla çalışdıqları bizə məlumdur.

İndi hamımız böyük Füzulini bir daha dönə-dönə oxuyur, sanki onun səsini, vəsiyyətini açıq-aydın eşidirik:

Məni bidilü bizəban
qoyma, ya Rəb –
Ki, bidillik və
bizəbanlıq bəladır…

Qan və qələm qardaşımız Əbdüllətif Bəndəroğlunun bütün ədəbi-elmi fəaliyyəti dahi şairin bu müqəddəs vəsiyyətini imkanı qədər yerinə yetirmək üçündür.

DÖYÜŞKƏN POEZİYA *

Ərəbşünas Vilayət Cəfərin «İraqda neoklassik poeziya» adlı monoqrafiyası ilə tanış olarkən xəyal məni 30–35 il bundan öncəyə, İraqa – Dəclə və Fərat sahillərində keçirdiyim illərə qaytardı. Bizə yaxın və yaxın olduğu qədər də doğma olan İraq torpağında keçən bu illər həyatımın ən şirin

* *Bax:* Vilayət Cəfər. «İraqda neoklassik poeziya». Bakı, 1988, s. 3–4.

çağları idi. Onda mən tərcüməçilik fəaliyyətimlə yanaşı, hər şeylə – İraqın keçmişi, o dövr üçün indisi və gələcəyi ilə maraqlanır, xalqın həyat və məişət tərzi, ölkənin ziyalıları ilə tanış olur, İraq türkmanları haqqında material toplayırdım. Bunların hamısı sonralar mənim İraq barəsində yazdığım əsərlərdə, təəssüratlarımda əks olunmuşdur.

Lakin etiraf edim ki, o zaman ərəb dilində yazıb-oxumağı bacarmadığım üçün bu ölkənin zəngin ədəbi-bədii irsi, xüsusən poeziyası ilə yaxından tanış deyildim. Doğrudur, o dövrdə İraq şairlərinin bəzilərinin xalq qarşısında, radio və televiziyada alovlu şeir oxumalarının şahidi olmuş və həyatlarını 20–30 il öncə dəyişmiş ər-Rusafi və əz-Zəhavi kimi şairlərə Bağdadın küçələrində qoyulmuş heykəl və büstlərə tamaşa etmiş, onların adlarına olan kafelərdə (onu da deyim ki, vaxtilə həmin şairlər bu kafelərə gəldikləri üçün xalq onların xatirəsi naminə həmin kafeləri sonralar onların adı ilə adlandırmışdır) çay, qəhvə içmiş, yerli sakinlərdən həmin şairlər barəsində xeyli xatirələr eşitmişdim.

İraq o dövrdə artıq 7–8 il idi ki, müstəmləkəçilik məngənəsindən azad olmuşdu və mən onda bu qənaətə gəlmişdim ki, bu azadlığın, müstəqilliyin qazanılmasında İraq şairlərinin də müəyyən payı vardır. Və hətta yaxşı yadımdadır ki, dostum Əbdüllətif Bəndəroğlu ilə həmin şairlərin şeirlərindən Azərbaycanda bəzi nümunələr də buraxmağı planlaşdırmışdıq («Çağdaş İraq şeirindən seçmələr» adlanan kitab 2001-ci ildə Bakıda çap olunub). Tədqiqatçı Vilayət Cəfərin çoxsaylı mənbə və məxəzlər əsasında yazdığı «İraqda neoklassik poeziya» adlı monoqrafiyasını oxuduqdan sonra mən bu keçmiş qənaətimin doğruluğuna tam əmin oldum. Çünki bu iş İraq poeziyasının əsrimizin I yarısındakı qayə və məqsədlərini tam elmi səviyyədə əhatəli tədqiq edib araş-

dırır, ən başlıcası isə onun üsyankar mövqeyini çox düzgün əks etdirir.

Monoqrafiyanın məziyyətlərini şərh etmək istəmirəm. Bunu hər bir oxucu, mütəxəssis oxuyanda özü görəcəkdir. Lakin bir şeyi deməyi lazım bilirəm ki, müəllifin araşdırdığı dövr İraq poeziyası tarixində ən məhsuldar bir dövr olmuşdur. Bu poeziya İraq müstəqillik qazanana kimi istər müstəmləkəçiliyə, istərsə də xalqın tərəqqisinin qarşısında sədd çəkən qara qüvvələrə qarşı ardıcıl mübarizə aparmışdır.

Bağdadda Sədun küçəsinin başlanğıcında məsum təbiətli bir büst ötüb-keçənlərin üzünə gülümsəyir. Bu büst İraqın xalq qəhrəmanı kimi şərəfli bir ada layiq görülən Əbdül Möhsün Sədun Paşanın büstüdür.

Əbdül Möhsün Sədun Paşa 20-ci illərdə İraq Nazirlər Kabinetinə başçılıq etmişdir. O, həmin illərdə ingilislərin İraq üçün çox ağır şərtlərlə tərtib etdikləri ingilis-İraq müqaviləsini zor gücünə imzalamağa məcbur edildikdən sonra evinə gələrək İraq xalqına müraciət yazmış və intihar etmişdir. Həmin müraciətdə o, bu mənhus müqaviləni zor gücünə imzaladığını etiraf etmiş və bunun üçün İraq xalqından üzr istəmişdir. Ancaq o dövrdə ölkədə kral olan Feysəl isə ingilis «qonq»undan təşəkkürlər, hədiyyələr qəbul edirdi.

Monoqrafiyanı oxuyanda mən bu qənaətə gəldim ki, Sədun Paşanı məhz o dövrki İraq poeziyası bu cür tərbiyə etmişdir. Belə ki, həmin dövrdə İraq şeiri döyüşkən bir poeziya kimi həmişə xalq kütlələrinin mübarizəsinə inamlı istiqamət vermiş, onun önündə qətiyyətlə addımlamış və necə deyərlər «Sədun qəhrəmanlığı» qədər bir qəhrəmanlıq göstərmişdir. Lakin bu qəhrəmanlıqların arasındakı fərq ondan ibarətdir ki, Sədun intihar etsə də, İraq şeiri «intihar» etmə-

mişdir və o, nəticədə özünün döyüşkənlik əzmi ilə İraq xalqının ictimai-siyasi tərəqqisinə mane olan müstəmləkəçiliyin, cəhalət və fanatizmin intiharına nail olmuşdur. Bunun əsas sübutu bugünkü İraqın müstəqilliyi, əzmkarlığı, hazırda müvəqqəti blokada şəraitində yaşamasına baxmayaraq, göstərdiyi məğrurluq və əyilməzlikdir.

AZERBAYCAN'DAN GELEN DOST SESİ *

Irak Türkmenlerinin can dostu ve aziz yoldaşı Prof.Dr. Gazanfer Paşayev'den Kardaşlık'a çok sıcak bir mektup geldi. Irak'taki Türkmenlerin ve hatta Kerkük'ün Bakü'deki temsilcisi ve hatta büyükelçisi, benim kanaatıme Paşayev'tir.

Paşayev'in Vakıf Başkanı İzzettin Kerkük'e gönderdiği bu mektuptaki sıcak duyguları, siz değerli okuyucularımızla da paylaşmak istedim. Onun için bu mektubu aynen yayımlayarak, değerli dostumuz ve aziz kardaşımız Muhterem Paşayev'e, buradan binlerce sevgi ve şükran yüklü selamlar yolluyor, bütün can Azerbaycan'a Telafer'den Mendeli'ye kadar kucak dolusu sevgiler sunuyoruz.

Prof.Dr.Suphi Saatçi

«Sayın İzzettin Kerkük'e

Hörmetli İzzettin Bey,

Her defa «Kardaşlık» dergisinin yeni nömresini (sayısını) alanda, ilk olarak Size Yaradan'dan can sağlığı arzulayıram. Sonra ise bütün işlerimi bir yana koyarak bir

* «Qardaşlıq» dergisi, İstanbul, yıl 5, sayı 19, 2003.

nefese dergiyi sona kimi oxuyuram. Bazen acılı-şirinli göz yaşları tökürem. Derginin son Nisan-Haziran 2003 sayı da istisna olmadı. Xüsusen Erşat Hürmüzlü, Professorlar Suphi Saatçi ve Mahir Nakip Kerkük'e seferleri barede yazıları meni haldan hala saldı. Sanki men de onlarla birlikde Kerkük'ü ziyaret etdim.

İzzettin Bey, semimiyyetle deyirem, Sizin dergi bir elm merkezinin göre bileceyi kadar büyük işler görür. Derginin her sayında sanballı elmi makaleler, tedqiqat işleri çap olunur. Derginiz büyük bir nümune mektebine çevrilib. Men professor Dr.Suphi Saatçi'ye **«Terzibaşı'nın Ölümsüz Külliyatı»** makalesine göre derinden teşekkür ederim. Ata Terzibaşı çox büyük alimdir. Suphi Saatçi onun yaradıcılığına layiqince kıymet vermişdir. Cengiz Bayraktar'ın **«Nesrin Erbil»** makalesi de çox metleblerden söz açır. Professor Dr.Kamil Nerimanoğlu ile gönderdiyiniz kitabları aldım. Çok çok teşekkür ederim.

Irak Türkmanlarının lehcesine hesr olunmuş luğet ve Suphi Saatçi'nin **«Irak Türkmanları»** kitabları çok gerekli oldu. Menim 212 sayfadan ibaret **«Kerkük dialektinin fonetikası»** kitabım çap olundu. Eylülün evvelinde 316 sayfanı içine alan **«Kerkük Folklorunun Janrları»** kitabım ışık yüzü görecek. Kitabın redaktorları akademik Bekir Nebiyev ve professor Mahir Nakipdir. Milli Bilimler Akademimizde ise büyük hecmde **«İraq–türkman ləhcəsi»** kitabımız neşr olunur. Kitablar inşallah eylül ayında elinize çatacak.

İzzettin Bey, **«Altunköprü»** derginiz de her vaxt elıme çatır. Son sayda Suphi Saatçi qardaşımın **«Münakaşa etmek»** makalesi gençlere yol göstermek, Osman Oğuz'un Azerbaycanla bağlı **«Fevzi Ekrem Terzioğlu»** makalesi gençlere örnek olmak bakımından seçilir.

Xalqımız namine gördüyünüz büyük işler yolunda Size yeni uğurlar ve cansağlığı dileyirem.

Prof. Dr. Gazanfer Paşayev
16.08.2003-cü il. Bakı

P.S. 422 səhifəlik kitabı «Elm» nəşriyyatı 2004-cü ildə çap etdi *(Q.P.)*.

QƏZƏNFƏR PAŞAYEV

KƏRKÜK DİALEKTİNİN FONETİKASI

BAKI – «ELM» – 2003

Redaktor: **Ağamusa Axundov,**
professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü

Paşayev Qəzənfər
Kərkük dialektinin fonetikası. Bakı, «Elm», 2003, 212 səh.

ISBN 5-8066-1546-4

Filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin bu kitabı müəllifin İraq türkmanlarına həsr etdiyi növbəti monoqrafiyadır. Kərkük dialektinin fonetikası zəngin dil materialı əsasında təhlil edilir.

4602000000
655 (07) - 2003

© «Elm» nəşriyyatı, 2003

Dilim-dilim;
Kəs qovun dilim-dilim.
Mən dilimnən vaz keçməm,
Olursam dilim-dilim.

Kərkük bayatısı

BİR NEÇƏ SÖZ

Əsrlərlə başqa xalqlar əhatəsində qalan, məhz buna görə də qədim leksik və fonetik göstəricilərini daha çox saxlayan Kərkük dialekti, daha doğrusu, İraq türkmanlarının ləhcəsi bizə qədər ayrıca tədqiqat sahəsi olmamışdır. Doğrudur, mətbuatda Kərkük dialektinə aid məqalələr çap olunmuş,[1] Azərbaycan ədəbi dili tarixindən danışılarkən XV–XVI əsr Azərbaycan ədəbi dilində Cənubi Azərbaycan və Bağdad (Kərkük – *Q.P.*) dialekt xüsusiyyətlərinin üstünlük təşkil etdiyi göstərilmiş,[2] Kərkük dialekti Azərbaycan dilinin cənub qrupu dialekt və şivələri sırasına daxil edilmişdir.[3]

Azərbaycan ədəbi dilinin təsir dairəsindən kənarda qalan Kərkük dialekti qədim dövrlərə aid dil faktlarını daha çox saxlaya bilmişdir. Bu baxımdan, Kərkük dialektinin öyrənilməsinin dil tariximizin hərtərəfli tədqiqi işində rol oynayacağı şübhəsizdir. Odur ki, tədqiqatçı İraq Respublikasına uzunmüddətli ezamiyyətləri zamanı (1962–1966, 1972–1975) Kərkük dialekti üzərində müşahidələr aparmış və zəngin material toplamışdır.1969-cu ildə «Kərkük dialektinin fonetikası» adlı namizədlik işini müdafiə etmişdir.

---

[1] **H.Mirzəzadə.** İraq ərazisində yaşayan azərbaycanlıların dili haqqında bəzi mülahizələr. Azərbaycan Dövlət Universiteti. Elmi əsərlər, 1961, №4; Prof. Sadettin Buluç. Kerkük hoyrat və manilerində başlıca ağıt özellikleri. Türk Dil Kurumu yayımlarından. Sayı 270, Ankara, 1968.

[2] **Ə.M.Dəmirçizadə.** Azərbaycan ədəbi dilinin inkişaf yolları. Bakı, 1958, s. 37; M.Rzazadə. XVIII əsr Azərbaycan ədəbi dili tarixinə aid materiallar, Bakı, 1961, s. 17; Ə.M.Dəmirçizadə. Azərbaycan dilinin tarixi qrammatikası, Bakı, 1967, s. 43.

[3] **N.Məmmədov, A.Axundov.** Dilçiliyə giriş, Bakı, 1966, s. 248–249.

Material toplanarkən kiçik maqnitafondan da istifadə edilmişdir.

Kərkük dialektində rast gəlinən səciyyəvi xüsusiyyətlər tədqiq olunmuş dialekt və şivələrimizlə müqayisədə verilmişdir. Bununla bərabər, Kərkük dialektinin fonetikasında özünü göstərən xüsusiyyətlər yazılı abidələr, başqa türk dilləri ilə də müqayisə edilmişdir.

Əsər yazılarkən təsviri, müqayisəli və tarixi-müqayisəli üsullardan istifadə edilmişdir.

Tədqiqat işi giriş, üç fəsil, mətnlər və lüğətdən ibarətdir.

MATERİAL TOPLANILMIŞ ŞƏHƏR, QƏSƏBƏ, RAYON VƏ KƏND ADLARININ İXTİSARI

A.K. - Altun Köprü /nahiyə-qəsəbə/
B. - Biləvə /kənd/
Qrt. - Qərətəppə /nahiyə-qəsəbə/
Qızb. - Qızlarbat /kənd/
Daq. - Daquq /nahiyə-qəsəbə/
Əm. - Əmirli /kənd/
Ə. - Ərbil /şəhər/
Yen. - Yengicə /kənd/
K. - Kərkük /şəhər/
Kif. - Kifri /qəza-rayon/
M. - Məndəli /nahiyə-qəsəbə/
Ə.M. - Ömər Məndən /kənd/
T.X. - Təzə Xurmatu /nahiyə-qəsəbə/
Tuz X. - Tuz Xurmatu /qəza-rayon/
Til. - Tiləfər /qəza-rayon/
Üçt. - Üçtəpə /kənd/
X. - Xanaqin /qəza-rayon/
C. - Cabarlı /kənd/

QISALTMALAR

ə - ərəbcə
f - farsca
t - türkcə

TRANSKRİPSİYA

Monoqrafiyada aşağıdakı transkripsiyadan istifadə edilmişdir:

q – dilarxası partlayan kar səsi göstərir; məs.: qiz, qiş, qip, qaşqa və s.

w – qoşadodaq sonor səsi göstərir; məs.: arwat, war və s.

: – səsin uzanmasını göstərir; məs.: a:lim, ka:sıb, de:di, gə:lim və s.

◡ səsin qısalığı; hərfin üstündə ağzı yuxarı yarımdairəcik qoymaqla göstərilir; məs.: buzav, piçax, getmiyəcəm və s.

ˢ səsin nəfəsli tələffüzü; bu, hərfin üst kənarında üzü sağa yarımdairəcik qoymaqla göstərilir; məs.: dərtˢ, küpˢ, öpˢ, sahatˢ, camahatˢ və s.

◠ səsin heca təşkil etməməsi; bu, hərfin altında ağzı aşağı yarımdairəcik qoymaqla göstərilir; məs.: dö y̑ lət, gəlsəy̑, cö y̑hər və s.

< səsin arxada tələffüzü; bu, hərfin altında bucaq işarəsi qoymaqla göstərilir; məs.: q̋ ıfıl, h̋ əsab, saba h̋ və s.

̣ səsin karlığı; bu, hərfin altında nöqtə qoymaqla göstərilir; məs.: et ḍ im, nə q̣ qaş, tərgit ḍ i, to q̣ qa və s.

>, < səslərin əvəzlənməsi və sözün necə yaranmasını göstərən işarələrdir; məs.: a > ə; öyün < o gün və s.

// sözlərin müxtəlif variantlarını göstərən oxşarlıq işarəsidir; məs.: güzəl // cüzəl, gəldiwiz // gəldiyiz və s.

ˊ saitin üstündə qoyularaq sözdə vurğulu hecanı göstərən işarədir; məs.: á mqızı, tó zbağa, bú birisi, ó mbir və s.

KƏRKÜK DİALEKTİNİN FONETİKASI

İraq–türkman ləhcəsinin fonetik quruluşunda, saitlər və samitlər sistemində həm müasir Azərbaycan ədəbi dili ilə səsləşən, onunla eyniyyət təşkil edən, həm də ondan fərqlənən xüsusiyyətlər vardır. Bu uyğun və fərqli cəhətlər müxtəlif səviyyələrdə özünü göstərir.

I Fəsil

SAİTLƏR VƏ ONLARIN VARİANTLARI

Azərbaycan ədəbi dilində olduğu kimi, İraq–türkman ləhcəsində də doqquz sait vardır. Burada da saitlərin uzanan, qısalan və qovuşuq variantları özünü göstərir.

Uzun saitlər

İraq–türkman ləhcəsində də uzun saitlər geniş yayılmışdır. Burada müşahidə olunan uzun saitləri iki yerə bölmək olar: 1. Fonetik mövqeyindən asılı olan uzanma. 2. Sonrakı, yəni sözlərdən müəyyən samitlərin düşməsi nəticəsində yaranan uzanma. Girişdə göstərdiyimiz kimi, İraq–türkman ləhcəsində ilkin uzanma yoxdur. Məlumdur ki, Türkmən, Yakut, Başqırd dillərində saitlərin uzanması nəticəsində sözün mənası dəyişir. Məsələn, Türkmən dilində rast gəlinən baş – baş, baaş – yara, qör – gör, qöör – gor ilkin uzanmadır. Bu hadisə ingilis dilində də mövcuddur.

Fonetik mövqeyinə görə uzanma. Azərbaycan dili dialekt və şivələrində olduğu kimi, İraq–türkman ləhcəsində də saitlərdə fonetik mövqeyindən asılı olan uzanmaya təsadüf olunur. Sonrakı uzanma bütün saitləri əhatə etdiyi halda, fonetik mövqeyinə görə uzanma, əsasən, a, ə, e, qismən də i, u, ü, o, ö saitlərində müşahidə edilir.

a: a:lım, a:lısız, ba:xım, a:tıram, a:xtı, ba:rışır, qa:lı, ka:sıb, sa:rı və s.

e: de:di, ge:tdi, se:vdim, ce:cim, ye:di, ke:çtim.

ə: nə:di? yə:qin, gə:li, gə:lim, mə:nim, tə:nə, tə:bəli (uşaq).

Qeyd etmək istərdik ki, i, o, ö, u, ü səslərində müşahidə edilən uzanma əvvəlki saitlərdəki uzanmaya nisbətən məhdud şəkildə özünü göstərir.

i: i:ndim «endim»; o: o:tu «otur»; ö: gö:züm «görük»; ü: tü:lə «tula», cü:mə; u: cicu: «kirpi».

Fonetik mövqeyinə görə uzanma Azərbaycan dili dialekt və şivələrində də mövcuddur. Bu hadisə Şəki dialekti üçün daha səciyyəvidir: a:rı, sa:rı, də:ri // de:ri, də:li, də:rin, sə:rin, bo:ru, do:lu, qo:rux, mo:rux, gö:rüx, ö:lü.[1]

Göründüyü kimi, fonetik mövqeyindən asılı olan uzanmaya istər Şəki dialektində, istərsə də İraq–türkman ləhcəsində Kərkük dialektində, əsasən, birinci hecası açıq və ya yarımaçıq, ikinci hecası qapalı saitlərdən ibarət olan ikihecalı sözlərdə rast gəlirik.

Fonetik mövqeyindən asılı olan uzanmaya başqa türk dillərində də rast gəlmək mümkündür. M.Ryəsənen bu növ uzanmanın türk, başqırd, qazax, qırğız, qaraçay, çuvaş dillərində, xakas dilinin Koybal dialektində də mövcud olduğunu, onun xüsusilə Volqa boyunda yaşayan xalqların dilləri üçün səciyyəvi xarakter daşıdığını göstərir.[2] Eynilə buna oxşar hadisəyə qaqauz və balkar dillərində də rast gəlmək mümkündür. Qaqauz və balkar dillərində də ikinci hecada

[1] *Bax.* **M.İslamov.** Azərbaycan dilinin Nuxa dialekti, Bakı, 1986, s. 11, М.Исламов. Позиционная долгота гласных в диалектах и говорах азербайджанского языка. ВДТЯ, т. IV, Баку, 1966, с. 142.

[2] **М.Рясянен.** Материалы по исторической фонетике тюркских языков, М., 1955, с. 42, 58.

qapalı saitlər olduqda əvvəlki (birinci) hecadakı açıq və ya yarımaçıq saitlər uzanır.[1]

Sonrakı uzanma. İraq–türkman ləhcəsində sonrakı uzanma bütün saitləri əhatə edir. Sonrakı uzanma, ümumiyyətlə, sözlərdən müəyyən samitlərin – q, d, y, l, m, n, r, h samitlərinin düşməsi nəticəsində əmələ gəlir. Ona görə də bu, kombinator, bir neçə səsin kombinasiyası uzanmadır.

a: Uzun a səsi həm türk dillərinə mənsub olan sözlərdə, həm də alınma sözlərdə müşahidə olunur.

a) sözlərdən q, d, l, m, n, h səslərindən birinin düşməsi nəticəsində a səsi uzanır; məs.: a:dım «addım», da: «daha», sa:qız «saqqız», ta:rı «tanrı», ma:nı «mahnı».

b) ərəb və fars mənşəli sözlərdə e səsi ilə tələffüz edilən sözlərdə a səsi əslinə müvafiq olaraq uzun tələffüz olunur: məs.: a:lim, a:ləm, a:dət, a:qibət, a:rif, da:va, ma:ş, ma:dam, ma:vin, cama:t və s.

c) bəzən nitqi daha təsirli etmək məqsədilə də a saitinin uzanmasına rast gəlirik; məs.: Ay aba:, nişin belə yapdu? Ha: belə oldı; yarın gələsən ha: bizə?

e: Uzun e səsinə aşağıdakı fonetik şəraitdə təsadüf olunur.

a) sözlərdən y və r samitlərindən biri düşür və e səsi uzanır; məs.: de:rəm, de:rsən, de:ri, de:rix, de:rsiz, ye:rsən, ye:ri, xe:r, qide:sə, «gedirsən», bite:rsə, «bitirirsən».

b) «nə» və «et» sözləri bir vurğu ilə deyilərkən birlikdə tələffüz edilir və e səsi uzanır: ə və e səsləri birləşərək uzun e səsini əmələ gətirir; məs.: ne:tdiy («nə etdik»), ne:dir, ne:dim, ne:disəy, ne:tsin.

c) e səsi ilə işlənən ərəb mənşəli sözlərdə əslinə müvafiq olaraq e səsi uzanır; məs.: e:tibar, e:timad, e:dam, e:lan və s.

ə: Uzun ə səsinə aşağıdakı fonetik şəraitdə təsadüf olunur.

[1] **Л.А.Покровская.** Грамматика гагаузского языка. М., 1964, с. 37.

a) sözlərdən q, y, n, h samitlərindən biri düşür və ə səsi uzanır; məs.: mə:, sə:, mə:m, sə:n, nə:miz «nəyimiz», pə:riz «pəhriz», tə:r «təhər», şə:r «şəhər», sə:qal «saqqal», mə:ni, «mahnı», də:rkən, yə:rkən, yə:sən, yə:rdiğ və s.

b) E səsi işlənən ərəb mənşəli sözlərdə əslinə müvafiq olaraq ə səsi uzanır; məs.: bə:zi, mə:lim, mə:yən, «müəyyən», mə:lum, mə:na, mə:də, nə:lət, «lənət», istə:məl «istifadə».

i: Uzun i səsinə aşağıdakı hallarda təsadüf olunur:

a) sözlərdən y səsi düşür və yanaşı gələn iki sait birləşərək uzun i səsini əmələ gətirir; məs.: almi:m, «almayım», yetişmi:plər «yetişməyiblər», gəlmi:m «gəlməyim», girmi:n, çəkmi:p və s. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, iki saitin birləşməsindən qabaq sait səslərin əvəzlənməsi hadisəsi baş vermişdir.

b) sözlərdən y, n samitlərindən birinin düşməsi nəticəsində i səsi uzanır; məs.: i:rmi «iyirmi», yi:p «yeyib», yi:ncə «yeyincə», beli: «belini», bəyi:z «bəyiniz», ili:z «iliniz».

c) III şəxs təkin mənsubiyyət şəkilçisini qəbul etmiş söz *ilə* qoşması ilə birgə işləndikdə mənsubiyyət şəkilçisi həmin qoşmanın ilk saiti ilə birləşir və i səsi uzun tələffüz edilir; məs.: adi:lə, özi:lə, gözi:lə, izi:lə, sözi:lə.

ı: Uzun ı səsi sözlərdən z, y, n samitlərindən birinin düşməsi nəticəsində əmələ gəlir; məs.: ağı:z «ay qız», ayı:z «ayınız», aldı:z «oldunuz», pılavı: «sənin plovunu».

o: Uzun o səsinin əmələ gəlməsi də müəyyən fonetik şəraitlə bağlıdır.

a) sözlərdən n, h samitlərindən birinin düşməsi nəticəsində o səsi uzanır; məs.: qo:m «qohum», o:n «onun», so:ra «sonra».

b) saitlə bitən hər hansı bir söz o saiti ilə başlayan bir sözlə birləşdikdə qoşa işlənən iki sait qovuşaraq o səsinin

uzanmasına səbəb olur. Məs.: baco:ğlu, no:ldı «nə oldu», no:lı «nə olur» və s.

ö: Uzun ö səsi sözlərdən v, y, n samitlərindən birinin düşməsi nəticəsində yaranır. Məsələn: dö:lət, dö:ran, zö:q «zövq», kö:l «könül», mö:cud «mövcud», sö:da «sevda», bənö:şə, kö:nək və s.

u: Uzun u səsi aşağıdakı məqamlarda özünü göstərir.

a) mənsubiyyət şəkilçisi qəbul etmiş isimlər hallanarkən ikinci şəxsin təkində və cəmində mənsubiyyət şəkilçisi düşür və uzun u səsi meydana çıxır; məs.: ağzu: «sənin ağzını», adu:, bağu:z, bağu:zda, qolu:z, evu:, sizu:, istikanu:z.

b) şühudi keçmiş zamanın təsdiq və inkarında ikinci şəxs təkin şəxs şəkilçisi düşür və ü səsi uzanır. Məs.: aldu: «aldın», aynatdu: «anlatdın», apardu: «apardın», bildu: «bildin», gətdu: «gətirdin», oydu: «oynatdı», usandu:, çıxdu: və s.

ü: Uzun ü səsinə aşağıdakı fonetik şəraitdə rast gəlinir:

a) sözlərdən y, n samitlərindən biri düşür və ü səsi uzanır; məs.: dü: «düyü», gü:lə «güllə», Gü:naz «Gülnaz».

b) mənsubiyyət şəkilçisi qəbul etmiş isimlər hallanarkən mənsubiyyət şəkilçisindən n samiti düşür və ü saiti uzanır, məs.: dişlərü: «sənin dişlərini», ipü:, işü:z, gərdənü:, özü:, sürmədənü:, xəncərü:z, gözlərü:dən, mülkü:də və s.

Qısa saitlər

İraq–türkman ləhcəsində uzanma hadisəsi bütün saitləri əhatə etdiyi halda, qısalma başlıca olaraq qapalı saitlərə aiddir. Qısalan səs həm söz köklərində, həm də şəkilçilərdə müşahidə olunur. Söz kökünün birinci vurğusuz hecasında işlənən qapalı saitlər qısa tələffüz olunur (alınma sözlərdə ikinci hecada da rast gəlmək mümkündür). Birincidən sonrakı hecalarda qapalı saitlərin qısalması sözlərə müxtəlif şəkilçilərin

əlavəsi ilə əlaqədar olur. Belə ki, iki və çoxhecalı sözlərə şəkilçilər qoşulduqda vurğu şəkilçidəki sait üzərinə keçir və ondan əvvəlki qapalı sait qısalır. Bununla da, qısalma hadisəsi vurğudan əvvəlki qapalı sait üzərində özünü göstərir.

ĭ. İraq–türkman ləhcəsində qısa ı səsinə aşağıdakı hallarda təsadüf olunur.

a) sözün birinci vurğusuz hecasında ı səsi qısa tələffüz edilir: məs.: qĭfıl, qĭsa, sĭçan, xĭsım, «qohum».

b) mənsubiyyət şəkilçisi qəbul etmiş sözlər hallandıqda: ayağĭnın, babamĭzın, babamĭza, babamĭzı, kitabĭna, əlinin, əlinə, əlini, əlimizin və s.

c) sonu saitlə bitən fellər əmr şəklinin birinci şəxs tək və cəmində işləndikdə y samiti qarşısındakı a saiti qapalılaşır (daralır) və qısa tələffüz olunur; məs.: başlĭyım, başlĭyax, yazmĭyım, yazmĭyax.

ç) ikinci hecasında ı olan ikihecalı sözlərə müxtəlif şəkilçilər birləşdikdə ı saiti vurğusuzlaşır və qısa tələffüz olunur; məs.: qapĭya, qapĭmız, qapĭsının, naxĭra, naxĭrçı, çalĭşan və s.

i. Qısa i səsinə aşağıdakı hallarda rast gəlirik.

a) sözün birinci və ikinci vurğusuz hecalarında; məs.: bitirrəm, bitirrix, qilic//qilinc, qifil, pisik «pişik», çibin, çikit və s.

b) qısa i səsinə felin müxtəlif şəkillərində y səsi qarşısında təsadüf olunur: getmiyəcəgəm, sevmiyipsiz, işləmiyəydi, getmiyəcəğıx və s.

c) mənsubiyyət şəkilçisi qəbul etmiş incə saitli isimlər cəm şəkildə hallanarkən yiyəlik, yönlük və təsirlik hallarında i saiti qısa tələffüz edilir: məs.: özdərinin, özdərinə, özdərini, gözdərinin, gözdərinə, gözdərini.

ç) axırıncı hecasında i saiti olan ikihecalı sözlərə yiyəlik, yönlük, təsirlik hal şəkilçiləri birləşdikdə vurğunun yerinin dəyişməsi ilə əlaqədar olaraq ikinci hecadakı i səsi qısalır: məs.: gəlinə, gəlinin, gəlini, dərinin, dəriyə, dərini.

d) sonu ə saiti ilə bitən müəyyən sözlər ismin yönlük halında işləndikdə y samiti qarşısındakı ə səsi darlaşır və qısa tələffüz olunur; məs.: dərə-dəriyə, bərə-bəriyə, pəncərə-pəncəriyə, yengə-yengiyə, təpə-təpiyə.

Qısalma hadisəsi ı, i səslərində daha çox müşahidə olunur. u, ü saitlərində nisbətən az rast gəlinir.

ŭ: quzŭya, quzŭnu, oxŭya-oxŭya, bŭnu//mŭnu, bŭlar, bŭların.

ŭ̈: görmŭ̈sən // görmŭ̈rsən, sürŭ̈sünə, sürŭ̈sünü, üzmŭ̈yəx.

Diftonqlar

İraq–türkman ləhcəsində Azərbaycan dilinin başqa dialekt və şivələrində olduğu kimi, yalnız iki saitin qovuşması nəticəsində əmələ gələn kombinator xarakterli diftonq vardır. Başqa sözlə desək, samitlərin düşməsi nəticəsində saitlər qovuşur (birləşir), bir hecada tələffüz edilən xüsusi səs birləşməsi əmələ gəlir. Məlumdur ki, diftonqlarda bir heca daxilindəki saitlərin hər ikisi eyni kəmiyyətdə, eyni dolğunluqda olmur, bəzən birinci sait, bəzən isə ikinci sait zəif tələffüz edilir. Bunları nəzərə alaraq diftonqları iki yerə ayırırlar: 1) alçalan diftonqlar, 2) yüksələn diftonqlar. Hər iki forma sözlərdə v, y, n samitlərinin düşməsi nəticəsində əmələ gəlir. M.Şirəliyevin göstərdiyinə görə, alçalan diftonqlarda birinci sait dolğun, ikinci sait isə birinciyə nisbətən bir qədər zəif olur. Buna görə də alçalan diftonqlarda birinci sait açıq (o, ö, a, ə), ikinci sait isə qapalı saitlərdən biri (u, ü, i) olur.[1]

İraq–türkman ləhcəsində işlənən diftonqları önsıra və arxasıra olmaqla iki yerə ayırmaq olar.

[1] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1968, s. 35–36.

1. Önsıra diftonqları

İraq–türkman ləhcəsində önsıra diftonqlarının aşağıdakı növlərinə təsadüf edilir: eⁱ, eᵘ, əⁱ, əᵘ, əᵘ, öᵘ, üə, üi, üu. Sözlərdən y samitinin düşməsi nəticəsində eⁱ diftonqu əmələ gəlir: deⁱr, geⁱr, yeⁱb, xeⁱr.

eᵘ. Sözlərdə v səsinin zəifləyərək u səsinə keçməsi nəticəsində baş verir: eᵘlat, seᵘda, seᵘgi, eᵘ, Seᵘten (qız adı).

əⁱ. Bu diftonq, əsasən, söz ortasında y samitinin düşməsi nəticəsində əmələ gəlir: İsməⁱl, nəⁱmdi, cəⁱzə, «uduş».

əᵘ. Bu diftonq əksər hallarda incə saitlə bitən isimlərin sonunda ikinci şəxs təkin mənsubiyyət şəkilçisi və şəxs sonluğunun zəifləməsi nəticəsində yaranır: bilsəᵘ «bilsən», desəᵘ «desən», itirsəᵘ «itirsən», gedsəᵘ «getsən», nənəᵘ, devəᵘ «sənin dəvən», sipirgəᵘ.

Qeyd edək ki, bu halda, eyni zamanda əᵘ ilə yanaşı, əᵘ diftonqu da özünü göstərir: gedsəᵘ, nənəᵘ, xələᵘ, cəᵘhər...

öᵘ. Bu diftonq sözlərdən v, y, n samitlərindən birinin düşməsi nəticəsində yaranır: məs.: döᵘran, döᵘr, zöᵘq, göᵘdə «göydə», möᵘsüm, nöᵘ «növ», höᵘsəni.

üⁱ. Üçüncü şəxs mənsubiyyət şəkilçisi qəbul etmiş sözlər təsirlik halda işləndikdə n səsi düşür və üⁱ diftonqu əmələ gəlir: dişlərüⁱ, eşqüⁱ, gözlərüⁱ, gəlişüⁱ, özüⁱ, sözüⁱ, hörügüⁱ, siləhüⁱ...

İraq–türkman ləhcəsində saitlə bitən sözlərin sonunda ikinci şəxs mənsubiyyət şəkilçisinin düşməsi nəticəsində üᵘ diftonquna da rast gəlmək olur. Məsələn: dərdüᵘ «dərdin», dizüᵘ «dizin», əllərüᵘ, yerüᵘ, üzgüᵘ.

2. Arxasıra diftonqları

İraq–türkman ləhcəsində arxasıra diftonqlarının aşağıdakı növlərinə təsadüf olunur: aᵘ, ᵘa, ᵘı.

aᵘ. Bu diftonq çox geniş şəkildə işlənir. Buna aşağıdakı vəziyyətlərdə rast gəlirik.

a) Söz ortasında və axırlarında v səsi zəifləyərək u səsinə keçir, bəzi sözlərdə isə y, n samitlərindən biri düşür və aᵘ diftonqu yaranır. Müəyyən sözlərdə o>a, ö>a fonetik hadisələri də baş verir: aᵘ, «ov», aᵘt, «ovut», aᵘcı, «ovçu», qaᵘ, «qov», qaᵘrğa, qaᵘp, «qovub», qaᵘzadı, «qovzadı», qaᵘşağ, «qovuşaq», daᵘşan, yaᵘlış, «yanlış», oxlaᵘ, «oxlov», pilaᵘ, «plov», saᵘr, «sovur», taᵘla, «tövlə», haᵘz, qaᵘra və s.

Bu diftonqa Azərbaycan dilinin Zaqatala və Qax rayonları şivələrində (məs.: dauğa, dauşan, dəmirau, qaurma və s.), Şərur və Ağdam rayonları şivələrində (məs.: au, dauşan, taula) təsadüf olunur.

b) İkinci şəxs mənsubiyyət şəkilçisi qəbul etmiş sözlər hallanarkən n samiti zəifləyir və aᵘ diftonqu özünü göstərir; məs.: arpau, «arpan», babau, babauda, babaudan, babauz, babauzın, babauza, babauzı, babauzda, babauzdan, baxçau, günortau, parau, «paran».

c) Felin şərt şəklində ikinci şəxs təkin şəkilçisi n zəifləyir və aᵘ diftonqu yaranır. Məsələn: alsau, basmasau, baxsau, qırsau, doldursau, çağırsau, tapmasau.

ᵘa. Bu diftonq ikinci şəxs təkin mənsubiyyət şəkilçisini qəbul etmiş sözlər ismin yönlük halında işləndikdə n səsinin düşməsi nəticəsində əmələ gəlir; məs.: ağzua, adaxlua, ayağua, bağua, boynua, ixtiyarua, saçua, toppuğua, arrua, «sənin arına» və s.

Çual, yua sözlərində v samitinin düşməsi nəticəsində də ᵘa diftonqunun əmələ gəldiyini görmək mümkündür.

ᵘa diftonqu Azərbaycan dilinin şərq, qərb və şimal qrupu dialekt və şivələrində də tez-tez müşahidə olunur.[1]

ᵘı. İkinci şəxs təkin mənsubiyyət şəkilçisini qəbul etmiş isimlər hallanarkən təsirlik halda n səsi düşür və ᵘı diftonqu

[1] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1968, səh. 38; M.İslamov. Azərbaycan dilinin Nuxa dialekti. Bakı, 1968, səh. 19.

yaranır. Məsələn: bağuı, barmağuı, başuı, kitabuı, payuı, canuı, camaluı və s.

SAİTLƏRİN ƏVƏZLƏNMƏSİ

İraq–türkman ləhcəsində saitlərin əvəzlənməsi geniş yayılmış fonetik hadisələrdəndir. Onu da qeyd etmək lazımdır ki, əvəzlənmə məfhumu şərti mənada işlədilir. Bu şərti məfhum altında Azərbaycan ədəbi dilində işlənən hər hansı bir səsin (həm sait, həm də samit) əvəzinə İraq–türkman ləhcəsində bu və ya başqa bir səsin işləndiyi başa düşülür.

İraq–türkman ləhcəsində saitlərin əvəzlənməsini saitlərin müasir Azərbaycan dilində mövcud olan bölgüsünə müvafiq olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

Arxasıra saitlərinin önsıra saitləri ilə əvəzlənməsi.
Önsıra saitlərinin arxasıra saitləri ilə əvəzlənməsi.
Dodaqlanan saitlərin dodaqlanmayan saitlərlə əvəzlənməsi.
Dodaqlanmayan saitlərin dodaqlanan saitlərlə əvəzlənməsi.
Açıq saitlərin qapalı saitlərlə əvəzlənməsi.
Qapalı saitlərin açıq saitlərlə əvəzlənməsi.

Arxasıra saitlərinin önsıra saitləri ilə əvəzlənməsi

a>e. a saitinin e saiti ilə əvəzlənməsinə sözün ortasında birinci hecada təsadüf edilir. Həm də bu hadisənin baş verməsi y samiti ilə əlaqədardır. Bu hadisə, əsasən, y səsi qarşısında və bəzən də y saitindən sonra özünü göstərir; məs.: qeyiş, qeyişbaldır, qeyım, qeytan, yera // yerə, yeşil // yeşıl, çeyxana, beyram.

Bu hadisə Azərbaycan dilinin əksər dialekt və şivələrində mövcud olsa da, daha çox dialekt və şivələrimizin şimal və şərq qrupları üçün xarakterikdir. Əslində bu, u qarşısında

qapalılaşmadır. Ancaq söz kökündə olduğu üçün onu fonetik xarakterli, məsələn, başla-yır əvəzinə başdı-yır nümunələrindəki kütləvi xarakter daşıyan qapalılaşmadan fərqləndirmək üçün xüsusi paraqraf kimi verdik.

a>ə. a səsinin ə səsi ilə əvəzlənməsi sözün əvvəlində, ortasında və axırında özünü göstərir.

Sözün əvvəlində: əyran, ərağ, ədət, əcci, əz, ələm, əhməq.

Sözün ortasında: qəyin, qəla, qəyinbaba, qərri, qəriş-qəriş, Məhmud, Həci//Həcci, şəftəli, Şəhbaz, qəmçi, təcir, Sələh «Saleh», siləh «silah», xiyər, böhtən, bəyrağ, qəymağ, ətrəf, iləhi, günəh, nəmərt, təməh, təməhkər, şəgirt, qəmiş, təm, müləyim, əzəb, fələkət, ləkin «lakin», qətər, dəgirmən, çəqqəl, rəhət, Zeynəl və s.

Sözün axırında: qarə // qərə, dünyə, lobyə, ləylə «layla», yəxə, kosə, təmənnə, xələ, pərçə, təxtə və s.

ı>i. ı saitinin i saiti ilə əvəzlənməsi İraq–türkman ləhcəsində həm sözün ortasında, həm də axırında müşahidə olunur.

Sözün ortasında: biğ «bığ», qiz, qil, qir, qirx, qizil, qilic, qifil, mix «mıx», piçaq.

Sözün axırında: qazayağı, qəmçi, qəri, yuxari, xali, hani.

Bu hadisə Azərbaycan dilinin şərq qrupu dialekt və şivələri üçün daha səciyyəvidir.

u>i. u səsinin i səsi ilə əvəzlənməsinə sözün əvvəlində və ortasında təsadüf edilir; məs.: ildız, imşax «yumşaq», imırta «yumurta», timar «tumar», biyurun «buyurun» və s.

Bu hadisə Azərbaycan dilinin şərq qrupu dialekt və şivələrində geniş yayılmışdır.

u>ü. İraq–türkman ləhcəsi üçün səciyyəvi olan bu hadisə sözün əvvəlində və ortasında qeydə alınmışdır; məs.: üc, ücə, ücüz, hücüm, Aynür, Ülü təpə, türşəgə «turşəng», yücə «uca», Pürüzə «Firuzə», nüh, rüh «ruh», vürüb, Yünis və s.

u səsinin ü səsi ilə əvəzlənməsi, yəni qalın u səsinin incələşməsi hadisəsi Azərbaycan dilinin Şəki dialekti və Zaqatala–Qax şivələri üçün daha səciyyəvidir.

Önsıra saitlərinin arxasıra saitləri ilə əvəzlənməsi

ə>a. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri üçün daha çox səciyyəvi olan ə>a əvəzlənməsi İraq–türkman ləhcəsində də geniş yayılmışdır. Bu fonetik hadisəyə sözün əvvəlində, ortasında və axırında rast gəlirik.

a) sözün əvvəlində: acdaha, acdad, atraf, asıl, ayalat.

b) sözün ortasında: adat, bay, baxt, barabar, qanşar, duşman, ziyarat, ibarat, sadaf, türkman, xayal, hökumat, callad, qassab, farhad, qabul, karki, qahraman, təsavur, keçal, namarat və s.

c) sözün axırında: biçara, qonça, divana, mahana, piyala, madda və s.

i>ı. Bu əvəzlənmə yalnız sözün ortasında qeydə alınmışdır: həm öz sözlərimizdə, həm də alınma sözlərdə özünü göstərir. Məsələn: Arıf, qadır, qısmat, zabıt, tılsım, tıfıl, xayın, Sabır, sətır, sınıf «sinif», Tahır, mavı, Hafız, hasıl, xüsusı, yeddı və s.

i>ı əvəzlənməsi, daha doğrusu, i səsinin qalınlaşması Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri üçün səciyyəvidir.

i>u. i səsinin u səsi ilə əvəzlənməsi İraq–türkman ləhcəsində o qədər də geniş yayılmamışdır. Ona bir neçə sözdə təsadüf edilmişdir. Məsələn: vucdan, duvar, dulab, yuldurum, şumal.

e>a. Bu hadisə də çox səciyyəvi deyil, bir neçə sözdə qeydə alınmışdır; məs.: aşq, pancar, başarmağ «becərmək», nay «ney», yarkökü «yerkökü», aynan «eynən», aynilə.

ö>o. İraq–türkman ləhcəsi üçün səciyyəvi olmayan bu hadisə aşağıdakı sözlərdə qeydə alınmışdır; məs.: noxta «nöqtə», xonça «qönçə», nobattan «növbə ilə».

ü>u. ü səsinin qalınlaşmasına, yəni u səsi ilə əvəzlənməsinə sözün əvvəlində və ortasında rast gəlinir; məs.: uç «üç», ufuq «üfüq», usyan «üsyan», umud, usul, qusur, qunorta «günorta», murabba, fursand, zulm, zulmat, qulla, burc, mutlaq, labud, guman, tasaduf, xususi və s.

Dodaqlanan saitlərin dodaqlanmayan saitlərlə əvəzlənməsi

o>a. Dodaqlanan o saitinin dodaqlanmayan a saiti ilə əvəzlənməsi İraq–türkman ləhcəsində geniş yayılmış fonetik hadisədir. Bu hadisəyə sözün əvvəlində və ortasında daha çox təsadüf olunur; məs.: av, avçı, avıd «ovud», bızav, bıxav, qavğa, qavın, nav, oxlav, savır, savıx, dalan «dolan», annan «ondan», dalaşmaq «dolaşmaq».

o>a hadisəsi Azərbaycan dilinin cənub qrupu dialekt və şivələri üçün çox səciyyəvidir. o>a hadisəsinə görə Kərkük dialekti Azərbaycan dilinin cənub qrupu dialekt və şivələri ilə demək olar ki, eyniyyət təşkil edir. Müqayisə et:

Naxçıvan dialekti	İraq–türkman ləhcəsi
av	*av*
alav	alav
qavırma	qavırma
qavla	qavla
davşan	davşan
qavın	qavın

Yeri gəlmişkən, deyək ki, o>a hadisəsinə Azərbaycan dilinin başqa dialekt və şivələrində də az və ya çox dərəcədə rast gəlmək mümkündür.

Müasir dilimizdəki o səsinin əvəzinə a saitinin işlənməsi qədim hadisədir, ona «Kitabi-Dədə Qorqud» dastanının dilində çox tez-tez rast gəlirik.[1]

ö>ə. Bu hadisəyə sözün əvvəlində və ortasında təsadüf edilir; məs.: əfkələ, əzbək, biləv, bənəfşə, çəmçə, kəvşəməğ, məhtac, cəhrə «çöhrə», cəvlan «cövlan» və s.

u>a. Az təsadüf edilən hadisələrdəndir, bir neçə sözdə qeydə alınmışdır; məs.: mağam - «muğam», tumurcağ - «tumurcuq», saval.

u>a hadisəsi Azərbaycan dilinin Cəbrayıl şivəsi üçün daha səciyyəvidir.[2]

u>ı. İraq–türkman ləhcəsində müşahidə olunan səciyyəvi xüsusiyyətlərdən biri də müasir Azərbaycan dilindəki u səsinə ı səsinin uyğun gəlməsidir. Bu hadisəyə sözün ortasında və axırında təsadüf edilir.

a) sözün ortasında: u>ı hadisəsi sözün ortasında daha çox özünü göstərir; məs.: bızav // bızau, bıxav // bıxau, buynız, burın, dursın, zırna, yoxsıl, mıraz, tırac, toxım, tulığ, unıd, bĭrax, yımşağ, bının, bına, bıra, bırda, qoyın, xorız, quyrığ, qodıx və s.

Misallardan göründüyü kimi, u>ı hadisəsi sözün ortasında həm birinci, həm də ikinci hecada müşahidə olunur.

b) sözün axırında: arzı, qorxı, quzı, qurı, doğrı, durı, yumrı, yuxı, oxı, cadı.

Bu fonetik hadisə İraq–türkman ləhcəsini Azərbaycan dilinin cənub və şərq qrupu dialekt və şivələrinə yaxınlaşdırır.

ü>i. ü səsinin i səsi ilə əvəzlənməsi İraq–türkman ləhcəsində geniş yayılmışdır. Bu hadisəyə sözün əvvəlində, ortasında və axırında təsadüf edilir.

---

[1] *Bax:* Kitabi-Dədə Qorqud, Bakı, 1962, səh. 21, 23, 24, 35, 77, 183 və s.

[2] *Bax:* **Т.И.Гаджиев.** Джебраилский говор азербайджанского языка, Автореф. канд.дисс., Баку, 1962, с. 7.

a) sözün əvvəlində: imid, imumiyyətlə, ifirmək, iskif «üsküк», için// içün.

b) sözün ortasında: bilbil, biləv, Zileyxa, zilf, yüngil, gündiz, egit, sipirgə, tifəng, tütin, üzik, hörik, hismət, tədarik.

c) sözün axırında: köpri, güzgi, süri, tülki, gürci, quştüki «balış».

ü>i hadisəsi Azərbaycan dilinin şərq qrupu dialekt və şivələrində geniş yayılmışdır.

Dodaqlanmayan saitlərin dodaqlanan saitlərlə əvəzlənməsi

a>u. Azərbaycan dilinin şərq qrupu dialekt və şivələrində nisbətən çox yayılmış a>u hadisəsi İraq–türkman ləhcəsində müəyyən qrup sözlərdə qeydə alınmışdır: məs.: buğarsıx // buğarsax «bağırsaq», zuvallı, yuvaş, cuğav // cuvab.

ı>u. İraq–türkman ləhcəsi üçün səciyyəvi sayılan ı>u hadisəsinə, əsasən, sözün ortasında, bir neçə sözdə sözün axırında təsadüf olunur.

a) sözün ortasında: bu əvəzlənmə sözün ortasında müxtəlif hecalarda özünü göstərir; məs.: azğun, artuğ // artux, arşun, acuğ // acux, aşuğ, barut, qaşuğ // qaşux, yazuğ // yazux, yalğuz, yarpuz, yaxun, pambuğ, tapşur, xurda, xurdavat, buxçı «bıçqı», basuğ, qabuğ, qarpuz, yastuğ // yastux, qaburğa, sağduc, naxur.

b) sözün axırında: ağu, acu, qapu.

Yeri gəlmişkən, onu da qeyd edək ki, Azərbaycan dilinin qədim dövrlərində müasir dilimizdəki ı səsinin yerinə u səsi işlənmişdir. Ona görə də artuğ, aşuğ, qabuğ, qapu və s. bu tipli sözlərdə u səsinin mövcudluğu, əslində, tarixi xüsusiyyətin saxlanması, onun qalığıdır. Belə nəticəyə gəlmək olar ki, İraq–türkman ləhcəsində də bu hadisə tarixən mövcud olmuşdur və indi də yaşamaqdadır.

i>ü. Sözdə i səsinin əvəzinə ü səsinin işlənməsinə, əsasən, sözlərin ortasında təsadüf edilir. Bu hadisə həm də daha çox sözün ikinci hecasında özünü göstərir; məs.: kəsük, çəküc // çəkküc, çətün, kəklük, küçük // küçüq, təndür, şənnük, tələsük, düvar, züllət.

Azərbaycan dili dialekt və şivələrinin əksəriyyətində bu hadisə az-çox dərəcədə müşahidə olunsa da, daha çox Naxçıvan qrupu dialekt və şivələrində yayılmışdır.

Açıq saitlərin qapalı saitlərlə əvəzlənməsi

a>ı. Azərbaycan dilinin, əsasən, qərb qrupu dialekt və şivələrində geniş yayılmış bu hadisə İraq–türkman ləhcəsində çox işlənir. Həm də bu hadisə daha çox y samiti qarşısında özünü göstərir; söz köklərində məhdud şəkildə rast gəlinir; məs.: başlıyım, başlıyax, başdıyax, oynıyacam, başdıyaydım, oynıyacax, ağlıyanda, bağlıyanda, oynıya-oynıya, qıtar «qatar», sımavar, sırağagün və s.

ə>e. ə səsinin e səsi ilə əvəzlənməsi İraq–türkman ləhcəsində o qədər də yayılmış hadisə deyil. Ona sözün əvvəlində təsadüf olunur: ekmağ, elli, et, devə, def, dem, Meyram, pencərə, şekər, tezə, xet, çekdix.

ə>e hadisəsi Azərbaycan dilinin şimal qrupu dialekt və şivələri üçün daha səciyyəvidir.

ə>i. ə səsinin i səsi ilə əvəzlənməsi sözün ortasında müşahidə olunur; məs.: zincir, incir, kəfin, kinar, siyahət, fiqan, fida, xiyal, hiyəcan, çimən, diyənək, tikrar, şikil, firyad, kismax, yasimin «yasəmən», diyanatlı, zehir.

o>u. Bu hadisə sözün ortasında müşahidə olunur; məs.: buğça // buxça, bustan, qupard, dudax, tuprağ, yurğan, luqma «loxma», sura «sonra», un «on», buğaz.

o>u hadisəsinə Azərbaycan dilinin şərq qrupu dialekt və şivələrində tez-tez rast gəlirik.

ö>ü. Bu hadisəyə çox az təsadüf edilir. Ona, əsasən, Altun Köprü şivəsində rast gəlinir; məs.: güg, gübələk, güğərməx, üzək, gügərçin, güzəl//qüzəl.

ö>ü hadisəsi Azərbaycan dilinin Quba, Dərbənd dialektləri və Xaçmaz şivəsi üçün səciyyəvidir.

Qapalı saitlərin açıq saitlərlə əvəzlənməsi

ı>a. Azərbaycan dili dialekt və şivələrində olduğu kimi, İraq–türkman ləhcəsində də ı səsinin a səsi ilə əvəzlənməsi az yayılmış hadisələrdəndir. Bu hadisə daha çox söz ortasında, bəzən də söz sonunda baş verir; məs.: aşağa, qaşamax, qapqırmızı, sayax (sayıq), xarman, sazlamax (sızlamaq), fırtana (fırtına), ahaldamax (ahıldamaq).

Çox güman ki, ı saitinin a saiti ilə əvəzlənməsi sözün tərkibindəki a saitinin təsiri nəticəsində baş verir (assimilyasiya).

e>ə. İraq–türkman ləhcəsində geniş yayılmış hadisələrdən biridir. Ona daha çox sözün əvvəlində və ortasında təsadüf olunur.

a) söz əvvəlində: əv, əyb, əynən // əyni, əllər, əlti, əniş, əndim, əninə, ərkən, ərkəc, əşq və s.

b) söz ortasında: bətər, bəcərmə, dəgil // dəyil, gidəy, gənə, yadəlli, ögəy, səvda, səvgi, həyvan, həyran, həsab, çəvir, nəcə, yəsin, həkayə, həca, bələ (belə), gəri və s.

e səsinin açıq a səsi ilə əvəzlənməsi, ümumiyyətlə, Azərbaycan dilinin cənub qrupu dialekt və şivələri üçün səciyyəvidir. Bu cəhət kərküklərin dilini dialektlərimizin cənub qrupuna yaxınlaşdırır.

Ahəng qanunu

İraq–türkman ləhcəsinə xas olan xüsusiyyətlərdən biri də burada ahəng qanununun mühafizə edilməsidir. Hətta burada başqa dillərdən keçən bir çox sözlər ahəng qanununa

tabe edilərək işlədilir. Lakin bununla belə İraq–türkman ləhcəsində ahəng qanununun pozulması halları da müşahidə olunur. Ahəng qanununun pozulması həm söz köklərində, həm də sözə şəkilçi əlavə edildikdə özünü göstərir. Söz kökündə ahəng qanununun pozulması saitlərin əvəzlənməsi hadisəsindən danışılan hadisədə öz əksini tapmışdır. Ona görə burada ondan danışılmayacaqdır.

Ahəng qanununun pozulmasında «qalınlaşma», yəni incə saitlərdən sonra qalın saitlərin işlənməsi üstünlük təşkil edir.

İraq–türkman ləhcəsində ahəng qanunu aşağıdakı hallarda pozulur.

a) incə damaq saitlərindən sonra qalın damaq saitləri işlənir.

1. Məsdər şəkilçilərində: bilmax, demax, etmax, əkmax, yemax, getmax, çimmax, yerləştırmax, dırtmax və s.

2. Əmr şəklinin I şəxs cəm, II şəxs tək və cəmində; içağ, gedağ, girağ, düzməvın, düzəltməvın.

3. Qeyri-qəti gələcək zamanın birinci şəxs cəminin təsdiq və inkarında: billıx, bilmərıx, verrıx//verrığ, yemərıx, gəllıx//gəllığ, sillıx//sıllığ.

4. İndiki zamanın I şəxs cəminin təsdiq və inkarında: bilirıx, bilmirıx, deyirıx, diskinirıx, əkmirıx, əkirıx, işlirıx, gəlirıx, gəlmirıx və s.

5. Nəqli keçmiş zamanın I şəxs cəmində: eşitmişıx, gəlmişıx, sevmişıx, dəgiştirmişıx.

6. Qəti gələcək zamanın I və III şəxslərində: diyəcağam, əkəcəğığ, əkmiyəcağıx, kəsəcağam, gedəcağam, gedəcaxlar, getmiyəcaxlar.

7. Şühudi keçmiş zamanın I və II şəxslərinin cəmində: bildıx, dedıx, dərtləşdıx, dərtləşdivız, əndivız, diskindıx, itirdıx, kəsdıx, mindıx, getdıx, gettivız və s.

8. Arzu şəklinin mürəkkəbinin I şəxs cəmində: əkəydıx, kəsəydıx // kəsəydığ, çevirəydıx // çevirəydığ.

9. Mənsubiyyət şəkilçilərində: əkməgivız, yevın, yevım, sirrım, xələvın, xələvızın və s.

10. Müxtəlif sözdüzəldici şəkilçilərdə: dizlıx // dizdıx, dilənçilıx, düzənlıx, ikitlıx, yeşillıx, kiräçı, gənclıx.

11. Felin əmr şəklinin I şəxs cəmində və II şəxsin təkində şəxs şəkilçisinin işlənməsində: gedağın, girəğın, biləğın, deyəğın, gələğın, getqınan, verqınan və s.

12. İraq–türkman ləhcəsində feli bağlamalar (-anda, -əndə) şəxs sonluğu qəbul edir. Bu halda (feli bağlama şəxslər üzrə təsrifləndikdə) I və II şəxslərdə ahəng qanunu pozulur; məs.: biləndax (biz biləndə), gedəndax (siz gedəndə), gələndəvız (siz gələndə), kəsəndəvız (siz kəsəndə), siləndəvız (siz siləndə) və s.

13. Felin şərt şəklinin (sadə və mürəkkəbi) şəxs şəkilçilərində: görsəvız, verməsəvız, görsəydıx, görməsəydıx.

b) qalın damaq saitlərindən sonra incə damaq saitlərinin işlənməsi.

İraq–türkman ləhcəsində bu hadisə çox da yayılmamışdır. Ona indiki və qəti gələcək zamanlarda və bəzi sözdüzəldici şəkilçilərdə təsadüf edilir; məs.: alırığ, almiyacağam, bağvançi, saxtaçi.

c) incə dodaq saitlərindən sonra qalın damaq saitlərinin işlənməsi.

1. Şühudi keçmiş zamanın I şəxs cəmində: düzüldıx, gördıx, sürdıx.

2. Qeyri-qəti gələcək zamanın I şəxs cəmində: görrıx, öldürrıx, sürrıx, süpürrıx.

3. Bəzi sözdüzəldici şəkilçilərdə: gözlıx, sözlıx, üçlıx, güllıx.

4. Məsdər şəkilçilərində: görmağ, gülmağ, sürmağ.

5. Əmr şəklinin I şəxs cəmində: düzağın, görağın, dögağın, gülağın.

Ahəngin pozulması

İraq–türkman ləhcəsində ahəngin pozulması iki şəkildə baş verir. a) damaq ahəngi pozulur, b) dodaq ahəngi pozulur.

a. Damaq ahənginin pozulması.

Damaq ahənginin pozulması aşağıdakı hallarda özünü göstərir.

1. a və ı səslərindən sonra u səsi gəlir; məs.: alacağuydu, atsunnar, babauz, sararup, qararup, alduz, annadu.

2. ə və i səslərindən sonra ü səsi işlənir: məs.: dərdü:, dişü:, ölü:, sənü:, sənətü:, nədü: və s.

3. e səsindən sonra ü səsi gəlir: belü:, dedü:, yedü:, yerü: və s.

b. Dodaq ahənginin pozulması.

İraq–türkman ləhcəsində damaq ahənginə nisbətən dodaq ahənginin pozulması daha çox müşahidə olunur. Bu hadisəyə aşağıdakı vəziyyətlərdə təsadüf edilir.

a) u və o saitlərindən sonra ı saiti gəlir. u və o səslərindən sonra ı səsinin işlənməsi, əsasən, şəkilçilərdə və aşağıdakı şəraitdə baş verir.

1. -dır, -dir, -dur, -dür xəbər şəkilçilərində: budı, odı, quşdı, donquzdı, oğludı, sudı, toydı, uzundı, çoxdı.

2. Nəqli keçmiş zaman şəkilçilərində: qurmışam, qurmışıq, qurmısan, qurıp, qurıplar.

3. Şühudi keçmiş zaman şəkilçisində: vurdı, vurdılar, qurdım, qurdılar, doğdı, doydı, dutdılar, uçtı və s.

4. İsmin təsirlik halında: quşı, oyunı, oğlı, suyı, duzı, otı, buynuzı, tutı, muncığı, quyruğı və s.

5. Əmr şəklində: vurım, vursın, doldır, dursın, olsın, oxı, sorın, uçın, uçsın, uçsınlar və s.

6. Qeyri-qəti gələcək zamanda: oxıram, oxırıx, oxısın, oxısız, oxır, oxıllar.

7. İndiki zamanda: qorxmıram, qorxırıx, qorxısan, qorxısız, qorxırı.

8. İsmin yiyəlik halında: quzunın, touğın, bunın // münın, usunın və s.

9. İsmin təsirlik halında: burnı, qozı, quşı, duzı, yolı, onı, suyı, toxı, unı və s.

10. Feli bağlamalarda: quruyıp, doğmıyıp, durınca, oxudıxca, oxuyıp, sorınca və s.

11. Müxtəlif sözdüzəldici şəkilçilərdə: boylı, qolsız, qorxulı, qullığ, odınçı, oyınçı, sulı, toplılıx, odınçı, korlıx, məzarlıx və s.

b) ö, ü saitlərindən sonra i səsi gəlir.

1. Mənsubiyyət şəkilçisi qəbul etmiş isimlərdə: yükim, küci, özmiz, sümügi, süti, üzi, üzümi, hüsni, çüti və s.

2. Sıra saylarının şəkilçilərində: yüzinci, üçünci, dördünci.

3. Müxtəlif sözdüzəldici şəkilçilərdə: bükim, küpliğ, külli, güllik, gücli, üzsiz.

4. Əmr şəklinin müxtəlif şəxslərində: dögsin, düşsin, güldir, öldürsin, öldürim, öpim, örtsin, sürüsin.

5. III şəxsin xəbər şəkilçilərində: böyükti, yüklidi, müşgildi, sözdi.

6. Şühudi keçmiş zaman şəkilçisində: döndi, büküldi, öldi, örtüldi, sökdi, söndürdi, gördi, düşündi və s.

7. Nəqli keçmiş zamanda: görmişik, süzmişik, düzilmişik.

8. Qeyri-qəti gələcək zamanda: sürtilər, öldirər, öldürrik, dürüslərik.

9. İsmin yiyəlik halında: gözin, kömirin, sözin, çəkkücin.

10. İsmin təsirlik halında: küti, gözi, sözi, süti, üzügi, üzümi, tülküni, düdügi.

Saitlərin artımı

İraq–türkman ləhcəsində saitlərin artımına Azərbaycan dilinin başqa dialekt və şivələrində olduğu kimi, həm sözün əvvəlində, həm ortasında, həm də sonunda təsadüf edilir. Lakin burada söz əvvəlinə saitlərin artımı digərləri ilə müqayisədə məhdud şəkildə özünü göstərir.

Söz əvvəlinə saitlərin artımı

İraq–türkman ləhcəsində söz əvvəlinə yalnız qapalı i, u, saitlərinin əlavə olunması qeydə alınmışdır. i səsinin söz əvvəlinə artırılması, əsasən, alınma sözlərdə st və sk səslərindən əvvəl müşahidə olunur; məs.: istikan // istikən // istakan // iskan, iskəmli // iskəmbil «stul» (büt. ş.).

Bu xüsusiyyət, demək olar ki, Azərbaycan dilinin əksər dialekt və şivələrində özünü göstərir.

Söz əvvəlinə saitlərin artırılmasına yerli sözlərdə də rast gəlmək olur; məs: usu // usı (Tuz.) // ussu (M.) // issu (X.), israğıcün (Ər.) // israğıgün (büt.ş.).

Su sözünün əvvəlinə u saitinin artırılması Bakı dialektinin Xırdalan və Masazır şivələrində[1] və qərb qrupu dialekt və şivələrində[2] də özünü göstərir.

Söz əvvəlində saitlərin artırılması tatar (östəl, urıs), türkmən (orıs), yakut (ispirt, ıskaap < şkaf), başqırd (ərəsəy) dillərində də müşahidə olunur.[3]

Söz ortasına saitlərin artımı

İraq–türkman ləhcəsində söz ortasına saitlərin artımı həm alınma, həm də yerli sözlərdə özünü göstərir. Bu hadisəyə kar və ya cingiltili samitlərlə sonor, eləcə də iki kar samit arasında təsadüf edilir.

a səsinin artırılması. Söz ortasına a səsinin artırılması o qədər də geniş yayılmamışdır; məs.: dayaza<dayza «dayı arvadı», sapasağ (K.).

---

[1] **M.Ş.Şirəliyev.** Bakı dialekti, səh. 33

[2] В.Т.Джангидзе Особенности Дманисского говора азербайджанского языка (автореф. канд.дис.), Баку, 1965, стр. 13; Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 26.

[3] **Н.К.Дмитриев.** Вставка и выпадение гласных и согласных в тюркских языках. Исследования, I, стр. 281.

i səsinin artırılması. Söz ortasına i səsinin artırılması Kərkük dialekti üçün səciyyəvi hadisələrdəndir; məs.: dəris (Qızb.), ilik, rəsim (Ər.), filz (A.K.), qəhir, əhit, gedərikən, kiriminci <iyirminci>, pilaᵘ (büt.ş.).

Qeyd etmək lazımdır ki, pilaᵘ sözündə i səsi artımını ədəbi dilimizlə müqayisədə şərti olaraq qəbul edirik. Əslində, burada heç bir səs artımı yoxdur. N.K.Dmitriyev «plov» sözündən Azərbaycan ədəbi dilində i səs düşümünü göstərir.[1]

Şərqdə məşhur yemək adı olan bu söz rus (pilov)[2] və ingilis dillərində (pilau//pilaw//pilaff)[3] də İraq–türkman ləhcəsində olduğu kimi, i səsi ilə işlənir.

ı səsinin artırılması. Söz ortasına ı səsinin artırılması da çox yayılmış hadisələrdəndir; məs: ayırılıb // ayırılub, çayıçı (A.K.,X.), altımış (A.K.), qorıxdım, qorıxdı (K.), qorıxma (Ər.), waxıt (A.K.,Tis.), göz ağırığı, satılıq mal, sırağıgün (büt.ş.).

Söz sonuna saitlərin artımı

Azərbaycan dilinin başqa dialekt və şivələrindən fərqli olaraq, söz sonuna saitlərin artımına İraq–türkman ləhcəsində daha çox rast gəlinir. Bu hadisə həm alınma, həm də milli sözlərdə özünü göstərir.

a səsinin artırılması. İraq–türkman ləhcəsində söz sonuna a səsinin artırılmasına, əsasən, alınma sözlərdə təsadüf edilir; məs.: diploma, lawaşa, nəbza, çaq-çaqa (büt.ş).

ə səsinin artırılması. Söz sonuna ə səsinin artırılması İraq–türkman ləhcəsi üçün səciyyəvidir; məs.: dökməcə< döyməc, lələ, metrə, turpəkə<turpək (büt.ş.), təkə-bir //təkətük, təəcübə qaldım (K.,X.,M.).

---

[1] **N.K.Dmitriyev.** Göstərilən əsər, səh. 285.

[2] Azərbaycanca-rusca lüğət. Bakı, 1965, səh. 287.

[3] **В.К.Мюллер.** Англо-русский словарь. Москва, 1961, с.7.

Maraqlıdır ki, bir çox fonetik xüsusiyyətlərinə görə İraq–türkman ləhcəsinə uyğun gələn Naxçıvan qrupu dialekt və şivələrində metr sözündə sait səs sözün ortasına əlavə olunduğu halda,[1] Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, burada Qazax dialektində olduğu kimi,[2] sözün axırına artırılır.

i səsinin artırılması. Söz sonuna i səsinin artırılmasına Altun Köprü və Tuz Xurmatu qəsəbələrində təsadüf edilmişdir; məs.: qədəri, lakini, rəsmi müəllimi (A.K.), vallahi, gili<gil (Tuz.).

u səsinin artırılması. Söz sonuna u səsinin artırılması İraq–türkman ləhcəsi üçün səciyyəvi olub, onu bütün dialekt və şivələrimizdən fərqləndirir. Bu hadisəyə Kərkük şəhər şivəsində feli bağlamalar və feli bağlama tərkibləri şəxslər üzrə təsrifləndikdə ikinci şəxs təkdə təsadüf edilir; məs.: alandau<sən alanda, aparandau<sən aparanda, seyr edəndəu, seçəndəu, çağırandau, çaya gidəndəu, çalandau və s.

Saitlərin düşümü

İraq–türkman ləhcəsində saitlərin düşümü çox geniş yayılmış fonetik hadisələrdəndir. Bu hadisə sözlərdə vurğunun yerdəyişməsi və başqa səbəblərlə əlaqədar olaraq meydana çıxır.

M.Şirəliyev Azərbaycan dili dialekt və şivələrində saitlərin düşməsi hadisəsinə üç halda təsadüf edildiyini göstərir: a) sözün vurğusuz hecasında; b) vurğunun əsasdan şəkilçiyə keçməsi hallarında; c) sözlərin birləşməsi nəticəsində.[3]

---

[1] Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, səh. 37; M.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları, 1 çapı, səh. 69.

[2] **M.Şirəliyev.** Göstərilən əsər, səh. 70; Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 27.

[3] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, 1 çapı, səh. 70.

Bu vəziyyət eynilə İraq–türkman ləhcəsində də müşahidə edildiyi üçün saitlərin düşümü hadisəsi həmin qayda əsasında verilir.

1. İraq–türkman ləhcəsində də, bir qayda olaraq, söz kökünün vurğusuz hecasında qapalı saitlər düşür. Bu hadisə həm alınma, həm də yerli sözlərdə özünü göstərir; məs.: Əyşə<Ayişə, xəznə, əşrət, xəlfə, Xəccə, Həlmə, həmşə, həqqətən, dəqqə, zraət və s.

İraq–türkman ləhcəsində söz əvvəlində i saitinin düşməsinə də məhdud şəkildə təsadüf edilir; məs.: ki<iki, kiqat, kinci, girmi bir (A.K.).

2. Vurğunun kök və ya əsasdan şəkilçiyə keçməsi zamanı vurğulu hecadan, əsasən, qapalı, qismən də açıq saitlər düşür. Buna aşağıdakı hallarda təsadüf edilir:

a) Sonor, qismən də digər samitlə bitən bir sıra sözlər saitlə başlayan hal və ya mənsubiyyət şəkilçisi qəbul etdikdə sözün son hecasındakı qapalı sait düşür; məs.: bənzimiz, əkni, əknə, əkniyiz, yermiz, yelnə, yelni, ağzın, ağzı, taxlı, taxlım, qulağna, gözmüz, gözmə, özmüz, özmün, özmə və s.

b) Sonu qapalı saitlə bitən sözlər hal və mənsubiyyət şəkilçisi qəbul etdikdə sözün sonuncu saiti düşür; məs.: quynun, quyya, quyyı, quymız, quyları, içəryə, yuxsu, yuxda, daysının, daysına, birsi, birni, kimsi.

c) bura, ora, hara, nere sözləri yerlik və çıxışlıq hal şəkilçisi ilə işləndikdə sözün sonuncu saiti düşür; məs.: burda, burdan, hardan, nərdə, nərdən və s.

ç) sonor l, n, r səsləri ilə bitən fellər indiki və qeyri-qəti gələcək zaman şəkilçiləri qəbul edib işləndikdə I şəxs tək və cəmdə zaman şəkilçisindəki sait düşür; məs.: ayırram, ayırrıx, allam, allıx, yannam, yannıx, yellənnəm, yellənik, verrəm, verrik, sevinnəm, sevinnik, görrəm, görrıx və s.

3. İraq–türkman ləhcəsində sözlərin birləşməsi nəticəsində də saitlərin düşməsinə rast gəlinir. Bu hadisə aşağıdakı hallarda müşahidə edilir;

a) saitlə bitən sözlər saitlə başlanan sözlə birləşdikdə birinci sözün son saiti düşür; məs.: müsəli, qondarəkə < qondara əkə, qaşqat<qaşqa at, tələbəkə<tələbə əkə, əmarvadı, əmoğlu, başaşağı, qərəzüm<qara üzüm və s.

b) nə, necə sual əvəzlikləri ilə etmək, eləmək, olmaq köməkçi felləri birləşdikdə sual əvəzliyindəki sait düşür; məs.: neynim // neydim, neynisən, necollam, necollığ, necoldı və s.

c) üçün qoşması müxtəlif nitq hissələrinə qoşulub işləndikdə ilk sait düşür; məs.: başımçın, mənimçin, gülçin, nəçin // nəyşin, görməğçin və s.

ç) saitlə bitən və saitlə başlayan iki söz birləşib işləndikdə ikinci sözün ilk saiti düşür; məs.: birki, onki, hərkisi.

Heca artımı və heca düşümü

İraq–türkman ləhcəsində sözlərdə səslərin artımı və düşümü ilə yanaşı, bütöv hecanın əlavəsi və ya düşməsi də özünü göstərir.

Heca artımı. İraq–türkman ləhcəsində heca artımına az təsadüf edilir. Heca artımı aşağıdakı sözlərdə və söz birləşmələrində müşahidə olunur; məs.: arabana<araba, acaldım, biçərsəğ, qaçışılmaz, qaşawıc<qaşov, qırğılığ<qırğı, qorxağan[1], əkərsəx<əksək, əksərisi, yanaşamda, gedərsəx<getsək, lağwa<ləğwə<lağ, təkərlək < təkər, çənəkə<çənə, şahmaran

[1] Əslində, etimoloji baxımdan bu söz, məsələn, uçağan, oynağan, küsəyən morfoloji qəlibində olduğu kimi, burada sözün belə işlənməsi qrammatik normaya uyğundur. Ancaq bu forma ədəbi dildə yoxdur. Onun müqabilində qorxaq düzəltmə sifəti və qorxan feli sifəti işlənir. Heca artımını bu formalarla müqayisədə sayırıq.

(ək.ş.), ayrılınır<ayrılır (A.K.), dəbənk < dəng, göz yaşısı, nə yerəyə (K.), nəyisi (Tis.).

Heca düşümü. İraq–türkman ləhcəsində heca düşümü heca artımına nisbətən geniş yayılmışdır. Heca düşümü burada səciyyəvi olub, sözün əvvəlində, ortasında və axırında özünü göstərir.

Söz əvvəlində «yu» hecasının düşməsi mırta (Əm.) // murta (B.) < yumurta sözündə müşahidə olunur.

Söz ortasında heca düşümü İraq–türkman ləhcəsində ən geniş yayılmış hadisələrdəndir. Bu hadisəyə aşağıdakı hallarda rast gəlinir:

1. Saitlə bitən fellər indiki zamanın birinci şəxs tək və cəmində işləndikdə; məs.: ağlıram< ağlayıram, ağlırıx < ağlayırıq, tanıram, tanırıx, bəslirəm, bəslirix, oxuram < oxuyuram, oxurıx // oxırıx // oxurux < oxuyuruq (büt.ş.).

2. Saitlə bitən fellər indiki zamanın II şəxs tək və cəmində işləndikdə; məs.: bağlısan < bağlayırsan, bağlısız < bağlayırsınız, başlısan, başlısız, tanısan, tanısız, titrisən, titrisiz və s. (büt. ş.).

Söz ortasında heca düşümünə aşağıdakı sözlərdə də rast gəlinir: Zixə < Zileyxə, Məməd < Məhəmməd, itəmə < itələmə, yırğasan < yırğalasan (ək.ş), anışlı < anlayışlı (Ər.), doqzançı < doxsanıncı (A.K.).

İraq–türkman ləhcəsində söz axırında da heca düşümü özünü göstərir. Söz axırında heca düşümü Altun Köprü şivəsində ikinci növ təyini söz birləşməsində qeydə alınmışdır; məs.: tamata turşu «pomidor turşusu», xiyar turşu və s.

Bundan başqa, bəzən bu və ya digər sözdən bütöv heca deyil, üçsəsli hecanın iki səsi, bəzən də iki yanaşı hecanın hərəsindən bir səs düşür. Buna aşağıdakı hallarda rast gəlinir.

1. Qeyri-qəti gələcək zamanın I şəxs təkinin inkarında -ra, -rə düşür; məs.: ayırmam, almam, bilməm, qayıtmam, qaxmam,

qoymam, dögməm, düşməm, etməm, əkməm, inanmam, içməm, yeməm, yığmam, keçməm, gedməm, gülməm, minməm, oxumam, tanımam, tapmam, xoşlamam, çağırmam və s. (büt. ş.)

2. Sonu saitlə bitən fellər indiki və qeyri-qəti gələcək zamanın III şəxs cəmində işləndikdə zaman şəkilçisindəki ya, yə, yu hecası düşür; məs.: başlıllar < başlayırlar, qawalıllar, oynıllar, tanıllar, ağlıllar < ağlayırlar, başlıllar < başlayarlar, bəslillər < bəsləyərlər, yollıllar < yollayarlar.

3. Bir qayda olaraq, *doğmaq* felinin məchul forması *doğulmaqdan* «ul» düşür və həmin məchul fel təsirli olur; məs.: doğdum<doğuldum, doğdu, doğduğ, doğarkən < doğularkən, doğmasaydığ<doğulmasaydıx, doğup<doğulub və s. (büt.ş.)

Qeyd etmək lazımdır ki, «Kitabi-Dədə Qorqud»dan başlamış (Oğlum doğmasın, doğarsa on günə varmasın. Oğlum doğmasın. Doğarsa on yaşına varmasın)[1] XVIII əsrdə Vaqifə qədər (Nə gözəl doğubsan anadan, Pəri:)[2] «doğulubsan» mənasında «doğubsan» işlədilmişdir.[3]

Bu gün Türkiyə türkcəsi üçün normativ sayılan həmin morfoloji qəlibə dilimizdə «ay doğdu», «gün doğdu» ifadələrində də rast gəlirik ki, bu, qədim oğuz xüsusiyyətidir.

Sözlərdən bütöv heca deyil, üçsəsli hecanın iki səsinin və ya iki yanaşı hecanın hərəsindən bir səsin düşməsinə aşağıdakı sözlərdə də təsadüf edilir; məs.: yaxlaştım<yaxınlaşdım, yaxlaşa-yaxlaşa, çuğlama<çuğullama, şika:t (A.K.), axtarlar<axtarırlar (Tis.), qorxam<qorxuram, dün<dünən, əzyət, tərpər<tərpədər (K.), yaltanmaq<yaltaqlanmaq, xurc <xurcun, çərfələk<çərxüfələk «fırlanğıc» (Ər.), atta<altında (Tis.), gəttim<gətirdim, gəttix.

---

[1] Kitabi-Dədə Qorqud, səh. 100, 134.

[2] **Molla Pənah Vaqif.** Əsərləri, Bakı, 1968, səh. 45.

[3] **Ə.M.Dəmirçizadə.** Azərbaycan ədəbi dili tarixi, səh. 23.

II Fəsil

SAMİTLƏR

İraq–türkman ləhcəsində ədəbi dildə işlənən bütün samitlərə təsadüf edilir. Lakin burada samitlərin ədəbi dildən və hətta dialekt və şivələrimizdəki samitlərdən fərqlənən variantlarına da rast gəlinir ki, onlar haqqında ayrıca danışacağıq. Burada müşahidə edilən samitləri aşağıdakı bölgü üzrə vermək olar.

1. Deyiliş yerinə görə:

a) boğaz samitləri: h, h, q;

b) dilarxası samitlər: q, q, k`, x, ğ;

c) dilortası samitlər: k, g, y;

ç) dilönü samitlər:

1) damaq-diş: ş, c, ç, c, r; 2) dil-diş: t, t^{c}, d, d, s, z, l, n;

d) diş-dodaq samitləri: f, v;

e) qoşadodaq samitləri: p, p^{c}, b, m, w;

2. Deyiliş üsuluna görə:

a) küylülər: 1) partlayanlar: q, k, k`, g, t, t^{c}, d, d, p, p^{c}, b; 2) sürtünənlər: h, h, x, ğ, ş, c, s, z, f, v; 3) qovuşuq: ç, c;

3. Səs tellərinin vəziyyətinə görə:

a) karlar: h, h, q, q, d, x, k, k`, ç, t, t^{c}, ş, s, f;

b) cingiltililər: q, ğ, g, d, c, c, z, v, b.

Qeyd etmək lazımdır ki, bir çox dillərdə y səsi sonorlar qrupuna daxil edildiyi halda, əksər dilçilərimiz, nədənsə, y səsini sonor səs kimi verməkdən çəkinmişlər. Yalnız S.Sadıqov müasir Azərbaycan ədəbi dilində işlənən samitlər üzərində apardığı uzunmüddətli laborator təcrübələrdən sonra y səsinin sonor olduğunu göstərmişdir.[1]

[1] **С.Б.Садыхов.** Экспериментальное исследование согласных современного азербайджанского языка (автореф. канд. дис.), Баку, 1968, стр. 10.

İraq–türkman ləhcəsində müşahidə edilən y səsinin Azərbaycan ədəbi dilində işlənən y səsindən fərqlənmədiyini nəzərə alaraq həmin səsin İraq–türkman ləhcəsində də sonor olduğunu söyləmək olar.

y səsinin dialekt və şivələrimizdə də sonor olması şübhə doğurmur. Sonorlar musiqi tonlu olması ilə fərqlənir. Bu xüsusiyyət onları saitlərə yaxınlaşdırır. Məhz buna görədir ki, fonetistlər onları yarımsait adlandırırlar.[1]

Burada y səsi ilə əlaqədar olan bir məsələni də aydınlaşdırmaq lazımdır. Məlumdur ki, diftonqları yalnız bir heca daxilində tələffüz edilən sait səslər əmələ gətirir. Bəs dialektoloqlarımızdan bəziləri nəyə əsasən öy, oy yarımdiftonqlarının dialekt və şivələrimizdə varlığından danışırlar.[2] Bizcə, elə ona əsasən ki, y sonordur, musiqi tonludur. Doğrudur, dialektoloqlarımız y səsinin sonor olduğunu göstərmirlər. Bəlkə də, buna görədir ki, öy, oy kimi yarımdiftonqların olması fikri Ə.Dəmirçizadənin kəskin etirazına səbəb olmuşdur.[3]

Bir halda ki, y samiti musiqi tonluğuna görə yarımsait hesab olunur, bizcə, öy, oy, ay yarımdiftonqlarının dialekt və şivələrimizdə varlığından danışmaq olar.

Samitlərin İraq–türkman ləhcəsində müşahidə edilən variantları haqqında

İraq–türkman ləhcəsində samitlərin aşağıdakı variantlarına təsadüf edilmişdir: q, q, k`, d, t^s, p^s, h, w.

[1] **Ə.C.Məmmədov.** Ərəb dili. Bakı, 1958, səh. 18; A.Axundov. Azərbaycan dilində işlənən ərəb sözlərinin fonetik xüsusiyyətləri haqqında. S.M.Kirov adına ADU, Elmi əsərlər, 1963, №3, səh. 59.

[2] **K.T.Ramazanov.** Salyan dialektinin fonetikası. Azərb. SSR EA Xəbərləri, 1956, № 6, səh. 55; **А.Г.Велиев**. Вопросы методики проведения наблюдений над говорами тюркских языков. Вопросы диалектологии тюркских языков. Казань, 1960, стр. 92.

[3] **Ə.M.Dəmirçizadə.** Müasir Azərbaycan dilinin fonetikası. Bakı, 1960, səh. 41.

q. Bu səs adi q səsinə nisbətən kar tələffüz edilir. q səsi söz ortasında, əsasən, adi q səsindən əvvəl özünü göstərir; məs.: ayaqqabı, doqquz, nəqqaş, saqqa «su qatan», saqqız, toqqa, toqqalaşmax, şaqqıldaq «ot növü», baqqam «gil» (ək, ş.), günəş haqqıyçın (A.K.), həqq (A.K.,Tuz., T.X.,Tis., Tel).

q. Bu səs tələffüz olunma yerinə, danışıq üzvlərinin iştirakına və keyfiyyətinə görə ərəbcə ق (qaf) səsindən fərqlənmir. Çox güman ki, boğazda tələffüz olunan q səsi ərəb dilinin təsiri ilə q səsindən yaranmışdır. Çünki eyni sözdə Kərkük şəhər şivəsində q səsinə (məs.: qız, qış, qırx və s.) təsadüf etdiyimiz halda, başqa şivələrdə q səsinə (qiz, qiş, qirx və s.) rast gəlirik. q səsinə, əsasən, sözlərin əvvəlində, qismən də ortasında və axırında təsadüf edilir; məs.: qabağ, qawın, qaxdım, qalabalıq «basabas», qaxar (ək. ş.) qısmat, qorxmam, suqaq «dalan» (K.).

Boğazda tələffüz edilən kar q səsi Azərbaycan dilinin şimal qrupu dialekt və şivələri sırasına daxil olan Tala şivəsində də (qar, quş, qalib, qıymat və s.) müşahidə edilir.[1]

k`. Dilarxası partlayan kar səsdir. Bu səsə (Kərkük şəhər şivəsindən başqa) əksər şivələrdə rast gəlinir; məs.: k`aşqa, k`iz, k`ir, k`irildi, k`ifil, k`irx, k`iş və s.

Partlayan q səsi Azərbaycan dili dialekt və şivələrində də özünü göstərir.[2]

---

[1] **A.Hüseynov.** Tala şivəsinin bəzi fonetik xüsusiyyətləri. V.İ.Lenin adına APİ, Elmi əsərlər, XIII cild, 1960, səh. 12, 15.

[2] **M.Ş.Şirəliyev.** Bakı dialekti, səh. 23; R.Ə.Rüstəmov. Quba dialekti, səh. 62; Али Джафарли. Казахский диалект азербайджанского языка (автореф. канд. дис.), Баку, 1962, с. 10; Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 30; A.Hüseynov. Göstərilən məqalə, səh. 11; Б.П.Садыхов. О некоторых кыпчакских элементах в айрумском говоре азербайджанского языка. Вопросы диалектологии тюркских, том IV, Баку, 1966, с. 178.

R.Rüstəmov bu səsin türk dillərindən qazax, tatar, uyğur və türk dili üçün səciyyəvi olduğunu göstərir.[1]

Ə.Dəmirçizadə bu səsi k` ilə işarə edib, haqlı olaraq onun ədəbi dilimizdə də işləndiyini qeyd edir.[2]

d. Bu səs adi keyfiyyətdə tələffüz edilən d səsinə nisbətən bir qədər kardır. Bu, kar samitlərin özündən sonra gələn adi keyfiyyətli d səsini karlaşdırması nəticəsində baş verir. Kar d səsinə t, f, p, x, ş səslərindən sonra təsadüf edilir; məs.: almaxdan, başdıx, bulutdı, etdim, eşitdim, itipdi, işdi, yastuxdı, getdi, ləngitdim, muncuxdu, tutacaxdı, heywanatdan və s. (ək. ş.).

Bu xüsusiyyət Azərbaycan dili dialekt və şivələri üçün də səciyyəvidir.[3]

t^S. Nəfəsli t səsi dialekt və şivələrimizdə olduğu kimi, İraq–türkman ləhcəsində də bir və iki hecalı sözlərin sonunda özünü göstərir; məs.: arwat^S, armıt^S, at^S, bit^S, qurut^S, dərt^S, dövlət^S (ək.ş.), sahat^S, camahat^S (A.K.).

Nəfəsli t səsinə Azərbaycan dilinin əksər dialekt və şivələrində rast gəlinir.

p^S. Nəfəsli p səsinə İraq–türkman ləhcəsində nəfəsli t səsindən fərqli olaraq, yalnız birhecalı sözlərdə rast gəlinir; məs.: küp^S, öp^S, sap^S, səp^S, tap^S və s.

h. Bu səs ədəbi dilimizdə işlənən adi keyfiyyətli h səsinə nisbətən daha boğazda tələffüz olunur. Kar səsdir. h səsinə, əsasən alınma sözlərdə təsadüf edilir. Bu səs həm sözün əvvəlində, həm ortasında, həm də axırında özünü göstərir; məs.: hawas (A.K.), həyyif (A.K.), hewan, hesab, həyran, səbəh, səhəb (ək.ş.), rəhət (Tuz.), həqq (X.).

---

[1] **Р.А.Рустамов.** О монографическом изучении диалектов азербайджанского языка. Вопросы диалектологии тюркских языков, том II, Баку, 1960, стр. 81.

[2] **Ə.Dəmirçizadə.** Müasir Azərbaycan dilinin fonetikası. səh. 65.

[3] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları. I çapı, səh. 75.

Adi h səsinə nisbətən daha boğazda deyilən kar h səsi Azərbaycan dilinin Quba dialektində[1] və Tala şivəsində[2] də qeydə alınmışdır.

Kərkük şivələrində boğaz h səsi, görünür, ərəb dilinin təsiri ilə bağlıdır. Ümumiyyətlə, belə innovasiyalar (məxrəcindən çıxma) yad dil təsiri ilə baş verir. Təsadüfi deyil ki, Quba və Tala şivələri də Qafqaz–iber dilləri ilə kontakt zonalardır.

w. Azərbaycan ədəbi dilində işlənməyən w səsi tələffüz olunma yerinə, danışıq üzvlərinin iştirakına və keyfiyyətinə görə ingiliscə w və ərəbcə (vav) səslərinə oxşayır. Bu səsi tələffüz edərkən dodaqlar dairəvi vəziyyət alır və bir qədər irəli uzanaraq dar bir nov əmələ gətirir. Dilin arxa hissəsi yumşaq damağa doğru qalxır. Bu səsin deyilişində u saitinin çaları duyulur. Təsadüfi deyil ki, w səsi qoşadodaq sonor səs sayılır. Deməli, onda melodiya var, bu sait çalarından gəlir. Bu səsə İraq–türkman ləhcəsində sözün əvvəlində və ortasında təsadüf edilir; məs.: watan, arwat^{c}, wafalı, war, qawın, sewintir, şiwən (ək.ş.), nəwə (Ə.).

Söz köküdə w səsi dialekt və şivələrimiz arasında Tala şivəsi üçün səciyyəvidir. Tala şivəsində w səsinə sözün həm əvvəlində, həm də ortasında (məs.: war, watan, əw, towuq, sowuq və s.) rast gəlinir.[3]

İraq–türkman ləhcəsində w səsinə şəkilçilərdə də təsadüf edilir. Bu, aşağıdakı hallarda baş verir:

a) II şəxs tək və cəmin mənsubiyyət şəkilçisini qəbul etmiş isimlərdə: məs.; babaw, babawız, ikiwız, yoluwuz və s.

b) Felin əmr şəklinin II şəxs cəminin təsdiq və inkarında; məs.: qınamawın, inanmawın, yazmawın, yırğalawın, yuwın, oxumawın (K.), cəmləwin, cətirməwin, çirməwin və s. (Ə.).

[1] **R.Ə.Rüstəmov.** Quba dialekti, səh. 61.

[2] **A.Hüseynov.** Göstərilən məqalə, səh. 12.

[3] **A.Hüseynov.** Göstərilən məqalə, səh. 11.

İkinci şəxsin mənsubiyyət şəkilçisində w səsinə şərq və cənub qrupu dialekt və şivələrində də təsadüf edilir. Hesab etmək olar ki, atova, atovun, atovu, atovuz, nənəvüz, işüvüz, otağuvuz və s.[1] sözlərdəki səs diş-dodaq səsi v olmayıb, qoşadodaq w səsidir. Çünki bu şəraitdə diş-dodaq səsini tələffüz etmək çətindir. w səsi türk dillərində qədim zamanlardan mövcud olmuşdur. Bu səsə qədim türk yazılı abidələrində də rast gəlinir.[2]

Ə.Dəmirçizadə qeyd edir ki, Mahmud Kaşğari türk dillərində əsas fonetik qanunlardan danışarkən başqa türk dillərində olan (w) səsinin oğuzlarda (vav) səsi ilə əvəzləndiyini göstərmişdir.[3]

A.M.Şerbak qoşadodaq w səsinin türk dillərinə ərəb dilinin təsiri ilə sonradan keçdiyini qeyd edir.[4]

Dediyimiz kimi, səslərin qədim Türk məxrəcindən çıxması başqa dil mühiti ilə bağlılıqdan gəlir. Təbii ki, Kərkük şivələrində də w ərəb dilinin təsiridir. A.M.Şerbakın dediyi Türküstan ərazisindəki təsir ilə İran dilləri (tacik, əfqan, soqd və s.) ilə bağlı olmalıdır.

Qoşadodaq sonor w səsi ərəb dilində yarımsaitdir.[5] Bu səsin yarımsait olmasını türk dillərinə aid materiallar da təs-

---

[1] **М.Ш.Ширалиев.** Второе лицо категории принадлежности и сказуемости. Вопросы диалектологии тюркских языков, том. IV, Баку, 1966, с. 45; Р.А.Рустамов. О монографическом изучении диалектов азербайджанского языка. Вопросы диалектологии тюркских языков, том II, Баку, 1960, с.79.

[2] Древнетюркский словарь. Ленинград, 1969, стр. 190.

[3] **А.М.Демирчизаде.** Сравнительный метод лингвиста XI века Махмуда Кашгари. Azərb. SSR EA Xəbərləri (ictimai elmlər seriyası), 1964, № 4, с. 50.

[4] **А.М.Шербак.** Грамматика староузбекского языка. М.-Л., 1962, стр. 84.

[5] **Ə.C.Məmmədov.** Ərəb dili, səh. 18; A.Axundov. Göstərilən məqalə, səh. 59.

diq edir. Məlumdur ki, samitlər saitlərlə əvəz olunmur. Lakin w səsi sözlərdə u səsi ilə əvəzlənir.[1]

Samitlərin əvəzlənməsi

İraq–türkman ləhcəsində geniş yayılmış fonetik hadisələrdən biri də samitlərin əvəzlənməsidir. Samitlərin əvəzlənməsi həm sözün əvvəlində, həm ortasında, həm də sonunda müşahidə edilir.

1. Söz əvvəlində

İraq–türkman ləhcəsində sözün əvvəlində samitlərin birbiri ilə əvəzlənməsi çox geniş yayılmışdır.

b>m. Söz əvvəlində b səsinin m səsi ilə əvəzlənməsinə nisbətən az təsadüf edilir; məs.: məhanə (K.), munca, munın, muna // mına, munı (Tuz.).

Bu hadisə Azərbaycan dilinin ayrım şivəsində geniş yayılmışdır.[2]

b>m hadisəsinə türk, özbək, noqay, qaraqalpaq və qırğız dillərində də təsadüf edilir.[3]

b>p. b səsinin p səsi ilə əvəzlənməsi, əsasən, sözün əvvəlində özünü göstərir; məs.: palta, parmaq<barmaq «ölçü vahidi», piçağ // pıçağ, pişmədi, put<büt, putxana, pütin və s. (ək.ş.).

Söz əvvəlində b səsinin p səsi ilə əvəzlənməsi Azərbaycan dilinin qərb qrupu üçün daha səciyyəvidir.[4] Bu hadisə qıpçaq tipli türk dillərində çox geniş yayılmışdır.

---

[1] **Э.В.Севортян.** Выпадение согласных в южных тюркских языках, Исследования, 1, стр. 289.

[2] **Б.П.Садыхов.** Кедабекские говоры азербайджанского языка (автореф. канд. дис.), стр. 11.

[3] **Н.К.Дмитриев.** Фонетические закономерности начало и конце тюркского слова. Исследования, 1, с. 271.

[4] Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 31.

v>w. Bu hadisə İraq–türkman ləhcəsini, demək olar ki, əksər dialekt və şivələrimizdən fərqləndirir. v səsinin söz əvvəlində w səsi ilə əvəzlənməsi saitlər qarşısında müşahidə edilir; məs.: war, waba<vəba, watan, wəzn, wəhşi, wur (büt.ş.).

Bu hadisəyə Azərbaycan dilinin Tala şivəsində təsadüf edilmişdir.[1]

q>ğ. Söz əvvəlində q>ğ hadisəsi də bu ləhcə üçün səciyyəvidir. Bu hadisə, əsasən, alınma sözlərdə özünü göstərir; məs.: ğafil, ğeybət//ğiybət, ğeyrət, ğəddar, ğəzəb, ğəzetə, ğəzəl, ğəymağ, ğələt//ğalat, ğəm, ğəmzə, ğərib, ğərb, ğram, ğubar, ğəmgin, ğürbət (ək.ş.), ğençə (Tuz.)*.

Söz əvvəlində q>ğ hadisəsi Azərbaycan dili və onun dialekt və şivələri üçün səciyyəvi deyil.[2] Doğrudur, Şamaxı, Göyçay və Ağdaş şivələrində vaxtilə ərəblərin məskən saldığı Ərəbşahverdi, Ərəbqədim, Ərəbşalbaş, Ərəbcəbirli və s. kəndlərdə də bir sıra sözlər ğ ilə (məs.: ğəri, ğız, ğarğa, ğaşıq, ğarıq və s.) başlanır. Əlbəttə, bu, ərəb dilinin təsiridir. Ərəb dili bu kəndlərdə aradan çıxsa da, təsir qalmışdır.[3] Lakin bu təsirin əhatə dairəsi geniş olmamışdır. Belə ki, hələ qədim zamanlardan ilk səsi ğ olan alınma sözlər də q səsi ilə işlənmişdir.[4]

q>q. Adi keyfiyyətli q səsinin söz əvvəlində q səsi ilə əvəzlənməsi də İraq–türkman ləhcəsi üçün səciyyəvi olub,

---

[1] **A.Hüseynov.** Göstərilən məqalə, səh. 11.

* Bu bənd Azərbaycan ədəbi dili ilə müqayisə baxımından nəzərdə tutulur *(red.)*.

[2] **Ə.M.Dəmirçizadə.** Müasir Azərbaycan dilinin fonetikası, səh. 79.

[3] **Р.А.Рустамов.** Роль диалектных данных азербайджанского языка. Вопросы диалектологии тюркских языков. том II, Баку, 1963, стр. 13.

[4] **H.Mirzəzadə.** Azərbaycan dilinin tarixi qrammatikasına aid materiallar. Bakı, 1953, səh. 25, 26; H.Mirzəzadə. Azərbaycan dilinin tarixi morfologiyası, səh. 43.

qalın saitlərdən əvvəl özünü göstərir; məs.: qawan, qawıldım, qanat, qarın (ək.ş.), qız, qırx, qısmat, qıfıl, qış, qoyın, qurt, quş və s. (K.).

Boğazda tələffüz edilən kar q səsinə Azərbaycan dilinin Tala şivəsində də rast gəlinir.[1]

d>t. d səsinin söz əvvəlində t səsi ilə əvəzlənməsi İraq–türkman ləhcəsinə nisbətən geniş şəkildə müşahidə edilir; məs.: əmcək tayanı<dayə (Ə.), tawar, tamğa, toğrı (K), tükan (büt.ş.), taya (K.), taldan, tüşdi (A.K.), tombuz, turnalar (Ər.), tənə (Əm.), taşğın (Ər.) // taşqın (K.).

Azərbaycan dilinin qərb qrupu üçün səciyyəvi olan bu hadisə oğuz və qıpçaq qrupu türk dillərində də özünü göstərir.[2]

z<s. Bu hadisə həm dialekt və şivələrimizdə, həm də İraq–türkman ləhcəsində nadir halda müşahidə olunur. Söz əvvəlində z<s hadisəsi qeyd edilən ləhcədə iki sözdə müşahidə edilmişdir; məs.: söqsüz<zövqsüz, sühür<zühür.

k>q. Söz əvvəlində k səsinin q səsi ilə əvəzlənməsi həm alınma, həm də yerli sözlərdə özünü göstərir; məs.: qəlləkoma etməğ, qəryola // qaryola «krovat», qonyağ, qlub // qulub, qral (ək.ş.), eqmaq<əkmək «çörək» (M.).

k<q hadisəsinə Azərbaycan dilinin cənub[3] və qərb qrupu[4] dialekt və şivələrində də rast gəlinir.

k<k`. Dilortası k səsinin dilarxası q səsi ilə əvəzlənməsinə Ərbil, Xanaqin, Məndəli və Qızlarbat şivələrində təsadüf edilir; məs.: k`aman, k`afır, k`içiq k`üp// k`ədnə, k`i<iki və s.

---

[1] **A.Hüseynov.** Göstərilən məqalə, səh. 12, 15.

[2] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, II çapı, səh. 81–82; Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 32–33.

[3] Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, səh. 43.

[4] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, II çapı, səh. 85.

Bu hadisə Azərbaycan dilinin Qax şivələri üçün səciyyəvi olub[1], başqa dialekt və şivələrimizdə məhdud şəkildə özünü göstərir.[2]

Söz əvvəlində k>q əvəzlənməsi qıpçaq qrupu türk dillərindən olan tatar dilində də çox müşahidə edilir.[3]

k>g. Azərbaycan dilinin cənub qrupu dialekt və şivələri üçün səciyyəvi olan söz əvvəlindəki k>g əvəzlənməsi[4] İraq–türkman ləhcəsində eyni fonetik şəraitdə e, i, ə səsləri qarşısında özünü göstərir; məs.: geçəl, geçən il, geçi, gewil (göl), göül, göbək (ək.ş.), geç // giç (A.K.), geçim (Ər.), gişi (K.).

g>q. g səsinin söz əvvəlində q səsi ilə əvəzlənməsi geniş yayılmış hadisələrdəndir. Bu hadisəyə, əsasən, Xanaqin və Məndəli şivələrində təsadüf edilir; məs.: qəl, qəlin, qəlip, qənə, qəti, qor, qötü, qünnər (X.,M.), qəlirdim, qörmədim (X.), qözəl (X.,M.) // qüzəl (A.K.), qünorta (A., K., X., M.), quruldır (Qızb.).

Qeyd etmək lazımdır ki, Xanaqin və Məndəli şivələrində, ümumiyyətlə, k səsinə təsadüf edilmir. Çox güman ki, Xanaqin və Məndəlidə Orta Asiyadan gələn türkmənlər məskən salmışlar. Türkmən ədəbi dilində k səsinin olmaması və eləcə də onun dialekt və şivələrində k səsi yerinə q səsinin işlənməsi (məs.: qüller, qordim, qeçip, qaler, qöz, qit, qice, qeldim, qün[5]) bizə belə bir qənaətə gəlməyə imkan verir.

---

[1] **С.М.Молла-заде.** Говоры Кахского района Азербайджанской ССР (автореф. канд. дис.), стр. 16.

[2] **R.Ə.Rüstəmov.** Quba dialekti, səh. 62; Б.П.Садыхов. Кедабекские говоры азербайджанского языка, с. 10.

[3] **Ф.Г.Исхаков.** Характеристика отдельных гласных тюркских языков, Исследования, 1, стр. 117.

[4] Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, səh. 43.

[5] Qöroqlı. Aşqabat, 1958, səh. 7, 9, 287, 355; Türkmen xalq mataları, səh. 18, 19, 30, 34, 35, 42; Н.Атамедов. Манышский говор Анауского диалекта туркменского языка (автореф.канд.дис.), стр. 8, 9, 13.

Söz əvvəlində g>q hadisəsi Azərbaycan dilinin Gədəbəy[1] və Qax[2] rayonu şivələri üçün də səciyyəvidir.

g>q əvəzlənməsi qaqauz dili[3] və özbək dilinin Xarəzm şivələrində[4] də özünü göstərir.

g>k. Azərbaycan dili dialekt və şivələrində müşahidə edilməyən bu hadisə bir neçə sözdə qeydə alınmışdır; məs.: kəh də, kiras // kiraz<gilas (ək, ş.), küləşçi, küəy<göy «kürəkən» (Til.).

g>k hadisəsi özbək ədəbi dili, onun Manqıt dialekti, həmçinin başqırd, tatar, qazax, qırğız, türkmən və noqay dilləri üçün səciyyəvidir.[5]

g>c. Söz əvvəlində g>c əvəzlənməsi İraq–türkman ləhcəsinin Ərbil şivəsində geniş yayılmışdır; məs.: cet, cetməwin, cəl, cəmi<gəmi, cələğin, cəssinnər, cidən-cələn, corxan «goreşən», cözəl//cüzəl və s.

g səsinin c səsi ilə əvəzlənməsi də İraq–türkman ləhcəsini cənub qrupu dialekt və şivələrimizə yaxınlaşdırır. Bu hadisə Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri üçün səciyyəvi olub[6], az-çox dərəcədə qərb qrupu dialekt və şivə-

---

[1] **Б.П.Садыхов.** Кедабекские говоры азербайджанского языка, стр. 11.

[2] **С.М.Молла-заде.** Говоры Кахского района Азерб. ССР, стр. 16.

[3] **Л.А.Покровская.** Основные черты фонетики гагаузского языка, Вопросы диалектологии тюркских языков, том II, Баку, 1960, стр. 188.

[4] **Ф.А.Абдуллаев.** Фонетика Хорезмских говоров узбекского языка (автореф.док.дис.), стр. 8, 11.

[5] **А.Ишаев.** Из истории мангытов и мангытского диалекта узбекского языка. Вопросы диалектологии тюркских языков, том II, Баку, 1960, с. 167.

[6] **Т.Б.Гамзаев.** Ордубадский диалект (автореф.канд.дис.), Баку, 1960, стр. 9; Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, səh. 51.

lərində[1], Cəbrayıl keçid şivəsində[2] və Zəngilan şivəsində[3] də özünü göstərir.

m>b. Söz əvvəlində m səsinin b səsi ilə əvəzlənməsi bir neçə sözdə müşahidə olunmuşdur; məs.: bin (büt.ş.), bən, bənimsəmək (A.K.).

p>b. p səsinin b səsi ilə əvəzlənməsi də İraq–türkman ləhcəsi üçün səciyyəvi olub, onu dialekt şivələrimizdən fərqləndirir. p>b hadisəsi dialekt və şivələrimizin, əsasən, qərb qrupuna aid olub, alınma sözlərdə özünü göstərir.[4]

İraq–türkman ləhcəsini isə p>b hadisəsi yerli sözlərdə də müşahidə edilir; məs.: baqlawa, bacaq<paça (büt.ş.), bıqqıldar, bozğun, bozar, bozulmuş, bozuğ//bozux (A.K.).

s>z. s səsinin z səsi ilə əvəzlənməsi məhdud şəkildə özünü göstərir; məs.: zalxım, ziftə<siftə.

t>d. Söz əvvəlində t>d əvəzlənməsi İraq–türkman ləhcəsini qərb qrupu dialekt və şivələrimizə yaxınlaşdırır. Qərb qrupu dialekt və şivələrində bir neçə sözdə müşahidə edilən t>d hadisəsinə[5] İraq–türkman ləhcəsində nisbətən çox rast gəlinir; məs.: dapanca (Ər.), dəgə-təkə, dəgi, dikən, dökən, dürrac, dutdılar, yengi döküb<yeni töküb (K., Üçt.).

x>q. Söz əvvəlində x səsinin q səsi ilə əvəzlənməsi bir neçə sözdə özünü göstərir; məs.: qərbir<xəlbir, qəsil, qoyrat<xoyrat «bayatı» (ək.ş).

x>ğ. Ləhcədə az təsadüf edilən hadisələrdəndir; məs.: ğəzəl, ğirtləğ (X., m.), ğəlbir (Ə.).

---

[1] Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 34.

[2] **Т.И.Гаджиев.** Джебраильский говор азербайджанского языка (авт. канд. дис.). Баку, 1962, стр. 5.

[3] **С.М.Бехбудов.** Зангеланский говор азербайджанского языка (автореф. канд. дис.), Баку, 1966, стр. 10.

[4] Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 31.

[5] Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 33.

ç>s. Söz əvvəlində ç səsinin s səsi ilə əvəzlənməsi o qədər də yayılmış hadisələrdən deyildir. ç>s əvəzlənməsinə bir neçə sözdə təsadüf edilmişdir; məs.: sin (büt. ş.), sərçalə barmağ (ək.ş.), sügüntür<çuğundur (K.).

ç>c. Söz əvvəlində ç>c hadisəsi İraq–türkman ləhcəsi üçün səciyyəvi olmayıb, bir neçə sözdə özünü göstərir; məs.: canta, carx, Cəngiz (A.K.,Ər.) // Cingiz (K.).

ç>c əvəzlənməsi Azərbaycan dilinin Zəngilan şivəsində (məs.: cay, cirk, cubux, cəbədan və s.)[1] və türk dilinin dialektlərində də müşahidə edilir.[2]

c>g. Bu hadisə Ərbil şivəsində özünü göstərir; məs.: gamış // gamuş, goşar<coşar.

c>g hadisəsi də g>c hadisəsi kimi, Azərbaycan dilinin cənub qrupu dialekt və şivələrində daha çox müşahidə edilir.[3]

Yuxarıdakı əvəzlənmələrdən başqa, söz əvvəlində bəzən tək-tək sözlərdə özünü göstərən əvəzlənmələrə də təsadüf edilir. Bunlar aşağıdakılardır:

b>l: loş (ək.ş.)
v>b: bafasız (ək.ş.)
q>g: gir<qır (Əm.)
y>n: nanlış (Əm.)
k>h: hek<kök (A.K.)
k>ç: çüçə<küçə (Ər.)
n>y: yarduwan<nərdivan (K.)
f>h: pürüzə (ək.ş)
x>h: hərnük//hərnük<xirnik
h>p: pin<hin

---

[1] **С.М.Бехбудов.** Зангеланский говор азербайджанского языка, стр. 8.

[2] **A.Caferoğlu.** Güney doğu illerimiz ağızlarından toplamalar, İstanbul, 1945, səh. 269, 305.

[3] Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, səh. 51.

h>x: xumusu<hamısı (Tis.)
ç>ş: şaşmax<çaşmaq
c>z: zağal<cığal
c>q: qamış<camış (X., M.)
c>t: tummax<cummaq
ş>z: zillə<şillə
ş>ç: çorba//çurba<şorba.

2. Söz ortasında

İraq–türkman ləhcəsində samitlərin söz ortasında əvəzlənməsi də geniş yayılmışdır. Bunlar aşağıdakılardan ibarətdir.

b>p. Söz ortasında b>p hadisəsinə tədqiq edilən ləhcədə az təsadüf edilir; məs.: kabapçı (büt.ş.), çopan, tispəh // təspəh // təspeh (Ər.).

Bu hadisə Muğan qrupu[1] və Zaqatala–Qax şivələrində də müşahidə edilmişdir.[2]

v>w. v səsinin qoşadodaq sonor w səsi ilə əvəzlənməsi ləhcədə qabarıq şəkildə özünü göstərir; məs.: arwat, qawın, dewə<dəvə, dəwə<dava, karwan, meywə, pərwaz, pəhləwan // pəyləwan, suwağ, tawlamağ «əyirmək», heywa, heywan< eyvan, həywan<heyvan, cawahir, şiwən və s. (ək.ş.).

Bu hadisəyə Azərbaycan dilinin Tala şivəsində də təsadüf edilir.[3]

E.V.Sevortyan v>w əvəzlənməsinin türk dillərində tez-tez baş verdiyini qeyd edir: «Qeyd edilən samitlərdən dodaq-diş «v» samiti başqalarına nisbətən az hallarda düşür. Çox zaman dodaq-diş w sonantına və ya «y» samitinə keçməklə zəifləyir».[4]

---

[1] Azərbaycan dilinin Muğan qrupu şivələri, səh. 48.

[2] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, 1 çapı, səh. 87.

[3] **A.Hüseynov.** Göstərilən məqalə, səh. 11.

[4] **Э.В.Севортян.** Выпадение согласных в юъных тюркских языках. Исследования, 1, стр. 289.

S.Əlizadə P.M.Melioranskinin də bu nəticəyə gəldiyini göstərir.[1]

q>ğ. q səsinin söz ortasında ğ səsi ilə əvəzlənməsinə İraq–türkman ləhcəsində həm alınma sözlərdə, həm də öz sözlərimizdə rast gəlinir; məs.: bayğuş, quşğun, moğol // moğul // monğol, siğara, teleğraf, fotoğraf və s. (ək.ş.).

q>ğ hadisəsi Azərbaycan dilinin şərq qrupu dialekt və şivələrində daha çox müşahidə edilir.[2]

q>x. Söz ortasında q>x əvəzlənməsinə İraq–türkman ləhcəsində bir neçə sözdə kar t və s səsləri qarşısında təsadüf edilmişdir; məs.: maxsad (A.K.) // məxsəd (ək.ş.), noxta< nöqtə (K.), taxsir (ək.ş.).

Bu hadisə Muğan qrupu[3], Zəngilan[4] və Cəbrayıl[5] şivələrində də qeydə alınmışdır.

ğ>q. İraq–türkman ləhcəsində ğ səsinin q səsi ilə əvəzlənməsinə də rast gəlinir; məs.: aqsu (Ö.M.), qıqı<qığı, doqma, məqayət (Tis.) // məqayət // müqayət (Tuz.).

M.Şirəliyev söz ortasında ğ>q hadisəsinin Naxçıvan qrupu dialekt və şivələri üçün səciyyəvi olduğunu qeyd edir.[6] Son tədqiqatlar göstərir ki, ğ>q əvəzlənməsi Qarabağ şivələrində də (məs.: qarqa, yorqa, yorqan və s.) geniş yayılmışdır.[7]

---

[1] **S.Əlizadə.** *ilə, la//lə* qoşmalarının mənşəyinə dair, S.M.Kirov adına ADU, Elmi əsərlər (Dil və ədəbiyyat seriyası), 1964, №2, səh. 83.

[2] Azərbaycan dilinin Muğan qrupu şivələri, səh. 43; R.Ə.Rüstəmov. Quba dialekti, səh. 73.

[3] Azərbaycan dilinin Muğan qrupu şivələri, səh. 48.

[4] **С.М.Бехбудов.** Зангеланский говор азербайджанского языка, стр. 9.

[5] **Т.И.Гаджиев.** Джебраильский говор азербайджанского языка (авт. канд. дис.), стр.9.

[6] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, 1 çapı, səh. 91.

[7] Azərbaycan dilinin dialektoloji atlası. Bakı, 1990, səh. 79.

Söz ortasında ğ>q hadisəsi Ermənistan ərazisindəki Böyük Qarakilsə rayonunun İşıxlar, Sofulu, Cömərdli və s. kənd şivələri üçün də (məs.: damqa, qarqa, qarqudalı və s.) səciyyəvidir.[1]

ğ>q. ğ səsinin boğazda tələffüz edilən q səsi ilə əvəzlənməsi də səciyyəvi hadisələrdəndir. Bu hadisə, əsasən, iki sait, qismən də saitlə sonor l, m, samitləri arasında baş verir; məs.: laqım, loqman, tozbaqa (ək.ş.), aqlu (K.), portaqal (K.) // purtaqal (Ər.).

Bu hadisə Azərbaycan dili dialekt və şivələrində qeydə alınmamışdır.

d>z. d səsinin söz ortasında z səsi ilə əvəzlənməsi bu ləhcə üçün səciyyəvi deyildir. Bu hadisəyə bir-iki sözdə rast gəlinir; məs.: Xızır İlyas (büt.ş.), xizməkar (K.)//xizmədar (Ər.).

Söz ortasında d>z hadisəsi qıpçaq qrupu türk dillərindən tatar dili üçün səciyyəvidir.[2]

d>t. İraq–türkman ləhcəsini Azərbaycan dilinin şərq qrupu dialekt və şivələrinə yaxınlaşdıran bu hadisəyə[3] də daha çox iki sait, qismən də saitlə n, x samitləri arasında təsadüf edilir; məs.: anaxtar «açar», butağ // butax (büt.ş.), boyunturux (K.) // boyuntırıx (A.K.) // boyuntırlığ (ək.ş.), datlı (Tuz.), yaratıcı (K.), çügüntür (A.K.).

z>d. z səsinin söz ortasında d səsi ilə əvəzlənməsi bu ləhcə üçün də səciyyəvi deyildir. Bu hadisə çox məhdud şəkildə özünü göstərir; məs.: nədir (Tuz.), sadlamağ<sazlamağ (Ər.).

y>g. y səsinin söz ortasında g səsi ilə əvəzlənməsi ləhcə üçün səciyyəvi olub, onu şərq qrupu dialekt və şivələrimizə yaxınlaşdırır.[4]

---

[1] **Г.А.Багиров.** Говоры азербайджанского языка Сисианского района Армянской ССР (автореф.канд.дис.), Баку, 1966, стр. 12.

[2] «Казан утлары» jurnalı, 1966, №5, səh. 117.

[3] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, II çapı, səh. 89.

[4] **M.Ş.Şirəliyev.** Bakı dialekti, səh. 25; K.T.Ramazanov. Göstərilən məqalə, səh. 70; Azərbaycan dilinin Muğan qrupu şivələri, səh. 45; R.Ə.Rüstəmov. Quba dialekti, səh. 74.

y>g hadisəsinə ləhcədə ya iki sait, ya da saitlə sonor səslər arasında təsadüf edilir; məs.: bəgəndim, bögrək, deginmək, dəgirman, dəgmiş, gəgirmax, gögçək, ögüt//əgit, ləgən, sögüş, hegbə (ək.ş.), əgə, əgrət, çigit (K.), gögərçin (ək.ş.) // gügərçin (A.K.).

Şərq qrupu dialekt və şivələrimiz üçün səciyyəvi olan bu hadisə başqa qrup dialekt və şivələrimizdə də özünü göstərir.[1]

y>w. Bu hadisəyə daha çox iki sait arasında rast gəlinir; məs.: yawan<yayan «ayaqlı», kuwa<guya (ək.ş.), yuwıçı, suwa gediri (A.K.,Ər.), sowıx//sowux, sawısın (Tis.).

Bu hadisəyə Azərbaycan dilinin Tala şivəsində də (towuq, sowuq) təsadüf edilir.[2]

k>q. Söz ortasında k səsinin q səsi ilə əvəzlənməsinə bir neçə yerli sözdə təsadüf edilmişdir; məs.: biqar<bikar, arasındaqı, başındaqı (A.K.), qaymağəqa<qaymaq (Ər., X., M.).

k>g. Bu əvəzlənməyə, əsasən, Ərbil, Xanaqin və Məndəli şivələrində təsadüf edilir; məs.: bizimgi, istigan, sizugi (Ər., X., M.), tirgalan<quş vuran (X., M.), xizmagar<xizməkar (Ər.).

k>g. Söz ortasında k>g əvəzlənməsi ləhcəni şərq qrupu dialekt və şivələrimizə yaxınlaşdırır; məs.: dügcə, səgsən, çöürgə (ək.ş.).

Bakı dialekti[3] üçün daha səciyyəvi olan bu hadisə Quba[4] və Salyan[5] dialektlərində, həmçinin Muğan qrupu şivələrində[6] də özünü göstərir.

---

[1] Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, səh. 48; M.İslamov. Azərbaycan dilinin Nuxa dialekti, səh. 47.

[2] **A.Hüseynov.** Göstərilən məqalə, səh. 17.

[3] **M.Ş.Şirəliyev.** Bakı dialekti, səh. 25.

[4] **R.Ə.Rüstəmov.** Quba dialekti, səh. 65.

[5] **K.T.Ramazanov.** Göstərilən məqalə, səh. 63.

[6] Azərbaycan dilinin Muğan qrup şivələri, səh. 40–41.

g>c. Söz ortasında g>c əvəzlənməsi Ərbil şəhər şivəsində, əsasən, felin əmr şəklinin II şəxs təkində müşahidə edilir; məs.: almacınan, aparcınan, bilcinən, üzməcinən və s.

l>r. İraq–türkman ləhcəsində Azərbaycan dilinin, əsasən, qərb qrupu dialekt və şivələri üçün səciyyəvi olan l>r hadisəsi də özünü göstərir; məs.: qararmax, yerpizə<yelpizək, kiras// giraz, hürkər<ülkər (ək.ş.), yarwarmax, sararmax, çırpağ (A.K.).

Qararmax, sararmax kimi sözlərdə, əslində, heç bir əvəzlənmə yoxdur. Bu sözlər tarixən dilimizdə beləcə işlənmiş, sonralar dissimilyasiya nəticəsində *qaralmaq, saralmaq* formasında ədəbi dilimizdə qanuniləşmişdir.[1]

m>n. Sonor m səsinin n səsi ilə əvəzlənməsi dialekt və şivələrimizdə olduğu kimi, İraq–türkman ləhcəsində də az təsadüf edilən hadisələrdəndir.

Bu hadisə həm alınma, həm də yerli sözlərdə müşahidə edilir; məs.: badıncan (K.)// bayıncan (Ər.)// bəyincan (A.K.) // bədincan (Tuz., T.X., Kif), dandı<damdı, intihan (A.K.).

n<w. Bu hadisəyə iki sözdə rast gəlinmişdir; məs.: yawağ, yawlış (ək.ş.).

n>y. n səsinin söz ortasında y səsi ilə əvəzlənməsi də ləhcə üçün səciyyəvi deyildir. Bu hadisə, əsasən, mən, sən şəxs əvəzlikləri yönlük və təsirlik hallarda işləndikdə söz kökündə baş verir; məs.: məyə, məyi, səyə, səyi (T.X.), qəysəri<qənsəri «bazarda şey satmaq üçün olan üstü örtülü yer» (A.K.).

Bu hadisə Bakı dialekti,[2] Zaqatala, Qax[3] və Muğan qrupu şivələri[4] üçün də səciyyəvidir.

---

[1] **Ə.M.Dəmirçizadə.** Müasir Azərbaycan dilinin fonetikası, səh. 121.

[2] **M.Şirəliyev.** Bakı dialekti, səh. 77.

[3] **M.Ş.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, səh. 186.

[4] Azərbaycan dilinin Muğan qrupu şivələri, səh. 100; Р.А.Рустамов. О монографическом изучении диалектов азербайджанского языка. Вопросы диалектологии тюркских языков, Том II, Баку, 1960, стр. 79.

s>z. s səsinin z səsi ilə əvəzlənməsi Altun Köprü şivəsində özünü göstərir; məs.: doqzan, səkzən, tozbağa.

x>ğ. Söz ortasında x>ğ əvəzlənməsi Xanaqin və Məndəli şivələrində müşahidə olunur; məs.: adağlı, doğsan, coğları, çoğalmış və s.

x>q. Söz ortasında x>q əvəzlənməsi ləhcədə geniş yayılmış hadisələrdəndir. Bu hadisəyə, əsasən, iki sait, qismən də saitlə z, m, ç samitləri arasında təsadüf edilir; məs.: aqça, doqzan, yaqa, yəqə<yaxala, paqır // pəqir, yaqın (ək.ş.), çuqur, toqunmax (K., A.K.), baqılarsa, buraqılar, yaqın, yuqarı, maqam (K.), yoqdı, yoqış (X., M.), loqma (Əm.), naqış, çadır (Üçt.).

x>q əvəzlənməsinə Azərbaycan dili dialekt və şivələrində, demək olar ki, rast gəlinmir.

h>y. Bu hadisə Kifri şivəsində məhdud şəkildə müşahidə edilir; məs.: pəyləwan, sabaynan.

ç>c. Söz ortasında ç səsinin c səsi ilə əvəzlənməsi nisbətən geniş yayılmışdır; məs.: qöncə // qonca // xonca (Ə.), dilənci, əkinci, kamanca (K.), xancı, halcı // alınca (Tis.).

Bu hadisəyə az-çox Azərbaycan dilinin Quba dialektində[1], Muğan qrupu[2] və Zəngilan[3] şivələrində təsadüf edilir.

c>ç əvəzlənməsi İraq–türkman ləhcəsində geniş yayılmamışdır; məs.: əçxəmrə, kənçlər, xənçər (ək.ş.).

Bu hadisə Azərbaycan dilinin cənub qrupu dialekt və şivələrində də müşahidə edilir.[4]

ş>s. Söz ortasında ş>s əvəzlənməsi Azərbaycan dili dialekt və şivələrində olduğu kimi, İraq–türkman ləhcəsində də

---

[1] **R.Ə.Rüstəmov.** Quba dialekti, səh. 67.

[2] Azərbaycan dilinin Muğan qrupu şivələri, səh. 42.

[3] **С.М.Бехбудов.** Зангеланский говор азербайджанского языка, стр. 8.

[4] Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, səh. 47.

az yayılmışdır; məs.: harsın (K.) // harsin (ək.ş.), istiri // isliri<işləyir, pisig (büt.ş.).

ş>s əvəzlənməsi Azərbaycan dilinin Cəbrayıl[1], Gədəbəy[2] və Zəngilan[3] şivələrində də qeydə alınmışdır.

Göründüyü kimi, ş>s əvəzlənməsi Azərbaycan dili dialekt və şivələri üçün səciyyəvi deyildir. Təsadüfi deyildir ki, V.V.Reşetov və Ş.Şoabduraxmanov ş>s hadisəsinə əsasən türk dillərini qruplaşdırarkən Azərbaycan dilini özbək və türkmən dilləri ilə bərabər, ş səsi üstünlük təşkil edən qrupa daxil etmişlər.[4]

Türk dillərindən başqırd və qazax dillərində ş>s hadisəsi qabarıq şəkildə özünü göstərir.[5]

Söz ortasında samitlərin əvəzlənməsinə İraq–türkman ləhcəsində tək-tək sözlərdə də rast gəlinir. Bunlar aşağıdakılardır:

b>w: bağwan // bağwançı (büt.ş.), şawaş (ək.ş.), gülwə (K.) // kilwə (A.K.).

b>m: mərhəmə<məhrəba (X.).

v>ğ: cuğab (ək.ş.).

v>f: bənöfşə (büt.ş.) // bənəfsə (Üçt.).

q>w: şawıl<şaqul (ək.ş.).

q>k: əntikə (büt.ş.).

ğ>w: sawacağ, qıwılcım (ək.ş.).

ğ>y: qoyın qıyısı (K., Tis.).

---

[1] **И.Гаджиев.** Джебраилский говор азербайджанского языка, стр. 10.

[2] **Б.П.Садыхов.** Кедабекские говоры азербайджанского языка, стр. 11.

[3] **С.М.Бехбудов.** Зангеланский говор азербайджанского языка, стр. 11.

[4] **В.В.Решетов, Ш.Шоабдурахманов.** Узбек диалектологияси (фонетика, морфология, лексика), Тошкент, 1962, стр. 61.

[5] Yenə orada, səh. 61.

ğ>m: qantarma (ək.ş.)<qantarğa.
d>y: harıya geyisən?, geyirux (Ə.M.)<gedirik.
z>c: tacı (Ər.).
y>ğ: yağlağ (büt.ş.).
y>d: gidişmə (büt.ş.).
y>l: hillə, hilləçi (ək.ş.).
y>r: kirməğ<geymək (büt.ş.).
g>k: dəzkah (K.).
g>y: öyün<o gün, srağayün (A.K.).
n>g: ögündə, ögcə (K.).
n>r: qərim<qənim (Əm.).
n>x: haxsı (A.K.) // naxsı // nəxsi<hansı (K.).
p>b: qabı, örbə<örpək (X., M.), arabozan (büt.ş.).
r>q: yaqışı<yaraşır (ək.ş.).
r>l: üzəllik<üzərlik (ək.ş.).
r>s: kösükmüsən<görükmürsən, kösükməz (A.K.).
s>k: hankı (ək.ş.).
s>ş: aşurılar<asurilər (K.).
t>d: çödənə «qoz» (büt.ş.).
c>ş: başarmaq<becərmək (büt.ş.).

3. Sözlərin sonunda

Samitlərin söz sonunda əvəzlənməsi də İraq–türkman ləhcəsində geniş yayılmışdır. Burada söz sonunda aşağıdakı əvəzlənmələrə təsadüf edilmişdir.

b>p. Bu hadisə bir neçə alınma sözdə özünü göstərir; məs.: əzap, kabap, məktəp, məktup (ək.ş.), şəp<şəb «zay» (Ər.).

q>ğ//x. Bu hadisə İraq–türkman ləhcəsini bütün dialekt və şivələrimizlə birləşdirir. M.Şirəliyev çoxhecalı sözlərin sonunda x və ğ səslərinin işlənməsinə görə Azərbaycan dialektlərini iki qrupa ayırır və q>ğ hadisəsinin şərq, q>x hadi-

səsinin isə şimal, cənub və qərb qrupu dialekt və şivələrində üstünlük təşkil etdiyini göstərir.[1]

Lakin İraq–türkman ləhcəsində kərküklü alim Əta Tərzibaşının göstərdiyi kimi,[2] həm q>ğ, həm də q>x hadisəsi mövcuddur. Bu hadisə, əsasən, ikihecalı sözlərdə özünü göstərir; məs.: adağ // adax «pay», barmağ // barmax, bacanağ // bacanax, budağ // budax, qıdığ // qıdıx, qonağ // qonax, qulağ // qulax, qurşağ // qurşax, dolağ // dolax, damağ // damax, dırnağ//dırnax, ispanağ // ispanax, işığ // işıx, yanağ // yanax, korluğ // korlux, muncuğ // muncux, muştuluğ // muştulux, orağ // orax, ortağ // ortax, parlağ // parlax, sayığ // sayıx, tutluğ // tutlux, fıstığ // fıstıx, çanağ // çanax, çardağ // çardax, çırağ // çırax və s. (büt.ş.).

q>q. İraq–türkman ləhcəsində adi keyfiyyətli q səsinin boğazda tələffüz edilən q səsi ilə əvəzlənməsi müşahidə edilsə də, bu hadisə ərəb dilinin təsiri kimi nəzərdə tutulmalıdır. Bu əvəzlənmə o qədər də səciyyəvi olmayıb, az miqdar sözdə özünü göstərir; məs.: buqaq, sugaq, fərq (ək.ş.).

d>t. d səsinin sözlərin sonunda nəfəsli t səsi ilə əvəzlənməsi İraq–türkman ləhcəsi üçün xarakterik hadisələrdəndir; məs.: arwat, armut, bulut, qurt, dağıt, dərt, dört, Əhmət, igit, yurt, mərt, mücərrət, namart, noxut, ot, ət, polat, süt, ut, şagirt (ək.ş.), ant, barat (K., A.K.), qanat (K.) // qənət (A.K.), yakut (K.), kilit (X., M.).

Azərbaycan dili dialekt və şivələrinin əksəriyyətində müşahidə edilən bu hadisə[3] oğuz və qıpçaq tipli türk dillərində də özünü göstərir.

---

[1] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, II çapı, səh. 96.

[2] **Əta Tərzibaşı.** Kərkük xoyratları və maniləri, III cild, Bağdad, 1957, səh. 5.

[3] **M.Şirəliyev.** Şahbuz şivələrinin fonetikası, Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri, VIII cild, 1957, səh. 13.

z>s. z səsinin sözün sonunda s səsi ilə əvəzlənməsi Azərbaycan dili dialekt və şivələrində iki və daha artıq hecalı sözlərdə müşahidə olunduğu halda[1], İraq–türkman ləhcəsində iki, qismən də birhecalı sözlərdə özünü göstərir: məs.: ağıs, as, buğas, dənis, düs, nüfus, tas, tos (A.K.), almas, tawıs// towus (K.).

y>g. y səsinin söz sonunda g səsi ilə əvəz olunması da İraq–türkman ləhcəsi üçün səciyyəvi olub, onu şərq qrupu dialekt və şivələrimizə yaxınlaşdırır.[2] y<g hadisəsi dialekt və şivələrimizdə olduğu kimi, burada da birhecalı sözlərdə müşahidə edilir; məs.: bəg, düg, əg, ig,ög, çig (ək.ş.), kög (K.) // küg (A.K.).

k>q. k səsinin q səsi ilə əvəzlənməsi İraq–türkman ləhcəsində səciyyəvi olmayıb, bir neçə sözdə özünü göstərir; məs.: küçüq, xəndəq (Qızb.), qiçiq (Ər.), xitləq (X., Ər., M.).

k>ğ. Bu hadisə də az yayılıb; məs.: kərəğ (A.K.), çərəğ (Qızb.).

k>g. Söz sonunda k>g əvəzlənməsi ən səciyyəvi hadisələrdən olub, onu şərq qrupu dialekt və şivələrimizə yaxınlaşdırır.[3] Bu hadisə daha çox ikihecalı sözlərdə müşahidə olunur; məs.: beşig, bəbəg, biləg, birlig, böyüg, dəlləg, dəbəg, dirəg, döşəg, düdüg, dürməg, ərkəg, ətəg, inəg, istəg, kəpənəg «yapıncı», köpüg, müştərəg, özəg, tədarüg, tüfrəg, fələg, hənəg, hörüg, çiçəg, şimşəg (ək.ş.), əşşəg (ək.ş.) // əşəg (A.K,), köpəg (ək.ş.) // köppəg (Ər., Tis.), ürəg (ək.ş.) // yürəg (X.).

---

[1] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, 2-ci çapı, səh. 94.

[2] Azərbaycan dilinin Muğan qrupu şivələri, səh. 45; R.Ə.Rüstəmov. Quba dialekti, səh. 74.

[3] **M.Ş.Şirəliyev.** Bakı dialekti, səh. 25; R.Ə.Rüstəmov. Quba dialekti, səh. 64–65; M.İ.İslamov. Azərbaycan dilinin Lerik rayonu şivələrinin bəzi xüsusiyyətləri haqqında, Azərbaycan SSR EA Xəbərləri (ictimai elmlər seriyası), 1962, № 11–12, səh. 74.

k>x. Bu əvəzlənməyə məhdud şəkildə təsadüf edilir; məs.: diləx, diləxçilix (büt.ş.), çərəx (K.).

s>z. Söz sonunda s>z hadisəsi az yayılmış hadisələrdəndir: bi kəz, dərz, ingiliz, rəqqaz (A.K., Til., Tis.).

t>d. Bu hadisəyə az miqdar sözdə təsadüf edilir; məs.: incid, ked, səlәd<söylət (ək.ş.).

Söz sonunda t>d hadisəsi Azərbaycan dilinin şərq qrupu dialekt və şivələrində də müşahidə olunur.[1]

ç>ş. Bu hadisə təkhecalı sözlərdə özünü göstərir; məs.: aş, qaş (Tuş. X.), keş, puş, iş (Tis.), heş//hiş (ək.ş.).

c>ç. Söz sonunda ç>c əvəzlənməsi İraq–türkman ləhcəsi üçün xarakterik hadisələrdəndir; məs.: ağaç, borç, qiliç// qilinç, sağduç (A.K.), anaç (Tuz. X.), bulamaç, qazanç, kərpiç, geç (ək.ş.), küç, çəkküç//çəküç (K.).

Bu hadisə Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində də müşahidə olunur.[2]

ş>s. Söz sonunda ş>s əvəzlənməsinə iki sözdə təsadüf edilmişdir; məs.: bas, camus.

Bu hadisə Azərbaycan dilinin Cəbrayıl (savas, das)[3] və Gədəbəy (bas, yas, das, qıs)[4] şivələrində də müşahidə edilmişdir.

ş>s hadisəsi qıpçaq tipli türk dilləri üçün daha səciyyəvidir.[5]

İraq–türkman ləhcəsində bir və ya iki sözü əhatə edən əvəzlənmələrə də rast gəlinmişdir. Bunlar aşağıdakılardan ibarətdir:

---

[1] Azərbaycan dilinin Muğan qrupu şivələri, səh. 41; M.Şirəliyev. Bakı dialekti, səh. 27; R.Ə.Rüstəmov. Quba dialekti, səh. 65.

[2] Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 40.

[3] **Т.И.Гаджиев.** Джебраилский говор азербайджанского языка, стр. 10.

[4] **Б.П.Садыхов.** Кедабекские говоры азербайджанского языка, стр. 11.

[5] **В.В.Решетов, Ш.Шоабдурахманов.** Узбек диалектологияси, стр. 61.

v>k: kössək<kösöv
v>y: öy (K.)
b>f: çərçəf (büt.ş.)
v>h: nöh (ək.ş.)
d>z: muraz (ək.ş.)
d>k: kilik<kilid (K.)
y>m: pim (ək.ş.)
k>y: köpəy (A.K.)
n>y: qıy (büt.ş.), key (Tel.)
s>ş: hər kəş (büt.ş.)
x>ğ: çoğ (X., M.)
h>x: şax, şax barmaq (K.).

Samitlərin artımı

İraq–türkman ləhcəsində samitlərin artımı hadisəsinə də təsadüf edilir. Əlbəttə, samitlərin artımı məfhumu şərti olaraq qəbul olunmalıdır. Çünki bir qrup sözdə, doğrudan da, artım müşahidə edilirsə, başqa qrup sözlərdə heç bir artım özünü göstərmir. Əslində, həmin sözlər dilimizdə ta qədim zamanlardan belə işlənmişdir.[1]

Məhz buna görə də samitlərin artımı hadisəsindən danışarkən tarixi-müqayisəli üsuldan istifadə etmək lazım gəlir. Samitlərin artımına sözün həm əvvəlində, həm ortasında, həm də sonunda rast gəlinir.

1. Sözün əvvəlinə samitlərin artımı

Dialekt və şivələrimizdə olduğu kimi, İraq–türkman ləhcəsində də söz əvvəlinə samitlərin artımı, əsasən, h və y səslərinə aiddir.

[1] **R.Ə.Rüstəmov.** Quba dialekti, səh. 81–82; M.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları, II çapı, səh. 98.

h səsinin artımı. h səsi, əsasən, açıq, qismən də qapalı saitlərlə başlanan sözlərin əvvəlinə artırılır; məs.: halav // halay, haluca, heywan < eyvan, harsın (K.) // harsin (ək.ş.), hərištə, hodun (A.K.), horucım qırdım (Ər., K.).

Söz əvvəlinə h səsinin artımına Azərbaycan dilinin əksər dialekt və şivələrində rast gəlinir.[1] Lakin bu hadisə Şəki dialekti və Zaqatala–Qax şivələri üçün daha səciyyəvidir.[2]

y səsinin artımı. İraq–türkman ləhcəsində sözlərin əvvəlinə y səsinin artımı da geniş yayılmışdır. Bu hadisə, əsasən, qapalı saitlərdən əvvəl özünü göstərir; məs.: yaxta, yuca, yigit (A.K.), yücə, yegit (Tis.), yev, yil (Qızb.), yiğlirəm (Tuz. X.) // yığlıram < ağlayıram (K.), yılxı, yıldız // yuldız, Yuldırım, yüz, yürək (ək.ş.).

Bu hadisəyə əksər dialekt və şivələrimizdə təsadüf edilir.

Müasir ədəbi dilimizlə müqayisədə səs artımı kimi görünən bu hadisədə, əslində, heç bir səs artımı yoxdur. N.Aşmarin Nuxa dialektində indi ədəbi dilimizdə olduğu kimi işlənən ulduz, üz, ürək, il, ilan və s. sözlərdə y səsinin düşdüyünü göstərir.[3]

Müasir ədəbi dilimizdə y-sız işlənən bir çox söz türk dillərinin qədim yazılı abidələrində y səsi ilə işlənmişdir. Buna V.V.Radlovun lüğətində (yan, yandir, yılxı, yılxıçı)[4] və İbn-Mühənnada (yiqit, yiqirmi, yiqda, yiqna) da rast gəlirik.[5]

---

[1] Azərbaycan dilinin Muğan qrupu şivələri, səh. 64; R.Ə.Rüstəmov. Quba dialekti, səh. 82; Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, səh. 55; Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 41; M.İslamov. Azərbaycan dilinin Nuxa dialekti, səh. 52.

[2] **M.İslamov.** Azərbaycan dilinin Nuxa dialekti, səh. 52.

[3] **Н.И.Ашмарин.** Общий обзор народных тюркских говоров гор. Нухи, Баку, 1926, стр. 55.

[4] **В.В.Радлов.** Опыт словаря тюркских наречий. Том III, часть 1, С.Петербург, 1905, стр. 329, 333, 487.

[5] **П.М.Мелиоранский.** Араб филолог о турецком языке, стр. 0117-0119.

Girişdə qeyd etdiyimiz kimi, bir çox dilçilər İbn-Mühənnanın lüğətinin ya İraqda, ya da Azərbaycanda yazıldığını göstərirlər. Onlar təsdiq edirlər ki, İbn-Mühənnanın əsəri qədim Azərbaycan dilindədir. Deməli, indi İraq–türkman ləhcəsində rast gəldiyimiz yegit, yuca//yücə və s. sözlərdə heç bir səs artımı hadisəsi baş verməmişdir. Maraqlıdır ki, B.Çobanzadə M.F.Axundovun əsərlərində bu qəbildən olan sözlərin y səsi ilə işləndiyini (məs.: yüz, yılxı, yürək, yıl, yüca, yulduz və s.) göstərmişdir.[1]

Söz əvvəlində y səsinin işlənməsinə əksər türk dillərində də təsadüf edilir. Müqayisə et: başq.: yılan, yıl, yörək; tatar: yoldız, yörək; türk: yil, yilan, yildirim, yüz; türkm: yıl, yıldız, yılan, yürek; qaraqalpaq: yit, yıl, yılan və s.

2. Sözün ortasına samitlərin artımı

b səsinin artımı. Dialekt və şivələrimizdə olduğu kimi, İraq–türkman ləhcəsində də söz ortasına b səsinin artımına, əsasən, alınma sözlərdə təsadüf edilir; məs.: iskəmbli // iskəmli «stul», təmbəl > təməl (büt.ş.).

y səsinin artımı. Söz ortasına y səsinin artımı da söz əvvəlinə y səsinin artımı qədər geniş yayılmışdır. Söz ortasında y səsinin artımına aşağıdakı hallarda təsadüf edilir:

1. İki sait və ya saitlə y, l, m, n, g, ç samitləri arasında; məs.: quzuyəkə < quzu, ev üyçin // iyçin, eylə, ədəbiyçin, ziynət, leymun, rəyis, seygah və s. (ək.ş.).

2. Farsca sifət düzəldən «bi» ön şəkilçisi y səsini qəbul edərək bay, bey, bəy şəklində işlənir; məs.: bayhoş < bihuş, bəyhudə < bihüdə «boş».

---

[1] **B.Çobanzadə.** Axundovda Azərbaycan ləhcəsi, «Maarif işçisi», № 3, 1928, səh. 10.

3. Samitlə bitən sözlərə idi, imiş, isə köməkçi sözləri birləşdikdə y səsi idi, imiş köməkçi sözlərinin öz içərisində meydana gəlir; məs.: azıydı, varıydı, qarıymış, Qəmbəriymiş, quşiymiş, yarıymış, yoxıydı, yoxıymış, gəlməziydim, rəyisiymiş, qışiysə, yoxiysə, üzümiysə və s. (büt.ş.).

Bu xüsusiyyətə Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində də çox rast gəlinir.[1]

4. Sonu samitlə bitən sözlərlə ilə qoşmasının nan, nən variantı arasında; məs.: almaynan, baltaynan, zırnaynan, Xəccəynən, həlməynən və s. (büt.ş.)

n səsinin artımı. Bu hadisə də ləhcə üçün səciyyəvidir; məs.: dingirlənir<digirlənir, məhəng, nanqış, nanca, fürsand (büt.ş.), mintah (X., M.), yüzgüngçü // üzgüngçü (Tis.).

r səsinin artımı. r səsinin artımı bir-iki sözdə müşahidə edilir; məs.: arslan, pars (büt.ş.).

h səsinin artımı. Söz ortasına h səsinin artımı, əsasən, alınma sözlərdə baş verir; məs.: kəhkül, məhsul<məsul (Tis.), nəhlət, sahat, camahat (A.K.).

w səsinin artımı. w səsinin söz ortasına artırılmasına az təsadüf edilir; məs.: kərwə < kirə, sawal, cüzwi (büt.ş.).

3. Sözün sonuna samitlərin artımı

ğ səsinin artımı. Söz axırına ğ səsinin artımı bir sözdə özünü göstərir; məs.: barığ.

g səsinin artımı. Bu hadisəyə bir neçə sözdə təsadüf edilmişdir; məs.: yung (K.) // yüng (X.), fərig<fərə.

m səsinin artımı. Söz sonuna m səsinin artımı da az müşahidə edilən hadisələrdəndir; məs.: yoxsam, hələm.

n səsinin artımı. Söz sonuna n səsinin artırılması ləhcə üçün səciyyəvi olub, əsasən, bağlayıcı və qoşmalarda özünü

[1] Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 42.

göstərir; məs.: aman<amma (Tuz. X.), aslan<əsla, daiman, yan//yan<ya, yən//yən<yə, çünkün (ək.ş.), kimin, təkin<təki.

t səsinin artımı. Söz sonuna t səsinin artımı nisbətən çox müşahidə olunur; məs.: keft (Ər.), asant, puşt<puç, rəft (büt.ş.).

h səsinin artımı. Sözün sonuna h səsinin artırılması az müşahidə edilir; məs.: qanəh<qane (Ər.), dəryah (büt.ş.).

Söz sonuna səslərin artımından danışarkən İraq–türkman ləhcəsini bütün türk dillərindən fərqləndirən bir məsələni də qeyd etmək lazımdır. Bu ləhcədə feli bağlamalar və *isə* bağlaması şəxslər üzrə təsriflənir və bu zaman *m, x* səslərini qəbul edib işlənir ki, bu da şəxs sonluqları kimi özünü göstərir; məs.: alandam<mən alanda, baxdıxcam<mən baxdıqca, yazandam, gidəndəm, ənəndəx, gidəndəx<biz gedəndə, çıxandax<biz çıxanda (büt.ş.), mən isəm, biz isəx və s.

Samitlərin düşümü

İraq–türkman ləhcəsində samitlərin düşümü də artımı qədər geniş yayılmışdır. Kərküklü alim Əta Tərzibaşı şivələrdə səs düşümünə ötəri də olsa nəzər salaraq, bəzi sözlərdə səslərin düşümünü (məs.: ki, kə, qax, xax və s.) göstərmişdir.[1]

İraq–türkman ləhcəsində samitlərin düşümü də sözün əvvəlində, ortasında və axırında müşahidə olunur.

1. Sözün əvvəlində samitlərin düşümü

İraq–türkman ləhcəsində sözün əvvəlində, əsasən, y, h, s səslərinin düşümünə təsadüf edilir.

y səsinin düşümü. Söz əvvəlində y səsinin düşümü geniş yayılmışdır; məs.: ibandu (K.) // ibandıy (ək.ş.)<yubandın, imırta, imşaq, ük (A.K.), üskək, üngil//üngül, ükləməx (ək.ş.).

[1] **Ə.Tərzibaşı.** Kərkük xoyratları və maniləri, III c., Bağdad, 1957 (ərəb qrafikası ilə).

Bu xüsusiyyət Azərbaycan dilinin qərb və şimal qrupu dialekt və şivələri üçün daha səciyyəvidir.[1] R.Ə.Rüstəmov bu hadisənin şərq qrupu dialekt və şivələri üçün səciyyəvi olmadığını göstərir.[2]

h səsinin düşümü. İraq–türkman ləhcəsində söz əvvəlində h səsinin düşümü qapalı saitlərdən əvvəl özünü göstərir; məs.: işqırığ (Tis.), ıxçırıx//ıxçırığ (K.)//ıxçirix (A.K., T.X.).

s səsinin düşümü. Bu hadisə çox məhdud şəkildə özünü göstərir; məs.: usuz (Tis.).

2. Sözün ortasında samitlərin düşümü

İraq–türkman ləhcəsində söz ortasında samitlərin düşümü geniş yayılmışdır.

b səsinin düşümü. Bu hadisə məhdud şəkildə müşahidə edilir; məs.: pamığ//pamıx.

q səsinin düşümü. Söz ortasında q səsinin düşümü qoşa q səsi ilə yazılan bəzi sözlərdən q səsinin birinin düşməsi nəticəsində meydana gəlir; məs.: doquz, tağıldırı//tıqıldırı, çaqal (ək.ş.).

ğ səsinin düşümü. Bu hadisə də məhdud şəkildə özünü göstərir; məs.: quruşun<qurğuşun.

d səsinin düşümü. Söz ortasında d səsinin düşümü də özünü göstərir; məs.: adım, tək adım, üç adım «uşaq oyunu adı», əmzirir<əmizdirir, günüzlər (büt.ş.).

Bu hadisəyə cənub qrupu dialekt və şivələrimizdə (məs.: pənir, günüz) rast gəlinir.[3]

y səsinin düşümü. Söz ortasında y səsinin düşümü İraq–türkman ləhcəsi üçün səciyyəvidir. Bu hadisəyə iki vəziyyətdə təsadüf edilir:

---

[1] Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 45; M.İslamov. Azərbaycan dilinin Nuxa dialekti, səh. 56.

[2] **R.Ə.Rüstəmov.** Quba dialekti, səh. 86.

[3] Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, səh. 59.

1. Əsasən, iki sait, qismən də saitlə ğ, l, n, x samitləri arasında y səsi düşür; məs.: İsməil, sələ<söylə, sələd<söylət, xeir (ək.ş.), qağanağ//qağanax (Ə.), könək (A.K.), iküz (K.)<iki yüz, hilə, şex (Tis.).

2. Alınma sözlərdə qoşa y səslərindən biri düşür; məs.: müafaqiyat, niyət, təyara, hədiyə (ək.ş.).

Söz ortasında y səsinin düşümünə az və ya çox dərəcədə əksər dialekt və şivələrimizdə rast gəlmək olur.[1]

k səsinin düşümü; məs.: alatrik<elektrik (A.K.), əsük, mürəkəb, səkiz (ək.ş.).

l səsinin düşümü. Söz ortasında l səsinin düşümü ləhcə üçün səciyyəvi hadisələrdəndir; məs.: atmış, bəkə, birişək< birləşək, miçək (A.K.), qaranuğ, qax, dəgisən, diritməx, düzətdilər, xax (ək.ş.).

m səsinin düşümü; məs.: ama (Tis.) // aman<amma (Tuz. X.), Məməd, Məhəməd (ək.ş.).

n səsinin düşümü. Söz ortasında n səsinin düşümü başqa dialekt və şivələrimizdə olduğu kimi, İraq–türkman ləhcəsində də geniş yayılmışdır. Bu hadisə, əsasən, q, d, k, g, l, n, r, s, ç, c, ş səslərindən əvvəl müşahidə olunur; məs.: bular, əhəg, işallah, moqol, Moqolustan, olar, osuz, özüniki, rəcbər, tifəg, tuc, turşəkə < turşəng, xəstələdim, hası (ək.ş.), qawışşılar < qovuşsunlar (X.), oğruca<uğrunda, sora (A.K.).

Söz ortasında n səsinin düşümü əksər türk dillərində yayılmış hadisələrdəndir.[2]

p səsinin düşümü. Söz ortasında p səsinin düşməsi məhdud şəkildə müşahidə edilir; məs.: topuz<toppuz.

r səsinin düşümü. Bu hadisəyə, əsasən, t, d, ş, z səslərindən əvvəl rast gəlinir; məs.: biləzik, qənəfil//qənifil, qopadı-

[1] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, səh. 106.

[2] **Н.К.Дмитриев.** Неустойчивое положение сонорных р, л, н, в тюркских языках, Исследования, 1, с. 278.

lar, qutar, quşağ, təkərlə < təkrarla, xitlək, xıt-xıt (büt.ş.), otutdular <oturtdular, patladı (Tuz.).

t səsinin düşümü. Söz ortasında t səsinin düşümünə yerli sözlərdə rast gəlinir; məs.: yası, yasılar<yastılayar.

h səsinin düşümü. h səsinin söz ortasında düşümü məhdud şəkildə özünü göstərir; məs.: dirəm<dirhəm (A.K.), İbrəim, kəriz, kərizçi, manı//məni, pəriz (ək.ş.).

w səsinin düşümü. Söz ortasında w səsinin düşümü çox geniş yayılmış hadisələrdəndir; məs.: aut<ovut, qaun, qaurğa, qauşağın, əwəl, saur, sauş<sovuş, saurarıx, taus, tauz, çual, cual, cuan, çuwan (büt.ş.).

Bu hadisəyə əksər dialekt və şivələrimizdə rast gəlinir. Lakin dialekt və şivələrimizdə qoşa dodaq w səsi deyil, diş-dodaq səsi olan v düşür. Söz ortasında v səsinin düşməsinə görə dialekt və şivələrimiz bir-birindən müəyyən dərəcədə fərqlənir. Belə ki, qərb qrupu dialekt və şivələri və eləcə də Zaqatala, Qax şivələrində v səsi söz ortasında iki səsli arasında düşdüyü halda, şərq qrupu dialekt və şivələrində çox vaxt sonorlar və ş, ğ səsləri qarşısında müşahidə edilir.[1]

Söz ortasında v (daha doğrusu w) səsinin düşümü hadisəsinə görə İraq–türkman ləhcəsi bütün dialekt və şivələrimizə yaxınlaşır.

3. Söz sonunda samitlərin düşümü

d səsinin düşümü. Söz sonunda d səsinin düşümü İraq–türkman ləhcəsində bir-iki sözdə özünü göstərir; məs.: muz (Ə.), milyar (büt.ş.).

k səsinin düşümü. Bu hadisə də məhdud şəkildə müşahidə olunur; məs.: yelpizə//yerpizə<yelpizək «yelpik» rəhmətli (büt.ş.), örbə<örpək (X., M.).

[1] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları ,1 çapı, səh. 106.

l səsinin düşümü. Başqa dialekt və şivələrimizdə olduğu kimi[1], İraq–türkman ləhcəsində də söz sonunda l səsinin düşümü səciyyəvi deyildir; məs.: kə (büt.ş.), dəki (A.K.) // dəyi (X.) // dökü // döki (K.).

n səsinin düşümü; məs.: adata, bəzə də (ək.ş.).

n səsinin düşümü üçün qoşmasının sözlərlə birlikdə işlənməsi zamanı da müşahidə edilir; məs.: külçi, mənimçi, özüçi, səhəbiçi (ək.ş.).

r səsinin düşümü. İraq–türkman ləhcəsində söz sonunda r səsinin düşümü geniş yayılmışdır. Bu, aşağıdakı hallarda özünü göstərir:

1. *Bir, qədər, əgər* sözlərinin və felin əmr şəklinin II şəxs təkində işlənən gətir, otur fellərinin sonundakı r səsi düşür; məs.: bi tək//bi kərə // bi zərrə, bi kəs «bir az» (but.ş.), əkə (A.K.), gəti (Tis.), oqqədə, otı (K.) // otu (X.,M.).

2. Əmirli və Tisin şivələrində II şəxsin cəmini bildirən *-lar, -lər* şəkilçilərindən r səsi düşür; məs.: aparılla, qaldırılla, görüllə və s.

3. Xəbərlik kateqoriyasının və eləcə də qəti gələcək zamanın III şəxs təkində işlənən -dır, -dir, -dur, -dür şəkilçilərindən r səsi düşür; məs.: budı, qanlıdı, dəmirdəndi, yalandı, canlıdı, alacaxdı, gələcəxdi, oxuyacaxdı, soracaxdı, çalacaxdı və s. (ək.ş.).

4. Felin indiki zamanının III şəxs təkində zaman şəkilçisindəki r səsi düşür. Bu hadisə İraq–türkman ləhcəsində çox geniş yayılmışdır; məs.: saralı, gögəri, qəm azalı, dər çoxalı, aldadı, yalvarı, incidi, ayılı, qırılı və s.

t səsinin düşümü. İraq–türkman ləhcəsində də Azərbaycan dilinin başqa dialekt və şivələrində olduğu kimi, s, x səslərindən sonra t səsi düşür; məs.: vax, dos, tax, sərbəs və s.

[1] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları ,1 çapı, səh. 110.

h səsinin düşümü. Bu hadisə şivələrdə məhdud şəkildə özünü göstərir; məs.: ga-ga<gah-gah.

x səsinin düşümü: yo-yo<yox-yox.

III Fəsil
Fonetik hadisələr

İraq–türkman ləhcəsində bir sıra fonetik hadisələr də mövcudur. Burada assimilyasiya, dissimilyasiya, yerdəyişmə və söz köklərində samitlərin qoşalaşması hadisələri müşahidə olunur. Fonetik hadisələr içərisində ən geniş yayılanı assimilyasiya və yerdəyişmədir. Dissimilyasiya hadisəsinə çox az rast gəlinir.

ASSİMİLYASİYA

İraq–türkman ləhcəsində təsir qüvvəsinə və təsir istiqamətinə görə assimilyasiyanın aşağıdakı növlərinə təsadüf edilir:

I. Tam irəli assimilyasiya; II. Yarımçıq irəli assimilyasiya; III. Tam geri assimilyasiya; IV. Yarımçıq geri assimilyasiya.

I .Tam irəli assimilyasiya

Tam irəli assimilyasiyanın aşağıdakı tiplərinə təsadüf edilir.

1. n+l>nn. Sözün sonundakı n səsi şəkilçidəki l səsinə təsir edir və onu n səsinə çevirir; məs.: aydınnıx, annamaz, qadınnar, qannı, qarannıx, düzənnix, eşidənnər, yawannıx, yamannıx, gəlinnix, görənnər, nişannı, oğlannar, onnar, ormannıx, sərinnix, tikənni, çəmənnix, çibinnər, şənnük (büt.ş.).

Assimilyasiyanın bu tipinə Azərbaycan dilinin əksər dialekt və şivələrində təsadüf edilir.[1]

2. n+d>nn. Sözün sonundakı n səsi şəkilçidəki d səsinə təsir edərək onu n səsinə çevirir. Bu hadisə ismin çıxışlıq hal şəkilçisində baş verir; məs.: ağacınnan, ayağınnan, arasınnan,

[1] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, II çapı, səh. 111.

ahınnan, bostannan, qızınnan, dabannan, ərkənnən, zənginnən, ilannan, yağınnan, yalannan, yorğannan, kölgəsinnən, mərcannan, narınnan, onnan, özünnən, söhbətdərinnən, toxumunnan, fincannan, Xəndannan, cannan və s. (büt.ş.).

3. r+l>rr. Sözün sonundakı r səsi şəkilçidəki l səsinə təsir edib, onu r səsinə çevirir; məs.: warrı, qarrı, əsgərrix, yerri, kirri, tərrəməx, hazırrıx, şəhərri.

Assimilyasiyanın bu növü dialekt və şivələrimizdə geniş yayılmışdır.[1]

4. p+m>pp. Söz köküdəki p səsinin təsiri ilə m səsinin p səsinə çevrilməsinə Tuz Xurmatu şivəsində bir sözdə təsadüf edilmişdir: təppə<təpmə «təpik».

5. t+d>tt. Sözün sonundakı t səsi şəkilçidəki d səsinə təsir edərək onu t səsinə çevirir; məs.: attan, attın, axirəttə, bəzətti, bərəkətti, namarttan, nəkbətti, sənnətti, ticarəttən, tükətti, uçurttu, çıxarttılar, cənnəttə (büt.ş.).

6. t+l>tt. Sözün sonundakı t səsi şəkilçidəki l səsinə təsir edərək onu t səsinə çevirir; məs.: attı, dölətti (ək.ş.), qırttax (A.K.).

İrəli assimilyasiyanın bu növü yakut[2] və başqırd[3] dilləri üçün daha səciyyəvidir.

Azərbaycan dilinin Quba dialektində olduğu kimi, İraq–türkman ləhcəsində də tam irəli assimilyasiyanın xüsusi bir növünə təsadüf edilir. Bu növ assimilyasiyada şəkilçilərdəki bu və ya digər samit səsin dəyişməsi ilə bərabər, bəzi saitlər də düşür. Assimilyasiyanın bu tipini mürəkkəb tam irəli assimilyasiya adlandırırlar.[4]

---

[1] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, II çapı, səh. 111.

[2] **Ф.Г.Исхаков.** Гармония гласных в тюркских языках. Исследования, 1, стр. 125.

[3] **Н.К.Дмитриев.** Ассимиляция и диссимиляция в башкирском языке. Исследования, 1, стр. 304.

[4] **R.Ə.Rüstəmov.** Quba dialekti, səh. 93.

Mürəkkəb tam irəli assimilyasiyanın aşağıdakı növlərinə təsadüf edilir.

1. l+r>ll. Qeyri-qəti gələcək zamanda fellər şəxslər üzrə təsriflənərkən I şəxs tək və cəmdə şəkilçidəki r səsi sözün kökündəki l səsinin təsiri ilə l səsinə çevrilir. Bu zaman şəkilçidəki a və ya ə səsi də düşür; məs.: allam, allıx, billəm, billix, qallam, qallıx, gəlləm, gəllix, gülləm, güllix, sağallam, sağallıx və s. (but.ş.).

2. n+r>nn. Qeyri-qəti gələcək zamanın I şəxs tək və cəmində söz kökündəki n səsinin təsiri ilə şəkilçidəki r səsi n səsinə çevrilir və şəkilçidən a və ya ə səsi düşür; məs.: qısqannam, qısqannıx, inannam, inannıx, minnəm, minnix, sığınnam, sığınnıx və s. (ək.ş).

II. Yarımçıq irəli assimilyasiya

Azərbaycan dilinin İraq–türkman ləhcəsində yarımçıq irəli assimilyasiya daha çox müşahidə edilir. Burada yarımçıq irəli assimilyasiyanın aşağıdakı növləri özünü göstərir.

1. zl>zd. Sözün sonundakı z səsi şəkilçidəki l səsinə təsir edib, onu d səsinə çevirir; məs.: qızdar, özdəri, özdərinin (ək.ş.), murazdar (K., Tis.).

2. kd>kt. Sözün kökündəki k səsi şəkilçidəki d səsinə təsir edərək onu t səsinə çevirir. Bu hadisə İraq–türkman ləhcəsində geniş yayılaraq onu əksər dialekt və şivələrimizdən fərqləndirir; məs.: böyükti, dirəktən, əktim, işləkti, Kərküktə, kipriktən, köpükti, kürkti<kürkdür, küçükti<kiçikdir, sümükti, töktüm, çürükti (ək.ş).

3. md<mn. Sözün sonundakı və ya şəkilçidəki m səsi çıxışlıq hal şəkilçisində olan d səsinə təsir edərək onu n səsinə çevirir; məs.: adamnan, ahımnan, bağımnan, barımnan, qarşımnan, qollarımnan, damnan, dilimnən, dərdimnən, əlimnən, yazdığımnan, kimnən, karımnan, kitabımnan, günahımnan, narımnan, süsənimnən, xüdamnan, halımnan (but.ş.).

Assimilyasiyanın bu növünə əksər dialekt və şivələrimizdə də rast gəlinir.[1] N.K.Dmitriev bu hadisənin kumık ədəbi dili üçün səciyyəvi olduğunu qeyd etmişdir.[2]

4. pd<pt. Söz kökündəki p səsi özündən sonra gələn şəkilçidəki d səsinə təsir edərək onu t səsinə çevirir; məs.: iptən, küptə, səptim, taptar, taptım (büt.ş.).

Assimilyasiyanın bu növünə İraq–türkman ləhcəsində başqa bir vəziyyətdə də təsadüf edilir. Azərbaycan ədəbi dilində -ıb, -ib, -ub, -üb şəkilçisi ilə əmələ gələn keçmiş zaman İraq–türkman ləhcəsində -ıp, -ip, -up, -üp şəkilçisi ilə də işlənir; məs.: alıp, atlanıp, batıp, doğup, əmip və s. Belə sözlərə III şəxs təkin xəbər şəkilçisi artırıldıqda pd>pt hadisəsi baş verir; məs.: alıptı, atlanıptı, batıptı, bozuptı, bitipti, qalıptı, doğuptı, əkipti, əmipti, görməyipti, tikipti, şişipti və s. (ək.ş.).

5. sd>st. Söz kökündəki s səsi şəkilçidəki d səsinə təsir edərək onu t səsinə çevirir; məs.: bastıracam, kəsti, küstüm, məclistə (büt.ş.), pisti (Tis.).

6. şd>şt. Söz kökündəki və ya şəkilçidəki ş səsi özündən sonrakı d səsinə təsir edərək onu t səsinə çevirir; məs.: alıştı, araştırdı, arxadaştan, beştə üç//beştən üç, bulaştı, qardaştan, dəyiştirdi, dərtləştim, dalaştı, təftişti və s. (büt.ş.).

7. şl>şd. Söz kökündəki ş səsi şəkilçidəki l səsinə təsir edir və onu d səsinə çevirir; məs.: başdar, başdadı, başdandı, daşdığ, işdiri (ək.ş.).

8. tl>td. Söz kökündəki t səsi şəkilçidəki l səsinə təsir edərək onu d səsinə çevirir; məs.: arwatdar, bayatdılar, söhbətdəri (büt.ş.), qırtdax (K.).

---

[1] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, 1 çapı, səh. 114.

[2] **Н.К.Дмитриев.** Ассимиляция и диссимиляция согласных в кумыкском языке, Исследования, 1, стр. 298.

9. xd>xt. Söz köküdəki və ya şəkilçidəki x səsinin təsiri ilə d səsi t səsinə çevrilir; məs.: alçaxtan, baxtı, baxtım, yoxtı, karıxtırdı, çoxtan və s. (büt.ş.).

Samitlərin əvəzlənməsindən danışarkən söz sonunda q samiti əvəzinə ğ, x səslərinin işləndiyini də göstərmişdik. Bununla əlaqədar olaraq, qeyd etmək lazımdır ki, söz köküdəki və ya şəkilçidəki x səsindən sonra d səsi gələrsə, x səsinin təsiri altında d səsi t səsinə çevrilir (məs.: ağlamaxtan, alçaxtan, balıxçılıxta, qurşaxtı, yarmaxta, gözləməxtən, gedacaxtılar, ortalıxtan, sawıxtı, samanlıxta, uşaxta, şadlıxta və s.) və yarımçıq irəli assimilyasiya hadisəsi baş verir.

10. hd>ht. Söz köküdəki h səsinin təsiri ilə şəkilçidəki d səsi t səsinə çevrilir. Bu hadisə bir-iki sözdə özünü göstərir; məs.: allahtan, dəryahtı (ək.ş.).

III. Tam geri assimilyasiya

İraq–türkman ləhcəsində tam geri assimilyasiyaya tam irəli assimilyasiyaya nisbətən az təsadüf edilir. Bu assimilyasiyanın aşağıdakı növlərinə rast gəlinmişdir.

1. rl>ll. İndiki və qeyri-qəti gələcək zamanların III şəxs -lar, -lər şəkilçisindəki l səsi özündən əvvəlki r səsinə təsir edir və onu l səsinə çevirir; məs.: alıllar, açallar, açıllar, baxallar, biçəllər, qəynədillər, dartallar, diskinillər, eşidillər, əzəllər, istəllər, istillər, oxşıllır, sərəllər, sökəllər, tanıllar, taxallar, tikəllər, haylallar, hörəllər, çalıllar, çalışıllar (büt.ş.), qaldırılla, qoyılla (Tis.) və s.

Əta Tərzibaşı «Kərkük xoyratları və maniləri» kitabında ötəri də olsa bəzi sözlərdə (məs.: qaçıllar, gedillər) assimilyasiya hadisəsi baş verdiyini göstərir.[1]

Tam geri assimilyasiya hadisəsi Azərbaycan dili dialekt və şivələrinin əksəriyyətində müşahidə olunur.[2]

[1] **Ə.Tərzibaşı.** Göstərilən əsəri.

[2] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, II çapı, səh. 114.

2. zs>ss. Şəkilçidəki s səsi özündən əvvəlki z səsinə təsir edərək onu s səsinə çevirir; məs.: ayırmassan, bilməssən, görməssən, sormassan, üssüz (ək.ş.).

3. ls>ss. Sözün kökündəki l səsi şəkilçidəki s səsinin təsiri ilə s səsinə çevrilir; məs.: assax, assa, assın, qassam, qassın, kəssəm, kəsseydix, kəssinnər, ossa, ossın, assaydı, össəm, əssin (ək.ş.).

Bu hadisə türk dilinin dialektləri üçün daha səciyyəvidir.[1]

4. ln>nn. Sözün kökündəki sonor n səsi özündən əvvəlki sonor l səsinə təsir edir və onu n səsinə çevirir; məs.: Günnaz < Gülnaz (ək.ş.).

IV. Yarımçıq geri assimilyasiya

Yarımçıq geri assimilyasiya hadisəsinə az təsadüf edilir və yalnız bir növünə rast gəlinir.

nb>mb. Sözün kökündəki b səsi özündən əvvəlki n səsinə təsir edərək onu m səsinə çevirir; məs.: ambar, Qəmbər, zəmbil, Kümbət, gümbəgün, ombir, ombeş, sümbül//sümbil, təmbəki, təmbəl, şəmbə (büt.ş.), zambür (A.K.), məmbər<minbər (K.), cambaz (Tuz.).

Əta Tərzibaşı İraq–türkman ləhcəsinin səciyyəvi xüsusiyyətlərinə həsr etdiyi məqaləsində assimilyasiyanın bu növündən danışarkən yazır: «Bizdə hər zaman n hərfi bir sözcükdə b hərfindən öncə gəlirsə, m (məs.: ambar, Qəmbər, dombalan) oxunur».[2]

Azərbaycan dilinin bir sıra dialekt və şivələrində özünü göstərən bu hadisə[3] başqırd dilində də (məs.: umbir, umbot< on put) müşahidə edilir.[4] A.N.Kononov bu hadisənin türk dilində geniş yayıldığını qeyd edir.[5]

[1] **Dr. Z.Korkmaz.** Güney-Batı Anadolu ağızları, ses bilgisi, Ankara, 1956, s.74.

[2] **Ə.Tərzibaşı.** «Arzu–Qəmbər» dastanı, Bağdad, 1964, s. 4 (ərəb qrafikası ilə).

[3] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, II çapı, səh. 116.

[4] **Н.К.Дмитриев.** Ассимиляция и диссимиляция согласных в башкирском языке, Исследования, I, стр. 304.

[5] **А.Н.Кононов.** Грамматика турецкого языка, М.-Л., 1941, стр. 25.

DİSSİMİLYASİYA

Dissimilyasiya tədqiq edilən ləhcədə az yayılmış hadisələrdəndir. Bu hadisə yalnız sonor səslərdə özünü göstərir. Dissimilyasiyanın irəli və geri olmaqla iki növünə təsadüf edilir.

1. İrəli dissimilyasiya

İraq–türkman ləhcəsində irəli dissimilyasiyanın yalnız bir növünə təsadüf edilir. Azərbaycan dilinin əksər dialekt və şivələrində olduğu kimi, bu ləhcədə də sözün sonundakı r səsi l səsinə çevrilir; məs.: pərgal (büt.ş.), qəral (ək.ş.), qurtal (K.), zərəl (A.K.).

Dissimilyasiyanın bu növü türk dilində də müşahidə edilir.

2. Geri dissimilyasiya

İraq–türkman ləhcəsində geri dissimilyasiyaya bir neçə sözdə təsadüf edilir; məs.: sirkələ, çarxala (büt.ş.).

YERDƏYİŞMƏ

İraq–türkman ləhcəsində geniş yayılmış fonetik hadisələrdən biri də yerdəyişmədir. Əta Tərzibaşı «Kərkük xoyratları və maniləri» adlı əsərində bu hadisədən danışarkən yazır: «Bəzi kəlimələrdə iki hərf (səs deyilməli idi – *Q.P.*) yanyana tərs olaraq (məs.: kəsk, kiprik) tələffüz edilir».[1]

Yerdəyişmənin həm yanaşı, həm də yanaşı olmayan tipinə təsadüf olunur. Burada yanaşı yerdəyişmə yanaşı olmayan yerdəyişməyə nisbətən üstünlük təşkil edir.

Yanaşı yerdəyişmə

Yanaşı yerdəyişmə həm saitlərin, həm də saitlə samitlərin arasında baş verir.

[1] **Ə.Tərzibaşı.** Kərkük xoyratları və maniləri, III c., Bağdad, 1957 (ərəb qrafikası ilə).

a) Saitlə samitin yerdəyişməsi

Azərbaycan dili dialekt və şivələrindən fərqli olaraq, İraq–türkman ləhcəsində saitlərin samitlərlə yerdəyişməsi daha geniş yayılmışdır. Burada həmin hadisə daha çox sonor l, m, n, r, qismən q, y, v, k, s, c samitləri ilə a, ə, i, ı, u, ü saitləri arasında baş verir.

Saitlərlə samitlərin yerdəyişməsinin aşağıdakı növləri qeydə alınmışdır.

1. al>la. a səsi sonor l səsi ilə öz yerini dəyişir; məs.: sağlamış<sağalmış.

2. və>əv. v səsi öz yerini ə səsi ilə dəyişir; məs.: vələvlə // vələvla < vəlvələ.

3. im>mi. i saiti sonor m səsi ilə yerini dəyişir; məs.: qədmidə<qədimdə, igirim bir<iyirmi bir.

Bu hadisəyə Azərbaycan dilinin Bakı dialektində[1] və Muğan qrupu şivələrində[2] də təsadüf edilir.

4. in>ni. Qapalı i saiti sonor n səsi ilə öz yerini dəyişir; məs.: nişallah<inşallah.

5. ıq>qı. Qapalı ı saiti q səsi ilə yerini dəyişir; məs.: yanqılı-yanqılı<yanıqlı-yanıqlı.

6. əg>gə. ə saiti g səsi ilə öz yerini dəyişir; məs.: dönəg< döngə.

7. ən>nə. ə saiti sonor n səsi ilə yerini dəyişir; məs.: ənnə<nənə.

8. rı>ır. Sonor r səsi qapalı ı saiti ilə yerini dəyişir; məs.: ağırdı<ağrıdar.

Yerdəyişmənin bu növü Azərbaycan dilinin Quba dialektində də qeydə alınmışdır.[3]

9. yü>üy. y səsi qapalı ü saiti ilə yerini dəyişir; məs.: ikiüyz//iküyz<iki yüz.

10. sü>üs. s səsi ü saiti ilə yerini dəyişir; məs.: üskut< sükut.

---

[1] **M.Ş.Şirəliyev.** Bakı dialekti, səh. 44.

[2] Azərbaycan dilinin Muğan qrupu şivələri, səh. 58.

[3] **R.Ə.Rüstəmov.** Quba dialekti, səh. 103.

b) Samitlərin yerdəyişməsi

İraq–türkman ləhcəsində samitlərin yerdəyişməsi olduqca geniş yayılmışdır. Burada sonor səslərin həm bir-biri ilə, həm də digər səslərlə, eləcə də digər səslərin başqa səslərlə yerdəyişməsi geniş müşahidə olunur. Bunların aşağıdakı növlərini göstərmək olar:

1. bl>lb. b səsi yerini l səsi ilə dəyişir; məs.: Əlbəhəsən < Əbləhəsən.

Yerdəyişmənin bu tipi türk dialektlərində də müşahidə olunur.[1]

2. ğr>rğ. ğ səsi öz yerini r səsi ilə dəyişir; məs.: dorğadım < doğradım.

3. yr>ry. y və r səsləri yerlərini dəyişir; məs.: qiryətsiz < qeyrətsiz.

Bu yerdəyişmə Azərbaycan[2] və türk[3] dillərinin dialektlərində də müşahidə edilir.

4. ks>sk. s səsi yerini k səsi ilə dəyişir; məs.: əksik< əskik, kösk < köks, yüskək // üskək < yüksək (A.K.), köskürməx < köksürmək (Daq.), diskinməx<diksinmək.

Yerdəyişmənin bu növü Azərbaycan dilinin şərq və cənub qrupu dialekt və şivələrində də geniş yayılmışdır.[4]

Bu növ yerdəyişməyə şimal qrupuna daxil olan Şəki dialektində də təsadüf edilir.[5]

---

[1] **A.Caferoğlu.** Anadolu agızlarındakı metatese gelimese. Türk Dil araştırmaları yıllığı-belleten. Ankara, 1955, səh. 4.

[2] **M.Ş.Şirəliyev.** Bakı dialekti, səh. 44.

[3] **A.Caferoğlu.** Göstərilən əsər, səh. 4.

[4] **K.T.Ramazanov.** Göstərilən məqalə, səh. 75; M.Ş.Şirəliyev. Bakı dialekti, səh. 44; Azərbaycan dilinin Muğan qrupu şivələri, səh. 57; Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, səh. 69.

[5] **М.И.Исламов.** Нухинский диалект (автореф. канд. дис.), стр. 16.

5. lp>pl. l və p səsləri yerlərini dəyişir; məs.: çıplax< çılpaq.

6. ml>lm. m səsi öz yerini l səsi ilə dəyişir; məs.: məlməkət<məmləkət (A.K.), kölmək<kömlək (Ə., A.K.).

Yerdəyişmənin bu növünə, əsasən, cənub və qərb qrupu dialekt və şivələrində rast gəlinir.[1]

7. nl>ln. n səsi yerini l səsi ilə dəyişir; məs.: yalnış< yanlış, kölnüm<könlüm (Ə.).

8. rb>br. r səsi b səsi ilə yerini dəyişir; məs.: tübrə<türbə (K.).

9. rv>vr-wr. r səsinin v//w səsi ilə yerdəyişməsi bir sözdə müşahidə olunmuşdur; məs.: dəvriş//dəwriş.

10. ry>yr. r səsi öz yerini y səsi ilə dəyişir; məs.: Meyram < Məryam, Qoyra<Qorya «məhəllə adı» (X.).

Bu növ yerdəyişmə Zaqatala şivəsində də özünü göstərir.[2]

11. rm>mr. r səsi m səsi ilə yerini dəyişir. Bu hadisəyə iki sözdə rast gəlinmişdir; məs.: dümrəg<dürmək, çimrəməg< çirməmək.

Bu hadisə Azərbaycan dilinin cənub qrupu dialekt və şivələrində daha çox müşahidə olunur.[3]

12. rp>pr. r səsi öz yerini p səsi ilə dəyişir. Bu yerdəyişmə ləhcə üçün səciyyəvi hadisə deyildir. Bu yerdəyişməyə Kərkük və Altun Köprü şivələrində təsadüf edilir; məs.: yaprağ, kiprik, kipri, köprü, toprağ//toprax//tuprağ//tuprax.*

---

[1] Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, səh. 67; Т.Б.Гамзаев. Ордубадский диалект (автореф.канд.дис.), с. 11; Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 59.

[2] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, I çapı, səh. 121.

[3] Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, səh. 67.

* Bu, əslində, yerdəyişmə olmayıb, daha qədim formanın dildə mühafizəsidir. Bugünkü ədəbi dil ilə müqayisədə yerdəyişmə kimi verilmişdir *(Red.)*.

Əksər şivələrdə isə müasir Azərbaycan dilində olduğu kimidir; məs.: toprağ, yarpağ, yarpız və s.

Bu hadisənin Azərbaycan dilində də baş verdiyini (məs.: yaprağ, topraq), B.Çobanzadə hələ 1928-ci ildə qeyd etmişdir.[1]

13. rf>fr. r səsi öz yerini f səsi ilə dəyişir; məs.: səfrə< sərfə.

14. sk>ks. s səsi ilə k səsi yerlərini dəyişir; məs.: öksürmək < öskürmək.

15. st>ts. s səsi t səsi ilə yerini dəyişir; məs.: dutsağ // tutsağ < dustaq.

16. xs>sx. Bu növ yerdəyişməyə yalnız bir sözdə rast gəlinmişdir: rusxat (K.).

17. hr>rh. h səsinin r səsi ilə yerdəyişməsinə də bir sözdə təsadüf edilmişdir: mərhəba (M.) // mərhəmə<məhrəba (X.).

Yerdəyişmənin bu tipi Azərbaycan dilinin şərq qrupunda da (məs.: çarpayı//çərhayı//çərhayi) özünü göstərir.[2]

18. çq>qç-xç. Bu növ yerdəyişmə bir neçə sözdə müşahidə olunur; məs.: buxçu//buxçı<bıçqı (A.K., K.), ıxçırıx//ıxçırığ // ixçirik<hıçqırıq, uxçır//uxçur<uçxır//uçxur «tuman bağı» (Tis.).

Yanaşı olmayan yerdəyişmə

İraq–türkman ləhcəsində yanaşı olmayan yerdəyişmə geniş yayılmışdır. Burada yanaşı olmayan yerdəyişmənin aşağıdakı tiplərinə təsadüf edilir.

1. e-ə>ə-e. e səsi ə səsi ilə yerini dəyişir; məs.: əleysə<elə isə (X., M.).

---

[1] **B.Çobanzadə.** Türk dili, Bakı, 1928, səh. 68; B.Çobanzadə, M.F.Axundovda azəri ləhcəsi, «Maarif işçisi», 1928, № 3, səh. 10.

[2] **M.Ş.Şirəliyev.** Bakı dialekti, səh. 44; R.Ə.Rüstəmov, Quba dialekti, səh. 101.

2. ı-a>a-ı. ı və a səsləri yerlərini dəyişir; məs.: buğarsığ (A.K.) // boğarsıx < bağırsaq (ək.ş.), sazlıyan < sızlayan.

3. q-y>y-q. q səsi ilə y səsinin yerlərini dəyişməsinə Tis`in şivəsində bir sözdə rast gəlinmişdir: meyəqat.

4. d//t-r>r-d. Bu növ yerdəyişmə yalnız bir sözdə özünü göstərir: cırıd//cırıt meydanı<cıdır meydanı.

5. l-n>n-l. l və n səsləri yerlərini dəyişir; məs.: yonılır < yolunur, nələt//nəhlət<lənət (A.X.).

6. l-r>r-l. l səsinin r səsi ilə yerdəyişməsi bu ləhcə üçün səciyyəvi olub, bir neçə sözdə müşahidə olunur; məs.: qərbil < xəlbir (büt.ş.), darğıl (K.) < dılğır, partal, tarwal, şarwal (Tis., Tel.).

Bu hadisə Azərbaycan dilinin Şəki dialekti üçün də (məs.: irğal, partal, yarval, şarval) səciyyəvidir.[1]

7. n-m>m-n. n səsi öz yerini m səsi ilə dəyişir; məs.: mindər // məndər < nimdər (M.).

8. r-y>y-r. r səsi y səsi ilə yerini dəyişir; məs.: xoyirat < xoriyat (Ə.).

9. r-l>l-r. r səsi öz yerini l səsi ilə dəyişir; məs.: iləri, ilərlədi.

10. r-m>m-r. r səsi m səsi ilə öz yerini dəyişir; məs.: samırsağ (K.) // samirsağ (A.K., Tis., Kif., Qrt., Tel. və s.).

r səsinin m səsi ilə yanaşı olmayan yerdəyişməsinə eyni sözdə (məs.: samursak) qədim türk yazılı abidələrində də rast gəlinir.[2]

11. t-r>r-t. t və r səsləri yerlərini dəyişir; məs.: görsət< görsəd<göstər (K.).

---

[1] **M.İslamov.** Azərbaycan dilinin Nuxa dialekti, səh. 65.

[2] **А.М.Щербак.** Грамматический очерк языка тюркских текстов X–XII вв. из Восточного Туркестана, стр. 65.

SÖZ KÖKÜNDƏ SAMİTLƏRİN QOŞALAŞMASI

İraq–türkman ləhcəsində geniş yayılmış fonetik hadisələrdən biri də söz kökündə samitlərin qoşalaşmasıdır. Söz kökündə samitlərin qoşalaşması bütün sonorlara (w, y, l, m, n, r) və b, q, z, k, p, s, t, ç, c səslərinə aiddir.

w səsinin qoşalaşması. Bu hadisəyə Məndəli şivəsində bir sözdə təsadüf edilmişdir; dəwwə.

y səsinin qoşalaşması. y səsinin qoşalaşması da bu ləhcə üçün səciyyəvi olmayıb, iki sözdə müşahidə edilir: qəyya, həyyif (ək.ş.).

Söz kökündə y samitinin qoşalaşması türkmən dili üçün daha səciyyəvidir; məs.: ayyak, vuyyuk, eyyi və s.[1]

l səsinin qoşalaşması. Bu hadisə aşağıdakı sözlərdə özünü göstərir; allı //allu<alın, dəlli, dəllük, dəlli bibər «acı bibər», pallıt // pallut (büt.ş.).

Azərbaycan dilinin Quba dialektində geniş yayılan bu hadisə[2] qərb qrupu dialekt və şivələrində[3] də müşahidə olunur.

m səsinin qoşalaşması. Bu fonetik hadisə özünü bir neçə sözdə göstərir; məs.: əmmi, yummaq, məmmə, semmiz//səmmiz «kök» (ək.ş.).

n səsinin qoşalaşması. Bu hadisə məhdud şəkildə özünü göstərir; məs.: xınna (büt.ş.), anna (K.), çinni<sinni (Tis.).

n səsinin söz kökündə qoşalaşması dialekt və şivələrimiz üçün səciyyəvi deyildir. Bu hadisəyə Muğan qrupu şivələrində rast gəlinmişdir.[4] Bu hadisə aşağı çuvaş dialektlərində də müşahidə edilir.[5]

---

[1] **М.Рясянен.** Материалы по исторической фонетике тюркских языков, стр. 123.

[2] **Q.K.Bağırov.** Quba dialektinin fonetik-morfoloji və leksik xüsusiyyətlərinə dair xülasələr, ADPXDİ, Elmi əsərlər, ikinci buraxılış, 1959, səh. 148.

[3] Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 61.

[4] Azərbaycan dilinin Muğan qrupu şivələri, səh. 65.

[5] **А.С.Конюкова.** Некоторые фонетические и лексические особенности чувашских диалектов. Вопросы диалектологии тюркских языков, том II, Баку, 1960, стр. 124.

r səsinin qoşalaşması. Bu hadisə ləhcənin ən səciyyəvi hadisələrindəndir; məs.: arrı, birrə, qarrı // qərri, qərrə, qırran «taun», qurrıt, darrı, dərri, durrı, irri (ək.ş.), qurrı (K.) // qurru (A.K.), qupqurrı (K.), çürrük (A.K.).

Bu hadisə Azərbaycan dilinin qərb[1] və Muğan qrupu[2] şivələrində qeydə alınmışdır. Türkmən dili və onun Marı dialekti üçün (məs.: qarrı, qarrımax, arrık və s.) daha səciyyəvidir.[3]

b səsinin qoşalaşması. Bu hadisəyə bir neçə sözdə təsadüf edilmişdir; məs.: dabban, səbbah // sabbah (ək.ş.), çobban (Əm.), şabbaş (A.K.).

b səsinin qoşalaşması Azərbaycan dilinin Quba dialektində də özünü göstərir.[4]

q səsinin qoşalaşması. Bu hadisə o qədər də geniş yayılmamışdır. Aşağıdakı sözlərdə müşahidə edilmişdir; məs.: baqqam «gil» (K.), oqqədə//oqqədər (X., M.).

z səsinin qoşalaşması. Bu qoşalaşma Azərbaycan dili, dialekt və şivələrində olduğu kimi, İraq–türkman ləhcəsində də az müşahidə edilir; məs.: əzzab, kızz etməx «bürüşmək», təzzək (ək.ş.).

k səsinin qoşalaşması. Bu hadisə bir neçə sözdə özünü göstərir; məs.: səkkü, tikkə, çəkküc (ək.ş.), ikki (Əm.).

M.Ryəsənen k səsinin qoşalaşmasının yakut dili üçün səciyyəvi olduğunu qeyd edir.[5]

p səsinin qoşalaşması. Bu hadisə səciyyəvi hadisələrdən olub, bir çox sözdə müşahidə edilir; məs.: ləppə, sappan,

---

[1] Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 62.

[2] Azərbaycan dilinin Muğan qrupu şivələri, səh. 65.

[3] **Н.К.Дмитриев.** Двойные согласные в тюркских языках, Исследования, I, с. 262.

[4] **Q.K.Bağırov.** Göstərilən məqalə, səh. 148.

[5] **М.Рясянен.** Материалы по исторической фонетике тюркских языков, стр. 123.

tappan, təppə, toppal, toppuğ // toppux, Üçtəppə «kənd adı» (büt. ş.), köppək (Ər., Tis.), happı (Tis.) // həppi (K.).

p səsinin söz kökündə qoşalaşması dialekt və şivələrimiz üçün səciyyəvi deyildir. Bu hadisə aşağı çuvaş dialekti üçün daha səciyyəvidir.[1]

s səsinin qoşalaşması. Bu hadisə ləhcə üçün səciyyəvi hadisələrdəndir; məs.: qıssa, kössək (ək.ş.), kössüv, ussu// issu<su (M.).

t səsinin qoşalaşması. Bu hadisəyə bir neçə sözdə təsadüf edilmişdir; məs.: itti bibər (ək.ş.) «əcci bibər», mətta<mətah (K., A.K.), ottuz (K., Tis.).

Söz kökündə t səsinin qoşalaşmasına Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində[2], həmçinin kumık ədəbi dili və onun dialektlərində[3] rast gəlinir.

ç səsinin qoşalaşması. ç səsinin söz kökündə qoşalaşması Əmirli kənd şivəsində qeydə alınmışdır; məs.: keççə, aççığ.

Bu hadisə Azərbaycan dili dialekt və şivələrində daha geniş yayılmışdır.[4]

c səsinin qoşalaşması. Bu hadisəyə bir neçə sözdə təsadüf edilmişdir; məs.: accı//əcci//əccı, dəccəl, həcci (ək.ş.).

Məlum olduğu kimi, Türk dillərində geminat qədim hadisədir. İraq türkmanlarında geminatların başqa Azərbaycan dialektlərinə nisbətən daha çox işlənməsi, görünür, bu

---

[1] **А.С.Канюкова.** Некоторые фонетические и лексические особенности чувашских диалектов. Вопросы диалектологии тюркских языков, Том II, Бакы, 1960, стр. 194.

[2] Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 62.

[3] **Н.К.Дмитриев.** Двойные согласные в тюркских языках, Исследования, I, стр. 262.

[4] Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, səh. 70; Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, səh. 62.

ləhcədə danışanların türk dilləri mühitindən təcrid olunmaları ilə bağlıdır. T.İ.Hacıyevin fikrincə, geminatlar qədim türkcədə qrammatik məzmun daşımış, çoxluq, artıqlıq anlayışının ifadəsinə xidmət etmişdir.[1] Bu fikri İraq türkmanlarının dil faktları da təsdiqləyir. Belə ki, türkman ləhcəsindəki geminatlı sözlərin əksəriyyəti və bilavasitə türkcə sözlərin əksəriyyəti kəmiyyət və əlamət anlayışları bildirən leksik vahidlərdir. Məsələn, saylar: ikki, ottuz. Bu da maraqlıdır ki, başqa türkcələrdə bir samitlə deyilən bir sıra saylar Azərbaycan ədəbi türkcəsində geminatla işlənir: yeddi, səkkiz, doqquz. Yuxarıdakı misallardan göründüyü kimi, geminatlı sözlərin içərisində sifət nitq hissəsinə aid sözlər daha çox yer tutur: qıssa, accı, eyyi, irri, durru, toppal, avvam və s. Yəni vaxtilə, çox uzaq qədimlərdə bu sözlər daha qısa, daha acı, daha eyi (daha yaxşı), daha iri, daha duru, daha topal (daha ağır şikəst), daha avam və s. mənalarını bildirmişdir. Hətta bəzi isimlərdə də qoşa samitli leksemlərin məzmununda çoxluq, artıqlıq mənası təsəvvür olunur. Məsələn: mənnə – adamın, yerin (dağın təpəsi, dağın zirvəsi), ağacın və s. ən yuxarı hissəsinə onun təpəsi deyilir – yəni bu halda adamın, yerin, ağacın və s. ən yuxarı hissəsi nəzərdə tutulmuşdur; çillə – bilindiyi kimi, qışın ən soyuq vaxtına kiçik çilə deyirlər, bu halda «kiçik» sözü qoşulmadan geminatla (çillə) soyuğun sərtliyi verilmiş olur; əzzab – əzab daha çox ağrılı olduğu üçün insan səsi qoşalaşdırır. Doğrudur, bu, əcnəbi sözdür, ancaq dil öz əski qrammatik qəlibindən istifadə edir (yuxarıda avam alınma sifəti də belə milli ifadə məntiqi ilə geminatlaşır).

[1] **Т.И.Гаджиев.** О происхождении геминатов тюркских языках. «Советская тюркология» (журн.), Баку, 1971, № 6, с. 26–31.

VURĞU

Bütün türk dillərində, o cümlədən Azərbaycan dilində, onun dialekt və şivələrində olduğu kimi, İraq–türkman ləhcəsində də vurğu, əsasən, sözün axırıncı hecası üzərinə düşür. Lakin ədəbi dilimizdə və dialektlərimizdə təsadüf edilən şəkilçilərin bəzisi vurğu qəbul etmədiyinə görə vurğu sözün axırıncı hecası üzərinə deyil, ondan əvvəlki heca üzərinə düşür. Bu hadisə eynilə İraq–türkman ləhcəsində də baş verir. Bu məsələ dilçilərimiz tərəfindən geniş işıqlandırıldığına görə[1] biz vurğu qəbul etməyən şəkilçilər üzərində dayanmayaraq, vurğu ilə əlaqədar olan səciyyəvi xüsusiyyətləri göstərməklə kifayətlənirik. Həmin xüsusiyyətlər aşağıdakılardan ibarətdir:

1. Qeyri-qəti gələcək zamanın III şəxs cəminin təsdiq və inkarında vurğu -lar, -lər şəkilçiləri üzərinə düşür; məs.: ayırmazlaìr, almazlaìr, biçəlləìr, biləlləìr, deməzləìr, içəlləìr, gəlməzləìr, oxumazlaìr, tanıllaìr və s. (büt.ş.).

2. Nəqli keçmiş və qəti gələcək zamanın III şəxs cəmində vurğu -lar, -lər şəkilçiləri üzərinə düşür; məs.: almışlaìr, başlamışlaìr, sevmişləìr, alacaxlaìr, biləcəxləìr, dönəcəxləìr, görəcəxləìr, sipirəcəkləìr və s. (büt.ş.).

3. Qeyri-qəti gələcək zamanın I şəxs təkinin inkarında vurğu -ma, -mə, II şəxs təkin inkarında isə -san, -sən şəkilçiləri üzərinə düşür; məs.: ayırmaìm, deməìm, istəməìm, oxımaìm, ayırmassaìn, bilməssəìn, gəlməssəìn, sormassaìn, toxunmassaìn, çəkməssəìn, çalmassaìn və s. (ək.ş.).

4. Əmr şəklinin II şəxs təkində – qınan // gınan // cınan, qinən // ginən // cinən şəkilçiləri üzərinə düşür; məs.: alginən (K.) // alqıìnan (X., M.) // alcıìnan (Ər.), apargiìnən (G.) // aparqıìnan (X., M.) // aparcıìnan (Ər.), baxgiìnən (K.) //

[1] **Ə.Dəmirçizadə.** Müasir Azərbaycan dilinin fonetikası, səh. 129–132; M.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları, I çapı, səh. 125–128.

baxqıìnan (X., M.) // baxcıìnan (Ər.), gəlməgiìnən (K.) // gəlməqiìnən (X., M.) // cəlməciìnən (Ər.), yandırgiìnən (K.) // yandırqıìnan (X., M.) // yandırcıìnan (Ər.).

N.Aşmarin və M.Şirəliyev dialekt və şivələrimizdə *orda, burda* sözlərində vurğunun bəzən birinci, (məs.: orda, burda), bəzən də ikinci (məs.: orda, burda) heca üzərinə düşdüyünü göstərirlər.[1]

Vurğunun «burda» sözündə bəzən birinci, bəzən də ikinci heca üzərinə düşməsinə İraq–türkman ləhcəsində də təsadüf edilir. Lakin dialekt və şivələrimizdən fərqli olaraq, «burda» sözündə vurğu ikinci heca üzərinə düşdükdə birinci vurğusuz hecada u səsi zəifləyir və ı səsi ilə əvəzlənir; məs.:

buìrdayam // bırdaìyam – buìrdayıx // bırdaìyıx;

buìrdasan // bırdaìsan – buìrdasız // bırdaìsız;

buìrdadı // bırdaìdı – buìrdadılar // bırdaìdılar.

5. Ərəbcə ism və rəsm sözləri İraq–türkman ləhcəsində isim və rəsim kimi işlədilir və vurğu ikinci heca üzərinə düşür.

6. On birdən iyirmiyə qədər miqdar və sıra saylarında vurğu onluq üzərinə keçir; məs.:

ombir	oìnbirinci
oìniki	oìnkinci
oìnüç	oìnçünci
oìndörtc	oìndördünci
oìnbeş	oìmbeşinci
oìnaltı	oìnaltıncı
oìnyeddi	oìnyedinci
oìnsəkkiz	oìnsəkkizinci
oìndoqquz	oìndoqquzuncu

[1] **Н.И.Ашмарин.** Общий обзор народных тюркских говоров гор. Нухи, стр. 81; M.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları, I çapı, səh. 128.

L.A.Pokrovskaya qaqauz dilində də on birdən iyirmiyə qədər miqdar və sıra saylarında vurğunun onluqlar üzərinə düşdüyünü qeyd edir.[1]

7. Biri, birisi qeyri-müəyyən əvəzlikləri *o, bu* işarə əvəzliklərindən sonra gəldikdə Altun Köprü şivəsində vurğu *o, bu* işarə əvəzliklərinin üzərinə düşür; məs,: buì birsi, oì birsi gün və s.

8. Bəzən iki söz birləşdikdə birinci sözün son saiti vurğusuzlaşaraq düşür və vurğu birinci hecaya keçir; məs.: daìyarwadı, əìmarwadı, əìmqızı, əìmcə<əmi can (ək.ş.).

9. Azərbaycan dilinin bəzi şivələrində olduğu kimi[2], İraq–türkman ləhcəsində də bəzi sözlərdə vurğu birinci heca üzərinə düşür; məs.: qaìrınca, toìzbağa (A.K.).

Bunlardan əlavə, bəzi şivələrdə bir sıra sözlərdə vurğunun həm ilk, həm də son heca üzərinə düşməsinə rast gəlinir; məs.: aìdam, aìxtarallar, quìrmısız, oìxyun, gəìlmirdim (A.K., Tis.), baişlar, daiğılallar, əìkinçi, gəlillər, gəìnə, geìcəlin, «gecə ikən», səìbbəhlin, üìçüncisi (A.K.).

İraq–türkman ləhcəsində vurğu müxtəlif nitq hissələrini, keçmiş zamanla indiki zamanın inkarını və indiki zamanla qeyri-qəti gələcək zamanı fərqləndirmək üçün böyük rol oynayır.

Müxtəlif nitq hissələrində

aìslan (A.K.) < əsla – aslaìn
vaìrdı < var idi – wardìı «getdi»
qoìyın – qoyìın
oìyın < ovun – oyìın

Zamanları fərqləndirərkən:

a) Qeyri-qəti gələcək zamanın təsdiqini indiki zamanın təsdiqindən fərqləndirmək üçün; məs.:

[1] **Л.А.Покровская.** Основные черты гагаузского языка. Вопросы диалектологии тюркских языков. том II, Баку, 1960, стр. 190.

[2] **M.Şirəliyev.** Azərbaycan dialektologiyasının əsasları, I çapı, səh. 127.

İndiki zaman	**Qeyri-qəti gələcək zaman**
alıìllar	alıllaìr
gəliìllər	gəlilləìr
oxıìllar	oxıllaìr
tanıìllar	tanıllaìr (büt.ş.)

b) Keçmiş zamanla indiki zamanın inkarını fərqləndirmək üçün

Keçmiş zaman	**İndiki zamanın inkarı**
almıısan	aìlmısan < almırsan
dərtləşmiìsən	dərtləìşmisən < dərtləşmirsən
gəlmiìsən	gəìlmisən < gəlmirsən
görmiìsən	göìrmisən<görmürsən və s. (büt.ş.)

MƏTNLƏR

Mənim ömrüm nalımın içində yazılıpdı

Bir gün-günnərdə su çox axtı. Su axınca dünyəni feyazan etdi. Əldə qaldı bir dağ. O dağda bir tülkü, bir aslan, bir qatır qaldı. Əfəndim, bunlar çox ac oldular. Qatıriysə yeşillıxtı diinya, yeeri, daa səmiz olurı. Bular iysə daha zəif olullar. Bular dedi: «Baba, belə olmaz, biz bir hiylə qurağın, qatırı yəəğin. Necə yəəğin?»

Aslannan tülkü qonuştı. Dedi: «Bir hiylə qurağm yəəğin özün.» Aslannan tülki göz qaçırttı qatın yesin. Necə yəəğin?

Dedi: «Naxsının ömrü qısadı iştə onı yəəğin.» Təban qatırın ömrü qısadı.

Əfendim, bular qaxdılar qonuşmağa şeydən–qatırdan.

Dedilər:

– Qatır qardaş.

Dedi: Nə var?

Dedilər, vallah kimin ömrü qısadı, biz onu yəərix.

Dedi: Məmnunam. Buyrun, qonuşın.

Əfəndim, qaxtı tülki sordı aslannan.

Dedi: Səniy ömrüy nə qədərdi?

Dedi: Mən Həzrəti Nuh gəmi yapanda ona minmişəm. Tülkü başladı yığlamağa. Niş yığlısan, baba?

Dedi: Xoş kəm o günə. Mən onda naccarıydım içində.

Aslannan böyük oldı. Qaldı qatırı yesinnər. Ömrü qısadı.

Dedi: Qatır qardaş, səniy ömrüy nə qədərdi?

Dedi, baba, mənim ömrüm nalımın içində yazılıpdı. Gedin, oxuyın, nə qodəriysə, bilirsiz o qədərdi.

Dedilər, vallah eyidi.

Tülki dedi: Gəti, qaldır ayağıy, mən oxuram.

Tülki getti yaxına, baxtı qatırın fikri var munı bir təpmə (təpik) çalsın gəbərtsin. Ey netsin? Çəkindi geri.

Aslan dedi: Niş oxumadıy?

Dedi: Vallah farscadı. Mən farsı oxumamışam, başım çıxmın munnan.

Aslan bir çox darıldı. Dedi: Yol ver mən oxuram. Daldan getti: Qatır, qaldır ayağıyı!

Qatır ayağın qaldırmağıydan qulağnın dibinə vurdı, vurdı gəbərtti. Dedi, yeri get, tülkü bu köpək oğlun ye.

Tülki döndi aslana dedi: Səniy babay farsı oxumuş, yo nənəy farsı oxumuş. Köpək oğlu, özüy öz qanıya girdiy.

(Danışan: Dayı Şəmsəddin Köprülü, 55 yaşında, savadsız, 1965)

Olar əkdi, biz yedıx

Biz iki arxadaşıydıx. Bir çola (dalan, məhəllə) xaxı. Birmizin adı Yavuz, birmizin adı Cəngiz. Mənim Cəngiziydi, yoldaşımın Yavuz. Bir gün bərabər gettix su başma. Orda gördüx çox yoldaşlanmız oynıllar. Kimi «qaşa-qaşa oynırı, kimi «güllə-güllə» oynın, kimi çimiri, o birsilər bir-birleriydən şaqa edillər. Həzz etmədix olardan. Dedim, arxadaş, Yavuz, gə gedağın bağa. Dedi, yalla gedağ, bir dəqqə bulann şeylərinnən-işlərinnən xilas olax.

Gettıx biz bağa. Gördıx bir qoca adam əlində bir bel yer qazırı.

Dedix: Əmmi quvvatıy olsun.

Dedi: Sağ olasız.

Dedix: Neynisən?

Dedi: Bu xurma ağactnı əkirəm.

Ey dedix: Səniy yaşıy nə ğarta olı?

Dedi: Mənim yaşım səksən beş olı.

Dedix: Bu ağac neçə ildə başa goli?

Dedi: Bu ağac on ildə başa gəli.

Dedix: Əmmi, səy ömrüyi qaldırıpsay, istirsən on ildən sora bunun barın yəəsən?

Dedi: Yox, oğlum. Olar əkdi, biz yedıx. Biz də əkəğin bizdən sorakılar yesin.

Bu bizə çox xoş nəsihət gəldi. Mənnən Yavuz döndüx məmləkətə. Dedix, biz də qoca kimin necə özünnən sorakıları düşünüptü, gərəğ özmüzdən sorakıları düşünəğin.

(Rəmzi Köprüli, Altun Köprüdən, 32 yaşında, 1966)

Yola nərdivan atağ

Bir tələbəydən bir qoca yol yoldaşı oldılar. Bular bir bulağın başına gəldilər. Tələbə dedi özüne, gəl ənəğ bura, dört çıxağ. Qoca annamadı özünü. Dedi: «Bu həkat nədi edirsəy?»

Deyir: «Əmmi, həkətti edirəm».

Ənəndələr hər biri bir ağac kəsti. Dört tənə oldılar. Gəldilər yola. Deyir, əmmi, gə bu yola bir nərdivan atağ.

Qoca annamırı özün. Haylırı (acıqlanır). Yollannda bir əkinə çattılar. Dedi, əmmi, bu əkinin sahibi yeyip özünü, yox yemiyip özünü? Kişi darıldı (hirsləndi):

– Bu əkin helə biçilmiyip, necə yiyip özünü?

– Bir həkətti dedim, əmmi, nişi darılısay? Gəldilər, bir köyə çatandalar. Görüllər bir ölü aparıllar.

Tələbə sorar: «Əmmi, bu ölü ölübü, ya diridi? Qoca darıldı. Hər kəlimədə bir darılmağı var. Tabuta qoyuptular, aparıllar ölünü, deri ölübü, ya diridi.

– Görmüysəy ölüp, aparıllar?

Dedi, əmmi nişi darılırsay, bir həkətti sordum sənnən. Orda o köyə çatanda arışlandılar. Oğlan getti köyün o' biri tərətinə, bu gəldi övinə. Qocanın bir ayığ qızı var, əyi fıkrəsi, əqli var. Çox əqildi. Qoca övə çatanda qızına dedi: «Bir oğlana rast gəldim. Yol ettim özüydən. Başım ağrıttı».

Dedi: Nişi başıy ağrıttı?

Dedi: Bir bulağa çattıx, deeri əmmi, ən ənəğ dört çıxağ.

Baba, ağac kəsdiiz?

Dedi: Kəsdiğ.

Dedi, baba, niçin darıldm. İki ağac kəsdiiz, dört oldıız. Sora nə dedi, baba?

Yol edirdiğ, mənə deeri gə bu yola bir nərdivan atağ.

– Baba, burda nə var? Qonuşup səniyçin, hətta yol tez bitsin... Qonuşsun bir dənə arxadaş biriydən, hətta yol tez bitər.

– Sora nə dedi?

Əkinə gəldix. Deeri bu əkinin sahibi yeyip özünü. Əkin hələ biçilmiyip.

Qız dinniri bu kəlmələri, həzz ediri.

Dedi: Baba, burda nə var? Əkinin sahibi borc alıpsa yeyip özünü, əgə almayıpsa yemiyip.

Qoca dedi: Bir ölü aparıllar qoylamağa. Deyiri, bu ölübü ya ölməyibdi.

Qız dedi: Baba, bunun mənası var. Niçin darılırsan. Əgə övladı varsa ölmüyüp.

Qız görməğsiz qaxdı sevsin oğlanı. Babasınnan oğlanı sordu.

Dedi: Baba, səniydən bir şey göndərsəm bu oğlan için apararsay? İstədi oğlanı özü yoxlasın. İstədi əqlin yoxlasın oğlanm.

Baba dedi: Hə.

Bu qız qaxdı onki əkmək yaptı. Otuz yumurta bişirdi. Bunu bir yayhğa qoydı. Babasm əlinə verdi özün. Baba taptı bu oğlanı. Buları verdi. Yolda bir əkməg, yumurtalardan üş dənə yiyipti. Bu açtı, baxtı, gördü ömbir əkməkti, kirmi yeddi yumurtadı.

Dedi: Əmmi, iliiz ombir aydı, ayıız kirmi yeddi gündi?

Dedi: Səni hələ munca əkmək, munca yumurta tox etmiri?

Qoca yevə qızı yanına gəldi.

Qızı dedi: Taptın özünü, verdin özünə?

Dedi: Hə.

Dedi: Sənə nə dedi?

Mənə dedı: Əmmi iliiz ombir aydı, ayız kirmi yeddi gündür.

Qız dedi: Baba, bir əkmək, üş yumurta yeyipsən.

Dedı: Hə.

Qız fəzlə sevdi oğlanı. İstədi görsün özün. Babasın göndərdi, oğlan dalmca. Oğlanı getti baba buldu. Oydu, gəldi oğlan. Qız xah saldı oğlançm. İstiri oğlanı. Ama qızın gözündə çarpazhx (çəplik) var. Qaxtı manı kəliməsinnən sorsun oğlannan qızı istiri, yox?

Dedi: Cisirə bax, cisirə. Özün köprüyə bənzətti. Oğlan baxtı gördü qızın bir gözü yatığdı. Dedi, cisir iyi cisirdi, ama nərdivanı noqsandı.

Qız dedi: Əgər cisir iyi cisir olsa nərdivanının noqsan olmağının qiyməti yoxtı.

Orda qaxtılar ikisi biri-birin sevsin. Gettilər molla yanına, hətta kəbin kəssin. Sora oğlan bir dairədə işlədi. Katib kimin bir şey oldı. Bu oğlana hər gün arvadı iyi baxır. Oğlan dairədə həppidən iyi işliri. Rəyis dairə bunun səbəbin bildi. Sordu ordan-burdan dedilər arvadı fəzlə iyidi.

Dedi: Gedər yoxlaram. Bir gün rəyis dairə oğlam ğeir bir dairəyə göndərdi. Dedi, saat munca gələrsən. Sora rəyis dairə oğlanın öyünə gəldi. Arvad baxtı, gördü kişisinin rəyisidir. Musafır ğurfasında oturttu. Rəyis dairə özüydən həkət etməğ istədi. Ama arvad düştü başa ki, onın başqa fikrəsi var. Bu arvad getti dört yümurta bişirdi. Löün-löün etti. Boyadı özlerin. Birsin bayaz qoydı birsin ğara, birsin qırmızı, birsin sarı.

Bu adam ğırdı bulan, həpsi yumurta çıxtı. Rəyis dairə arvadın əql olduğunu annadı. Rəyis dairənin iki arvadı vardı. Annadı ki, bu arvad nəyə işarə ediri.

(Səməd Davud Yetim, 52 yaşında, savadsız, Əmirli kəndi)

TOY ADƏTLƏRİNDƏN

Mən, Rəmzi Köprüli indiki olan tpylarımızdan qonuşacağam. Bir oğlan bir qızla məmləkətimizdə necə sevişillər? Məmləkətimiz ətrəfi sulı bir yerdir. Orda bunnan ögcə su çoxiydi. Qızlar şərbəni qaldırıp su başına gedillər.

Orda da gənclərimiz ohllar. Görüncə bir-birlərini əgə köüli qızı tutdisə və ya qızın kəyli oğlanı tutdisə ancax gözdən baxar. Bir ki gün bələ geçər. Onnan sora qonuşmax olı ara yerlərində. O qonışmağı da özdəri bililler. Qonışannan sora sözləşillər, fılan dəqqə gəlləm mən su gətirməğə. Dama yorğan yaz günnəri filan zaman ataram. Ey... iştə bələ şeylərdən. Qız əlin başına vurar, oğlan bil qız istiri özüni. İştə oğlan istəsə evlənsin, necə evləniri. İştə gəli yevə dəvə ediri... filan... bilməm nə. Nənəsi gili hiss edəllər bunm bir şeyi var. Utanın desin. Xalası gəli, xalasına diyər. O da nənəsi gilə cıxar gəli, bir vasıtaydan nənəsi gilə ulaştın, oğlanm arvad istamağın. Gəlillər, oğlum, bir bələ şey eşitmişiğ. Gözün yerə salar, sələşməz, hey diyəllər dayın qızı var, əmin qızı var, diyər istəməm. Bacu qızı, dayzau qızı, həpsin sayallar. Hiç birin istəməz oğlan. Bular da diyər bə kimi? Tez eləginən deginən. Əvəl deməz. Olu-olmaz. Diyər fılamn qızm. Qaxallar gidəllor dilaxçılığa. Əgə oğlan qohumlarmnan hiç birin almazsa. Diləxçilix də bizdə bələdi. Gidəllər qızı gürməxçi. Diyəllər qız su gəti bizə. Oğlanın nənəsidi, iki arvat ta özüydən. Qız suyı gətiri. Sora nənəsini dilələr. Diyəllər iştə

gəlmişix bağıydakı o gülçi. Nənə annar olarm maxsadlan nədi. Belə bir həkət diyər verməx təki. Deməz də verirəm. Sora diyər iyidi. Yarın gəlin, mən sizə fıkrəm cliyərəm. Yarın gəlillər. Nənə diyər, yarm gəlsəyiz hə diyərəm, necə olı. Nədi bu? Özün ağır tutsm. Deməsinnər belə tez verdi qızm. Gidəllər yevə. O biri gün gəlillər. Diyəllər, baba, iştə qoy qızm babasına diyəğin. Qızmın babasını gürməxçi oğlanın babasıydan üş-dört adam gidər ora. Oğlanı tərifləllər. İştə bələ axlaxlı oğlumuz var, bələ işləkti, cığara içməz, arağ içməz, qumar oynamaz, munı gərək sən oğlannığa qəbul edəsən.

– Baba, farq etməz, oğlan oğlumuz, qız qızımız, verildi.

Yarın gəli oğlan nənısi qız gilə.

Baba, ha zaman şərbət içəğin?

– Ay başında, ki aydan sora, hə bələ bir şey.

Ay başında şəkərlər alnı, molla gəli. Qaxallar şərbət içəllər. Nolı, qalı kəbin kəsməğ. Kəbin də kəsili. Molla, qazı gəli. Qız fəqır olsa qızçın üzük, sahat gəli. Yox zəngin olsalar hicildi, kəmərdi, həpsi də qızıl. Bulardan ahllar. Kəbin kəsili. O da şəriətə görədi. Qonuşullar. Oğlan qonuşı. Qızın bir vəkili olı. Çünki ayət oxını. Ayət uzundı. Olmaz qız tək dursın. Olmaz bunca aləmin ögində. Bizim hədəfimiz dögi, gərək kisi biri-birin əlin tutsın, qazı oxusın. Sora üzik keçili bir-birlərinin əlinə. Ama bir yeyli, uşaxlı arvad gəli qıza diyər güni ağ olsın. Özi ağ gün görüp. Diyəllər bunun da günibaxtı munın kimin olsın. Kəbin burda bitər.

Üç gün sora oğlanın yevi diyor üçlığ edirıx. Özlərinə aid alma, noğul, portağal, armuts aparıllar qız gilin yevinə. Bu bələ qalsın. Sora toy gəli. Toyda aləmi dəvət edəllər. Oğlan səbbəh hamma gidər. Taraş oh. Qız da camaatmı yığıştırıp gidər. Ha zaman? Oğlan gili çıxannan sora. Oğlan gilin yevində əgləncə olı bir gecə. Ama qız gilin yevində xına olı, o gecə. Burda da əglənillər. Oğlan yevində maanı diyillər,

həlhələ diyillər, dümbələk çalıllar, içki içillər. İçkini oğlannar içillər. Saat olı səkkiz. Qaxallar gidəllər xınaya. Mum qaldırıllar, sinnilərdə mum yanın, hətta diyəllər baxtı munın kimin bələ yansın. Mumlar, xınalar təslim olunır qız gilin yevinə. Qız gilin yevində oyun qurallar. Meytər çalını, zırna çalını. Bir hələy qurular hiç olmasın. Hələy də bizdə iki-üç töhürdü. Bəs hələy necə olı? Bunnan ögcə bizdə bir qız bir oğlan əl tutardı. O qızın üzi görünməzdi. Hələy başlardı. Meytər, zırna alırdı. Qızlan da yengə gətirirdi. İndi o adət qalmadı. Arvatlar yuxarıdan həlhələ verməğə başlar. Dapanca, tüfəng atallar. Dümbələk çalını, hələy bir yannan, maam bir yannan. Buları zoğ tutar, ğayət xoşlanıllar. Xoşlanna gediri. Onnan sora gecə bitər. Səbbəhi gəli. Səbbəh də ayn bələ yapallar, oynallar, yeməx yəəllər. Yeməxtən sora saət dördçü, beşçü gedəllər gəlinin ənsəsinə. Gəlinin də ötomobilinin ögünə bir qırmızı örtəllər. Qıza da bir qırmızı aba örtəllər. Üzünə də bir tül örtəllər. Mindirillər özüni otomobilə. Mindirmək də şərtti. Gərək oğlanın adamlarınnan olsm. Otomobil olmayan vaxta ata mindirirdilər. Əgə yaxm olsaydı ayaxtan gətirirdilər özüni. Kecava varıydı bizdən ögcə, görməmişix, eşitmişıx. Gətirillər özüni, öydə də yengə oturı. Bir güzgi də gətirillər. Yəni necə güzgi saftı, gəlin də saf olsm. Baxtı güzgi kimin ağ olsm. Əndirəllər qızı həlhələydən.

İndi döneğin oğlan yevinə. Sağduçlar duruplar damda. Haırnnm əlində şəkər, şəkər səpsin. Oğlan üç çuklet əlində qaldırı. Çukleti atırı bir-bir başma qızm. Mənası odu ki, əgə attığı çuklettər dəydiysə qızm başına, oğlanm hökmü olı qızm üzərinə, əgə dəymədiysə qızın hökmü olı. Camahat çıxallar, baxallar gəline. Əgə gözəlsə təriflərlər, əgə gözəl dəgisə başlallar öz aralarmda hərə bir həkət diyər. Arvatlar bələdi. Sora şərtti yarım oğlan getsin səbbəhinnən qızm nənə və babasının əlin öpsün. Gəlinniğ bitənnən sora gəli üçi. Bu

üçi də gözəl bir münasibədi. Üçində də yiyəllər. Üçınnən sora yeddı başlar. Oğlanın və qızın tərəfinnən gətirilən şey-meylər gəli oğlana. Oğlanın tərefinnən olı bir əsbab, sahat, altun. Hər kəş imkanma görə gətiri. Qızın da tərəftən. Əgə əvvəlinnən ittifaq edillərso oğlangili bu para bizimçin oh, oğlumız borcludı, egə borcludı o pulı qızgili almırı. Yox qızgili dediysə biz allıx o puh qızımızçin altun edənx, bu vaxt müşkilə olı. Az yoxtı bu müşkilə olmasın. Qızın nənəsi diyər münı mən allam, oğlanın nənəsi diyər mən allam. İştə müşkilə bir burda oh. Yadımnan çıxtı deyim sizə. Bizim məmləkəttə bir ədət var. O da şabaşdı. Sahat yeddidən sora toy gecəsi ələm gəli oturı. Orda bərbər var, o gəli. Bunnan əvəl meytər çalan var, o diyərdi: Əhmət, şabaş, babavın adı, filanın adı, nə biiim nə... paranı alardı. Onnan sora diyərdi: Filanın kisəsinə bin bərəkət. O paranı əlində bələ tutardı, hətta görsünnər. İndi o ədət qaxdı. İndi oğlana yardım etməxçin camahat həpsi oturup. O bir dinar, bu ki dinar, o üç dinar hə bələ həpsi yığar. Bu da oğlana bir iyi yardımdı. Bizim ədətimiz Altun Köprüdə hə bələdi.

(Rəmzi Köprüli, Altun Köprüdən, 32 yaşında, 1966)

Qərəclər

Qərəclər iştə səbət yapallar. Mousumlarda dağda olullar. Kərkülük avlallar. Tozax qurallar. Tozax qıldan olı, at quyruğunnan. Ay için xas kərkülüklər var. Onnarı qafasda buraxıllar. Sora qoyallar ağac butasına, ğəribdi oxur. O kərkülüklər ki, dağdadı eşidəllər o ğərib kərkülükün səsin. Başlallar özdəri oxumağa. Sora gəlillər, dolanıllar o ağacın başmda-atrafında. Ağacın da altında qərəclər tozax buraxıptılar. Onun üzərini bir az örtüptülər. Yəni görünməsin. Bu heyvannar dolanıllar atrafta. Sora başlallar yeri eşələməğə. Bi

kərə tozağ ayaqlarına ilişir. Tozax həlqə-həlqə olı. Ayağına ilişmədi, bükülüri. Bu kərə qərəclər gəlillər, tutallar kəndisini, buraxıllar qafasa. Sora gətirillər yən Ərbilə, yən Kərkükə. Satallar özlərni.Yaşamaxlan bunun üzərinə və səbət yapmaq üzərinədi.

(Xəlil Əziz Mustafa, 45 yaşında, savadsız, Altun Köprü)

Otraxçılıx

Mən, Kərxi Hacı Ümid Otraxçı qonuşuram sizlərçin otraxçıhxtan. Bu özi bir sənətti. Xalılar satarıx: Xahlar çoxtı. İtali xalısı, İran xalısı, kürd xalısı. Sora döşək satanx. Yastux da satarıx, tük yastuğı da var. Sora cecimdi. Qoyun yunkundan olı. Sora kilimdi. Sora keçədi. Bizdə bunun üzərinə bir söz də var:«Keçə, əməgü getti heçə.» Keçə quzı tükindən olı. Sora bataniyyə satarıx. Bataniyyə olı: fəttah paşa və sini bataniyyəsi. Sora kəli çadır. Çadırda yaşallar yazıda içində. Qoyunı olan adam alı özüni. Çöldə yev yapırı, hətta qoyunı otarsın, yaşasın içində. Bu da qildən olı. Sora xurcdı. İki gözi oh. Sora gəli çual. Arpa, buğda ^axtı yazıdan içinə arpa, buğda qoyallar, gətirəllər. Saydıxlarımızdan ən bahahsı İran xalısıdı.

(Kərxi Hacı, 46 yaşında, savadsız, Ərbil şəhəri)

Söhbət

Mən, Məhəmməd Nüri Bağvan siziyçin həyvanattan qonuşuram. Burda biz bəsləriğ inək, qoyın, keçi. Buları süt için saxlarıx. Bulardan sora gəli əşəg, qatır, begir, at. Buların da bir qismin qullannıx zraət işində, o biri qismin do minəriğ gedəriğ bir yerdən bir yerə. Ükümüzi aparnx endirrix bazara, satarıx. Çünki bizim ixtidanmız yoxtı səyaraya, bu ucuz olduğı haləttə. İndi inəgin doğmağınnan qonuşuram. İnək

özi bir həyv andı, insançin çox faidası var. Bunın süti oh. Bu süttən qəymağ ederiğ, bu süttən yoğurd edəriğ, sütin, yağın çıxardarıx, bu süti içərix. İnək doğar doqquz ayda. Qardaşa deyim, inək süttən ha zaman kəsili. İnək süttən doqquz aya üç ay qalmış kəsili. İnəgin qarm qaxar. Necə billığ bunm qarnı var? İnəgin qarmında olan bala nəfəs alı. Necə bilhğ nəfəs alı? Bunı necə billığ? Əlmizi buraxırıq sağ tərəftən inəgin qaraı üstünə, baxanx bunm qarnında həqqətən bala nəfəs alırı. Doğanda altma saman döşərix. Bir nəfər də gəli bəkləsin özüni. İnək başlar doğmağa. Doğdığı haləttə əvəlcə munm –buzavm başlar görünməğə iki ayağı. Sora bədəni görüni. Sora qoyarıx nənəsi munı yalasm. Nəynən yalasm? –Diliynən. Sora inəgin süti gəli. Buna diyərix ağıs süti. O ağıs sütini allıx inəkdən verrix balaya. Onnan sora gəli bayaz süt. Bu süti qullannığ işməğçin, ya yoğurdçin. Biz köyli oldığmızçin yağ, pendir, kərə, yoğurd, süt bizimçin vacibdir. Yaşayışımız bular üzərinədi. İnəgin balası sora böyüg olı. Böyük oldığı halettə buna diyərıx cöngə. Bu olı üç-dört ildən sora. Bu da yenə böyüg olı. Altı-yeddi il keçər, buna diyənx inek. Çünki bu da başlar doğmağa, bala verməğə. İnək öldüysə, yən kəsdixsə dərisin alhx, qondara edərix.

İndi yev quşlarınnan tauğın üzərinə qonuşurıx. Biz tauxtan çox istifadə edərix. Bunm istifadəsi nədi? Köydəyix. Baxarıx taux doğuptu. Səbbəh qatarıx ytmırtaları qoyarıx qazana bişjrnx, yiyərıx və həm də salhx özüni yağa, yağda yiyərıx özüni. Tauğu satarıx da. O da ha zaman? İstərix bir yerdən bir yerə gedəx. Tauğı satarıx, para olsm, hətta paraydan gedəx. İndi qonışım sizə necə tauğ doğar, yımırta olı, sora cücə oh, cücə də bir daha tauğ olı. Tauğ girmi, girmi bir yumurta doğar, sora qaxar kürk olı. Nec'ə billığ biz tauğ kürkdi? –Tauğın kürki bələdi. Tükləri şiş-şiş durar. Tükləri şişər özü də başlar daiman yerdə yatmağa. Canı sıcaq oh.

Sora başmdaqı et qırmızı oh. Onda billıx kürkti. Altma bir az saman buraxırıx və tərəcəyə buraxırıx özüni. İyi taıpcsa altına girmi bir yımırta buraxınx. Əgə taux iyi dögi az buraxırıx. Baxarıx yumurta lak olmasın, hətta ki, cücəmiz çıxmasın ziyan edəğin. Bələ edərix cücəmiz tamam çıxsın. Taux qalı yumurtalar üzərində girmi bir gün. Sora yumurtalar başlar partlamağa. Necə partlar? – Ondakı cücələr hazır olı yumurtalar içində nənəsi dimdigin salı, qırar və cücə çıxar yazıya. Cücə çıxtığı zaman taux buları alır, qənəti altmda saxlar. Tauğın öginə arpa, buğda tökəndə dimdigiydən vurar və gətiri cücələrin öginə. Cücələrə qəmsilə də verrix. Qəmsilə bilisən nədi? – Qəmsilə xəmirdən olı, xurda-xurda. Qoyarıx cücənin öginə, cücə xurda olanda yesin özüni. Cücə başlar böyük olmağa. Bir-ki ay sora buna diyərix fərik. Fərik də çox istifadəlidi. Xəstə insanlara çox faydası var. Kəsərıx, xəstə yesin, hətta əyi olsun. Kiçər üzərinnən bir dövran və fərik başlar tauğ olmağa. O da başlar nənəsi kimin yumurta doğmağa. Bu, tələ suyı içənnən sora olı. Yəəni güzdə yengi yağış suyı içənnən sora başlar doğmağa.

İndi arxadaşlar, siziyçin qonuşuram zraəttən. Zaraət necə əkili, necə hazır edərix, toxumunnan hətta o biri toxum bitənə qədər, yiyənə qədər özüni. Qışta arpa kərix, buğda kərix, kündüc ekərix, məcmək əkərix, noxud okərix, paqla kərix, soğan əkərix, tərə-türə kərix, samırsağ əkərix, kəvər əkərix, turp əkərix, zılx əkərix, şalğam əkərix, çüküntür əkərix. Çüküntür bilisən nədi? – Çüküntür əynən zılxa bənzər, bunın başı altında qırmızıdı. Bu şeyləri biz qışta»kərix. Buların ömrü yazda əkilənnərdən daha qıssadı, daha zəhməti yoxtı. Çünki gətirrix buğdanı əkəndəx cüt edərix, yeri döndərrix. Şoxum edərix. Şoxumu iki davardan edərix. Arasında uzun bir taxtadı, ağaştı, dəmir var, onuydan şoxum edərix. Ona biz cüt diyərix. Yaxut ta gətirrix piləskər. O, cüttən əyidi. Pi-

ləskər bahadı, beş-altı dinara. Köydə cüt əyidi. Cüt nişi əyidi? Çünki köylülərin özdərinin həm cüti, həm davarı var. Özdəri əkər, özdəri biçəllər. İndi yüzdə doxsan beş piləskər qullannıx. Yeri şoxum edərix, qalı o biri gələn ili qıştan bir ay əvəl şoxumu səpərix. Buğda başlar cücərməğe. Əmmə yağış əyi olarsa, taxıl çox əyi olı və biz də zəngin ollıx. Yağış olmasa başlarıx zərəl etməğə, däha da fəqir ollıx. Toxım başlar cücərməğe, buna diyərix qəsil. Başlar bu da simbıl tutmağa. Qardaşa deyim, qəsil çox oldığı haləttə yatar və simbil tutmaz. Belə oldığı haləttə gətirrix qoyın-quzı, yaxud inək. Buları salhx içinə, qəsili yesin. Qəsil yeyili və köki qüvvətlənər. Bir qaç ay sora qurıyar. Simbil olı və saralı, bu halda bunı ya oraxtan biçərix, yaxut ta dərraçə var, məkinədi sallıx içinə. sayığı var, sürər özün. Özü həm dögər, həm samanın atar, həm dartar. Saf buğdanı veri bizim əlimizə. Özümüz öz əlimizdən bicərixsə, onı taya edərix. Taya etdiğimiz zamanda qaldırrıx onı, davarlarla çəkərix özüni, xarman edərix. Xarman etdiyimiz zamanda başlarıx bunu davarlardan zəncər edərix. Zəncər bilisən nədi? – Zəncər özi bir taxtadı, altında pıçaxlan var. O pıçaxlar da bir-birnin əksinədi. Başlar bular əzməğə, dorğamağa, buğdasm çıxartmağa, samanm etməğə. Qardaşa deyim, xarman kiçikti tez bitər, böyükti gec bitər. Dolantırrıx içində xarmamn zəncəri. Hətta tam bəyaz saman olı, buğdası içində kösükməz. Koma edərix. Başlanx şumal yelinə verrix özüni. Yel samanın aparı uzağa, közəriydən buğdası qah yerində. Savrurrıx. Saman çıxar. Nəyi qalı? Qalı közəri və buğdası. Bunı qərbil – ələyə vurrıx. Qərbil – ələyə vurduğmuz halda bunm gözəri ayrı olı, saf buğdası qalı. Sora davardan, ötomobildən apanıx yevə, buraxınx ambara. Bunın da bir qismin satarıx, bir qismin yiyərix, bir qismin də saxlarıx gələn qışta əkməğə.

(Məhəmməd Nüri Bağvan, 36 yaşında, Altun Köprü)

«MOLLA NƏSRƏDDİN»İN LƏTİFƏLƏRİNDƏN

Allahı yoldan çıxarıp

Günün birində molla suqaqın birində yerirkən görər dam başında adamın birsi qawın yiri, iştə üstinə şəkər tökiri yiri. Adəməkə bəs üzərini yiri. Üzərini yiri atırı cjabuğını məhəlləyə. Məhellədə bir dənə oturup bu qabuğı yiri, sora həmd olsın allaha diri. Molla fəzlə darılar və başlar bum dögməğo. Özüydən olan caməət diyər:«Molla, nöyçü vurusan özüni, günəhdi». Molla diyər: «Qoyın bir tox vurım munı. Bunın kimin adamlar çıxardıp allahı yoldan. O yuxarida ylri şəkərli qaunı, şükr etmiri, bu qabuğı yiri, şükr ediri».

Ənsəmcə gə

Bir gün mollamn əvinə xerxız ənər. Mollanın xəbəri olı, sükuta çəkər, sələşməz. Xerxızlar bütün işlərin yapamıan sora çıxallar yazıya. Molla baxar yeydə bir şey qalmadı. Qaxar yewin qapsın çıxardı, dalma ah. Diyər arvad ənsəmcə gə. Başlallar xerxızlarm arxasmca yeriməğə. Xerxızlar dönüllər geriyə, görüllər özlərni. Molla nədi bu? Diyər, iştə yewimiz yevvimizə köçmüri? Mən də gəlləm sizüdən. Mollanın kəliməsi xerxızlarin xoşlarma gediri və qaytarıllar əşya-məşyanı gəriyə.

Hanı arwadım?

Bir gürı mollanın qonşusu bir dəwst yaptı. Mollanı dəwət etmədi. Biliri molla bir şey yapı. Molla da oturup yeydə arvadıydan. Dedi, biz necə bulara gedəğin, necə dəwetlərini yəğin?

Arwadı dedi:«Sən bilisən molla, mən bilməm.» Molla dedi: «Dur irıdi mən səni qaylaram. Sən qaş bularm yewnəgirginən. Mən də ardıyca gəlləm. Biz dögüşdüğümüz halda oturdulla bizi. O halda biz də yiməx yərix».

Molla arwadına bir-ki zillə çalırı. Arvadı fizzəh ediri, qaçın. Qaçın oların yewinə girri. Molla da ardıyca. Hanı arwadım? Qaylar arwadını, nə bilim ne... Tutullar özüni. Otı molla salavat çəvir. Yox oturmam. Arwadı'mı verin!

Yox oturusan. Olu, olmaz. Otuttular özüni. Hər nəysə... Gəldi yeməğ üzərnə. Qənşərində şeydi – bir şey-qab etti. Əli yetişmiri özünə. Nə hilliynən yesin o eti? Molla əlin qayzadı. Qoyuz aruadmıın qulağnı bir burum. Deməğiydən sinnini burdı. Et gəldi qənşərinə. Başdadı yeməğə. Molla bələ molladı. Olmaz əlindən bir şey çıxa.

Yaxandam ölmədi, sıxandam öldi

Molla pisigini çox sevərdi. Pisigi bir gün girri olı. Gətiri özüni bulağ başmda yaxamağa. Əlində sabun başlar pisigi yaxamağa. Ordan bir dənə kiçər. Diyər, molla nə yapısan? Diyər, bu pisigi yaxıram. Diyər, ölü, axrr saj^xtı. Molla diyer ölməz. Diyər ölü. Molla diyər ölməz. Ölü – ölməz. Qalı samşsmnar. Adam gidər öz işinə. Dönəndə gəri görü pisig ölüpti. Diyər, niş yaxaladu pisigəkəni, demədim öli? Molla diyər: «Yaxandam ölmədi, sıxandam öldi».

Əşəgə inandü?

Günnərin birindo mollamn qonşusı gələr diyər, molla əşəgüü ver, aparax işə. Molla diyər, əşək əvdə yoxtı. O halda əşək anqıldar.

Diyər, molla, bə bu əşək dögi, nədi yewidə?

Diyər, sən mənim kimin bir ixtiyara, bir saqqah bəyaza inanmırsay, bir əşəgə inanırsav?

Məktubuz gəldi

Bir gün mollagüin məhəlləsində toydı. Toy səhabı aləmi dəwət edər, bi tək mollanı də^ət etməz. Bələ yəni şakayçin.

Sevərlərdi mollanı. Gün günortadı, hər kəs də\»ətə giriri, çıxırı, dişini pəkliri, yeməğ yənnən sora. Molla da əzili neçə saattı, ye^də. Molla düşini -daşmı bi kərə qaçar bazara. Bir zərf alı. Zərf içinə bir şey qoymaz. Üstində toy səhabinin ünvanın yazar. Sora adın yazar, gəli, diyər toy səhabı məktubüz gəldi. Olar da məktubu alallar, ciblərinə qoyallar. Molla, otu yeməğ yi. Yox, yimem. Olmaz, bilməm nə...

Molla yiməğ istiri, ama yalan yerdən diyər yeməm. Yox – rnolla, olmaz. Hər nəysə... Molla oturı yemağın başında. Yeməği yər. Tamam yeməği yənnən sora çıxar. Ev sahabı molla yeməği yedığı halda zərfı açar. Görər hiç şey yoxtı içində. Bəs ünvannan və adı var üstündə. Diyər: «Molla, bir şey yoxtı zərfm içinde». Molla diyər: «O ğarta əcələydi, o ğarta əcələydi, az qaldı hətta ünvanı da yazılmasın zərfə».

Şey-meylərin yerin nənəv bili

Bir gün mollanın kiçik oğh kitab oxurı. Bilmek istiri bəşər nanca yaranıp, qulağ hardadı, burun hardadı, göz hardadı. Həpsin bili. Bəs bilməz qəlb harda oh. Molladan sorar: Baba, qəlb harda oh?

Oğlum, bilməm, sor nənəxdən. Şey-meylərin yerin o bili.

Tapmacalar

Ağ ilan ağzın açar, qərə ilan vurar keçər. – ignə, sap

Axşam səptim noxudu, sabah qaxtım, yox idi. – yıldızlar

Biz biz idiğ, otuz iki qız idığ,
Otuz ikimiz söküldiğ.
Bir taxtaya düzüldiğ. – yunk tarağı

Bu gün çərşənbədi,
Köylüyə düşən nədi?

Otu yox, ocağı yox,
Kölgədə bitən nədi? – deləmə

Dağdan ənər dağ kimin,
Qollan budağ kimin.
Ənər bulağ başına,
Bağırar oğlağ kimin. – bulut

Əgri səhən, acı bal. – qulağ

Əl yattı, ayağ yattı,
Ölü dilin uzattı. – qapu, halaq

Yeşil donnı, gümiş gərdənni. – qisi soğan//yeşil soğan

Yoxladım belindəkin,
Annadım kölündəkin. – kitab

Gedər-gedər yerində,
Altun kəmər belində.
Gecə-gündüz yol gedər,
Genə durup yerində. – su dəgirmanı

Lələm diyər köç gördim,
Köç üstündə heç gördim.
Burnı sümük, başı et,
Bir əcaib quş gördim. – xoruz
və ya:
Azan oxur, namaz qılmaz,
Arvad alı, nikah qıymaz
Odda bişi, ettə asılı. – sırğa

Sarıdı, saman dəgi, dərtlərə dərman dəgi,
Qanadı var, quş dəgi, buynuzı var qoş dəgi. – çəürkə

Uzun-uzun uzanı
Həftədə bir bəzəni. – camaşir ipi

Haqq yapup yapusını
Demir açar qapusını. – qarpuz

Hav, hav, hav atar,
Çaxmaq daşı qav atar.
Səksən səkkiz dəgirman,
Doqsan doqquz nav atar. – yıldırım

Bəddualar
(qarğış)

Ax diyəsən, qan tifirəsən.
Beşiku boş bələnsin.
Qırran qırsm
Köküwiz kəsiisin.
Ölət sipirsin.
Ömrüwin dəftəri bükilsin
Pərkem tutasan.
Tuttuğü altun, toprağ ossın.
Üskək yerdə görüm səni və s.

Yemindlər
(and)

Adıwa qəsəm olsın
Bu günəş haqqiyçin
Bu başı öludən göməsən
Diziwzin günəhi boynımda qalsın
Merd başuçi
Namusımda
Ölmüm görəsən
Əsgər qaçağı olım
Peyğəmbərin başıyçı

Həpi dərtlər başıyçı
Şəhidlər goruyçı və s.

Salam1ar

Səbbəh xer:
Səbbəhü xerli olsın:
Günortau xerli olsın:
Axşam xer:
Axşamıwız xerli olsın:

Atalar sözləri

Ağ ağça qərə küncindi.
Ağa bağınnan su bağışlırı.
Ağacın qurtı özinnən olmasa bin il yaşar.
Ağız yər, üz utanı. Allah dağma görə qar yağdın.
Alçaq yerdə yatma, sel ah, üskək yerdə yatma, yel alı.
Arwadu ortaqlı olsın, malu ortaqlı olmasın.
At almadan, axur yapırı.
Atdan əşək nallandı, qolbağa qıçın qaldırdı.
Attan düşmiyən, attı olmaz.
Acın qarnı tox oh, gözi tox olmaz.
Acuğ gəli üz saralı, acuğ gedər üz qərəli.
Bar vermiyən ağacı kosəllər.
Bar verən ağaca xizmət olını.
Bağüda gül varikən gül üzüwa, bağüdan gül tükəndi kül üzirwe.
Bir əlin nəsi var? Ki əlin səsi var.
Bir çulım var ataram, harda gəlmiş yataram.
Bir dinsizin həqqinnən bir imansız gəli.
Bir köyün ağası Salman ossm, o köydə nə xarman ossın.
Biri yər, biri baxar, qiyamət onda qopar.

Borc yüzi keçdiysə hər gün pilay yi.
Bilənə bir sələ, bilmiyənə bin.
Bu günki imırta yarmkı tauğdan əyidi.
Vaxtsız baynayan xoruzı kəsəllər.
Verirsə el gətiri, yel gətiri, sel gətiri.
Alırsa el apan, yel aparı, sel aparı.
Qazana nə qoysay çəmçəyə o gəli.
Qarpuz yən qurtuldı, qabuğ yən tutuldı.
Qarnı qurıldar, üsti parıldar.
Qahptı öz başına, örtüpti bez başına.
Qaldır samanı, gəli zamanı.
Qatrannan olmaz şəkər, olsa da cinsinə çəkər.
Qonağ qonağdan həzz etməz, ev səhabı hər kisinnən.
Qonşunm dili şişip, qavğası bizə düşip.
Qonşıya umudlı olanın əkməgi doğrağh qah.
Qızım vurmıyan dizini vurar.
Dawaçı dawasınnan vaz geçiri, şəhad şəhadlığınnan geçmiri.
Daş dəgənə, yol gedenə məlumdu.
Deweçiydən qaxıb-otıran qapusını gey eylər.
Doğrı deyənin börki dəllükdi.
Dəgirman işin görər, çağçağa baş ağırdı.
Dəgirmançı dirri olaydı, unı bələ irri olaydı.
Et dırnaxtan ayrılmaz.
Et yeni qassap tanır.
Əski xarmanı saurma.
Zəngin qaxar işinə, yoxsıl baxar dişinə.
Zilləydən surat qızardın.
İlan çalan ip sürüntüsinnən qorxar.
İmırtadan çıxıp, qabuğını bəgənmir.
İpliginə bax bezini al, nənesinə bax qızını al.
Yağdan yarma qawşı, arada soğan buruşı.
Yağdan yağlırı, soğandan dağlın.

Yığdı qırpa-qırpa, verdi əci turpa.
Yuxarı tifirsəm biğdi, aşağı tifirsəm səqqəl.
Yuwcı həqqinə yetsin, ölü gorbagor getsin.
Köpək beyram sümüküydən tox olmaz.
Köpəgə əkməg atallar səhabi xatiriyçin.
Konn tutuşı, karın vuruşı.
Köyi köppəksiz gördi, əli ağaşsız girdi.
Ki göül bir ossa, samannıq seyran olı.
Görməmiş gördi gümiş, oldı qudurmış.
Gecə müştərisi yə xerxız (oğru) olı, yə də xersız
Keçi can wyında qassap pig wayında.
Lalm dilinnən nənəsi bili.
Leylə bilisən, nişin yatmısan?
Malü mal olmasın, bazarü bazar olsın.
Naxırda inəgim yox, naxırçıydan hesabım çox.
Nənəli qız bəlli qız, nənəsiz qız dəlli qız.
Pisik də qaurğa yərmiş.
Surata görə zillə çal.
Tausı tükiyçin kəsəllər.
Şirin dil ilanı dəllükdən çıxan.
Şıq-şıq edən nalçadı,
İş bitirən aqçadı.

Bayatılar

Ağa siz
Xizməkar biz, ağa siz.
Ölürsə qullar ölsün
Qul qalmasın ağasız.

Adamlığ
Zordan dəgi adamlığ.

Siflələrdən uzağ düş,
Adama et adamlığ.

Ay çıxtı, batar indi
Dost oxın atar indi.
Leyla tükan quruptı,
Məcnun can satar indi.

Ağ olı
Qönçə gül var, ağ olı.
Namusm sevən adam,
Əlbət üzi ağ olı.

Ağa vardan
Nə yaptı ağa vardan.
Öləndə nə apardı,
Rəhmətli ağa vardan.

Ay deməm
Bin il yansam ay deməm.
Yuldızlar da ay olsa
Yarım varken ay deməm.

Aynamaz baş ağırdı,
Can sıxar, baş ağırdı.
Dəgirman işin görər,
Çaq-çaqa baş ağırdı.

Ay ağma
Baxmırı ay ağına.
Altun burnın qaldırdı,
Daş dəgdi ayağma.

Ayağuu
Doğru at ayağuu.

Yorğannan fəzle çıxsa,
Kəserlər ayağuu.

Bələ dərdim,
Qur beşik, bələ dərdim.
Qoştum ğəm cütlərini,
Dərd əktim, bəla dərdim.

Bir daş attım deriyə,
Yar gəldi pəncərıyə.
Qız allahı seyərsəy
Al məni içəriye.

Bu dağ bizim olaydı,
Zalxım üzüm olaydı.
Ortaxlı malı nedim
Həpsi bizim olaydı.

Bu dağdan.
Maral geçər bu dağdan.
Ya ölləm, yan öldürrəm,
Ya au allam bu dağdan.

Budağında.
Bülbül gül budağında.
Qənəfıl cumbut edip,
Yarımm dodağında.

Bu sənü hindi zilfü,
Çignüə mindi zilfü.
Çuraxla qoy qoynua,
Qan edər indi zilfü.

Bu yol Ərbil yoludı,
Arxı dolu sumudı?

Sən sevdü, sen usandü,
Səndə adət bumudı?

Bu yola xanım gidər,
Xammnan canım gidər.
Çigərdən yaralıyam,
Gözümnən qanım gidər.

Dağ ənişi,
Zəhmətti dağ ənişi.
Vurursaıı oxu fələk,
Sağ yer var, dağa nişi?

Dağıt üzə,
Zilf düşüp, dağıt üzə.
Ürəkdən bir ah çəksəm,
Döndərrem dağı düzə.

Əkmə bitmiyən yerə,
Can ver itmiyən yerə.
Ayaxlar neçə varsm,
Könül getmiyən yerə.

Əkinim əkiliri,
Sümbilim töküliri.
Zilfitden bir tel göndər,
Kəfınim tikiliri.

İzi var,
Kansan keçib, izi var.
Rəqib yara baxıptı,
Üzində göz izi var.

İçmişiğ, məst olmuşığ,
Bada pərəst olmuşığ.

Əskidən düşman idiğ,
Yengiden dost olmuşığ.

İştən gəli,
Can, sağlığ iştən gəli.
Yeməğ, içməğ ləzzəti,
Doğrusı diştən gəli.

O yar gözin,
Mən gördüm o yar gözin.
Aslan gücünnən düşsə,
Qarınca oyar gözin.

Olan camı,
Doldur ver olan camı.
Təmbəlsiz bina durmaz,
Yıxılı sərəncamı.

Oxunmurı,
Dərdim çox, oxunmurı.
Məcnun kimin gəzirəm,
Göz yara toxunmurı.

Özi düşər,
Tut bişər, özi düşər.
Gəl dəgmə sərxoşa sen,
Yıxılı, özi düşər.

Suda dağlar,
Görüni suda dağlar.
Yamandı fələk oxu,
Balığı suda dağlar.

Üzə dəgər,
Zilf uzun, üzə dəgər.
Gəl dostum xain olma,
Labüd üz-üzə dəgər.

Sazlamalar

Baba başta tac imiş, balam!
Hər dərdə ilac imiş.
Bir evlat pir olsa da,
Babaya möhtac imiş, balam.

Günü var, balam,
Açılmaz dügüni var.
Bu günə çox şükr ossun,
Bunnar betər günü var.

Dərd əkərəm, balam,
Dərdim çox, dərd əkərəm.
Qoşmuşam qəm cütünü,
Sürdüxcəm dərd əkərəm, balam.

Bülbülü şaxta vurar, balam,
Nə yaman vaxta vurar.
Yetimi Xudam vurub,
Utanmaz xaxta vurar, balam.

Leylə balam, leylə,
Leylə körpənəm, leylə.

Apardı tatal məni, balam,
Qorxaram satar məni.
Qoyar sopan daşma, balam,
Köybəköy atar məni.

Fələgin bir günih var, balam,
Köskündə dügünü var.
Düşmə fələk toruna, oğlum,
Alıb-satma günü var.

Səhərdən sada gəli, balam,
Zülmi çox dada gəli.

Bir ölüm, bir ayrıhğ, balam,
İkisi yada gəli.
Leylə balam, leylə,
Leylə nənəm, leylə.

Saraldım qəmiş oldum, balam,
Gənə dərdə tuş oldum.
Səhəbsizliğ əlinnən hey-havar,
Çöllərdə bavquş oldum.

Mustafa Gögqaya (1910–1983) və Nasih Bəzirgənin (1927–1990) Kərkük və Kifri ləhcələrindən topladıqları xalq şeir nümunələrini kərküklü prof. dr. Hidayət Kamal Bayatlının kitabından götürmüşük.[1]

Türkman, Türkman, Türk Türkman,
Çignində var kürk Türkman.
Ne rakibin şərrinnən,
Nə ölümnən hürk Türkman!

Gözə görüki Türkman,
Bäşmda börki Türkman.
Çignində çamadänı,
Oxurı türkü Türkman.

Hər dərdi çəkməz Türkman,
Mazluma dəgməz Türkmän.
Hak yolun tutub gidər,
Aslabaş əgməz Türkrnan!

Hər kəsı ögmez Türkman,
Hiç yerə sögməz Türkman.
Dirsegiydən samırsağ,
And içib dögməz Türkman!

[1] *Bax:* Prof. dr. Hidayət Bayatlı. İrak–türkmen türkcesi. Ankara, 1996.

Dinini ögər Türkman,
Hakka baş əgər Türkman.
Bir baxın tərixlərə,
Dünyəyə dəgər Türkman!

Kərküklüyiğ, Kərkük,
Dostlar şad duşman yüklü.
Fidäyığ bu vatana,
Həm gənclər, həm də tüklxi!

İrak'ta Kərkük şəhri,
Qərə neft ahar nəhri.
Daş altun torpağ gümüş,
Sür safa çəkmə gəhri.

Sevəriğ biz vatanı,
Həm ana, həm atanı.
Ölürsəğ tərk etmeriğ,
Bu torpağda yatanı!

Cərkük İrak çırağı,
Fitilsiz yanar yäğı.
Qissə görüşlü dəgi,
Däyım gözlər irägı.

Geçənğ yüz bin ili,
Tərk etməriğ bu dili.
İrak Türkü, Türkmanığ,
Dünyədə hər kəs bili!

Zevk ile coş eylədüv,
Gönlüvü boş eyiədüv.
Sənə bir eylığ läzım,
Toyımız xoş eyledüv.

Çixardın kambunnı,
Üskəg ossun burını.
Pək yəxəvun giridm,
Hatta təri qurını.

Bir ki təpmə çaldılar,
Kamburmı ildılar.
Koydular tərəcəyə,
Dümdüz yola säldılar.

Əskidən yoldäşımsan,
Yaşta menim yaşımsan.
Düzləndüv sələ mənə,
Doğmsın, kardaşımsan.

Döndü dedi, sakkaya:
Bir sözüm var bakaya.
Gecə hamama gettim,
Bunı vurma şakkaya.

Geceni çişırdınca,
Səs gəli kaba, incə.
Hamam ögi toy hələy,
Çox kefləni görüncə.

Həmən girər hələyə,
Sən bir bax bu bələyə.
Hələy təpməğ səsinnən,
Yer gəh zənzələyə.

Cinnilər diyər pazar,
Təpmələr, yeri kazar.
Pazarərtəsi hənuz,
Kambur da həmən başlar:
Sälı, çərşəmbə, xəmis.

Məni, ərdı tamama,
Kambur girdi hamama.
Bir dənə oturıptı,
Başta särığ amama.

Bibisu, su istisen,
Ağac dilı üstj.sən,
Eyyi öt Türkman kuşu,
Kərküklilər dostusan.

Sən nə gözəi bir kuşsan,
Kərkük xaxma tuşsan.
Yaz güni, səbbəh vaxtı,
Qonışısan ne xoşsan.

Bu diyarda bəslondüv,
Dal istində səsləndüv.
Boynun bäğuv qərədi,
Bilməm nədən yasländuv?

Kişi gidəğ sən durma,
Hiç yerə biğuv burma.
Gərçəksə quluv ollam,
Mənimçin hilə qurma.

Lazımdı quyya ənməğ,
Bal tapüğ qäldı qəyməğ.
İndi kim quyya ənsin,
İstər bunda aldanmağ.

Quyyı da kor bir quyyı,
Nə bab var, nə suyı.
Öz başma gətirdi,
Arvädm bəd baxt xuyı.

Nə emin, nə miskinsən,
Nənəv ölüb diskin sən.
Göq girj,b gileylisən,
Bihnem kimnən küskinsən?

Bir kimsə sənə qiymaz,
Hiç bir quş sənə uymaz.
Su istisən bibivnən,
Bu zähm səsuv duymaz.

Dili küçük yox əli,
Nə gözəl tərbiyəli.
Bu necə bəslenibti?
Bir şeydə yox əməli.

Hərifdedi: «Nədişi?
Mən ərkəgəm, sən dişi.
Bir quyyı bal täpmışam,
İdara edər qışı».

Arvad sevər bal kəyməğ,
İstəməz həpsnı saymağ.
Bir iş əhnnən gəlməz,
Əkməgi bilə yaymağ.

Hərif bir hilə tapar,
Tapınca necə yapar.
Arvad: bir şey tapmışsam,
Mən doldurım sən apar!

Biz türkmamğ, türkmancadı dilimiz,
Məndəlidən Teləfərə elimiz.
Müsülmamğ yücə tanrı helimiz,
Türkmaneh, Türkmaneli yurdumuz.

Qolın biləgin yağlar,
İpi belinə bağlar.

Uzädı ipi salar,
Hat-havar arvad ağlar.

Səs çattal fızzəh cütər,
Quyyımn ağzm tutar.
Ağzı bığäzı qurrur,
Gehtə bir tifrəg utar.

Rəhətcə yedi, işti,
Eyyi yemeğler seşü.
Kef etti^ safa sürdi,
Həftələr günlər geşti.

Kurtar oldum əlinnən,
Vay bu iti dilinnən.
Hakkm kılıcı kəssin.
Bu arvadın befmnən.

Dinne meni kardäşım,
Durmädı gözdə yaşım.
Xut, xut, xut fıska däşı,
Hər yerdən əzdi bişım.

Bir yolçu arvadıynan,
Gidər gevül şädıynan.
Bir köydə qonağ olı,
Ənər äğız dadıynan.

Dərziyə bir mişterı:
«Mənə bir qat tik uyğun».
Dərzi diyər: «Aduv nə?»
Hərif diyər: «Adım Gün».

Ev səhəbı: kanşarlar,
Allah'tan dua diler.
Xoş gəldüvüz şərəfiə,
Sipiri yen sular.

Bir qat tikər çox gözəl,
Hərif girər muntazam.
Qöy doläşım dostlärım,
Göstərib bir-bir gəzəm.

Qızını bəzədmcə,
Epeyyi düzədincə.
Belə kəmər bäğlıyıb,
Boyı uzun bel incə.

Qoyun horız baynasın,
Hərkəs växtın annasın.
Körını dəmə verəğ,
Qoy samavar qəynasin.

Əzyə qıssə, boy yücə,
Nə gün arar, nə gecə.
Sağa sola gəzdiri,
Qızın salı ögıcə.

Kah yolda baynädırığ,
Bah eyyi annädırığ.
Yenşsəğ yerımizə,
Su verrığ dənnədiriğ.

Buna da fäzı olmaz,
Həgbənin yänı dolmaz.
Bir xoruz koy həgbəyə,
Qır boynını basabas.

Arvad gəti qazanı,
Oldı səbbəh azänı.
Bäxım xonz baynamaz,
Arvad axtar tez anı!

Quyyı ağzını tuttu,
Sırrı saxlayıb uttu.
İlannan xəbər bəklər,
Dönüb evinə getti.

Həpimiz kaldıx naçar,
Nəçi, ilan hiç qaçar?
Damadın göndər bizə,
Bəlki ilanı açar!

Dallallar həp çağın,
Hər tərəftən bağırı.
Hərif: «Mən, mən açaram»,
Keftən qarnı ağın!

Nə görsün, pirinc biraz,
İstində böyüg bir kaz.
Döndəri həgbəsinə,
Əkməgilə basabas.

Şah əmr etti damada,
Rəngi öldı tamata.
Damad bilməz nə yapsın?
Sanki durub qamata!

Hər şəy växtında gərək,
Ossa olı ta gərək.
Zıraət səbır istər,
Məvsimində əkərək.

D'änıad mindi trenə,
Üz çeyinri İrana.
Qariımı ucuz sattım,
Gəlmədi, bir qırana.

Dəmir tävunda gərək,
Sıcağ sıcağ dögərək.
Duz əkərsəv nə çixır?
İgid ol sən şəkər ək!

Cinniler toy etmişti
Az kalmış çox getmişti.
Həmən girdim hələyə,
O toy sona yetmişti.

Saqqa bunı diyincə,
Səqqəl uzun biğ; incə.
Bir qörxu aldı özün,
Həppi cinni durunca!

Eyyi çalış bışəsən,
Səmiz olma şişəsən.
Eylığı başa qaxma,
Nə ki, məhcüb düşəsən.

Xorız baynamağ istər,
Qıllığ saynamağ istər.
Ləb demədən ləbləbi,
Diqqət annamağ istər.

Qazan alluv tərinnən,
Sıcağınnan sərinnən.
Haq saxlasın İslamı,
Bunnan da bətərinnən.

O qaz paşa naql oldı,
Kazäriıydan tezvoldı.
Əkməgim tapmışıydım,
Onda bu həgbem doldı!

Damad dedi: Yox məni,
Axtarırı həm səni.
Narnar – Ayiş kurtılıb,
Gəzib Hələb, Yəmərii.

Saqqa dedi, gidərəm,
Bax bu gecə nedərəm.
Dəf zırnapa kefinnən,
Toyı on gün edərəm.

Cinniler diyer pazar,
Təpmələr yeri qazar.
Pazarertəsi hənüz,
Sälı, çerşembe, xemis.

Xəstədı bir iş etməz,
Evdən bazara getməz.
Quläğı ağır olub,
Meytər çassav eşitməz!

Gəlib tə görüştilər,
Bax necə soruştılar.
O havar bu da havar,
Öpüşib barıştılar.

Dərdə ortağ olağın,
Bulanıb göz bulağuv.
Bu hazamankəroldı?
Sənuv həssas qulağıv!

Kər olmuyıb qulağım,
Bulanrnaz göz buliğım.
Boynımda ilanolub,
Həm ayağda, doläğım.

Oğlan dər: kərdı gələn,
Gələn dər: necə yalan?
Mənə dər: babam kərdi,
Baba deər: çoxtı qalan!

Mənjm bu qurnaz oğlum,
İstər ğəmnən boğulum.
Sanki Sultan Məhmudam,
Bu da oluptı toğlum!

Qadm dedi: Bax ağa,
Çürük adamnan sağa.
Nənəyə rəva gönnəz,
Bir dəlli düşsə dağa.

Tükən səhəbı gəldi,
Kilik qıfılə saldı.
Bir şey portlar tükənnən,
Baxıb rənginə dildı!

Rızq ararkən şämına,
Çixti bazar damına.
Bir dəilikten içərj,
Düştü tam öz ğəminə.

Ah boyağçı tükəni,
Bura nəjättı məni?
Yeddi rəng boyağ küpü,
Nə bitər, nə tükəni!

Bir kərq əkməg yapar,
Sağ şoldan rızqın tapar.
Bir tävuğı värıymış,
Onı da çaqqal qapar.

Kərrı bıqtı yäşınnan,
Əqlı getti bäşınnan.
Tavuğım çaqqal qaptı,
Çağırdı dam başınnan.

Qadın gəzər, gəzər də,
Qalabähğ bazarda.
Oğlänı babucıynan,
Kəlləsini əzər də.

Ələm dedi: «Vay nənə,
Bu nə gəlibti. sənə?»
Dedi. də: «Bu oğlımdı,
İtäət etməz mənə.»

Çaqqal dedh «Ey ğəşşiş,
Gözümnən äxıttuv yaş.
Hiç Allahtan korxmısan,
Zalım ğəddär qəlbi daş!»

Yaz, güz bitər qış ölı.
Bir nəcə yiğış olı.
Bunun tükü yəxəni,
Bax nəcə bir iş olı.

Çaqallar zaq-zaq baxar,
Yağış tüküm yəxər.
Bu bizim çaqqaldändı,
Həpsi yerinnən qaxar.

Gettilər gəzə-gəzə,
Yeriştilər mərkəzə.
Bir kumandan otujrıb,
Bənzər keçəl kərkəzə.

Qoy gəssin bir görüşəğ,
Onuydan bir sorışağ.
Nəççə gündi sormıyıb,
Küsmüşiydim barışağ.

Bu nənəv yaşlı nənəv,
Bir aiğır başlı nənəv.
Nə yiğlın sənuvçi
Gözləri yaşlı nənəv.

O pambuğı çıxlrttı,
Yarsını özi sattı.
Yarsını verdı mənə,
Bu mənmçin dəvlətti!

Gettim çırçırçıya da,
Yayan gettim piyada.
Bunun çigidin sixart,
Umrüv ossın ziyada.

Bir tülkü diyər həmən,
Bu qərrı nanca yaman.
O qıyamət günündə,
Dərrüv doldurı saman.

İkki ahbab ahəstə,
Diyərlərdi xoş bəstə.
Birinin xəbəri yox,
Biri düşübti xəstə.

Həmən xəbər alınca,
Səqqəl uzun, biğ incə.
Fidayam ahbäbıma,
Yararam mən ölincə.

Qäpı ögjndə durar,
Həmən qapmı vurar.
Xəstənin qurnaz oğlı,
Zirəg bir nüqtə qurar.

Altmcı ayda, bağlar,
Yıprası qurı dağlar.
Bağlara bostanlara,
Qar ərır, sular çağlar.

Pambuğı attı pam pam,
Zilədi olduğı dam.
Yarsın verdı, əlimə,
Zatən olmıştı axşam.

Düz gettim çirixçiyə,
Dəstəsi buruğçiye.
Bunı əgir çox incə,
Bənzətmə sırıxçıyə.

Yeri get yaxamı sal,
Evuvçin də şəy-mey al.
Dediğim günlər gəlmə,
Näxsı gün gəldisəv gəl!

O hərif bir gün gəldi,
Kürkyny yerə saldı.
«Hanı canbaz, inəgim?»
O gün axşama qäldı.

Canbaz dedi: «Sən dalma,
Yeri get burda qalma.
Mən sənə demədim ki,
Peğəmbər güni gəlmə».

Hərif gəldi başqa gün,
İştə burdadı dügün.
«Hanı canbaz, inəgim?
Hiç görmədjm bir tükyn».

Qaxtım cülhəyə gettim,
Bilmirəm orda nett|m.
Cülhə, bunı bez işlə,
Türlü sözlər eşittim.

Cülhə də bez işlədı,
Həppidən tez işlədi.
Hatta yarsını verdi,
Ürəgimi, şişlədi!

Bilməm güləm ağlıyam,
Mən cigərdən dağlıyam.
Gəzərəm gözlər görməz,
Nəcə çarxa bağlıyam!

Canbaz dedi: «Eyyidi,
On dinar ver səyyidi.
Bir inəg alım faxir,
Bu da vasıl qəyidı».

Hərif: «Nə växıt gəlim?
Hatta inəği ahm.
Bələ etmə ki, canbaz,
Bir ki gün burda qälım».

Canbaz dedi: «Çərşəmbə,
Yox Əli, Cümə, Şəmbə.
Əhəd, Peğəmbər, Salı,
Gəlmə bir töx yım əmbə».

O da vurdu çırçıra,
Mən qaldım dura dura.
Cigidimçıxarttı,
Mənə gəlincə sirə.

Aşşağaya gür, gür gür,
Dedilər: «Hakim bəg, bur!
Kabırğamız əzindi,
Bizi tutsınlar buyur!»

Çopan adı Qədirdi,
Baxtı bir tək çadırdı.
Bizim çoban hardadı?
«Buyur ötur hazırdı.

Əldə qaldı bir dənə,
Verdim bala Həsənə.
Valla nə mənə veri,
Əciz olma, nə sənə!

Kimə edim mən dadı?
Bilmirəm nədı adı.
Mənim kimin nazdara,
Ettirmişsən sən cadı!

İdrar döldurduv börküm,
Çil amanat hörjgjm.
Xısımlərüv annat sən,
Əcəb kimə görüküm?

Yağmurda mərzip axar,
Ancağ yerinnən qaxar.
On çağır, on birində,
Gözləri sənə baxar.

Nə bir pis cismi də var,
Amma bir çox xısmı var.
Hiç birsi sevməz öziin,
Çünkü təmbəl ismi var.

Külxana ataş salm,
Baş aççığ ayağ yalın.
Ərkənnən arvad həmən,
Çəkti Əhmədin əlin.

Gəldi bənnə yämna,
Ataş düştü cämna.
Azcığ bum işlət sən,
Girmə tiflim qanına.

Ey canım, boşa özün,
Bir tombuz çal qır gözin.
Təklə getsin yola vur,
Xılas elə sən özün!

Qahramanın qoyunı,
Kim bili bu oyını.
Qahraman qoyunälı,
Çopan tutar toyunı.

Sağı, solı çox gəzər,
Yüz dənə qoyun düzər.
Hatta bir çoban tapar,
Camnnan ölı bezar.

Bunı verj çopana,
Qoyyn gidər yabana.
İl dönər görməğ istər,
Qüvvət ven dabbana.

Avçıdan av qapmışam,
Amma nəcə yapmışam.
Gəl gidər bu hamama,
Sənə bir iş tapmışam.

Dəxil ya Onki jmam,
Yeri bulağ bir hamam.
Əhməd, külxan yandırsm,
İşimiz olı tamam!

Dam kölgəsində yatar,
Kilav qurşlğm atar,
Dərti ona rast etsə,
Dərdinə yüz dərd qatar.

Diyərdüv mən gämışam,
Bax diyəsən qəmişəm,
Bu uzun aylar geşti,
Hələ ev görməmişəm.

Əhməd dedi: Nə işi?
Nə yaz billəm, nə qışı.
Çöllərdə bin hayvan var,
Həm ərkəgdi, həm dişi.

Tasadüfən ki xerxiz,
Biri-birinnən yersiz.
Gəl-gələ bu həv üşə,
Ev bulardan oğrusız.

Yalan yerdə yiğlədi,
Can cigərin dağlidı.
Tez ki, axur yaptırdı,
Əşşəginı bağlädı.

Haqaldıyam sən tını,
Filan! Yağ, pirinç hanı?
Haqvermez inkar ədər,
Haqildı, araçlanı!

İslamkən oldum gavur,
İç ayran, sibil sivur.
Bir qoyun bağlanıptı,
Boynmda var qanqavur.

Bir qurt, fərq edər dağda,
Bir at yiymı bağda.
Belə səmmiz, qaz kimin,
Sanki qızarıb yağda.

Qurt göz aştı qoyun yox,
Acı, Allah edər tox.
Bir geçi gördi həmən,
Qoy az ossın, nədi çox?

Buyyr gedin sağlığdan,
Çox bili bənnəhxtən.
Axşamlar əlimə ver,
Özünı gündəliğdən.

İkki xerxız durublar,
Bıraz para vur^blar.
Paranı bölməğ için,
Zərzəmiyə giriplər.

Yiğlə bığazdan qut qut,
Gəh tə bir tıfrəgiy ut.
Zərzəminın qapısın,
Daş, çämurdan eyyi tut.

Daha fazla yiğlərem,
Cigərjrm dağlaram.
Əşşəg qodığ doğarsa,
Bu axurda bağlaram!

Havadan bir quş uştı,
Səncə bir böyüg suçtı.
Doqzan qoyun ölüptı,
Yerinde qalan qoçtı!

Rızq oldı mənə qəhət,
Nə şembə var, nə əhəd.
Qoyun, sizi yəcəğəm!
Sulh elə ye də rəhet.

Geçi diyər: «Nə suçum?
Qibildi gögə uçum.
Məni yesəv nə öh?
Tük, dərri qurı qıçım».

Tülkü dedi: «Eyyi, nə var!
Nəççə şahad desəv var».
Tülkü getti dağlara,
Dərə-təppə ğar qavar.

Topal qoyunla köppəg,
Tükləri bəyaz ipəg.
Gidəllor yayılmağa,
Vafalıyla sünü pək.

Tülkü bir qurtı täptı,
Bir eyyi hilə yäptı.
Gəl sən aıd iç, bir av var,
Qurtı bir təməh qaptı.

Köppəg dedi qoyuna,
Qoyum baxtı boyma.
«Gedirəm su içməğe,
Aldanma sən oyına!»

Qurttan tülkü gəlincə,
Köppəg bahsi älmca.
Girdi tikan altma,
Qoyuna annadınca.

Qurt öturı dizjstə,
Dinnədiği söz istə.
At, bir cüt təpmə vurar,
Baş kätıba mez istə!

Qurtan tülkü yerişti,
Uzaxtan yemind işti.
Qoyun dedi: «Qəbl olmaz,
Bu yemind məncə hiçti!»

Qurt baymmışkən, qaxar,
Diliydən gözün yəxər.
İkki qoyun fərq edib,
Dəvə edəllər, baxar!

Yağlı luqma burmağın,
Kef safanı sürməğın.
Yoxsulların üzünə,
Köppəg kimin hürməğin.

Yerı daş, üstü ataş,
Diyər: Yandım arxadaş,
Təndir kimın halavlar,
O diyincə ax yavaş!

Ağ cigərun oyuna,
Kim dərdimə dayana?
On qısrağ atlısıydım,
Qalmışam mən yayana!

Bağ bağçamız bärlıdı,
Babam nənəm värlıdı.
Bu dəvran nəcə dönsə,
Zəngin olan kärlıdı.

Dərtliyəm dərmənçiyəm,
Bəmbəyaz ağ säçlıyam.
Dört hamam səhəbiykən,
Mən bugün külxançıyam!

Biz biziğ, qalan kimdı?
Qarnımız qat qat pimdı.
Kesrımız, girişimiz,
Ən son çixən biçimdı.

Cadıkar dili ustura,
Ələvdən gedjym hara?
Hiç qorxmısan Allah'tan,
Bühtənçi üzü qərə.

Güllərdə təkti, qonca,
Düz qaxar boyda yonca.
Pək sütym halal lukmam,
Gözüv kor etsin ögcə.

Biziğ Xasanın daşı,
Azdı bizlərdə näşı,
Xayının o mon gözy,
Bizə baxsa qamäşı.

Küçyk, böyüg bir olağ.
İpin ucyn biz bulağ.
Düşman bizə gülməsin,
Verirsə bizə qulağ.

Ay dolanıb, yarıdı,
Gün batıptı sarıdı.
Bu dünyə, ələm bili,
Türkman, Kərkük eridi!

İbrət al geçmiş günnen,
Kor dügün dügününnən.
Ayağ at gərı qalma,
Sən səvrə bölüginnən.

Yoxsul gözlər ac olı,
Ceb^boş qıssə qolı.
Bizə həsüttyğ edər,
Görsə evümiz dolı.

Mən oynaram mal ardı,
Gün gidər gəlmez ardı.
Ələmə şans dost olub,
Mənə nəgbəthğ yärdı.

Diyər oğlum ələv tut,
Sən təkiydüv olduv cüt.
Var yoxuv daşa çalma,
Eşüv çaqqal, özüv qurt.

Qoy bunı burda qoyağ,
Ağ girəğ, qərə soyağ.
Bu dedi – qoduları,
Kəsəğ kökünnən oyağ!

Suqaqta bilməm nə var,
Sen insansan, ya davar?
Qoxhsan siyan arxı,
Olubsan bir cənəvar!

Ələmin al-verini,
Hiç deməzlər xerini.
Gündə bir kitab olı,
Yazsam zəbər zerini!

İş iştən geçmiş ola,
Zincir taxıldı qola.
Üz üstə sürükləndj,
Gider bir gəlməz yola.

Bu millət nə millətti,
Dili, həpsin birlətti.
Oxı ata sözünı,
Hər biri bir hikmətti.

Gəlin sorağ bu qızdən,
Peçəsi yandı üzden.
«Bacım, xerdi gəlibsən,
Bura gəldüv nə üzdən?»

Sən özüvı ağır tut,
Bir ki həkət nöh, ut!
Xoş dilə hər kəs qanar,
Yedirsələr balamurt.

Sevə sevə aldılar,
Dəf dümbələg çaldılar.
Qırx günüı gəliniyəm,
Cigərimi dəldilər!

Ev gülsün, uşağ gülsün,
Yiğliyən, gözün silsin.
Hər şey eylixtən xoştı,
Bilmiyən bunı bilsin.

O birsi bäşı bəlli,
Nə əqqıldı nə dəlli.
Gün olı əkməg tapmaz,
Məəşiysə yüz əlli.

Ağladıram güldirrəm,
Bilmiyənə bildirrəm.
Atlını yayan edər,
Yayanları mindirrəm!

İçəndə əqli kalmaz,
Laf atar həkət almaz.
Olı bir Əbucasim,
Əlin piçağdan salmaz!

Eşidin arxadaşlar,
Qəlbi dolı çim daşlar.
Xəsis, zəngin cəzlsı,
İlk ögcə bardan başlar?

Para geşti hıssaba,
Yazıldı bir kitaba.
Filan xan gəlməmişti,
Yarın baxsın itəbə.

On dinar qız nənəsi,
Yarım dinar həbəsi.
Nənəm də on beş dinar,
Bir lerə də ətəsi.

Bu iştə var bir hikmət,
Yazılan olur qısmət.
Alımdaki bozılmaz,
Kimsədən bilməm minnət.

Həbib adlı bir nəccar,
Gecə-gündüz xulqı dar.
Diyər: «Ey gözəl Allah,
Mənnən təlisiz kim var?»

Zaman geşti. aradan,
Həlvə biti, qoradan.
Əndirdi rəhmətini
Yerı-gögi yaradan.

Dedi: «Adam bəsti qax,
Bu vergiyə sən bir bax.
Bu isə bir hal edəğ,
Nə qonşı bilsin, nə xax!»

Vucdan görmədim onda,
Qalmaı çara məndə.
Qaprya çigin vurdım,
İçərı girdim sonda.

Baş aççığ ayağ yalın,
Pərdədən çixıb gəlin.
Biği burma ərkəklər,
Sözümnən ibrət alın!

Paşa bildi bu işi,
Ağardı ottuz dişi.
Çağırtırdı Həbib'i,
Dedi: Eşid ey kişi!

Mən billəm, mənə noldı.,
Gülym çiçəgim söldı.
Bylbyllər hürkər mənnən,
Dört yänım bugün çöldi.

Eşid bu çamur bäşı,
Əllidən çoxtı yaşı.
Girdiği, ləngə cəkət,
Təkəşərdi kalaşı.

Ağzmda cığaräsı,
Altında qamaräsı.
Täxıb vinos gözhğı,
Ayna kimin çəhrəsi.

Bilməm sənnən nə getti,
Gelinüv sənə nettj,
Şirin imşağ dilüvü,
Kirn bələ sümüg etti?

Yaxlaştım biraz ona,
Hayasız gözy mona.
Dedim qardaş yazıxtı,
Arvad sənnən boşana.

Nə mey iştuv, nə şarab,
Xuyuv olıb çox xarab.
Sözləruvun dəngiyəm,
Nə duşmansan, nə ahbab.

Qonum-qonşu, aqraba,
Sənnən görmüşti cəba.
Kimmə qat-qat biçtüv,
Kimınə verduv aba.

Bülbül kimnı saynısan,
Xorız kimin baynısan.
Biimirəm nə səbəbdən,
Gəlinüvdən qəynisən.

Altun xıcıl qazmalı,
Burnyv pirüze xizməli.
Altun boyun,bağ istən,
İnci, yaqut düzməli.

Nə kərvan, nə kərvançı,
Nə sayıs var, nə xançı.
Cift hayvanlar yerinə,
Mekinə var, cütkarçı!

Nə manqala, nə maşa,
Peştəmal örtmə başa.
İncanalar başında,
Getti umrüv bəlesə.

Bıraxın özüm bilim,.
Göz yaşım hüsküt silim.
Üzərımde yorğan yox,
Altımda əski kilim.

Alma, sarma qul oldum,
Qəm yeməxtən kül oldum.
Ələm kefdə, səfala,
Mənsəm diri dul oldum.

Kimın kimə xeri var,
Sözlərimın yeri var.
Oxı qardaş, yazımı,
Həm zobər, həm zeri var.

Bir yannan qəyin qızı,
Yandırıb qoyıb bizi.
Qəyin nənə olmasa,
Yayılı qurttan quzı.

Nə cülhə var, nə bezi,
Nə təndir var, nə tozı.
Günortalığ ardınnan,
Yevun almaydan mozı.

Adam olduv sən bugün,
Edildi sənə dügün.
Babavun borcın ödə,
Yaşasın rəhət ki gün.

Çaxma zubun mav sıxmə,
Al boyağ gözə sixmə.
Dərmənçilər əlinnen,
Sakm öz evüy yixrnə.

Əməgi boş getməsin,
Əlüvdən of etməsin.
Nəsüt, köti kimsələr,
Koy mıraza yetməsin.

Niqabədən yüz aldı,
Yüz də ruhunnan aldı.
Beş yüzün nuqsanlığı,
Silfə zəvacə qaldı!

Safi ayhğı qırxtı,
Sjjfələr əvin yıxti.
Cebində girmi dinar,
Mühäsib yanınnan çıxı.

Ey nənələr, babalar,
Biği burma qocalar.
Siz arvad boşamävun,
Baştan ğiryet çabalar.

Çara yoxtı bu hala,
Mix çaxılıptı nala.
At qaştı torba düştü,
Bez diyiliptı şala!

Qalmadı kihm, keçə,
Umürler getti, hiçə.
Cift abalar yerinə,
Xanımlar girməz peçə.

Üçə böldi qalanı,
Sizə deməm yalänı.
Qəssələydən səlləcə,
Bir də qabul talänı!

Adın qoyub zampara,
Qoynında yox beş para.
Şərəfinə and edib,
Əlin vurmaz işkara.

Gözgə gözüm kaldırram,
Yücə dağı yändırram.
Miskinəm kimsəsizəm,
Şahı taxttan əndirrəm.

Gəhtə bir kärm toxtı,
Cebində filis yöxtı.
Bunun kimın nanəcib,
Əmsalı bugün çoxtı.

Mevədə hissab yöxtı,
Alma, armuttan çoxtı.
Qoy yesin mısafirlər,
Xanımın gözü toxtı.

Bu bülüz hardan, sorın?
Qimaşın eyyi görün.
Bu, çarşıda bulunmaz,
Bin özözvüzi yorun.

Salamı yizdım sizə,
Cəvabın yazm bizə.
Vucdanlı olan bir ər,
Darılmaz doğru sözə.

Bir iş buldı tülingi,
Xurdalanmış sümügi.
Aradan ki il geşti,
Çocık birdi oldı, ki!

Qız gəldi evə gəlin,
Gördi adamın halın.
Bir qıssə kömleg girib,
Baş aççığ ayağ yalın.

Dör, xəznə, qərə dirək
Gəlin, işində zirək.
Yağsız yeməğ yeməxtən,
Nə ah qäldı, nə ürəg.

Zərər çixər mayadan,
Namus gəli hayadan.
Ash namərd olanın,
Yel nə görər qəyyədən.

Aç gözlərüv bax ögə,
Adım at dögə dögə.
Bu millət səni bəklər,
Sən qaldır başın gögə!

Damjstə bir doläştı,
Qaş-göz etti səläşti.
Bu utanmaz yarımda,
Namus, haya bələşti.

Nənəsi bilməzonı,
Çox bilən gözy monı.
Arxadaş, sən dur bəklə,
Nə olı bunun sonu.

Pullar masänı dögər,
Utuzan boym əger.
Çaylar günnüğ çayıysa,
Çayçı qəlbində sögər.

Darılmavun sözümnən,
Bahahsız gözümnən.
Sizi bu halda gördüm,
Əzildim mən özümnən.

Ki batman pirinc aldı,
Bir quzu yerə çäldı.
Bir yük bamya tamata,
Doğradı, bişməğ qaldı.

Xanını yuxudan qaxar,
Pəncərədən bir baxar.
Ogcə taxım vurıptı,
Üzünnən kirşan axar.

Ağacı bağvan əkər,
Dögməni dingçi dögər.
Uşağ çağdan qızmı,
Nənə ögrətsin məgər.

Əldə virdı çomiğı,
Toplardı yüngi, yağı.
Çopänma verirdi,
Devədən bir gulağı.

Açıldı bäğlı gözlər,
Qırıldı o pük gozlar.
Daha gulağ əşitməz,
O yalan-palan sözlər.

Bəzirgən, bəsti yazma,
İgnəydən quyyı kazma.
Nə ah qalıb, nə ürəg,
Sən de yehgiştən əzmə!

Bülbül qondı dalına,
Baxtı qonca halına.
Bağ gülər bağvanıydan,
Bax ağzının balına.

Bu torpağ həp bizimdi,
Babam yolı izimdı.
Can verməğ yurd oğrıca,
İştə bu gün luzumdı.

Yurdu, parlatmağ lazım,
Sən demə nəmə lazım.
Bu oğurda şəhid ol,
Səni tərixə yäzım.

Qurt çeyrildi ləllügə,
Canı döndü həllügə.
Əzdilər ağaşlardan,
Attılar bir küllügə!

Quzu getti gəlmədi,
Qurtun sabrı qalmädı.
Acınnan oldı hilal,
Gənə avun almädı!

Bir ip vardı boynımda,
Dəhşət vardı oynımda.
Ücün bağla boynuva,
Buhmısan qoynımda.

Dedim sənə gəl getmə,
Yalannan yemind etmə.
Tülkü fırladı qaştı,
Eyyi bax niyətimə.

Qurt düştü öz vayına,
Saz, tambura, nayına.
Uzaxta siğir gördi,
Əndi köyin çayına.

Quzu dedi:«Nə sözüm,
Bir hoqqa olmam özüm.
Ətim əcci yeyinməz,
Olmasa biraz duzum!»

Dur siğır həmən getmə,
Hiç bu yan, o yan etmə.
Məni çox aldattılar,
Mənə çok, təpmə atma!

Qurt dedi: «Duz nərədə?
Avum aldım dərədə.
Olursam köy ağası,
Yərəm pendir, kərə də.»

Bir gün köylünin biri,
Ölmüşkən oldı dirri.
Cift, ekini çoxlaştı,
Hayvanlar xurda, irri.

Yolçıyam dög xarmänı,
Gəlincəm dart yarmänı.
Gidim Bağdada, dönüm,
Ahm ıştah dərməni!

Qoyun dedi dərədə:
«İkimz bir arada.
Şahad gəti sən gəl ye,
Həm süt ye, həm kərə də.

Tülkü dedi: «Eyyı bax!»
Qurt dedi: «Ey qurrımsağ,
Qocav, babavun mülkü,
Ey kəlləsi boş qabağ!»

LÜĞƏT

Tədqiqatçılar üçün gərəkli olacağını nəzərə alaraq İraq–türkman dialekti üçün səciyyəvi olan sözlərin lüğətini burada verməyi münasib bildik. Onu da bilmək maraqlıdır ki, İraq–türkman dialektinin bu və ya digər şivəsi üçün işlək olan yalnız bu sözlər onu müasir Azərbaycan ədəbi dilinin leksikasından fərqləndirir. Milli Elmlər Akademiyamızın Dilçilik İnstitutunda «İraq–türkman ləhcəsi» (Bakı, «Elm», 2004, 422 səh.) kitabı üzərində işləyərkən əsərin «Lüğət» bölümünü f.e.n. Kübra Quliyeva ilə işləmişdim. Lakin sonralar əldə etdiyim Həbib Hürmüzlünün «Kerküк türkcesi sözlüğü»ndən (İstanbul, Kerkük vakfı, 2003, 383 səh.) və başqa əsərlərdən bəhrələnərək lüğət üzərində yenidən işlədim. Onu da deyim ki, İraq–türkman ləhcəsində işlənən sözlərin bəzisinə Azərbaycan dilinin başqa dialekt və şivələrində də təsadüf edilir. Bundan başqa, ədəbi dilimizdə işlənən bəzi sözlərə də İraq–türkman ləhcəsinin bu və ya digər şivəsində rast gəlinir. Odur ki, Azərbaycan ədəbi dilində işlək olan belə sözlər İraq–türkman ləhcəsində müəyyən bir şivədə, konkret məkanda işləndiyindən onları verməyi lazım bildik. Məsələn: nişanlamağ (Tel.) – bax adaxlamağ; bacı (T.X.) – bax abla; çörək (Car., Tel.) – bax əkmək; qaranquş (Tel.) bax qallanquç. İraq–türkman ləhcəsində sinonim olan sözləri də bu yolla verdik: Məsələn: küncüt bax simsim; qaşınma bax gidişmə; qaysı bax ərük və s.

- A -

abdal – divanə adam, sərsəri, abdal, tərki-dünya adam

abdal börkü – yağış yağarkən əmələ gələn qabarcıq

abe // abi – böyük qardaş. – Qalanları fərq etməz, yəni məmləkətin hər yanında birdi: məsələn, qardaş, abe və ya abi.

abla (K.) – böyük bacı

abraj (Tel.) – çox sağlam insan

acılamağ – incitmək. – Bal arısı da çalarkən acılar.

acı söz (Tel.) – bax: əcci həkat

aççığ – açıq

açılmağ – ürəyini açmaq

adağ – 1. gəlin üçün aparılan hədiyyə;
2. pay (xörək)
– Həm adağdan, həm budağdan olduğ

adaxlamağ – nişanlamaq, adaxlamaq

adaməkə – adam, insan

afiyət olsun – nuş olsun!

ağ – tor

ağır basmağ – 1. güclü olmaq; 2. qələbə qazanmaq

ağırbaşlı – 1. ciddi; 2. təvazökar; 3. təmkinli; 4. savadlı; kübar, ağıllı, şəxsiyyətli

ağırına getməğ – acığına gəlmək

ağırlamağ – hörmət göstərmək

ağırtmağ – ağrıtmaq

ağız suyu (Tel.) – bax likav

ahbab (ə.) – dost, tanış.
İkki ahbab ahəstə
Diyərlərdi xoş bəstə
Birinin xəbəri yox
Biri düşübti xəstə.

axça – pul. – Ağ axça qara günçündü; – İnsafsız, yalnız belimdəki peştamal əlli axça edər.

axırşər – bədbəxt, talesiz. – Sənin axırşər nənəv, Yatmaz, yatmaz kor olu.

axırışər – 1. utanmaz, həyasız; 2. pozğun; 3. işini bilməyən

al//an – hal (mifoloji mənada); al aparmağ – hal aparmaq

alaca – əldə toxunan şal

alazlamağ – yayda günəş şüasının hər şeyi soldurması

albağ – baş örtüyü

aldağ – aldadıcı, aldadan

aldağ dil – aldadıcı dil

aldırmağ – əhəmiyyət vermək, fikir vermək

ali // əli – cümə axşamı. – Əli günü günortadan sonra gəldilər gəlini bəzətməğə.

allaf (ə.) – arpa, buğda taciri. – Allaf buğda taciridi.

allı – alın

allibağ (T. X.) – bax: albağ

alluça//aluç (Tel.) – alınça

amac – məqsəd

amana // bas – avtobus. – Bir köylü gəli Bağdada, görürü ikiqatlı amana gediri.

anaxtar (t.) – açar. – Anaxtar yar qoynunda, Könlüm buxovlu qaldı.

anayasa (t.) – konstitusiya

annışlı//annayışlı – ağıllı, anlayışlı

antarı – uzunqollu paltar

araçı – vasitəçi, aradüzəldən. – Zülfüv üzə dəyəndə, olaydım araçı mən

araçlanmağ – ayrılmaq
ara köpəgi – araqatan
arıldamağ – anqırmaq. – Nə arıldısan əşəg kimin.
arav – yarı kirli, sabunlu paltar suyu
arxadaş – yoldaş. – Bəzi köylərdə toy gününün sabahı kürəkəni arxadaşları iplə bir yerə bağlar və zarafatla onu vurarlarmış.
arı (Səl., Tel.) – bax pək
armağan – hədiyyə
arnavud – arsız, həyasız. – Arnavuda dedilər: – Cənnətə gedəsən? Dedi: – Aylığ nəğərtədi?
ası qalmağ – pərçim olub qalmaq
aspap girməğ – paltar geymək
aş – yemək. – Qonşudan aş gəldiysə, öncə sən yemə, gəlin.
aşçı – aşbaz
atə – bibi. – Atə, atə bu tikanı çıxart ayağımnan
atış – vuruş
atlı qarınça – toylarda göstərilən səhnəcik
avcar (Tel.) – bax havcar
avcə (Tel.) – dalan
ayağyolu – bax ədəbxana
ayar etməğ – 1. şitilləri əkməkdən əvvəl torpağı sulamaq
ayarlamağ – 1. düzəltmək, 2. yoxlamaq; 3. tərəzidə çəkmək
aydın – 1. işıqlı; 2. ziyalı; 3. gözaydınlığı.

aydırmağ//aynatmağ – demək, anlatmaq, xəbərdar etmək

ayxırmağ// /ayxırlamağ (Tel.) – 1. acılamaq; tərsinə etmək

aynamaz – qanmaz, anlamaz

aynışlı – anlayan, başa düşən

- B -

baba – ata

babız etməğ – barmaqlamaq

babuc – ayaqqabı

Allah bir yağış elə,
Dam-divarı yaş elə,
Paşa qızı keçəndə
Babucını yaş elə.

bacağ – ayaq. – Qoyun öz bacağınnan asılı.

bacı (T.X.) – bax abla

badava // bətava// bələş// parasız – pulsuz, müftə. – Badava arağı molla da içər.

Bağdat qatı//Bağdat yarası – zəhərli cücünün sancması nəticəsində ömürlük üzdə qalan yara

bağ tavuğı – qara quş

bağırdağ – beşik bağı. – Bağırdağ saçaqları, Gözümə dalda durdu.

bağış – bəxşiş. – Çəmçələ qızım yağışdır, Hər gələnə bağışdır.

bağwan – bağban

bakla – qadın paltarı geymiş kişi. – Əski vaxtlar toyda bakla olardı.

balamurt (t.) – bağa yarpağı
balx – ərp
bamiyə – lobyaya oxşayan paxlalı bitki
bar – ov quşu, bir şeyin həvəskarı, azarkeşi
barallah – avara, sərsəri
barat – namə, kağız. – Baratım nalımın içinə yazılıb.
baray (f.) – razılıq
bardağ – piyalə, badə, stəkan. – Əlində var bardağı, Doldurubdu gül yağı.
barmaxlığ – barmaxlıq, şəbəkə, məhəccər
basrığ – paltar tikiləndən sonra parçanın artıq qalan hissəsi
baş vurmağ – baş çəkmək. – Getmişdiy şah yanına, Hanı baş vuran, Qənbər.
başa sürmək – davam etmək. – Qara günlər il olsa, Başa sürməz, bitəndi.
başarı – müvəffəqiyyət, uğur
başarmağ – bacarmaq
başaşağı – eniş
başçəkən – başçı, lider
başetməğ – paltarı carramaq
başısavuğ – heç nə üçün narahat olmayan, laqeyd. – Hamı gedənlər döndü, dönmədi başi savuğ.
başı sıcağ – hirsli, tez özündən çıxan
baş kölgəsi – himayədar, tək ümid yeri olan kimsə
baş qavmağ – kəhrizin üzdə olan arxını uzatmaq

baştutan – bax başçəkən

bat – bəsdir, kifayətdir (qumar oyununda işlənir)

bataniyyə – yorğan, adyal. – Molla bataniyyəyə çulğanıb çıxdı.

bavğuş – bayquş

bayar – əkilməmiş tarla.
Sinəmi bayar görüb
Cüt qoşub qəm əkiri.

bayaz qarğa – sağsağan

baynamağ// – banlamaq. – Xoruz
bannamağ (Ər.) baynamazsa da, sabah olur.

bayram aşı – quru qaysı ilə hazırlanan plov. – Bayram sabahı erkən-erkən «Bayram aşı» bişirilirmiş.

baz – ov quşu. – Qaz qazdan, baz bazdan.

bazbənd – dini adamlara verilən, qurandan ayələr yazılmış qolbaq formasında bir şey. Qola taxırlar.

bazı – ayaqlı

beçə – 1. 12–14 yaşlı oğlan uşağı, bala; beçə

begir – erkək at. – Biz köydən gedərix şəhrə əşəkdən, qatırdan, bəgirdən.

bekar – subay

beləkən – soğan, dombalan və s. çıxartmaq üçün işlədilən sapı ağac, ucu dəmir alət, alakeş

beşdəmir – kotan
bewiç (Ər.) – böyük bacı
bəddua – qarğış
bədəl – əvəz, qarşılıq
bəg – oyunda başçı. – Hansı ögdəysə, ona deyəllər bəg.
bəgardı – oyunda bəydən sonra olan adam
bəxil (Tel.) – bax rəzil
bəkçi – gözətçi, qarovulçu. – Əskidən bizdə olardı xizməkar, koxa, bəkçi, yəni gözətçi.
bəkləməğ – 1. gözləmək; 2. qarovulunu çəkmək. – Oyaq qallam yatınca, Bəklərəm ay batınca (qarovulunu çəkmək); Baş yasduğda, göz yolda bəklər kimsəsi gəlməz. (gözləmək)
bələş – müftə, havayı
bəlli – 1. müəyyən; 2. məlum, bəlli. – Məmləkət əhli bəlli yerdə yığışardı.
bənna – bax irgat
bərqiyə (ə.) – 1. teleqram; 2. poçta; 3. teleqraf
bərxudar olmağ – xoşbəxt olmaq, ömrü uzun olmaq
bərtil//bartil (Tel., Bəş.) – rüşvət
bəşər – insan. – Bəşər sığır dəgi bir donda qalsın.
bətaqə (ə.) – bilet. – On beş fils (qəpik) verər bir bətaqə kəsər.
bəyazdarrı – qarğıdalı

bəynadam – insan. – Heyvan qoxlaşa-qoxlaşa, bəynadam yaxlaşa-yaxlaşa tanışır.

bəzbənd – nəzərə qarşı uşağın qoluna taxılan qolbağ

bəzirgən – parça taciri. – Əvvəl bəzirganıydı, saqız satan oldu.

bəzzaz (ə.) – parça satan. – Bəzzaz parça taciridi.

bibi (Ər.) – nənə

bibisu – qumru. – İndi Kərkük dolaylarında həm Bibisu, həm də Azərbaycanda olduğu kimi, qumru quşu kimi tanınan quş vardır.

biçim – forma, biçim. – Bu gün imkanı olan başqa biçim evlər qurur.

biçimsiz – çirkin. – Adaxlı biçimsiz olsa, «Özü bir erkəkdir» – deyirlər.

biçin quşı – bildirçin

biqməğ – bezmək, usanmaq.
Qərri biqti yaşınnan
Əqli getdi başınnan.

bildirçin – bax biçin quşi

biləkli könək – uzunqol köynək

biləksiz könək – qolsuz köynək

biləzig – bilərzik

bilxasa – bilavasitə

bin – min

binə bağlamağ – kök salmaq. – Bu dövran belə getsə, Dərd məndə binə bağlar.

bir baqqa//bir bağlam – 1. bir çəngə; 2. bir qədər. – Nənəsi Arzının saçını çəngələdi, bir baqqa qopartdı (bir çəngə); Arvad qaxdı, sütünnən bir bağa sağdı (bir qədər).

bir dəmir – bir dəfə əkilən (şumlanan) tarla

bir qəflə//bir qafla (ə.) – çox, lap çox

birlətməğ – birləşdirmək

bişmək – 1. bişmək; 2. yetişmək. – Tut bişər, özü düşər; Bişmiş aşa savuq su tökür (Atalar sözü)

bluz – yun köynək

boğmaca – boğma (yoluxucu boğaz xəstəliyi), difteriya

boğanağ – 1. boğanağ; 2. qarışıq rəngli

bol – 1. fahişə, qəhbə; 2. bol

bor//boraz – xam (torpaq, qumaş və s.)

borı//boru – şeypur

boş (Tel.) – bax pük

boyama – çalma. – Bibi işdən əl-ətək çəkmiş, başındakı qara boyamanın üstünə bir də namaz bezi örtmüşdür.

bozulmağ – pozulmaq

bölgə – zona, rayon, bölgə. – Bəzi bölgələrdə yas (təziyə) yeddi gün davam edir.

böyük baba – baba. – Oğlum, böyük babandan sor.

böyyük (Daq.) – bax bewic

böyük qoca – ulu baba

böyük nənə – nənə
buba (Çar., Tel.) – bax baba
budamağ – döymək, vurmaq
buxçı//buxçu – bıçqı, mişar
buqağ – buxaq
bulamac – un şorbası, umac. – Ac qarına bulamac nə edər?
bulmaca – tapmaca
bulmağ – tapmaq. – Dünyanı çərx eylədim, Bulmadım eşqə çarə.
bulunmağ – olmaq, yerləşmək. – Qadınlar tərəfindən düzənlənən yasda yas başlayan peşəkar qadın bulunur.
burğu – drel, burğu. – Qəyaçı üçün aşağıdakı nəsnələr vacibdir: top, meydan, küskü, burğu və s.
burğul – yarma. – Biz keşkənək, burğul, mərcimək yiyərix.
buruğ – dizenteriya. – Birisi qan oturarsa, buna «buruğ» deyərix.
büdrəməğ – bax toqışmağ

- C -

cadda – prospekt, küçə
cağat – cüt, qoşa. – İki kərə asqırıllarsa, çağat gəldi, xeyirlidir – deyirlər.
cahaz – cehiz
cahil – cavan. – İxtiyara varan quyruq yeyər, cahilə varan yumruq.

cam (ə.) – Şüşə
camadanı – kişi baş geyiminin üstündən bağlanılan sarıq
came – əscid. – Para mollanı camedən çıxarar.
cambaz – heyvan dəllalı
camus – camış. – Camus dərisi bir gün suya buraxılırdı.
canbaz – kəndirbaz. – İki canbaz bir ipdə oynamaz.
cancar – vəl
carığ//əl carığı – buyruqçu; köməkçi
carış – xəbərçi, car çəkən
caymağ – usanmaq, vaz keçmək
ceba – cəhd, qeyrət, yaxşılıq
cəncər (T.X.) – bax cancar
cərrə // şu şərbəsi – su qabı, cürdək. – Bir küp qırılınca, yüz cərrə qırılar.
cığara – siqaret. – Cığara içməz, araq içməz, qumar oynamaz.
cığara içməğ – papiros çəkmək
cılğı – keçi dərisi. – Kosa üzünü qaralar, cılğı geyərdi.
cıvıldamağ // cızıldamağ – səs salmaq. – Qulaq civildərsə, qeybətinin edildiyinə inanırlar.
cımrığ (Ər.) – bax zımrıq
cızlağ – bax dıznağ
cihaz//cahaz (Ər.) – cehiz
cirbil//curbul – şorba
cibillət – nəsil, əsil-nəsəb. – Özü nədi, cibilləti nə olsun.

cift – cüt, qoşa. – Cift əbəli dostum, Bənzisən ceyrana.
ciftə – noxta
ciğab – cavab
cingənə – 1. əslsiz; 2. qaraçı. – Ağacdan maşa olmaz, cingənədən paşa.
cirit – cıdır
cisir (ə.) – körpü
coq – buynuz
comard – əliaçıq, comərd
cumbut – tumurcuq; qönçə. – Qənifil cumbutu tək, Gündə yuz rəng olasan.
cuvan – gənc, gözəl (qız, oğlan)
cülhə – 1. yağış suyu yığılan yer, 2. toxucu. – Cülhəyəm bez işlərəm, Hamıdan tez işlərəm.
cürrə//curra – zəif, cılız
cütər-cütər – iki-iki
cütkar//cütçü – cütçü
cütləmə (Tuz.) – bax zırpara

- Ç -

çabuğ – tez, tələsik, ləngimədən
çağırıcı – müğənni, səs sənətkarı
çaxar//sancı – sancı, şiddətli ağrı
çaxma – rəngli saplarla işlənmiş tikmə, naxış
çaxmur göz – ala göz
çaqaçaq – səs-küylə mənasız yerə dartışma

çaqçaqa – çax-çax. – Dəgirman işin görər, çaqçaqa baş ağrıdı.
çaqıl – çınqıl
çaqır tikan – qaratikan. – Yorganın çaqır tikan, döşəgin çin baş olsun.
çaqla – çaş
çaqlam (Tuz.) – bax şaqlam
çaldırma – soyuqdan əsmək
çamır dəvə – boy-buxunlu, lakin qorxaq adam
çamır//çamur – palçıq, çamur
çapacağ (K.) – bax tavırdaş
çapxın – əl çalmaq, alqışlamaq, çəpik çalma; çapxın çalmağ – alqışlamaq, əl çalmaq, çəpik çalmaq
çapığ – tez, tələsik
çapla (Ər.) – bax çapxın
çar // çarə – çarə.– Kimsə bilməz yoxa çar.
çarx etməğ – dolaşmaq, hər yanı gəzmək. Bazarı çarx ettim, istədiğimi tapmadım
çarı – baş yaylığı. – Başında çarı neynim, Kənarı sarı neynim.
çar-naçar – istər-istəməz
çarpara – rəqs zamanı barmaqlara taxılıb çalınan cüt pullar. – Qaşın, gözün çarpara, Sevmişəm olmaz çara.
çarpazlığ – çəplik
çarşı – 1. üstü örtülü bazar; 2. məzarın örtüyü

çaşur-çuşur etməğ – çaşbaş salmaq
çatal (Tel.) – bax quşvuran
çatallaşmağ – haçalanmaq
çatlanquç – 1. qığılcım; 2. şimşək. – Dəmirçi dükanı önündən keçən çatlanquş yeyər.
çattal – bozuq çıxan səs. Səsim çattallaşıb. Səsim kallaşıb
çavir – bax şavir
çay – böyük arx
çayxana quşu – vaxtının çoxunu çayxanada keçirən adam
çayır – çəmənlik
çeşt vaxtı – səhərlə günorta arası
çevirkə – çəyirdək
çəffiyə (ə.) – baş örtüyü
çəhrə – çöhrə, üz, sifət
çəkət – kişilər üçün xalat
çəllük-çubuq – çilingağacı. – Böyükçələri «Babuç qapma», «Çəllük-çubuq» oynayırlar.
çəm – meşə. – Gözlərim nəm olubdu, Kirpigim çəm olubdu.
çəm ağacı – meşə ağacı
çəmçi – 1. meşəbəyi
çəmçələ qız – 1. müqəvva; 2. yağış yağdırmaq üçün keçirilən mərasim oyunu. – Bir yağış arzusiylə «Kosa gəldi», «Çəmçələ qız»a hazırlıq görülərdi.
çənəbaz – naqqal, çox danışan, çənəbaz
çənəkə – çənə

çəpərə – çit qadın paltarı
çərxiçənbər – fırfıra
çərxfələk// – karusel. – Sallanğuçlara, çər-
çərxi-fələk xi-fələklərə, dolamalara mi-
nərlər.
çərpüç (ər.) – bax kəssək
çıxış – yoxuş, çıxış
çırçır//çırçıra – cırcırama
çızma – uzunboğaz ayaqqabı
çi…çi – ya...ya bölüşdürmə bağlayıcı-
sı. – Çi bir özünbilməzə, Çi bir
divara sələ.
çibin – milçək, çibin. – Balı olanın
çibini Şamdan gələr.
çibinliğ – miçətkən
çigin – çiyin
çıldırmağ – dəli olmaq
çilə – dərd, hövsələ
çillə – çox soyuq vaxt
çim – sərt, təmiz, bütöv – Musalla-
nın çim daşı, Yandı bağrımın
başı; yeməğ çim yağdı.
çimdikləməğ – bax xincikləməğ
çimçiməğ – için-için ağlamaq
çinçini – çil-çil
çirçir – pambığı çəyirdəyindən ayıran
alət
çirçirçi – çirçirdə işləyən adam
çiriğ//çirix – cəhrə. – Çiriğ çirçirdə qura
bilmədim, Qurub bura bil-
mədim.
çirixçi – yun, pambıq əyirən adam

çiriş – yapışqan. – Hər kim mənə qız verməz, Əl-üzün çirişlərəm.
çirkinti – görməmiş; əsli-nəsli olmayan
çitara – çit paltar. – İndi qonuşuram insan nə girər: şal, çitara, sıxma.
çoğan – yovşan
çox yeməğ (Ər.) – bax taptamaq
çola – məhəllə. – Çola uşaxları istərlər aldatsınnar Mollanı, əglənsinnər.
çolağ – əldən şikəst
çoppan (Ab.) // çoban // çopan – çoban
çorək (Çar., Tel.) – bax əkmək
çubuğ – qəlyan çubuğu, müştuk, tənbəki çubuğu
çuğutma – titrətmə
çuklet – şokolad. – Çukleti atırı bir-bir başına qızın.
çurim – böyük tuluğ
çuroxlamağ – yığmaq, dəstələmək. – Çuroxla, qoy qoynuna. (saç və s.)
çüküntür – qırmızı çuğundur. – Qazanda et qalmadı, çüküntür baş qaldırdı (atalar sözü).

- D -

dabban (K.)// daban (T.X.) – daban
dabğolmağ//dəbğolmağ – bozarmaq, solmaq (parça və s.)
dağıtmağ – paylamaq

daxça (Tel.) – bax qəqqə
dairə – idarə
dal – budaq. – Alma dalda allanar, Düşər yerə ballanar.
dalğaya getməğ – xəyala getmək
dalğa vurmağ – xəyala dalmaq
dallal – dəllal
dalmağ – fikrə getmək. – Baxar bir tələbə çox dalıpdı.
damad (t.)//kürəkən – kürəkən; göy
danına getməğ – acığına getmək
danışmağ (Səl.) – bax sələşməğ
darılmağ – acıqlanmaq. – Gəlin darılar, yanıb yaxılar; Arvad darıldı, kürkümə bir təpmə atdı.
darın dünyası – yer üzü, kainat. – Darın dünyasında bir keçiynən bir qurt vardı.
darı başuvuza – sizə də qismət olsun mənasında
darı//darrı – qarğıdalı
dartmağ – 1. çəkmək (tərəzidə); 2. üyütmək
Arpanı verrəm sənə,
Buğdanı dart mənimçi. (üyütmək)
dasalat – güc, bacarıq
daşınmağ – 1. düşünüb daşınmaq; 2. başqa bir yerə köçmək
daş kəsilməğ – susmaq
davzanqurtağı – dozanqurdu
davıl // davul // meytər – təbil; nağara. – Qız öz başına qalsa, ya davulçuya varar, ya zurnaçıya.

dayanmağ – 1. dayanmaq; 2. dözmək
Ürəgim qəm yuvası,
Bayquş girsə dayanmaz.

dayancağ – qədimdə evlərdə söykənmək üçün düzəldilən səki.

dayza // dayaza // dəyza (Tel.) – xala. – Dayza, evimiz yıxıldı.

degi – deyil

dem – dəmyə

demirat – velosiped

derri – dəri

devələməğ – iri addımlarla getmək

dədə – ata. – Babaya Altun Köprüdə dədə deyirix.

dəfdəfə – çox zəif, arıqlıqdan sümüyü görünən adam

dəğəl – yekəqarın

dəğəzdar (Tel.) – bənizi qaçmış

dəhyə – iri buynuzlu qurbanlığ mal

dəqqə – süni xal

dəq // dəqaq – ütülü, şax paltar

dəllək // dəlləg (Kif.) – kisəçi (hamamda)

dəlli bibər – acı bibər

dəllüğ (K.) // dəllik – dəlik

dəmdəmi – hərdəmxəyal

dəmiri at – kürən at

dəndiç // dəndüç – hədik

dəng – bərabər, tən

dəng olmaq – uymaq. – Uşaq çağdan oldum eşqinin dəngi.

dərracə – kombayn. – Dərracə var, sallıx içinə, sayığı var, sürər özün.

dərri – motal
dırnaxlı külçə – şəkərbura
dızlağ – cızdaq
digdiga – itdirsəyi (göz xəstəliyi)
diləkçi – elçi. – Qızıma diləkçi gəli,
Bu gün, yarın içində;
– Qaxallar, gidərlər dilaxrılığa.
dilbiran (Tel.) – bax biçin quşı
dilmic – qolbağ
dinc – sağlam, rahat
ding – arpa-buğda döymək üçün başına dəmir dişlər vurulmuş ağac və ya daş
dingçi – dəyirmançı; xırmançı – Ağacı bağvan əkər, dögməni dingçi dögər
dingə – 1. ding; 2. sütun; 3. arxa, himayədar
dinlənməğ – istirahət etmək; dincəlmək
diş – 1. yuxu; 2. bir ədəd, bir dənə. Bir diş samirsağ ver.
dişdeşə – bax əzyə
dirhəm – pul vahidi
dəginmək – toxunmaq (bir məsələyə)
dizgin – üzəngi. – Tayıyın dizginin tut,
Gözlərim doldu qannan.
dolama – 1. karusel; 2. dolama (xəstəlik)
dolay – ətraf. – Kərkük dolaylarında evlərdə əkmək yapmağ zamanı qonşular bir-birinə yardım edər.

dolka//dolaka (Tuz.) – dolça
dombalaquş – dombalağ aşmaq
dopdolu (Tel.) – bax mələməl
dögməcə // dögməc – yağla qarışdırılaraq doğranmış isti çörək, döyməc
döngüz – donuz
dönmək – üz çevirmək. – Dönərsəm daşa dönüm.
dör – baş ev, qonaq otağının yuxarı başı. – Ev sənin, eşik sənin, Dördəki beşik sənin.
dörbaşı – məclisin başı
döş (Səl.) – bax kösk
dözüm (Tel.) – bax təhəmül
duman – tüstü. – Bir bəhrim var yamandı, İçi dolu dumandı (qarın); Kağıza sarıdım samanı, Ağzımdan çıxdı dumanı. (siqaret)
dumbulbas – iki nəfər tərəfindən çalınan simli çalğı aləti, tamburina; təbil, nağara
dumbulbaz – nağara çalan
durağ – dayanacaq
duraxlamağ – 1. durmaq; 2. ara vermək
durrac – turac
duruxmağ – dayanmaq. – Adam: Duruxma, qaç, dedi.
duymağ – eşitmə, duyma. – Mən səni xəlvət sevdim, Bilməm necə duyuldu.

düdük – tütək, fit (qatar, maşın), düdük. – Molla bazara gedəndə məhəllə uşaqları düdük istəmişlər.

düg (Səl.) – bax ig

dügmə (Tel.) – bax pul

düğmələməğ (Tel.) – bax pullamağ

dügün – toy. – Dügün olduğunu eşidər.

düstür (ə.) – bax anayasa

düşgün – əxlaqsız. – Düşgün oğlu, düşgün; kasıblamış adam

düşmək – 1. yıxılmaq; 2. düşmək; 3. tutulmaq (dərdə). – Piçağı öz ürəginin başına soxdu, düşdü.

Düşənnən al,
Yıxılıb düşənnən al,
Bir dərdin dərmanını
O dərdə düşənnən al.

dühlə – yekəpər

dümüg – məşğuliyyət, məşğul

düzənbaz – fırıldaqçı, ara vuran

- E -

eş – 1. dost; 2. həyat yoldaşı. Ölənin eşi, bacısı saçlarından kəsərək biləklərinə bağlarlar. Yeddi gün açmazlar.

et – ət

etdirsəgi (T.X.) – bax digdiga

ev basmağ – polis və s. evə soxulması

ev-ev oyunu – öy-öy uşaq oyunlara məxsus oyun

evi xarab – evin dağılsın, evin yıxılsın mənasında qarğış

ev malı – 1. evdə bişirilmiş xörək; 2. yalnız evdə geyilən paltar, ev paltarı

eyi – yaxşı

eyiliğ – yaxşılıq

eyvallah – sağ ol, hələlik. Biri çıxıb gedəndə deyər: eyvallah.

- Ə -

əbdəs – dəstəmaz

əbd // əbi (ə.) – 1. qul, kölə; 2. zənci

əbdəl – dəli-divanə; abdal

əbəliğ – mamalıq

əcci – acı

əcci hakat – acı söz

əcəba – yoxsa, maraqlıdır, məgər. – Röyamı, əcəba, heç buna insan inanırmı?

əcələ (ə.) – tez, tələsik – Xeer ola, Molla, belə əcələ döndün?

əcəm – İran. – Zülfün Əcəm ipəyi, Telin Təbrizə dəyər.

ədəb // ədəbxana – ayaqyolu, tualet

ədrəs – ünvan

əfəndi – ağa, oxumuş adam. – Molla əfəndi, oğlumuzu sənə təslim edirik.

əfət – 1. qarımış qız; 2. namuslu, ləkəsiz
əgə – yiyə
əğyar – yad, özgə, əğyar
əhbab – 1. dost-aşna; 2. sevgili. – Həm təbibdi, həm məlhəm, Şirin əhbab, şirin dil.
əhət (ə.) – bazar günü. – Əhət, canım rahat.
əkməğ – çörək. – Əkməğ yapar qalxan kimin.
əqrəba (ə.) – bax xısım
əqli xəfif – ağıldan kəm, yüngülbeyin
əlbisə (ə.) – paltar. – Əlbəsələrimi soyub apardılar, üstəlik məni tox çaldılar; Əsbabın yırtılanda sən özün yama qəlin
əl dəgirmanı – xırxıra, dəyirman
əl gidiştirən – gicirtkən
əlləqə – zənbil
əlliğ//əllik (Tel.) – əlcək
əlti – elti, qardaş arvadı
əl yağlığı (Ər.) – bax yağlığ
əmbə – Hindistanda düzəldilən turşu növü
əmcənək – xərçəng
əmmi//əmi (Daq., T.X.) – 1. əmi; 2. qayınata
ənani (ə.) – xudbin, ötkəm
ənəsün – cirə
ənkəbut – hörümçək
ənqa – simurq quşu
əng küçük – ən kiçik

ənsə – arxa. – Nə anam var, nə bacım, Ənsəmcə saçın yola.
əntikə//antikə (Tel.) – lağlağ, zarafat
əntikəliğ – lağlağılıq
əntikəliğ etməğ – lağlağılıq etmək
ənva – cürbəcür, növbənöv
əpeyi – çox gözəl
ərabançı – arabaçı
ərbab – 1. varlı, zadəgan; 2. usta, bilmiş. –Uca himmət ərbabı, Dünyada var istəməz; (zadəgan), Ərbab olan aldanmaz (bilmiş).
ərbə – çirkli suların axdığı nov
ərc – ərk
ərci olmağ – ərki olmaq. Məmmədin ərci var üzərimdə
ərən – 1. sonradan gələn; 2. özgəsi, yad. – Bağın ərənə qalsın, Gülün dərənə qalsın.
ərgən – bax əzəp
ərük // ərig (Tuz.) – ərik, qaysı
ərməğan – Qonşuya göndərilən yemək, pay, hədiyyə. – Xına gətirənə də ərməğan verərdilər.
ərtlənməğ – qürrələnmək
əryə – don, xalat
əsas (Tel.) – bax tənbəl
əsbab (ə.) – bax əlbisə
əsəs – 1. çoban; 2. qarovulçu. – Gecələr əsəs mənəm, Beynəva, bikəs mənəm.

əski – qədim, köhnə. – Əskidə bir kimsə başqasını öldürsə, onun ölümünə fitva verilirdi.

əsmər – 1. qarabuğdayı; 2. gözəl.–Yana-yana kül oldum, Bir əsmərə qul oldum.

əşirət // əşrət – qəbilə. –Yeddi əşrət bir olsa, Sevmişəm, allam səni.

əşşəg – eşşək

ətə – xala

ətəgi tutuşmağ – tələş keçirmək

ətəgliğ – qadın alt köynəyi

ətəbə – koridor. – Ev qapısından girincə uzun ətəbə gəlir.

əttar (ə.) – əsasən, ətriyyat, dərman bitkiləri, yemək şeyləri və s. satan. – Sinəm əttar dükanı, Nə istəsən al mənnən.

əvələmək-dəvələmək – mənasız danışmaq, özünü apara bilməmək

əvlik – ənlik. –Birini veri əvliğə, birini veri kirşana, üzünə sürtər.

əyək // əyyək (Tel., T.X.) – damaq

əylül (ə.) – sentyabr. –14 Əylül geçəsi tonqallar yandırılır, bununla da damda yatmaq vaxtının keçdiyini göstərirlərmiş.

əyran – sıyıq palçıq; ayran

əyyi – bax eyi

əzəp // əzzəp (Tuz.) – ərgən, yetgin qız, əzəp oğlan

əczəxana – aptek, əczəxana
əzyə – köynək, kişi paltarı

- F -

faxfuru//faxfırı – saxsı
faq – tələ
faqi – məscidin təmizlik işlərinə baxan
fanus – qazla yanan fitilli lampa
farva – kürk. – Farva qoyun dərisinnən olı.
fasuliyə – lobyaya bənzəyən dənli bitki
fatarat – qarışıqlıq
fayızxor – sələmlə işləyən adam
fazla – çox
fes – fəs
feyləsuf – filosof
fəhil – ayğır
fələqə – buxov
fəna – pis iş. – Fəna bilməkdənsə, bilməmək daha əyidi.
fərəq verməğ – partlamaq, çatlamaq. Uşağ yığlamaxtan fərəq verdi.
fərik // fərrik – fərə
fərn // firin – kürə, soba, peç
fəyazan (ə.) – daşqın, sel. – Su axınca dünyəni fəyazan etdi.
fəzlə (ə.) – çox, artıq. – Yorğannan fəzlə çıxsa, kəsəllər ayağını.
ficəllə – həngamə

fısdığı – açıq-yaşıl rəng
fısqa – çırtma, çəpik
fikə çalmağ – fit çalmaq
filanca – Filankəs. – Filancanın belə müdəbbir bir nənəsi var, qəlbir dolusu hişil yığıb.
filis (ə.) – ən kiçik pul vahidi. – On beş filis (qəpik) verər, bir bətaqə kəsər.
fıranqa – qandal
firəngi – cəftə, rəzə. – Saray önündə durallar, Firəngimi qırallar.
fistanı – qadın baş örtüyü
fis olmağ – 1. qol-qanadı sınmaq; 2. sakit olmaq
fişəngliğ – patrondaş
fittə – çalma
fizzəh – şivən. – Bizdə bir evdə kimsə vəfat edəndə qadınlar fizzəh qoparır.
fizzəh basmağ – şivən qoparmaq
forta//farta – uydurma, yalan
fortaçı//fartaçı (T.X.) – yalançı
forta atmağ – söz uydurmaq
fücətən // ficətən – birdən, ani, gözlənilmədən, gözlənilməz (ölüm)

- G -

gamxan – 1. çox yeyən adam; 2. çox kök adam
gamış – camış

gavur – 1. dinsiz; 2. xristian. – Gavur türbəsində yatım; Gavur dinindən dönməz, Mən sənnən necə dönüm?

gavvad – pozğun qadınla kişi arasında vasitəçilik edən kişi

gecə quşu – evə gec gəlməyi adət etmiş kimsə

gecəlig – gecə paltarı

gevil//gönül – könül

gəbə – hamilə

gəlincik (Tel.) – bax qawurcağ

gəm – cilov, yüyən

gərdanə // gərdanlığ – boyunbağı. – Oğlan varlı ailədəndirsə, qız üçün gərdanə, altun kəmər, qolbağ aparılır.

gərdən – boyun. – Gərdəni şişəyə bənzər.

gərdur (Tis.) – qoç, damazlıq heyvan

gəvəzə – çox və mənasız danışan. – Gəvəzənin biri Mollaya satışmaq üçün deyər.

gəvildəməğ – tövşümək

gəzingi – naxış

gidərtmək – əldən vermək

Dağlara səptim əkin,
Gidərtdim əlimdəkin.

gidişmə – geyişmə, ekzema, qaşınma

gilav – murdar

girgi – 1. girəvə, fürsət; 2. səbr

girgirə – kirkirə. Toxuculuqda hərəkəti təmin edən çarx.

giritməğ – geydirmək

girməğ – 1. girmək; 2. geyinmək. – Cənazə evdən çıxmazdan öncə, qadınlar əlbəsələrini dəgişib, qərə girərlər.

gizirçi – xəbərçi, çugul

gizirləməğ – çuğullamaq

gorxan – goreşən

gög soğan (Ər., Tel.) – bax yeşil soğan

gömməğ – basdırmaq. – Kəsilən saç və dırnaqlar gömülməsə, günah hesab olunur.

görücü – qıza baxmağa gedən (kimisə evləndirəndə)

göy (Tel.) – bax damad.–Tiləfərdə göy deyərix.

göz – 1. göz; 2. otaq; 3. bulaq. – Dörün sağında və solunda yan gözlər olur.

gözçi – nəzarətçi

göz gülləsi – göz bəbəyi

göz daşı – gözmuncuğu

gözləməğ – 1. baxmaq; 2. müşahidə etmək. – Dəvəyə dedilər: – Boynun uzundu. Dedi: – Uzağı gözləyirəm.

gözliğ – eynək, gözlük

göznəfəs – uşağa göz dəyməməsi üçün üzərinə asılan gözmuncuğu

gözükməğ – görünmək

gücənməğ – 1. hirslənmək, özündən çıxmaq; 2. incimək

gül saxsı – dibçək

gümmə – kömbə
gümgüm – güyüm
gunnixçi – günəmuzd işçi (fəhlə)
günortalığ – nahar (günorta yeməyi)
gün sarıda – gün batan vaxt. – Ölənin əqrəbaları üç gün günəş çıxmazdan öncə və gün sarıda onun qəbrini ziyarət edirlər.
günorta şaqlamı – gündöyən vaxt
gürgür – guruldamaq
güvəngəz – alaq otu
güz – payız. – Nə bahardı, nə də güz, Hardan gəldi bu nərgiz?

- Ğ -

ğəssalə (ə.) – paltar yuyan maşın
ğəşşaş (ə.) – hiyləgər
ğiryət//giyrət – qiryət, cəsarət
ğubarı (Tel.) – payızlıq taxıl əkini

- H -

hacat – alət. – Görməmişə qərbil-ələk hacatdı.
hacət – ehtiyac. – Elə isə tələşa hacət yox.
hacqavuğ – yumru acı bitki – Ac hacqabuğ da yeyər.
haxsı // hassı (Birav.) // hanqi (Ər.) – hansı

haqqından gəlməğ – öhdəsindən gəlmək. – Qoy babay gəssin, səniy haqqından gəlləm.
halaq – halqa
halal – arvad
halav // alav (Tel.) – alov
halavlamaq – alovlanmaq, yanmaq. – Təndir kimin halavlar, Gahdan bir sönər könlüm.
halay // hələy təpməğ – yallı. – Halay alayının baş tərəfində halaya baş çəkən olurdu; Oğlan evində əyləncə gecəsi düzənlənərdi, hələy təpərdilər.
halı vaktı yerində – kefi kök
harasan – didərgin
harasan etməğ – narahat etmək, tez yuxudan oyatmaq
haşa – 1. heç vaxt; 2. Allah eləməsin. –Haşa dönüm, Dönərsəm daşa dönüm.
havadar – toy ağası
havalə – epilepsiya (özündən getmə) xəstəliyi
havala – pulu poçta vasitəsilə göndərmə
havar – 1. şivən; 2. dad-aman; 3. qışqırmaq. – Eylərəm havar-havar, Havara gəlsən nə var.
havar basmağ – qışqırmaq
havar etməğ – imdad diləmək
havcar – vəl
havşar köpəgi – avçarka

havunc – xəmirə qatılan ədvə. – Küncudlu əkmək havunclu olur.

havuş – həyət. – Qapıdan girər-girməz ailənin üzvləri havuşda və evdə gözünüz önündə canlanır.

haylamağ – özündən çıxmaq, acıqlanmaq, danlamaq

hazarı – baş dəsmalı. – Başında çit hazarı, Köksün cənnət bazarı.

hel vurmağ – bərk döymək

heli tükənməğ – heyi qalmamaq

heywan (Daq.) – bax həywan

hələq (qapı hələqi) – halqa

həbb (K.) – bax çevırkə

həbə (K., Tuz. və s.) – nənə

həcilaqlaq – hacıleylək. – Həcilaqlaq havada, Yımırtası tavada.

həgbə – heybə

həkət – söhbət. – Qurbanam özüm sənə, Həkətim, sözüm sənə; Belə bir hərəkət digər verməx təki.

həqarat – təhqir. – Mənə filan ağa həqarat yapmaq istiri.

həq baba – öz babam

həlim (K.) – bax hərisə

həlhələ – qadınların şadlıq məclislərində sevinc səsləri çıxararaq oynaması. – Həlhələ verin gəlinə, Dəstə gül verin əlinə.

həllüg çubuq (Ər.) – çilingağacı

hənək – zarafat. – Ayı hənəgi ediri.

hənfiş – dini mərasimlərdə xəncər vuran şəxs. – Əgər dərviş, əgər hənfiş – ağça ilə bitər hər iş.
hənimağ // hənimiməg – ürəyi getmək
həpi // həpsi – hamısı. – Həpi dərdlər başıyçi.
hərisə – hədik
hərəbi (Tel.) – bax fizzəh
hərəbləməğ (Tel.) – fizzəh basmağ
hərištə – əriştə
hərras (ə.) – gözətçi, qaravulçu. – Qapıda duran hərraslar qoymuru özünü içəriyə.
həsəd // həsüt (ə.) – qısqanma, qısqanc
həsrət gecəsi – toyun əvvəlki günü qız evində olan şənlik
həsütlüğ (ə.) – qısqanclıq
həşə etməğ – övladlıqdan çıxarmaq, imtina etmək
həšišə – tiryək. – Həšišə çəkəni ilan çalsa, incitməz.
həşr olmaq – bir yerdə olmaq, bir yerə toplanmaq
həyatı qazanmağ – güzaranı təmin etmək
həywan – eyvan
həz etməğ – həzz almaq
həz etməməğ – həzz almamaq
həzvə-gəzvə – azuqə
hişqırığ (Tel.) – bax uxçuruğ
hicil // xalxal – ayağa taxılan qızıl zəncir. – Əskidə köylərdə burunlarına altun xizmə, ayaqlarına xalxal taxardılar.

hillə – hiylə
hilləçi – fırıldaqçı, hiyləgər
himmət etməğ – səy etmək
hiz – 1. bic, hiyləgər; 2. namərd
hiz torpağ – dincə qoyulmuş torpaq
hizənə – 1. qeyrətsiz; 2. pozğun; 3. keyfiyyətsiz.
hoqnə – imalə üçün qrelka
hoqnə etməğ – imalə etmək, qalın bağırsaqları su ilə yumaq
horın – Siqnal (maşın siqnalı), tələş və qayğıdan bir yerdə dura bilməmək
hotelçi – mehmanxana sahibi. – Bir köylü gələr Kərkükə hotelçiyə deyər.
hök – kök, şişman
hurbi – nalə
hüdhüd (Tel.) – bax papla sileyman
hür – azad
hürbi basmağ – şivən qoparmaq
hüsküt-hüsküt – sakit-sakit, yavaş-yavaş, səssiz

- X -

xax – 1. xalq; 2. başqaları
xalxal (Ər.) – bax hicil
xan – 1. karvansara; 2. imarət
xancı – karvansaraçı. – Hay havar dəgirmançı, Sən xancı, mən karvançı.

xandan // xanadan – yaxşı nəsildən olan. – Xandandan xata çıxmaz.

xas – tərəvəz. – Köydə ən çox əkdiğmiz xas, çüküntür, ləhanə və s-dir.

xatın // xatun – xanım. – Verənlər xatın olsun, Verməyənlər qatır olsun.

xavlı – dəsmal

xerandaş – xeyirxah

xerxız // xırxız // xersız (Tel.) – oğru. – Ay işığında xerxızlığa çıxar; xırxız övlad babasının ocağında pəncər əkər

xersevər – bax: xerandaş

xet – bənnaların hörükdə istifadə etdiyi ip.

xəbərə tırran – sirr saxlamayan adam

xələ (Kuf., T.X.) – bax: dayza

xəlfə – usta köməkçisi

xəncər bazarı – böyük dava-dalaş

xəndəq – xəndək

xənzir (ə.) – qaban, donuz

xəsər – xəsər, itki. – Gidər bazarda dolanı, bu manqırı nəyə versin, bir şeyi xəsər olmasın.

xəyal kəsmək – fikrə düşmək. – Bir dəm səni görməsəm, Könlüm min xəyal kəsər.

xəyalda durmaq – fikrə dalmaq

Ay çıxdı dalda durdu,
Gör nə xəyalda durdu.

xınavlamağ – narın-narın yağmaq

xımxım // xumxum (Kif.) – burnunda danışan
xınfır // xınfız – yastıburun
xırxıtta//qıqırdax (Tel.) – qığırdaq
xırlamağ – mırıldamaq. – Köpəg də ağzını açıb xırladı və Mollaya hücum etdi.
xırmıçlamağ – cırmaqlamaq. – Pişigi sıxışdırsan xırmıclar.
xısım – qohum-əqrəba. – Toyun yeddinci günü eyş-dost, xısım-əqrəba qadınları toplanardı.
xızma – burunun dəliyinə taxılan qızıl əşya. – Qala yolu düz gedər, Bir xızmalı qız gedər.
xızməkar // xızmətkar // xızmətçi – xidmətkar
xincikləməğ – çimdikləmək
xinnigi burnundan axan – burnunu tutsan canı çıxan, arıq, zəif. – Gedər bir xinnigi burnunnan axmış qoyun seçər.
xişm – acıq, qəzəb
xitlək – qırtlaq
xiyal olmağ – sərxoş olmaq
xiyarçuğ – budda çıxan yara. – Budun nəhayətində xiyar şəklində olur.
xizmə – dodağa taxılan qızıl əşya. – O dağ bu dağ üstünə, Dilbər, Xizmən dodağ üstünə, Dilbər.
xizmətçi – xidmətçi. – Onları yanında xizmətçi götürər və məmləkətinə dönər.

xora – yara. – Burunun içində görülən xəstəliyə xora deyərix.
xorı // xorru (Tuz.) – boş-boşuna veyillənən, avara
xorı xorı gəzməğ – avara-avara gəzmək
xorı köpək – sahibsiz it
xoyrat // xoryat – bayatı
xoy – bax: xudiğ
xub – gözəl. – Oldum xublara körpü, Hər gələn keşdi mənnən.
xudiğ – 1. xasiyyət, xoy; 2. özündən getmə, epilepsiya. – Qurt tüküni dəgişdirər, xoyunu dəgişməz.
xurc – 1. eşq; 2. heybə, xurcun
xurca gəlməğ – aşiq olmaq
xurda – xırda daş
xurduxaş // xurdaxaş – xurd-xəşil. – Düşəsən uca dağdan, Boynun xurdaxaş olsun.
xurdaşəkər – şəkər tozu, qənd tozu
xut – deyingən
xuvarda // xıvarda – comərd, əli açıq
xülq – 1. hulqum; 2. həvəs. – Söz var xalq içində, söz var xülq içində.

- İ -

ibanmağ – yubanmaq
ibinməğ – islanmaq. – Balığ kimin beli ibinməz.
ibitməğ – suda yaxşıca islatmaq
ibriq – aftafa. – Pəri orada ipi açar, ibriğə bağlar, sıçrar, qaçar.
iç – 1. iç, daxil; 2. ürək

içməğ – 1. içmək; 2. çəkmək (siqaret)
ifqa – incə, nazik, yüngül. – Kilim ifqa yerindən yırtılı.
ifrit – 1. ifritə; 2. bir yerdə durmayan, nadinc uşaq
ig – iy
ig əgirməğ – pambıq, yun və s. əyirmək
ignə – iynə
ignələməğ – 1. acılamaq; 2. sancmaq
ixtidar – qüvvə, güc. – Çünki bizim ixtidarımız yoxtı səyara alağ.
ixtiyar – yaşlı, ixtiyar. – Gəncə varan yumruq yeyər, ixtiyara varan quyruq yeyər.
ikicanlı – bax: gəbə
ikindi – saat 3–5 arası. – Uşaqlar sabah sərinində və ikindi sərinində soqaq oyunları oynarlar.
ikindi çayı – saat 3–5 arası içilən çay
ikki – iki
iqrar // iqral – qərar. – Dağda duman yeri var, İqrar, iman yeri var.
ilac – dərman, əlac
ilgili – 1. maraqlı; 2. əlaqədar
illama – əgər. – Heç uşağın olmaz, illama nənəyin cigərin yeməssəy.
illət – dərd, xəstəlik, qüsur
iməci – iməcilik. – Toy ərəfəsi cehiz işlərini «iməci» yolu ilə yoluna qoyarlarmış.
imsağ – yumşaq

inanc – inam, inanc
incana – tas, ləyən (bişmiş çamurdan olur).
incas – gavalı
incırıq – mitil, döymə
incırıqını çıxarmaq – döymək, əzmək və s.
incik – ağrı. Belində incik var.
inçiq (Tuz.) – bax: inciriq
ini (Ər.) – elti
incaz (Ər.) – bax: incas
irağ – iraq, uzaq. – Yar gözündən düşənlər, Könüldən irağ düşər.
irğat – bənna. – İrğat işində qullanan hacətlər: mastara, şavul, ölçü, malınc və s-dir
irmağ – çay. – Hava gözəl, göy çəmənnik, irmağın kənarında kəsək quzunı.
irri // iri – iri
iryəti saç – parik
isgəmbil – skamya, kürsü, stul. – Nəccar bunları yapır: ev üçün qapı, isgəmli, taxt və s.
isgəncə – iskənə
isgif – üsküк. – Baş barmaqlarına isgif girərdilər, ignə batmasın deyə.
isqa – vərəm
isqat // zəkat – zəkat. – Bəlli yoxsullara isqat deyilən bir miqdar pul yardım edilir.

ismarlamağ – 1. tapşırmaq; 2. sifariş etmək. –Davaçı qazı olsa, işini Allaha ismarla.

istimal etmək – tikmək, işlətmək

itəb // itab – sitəm

iştə – bax, budur. – İştə qazanınız doğdu.

işıxlı yılduz – zöhrə ulduzu

itab – dərd, sitəm

itap etmək – məzəmmət etmək. – Fələkdən itap elə, Bəlaları o verdi.

itəkləməğ (Bast., Kif.) – bax: təkləməğ

ititməğ – itiləmək. – Noxudu tox yedi, onnan sora keçinin buynuzunu ititdi.

itti piçax – iti bıçaq

izək (T.X.) – bax: şəb

- K -

kağıt – kağız

kağıt quşu – çərpələng

kağız (Ər.) – bax: kağit

kahraba (ə.) – elektrik

kalaş – üstü ipliklə sıx toxunan, altı rezin və kauçuk olan yerli kişi ayaqqabısı

kannuş (ə.) – yastıburun

kapaza – qapazaltı

kapmal etməğ – malalamaqdan əvvəl vurulan ilk suvaq

kar – qazanc, iş, gəlir. – Sənət xoşdu, kar xoşdu; Donuzdan bir tük qoparsan yenə kardı; Gecə yuxusu bilməm, Gündüz karımnan oldum;

karyola (ə.) – çarpayı. – Karyolaların üstündə çibinliklər düzəldilir.

kassav // kessav (Daq.) // kesav (Tel.) – kösöv

kaşa – keşiş

kavil – xərabə, viran. – Kərkükü kavil olsun, Qalmasın yad əlində.

keçəl kərkəz – ley

keçəman – böyük kərtənkələ

keflənməğ – sevinmək

kefli – sevincli

keşkək – buğda və ətdən bişirilən yemək

kesür (Tel.) – bax: yerköki

kəçəmən (Kif.; Tuz.) – bax: keçəman

kəfil – zamin

kəfin – kəfən. – Uşağı olmayan qadının uşağı olanda bir qara tavuq kəsərək kəfinə sarıyıb məzarlıqda gömərlərdi.

kəhkül – kəkil, tel

kəhrəb (ə.) – kəhraba

kəliyar – uzun xiyar

kəllə küpə // kəlləpaça – xaş, başayaq, kəlləpaça

kəlos – mırıq

kəpənək – yapıncı

kəpənək (Tel.) – bax: yelləpə

kərdi – lək
kərətə – 1. alçaq; 2. dabançəkən // dabankeş. – Kərətə oğlu kərətə.
kərizçi – kankan
kərtisin almaq – yarpaqlarını qırmaq. – Şitil əkdikdən bir az sonra şitilin kərtisin allıx.
kəssək – çiy kərpic
kəşam//kəşəm (Tis.) – Qurud, yarma və qurudularaq xırda doğranmış xəmirdən bişirilən xörək
kəşamaşı – xəmiraşı (qurutlu)
kəşkül – torba, zəncirli qab, dilənçi torbası. – Boynuma kəşkül salım, Hardan yığım sizləri.
kəvuəli//kevəli (Ər.) – 1. evsiz-eşiksiz; 2. qaraçı; 3. avara. Kəvuəli kimin gündə bir köydəsən.
kəzzab (ə.) – yalançı
kırkır – qəhqəhə
kırkır gülməğ – qəhqəhə ilə gülmək
kırp olmağ – səsini xırp kəsmək
kilav//kəlav (Kif.) – papaq. – Dam kölgəsində yatar, Kilav, qurşağına (s. 35/2)
kilik//kilid (Tel.) – kilid, açar
kirəc – palçıq. – Bir daş atar, Bir kirəc, bir daş atar.
kiriklənmək – 1. tutulmaq; 2. kilidlənmək. – Boğazın kiriklənsin.
kiriş – ip. – Fələyin işi düşsün, Yaydan kirişi düşsün.

kişi – 1. şəxs, adam; 2. ər. – Allahın əmri ilə filankəsin oğlu filankəsi kişi qəbul edirsənmi?

kişiyə varmağ – ərə getmək

kişmətti – sükunətli

kitablığ – kitabxana

kizrolmağ – yaş bir şeyin quruması və ya qurudulması

koçman // koçaman – koramal

kor sıçan – sıçovul

korça // korşa – küt, körş. – Ustra korça olduğunnan Mollanı incidir.

kömə – topa, kömə. – Keçəl bir böyük kömə etti, qoydu padşahın qabağına.

kömləğ – köynək

köppəğ – köpək

köpru – bax: cisir

kösə – kosa

kösk // kosk (Xan.) – köks

köşə – künc, guşə

köşk – eyvan. – Yumru-yumru dükçələr atıptı köşkə çiriq.

kötü – pis. – İnançlara görə bu kötü insanların cinayət, zülm, işgəncələrinə Allahın cəzasıdır.

köy – kənd. – Mən bu köyə qərib düşdüm, Nə yaman köyün gözəli.

köylü – kəndli. – Köylü xərməni neylər, Dərdli dərmanı neylər.

köynək (Tel.) – bax: əzyə

közər – kozar, kozal. Taxılın başağı. Yel samanı aparı uzağa, közəriydən buğdası qalı yerində.

kumbar – kilim, həsir
Ne kendi var, ne ambar
Döşənib evlər kumbar.

kuri (ə.) – dəm çayniki

kurnaz // qurnaz – bic, hiyləgər. – Padşahın yanında bir qurnaz tacir vardı.

küçüg arvad – iki arvadlı kişinin ikinci arvadı

küfr – qarğış

külçə – qoz ləpəsi ilə hazırlanmış paxlava və şəkərbura. – Külçə Kərküklünün hər bayram, hər seyran aradığı və sevdiği içi cöyüzlü yeməkdir.

külah – börk, papaq. – Kəllə sağ olsun, bir külah tapılar.

külxan – Hamam ocağı

külxançı – hamamda ocaqçı

külə – qısa boylu

küllə – miçətkən. – Pəmbə hərir küllədə Girdüv çaxma zubunı

külliğ // küllüğ – 1. zibillik; 2. kül qabı

künbət // kümbət – günbəz

küncut// kündüç – bax: simsim

küniyə // göniyə – künyə–bənnaların istifadə etdikləri alət

küpə // sırğa – sırğa

kurəkən – bax: damad

kürk tavuğ – kürd toyuq. – Tauğın kürki belədi.

kürsi (Tel.) – bax: sgəmbil
küskü – külüng, lom
kütrüm – iflic

- Q -

qabadayı – 1. lotu; 2. qoçu; 3. kobud
qabqab – çəkələk (ağacdan olur)
qabrıstan – bax: türbəliğ
qaçaqaç (Tuz.) – bax: qataqav
qadağ – sırıx
qadanay (Tel.) – bax: hök
qafa – baş
qağa (Ər.) – ata. – Babaya Ərbildə qağa diyəriğ.
qağanağ (A.K.) – bax: yağ yımırta
qağıldamağ – qarıldamaq. Qarğa qağıldar
qağırdag (A.K.) – bax: dizlağ
qaxmağ – aradan götürülmək. – İndi həpsi qaxdı.
qalabalıx – 1. tünlük; 2. qələbəlik. – Çayxana çox qalabalıxdı.
qalayçı (Tel.) – bax: qazanağardan
qaldırmağ – aparmaq. – Kəbinnən sora oğlan istəsə, qızı tez qaldırı, istəsə gec.
qallac//qallaç – hiyləgər, bic
qallanquc – qaranquş. – Qallanqucun zərəlini bibər əkənnən sor.
qallawuz // qalawuz – 1. bələdçi; 2. telefon kitabçası. – Qallavuzı qarğa olan leş iylər.
qaltağ – əxlaqsız qadın

qama – qəmə
qanara – qəssab çəngəli
qanbur // qambur – 1. dəvənin hörgücü; 2. qozbel; donqar – Dəvə öz qanburnu görməz.
qanqavur – zınqırov. – Kosa boynuna qanqavur taxar, əcaib bir görkəm alardı.
qantar – tərəzi. – Altun qantar, ət dartar. (sırğa)
qapanmağ – bağlanmaq. – Son gün bazar qapanardı.
qaplan – pələng. – Darda qalan pişik qaplan kəsili.
qaput – palto
qarana – böyük qab
qar – 1. qar; 2. buz
qaranquş (Tel.) – bax: qallanquc
qaratıq – uyuq, qorxuluq, müqəvva
qarı – qarı, arvad. – Qarım ölərsə kiçik qiyamət, mən ölərsəm böyük qiyamət qopar. – Molla dedi.
qarınca – qarışqa. –Yalvarram qarıncaya, Düşməsin gül üzüvə.
qarşı durmağ – 1. müqavimət göstərmək; 2. dözmək; 3. mane olmaq. – Ayrılıq çox güclüymüş, Qarşı dura bilmədim.
qaşawiş//qaşawuc (Kif.) – qaşov
qaşmarləmaq (ər.) – bax: məzzəqləməq
qaş maşası – maqqaş

qataqav // qətəqav – qaçaqaç
qaşınma – bax: gidişmə
qat – 1. kostyum, dəst; 2. mərtəbə
qatılmağ – iştirak etmək. – Ara-sıra yasa qatılan qadınların ölülərinin adlarını xatırlayaraq ürək yaxıcı xoyratlar deyər.
qatma (Tel.) – bax: sütlü
qavra – yeyə
qavrğa – qovurqa – qovrulmuş qabaq, qarpız və qovun çəyirdəyi. – Hər evdən külçə və qaurğa qoxusu gəlir.
qavzamağ – qaldırmaq. – Molla əlini qauzadı.
qav – qov. – Avçılar av tutmasın, Çaxmağı qav tutmasın.
qavğa – dava-dalaş, səs-küy. – Gəlin də öz növbəsində ağız qavğasına girər; Quşlar qavğa qopararsa, qonaq gələcəyinə inanırlar.
qavan – val
qawurcağ // qawucağ – kukla, gəlincik (oyuncaq)
qayət – olduqca. – Avçı ömründə qayət belə suslı bir nəsnə görməmişdi.
qayınbaba – qaynata. – Qayınbaban önündə, Uzanıb yatma, gəlin.
qaynağ – mənbə. – Əskidən bir ailə başçısının başqa bir məmləkətə səyahətə getməsi ev sahi-

bi üçün böyük bir üzüntü qaynağıydı.

qaysı (Ər.) – bax: ərük

qazanağardan – qalayçı

qazanmağ – udmaq, qələbə çalmaq. – Son misra hər kimin üzərində bitdiysə, o, oyunu qazanır.

qazbazı – dozanqurdu

qazuğ – mismar, mıx. – Eşşəgüvü qazuğa möhkəm bağla, sonra Allaha ismarla.

qazzaz – ipək taciri

qeyrət etməğ – çalışmaq, səy göstərmək

qəbir (Tel.) – bax: türbə

qədih – qovrularaq basdırma halında küpələrdə saxlanan ət

qəfənağ – xörək

qələm etməğ – təraş etmək. Bərbər biğ onu alırı, səqqəli qələm ediri.

qələmtəraş – üzqırxan

qəmərə – minik maşını (xüsusi)

qəmsələ – umac, cücələrə qəmsilə də verrix

qənəfil // qərənfil – qərənfil

qərbil//qarbil (Tel.) – xəlbir

qərə – qara

qərəçi – qaraçı

qəriciğ – qarının borcu. Fevralın 10-da başlayan və yeddi gün davam edən soyuqlar.

qərri – qarı

qəsil – yeni cücərən taxıl

qəssəm – bax: yemind
qəstənə – qəsdən, bilərəkdən
qəth etməğ – qələmi qədləmək
qətir quyruğu – şiddətli yağan yağış
qəyaçı – qaşkəsən
qəyin quda – ər və arvadın qohumları
qəyyim – bərk. Qeyyim bağlamağ, qeyyim qaçmağ, qeyyin tutmağ və s.
qıqırdağ (Tel.) – bax: xirxitta
qımıldamağ – tərpənmək
qındıdız – gündüz oğrusu
qıncıtmağ – qıcımaq (diş və s.)
qınnab // qınnap – qalın ip
qırığ doğırlıyan – sınıqçı
qırışmağ – sövdələşmək, barışmaq (bazarda malın qiyməti barədə)
qırjan // qırcan – xərçəng
qırçıl – çəp, çaş
qırğılığ // qıllığ – qırqovul
qırmağ – 1. gözdən salmaq; 2. sındırmaq; 3. xətrinə dəymək
qırmışlamağ – cırmaqlamaq
qırran – 1. taun; 2. ölüm
qirtmağ – qərtmək
qırtmağ-qırtmağ – cadar-cadar, para-para
qısrağ – at, ayğır. – Qısrağı gənc gözüydən, qızı ixtiyar gözüydən al.
qissa boylu (Tel.) – bax: külə
qıy – qın. – Qılınc öz qıyını kəsməz.
qızambığ //
qızambux (Ər.) – qızılça

qizambığ çıxartmağ – qızılça çıxartmaq
qızmaq – acıqlanmaq
qızqıtta – bax: xirxitta
qilav (Tel.) – bax: səmmiz
qızlaryoldaşı – kərtənkələ
qiqildləməğ – qaqqıldamaq (toyuq)
qilqabağ – göyənək
qil – tük, saç, qıl. – Qılı yağdan ayırır.
qilçi – iplik düzəldən. – Qılçılar yaral, həgbə, çual, gəbə və s. üçün iplik yapırdılar.
qilbaşi – barmaqlarda olan irinli xəstəlik. – Barmaqlarda və digər yerlərdə fır-fır olan külli miqdarda görünən qotura bənzəyən xəstəliyə «qilibaş» deyərix.
qirrə – iri dişləri olan adam
qirrəqir – qırhaqır
qəvədə // quvədə – pozğun qadınla kişi arasında vasitəçilik edən qadın
qoca – ər; yaşlı, ixtiyar, köhnə
qoca baba – ulu baba
qoduğ – 1. qoduq; 2. kosa. – Kosa «Qoduq» da adlanırdı.
qolay – 1. asan; 2. avand
qolbağa – qurbağa
qolpça – zaponka
qondara // qondira – ayaqqabı
qonşı//qonşu – qonşu
qorbağa (Tel.) – bax: qolbağa
qosqəddəh – göy qurşağı
qosqoca – böyük, nəhəng

qoşma etməğ – atı qoşalamaq. – O biri gün bir nəfər pəhləvanı ata mindirir, qoşmasına tamaşa edər.
qovan – arı pətəyi
qozağ – pambıq qozası və s.
quçək // qüçən – küçük
qubur – tapança
qullab // qullana – toyuq hini
qulunc – revmatizm. – Əlacı yüngül olan xəstəliklərdən deyə billəm yel və ya qulunc.
qulyabanı // quleybanı (Kif.) – quleybanı
qumquma (ə.) – termos
qurbanlığ (Ər.) – bax: dəhyə
qurna – 1. tas, ləyən; 2. künc, tərəf. – Hamama gedər qurna bəgənməz, toya gedər zurna bəgənməz.
qurnaz – bic, hiyləgər
qurru – quru
qurru məmmə – əmzik
qurrumsağ – qurumsaq
qurşun – güllə
qurtulmağ – xilas olmaq. – Qarpız yeyən qurtuldu, qabuğ yeyən tutuldu.
quru baqqal – quru tut, kartof və s. bu kimi şeylər satan
qusağ – vəba. – Qusağ bir köyü və şəhri tutsa, bir adam sağ qalmaz.
qusuru – parçanın artıq qalan hissəsi

quş kağıdı (Ər.) – bax: kağıt quşu
quş qavan – uyuq, müqəvva
quştükü – yastıq
quşvuran – quşatan, sapand
quvağ – kəpək, qoğ (şivələrdə)
quvatu olsun – İşin avand olsun!
quvurçağ – gəlincik, oyuncaq
qüddə – lovğa, gopçu

- L -

laf // həkət – söhbət
laq (Tel.) – bax: ləq
laqa//leqqa – mürəkkəb torbası
laqluq – laxlaq, laxlayan
lavaşa – təndirdə bişirilən çörək növü. –Təndürdə bişirilən çörəgə lavaşa deyəriğ.
lavlavı – lağlağı
lecan (ər.) – bax: incana
lellüğ – yelləncək
leylə – layla
ləc (ə.) – ləc, inadcıl insan
ləggam – onun-bunun qapısında yaltaqlıqla keçinən kimsə
ləğ – lağ, zarafat
ləğdən sələşməğ – lağ etmək, zarafat etmək
ləğvəçi – gopçu
ləhanə (ə.) – kələm. – Köydə ən çox əkdiyimiz ləhanə, xas, turp və s-dir.
ləq – lax (yumurta, qarpız və s.)
ləqəb // luqab – ləqəb

ləlängi // laləngi (Tel.) – mandarin, naringi
ləllük (Ər.) – yürgək
ləplig – uşaqları nəzərdən qorumaq üçün əşya
ləsqə – 1. qaxınc; 2. parik
lət – 1. yoxsul; 2. lüt, çılpaq
lətgə // lətigə – quru qaysı ilə bişirilən plov. – Quru qaysı ilə bişirilən pilova lətgə deyirlər.
ləvçə // lövçə – naqqal, gəvəzə
ləzgə – qırsaqqız olub yapışan insan
libin – çiy kərpic
lifə – hamam kisəsi
likav – ağız suyu
lıqıldamağ – hıqqıldamağ, inildəmək
lim – lil
lokuldan – rəf. – Divarda lokuldan adlanan rəflərdə evin tabaq-çanağı, qabları düzülür.
lopıldamağ – sızıldamağ, guppuldamaq (yara)
loş – boş. – Zinciri loş bağla, hər yanım incir.
loti – lotu
lökləməğ – möhürləmək
luqma // loxma – loxma, tikə
luti (Tel.) – bax: loti
lüs – 1. düz, hamar; 2. sürüşkən

- M -

maani // məəni – mahnı, şərqi
maça qətir – dişi qatır

mada – təndir çörəyi, lavaş, fətir. – Əkmələr bunlardır: yuxa, mada və ya sac əkməgi.

madanus – cəfəri

mahana – bəhanə

maxmara (ə.) – su qabı, qrafin

malamat – qalmaqal

malinc // malınç // – mala
məlis (Tel.)

mama – gənc və gözəl qadın

mandal – bax: faq

manqala // – manqal
manqal (Tel.)

manqas//maqas (Tuz.) – qayçı

manqaş // maqaş // – maqqaş
maqqaş (Kif.)

manqır – 1. qəpik-quruş; 2. xırda pul. – Kifr Əhməd həyatı boyunca cibində bir manqır tapmaz imiş.

maraz (Səb.) – bax: kərdi

marhama (Tel.) – bax: yağlığ

marığ – pusqu

masmavi (t.) – tünd göy, mavi. – Geyimləri bu töhür rəngdə olardı: masmavi, pembə, bəyaz

mastara – reyka

matal – nağıl, dastan. – Bir matal da dedi bunun üzərinə.

matar (ə.) – aeroport

matbax (Tel.) – bax: ocağlığ

mavant – sıxıntı

mavılmağ – özündən getmək. – Molla yıxlar və tox zədələnər, mavılan kimi olar.
mavıldamağ – mıyıldamaq
mayis – may ayı
mayasır – babasil
mazar – bax: türbə
mazı – yovşandan hazırlanan boğaz dərmanı
mazi (ə.) – keçmiş. – Keçənə mazi deyəllər.
meyus (ə.) – məyyus, ümidsiz
məbzül – qiyməti baha olan və çox tapılan mal
mevağacı – tənək
meytər – bax: davıl, nağara. – Meytərin səsi uzaqdan xoş gələr.
mez – stol
mərcimək – mərci. – Üç il sora o yerdə küncüd, mərcimək əkərix.
məcrəfə (ə.) – kətmən, böyük toxa
məğrib // miğrib – axşam, toran düşən. – Məğribdən sonra qonşudan qazan gətirmək uğursuz hesab olunur.
məhəl – mağaza. – Bir gecə Molla oğlu ilə evinə gedərkən xerxızların bir məhəlin kilikini xırxıladıqlarını görüllər.
məxmur – 1. məxmər; 2. xumar göz
məkinə – maşın. – Yaxud da dərracə var, makinədi, salırıx içinə.
mələməl – dopdolu

məlik – şah. – Səbrnən çiylər bişər, səbrsiz məlik çaşar.

məlləf – bir iştə çox usta olmaq

məlləqə (ə.) – 1. yalandan birinə yarınan kimsə; 2. yaltaq

məlzəmə – kitab çapı, çap vərəqi

məmarı arşun // mimari arşun – memar arşını (61 sm uzunluğunda)

məməl (ə.) – zavod, fabrik

məmələ (ə.) – sövdələşmək (bazarda)

məndil // yarma // peştəmal – yaylıq. – Gecələr təbdil yeri, Başa al məndil, yeri.

mərdmən (Tel.) – bax: nardıvan

mərəzə – düyü tarlası

mərəz – xəstəlik. – Qərəzdən mərəz hasil olu.

mərhəba – salam. – Bu gələn əbalıdı, Ağzı mərhəbalıdı.

mərhəmə (Xan.) – bax: yağlığ

mərzip//məzzüp (Ər.) – nov, novalça

məşalə (Tel.) – bax: şəfiltə

məzzəq//mazaq (Tuz.) –1. zarafat; 2. ələsalma; 3. məzələnmə. – Qurd qocalsa, köpəklərə məzzək olur.

məzzəqləməq – məzələnmək

məzzət – hərrac. – Evimi məzzətə çıxartdım.

mıvalmağ//muvalmağ – bayılmaq

miçəg // miçək – ağcaqanad

mixənnət – müxənnət, xain, namərd

miqava – 1. karton kağızı; 2. karton qutu

milla cürrə – biçindən sonra tarlada olan quş, birəbitdən

mircalığ – yemlik. – Yazıda da çoxlu xəzrəvat və otlar bitir, məsələn, gəncər, mircalığ.

miri – dövlətə aid olanlar

misəlləs – üçbucaq

miskin – fağır, miskin. – Mən miskin olduğumçün, Üstümə qudurdu qəm.

misqal – 4,65 qr. ağırlığında ölçü vahidi

misr (ə.)//şamdarı – qarğıdalı

mişamma – müşəmbə

mizavir (Tel.) – bax: müzür

mon // mon çəhrəli – qaraqabaq

movalmaq – özündən getmək, huşunu itirmək

mosmor – tünd bənövşəyi

moz – banan

muxtar – kəndin başçısı, ağsaqqal. – Məhəllənin muxtarı Molla ilə birgə kəbinkəsmə mərasimini yerinə yetirərdi.

muraz – murad, arzu, muraz

musalla – ölü namazı daşı.
– Musallanın çim daşı,
Yandı ürəgim başı.

mutluluqlar diləməğ – səadət arzulamaq

müdəbbir (ə.) – mədəni, ağıllı

mühəqəq (ə.) – 1. əmin; 2. yəqin; 3. labüd

müşağib – araqatan

müəzzəf (ə.) – inzibatçı, qulluqçu

müfti – axund, molla
müməssil – artist
münəvüər – elmli adam, ziyalı
mürşüd – 1. müəllim; 2. mənəvi dayaq. – Sən mənim mürşüdüm yar, Aç qoynun üşüdüm yar.
müsafir – qonaq. – Gec gələn müsafirin gileyliyi özündədi.
müşki – kişilərin başlarına sarıdıqları sarıq
mütəsərrüf – quberniya rəisi, vali
mütrip (ə.) – müğənni
müzür – başqalarına pislik edən insan, hər şeydən narazı adam

- N -

naccar (ə.) – dülgər
nağara – böyük qab
nahat il – bəd il, qıtlıq il
naxsı // hası (Səl.) – hansı. – Alver edənlərdən tez-tez naxsı, nişin kimi təəccüblə tələffüz edilən sözlər eşidilir.
naqqara (Tel.) – bax: davul
nalça – ayaqqabıların altına vurulan dəmir
nalalma – kiçik çəkic
namazlıq – namazlıq, namaz qılmaq üçün kiçik xalça
nanca // nağarta – nə qədər, neçə. – Sənə leyla edərəm, Nanca bu canım sağdı.
nanqış // naqış – naxış

naradev – dev boyda adam (kişi)
nardıvan // nərdıvən (Bast.) – nərdivan
nargilə//nərgülə – sulu qəlyan
nasır – qabar, döyənək
naşirin – çirkin (qadın, qız)
navça – bərə
nay – ney
nazdar – ərköyün, nazlı
nefiskə – acgöz, nəfsini qorumayan
nefiskəliğ – acgözlük
nəfəs dəgməğ – göz dəymək, nəzər dəymək
nəgbət // nəkbət – uğursuz. – Böyük baş dövlətti, böyük ayaq nəgbətti.
nəgbətliğ – bədbəxtlik
nəmrəşik (Ər.) – oxlov
nənə – ana. – Qızın nənəsi öncə nazlanar.
nəsi – nəyi. – Gedin fələk yanına, Baxın bizdə nəsi var.
nəsrani – xristian. – Sənin nəsrani zülfün, Çəmlər aslanı zülfün.
nəzul // nüzul – vurğun (xəstəlik)
nikaf – xanazır xəstəliyi, qulaqdibi (şivələrdə)
nıkıldamağ//nikildəməğ – hıqqıldamaq
nişanlamağ – bax: adaxlamağ
nobar – nübar
nuxta (Tel.) – bax: rəşmə

- O -

obal // nobal – babal. Obalım boynıvda qalsın
ocağ – 1. nəsil, ev, ailə; 2. ocaq

ocağkor//ocağıkor – uşağı olmayan, adam haqda deyilir.
Ocağın;
Daim yansın ocağın.
Övladın qeydinə qal
Kor olmasın ocağın.

ocağlığ // ocaxlıx – mətbəx

oda – otaq

oğız//oğüz//ağız (Kif.) – ağız südü. İnək doğanda üç gün ağız suti sağırığ.

oğur – yol, məqsəd

oğursuz – bax: uğursuz

olaşmağ – çatmaq, yetişmək

ortanca barmağ //
ortancı barmağ (Tuz.) – orta barmaq

ortağça oğul, qız //
ortancı (Tuz.) – ortancıl oğul, qız və s.

ottuz – otuz

oturmax – 1. yaşamaq; 2. qalmaq. – Şəhrdə bir geçə oturmaxçin bir gün yol gedərix.

- Ö -

ölət – taun. – Ölət sipirsin

ög // öng – qabaq, qarşı, əvvəl

ögey – ögey (baba, nənə, bacı, qardaş, qız, oğul)

ögləməğ – 1. irəliləmək; 2. öyümək

ögsiz – hər iki valideynini itirmiş uşaq

öli gunəş – buludlu havada çıxan istisi az günəş

ölim imləməğ – ölüm diləmək
örnək – nümunə, misal
ötməğ (Tel.) – bax: saynamağ
özbaba – bax: həq baba
özbacı – həqiqi bacı, öz bacım, öz bacın və s.
öz-öz kərtməğ – özünü öymək

- P -

paçagərmə yeriməğ – qaz yerişi getmək
pantur // pantalun (ə.) – şalvar
papağan – tutuquşu
papla sileyman – hop-hop
papaz kağıdı – oyun kartı
papur – gəmi
pardağ – daz, başını daz qırxdırmaq
partav – pərtov
paşaquocağı (Tel.) – bax: qosqəddəh
paşa yemişi – quş yemişi
patağ – qizli görülən suç
patağı çıxmağ – suçu açılmaq
patata – kartof
paya – pillə
paydost etməğ – fasilə vermək
peçə – niqab, duvaq. – Peçən qaldır bir baxım, Allaha da xoş gedər.
pendir // pənir (Tel.) – pendir. – «Kosa»ya qapı açılar, ona yemək, yağ, pənir və digər nəsnələr verilir.
peşində olmağ (düşməğ) – izləmək, izinə düşmək

peştəmal – baş dəsmalı, hamam dəsmalı. –Dama çıxdın göründün, Peştamala büründün.

pəhlə vurmağ – öyünmək, özünü başqalarına tay etmək

pək – 1. təmiz; 2. pak. – Suydan sabun hər şeyi pəklərsə də üz qaralığını pəkləməz.

pəkləməğ // soymağ – 1. meyvənin qabığını soymaq; 2. təmizləmək

pəqir // paqır (Kif.) // paxır (Tel.) – paxır

pələ – yağış. – Qışda yağan ilk yağış pələ adlandırılır; Gözəl bir pələ düşsə, üzlər gülər.

pəncər – ot, pencər

pəpənə – xoruz pipiyi

pərkəm // pirkəm – partlama (xəstəlik) – Pərkəm tutasan.

pərrəm-pərrəm – pərən-pərən (olmaq, düşmək)

pilək – val

piləsgər – kotan. – Yeri cütnən və ya piləsgərnən hazır edərix.

pim – quyruq yağı, piy

pin (Tel.) – bax: tavığ damı

pinəduz // pinəçi – pinəçi

pinələməğ – yamamaq (ayaqqabı)

pirinc – düyü. – Biz burğul, məcmək, noxud, pirinc yiyərix.

pis baş – xəsis, simic, tamahkar, acgöz

pispinti – pinti, səliqəsiz

piştav – tapança

piy (Tel.) – bax: pim

post//pust – 1. dəri; 2. xəz; 3. kürk; 4. qabıq. – Güvənmə sıx dostuva, saman doldurur postuva.

pot // qırışıq – bürüşük, qırışıq

pul – 1. qəpik; 2. düymə; 3. marka; 4. nərd və ya domino daşları. –Hər kim gündüz matal danışarsa, parasının pul olacağına inanırlarmış.

pullamağ – düymələmək

puruz (Tel.) – bax: tilf

püç (Ər.) – bax: pük

puşu –1. duvaq; 2. qara örtük; 3. Qadınların qoyduğu papaq

pük – çürümüş, içi boş. – Dost məni qozla ansın, o da pük olsun. On barmağı pük olsun. (çürümək)

pülüs – çöp

pülüş//püllüş – üzüm tumu. – Manqırı üzümə verim, pülüşü var.

pülüş olmaq – qıc olmaq

pülüş-pülüş – qırış-qırış

püskül – saçaq

pütün//potin – qısaboğaz ayaqqabı. – Ayağımda güllü pütin soyununca hal qalmadı.

- R -

ravrava – körpələr üçün özü gedən araba (xodunok)

rəxt – yəhər-qayış. Gümüş rəxt, gümüş rəşmə yaraşır qır ata.
rəspə – ayaqqabının üstündə dəlik açmaq üçün alət
rəşkə – fərməş
rəşmə – yüyən. – Arzunu tayına mindirdi, rəşməsini də özü çəkməğə başladı.
rəzil – rəzil, alçaq
rısqat // rızgat – ölü sahibinin cənazə qalxmadan yoxsullara payladığı pul
risvay (olmağ, etməğ) – rüsvay (olmaq, etmək)
riyazə – idman
rizq – ruzi. – Müsafir rizqini ayağıynan gətirər.
rüt // rüt qut – lüt-üryan; lüm-lüt

- S -

saətgülü – günəbaxana bənzər kiçik gül
saf olmağ – ortadan süvüşüb çıxmaq
safta – səliqə ilə üst-üstə yığmaq
safta etməğ – səliqə ilə yığmaq
sağ – 1. əsl; 2. doğru, düz. – Mən yara qurban getdim, İstərsiz sözün sağı.
saxlamağ – gizlətmək. – Dərdini saxlayan dərman bulamaz.
saxtaçı – yalançı, saxtakar. – Saxtaçısan sən.
saqınmağ// irağlaşmağ – çəkinmək, ehtiyat etmək, saqınmaq, aralanmaq

saqıt olmağ – təkrar sinifdə qalmaq
saqqa (ə.) – evlərə içməli su daşıyan adam
sala – azan
sala çəkmək – azan vermək
salaca – 1. cənazə; 2. tabut. – Al vala, yaşıl vala, Salacam düşdü yola.
salam-səbbəh – salam-əleyk, dostluq, yaxınlıq. Aramızda salam-səbbəh var.
sarlatan (ə.) – xərçəng xəstəliyi
salı günü – çərşənbə axşamı. – Sali günü taraş olmaq, gün sarıda işləmək uğursuz hesab olunurmuş.
sallacə // səllacə (ə.) – soyuducu
sallamaq – tərpətmək. – Əgər qismət isə bir il sonra gəlin beşik sallamağa başlar.
sallanğuç // – yelləncək. – Sallanğuçlara,
sullancux (Tel.) dolamalara minərlər.
sallanmağ – 1. nazla yerimək; 2. silkələnmək. – Mənim o nazlı yarım, Yeridikcə sallanar.
salta – kişi geyimi. – Salta gey, çiftə bağla, Daha gözəl olasan.
salt adam – ailəsiz, kimsəsiz adam
samırsaq – sarımsaq
sammun (ə.) – çörək
sam yeli // səm yeli – səhrada əsən çox isti külək
sandal – 1. yay ayaqqabısı; 2. səndəl ağacı
sandığ – 1. sandıq; 2. tabut. – Bu vaxt ölü yuyulur, kəfənlənir və

pambıqla döşənmiş sandığa – tabuta qoyulur.

sanəviyə (ə.) – lisey, orta məktəb

sapan // soppan (Tel.) – sapand. – Ardıyca sapan daşı.

sardab // sardap – 1. sərdab, zirzəmi; 2. su hovuzu

sarıqulağ – yaxın qohumunun (qadın) əxlaqsızlığına göz yuman kişi

sarrı darı – darı

satıl (ə.) – vedrə

satlıca – sətəlcəm

savaş – müharibə. – Ay tutularsa, savaş olacağına inanırdılar.

savuğ//saviğ (Ab., Kif.) – soyuq. – Suları savuxdu, babam, bir diş içilməz.

saya//sayadan – damda yatmaq vaxtının keçməsi. – Yay mövsümünün sona yetib, havaların sərinləşdiyini göstərmək üçün 14 Əylül gecəsi tonqallar yandırılır, buna «saya» deyirlər.

sayalanmağ – öyünmək

sayıq (ə.) – sürücü. – Dərracə var, makinədi, sallıx içinə, sayığı var, sürər özün.

saynamağ – oxumaq (quş), ötmək

sazlama//sadlama (Ər.) – ağı. – «Vay balam, vay» deyərək sazlamağa başlarlar.

sazlıyan – ağı deyən. – Qadınlar tərəfindən düzənlənən yasda bir sazlıyan qadın bulunur.

səbəh məhəli – səhər vaxtı

səbil – ehsan bulağı

sədat – insaflı. – Kim talibdi, kim sədat.
sədr kəlləsi – məclisdə ən yuxarı və mötəbər yer
sədriyyə – önlük
səgirməğ (Tel.) – bax: qoşma etməğ
səhəb – sahib
səhən – səhəng. – Dam axanda altına bir səhən buraxarıx.
səktə vırmağ – birinin işini pozmağ, pəl gəlmək
səqət – 1. şikəst; 2. nizam və saz olmayan
səqət adam – şikəst adam
səqət iş – nizam olmayan iş
sələşməğ – danışmaq, söhbət etmək. – O yarın köləsiyəm, Sələşdikcə naz eylər.
səlitə (ə.) – sırtıq (qadın, qız)
səllim səyyid – baş örtüyü və üst palları geymədən küçəyə çıxan qadın
səloz – araqatan
səmmiz // səmiz (Çar.) – kök, yağlı; şişman – Köpək səmmiz olsa da, əti yeyilməz.
səncaf – zaponka, taxma düymə
səpinmək – dönmək. – Şahzadə qardaşlarından bir xəbər tutmaq üçün «gedər dönər» yoluna səpinir.
sərab – mirac, ilğım, sərab
sərbittəməğ – başıboş buraxmaq, sərbəst buraxmaq
sərənd – şadara
sərənd etməğ – dəlik-deşik etmək

sərrac – yəhər düzəldən. – Sərraclıq Kərkükdə incə sənətlərdən olub.
səyalan – sel
səyyis – mehtər, ata baxan
səyiz – nökər. – Əskidə bizdə xan, bəg, səyiz olardı.
səyyalə – yarğan
səyyarə (ə.) – avtomobil
sıcağ – isti
sıçan oynağı – çopurluq. – Dəri üzərində deşiklər əmələ gətirən xəstəliyə «siçan oynağı» deyirix.
sığır – cöngə, buğa, kəl, öküz
sıx – 1. sıx; 2. çox. – Güvənmə sıx dostuva, Saman doldur postuva.
sıxxora – dələ
sıxma // zıxma – lifçik. – Qadınlar köksünə sıxma geyir, başlarına salta taxırlar.
sıkon // sukan // sukkan – sükan
sımsıx // simsix (Tuz.) – dürtmə
sından – zindan (dəmirçi zindanı)
sınnan – xərçəng xəstəliyi
sıprıxmağ – sıpıxmaq, sivişmək; aradan çıxmaq
sırğa – bax: tana
sırsır – tarakan
sırt – 1. arxa; 2. kürək, bel
sırtmağ // sürtməğ – qulançar
sıyrıncaq – bax: lüs
sibil – 1. müştük; 2. baca

sibilçi – 1. bacatəmizləyən; 2. qəlyan, müştük düzəldən. – Kərkükdə sibilçilik sənəti tütünün qullanması ilə bağlı olmuşdur.

siflə – xain, namərd; qədirbilməz – Sifləyə könül vermə, Ya yandırar, ya dağlar.

siqara // ciqara – siqaret. – Siqara çəkməz, acı qəhvə içməz.

siləhlığ – sinəbənd. – Altun siləhlığ taxsın, Bənzəsin türkman qızına.

silfə (ə.) – kredit, borc, nisyə

simsəkləməğ – dümsükləmək

simsim – küncüd

sinema – kinoteatr

singil – ziyil

sini zərf – Ramazan ayında 30 gün qəhvəxanalarda oynanılan oyun

sipsiyah – qapqara

sirxana – qiymətli əşyalar saxlanılan yer, seyf. – Dörə bitişik sirxana və xəzinədir.

sirr olmağ – üyüşmək

sisəm – böyük çarpayı, taxt, iki nəfərlik çarpayı

sisqal – qumaşı parıldatmaq üçün işlədilən alət

sitara – damın üstündə olan dairəvi kiçik divar. – Kərkükdə evin üstü örtülür, dörd yanına hasar çəkilir, bu divara «sitara» deyirlər.

sitrə (ə.) – pencək
siyah – qara. – Ağ gün görmüş, oğullu-qızlı bir qadın gəlinə ağ gün, altun taxt, siyah kölə diləyər.
siyahmur – qaraya çalan, tünd bənövşəyi
siyan // sıyan // siyana (Tuz.) – kanalizasiya suları, iyli palçıqlıq; mətbəxlərdən çıxan çirkli su
siyana batasan – böyük fəlakətə uğrayasan (qarqış)
soğurçağ // soğlıcan – soxulcan
solaqay // solxay (Tel.) – solaxay
sona – ördək. – Sona göldə bir üzdü, Bir çalxandı, bir üzdü.
soqaq – dalan
sopand – sapand, quşatan
soy – nəsil. – Adaxlı parasız, pulsuz, amma iyi bir soydan gələrsə, «xandandan xata çıxmaz» deyillər.
sögüş – söyüş
stop – bax: durağ
su // suv (X.) – su
su kəsməğ – kəsmik, qatıqda suyun yığılması
su köpəgi – akula, köpək balığı
subay – zabit
suğatlamağ // sığatlamağ – sığallamaq
suqaq – küçə. – Suqaqdan səs gəldiysə, Qapıya getmə gəlin.
sulu kabab – bozartma
suleyman quşu (Ər.) – bax: papla sileyman

sumbağ – sumax
summa – 1. çəkic; 2. ling
sumpara – sumbata kağızı
suva – suvaq
süksünnu (Tel.) – bax: qambur
süflə // ziflə (Tuz.) – aşağı təbəqəyə məxsus kimsə
sürü (Tel.) – bax: tabır
süslənməğ – bəzənmək. – Hamamdan sonra gəlin süslənərdi.
süslü – bəzəkli. – Yerə sərilən süslü bir namazlığın üstünə gətirdikləri ərmağanlar düzülərdi.
sütlü // sütli – qatma, kəndir
süt nənə // süt ana (Tel.) – süd anası

- Ş -

şabbaş // şabaş (Ər., Kif., Tuz.) – şabaş
şah arşını – uzunluğu 90 sm olan arşın. – Qaynananın dili şah arşını kimi uzanardı.
şahad – şahid
şahada – şəhadətnamə
şahmaran – şahmar ilan
şaqa – zarafat. – Bir gün Teymurləng şakayçün Molladan sorar.
şaq – şallaq. – Yüz şaq çaldılar özünə, atdılar yazıya.
şaqlam – bürkü, çox isti hava, günorta vaxtı

şalğam – çuğundur rəngində kökə oxşar tərəvəz. – Üç ildən sora o yerdə küncüd, zılx, şalğam əkərix.
şamal yeli – Şimal yeli
şamdarrı – qarğıdalı
şanəşin ev – ikimərtəbəli ev
şans – bəxt, tale
şapallut – şabalıd
şapma // şapalağ – şapalaq
şapmalamağ – şapalaqlamaq
şappal – dalğa
şapur-şupur – şap-şup
şaş (Tel.) – bax: qırçıl
şaş qumaş – sıx hörülməmiş parça
şaşırmağ – çaşmaq
şat (ə.) – böyük çay. – Bağdatda xurmalıxlar, Şatda oynar balıxlar.
şatıtutu – böyürtkən
şavır//şavul – 1. düdük, davul; 2. fit, fışqırıq
şəb – zəy
şədədə – cehiz
şəfiltə – məşəl
şələl (ə.) – iflic; insult
şəltə – yorğan, döşəküzü
şəl-küt // səlli-küt – şil-küt
şəmşəmə kor – yarasa
şəpərzə – çaşqın, tələşlı
şəpərzə olmağ – tələş içində donub qalmaq
şərbə – su qabı; küpə
şərbət gecəsi – qızın «hə»si veriləndən sonra qohumlar yığışmaq üçün vaxt

təyin edirlər. Buna «şərbət gecəsi» deyirlər.

şərə başı – cığır, bulaq və çaya enilən dar yol

şarqı (Tel.) – bax: maani

şətrənc (ə.) – şahmat

şiqələt//şıqala – yük, yataqları yığmaq üçün yük yeri

şıllı şıvan – dəhşətli şivən

şırrım-şırrım – şırım-şırım

şingilməğ – birinin yolunu kəsib durmaq

şinqir // şinşin – saç bağı. – Saçlarını hörük edib, şinqir, şinşin bağlayırlardı.

şişçi – mıx, nal və s. bu kimi əşyalar düzəldən

şişman – çox kök adam

şoxım//şoxum - şum. – Şoxumu iki davardan əkərix.

şorakat//şorlağ//şor – şoran, şoranlıq

şum – yas, uğursuz

şum günü – uğursuz gün. – Şum gün, şum saat olaydı, Gözüm sənə düşən gün.

şumdar – bədbəxtlik gətirən. – Xoruz axşam çağı bannasa, «bu şumdar baş yeyər» deyir və başını kəsirlər.

- T -

tabaq//qab (T.X.) – 1. boşqab; 2. nəlbəki

tabak – peyin. – Şitilləri əkməzdən əvvəl ora tabak atarıx.

tabança – bax: qubur
tabilmas – bax: dumbulbas
tabbax (ə.) – ocaq, soba
tabır // tabur // tabxır – sürü; dəstə – Bir tabxir göyərçinim, xırmandadı, xırmanda.
tabır bozan – bəhanə axtaran, öcəşkən, hər şeyə mızıx qoyan
tağara – böyük qab
taxım – dəstə. – Adam da getdi baxdı, bir taxım qızlar oturuplar.
taxta səqqəl – girdə saqqal
taqalat – yamaq
taqq etməğ – bezmək, cana yığılmaq, səbri tükənmək
taqla vurmaq – mayallaq aşmaq (göyənçin)
talaq (ə.) – boşama, boşanma
talib – tələbkar. – Kim talibdi, kim sədat.
talx – acımsov, acımtıl, acımtrax
tamata – pomidor
tambura – musiqi alətinin adı
tamğa – 1. damğa; 2. möhür
tana – sırğa. – Tana da şirin, qulaq da şirin.
tandürə – qadınlar üçün yuxarısı dar, aşağısı geniş yubka.
tapan//tappan – daban, qapı dabanı
tapı – sənəd (kupça)
tapx – cökmə (bina və s.)
tapmaca // tammaca (Tel.) – bax: bulmaca
taptamaq – kötəkləmək. – Qəmbəri tuttular, ölüncə ağacla taptadılar.

təpişdirməğ (Tel.) – çox yemək
taptapa – təzək
taraş olmaq – üzünü-başını qırxdırmaq. – Salı günü taraş olmaq uğursuz hesab olunurmuş.
taraş pıçağı – ülgüc
tarxana (Kif.) – bax kəşam
tarı devəsi – parabizən
taulamax – əyirmək
tauli (ə.) – nərd
tav – 1. tab; 2. qüvvət; 3. sərt. – Səni vuran avçının, Əlləri tav tutmasın.
tavığ damı – hin
tavırdaş – çapacaq
tavla – tövlə
tavlamağ – yunu iplik halına salmaq, əyirmək
tavlatma – əldə toxunan parça
tay – dayça. – İstəsəy mən Arzını öz tayıma mindirrəm.
tel – 1. teleqram; 2. teleqraf
təban (ə.) – təbii ki. – Təban qatırın ömrü qısadı.
təbənə – yorğan iynəsi
təbdil (ə.) – yer dəyişmək, bir yerdən başqa yerə köçmək. – Geçələr təbdil yeri, Başa al məndil, yeri.
tədavü (ə.) – müalicə
təgbir – tədbir
təgə // təggə (Daq.) – təkə

təhəmül (ə.) – dözüm

təxmisçi – qəhvə döyən. – Əl bəyaz, əyağ bəyaz, xınna qırmızı, Yandırıb qoyub bizi təxmisçi qızı.

təxsir etmə – nöqsan axtarma

təxtədair – çəkməçinin dizləri üstünə qoyduğu taxta

tək – o biri tay. – Yarımçün potin almışam, Təkini yolda salmışam.

təkə (Tel.) – bax: təgə

təkək – 1. şax; 2. xiyar, qarpız, qovun və s. tağı

təkərlək – təkər

təkərləmə – təkrar

təkəşər – dəyişik, tərs (ayaqqabı, corab və s.)

təkləməğ – 1. toxunmaq; 2. döymək; 3. itələmək. – Ağamı təkliyə-təkliyə gətirillər.

təqsim eləməg – bölmək. – Bunu dört təqsim elə, yəğin.

tələng // təlnəg – lələk. – Tələngi durmadan padşaha apardı. – Padşah çox bəgəndi təlnəgi.

təmbəl // tənbəl – 1. özül, bünövrə; 2. təməl

təmmə (Tel.) – bax: təpmə

tənəşür – üzərində ölü yumaq üçün taxt

tənnə – kök qadın, gəlin

təpmə – təpik. – Gah təpmə, gah şappalağ gül oğlanı bəzədir.

təpmə atmağ – təpik atmaq. – Arvad darıldı, kürkümə bir təpmə atdı.

təpmə çalmağ – təpik vurmaq. – Baxdı qatırın fikri var muna bir təpmə çalsın, gəbərtsin.

təpmək – soxmaq. – Başını təpərəm təndirə.

təppə – təpə. –Təppən üstünə düşəsən.

tərə-türə – vəzəri, acıtərə

tərxana – qatıqla qarışdırılmış burğul

tərmiyə – yağla xurmadan hazırlanan yemək

təsbit etmək – sübut etmək, təsdiqləmək

təscil (ə.) – lentə səs yazma, yazıya almaq

təşxis (ə.) – yoxlamaq

tətəg // tətək – tağ, saplaq, gövdəcik

tətəg sürməğ – tağ vermək

təyyarəxana – aeroport

təziyə – yas, yas yeri

təziyəli – yaslı. Yaxın adamı ölən.

təziyəliğ // yaslığ – üç gün davam edən yas məclisi vaxtı dost və qohumların gətirdiyi pul, ərzaq və heyvanlar

təzzək – təzək

tilf // tilif (Tuz.) – çayın xıltı

tirkaman – yay (yay-ox)

titi – qatarda nəzarətçi və bilet satan

tox – 1. möhkəm; 2. doyunca. – Molla yıxılar və tox zədələnər; Bir plov bişir, bir tox yeyəx.

toxum (ə.) – bax: çevirkə

toq – noxta, xalta
toqışmağ – büdrəmək
toqqalaşmaq – əl verib görüşmək
tombız // tombuz – dumbuz
tombuzlamax – yumruqlamaq, dumbuzlamaq
tonqal – bol, çox, ağır, yüklü
toppal // topal (Kif.) – topal, ayaqdan şikəst
toppal qardaş – Böyük Ayı bürcündə sonuncu yeddinci ulduz
toparlamaq – yığmaq, toplamaq
torağ – tələ
torağçı – tor (tələ) quran
torağ yoğurdu – qurut
torun (t.) – nəvə
toy – bax: dügün
toyun havadarı – toy ağası
tozbağa – tisbağa
tozçular bazarı – at, qatır, eşşək satılan bazar
toz şəkər (Tel.) – bax: xurda şəkər
tövr – 1. tövr, əhval; 2. davranış
tren – qatar
tuc // tunc – tunc
tuman bağı (Tel.) – bax: uxçur
tumar etmək – qulluq etmək, sağaltmaq, tumarlamaq. – Yaralandım yatmadım, Yaram tumar etmədim.
tumdurmaq – 1. batırmaq; 2. fikrə qərq olmaq, fikrə dalmaq
tumlamaq – doldurmaq (quyu və s.)
tummağ – 1. baş vurmaq, batmaq (suda); 2. yoxa çıxmaq

turşok//turşaka (Tuz.) – turşəng, quzu qulağı
tutuşmağ – 1. vurulmaq; 2. aşiq olmaq
tuzağ – 1. mühasirə; 2. tələ, tor
tuwaşi (Tel.) – bax: begir
tülüngi – yaramaz, tülüngü
tüngülməğ – atılıb-düşmək, dingildəmək. – Qoyun o yana tüngüldü düşdü, bu yana tüngüldü düşdü.
tüngülə-tüngülə – Sıçraya-sıçraya, dingildəyə-dingildəyə: Gəlir oğlan anası dingildəyə-dingildəyə
türbəliğ – qəbiristanlıq
türlü – hər cür, müxtəlif. – Bu insanın hər türlü əskikliklərdən uzaq olduğunu təsbit edir.
tütün – 1. tütün; 2. tüstü. – Ha dura-dura yorulduq, Tütünüvüzdən boğulduq; Od yanar, tütün çıxar.
tütünnəməğ – tüstüləmək, tüstülənmək

- U -

uculamağ – düyünləmək, sarmaşmaq. – Zülfün ucular məni, Dönər qucular məni.
uçağac – dar ağacı
uçuğ//uçux – uçuq (dodaqda)
uçuxlamağ – uçuqlamaq
uğur – qismət, ruzi

uxçur – tuman bağı. Öl, əzil, uxçuuvdan özüvü boğ.

uxçuruğ//uxçırıx – hışqırıq

uğursuz – bədbəxt, talesiz. – Ona görə ağlayıram ki, anan ölüb, sənin kimi uğursuz qalıb.

ulaşmağ // olaşmağ – çatmaq

ulduz (Tel.) – bax: yulduz

ummağ – 1. gözləmək; 2. ümid etmək. – Ummadığın daş baş yarar.

ummi (ə.) – savadsız, cahil

umuz – bax: çigin

ustra – ülgüc, britva. – Dərd bir ustradı, utsam yaralar, atsam yaralar.

uymağ – 1. uyğun gəlmək, 2. ayaqlaşmaq. – Əsil əsilə uyar, Vəfasız vəfasıza; Zaman sənə uymazsa, sən zamana uy

ussu (Ab., Daq., Tel., Tis., Tuz.) – bax: su

- Ü -

üc – uc

üçküntür (T.X.) – bax: çüküntür

üllə – laylanın ilk sözü; uyu balam, uyu

üləməğ – ulamaq

ürəgi pıt-pıt atmağ – ürəyi gup-gup atmaq, çırpınmaq

üskək // üskəg – yüksək

üskəmbil (Daq.) – bax: isgəmbil
üsküt olmaq – susmaq. – Patşah üsküt oldu, qızlar evlərinə döndülər.
üzbar – 1. üzləşmək; 2. gıc, gıc olmaq
üzgünçi – üzgüçü
üzli – ağır təbiətli; ciddi
üzsiz//üzsüz – utanmaz, üzlü adam, düşük
üzsüz hayasız – utanmaq nə olduğunu bilməyən adam
üzsüz müsafir – üzlü qonaq

- V -

vali – vali, quberniya rəisi
varavurd – öz-özünə danışan
varmaq – 1. ərə getmək, 2. çatmaq, getmək. – Nikah mərasiminə qədər «adaxlı qız» varacağı oğlanın necə olduğunu bilməz.
varvar (Tel.) – bax: qubur
vayı – görə
vayvay yımırtası – hər şeydən tez inciyən, naznaz
vaz keçməğ – fikrindən dönmək. – Mən dilimnən vaz keçməm, Olursam dilim-dilim.
vır // vur – sərsəm, dəli. Vur kimin gəziri.
vucdan – vicdan
vülə – müraciət forması; ey adam (təhqir mənasında)
vüsulə gəlmək – hasilə gəlmək

- Y -

yaban – yad, özgə. – Dilə dəgər, Yaban söz dilə dəgər?

yabançı – xarici, yad

yadlamaq – yada salmaq, anmaq

yağlığ – dəsmal

yağlış // yağnış // yannış – yanlış

yağ yımırta – qayğanaq

yağda mırta (Tel.) – bax: yağ yımırta

yağ yarası – kor çiban

yağışmağ – yaraşmaq

yaxa – 1. yaxa; 2. tərəf

yaxasız köynək – kəfən

yaxnaşmağ – yaxınlaşmaq. – Qorxullar Qəmbərə yaxnaşsınnar.

yaltanmağ – 1. Xoş gəlmək üçün əlindən gələni etmək; 2. yaltaşlanmaq. – Köpəyə yaltanma, qoy aslan yesin səni.

yama – yamaq

yamaçı (Tel.) – bax: pinəduz

yamalığ – bax: yama

yan...yan – ya...ya – Yan məhəbbət şirindi, Yan ağlım kəmdi mənim.

yanaşa – yan. – Gəldiv, gördüv bir at, Ye, yanaşasında yat.

yandıra – alaq otu

yanpürü // yampırı (Tuz.) – 1. çəp; 2. əyri

yanpürü baxmağ – çəp baxmaq, yan baxmaq

yanpürü yeriməğ – əyri yerimək
yanşağ – gəvəzə, çox danışan
yanşamağ – gəvəzəlik etmək
yapma (Tel.) – bax: taptapa
yaral – xaral. – Qılçılar yaral, həgbə, çul və s. üçün iplik yapırdılar.
yaramaz – dəcəl
yarın – sabah. – Yarın gəlin, mən sizə fikrimi deyərəm.
yarın-birgun – yaxın gələcəkdə
yarköki//yərkökü (Kif.) //yerkökü (Daq., Tuz.) – yerkökü
yas (Tel.) – bax: təziyə
yasağ – qadağan, yasaq
yasanağlığ – ağı deyən qadına verilən pul. – Yasın üçüncü və ya yeddinci gününə qədər sazayan qadına ölənin yaxınları bir miqdar para verər, buna yasanağlığ deyilir.
yası – 1. toran vaxtı; 2. şam namazı. – Yası namazına qədər sağduçları ilə bağça-bağda gəzər, bir yerdə vaxt keçirərlərdi.
yaş baqqal – təzə tərəvəz, meyvə və s. satan
yaşama – 1. həyat; 2. dolanacaq, güzəran
yatağ – 1. yorğan-döşək; 2. heyvanlar üçün yataq.
yavağ // yanağ – yanaq
yavuğ – yaxın. – Uçurtdum qara tavuq, Qondu Ərbilə yavuq.

yavuz – dəliqanlı. – Yavuz ata minənin qanı ovcundadı.

yayan – 1. piyada; 2. yuxa yayan, ayaqlı

yayxanmağ – sallana-sallana yerimək

yaz – yay. – Yüz il yaz,
Yüz il bahar, yüz il yaz.

yazı – 1. çöl, bayır; 2. kənar; 3. alın yazısı; 4. yazmaq. – Əlin qələm tutanda, Mən bəxti qaranı yaz. (yazmaq); Ədəb əqlin yazıdan görünüşüdü. (kənar); İçimiz bizi, yazımız xaxı yandırır (çöl, bayır).

yazı sonası – çöl ördəyi. – Gölə yalqız gəlibsən, Hanı yoldaşın, sona?

yazma – qadın baş örtüyü. – Başında yazma yarım, Gəl sidqin pozma yarım.

yazlığ – yay paltarı

yelləpə // yelləpəpə (K.) – kəpənək

yem borusı – əsgərləri yeməyə çağırmaq üçün istifadə olunan şeypur

yemind – and. – Çanuva yemind olsun.

yengi – yeni, təzə. – Qaşları yengi doğmuş aya bənzər.

yengi dunya – malta qavalısı

yengibaşdan – yenidən. – Xudama çox yalvarram, Ömrün yazsın yenqişdən.

yenqiştən – bax: yengibaşdan

yeri ləqqolmağ – yeri laxlamaq (vəzifə və s.)

yerişməğ – yetişmək

yerpizə//yerpərə (Tel.) – yelpik

yesir – nökər, xidmətçi (qadın). – Əskidən bizdə səyiz, xizməkar, xizmətçi də, yesir də derix ona, olardı

yeşil soğan – göy soğan

yetgili – çavabdeh, səlahiyyətli. – Yolun neçə para olaçağına yetgili kimsə qız nənəsidir.

yetik olmağ – inanmaq. – Sirrinə yetik olmadığın dost dost deyil.

yetim – ana və ya atadan yetim qalan uşaq

yetməğ – çatmaq

yev (Av., Bast., Çar.) – bax: ev

yez – 1. mis; 2. qəlp. – Altunuvuz yez olsun, kətanuvuz bez olsun.

yəxəməğ//yumağ (Tel.) – yumaq. – Arvad kürkümü yəxiyib.

yəxənməğ // çimməğ – çimmək

yəməni – kəndlilərin geydikləri ayaqqabı

yəvəl – yetişmiş, dəymiş, qızarmış (meyvə) və s.

yığlamağ // yiğləməğ – ağlamaq. – Yetimin səsi gəlməz, Yığlar nəfəsi gəlməz.

yıldırım // yuldırım (T.X.) // ildırım (Tel.) – ildırım

yılğın – yulğun

yımırta doğmağ – yumurtlamaq

yıpraşmağ – yaşıllaşmaq

yırğat – muzdur, günəmuzd fəhlə

yoğurt – qatıq. –Hamilə qadın balıq ilə yoğurd yeyərsə, dünyaya gələn uşağı alaca tutacağına inanırlarmış.

yoqış // pasar (Tel.) – yoxuş

yol // yol parası – 1. yol; 2. qız üçün alınan başlıq, süd haqqı. – Səhəri gün iki tərəfin qadınları yığılırlar, «yol» üçün görüşürlər.

yol-yol – zolaqlı, zolaq-zolaq

yolçu – 1. qonaq; 2. piyada. – Evin bağçasında sərçələr civildəşirlərsə, o evə yolçu gələcəyinə inanırlar.

yonaçaq – heyvanın dırnağını yonmaq üçün alət. – Nalbənd hacətləri: kalbatin, nalalma, yonacaq və s-dir.

yuxa yayan – bax: yayan

yuxu (Kif.) – bax: diş

yuxusu çürümək – yuxusu qaçmaq. – Yat yuxun çürüməsin, Mənəm səni oyadan.

yulduz // yuldız (Xan.) – ulduz

yumağ (Tel.) – bax: yəxəməğ

yurdu kor (Tel.) – oğul övladı olmayan kişi

yuvuntı – sabunlu çirk su, yuyuntu

yüng // yün (Ər.) // yung (Xan.) – yun

üng (A.K., Tuz) – bax: yung

yücə – uca

- Z -

zağ – qarğa. – Arzını bəzədəni, Qərə girsin zağ kimin.

zağal//zəğəl – cığal. – Tanrı zağala verməz.

zağıt//zağt – qan təzyiqi

zaqraq – gözünü çəkmədən bir-birinə baxmaq

zalxım – salxım. – Baba oğluna bağ bağışlar, oğul babasına bir zalxın verməz.

zampara – şorgöz, avara, qızbaz, söz-atan. – Zamparalığı var, İstər olsun hamıya yar.

zambil (Ər.) – əlləqə

zatən – əslində

zavana – acıtəhər, acısov

zeyistan // zestan (Ər.) – zahı qadın

zəhyə (Kif.) – bax: dəhyə

zəxirə//zaxra (Tuz.) – azuqə, ərzaq

zəxrəfə – naxış

zəqnabut – 1. zəhər; 2. oleandr

zəncər – vəl. – Zəncər özü bir taxtadı, altında pıçaxları var.

zəndiq//zindıq (ə.) – 1. zalım; 2. kafir, dönük

zənzələ//zəlzələ (ə.) – zəlzələ

zərzəmi – zirzəmi

zıxtalamağ – yırğalamaq, çalxalamaq

zılq // zılx (Tel.) // – çuğundur. – Üç il sora orada

zılıq (Ər.) zılx, şalğam əkərix.

zımra anka – simurğ quşu

zımrıq – neştər (əqrəb, arı və s. neştə-ri), iynə

zıncar (ə.) – pas

zıncar bağlamağ – pas bağlamaq

zınıq – iylənmiş yumurta, balıq və s. qoxusu

zır dəlli – zır dəli, büsbütün dəli, zırrama

zırnapa – tütək, ney

zırpıldamağ – yıxılmaq. Molla dalı kəsdiyiydən zırpıldar aşağıya

zıryə//zireh – Zireh (Keçmişdə oxdan, qılıncdan qorunmaq üçün döyüşçülər geyərdilər)

zırzop qirməğ – icazəsiz girmək. İzin almadan, düşünmədən zırzop içəriyə girdi.

zifir // zıfır (Tel.) – iyli yağ bulaşığı, yağlıqara

zifləməğ – cığallıq etmək (oyunda)

zil – zəng

zillə – şillə//sillə

ziyləməğ //ziyildəməğ – inləmək, sızıldamaq, ziyildəmək. Mən özüm ziyləmirəm. Dərd dərdə dəyər ziylər.

zoqıldamağ – 1. titrəmək, əsmək; 2. ağrıdan ziqqıldamaq

zor tutmaq – sümüyünə düşmək, çox xoşuna gəlmək

zraət (ə.) – əkin, kənd təsərrüfatı. – Bunların da bir qismin qullanıx zraət işində.

zraət mühəndisi – aqronom

zubun – kişi paltarı (kəndlərdə geyillər)

zulumbat – zülmət

zulumbatxana – zülmətxana

zumra anka// – simurğ quşu

zumbur anka (Tuz.)

zuvan – başaq

zügürti // zügürtü // – subay, subaylıq həyatı sürən

zügürt (Tel.) kimsə

zürbi//zürbü – bir dəstə, bir yığın (adam)

MÜƏLLİF HAQQINDA

Paşayev Qəzənfər Məhəmməd oğlu – ədəbiyyatşünas, publisist, dilçi, folklorşünas və tərcüməçi, filologiya elmləri doktoru (1993), professor (1995) 27 avqust 1937-ci ildə Tovuz rayonunun Düzqırıqlı kəndində anadan olmuşdur. Orta təhsili Düzqırıqlı kəndində alıb (1946–1956). Azərbaycan Dillər İnstitutunun İngilis-Azərbaycan dilləri fakültəsini bitirmişdir (1962). İxtisası İngilis və Azərbaycan dilləri müəllimidir. 1989-cu ildən Yazıçılar Birliyinin üzvüdür. Fəaliyyətə Əli Bayramlı rayonunun Vladimirovka kəndində ingilis dili müəllimi kimi başlamış (sentyabr-noyabr, 1962-ci il), sonra isə İraqda ingilis və rus dilləri üzrə tərcüməçi işləmişdir.

1964–1989-cu illərdə Azərbaycan Pedaqoji Dillər İnstitutunda (1973-cü ildən M.F.Axundov adına APİ) fəaliyyət göstərmiş, institutun İngilis dili fakültəsində dosent, dekan müavini (1970–1971), Xarici dillər kafedrasının müdiri (1972–1989) olmuşdur. 1989–1999-cu illərdə ADU-nun Qərbi Avropa dilləri kafedrasında çalışmışdır.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində «Beynəlxalq əlaqələr» şöbəsinin müdiri olmuş (2001–2005), eyni zamanda 2003-cü ildən Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçidir.

Rəsmi nümayəndə heyəti tərkibində Füzulinin anadan olmasının 500 illik yubileyi münasibətilə İraqda (sentyabr, 1994) və Türkiyədə (noyabr, 1994), Azərbaycan mədəniyyəti günlərində Səudiyyə Ərəbistanında (noyabr, 2007) və İ.Nəsimi ilə bağlı Beynəlxalq konfransda Suriyada (noyabr, 2008) olub.

İctimai işlərdə fəal iştirak etmişdir: Ali Təhsil Nazirliyinin nəzdində Qərbi Avropa dilləri üzrə Elmi-Metodik Şuranın Elmi katibi (1976–1982), Azərbaycan–İraq Dostluq Cə-

miyyətinin sədr müavini olmuş (1990–2003), 1995-ci ildən Nizami adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən Müdafiə Şurasının üzvüdür. 1997–2006-cı illər arası və 2011-ci ildən yenidən həmin şuranın həmsədridir. Qafqaz Müsəlmanları İdarəsinin nəzdində fəaliyyət göstərən Elmi-Dini Şuranın yarandığı 1997-ci ildən bu günə kimi onun üzvüdür. 2004-cü ildən Yazıçılar Birliyinin Təftiş Komissiyasının sədridir.

Bir çox xarici ölkələrdə: ABŞ (iyun-avqust, 1983) və İngiltərədə (iyun-iyul, 1988) ixtisasartırma kurslarında olub. İraq Respublikasında tərcüməçi işləyib (1962–1966, 1972–1975). Türkiyə, Səudiyyə Ərəbistanı, Suriya və keçmiş Sovetlər Birliyi ölkələrindən Rusiya Federasiyasında, Özbəkistan və Qazaxıstanda elmi konfranslarda məruzə edib. Turist kimi Yunanıstan, İordaniya, Çexoslovakiya, Avstriya, Almaniya, Misir, Ərəb əmirlikləri və İranda olub.

İraq Respublikasının «Əməkdə fərqlənməyə görə» medalı ilə təltif edilib (1976).

SSRİ Nazirlər Sovetinin, SSRİ Ali Təhsil Nazirliyinin, Azərbaycan Ali Təhsil Nazirliyinin Fəxri fərmanları ilə təltif olunub. Eləcə də Kərkük Vəqfinin (1999) və İraq–Türkman Cəbhəsinin (2003) yüksək diplom və ödüllərinə layiq görülüb.

Bir çox doktorluq və namizədlik dissertasiyaları üzrə opponent, eləcə də kitabların redaktoru olub. Aspirantlara rəhbərlik edib. ABŞ, Türkiyə və İraqda ingilis, türk və ərəb dil- lərində, məqalələri dərc edilib. «Ədəbiyyat» və «Kredo» qəzetlərinin, «Folklor və etnoqrafiya», «Filologiya məsələləri» və «Kəlam» dərgilərinin redaksiya heyətinin üzvüdür.

Yaradıcılığına xaricdə və Azərbaycanda bir çox görkəmli alimlər, yazıçı, şair və publisistlər məqalələr həsr ediblər.

Müəllifin özü görkəmli Azərbaycan, türk, İraq, fransız, ingilis və amerikan yazıçı və şairlərinə, elm adamlarına çoxsaylı məqalələr həsr etmişdir. Maraq doğuran cəhət bir də ondan ibarətdir ki, bu məqalələr Azərbaycan, türk, ingilis, ərəb, rus dillərində Azərbaycan, Türkiyə, İraq və ABŞ-da çap olunmuşdur.

Müəllifin çap olunmuş əsərləri

1. Rusca-ərəbcə danışıq kitabı. Bağdad, 1974, 98 səh., 3.000 nüsxə.

2. İngiltərə haqqında (ingiliscə Ölkəşünaslıq fənni üzrə dərs vəsaiti). Bakı, APİ nəşr, 1982, 128 səh., 1.500 nüsxə.

3. Altı il Dəclə-Fərat sahillərində. Bakı, «Yazıçı» nəşr, 1985, 224 səh., 10.000 nüsxə, təkrar nəşr 1987, 230 səh., 120.000 nüsxə. Altı il Dəclə-Fərat sahillərində (ərəbcə), Bağdad, 1996, 128 səh.

4. İraq–Türkman folkloru (monoqrafiya). Bakı, «Yazıçı», 1992, 216 səh., 5000 nüsxə. İraq–Türkman folkloru. Bağdad, 1995, 160 səh.

5. Kərkük dialektinin fonetikası (monoqrafiya). Bakı, «Elm», 2003, 212 səh., 500 nüsxə.

6. İraq–Türkman folklorunun janrlar sistemi. (Rusca monoqrafiya) Bakı nəşr, 2003, 128 səh., 500 nüsxə.

7. Kərkük folklorunun janrları (monoqrafiya). Bakı, «Elm», 2003, 318 səh., 500 nüsxə. İraq–Türkman folkloru. İstanbul, 1998, 320 səh., 3000 nüsxə. İraq–Türkman folklorunun janrları. Tehran, 2008, 313 səh., 3000 nüsxə.

8. İraq–Türkman ləhcəsi. Monoqrafiya (ortaqlı), Bakı, «Elm», 2004, 422 səh., 500 nüsxə.

9. Nostradamusun möcüzəli aləmi. Bakı, «Təhsil», 2007, 760 səh., 3000 nüsxə, təkrar nəşr, 2011, 3.000 nüsxə.

10. Nəsimi haqqında araşdırmalar (monoqrafiya). Bakı, «Qarabağ» nəşr, 2010, 168 səh., 400 nüsxə. Nəsimi haqqında araşdırmalar. Tehran, «ALP» yayın, 2011, 168 səh., 300 nüsxə.

11. Ədəbiyyatşünaslıq elmimizin patriarxı. Bakı, «Ozan», 2010, 104 səh., 250 nüsxə.

12. Borcumuzdur bu ehtiram. Bakı, «Ozan», 2010, 200 səh., 300 nüsxə, təkmilləşdirilmiş 2-ci nəşri, 2010, 240 səh. 300 nüsxə.

13. Dilimiz – varlığımız. Bakı, «Ozan», 2011, 208 səh., 250 nüsxə.

Müəllifin tərtib etdiyi kitabların göstəricisi

1. «Kərkük bayatıları». Bakı, «Azərnəşr», 1968, (Rəsul Rza ilə birgə), 184 s., 18.000 nüsxə.

2. «Arzu-Qənbər dastanı». Bakı, «Gənclik», 1971, 32 s., 5.000 nüsxə.

3. Kərkük mahnıları. Bakı, «Gənclik», 1973, 48 s., 10.000 nüsxə.

4. İraq-Kərkük atalar sözləri. Bakı, «Azərnəşr», 1978, 76 s., 25.000 nüsxə.

5. İraq-Kərkük bayatıları. Bakı, «Yazıçı», 1984, 352 s., 30.000 nüsxə.

6. Kərkük tapmacaları. Bakı, «Gənclik», 1984, 38 s., 5.000 nüsxə.

7. Nəsiminin İraq Divanı. Bakı, «Yazıçı», 1987, 337 s., 15.000 nüsxə.

8. Kərkük folkloru antologiyası. Bakı, «Azərnəşr», 368 s., 40.000 nüsxə, təkrar nəşr, 1990, 368 s., 40.000 nüsxə.

9. Göylər unutmuşdu yağacağını (Ə.Bəndəroğlunun şeirləri və poemaları). Bakı, «Yazıçı», 1991, 126 s., 5.000 nüsxə.

10. Azərbaycan folkloru antologiyası. İraq–Türkman cildi (Ə.Bəndəroğlu ilə birgə), Bakı, «Ağrıdağ», 1999, 468 s., 1.000 nüsxə, təkrar nəşr, «Nurlan», 2009, 436 səh., 500 nüsxə.

11. Çağdaş İraq şeirindən seçmələr. Bakı, «Elm», 2001 (Ə.Bəndəroğlu ilə birgə) 108 s., 500 nüsxə.

12. Yolun sonunadək (Ə.Bəndəroğlunun şeirlər toplusu), Bakı, «Elm», 2001, 62 s., 300 nüsxə.

13. Hüseyn Arif –80. Portret kitab. Bakınəşr, 2004, 64 s., 400 nüsxə. (Gülzar İbrahim qızı ilə birgə)

14. İsi Məlikzadə–70. Portret kitab. Bakınəşr, 2004, 32 s., 150 nüsxə. (Gülzar İbrahim qızı ilə birgə)

15. Tofiq Bayram–70. Portret kitab. Bakınəşr, 2005, 72 s., 150 nüsxə. (Gülzar İbrahim qızı ilə birgə)

16. Əlibala Hacızadə–70. Portret kitab. Bakınəşr, 2005, 72 s., 400 nüsxə. (Gülzar İbrahim qızı ilə birgə)

17. Fikrət Qoca–70. Portret kitab. Bakınəşr, 2005, 82 s., 300 nüsxə. (Gülzar İbrahim qızı ilə birgə)

18. Bəkir Nəbiyev–75. Portret kitab. Bakınəşr, 2005, 68 s., 400 nüsxə. (Gülzar İbrahim qızı ilə birgə)

19. Ağlayan çox, gülən hanı? (Rəsul Rzanın şeirlər toplusu), Kərkük, «Arabka» basım evi, 2007, 182 s., 500 nüsxə.

20. «Mahmud və Məryəm». Sənət dünyası adlı məqaləsində (Elçinin romanı), Kərkük, «Yurd» yayımlarından, 2007, 215 s., 500 nüsxə. (Ə.Bəndəroğlu ilə birgə)

21. Qoca Azaflıyam (Azaflı Mikayılın şeirlər toplusu). Bakı, «Nurlan», 2008, 760 s., 1000 nüsxə (Maral Azaflı ilə birgə), təkrar nəşr, 2011, 500 nüsxə

Tərcümələri

1. Aleksandr Düma. Qafqaz səfəri (ingilis və fransız dillərindən tərcümə. Bakı, «Yazıçı», 1985, 140 s., 40.000 nüsxə (Həmid Abbasovla birgə)

2. Sula Benet. Necə yaşayasan yüzü haqlayasan. Bakı, «Yazıçı», 1989, 212 s., 25.000 nüsxə (ingilis dilindən tərcümə)

3. Aqata Kristi. Mavi qatarın sirri. Bakı, «Sabah» nəşriyyatı, 1995, 248 s., 2.500 nüsxə (ingilis dilindən tərcümə)

4. Prof. İrəc Parsinecad. M.F.Axundzadənin ədəbi-tənqidi. (İngilis dilindən tərcümə). «Ədəbiyyat qəzeti», 23.12.1994, 6.01.1995, 13.01.1995

Müəllif haqqında əsərlər

Q.Paşayevin həyat və fəaliyyətindən bəhs edən «Bu sevda ölüncədi» (Bakı, «Oskar», 2001, 1000 nüsxə), «İraq bizə iraq deyil» (Bakınəşr, 2002, 64 s., 1000 nüsxə) kitabları, Hüseyn Kürdoğlunun «Tovuzum mənim, oğuzum mənim» (Bakı, «Elm», 1998, 108 s., 1000 nüsxə) poeması çap olunmuşdur.

PROFESSOR QƏZƏNFƏR PAŞAYEVİN ÇAP ETDİRDİYİ ƏSƏRLƏRİN ÜZ QABIĞI TARİXİ ARDICILLIQLA TƏQDİM OLUNUR





Керкук
әйтмәләре

Сөзбә-Гәмбәр

Керкук маһнылары


РАЗГОВОРНИК
РУССКО
АРАБСКИЙ

ИРАГ-
КӘРКҮК
АТАЛАР
СҮЗЛӘРИ

Gazanfar Pashayev
ALL ABOUT
ENGLAND

КӨРКҮК ТАПМАЧАЛАРЫ

ЦРАГ-
КӘРКҮК
БАЈАТЫЛАРЫ

АЛЕКСАНДР ДУМА
Гафгаз
сәфәри

Имадəддин
НƏСИМИ
Ираг диваны

Кəркүк
фолклору
антолокијасы

Сулə Бəнөкəй
Нечə јашајасан
јүзү һаглајасан

КӨЛЛӘР
УНУТМУШДУ
ЈАГАҶАГЫНЫ
ӘБДУЛЛӘТИФ
БӘНДӘРОГЛУ


ГӘЗӘНФӘР
ПАШАЈЕВ
ИРАГ-ТҮРКМАН
ФОЛКЛОРУ

عراق
تورکمان
فولکلورو
پروفیسور دوکتور
غضنفر پاشایف
حاضرلایان وئون سوز
دوکتور عبد النطیف بندر اوغلو

Агата
Кристи
МАВИ
ГАТАРЫН
СИРРИ

من أدب الرحلات
ست سنوات
على ضفاف دجلة والفرات
البروفيسور غضنفر پاشايف
ترجمة
الدكتور عبداللطيف بندر اوغلو

Prof. Dr.
Gazenfer
Paşayev
IRAK
TÜRKMEN
FOLKLORU
Kerkük Vakfı

Азәрбајҹан
ФОЛКЛОРУ
АНТОЛОКИЈАСЫ
II
ИРАГ – ТҮРКМАН
ЧИЛДИ
БАКЫ – 1999


ÇAĞDAŞ
İRAQ
ŞERİNDƏN
SEÇMƏLƏR


Bu sevda
ölüncədi

ГАЗАНФАР ПАШАЕВ
ЖАНРОВЫЙ
СОСТАВ
ИРАКСКО -
ТЮРКМАНСКОГО
ФОЛЬКЛОРА

Qəzənfər
PAŞAYEV
KƏRKÜK
FOLKLORUNUN
JANRLARI

QƏZƏNFƏR PAŞAYEV
KƏRKÜK
DİALEKTİNİN
FONETİKASI

İRAQ-TÜRKMƏN
LƏHCƏSİ


HÜSEYN
ARİF
80


İSİ MƏLİKZADƏ
70


AKADEMİK
BƏKİR
NƏBİYEV
75


TOFİQ
BAYRAM
70


FİKRƏT QOCA
70
AYB


ƏLİBALA
HACIZADƏ
70
AMEA


QƏZƏNFƏR
PAŞAYEV
NOSTRADAMUSUN
MÖCÜZƏLİ
ALƏMİ

QOCA AZAFLIYAM...


RƏSUL RZA
AĞLAYAN ÇOX,
GÜLƏN HANI?

MAHMUT
VƏ
MƏRYƏM
ELÇİN
Yurt
Dərgisi yayınlarından


Qəzənfər
PAŞAYEV
KƏRKÜK
FOLKLORUNUN
JANRLARI
Tehran 2008


Qəzənfər
Paşayev
Nəsimi
haqqında
araşdırmalar

Qəzənfər Paşayev
Borcumuzdur
bu ehtiram


QƏZƏNFƏR
PAŞAYEV
ƏDƏBİYYATŞÜNASLIQ
ELMİMİZİN PATRİARXI

Qəzənfər Paşayev
DİLİMİZ -
VARLIĞIMIZ

MÜNDƏRİCAT

Azərbaycan kərkükşünaslığının banisi 9

I FƏSİL

DİLİMİZ–VARLIĞIMIZ

«Kitabi-Dədə Qorqud», İraq–türkman
ləhcəsi və ədəbi dilimiz.....25
Azərbaycan dilinin qərib dialektləri.....35
ABŞ-da Azərbaycan dilinə dair araşdırmalar 39
İraq–türkman tarixinə və dialektinə bir baxış.....46

II FƏSİL

QÜRUR DUYDUĞUM TARİXİ ŞƏXSİYYƏTLƏR

M.Kazımbəyin görkəmli şəxsiyyət
kimi yetişməsində dillərin əhəmiyyəti.....69
M.F.Axundovun həyatında dillərin rolu.....72
Türkologiya elmimizin patriarxı 77

III FƏSİL

ÇAĞDAŞ DİLÇİLƏRİMİZİN YARADICILIĞINDAN ETÜDLƏR

Türkologiya elmimizin iftixarı 86
Çoxşaxəli yaradıcılıq yolu.....95
Gələcək nəsillərə yadigar.....102
Tarixdə qalacaq abidə bir əsər 106
Tanınmış pedaqoq və alimin uğurları 111

IV FƏSİL

İNGİLİS DİLİNİN TƏDRİSİ PROBLEMLƏRİ

Xarici dil və ölkəşünaslıq 118
İngilis dilində dərslik.....121
Xarici dillərin tədrisində ölkəşünaslıq
elementlərindən istifadəyə dair.....124
Müəllif haqqında 130
Müəllifin monoqrafik tədqiqatları 136
Qaynaqlar.....136

KÖNÜLDƏN-KÖNÜLƏ YOLLAR GÖRÜNÜR...

Könüldən-könülə yollar görünür... 143

İraq azəriləri 145
«Kərkük bayatıları» kitabına son söz 153
Kərkük azəriləri 160
Dostluğa həsr olunmuş ömür 166
İraq bizə iraq deyil 169
Dəclə–Fərat sahillərində 172
«Kərkük atalar sözü» kitabına ön söz 177
Bağdad səfəri 178
İran körfəzi məsələsinin kökü və məğzi 184
Füzulinin məzarı haqqında şayiə və həqiqət 190
Nisgilimiz, nigarançılığımız 193
Şairin məzarı ilə bağlı həqiqətlər və şayiələr 196
İraq–Azərbaycan ədəbi əlaqələrinə bir baxış 199
Nəğmələr qəlbə axır 202
Folklorumuzun qüdrətli qolu 207
Bağdaddan yeni töhfə ilə 239
İraq bizə iraq deyil 243
İraqlı şəhidlərin qanı torpağımızda nahaq axmayıb 244
Folklorumuzun öyrənilməsi 247
Həsrət–vüsal yollarında 252
Kərkük tapmacaları haqqında 257
Kərkük lətifələri 262
«Az getdim, üz getdim...» 264
Qan və qələm qardaşımız 266
Döyüşkən poeziya 271
Azerbaycandan gelen dost sesi 274

KƏRKÜK DİALEKTİNİN FONETİKASI

Bir neçə söz 280
Material toplanılmış şəhər, qəsəbə, rayon və kənd adlarının ixtisarı 282
Qısaltmalar 282
Transkripsiya 283
Kərkük dialektinin fonetikası 284

I FƏSİL

Saitlər və onların variantları 284
Uzun saitlər 284
Qısa saitlər 288

Diftonqlar 290
Saitlərin əvəzlənməsi 293
Ahəng qanunu 300
Saitlərin artımı 304
Saitlərin düşümü 307
Heca artımı və heca düşümü 309

II FƏSİL

Samitlər 312
Samitlərin İraq–türkman ləhcəsində müşahidə edilən variantları haqqında 313
Samitlərin əvəzlənməsi 318
Samitlərin artımı 336
Samitlərin düşümü 340

III FƏSİL

Fonetik hadisələr 345
Assimilyasiya 345
Dissimilyasiya 351
Yerdəyişmə 351
Yanaşı yerdəyişmə 351
Yanaşı olmayan yerdəyişmə 355
Söz kökündə samitlərin qoşalaşması 357
Vurğu 361
Mətnlər 365
Mənim ömrüm nalımın içində yazılıpdı 365
Olar əkdi, biz yedıx 366
Yola nərdivan atağ 367
Toy adətlərindən 370
Qərəclər 373
Otraxçılıx 374
Söhbət 374
«Molla Nəsrəddin»in lətifələrindən 378
Tapmacalar 380
Bəddualar 382
Yemindlər 382
Salamlar 383
Atalar sözləri 383
Bayatılar 385
Sazlamalar 390
Lüğət 426

Qəzənfər Paşayev
SEÇİLMİŞ ƏSƏRLƏRİ
II CİLD
Bakı, «Təhsil», 2012.

Bədii və texniki redaktoru: ***Abdulla Ələkbərov***
Kompyuter tərtibatçıları: ***Quluzadə Səadət, Aqil Əmrahov***
Korrektoru: ***Natəvan Məmmədova***

Çapa imzalanmışdır 25.01.2012. Kağız formatı 60x90$^{1}/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi 33,5. Sifariş 120. Tiraj 300.

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 121^{A}
Tel.:(+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: info@tahsilnp.com